Ҹәмил Һәсәнли

# Ҹәнуби Азәрбајҹан:

## Теһран-Бакы-Москва арасында (1939-1945)

**CƏMİL HƏSƏNLİ**

# Güney Azərbaycan:

# Tehran - Bakı - Moskva arasında

**(1939-1945)**

**«Diplomat» nəşriyyatı**

**Bakı 1998**

ADK-98
GA - 057

Elmi redaktor:
Tarix elmləri doktoru, professor
Şövkət xanım Tağıyeva

Nəşriyyat redaktoru: Nahid Hacızadə

Rəyçilər: Tarix elmləri doktoru,
professor Seyidağa Onullahi
Tarix elmləri doktoru,
professor Eldar İsmayılov

Həsənli C.P.Güney Azərbaycan:
Tehran-Bakı-Moskva arasında (1939-1945).
Bakı, "Diplomat" nəşriyyatı, 1998, 324 səh.

Zəngin tarixi faktlar, materiallar əsasında yazılmış bu samballı tədqiqat əsərində Güney Azərbaycan azadlıq hərəkatı ardıcıllıqla izlənmiş, 1939-1945-ci illərdə baş vermiş hadisələr hərtərəfli surətdə araşdırılmışdır. Sovet İttifaqının və bir sıra başqa böyük dövlətlərin müdaxiləsinə baxmayaraq, Təbrizdə geniş vüsət alan milli-azadlıq hərəkatı kitabın ayrı-ayrı fəsillərində bütün dolğunluğu ilə öz əksini tapmışdır. İlk dəfə işıq üzü görən, açıqlanan arxiv sənədləri əsasında Tehran, Moskva, London və Vaşinqtonun Güney Azərbaycandakı siyasəti, Sovet Azərbaycanının bu prosesdəki iştirakı ətraflı öyrənilmişdir. İnanırıq ki, yüksək elmi dəyəri, sambalı ilə seçilən bu əsər mütəxəssislərin, geniş oxucu dairəsinin diqqətindən kənarda qalmayacaqdır.

ADK - 98
GA - 057

@C "Diplomat" 1998

АЗӘРБАЈҸАН ХАЛГ ҸУМҺУРИЈЈӘТИ

80

# ÖN SÖZ

İkinci cahan müharibəsi artıq arxada qalmışdı. Müttəfiqlərlə birlikdə faşist Almaniyası üzərində qələbə nəticəsində yüksək siyasi nüfuz qazanmaqla Sovetlər Birliyinə və ordusuna «xilaskar», özünə isə «xalqlar atası» imicini yaraşdırmış olan İosif Stalin Xalq Komissarları Sovetinin sədri Vyaçeslav Molotovla İttifaqın müharibədən az sonra tərtib edilmiş yeni xəritəsi önündə durmuşlar. Stalin çox razı görünür. Ona görə ki, o, «bölünmüş xalqlar və ərazilər» problemindən istifadə edərək İttifaqın sərhədləri boyunca bir çox xalqların ayrı-ayrı dövlətlər tərkibində qalmış ərazilərini və digər mübahisəli torpaqları Sovet imperiyasının tərkibinə qata bilmişdir. Eyni zamanda 1944-cü ildə uyqurların birləşdirilməsi əsasında 1948-ci ilədək mövcud olmuş Şərqi Türküstan Respublikası yaradılmışdı. Stalin öz razılığını Molotovla belə bölüşmüşdü: «indi bizdə beloruslar hamısı birlikdə yaşayır, ukraynalılar bir yerdədir, moldovlar bir yerdədir. Qərbdə vəziyyət normaldır ... Kuril adaları indi bizimdir, Saxalin tamamilə bizimdir, baxın, nə yaxşıdır! Həm Port-Artur, həm Dalniy bizimdir... Çin, Monqolstan - hamısı öz qaydasındadır.» (Sto sorok besed s Molotovım. İz dnevnika F.Çueva, Moskva, 1991, s.14.) Sovet dövlətinin istilaçı planlarının ilk öncə diplomatik kanallarla hazırlanmasında Stalinin sağ əli müharibə dövründə Xarici İşlər komissarı olmuş Molotov idi. Molotov sonralar bu barədə xatırlayırdı: «Mən Xarici İşlər naziri kimi öz vəzifəmi Vətənimizin sərhədlərini mümkün qədər çox genişləndirməkdə görürdüm. Mənə elə gəlir ki, biz Stalinlə bu vəzifənin öhdəsindən heç də pis gəlmədik.» (Sto sorok besed s Molotovım, s.14) Lakin dünyanın altıda birinə sahib olan Sovet dövlətinin başçısına bunlar azlıq edirdi və o, söhbətinin sonunda öz qayğısını Molotova belə izah edərək: «Bax, burada bizim sərhədlərimiz mənim xoşuma

gəlmir» demiş və əli ilə Qafqazdan cənubu göstərmişdir. Aydındır ki, burada Türkiyə və İranla sərhədlərə işarə edilmişdir. Həqiqətən də 1946-cı il mart ayının əvvəllərində Moskva üç Zaqafqaziya respublikası adından Türkiyənin şərq bölkələrinə olan iddiasına uğursuz təşəbbüs göstərmişdir. Digər qonşu dövlətə isə bu bölkədə iddialar təbii ki, vahid Azərbaycan kartına söykənməklə ölkəmizin İranın tərkibindəki daha böyük hissəsi olan Güney Azərbaycan torpaqlarına edilə bilərdi. Və tam əminliklə deyə bilərik ki, Stalinin siyasətində Güney Azərbaycanın Sovet Azərbaycanına birləşdirilməsi ilə bağlı xüsusi planlar mövcud idi.

Sovet dövlətinin, şəxsən Stalinin Güney Azərbaycan siyasətinin və bunun arxasında duran Bütöv Azərbaycan probleminə öz işğalçı mövqelərindən münasibətinin geniş planda açıqlanmasına böyük ehtiyac var. İkinci Dünya müharibəsi ərəfəsində və dövründə, eləcə də sonrakı Milli hökumət zamanı Güneydəki hadisələrin ardıcıl izlənilməsi, bunların konkret sənəddər əsasında açıqlanması, bir sözlə problemin həlli üçün bu vaxtadək keçmiş Sovet arxivlərində «məxfi», «tamamilə məxfi» qriflərlə saxlanılmış külli miqdarda sənədlərin üzə çıxarılması və geniş oxucu kütləsinin çatdırılması, ən başlıcası, hərəkət haqqında əsil həqiqətin yayılması işi bu vaxtadək həyata keçirilməmişdir. Bu ağır işi tarix elmləri doktoru, professor Cəmil Həsənli öz üzərinə götürmüşdür. Onun qeyd edilən istiqamətdə elmi axtarışlarının ilk mərhələsi oxucuların ixtiyarına verilən bu kitabda öz əksini tapmışdır.

Prof. C.Həsənlinin «Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945)» adı ilə təqdim etdiyi kitabda qarşıya qoyduğu məqsəd - Güneydəki hərəkat haqqında əsil həqiqətləri üzə çıxarmaq, o vaxtki hadisələri sənədlərin gözü ilə izləmək - çox dəyərli təşəbbüsdür.

Müəllifin başlıca olaraq Azərbaycan Respublikasının dövlət arxivlərindən əldə etdiyi və tarixşünaslığa ilk ədfə gətirdiyi sənədlər əsasında hazırladığı bu kitab hər şeydən əvvəl Güney Azərbaycan məsələsinin Sovet dövləti, xüsusilə də Stalin üçün nə qədər mühüm bir problem olduğunu, məsələnin dövlətin müharibə dövrindəki siyasətində tutduğu yeri əyani şəkildə göstərmişdir. Bu, sənədləri zərgər dəqiqliyi ilə izləmiş müəllifin şəksiz uğurudur.

Prof. C.Həsənlinin əsərinin daha böyük bir məziyyəti bundan ibarətdir ki, Sovetlərin büqün canfəşanlığına, Cənubdakı hərəkatı öz istədikləri məcraya yönəltmək cəhdlərinə baxmayaraq kitabda gətirilən sənədlər bir daha və əsaslı surətdə 1941-1946-cı illər hərəkatının Güney Azərbaycanın öz sosial-siyasi zəminində yarandığını sübut edir.

Sənədlər bunu da çox güclü şəkildə göstərir ki, hərəkatın əsas rəhbər qüvvələri, ilk növbədə Seyid Cəfər Pişəvəri yerli ziyalı kadrlar arasından seçilmiş və Azərbaycan Demokrat Partiyasının yaradılması və Milli hökumətin təşkili məhz ona, Pişəvəriyə tapşırılmış olsa da, o, sonadək öz müstəqilliyini qoruyub saxlaya bilmişdi.

S.C.Pişəvərinin səciyyəvi xüsusiyyətləri bütün əsər boyu müəllifin diqtət mərkəzində olmuşdur. Bu da görkəmli siyasi xadim kimi Pişəvərinin 1941-1946-cı illərdəki Azərbaycan milli-azadlıq hərəkatının yenilməz rəhbəri olduğunu təsdiq etmişdir. Bu cəhətdən müəllifin üzərində xüsusi dayandığı bir məsələ tarixşünaslığda tamamilə yeni və son dərəcə maraqlıdır. C.Həsənlinin araşdırmalarından aydın olur ki, S.C.Pişəvəri Sovet nümayəndələri ilə danışıqlarda müəyyən məsələlərdö öz fikirləri üzərində israr edirdi. O, «milli muxtariyyəti siyasi baxımdan perspektivsiz hesab edir» və bunun əvəzində hələ bu vaxtadək heç kəsin fikirləşmədiyi bir variant, yəni Monqolstan tipində və sonrakı mərhələdə Quzey Azərbaycanla birləşdirilə biləçək Azərbaycan Xalq

Demokratik Respublikası yaradılması haqqında fikirləşirdi.

Moskva ilə Təbriz arasındakı münasibətlərdə öyrənilən hadisələr dövründə Azərbaycan KP(b)MK birinci katibi olmuş Mir Cəfər Bağırovun rolu böyük idi. İran tarixşünaslığında öz təsdiqini tapmış bu məsələnin əsərdə xüsusi dəqiqliklə aşkarlanması təqdirə layiqdir. Sənədlərin açıqladıqı bir çox məsələlər kimi bu da çox cəlbedicidir ki, Bağırovun İrandakı komandası (Əziz Əliyev, Meybulla Əmiraslanov, həsən Həsənov və b.) Stalinin Azərbaycanla bağlı planlarına daha çox uyğun və daha etibarlı iş aparırdı, nəinki Moskvanın İrandakı diplomatları. Bu isə bir çox hallarda uyğunsuzluq və hətta qarşıdurma yaradırdı. Təəssüf ki, əsərdə bu vəziyyətin əsil səbəbi tam açılmayıb. Burada Stalinə son dərəcə sadiq olan Bağırovun şəxsi marağı da müəyyən rol oynaya bilərdi, beləki, zənnimcə, onun özünün də gələcəkdə daha böyük bir respublikanın başçısı olmaq həvəsinin olduğu ehtimal edilə bilərdi. Bu cəhət və ümumiyyətlə Stalinin İrandakı siyasətinin arxasında perspektivdə Güney və Quzey Azərbaycanın birləşdirilməsi planının durduğunu gözəl bilən Moskvadakı Anastas Mikoyan və Lavrenti Beriyanın şəxsindəki antiazərbaycan dəstənin varlığı və gizli fəaliyyəti nəzərə alınmalı idi.

Əsərdə bəzi məsələlərdə (bu sıradan ADP-nin adının seçilməsində ilk fikrin kimə mənsub olması, İttifaqın İrandakı siyasətində neft, yoxsa Güney Azərbaycan məsələsi «başlıca amil idi» kimi suallar) müəlliflə mübahisə də etmək olar. Lakin Güney problemi ilə bağlı gizli tarixi sənədlərin aşkarlanması işində yolun başlanğıcında olan müəllifin gələcək tədqiqatlarında hələ çox məsələlərin aydınlaşdırılmasına nail olaçağı şübhəsiz qarşıdadır.

Professor Cəmil Həsənlinin çapa hazırlanan bu kitabı Sovet dövlətinin, onun başçısı Stalinin İkinci Dünya müharibəsi dövründə İrandakı və başlıca olaraq Güney Azərbaycandakı siyasətinin bütün

incəlikləri ilə açılması və orada baş verən hadisələrin olduğu kimi göstərilməsi istiqamətində yazılmış ilk dolğun əsərdir. Biz Azərbaycan türkləri üçün bu əsərin başlıca qiyməti, zənnimcə, o cəhətindədir ki, - Cənubdakı hərəkatın Güney Azərbaycanın məhz öz tarixi sosial-siyasi və mədəni zəminində, ən başlıcası isə Azərbaycanın şimal ilə cənubu arasında o tarixi günlərdəki qarşılıqlı münasibətlərdə xalqımıza xas olan vahid Azərbaycançılıq ideyasının hakim olması fikrinin bütün əsər boyu izlənilməsindədir. Həm də bu həqiqətin açıqlanması təkcə müəllif təhkyəsi, fikirləri və gəldiyi nəticələrlə deyil, məhz sənədlərlə təsdiq edilməsindədir.

İndi isə, hörmətli oxucular, sizləri birnəfəsə oxuyacağınız (mən buna şübhə etmirəm) son dərəcə maraqlı, xalqımız üçün ibrət dərsləri verən, böyük zəhmət nəticəsində meydana gələn, elmi-publisistik səpkidə yazılmış bu əsərlə tanışlığa çağırıram.

**Şövkət Taqıyeva**
**tarix elmləri doktoru, professor**

# I. GİRİŞ

XX əsr sona çatmaqdadır. Bu yüzillikdə keçdiyimiz yolun bəzi həlledici məqamlarının araşdırılması son dərəcə vacibdir. Tarixi keçmişə münasibətdə müstəqil Azərbaycanın baxışlar sisteminin formalaşması totalitar ideolokiyanın ağır yügünü aradan qaldırmağın, saxta ideyalardan uzaqlaşmağın, xəstə təfəkkürün sağalmasının başlıca amilidir. Son iki əsrdə ilk dəfə olaraq şərait yaranıb ki, Azərbaycanın keçmiş tarixinə müstəqillik gözü ilə baxılsın. Onun həlledici dövrləri, mərhələləri, taleyüklü məsələləri müstəqal tarixi təfəkkürün süzgəcindən keçirilsin. Bu fikir eyni dərəcədə Güney Azərbaycan tarixinə də aiddir. Bizim üçün "Güney Azərbaycan tarixi" anlayışı XIX əsrin əvvəllərindən başlanır. Məhz bu vaxtdan xalq parçalanıb, tarix haçalanıb. XIX əsrin əvvəllərindəki Rusiya - Azərbaycan və Rusiya - İran müharibələrinin gedişində Azərbaycan iki hissəyə, Azərbaycan xalqı iki yerə parçalandı. İranda və son vaxtlar bir sıra xarici ölkələrdə yazılmış bəzi əsərlər istisna olmaqla Güney Azərbaycan tarixi, xüsusilə onun XX əsrdəki milli azadlıq hərəkatı tarixi bütövlükdə Quzey Azərbaycanda yazılmışdır. Ölkəmizdə tarixə müstəqal, obyektiv, totalitar ideoloji basqıdan azad baxışın olmaması Güney Azərbaycan tarixinə münasibətdə də ciddi problemlər yaratmışdır. Sovetlər Birliyinin kommunist totalitar ideologiyası üzərində qurulmuş tarixçilik imperializmi çox ciddi şəkildə Güney tarixinə də eksponsiya etmişdir. Başa çatan milliyətçilik əsrində Güney Azərbaycanın tarixi problemlərinə müstəqil və bütöv Azərbaycanın azad, obyektiv elmi baxışlarının formalaşdırılması, ümummilli tale baxımından yaşanmış siyasi proseslərin araşdırılması, XX əsr Azərbaycan milli mücadiləsinin və demokratik hərəkatının öyrənilməsi XXI əsrin astanasında son dərəcə zəruridir.

Sovetlər Birliyi artıq tarix səhnəsində yoxdur. Lakin onun keçdiyi yol, yaxın və uzaq xalqların taleyindəki neqativ rolu hələ uzun zaman araşdırma mövzusu olacaqdır. SSRİ qapalı cəmiyyət olduğundan, onun siyasətinin çoxlu qaranlıq tərəfləri indi aydınlaşmaqdadır. Müraciət etdiyimiz mövzu bu cəhətdən səciyyəvidir. 1939-1946-cı illərdə Güney Azərbaycanda nə baş vermişdir? Nə üçün İranın şimalı SSRİ - ABŞ - Böyük Britaniyanın qarşıdurma meydanına çevrilmişdir? Niyə böyük potensiala və geniş sosial bazaya malik Azərbaycan milli azadlıq idealları, muxtariyyət və müstəqillik arzuları yarımçıq qaldı? Bu və digər suallar artıq çoxdandır ki, cavabını gözləyir.

Sovetlər Birliyi zamanında hadisələr çox sadə, asan formada təqdim edilirdi. 1941-ci ildə SSRİ-nin təhlükəsizliyi və yerli əhaliyə "kömək göstərmək" məqsədilə Sovet qoşunları Güney Azərbaycana daxil oldu və beynəlxalq öhdəliklər uyğun olaraq 1946-cı ildə oradan çıxarıldı. Hadisələrə belə yanaşma tərzi ilə problem ümumdünya tarixi prosesindən təcrid edilmiş və Sovetlərin ideoloji inhisarına alınmışdı.

İkinci dünya müharibəsinin ilk günlərində SSRİ-nin eksponsionist meyllərinin güclənməsilə Qərbi Ukrayna və Qərbi Belorusiya məsələlərinin həll edilməsi, Sovetlərin Baltik ölkələrində möhkəmlənməsi Güney Azərbaycana böyük maraq doğurmuşdu. Hələ 30-cu illərin sonunda İranda və Güney Azərbaycandakı vəziyyət Sovet təhlükəsizlik, kəşfiyyat və hərbi xidmət idarələri tərəfindən diqtətlə öyrənilirdi. SSRİ-nin tərkibində olan Sovet Azərbaycanı və onun rəhbərləri bu məsələdə daha böyük maraq nümayiş etdirirdilər. 1941-ci ilin avqustunda Sovet qoşunları İrana daxil olduqdan iki həftə sonra qabaqcadan səfərbər edilmiş Azərbaycan SSR partiya, sovet, təsərrüfat, dövlət təhlükəsizliyi və daxili İşlər orqanlarının minə yaxın siyasi işçisi xüsusi tapşırıqla Güney Azərbaycana göndərildi. Sovet Azərbaycanı rəhbərlərinin və Təbrizə göndərilən siyasi işçilərin Güney Azərbaycandakı fəaliyyəti ilk növbədə

Sovet İttifaqının siyasətinin yerinə yetirilməsinə xidmət edirdi. Sovet totalitarizmi şəraitində Moskvadan fərqli siyasət yeritmək sadəcə olaraq qeyri-mümkün idi. M.C.Bağırov və onun komandasının Güneydəki milli hisslərin oyanışına və milli hərəkata təsir göstərən addımları Sovet rəhbərliyinin icazəsi və göstərişi ilə atılan addımlar idi. Bununla belə icazə verilmiş şəraitdə olsa da, Bakı rəhbərliyi və Quzeydən göndərilən işçilər Güney türklərinin azad olmasını, onların siyasi, milli, mədəni müstəqillik almasını, Azərbaycanın bütövləşməsini ürəkdən arzulayır və bu istiqamətdə faydalı iş aparırdılar. Bu dövrdə Azərbaycanın Sovet ziyalıları Güney tarixinin, mədəniyyətinin, ictimai fikrinin dirçəldilməsində, türk dili uğrunda, milli məktəb və mətbuat uğrunda mübarizədə səmərəli addımlar atdılar. Sovetlərin eksponsionist niyyətlərindən asılı olmayaraq bu mütərəqqi proses idi.

Sovetlərin Şimali İranda böyük iqtisadi marağı var idi. Rus alimləri hələ XX əsrin əvvəllərində İranın şimalında zəngin neft ehtiyatlarının olduğunu aşkarlamışdılar. Güney Azərbaycanda SSRİ-nin eksponsionist ideoloji maraqları onun iqtisadi maraqları ilə müəyyən olunurdu. Ölkənin cənubunda İngiltərənin böyük həcmdə neft çıxarması İrana münasibətdə Britaniyanın ənənəvi şəriki və daimi rəqibi olan Rusiyanı ciddi şəkildə narahat edirdi. 40-cı illərdə Sovetlər Yaxın və Orta Şərqin zənkin yanacaq və energetika mənbələrinə çıxmaq üçün yollar arayırdı. Sovetlərin axtardığı bu yol Güney Azərbaycandan keçirdi. Neft məsələsi SSRİ-nin Güney Azərbaycanda, ümumilikdə İranda siyasətini müəyyən edən başlıca amil idi. Bu məqsədlə Moskva rəhbərləri Tehrana təzyiq göstərmək üçün Azərbaycan məsələsindən məharətlə istifadə edir, Güney türklərinin taleyi ilə oynayırdı. Problemin bu tərəfinin araşdırılması İrana münasibətdə böyük dövlətlərin ziddiyyətlərinin əsl köklərini üzə çıxarmağa imkan verir.

Almaniya üzərində qələbədən bir ay sonra, iyunun 10-da İ.Stalin "İranın şimalında Sovet sənaye müəssisələri təşkil edilməsi haqda" SSRİ Xalq Komissarları Sovetinin, iyunun 21-də "İranın şimalında neftlə bağlı geoloji kəşfiyyat İşləri haqda" Dövlət Müdafiə Komitəsinin, iyulun 6-da "Güney Azərbaycanda və İranın şimalının digər vilayətlərində separatçı hərəkatın təşkili üzrə tədbirlər haqqında" Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin gizli qərarlarını imzaladı. Bu qərarlar və onların həyata keçirilməsinin bəzi tərəfləri çağdaş günlərimizdə də dünya üçün gizli olaraq qalmaqdadır.

Dövriyyəyə gətirilən yeni sənədlərin səhifələrində öz həyatını Azərbaycanın azadlığı və milli qurtuluşu ilə bağlamış minlərlə fədakar insanın taleyi əks olunmuşdur. Bu adamların çoxu Xiyabani hərəkatının iştirakçısı olmuş, Sərdari millinin adını hələ unutmamış, fəqət Rza şah istibdadı dövrünü yaşamışdılar. Məşrutə hərəkatının iştirakçılarından biri 1944-cü ilin yayında İran Məclisinə seçkilərlə bağlı Təbrizdə keçirilən yığıncaqda deyirdi: "Qan tökdük, yonca yedik, məşrutə və azadlıq əldə etdik, lakin qısa müddətdən sonra irtica ayrı paltar və ayrı ünvanla baş qaldırdı. Sərdarımızı öldürdülər, özümüzü iydə ağacının şüyü ilə o qədər döydülər ki, dırnaqlarımız töküldü. Uzun müddət vətənimizi tərk etmək məcburiyyətində qaldıq. Mən Sizi bədbin və məyus etmək istəmirəm. Gördüyünüz kimi oğlum da Sizin sinfi təşkilatınıza (Tudə Partiyası nəzərdə tutulur - C.H.) daxil olmuşdur. Özüm də bu yaşımda sizinləyəm və sizinlə olacağam. Mən yorğan-döşəkdə ölməyi namərdlik hesab edirəm. Lakin qəflət etməyin, bunu yaddan çıxarmayın ki, irtica və istibdadın bu dəfə qalib gəldiyi təqdirdə azadlığın və azadlıq sevənlərin kökü qalmayacaqdır".[1]

Azərbaycana həqarətli münasibət, onun dilinin və məktəbinin, mədəniyyətinin yasaq edilməsi, şəhərlərinin dağıdılması, kəndlərinin talan edilməsi

Güney türklərinin milli heysiyyətinə toxunurdu. Şeyx Məhəmmədin Təbriz küçələrində təhqar edilmiş cəsədi, Səttarxanın ayağından dəyən güllə hələ çoxlarının yadından çıxmamışdı. Azərbaycan məşrutiyyət bayrağını qaldırmış, demokratiyanın carçısı olmuş, öz qanı hesabına bütün İran üçün konstitusiya almışdı. Lakin XX əsrin ortalarında bu konstitusiyanın mütərəqti maddələrindən əsər-əlamət qalmamışdı. İlk imkan düşən kimi Azərbaycan öz milli haqları uğrunda mücadiləyə qalxmışdı. Sovetlərin niyyətlərindən asılı olmayaraq İkinci dünya müharibəsi illərində Güney Azərbaycanda milli azadlıq hissləri güclü idi və milli hərəkatın geniş sosial bazaya malik yeni dalğası başlanmışdı. Lakin bu prosesin Sovetlərə arxalanmaq fonunda baş verməsi hərəkatın sonrakı taleyi üçün ağır nəticələr verdi. Xalqın milli azadlıq arzularının daşıyıcısı kimi yaranan Azərbaycan Demokrat firqəsi ziddiyyətli bir yol keçdi. Partiyanın sinfi əsasda deyil, milli əsasda yaradılması mütərəqqi hadisə idi. Azərbaycan işinə sədaqətli olan minlərlə vətənpərvər öz taleyini Demokrat firqəsi ilə bağlamışdı. Onun rəhbərliyində son dərəcə hazırlıqlı, ideyalı şəxslər toplanmışdı. Lakin Demokrat firqəsinin Moskva ilə bağlılığı istər-istəməz onu SSRİ-nin eksponsionist niyyətlərinin alətinə, Sovetlərin məkrli siyasətinin qurbanına çevirdi.

Sovet İttifaqı Güney Azərbaycandakı azadlıq ideallarını və milli prosesi öz inhisarına almaqla İkinci dünya müharibəsinin sonunda Azərbaycan məsələsinə arzuolunmaz bir münasibət formalaşdırdı. Böyük Britaniya, ABŞ və Türkiyə üçün Güney Azərbaycanda baş verən hadisələr milli azadlıq hərəkatından daha çox Sovetlərin ərazi, iqtisadi və ideoloji ekspansiyası kimi qavranılırdı. Güney Azərbaycandakı milli hərəkatın Sovetlər Birliyinə söykənməsi, onun mütərəqqi ideyalarını kommunizmin kölkəsinə saldı. İkinci dünya müharibəsindən sonra yanacaq və energetika mənbələri uğrunda kəskin mübarizəyə başlayan ABŞ və Böyük

Britaniya Şərqi Avropada SSRİ-yə çox böyük güzəştə getsələr də, Azərbaycan məsələsində axıra qədər ona müqavimət göstərdilər. Sovet İttifaqı Yaxın Şərqin energetika mənbələrindən sıxışdırılıb çıxarıldı. Güney Azərbaycan uğrunda mübarizə dünya yanacaq və energetika mənbələri uğrunda mübarizənin tərkib hissəsi idi.

Güney Azərbaycanda 1945-46-cı illərdə cərəyan edən hadisələr XX əsr ərzində ilk dəfə olaraq İran dövlətini real parçalanmaq təhlükəsi ilə üzləşdirdi. Hətta dünyanın bir sıra nüfuzlu siyasi dairələri İranın parçalanmasına baş vermiş fakt kimi baxırdılar. İran Məclisi və tez-tez dəyişən hökumət kabinələri real kücünü itirib tədricən hadisələrin müşahidəcisinə çevrilirdilər. Siyasi və hakim elitanın böhranı gündən-günə dərinləşirdi. Şah və hökumət milli muxtariyyətdən başqa Güney Azərbaycanın bütün tələblərini yerinə yetirməyə hazır idi. Lakin İran üçün yaranmış təhlügəli məqamda ölkə diplomatiyası öz imkan və bacarığından axıra qədər istifadə edərək bir tərəfdən ABŞ və Böyük Britaniyanın dəstəyini ala bildi, digər tərəfdən Sovetlər Birliyini razı salıb neytrallaşdırdı və çox asanlıqla onu "proletar beynəlmiləlçiliyi"ndən yayındırdı. İlk dəfə Güney Azərbaycanda sınaqdan keçirilən bu eksperiment İkinci dünya müharibəsindən sonra Əfqanıstana, Asiya, Afrika və Latın Amerikasının bir sıra xalqlarına böyük fəlakətlər gətirdi.

1939-1946-cı illərdə Güney Azərbaycanda baş verən siyasi, iqtisadi, mədəni və milli proseslərlə bağlı istər əski Sovetlər Birliyində və Sovet Azərbaycanında, istərsə də İranda və Qərb ölkələrində bir sıra kitablar və məqalələr yazılıb, dissertasiyalar müdafiə edilib. Lakin problem nə dərəcədə öyrənilib, baş vermiş siyasi və milli proseslər hansı səviyyədə araşdırılıb, əldə olunmuş elmi nəticələr tarixi gerçəkliyi nə dərəcədə özündə əks etdirib? Bunu demək çətindir. Nə qədər ki, Moskva, Tehran, London, Vaşinqton və Ankara

arxivlərindəki sənədlər müqayisəli şəkildə öyrənilməyib problemin dolğun elmi mənzərəsini yaratmaq, ziddiyyətli proseslər içərisindən həqiqət anını meydana çıxarmaq çətin olacaqdır. Eynilə bu əsərin də Güney Azərbaycan tarixinin öyrənilən dövrü ilə bağlı çoxsaylı suallara cavab verəcəyini düşünmürük. Kitabda müəyyən mübahisəli məsələlərin olduğu da istisna edilmir.

Güney Azərbaycanda İkinci dünya müharibəsi dövründə baş vermiş hadisələrin öyrənilməsinə ilk cəhd Azərbaycan milli hökuməti dövründə olmuşdur. Mir Cəfər Pişəvərinin 1945-46-cı illərdə "Azərbaycan" qəzetində dərc olunmuş çoxsaylı məqalələri, 1946-cı ildə Təbrizdə nəşr olunmuş "Şəhrivərin on ikisi" adlı kitabı, habelə sonralar Sovet Azərbaycanında çap olunmuş "Seçilmiş əsərləri"nin müxtəlif nəşrləri problemin öyrənilməsi baxımından bu gün də öz əhəmiyyətini saxlayır.[2] 1945-46-cı illərdə Təbriz və Bakının dövrü nəşrlərindəki bir sıra maraqlı yazılar, Azərbaycan Xalq Konqresinin və Demokrat firqəsinin sənədləri, 1946-cı ildə Təbrizdə nəşr olunmuş "Qızıl səhifələr" kitabı dövrün siyasi və milli problemlərini özündö əks etdirmişdir.[3] Sonralar Sovet İttifaqına və müxtəlif Qərb ölkələrinə mühacirət etmiş hərəkat iştirakçıları, habelə İran Xalq Partiyasının liderləri bu məsələlərlə bağlı müxtəlif səciyyəli yazılar dərc etdirmİşlər. Lakin bu yazıların böyük əksəriyyəti memuar ədəbiyyatı xarakteri daşımışdır. Hələ İkinci dünya müharibəsinin gedişində Sovet dövrü mətbuatında və təbliğat xarakterli nəşrlərdə İranla bağlı bir sıra yazılar verilmiş və bu yazılarda Güney Azərbaycandakı vəziyyətə də toxunulmuşdur.[4] Bu nəşrlərin içərisində xidməti istifadə üçün hazırlanmış və məhdud tirajla buraxılmış "İran Azərbaycanının hərbi - coğrafi təsviri" kitabı daha səciyyəvidir. Qızıl ordunun beşinci idarəsinin hazırladığı kitabda Güney Azərbaycanın hərbi-coğrafi əhəmiyyəti, siyasi və inzibati quruluşu, hərbi-inzibati

bölgüsü, mühüm yaşayış məntəqələri, əhalisi, dini, mədəni səviyyəsi və iqtisadi həyatı barədə çox qamətli materiallar toplanmışdır. Zaqafqaziya cəbhəsi VII siyasi idarəsinin 1942-ci ildə xidməti istifadə üçün buraxdığı "Güney (İran) Azərbaycan" əlyazması da eyni dərəcədə maraqlıdır. Bu əlyazmada Güney Azərbaycanın fiziki-coğrafi, qısa tarixi, inzibati bölgüsü, əhalisi, yol və nəqliyyatı, xalq təsərrüfatı haqqında oçerklər verilmiş, Güney Azərbaycanın sosial-iqtisadi inkişafının xüsusiyyətləri təhlil edilmişdir. Hər iki kitabda Güney Azərbaycan tarixi, əhalisi, ərazisi, etnik qruluşu ilə bağlı bir sıra səhvlərə də yol verilmişdir.

40-50-ci illərdə Sovet Azərbaycanında problemlə bağlı ilk kitablar və məqalələr meydana çıxmağa başladı, artıq tarixə daxil olmuş Azərbaycan milli hökumətinin fəaliyyəti tədricən elmi araşdırmaların mövzusuna çevrildi.[5] Qeyd edilən əsərlərin müəlliflərindən olan M.İbrahimov və H.Həsənov 1944-1946-cı illərdə xüsusi tapşırıqla Güney Azərbaycana göndərilən siyasi işçilərin rəhbərləri olmuşlar. Onlar Təbrizdə son dərəcə maraqlı proseslərin iştirakçısı olsalar da, lakin nəşr etdirdikləri kitabçalarda təbliğat xarakterli ən ümumi məsələlər əks olunmuşdur. Problemin elmi araşdırılması prof. Ə.Quliyevin məqaləsi ilə başlanmış, 50-ci illərdə bir neçə dissertasiya işi müdafiə edilmişdir. "Soyuq müharibə"nin doğurduğu hərbi-psixoloji qarşıdurma fonunda hadisələrə bütövlükdə ideoloji təbliğat xarakteri verilməsi adları çəkilən elmi araşdırmaların hamısı üçün səciyyəvidir. Problemə belə münasibətin formalaşması sonrakı dövrün tədqiqatlarına təsirsiz qalmadı. 60-70-ci illərdə Bakıda və Moskvada F.Dəstgüşadə, İ.Tariqpeyma, İ.İbrahimi, Ə.Dəvəlli-Məmməd, S.Mirzəzadə, M.Abdullayev (Vilayi) və digərləri əlyazma hüququnda olan namizədlik dissertasiyaları müdafiə etmiş, qeyd edilən məsələlərə aid kütləvi nəşrlər tədricən

məhdudlaşdırılmışdır.[6] Bütün bu əsərlərin ümumi səciyyəvi cəhəti Sovet İttifaqının Güney Azərbaycanda eksponsionist siyasətini pərdələmək, SSRİ-nin guya "qardaşlıq köməyi", Güney Azərbaycana "təmənnasız yardımı" barədə söhbət açmaqdır. Elmi araşdırmaların çoxu bir-birinin təkrarından ibarətdir. Bu əsərlərdə diqtəti cəlb edən fərqli cəhətlər mövcud fakt və hadisələri Sovetlər üçün daha sərfəli interpretasiyada təqdim etməkdir. 1986-cı ildə vaxtilə bu hadisələrin iştirakçısı olmuş M.M.Çeşmazərin "Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan, 1945-46-cı illər)" adlı monoqrafiyası, 1991-ci ildə hazırlanmış "Cənubi Azərbaycan tarixi məsələləri" toplusunda yenə onun "Azərbaycan milli hökumətinin və Azərbaycan Demokrat Partiyasının yaranmasında S.C.Pişəvərinin rolu" adlı məqaləsi çap olunmuşdur.[7] Bu araşdırmalarda xeyli sənəd və materialların dövriyyəyə gətirildiyi, problemin tədqiqində akademizmin kücləndiyi hiss edilir. Müəllif Güney Azərbaycanda 1945-1946-cı illərdə baş vermiş hadisələrin müəyyən qisminə aydınlıq gətirə bilmişdir. Lakin əvvəlki əsərlərdə buraxılan nöqsanlar M.M.Çeşmazərin əsərlərinə də aiddir. Bu mövzu demək olar ki, həmişə Sovet İttifaqının ideoloji nəzarətində olduğundan, Sovet - İran münasibətlərinin kövrək yeri hesab edildiyindən SSRİ-nin Güney Azərbaycanda yeritdiyi siyasətin əsl mahiyyəti, 1939-46-cı illərdə Güney Azərbaycana münasibətdə Sovet - İngiltərə - Amerika - Türkiyə ziddiyyətlərinin bir çox tərəfləri bu günə kimi öyrənilməmiş qalmaqdadır. İstər Bakıda və istərsə də Moskvada problemlə məşğul olan müəlliflər Sovetlərin Güney Azərbaycanda yeritdiyi siyasətlə bağlı SSRİ arxivlərində "məxfi" və "son dərəcə məxfi" qrifi ilə saxlanılan sənədlərlə də tanış ola bilməyiblər. Digər tərəfdən mövzunu əsasən 1945-46-cı illər çərçivəsində öyrənməyə meylli olublar. Halbuki, İkinci dünya müharibəsi başlandıqdan sonra Güney Azərbaycan artıq Sovet İttifaqının ekspansionist planlarına

daxil olmuşdu. Moskvanın müxtəlif elmi mərkəzlərində aparılmış araşdırmalarda daha çox problemin beynəlxalq tərəflərinə toxunulmuşdur. Rus tarixçilərindən M.İvanov, A.Başkirov, E.Orlov, M.Popov, L.Pozdeeva və digərləri problemə SSRİ-nin siyasətinə uyğun "Sovet yardımı" mövqeyindən yanaşıblar.[8] Quzey Azərbaycanın öz müstəqilliyinə qovuşması prosesində Güney Azərbaycan problemlərinə - xüsusilə Milli hərəkata və milli hökumətin tarixinə maraq xeyli artmış, 21 Azər hərəkatının qaranlıq tərəfləri haqqında bir sıra elmi publisistik məqalələr dərc olunmuşdur. Tarixçi alim və publisistlərdən prof. Ş.Tağıyeva, prof.M.Çeşmazər, prof.S.Onullahi, doktor N.Nəsibzadə, yazıçı Q.İlkin, C.Vəkiləv, V.Mustafa, İ.Şəms, S.Bayramzadə, Q.Zahidov, Ə.Lahrudi, Ə.Nəmini və digərləri Güney Azərbaycan milli azadlıq hərəkatının ayrı-ayrı məsələləri ilə bağlı dəyərli fikir və mülahizələr irəli sürüblər.[9] Professor Şövkət xanım Tağıyevanın Xiyabani hərəkatı ilə bağlı əsərlərində və "Azadlıq" qəzetində dərc olunmuş silsilə yazılarında öyrənilən problemə yeni münasibət xüsusi diqtətə layiqdir. S.Onullahi "Zaman" qəzetinin 1996-cı ildəki 7 sayında dərc edilmiş "Azərbaycan: Neft girdabında yaşanan həyat" adlı iri həcmli məqaləsində Güney Azərbaycan milli azadlıq hərəkatının tarixindən bəhs edərək yazır: "İndi həmin tarixi hadisələrdən, tarixi xəyanətdən və məğlubiyyətdən 49 il keçir. 16 ildən artıqdır ki, İranda şahlıq üsul-idarəsinə son qoyulub İslami respublika qurulmuşdur. Lakin təəssüflə qeyd etməliyik ki, indi də hazırki İran dövlətinin bəzi tarixçiləri və yüksək rütbəli hakim dairələri 21 Azər hərəkatı iştirakçılarına Məmmədrza şahın və Qəvamüssəltənənin gözü ilə baxır". Əgər 1995-ci ilin aprelindən - 1996-cı ilin martına kimi Azərbaycan respublikasında nəşr olunan mətbuata diqtət yetirsək bir il ərzində Güney Azərbaycan problemi ilə bağlı 48 materialın dərc olunduğunun şahidi olaraq. Professor M.Qasımovun "Beynəlxalq münasibətlərdə Azərbaycan

məsələsi" kitabı son dövrün uğurlu addımlarından hesab edilə bilər.[10] Kitab 40-cı illərin ortalarında Pişəvəri hərəkatı ilə bağlı Azərbaycan məsələsinin BMT-də müzakirəsinə və böyük dövlətlərin siyasətinin araşdırılmasına həsr edilib.

Uzun müdaətdir ki, bu problem Qərb araşdırı-cılarının da maraq dairəsinə daxil olmuşdur." Öyrənilən məsələ ilə bağlı Qərb ölkələrində aparılan tədqiqatları iki qrupa bölmək olar. Birincisi Qərbin elmi mərkəzlərində hazırlanan araşdırmalar, İkincisi isə İran mühaçirləri tərəfindən nəşr olunmuş əsərlərdir. Birincilər problemə daha çox tədqiqat xarakteri verməklə, dərin akademizmi ilə diqtəti cəlb edir. İkincilər isə memuar ədəbiyyatı və publisistika təsiri bağışlayır. Lakin son vaxtlarda İkincilərin də öyrənilən hadisələrə elmi tədqiqat xarakteri vermək cəhdləri müşahidə edilir.

1987-ci ildə ABŞ-da Devid Nismanın "Sovet İttifaqı və İran Azərbaycanı" kitabının nəşr olunması Qərb Azərbaycanşünaslığında mühüm hadisə oldu. Bu əsərdə Sovetlərin Güney Azərbaycandakı siyasəti ilə bağlı bir sıra məsələlərə ilk dəfə olaraq aydınlıq gətirilmişdir. Lakin müəllif hadisələrin əsl mahiyyətini özündə əks etdirən arxiv sənədləri ilə tanış ola bilmədiyindən Sovet İttifaqının Güney Azərbaycanda olan siyasi və iqtisadi maraqlarının yalnız körünən tərəflərini verə bilmişdir. Güney Azərbaycandakı Sovet hərbi, siyasi, diplomatik, iqtisadi, xüsusi xidmət orqanlarının 1939-1946-cı illərdəki fəaliyyəti D.Nisman tərəfindən fratental öyrənilmişdir. Sonralar müəllif 1995-ci ildə Vaşinqtonda çıxan "Kəspiən Krosrodz" jurnalında "İki Azərbaycan: ümumi keçmiş və ümumi gələcək" yazısı ilə çıxış etmişdir.[12] Tanınmış Amerika azərbaycan-şünası T.Svyatoxovskinin 1995-ci ildə Nyu-Yorkda nəşr olunmuş "Rusiya və Azərbaycan" kitabında Sovetlərin Güney Azərbaycanın işğalı, Güneydə muxtariyyət ideyasının küclənməsi, Demokrat firqəsinin hakimiyyətə

gəlməsi, muxtariyyət və milli quruculuq təcrübəsi, habelə milli hökumətin yıxılması məsələləri əhatə olunmuşdur. Müəllif 1918-ci ildə yaradılmış Azərbaycan respublikası ilə 1945-ci ildə təşkil edilmiş Azərbaycan milli hökumətini müqayisə edərək yazır: 1918-ci ildə elan edilmiş Bakının muxtariyyəti müstəqillik üçün imkan idi. 1945-ci ildə Təbrizdə elan edilmiş muxtariyyətdən sonrakı addım isə SSRİ tərəfindən ilhaqa aparırdı.[13]

1993-cü ildə Londonda Turac Atabəyinin XX əsrdə Güney Azərbaycanda Milli hərəkat tarixinə, muxtariyyət ideyasının təkamülünə və təcrübəsinə həsr olunmuş əsərinin nəşri uğurlu addım hesab edilə bilər. Kitabın böyük bir hissəsi Azərbaycan Demokrat firqəsinin yaranması, milli hökumətin qurulması və fəaliyyətindən bəhs edir. [14]

C.Bamberqin 1996-cı ildə Kembricdə nəşr olunmuş "Britiş Petrolium Kompanisinin tarixi. İngilis - İran illəri, 1928-1954" əsərində 1939-1946-cı illərdə İranda ingilis - rus əməkdaşlığı və ziddiyyətlərinə dair maraqlı məsələlərə toxunulmuşdur.[15] Qərb müəllifləri də Güney Azərbaycanda əsasən 1945-1946-cı illərdə baş vermiş hadisələri öyrənməyə üstünlük vermİşlər. İkinci dünya müharibəsinin əvvəllərindəki, habelə, 1941-ci ildə Sovet və Britaniya qoşunları İrana daxil olduqdan sonra ümumilikdə İranda və Güney Azərbaycanındakı siyasi proseslər, İranda SSRİ-ABŞ-Böyük Britaniya qarşıdurmasının küclənməsi, Sovetlərin ekspansiya meylləri ardıcıl və əsaslı şəkildə öyrənilməmişdir.

Oxuculara təqdim edilən bu araşdırma xronoloji baxımdan 1939-1945-ci illəri əhatə edir. "Soyuq müharibə"nin birinci ilini əhatə edən 1945-ci ilin dekabrından - 1946-cı ilin dekabrına qədərki dövr, yəni Azərbaycan milli hökumətinin qurulması və fəaliyyəti ayrıca tədqiqat işi olaraq öyrəniləcəkdir. Kitabda araşdırılan problemlər ilk dəfə dövriyyəyə gətirilən sənəd və materiallar əsaslanmaqla təhlil edilmişdir.

1939-1945-ci illərdə Sovetlərin və Britaniyanın İran və Güney Azərbaycan barədə planları və onun gerçəkləşmə yolları ilə bağlı çoxsaylı arxiv materialları mövcuddur. Keçmiş Sovetlər Birliyinin Xarici İşlər Komissarlığının, Dövlət Müdafiə Komitəsinin ÜİK(b)P MK-nın, SSRİ XKS-nin, Azərbaycan SSR-in müvafiq strukturlarının Güney Azərbaycanla bağlı sənədlərinə müraciət edilmişdir. Lakin mövzunu hərtərəfli araşdırmaq üçün həmin dövrdə İran və Güney Azərbaycanda marağı olan ölkələrin arxiv fondları ətraflı şəkildə öyrənilməlidir.

Müəllif əsərin yazılmasında ona yardım göstərmiş "Azərbaycan Demokratiyanın İnkişafı fondu"na, respublika Baş Arxivlər İdarəsinin rəisi A.Paşayevə, Siyasi Partiyalar və İctimai hərəkətlər Dövlət Arxivinin direktoru Z.Məlikaslanovaya, Mərkəzi Dövlət Yeni Tarix Arxivinin direktoru F.Əliyevə dərin təşəkkürünü bildirir.

## II. Güney Azərbaycanda azadlıq hərəkatı: Səttarxandan - Xiyabaniyə doğru

Azərbaycanın XX əsr tarixi azaddıq, müstəqallik və demokratiya uğrunda mübarizə tarixidir. Bu tarixin başlanğıcını Həsən bəy Zərdabi qoydu, Səttarxan isə onun qəhrəmanlıq səlnaməsini yaratdı. XX əsr ərzində o, rəsmən Azərbaycan xalqının "Sərdari-milli"si oldu. Səttarxanın azadlıq mübarizəsi ilə Azərbaycan millləti öz varlığını bütün dünyaya sübut etdi. Sərdarın rəşadəti ilə İran müstəbidləri Azərbaycanla hesablaşmaq zorunda qaldı. Səttarxan öz qəhrəmanlığı ilə Azərbaycan tarixinin şanlı və iftixar ediləçək bir səhifəsini yaratdı. 1909-cu ildə Təbrizə səfər edən M.Ə.Rəsulzadə Sərdar ilə ilk görüşünü belə təsvir edir: "Bütün İranı-təmin yolunda tamam dünyaca şöhrət qazanmış olan bu qəhrəmani-millinin ziyarətinə nail oldum... Sərdarın zahirini təsvir etmək mənə əbəsdir. Zira bu surəti-benami tanımayan bir nəfər tapılmaz. Fotoqraf o əksi-millini eynilə bütün aləmə nəşr etmiş və hər bir kəsə tanıtdırmışdır... Sərdar qayətdə qanı isti bir adam, hərəkəti xeyli cəlddir, danışığı çox ciddidir. Məşrutəpərəstliyi din dərəcəsiddə qəvidir. Bu adam məşrutə tərəfdarı olmaqda fanatizm ediyor. Bütün hərəkətini, vücudunu, zoru-bazusunu millətə sərf etmiş"dir.[1] Səttarxanın qəhrəman mübarizəsi xalqın yaddaşında ədəbi həkk olunmuşdu. SSRİ Müdafiə Nazirliyinin Beşinci idarəsi və Zaqafqaziya cəbhəsi siyasi idarəsinin yeddinci şöbəsi 30-cu illərin sonu - 40-ci illərin əvvəllərində Güney Azərbaycan haqda topladıqları Kəşfiyyat materiallarında Azərbaycanın başı üstündə Sərdarın və Saların ruhunun dolandığını, Azərbaycanlıların ürəyində bu iki qəhrəmanın xatirəsinin yaşadığını qeyd edirdilər.[2] Uzun illərin şübhəli münasibətindən sonra bu gün İranda çıxan bir sıra yazılarda Səttarxanın və Bağırxanın Azərbaycan xalqının şərəf və qeyrətini xilas etmək ilə bərabər İranı da xilas etdiyi etiraf edilir.[3]

1908-ci ilin iyununda Məhəmmədəli Şah Mirzənin İran məclisinə rus toplarından atəş açması məşrutəçilərin çoxunu ümidsiz vəziyyətə salmışdı. Tehran küçələrində yaralanmış və başıaçıq qacan Seyid Məhəmməd Təbatəbayi öz yaxın adamlarına gizli məktubunda yazırdı: "Silaha əl atmayın. Vəziyyət çox pisdir. Tez 2-3 dəst əba və əmmamə göndərin".[4] Tehran məşrutəçilərinin əba və əmmamə axtardığı ağır vəziyyətdə Təbriz baş qaldırdı. İrticanın və istibdadın qabağında dayandı. Nə Məmmədəli şahın hədələri, nə də rusların müdaxiləsi Azərbaycanı mübarizədən çəkindirə bilmədi. Səttarxanın Əmirəqız məhəlləsindəki rəşadəti, Bağırxanın Sərdara qovuşması sonrakı məğlubedilməzliyin əsasını qoydu, Azərbaycanı azadlığın beşiyinə çevirdi. Rus kazaklarının, rus ordusunun qarşısında tarixin bütün imtahanlarından keçmiş Təbrizin şanlı adını məhz bu iki şəxs xilas etdi. Onların göstərişi ilə 1908-ci ilin iyul ayında Təbriz damlarına taxılmış ağ bayraqlar ayaqlar altına atıldı. Mübarizə rəmzi olaraq yerinə qarmızı bayraqlar taxıldı. 1908-ci ilin avqustunda 5 min rus kazakı ilə birlikdə Məhəmmədəli şahın Təbriz üzərinə 40 min ordu göndərməsi şəhər müdafiəçilərinin əzmini qıra bilmədi. Uzun illərin ayrılığından sonra mühasirəyə düşmüş, ağır vəziyyətdə olan Təbriz ilk dəfə Bakıdan yardım aldı. Bu tarixi fakt bir xalq olaraq parçalanmağımızın bir millət olaraq düşünmək məqamı idi. Yeri gəlmişkən, Quzeyin sovetləşməsinə qədər bu istiqamətdə çox maraqlı etnosiyasi, psixoloji tarixi proses gedib. 1920-ci ilin martında Azərbaycanın İrandakı diplomatik nümayəndəsi Xarici İşlər Nazirliyinə hesabatında yazırdı: "İran Azərbaycanında hər gün üsyan əhval-ruhiyyəsi artır... Uğur tazanmaq ehtimalı və gələcəyi olan Güney Azərbaycan hərəkatı İran üçün ciddi təhlükədir. Müstəqil Azərbaycan hərəkatı və fikri türk emisarlarının təbliğatı nəticəsində küclənib. Milli hisslər baş qaldırır, İran Azərbaycanının müstəqilliyi ideyası genişlənir.

Bu hərəkat İranı və İngiltərəni bərk narahat edir. İran Azərbaycanında belə meyllər vardır ki, onu İrandan ayırıb Quzey Azərbaycana birləşdirsinlər".[5]

Təbrizin mühasirəsindən uğur qazana bilməyən şah qoşunları sonra Sərdara diplomatik hiylələrlə təsir göstərmək istəyirdilər. Məşrutə fədailərindən biri sonralar bu hadisəni belə xatırlayırdı: "Müstəbidlər Sərdari-millinin yanına bir neçə nəfər nümayəndə göndərdilər. Onlar dedilər ki, siz on nəfərdən çox deyilsiniz. Hədər yerə xalqı ölümə verməyin. Özünüzə layiq hər rütbə və iş istəsəniz verərik. Əgər bizə etimad etmirsinizsə, qonşu dövlətlərin birinin yardımından istifadə edə bilərsiniz. Sizə bir bayraq da göndərilsin və siz həmin bayrağın himayəsi altında amanda olun... Sərdarımız elçini tam hörmətlə qəbul etdi. Lakin onun cavabı qəti və qısa idi. O dedi: "Burada qaldırdığımız bayraq azadlıq bayrağıdır. Dünyanın yetmiş iki millәti həmin bayrağın altına pənah gətirməlidir. Biz təslim olmarıq. Gedin əlinizdən gələni əsirgəməyin".[6] Səttarxanın mübarizəsi konstitusiyanın bərpası və Məmmədəli şahın devrilməsi ilə nəticələndi. Məmmədəli Mirzə sonralar gileylənirdi ki, "təbrizlilər nə mənim vəliəhdliyimi qəbul etdilər, nə də şahlığımı".[7]

Məhəmmədəli Mirzənin hakimiyyəti verməsi ilə bağlı Qacarlar arasında bir söhbət gəzirdi ki, Məhəmmədhəsən Mirzənin anası Əminə xanım Qacarlar sulaləsinin əsl banisidir. Çünki onun müdrikliyi ilə Ağa Məhəmməd xan şah taxt-tacını ala bilmişdi. O, öz uşaqlarına belə vəsiyyət etmişdi ki, həmişə vəliəhdi anası Qacar olan uşaqlardan seçin. Lakin Müzəffərəddin şah oğlu Məhəmmədəli Mirzəni vəliəhd seçmişdi ki, onun anası Qacarlardan olmayıb, Mirzə Tağı xan Əmir Kəbirin qızı idi. Məhəmmədəli şah İrandan sürgünə getməyi ilə XX əsr səltənət tarixində yeni ənənənin başlanğıcını qoydu. Ondan sonra gələn oğlu Soltan Əhməd şah, Rza şah və Məhəmməd Rza şah ölkədən ya "mədəni" sürgünə getmək, ya da qaçmaq zorunda qaldılar.

Konstitusiyanın bərpası və məşrutiyyənin qələbəsindən sonra Rusiya və İngiltərə Azərbaycandakı hərəkatdan çox ehtiyatlanırdılar. Xüsusən ruslar Sərdarı Təbrizdən uzaqlaşdırmağa çalışırdılar. Britaniya Xarici İşlər Nazirliyinin məlumatında göstərilirdi: "Rus səfiri İran dövlətindən tələb edib ki, Səttarxan və Bağırxan Azərbaycandan çıxmasalar, onları Yefrem xan (Yefrem Davidyants məşrutə inqalabı dövründə Gilan daşnaklarının başçısı olub və bəxtiyari dəstələrinin kücü ilə Təbrizdən çıxarsınlar".

Ruslar İranı işğal etməkdə Azərbaycana böyük maneə kimi baxırdılar. Çar ordusunun hərbi müşavirəsində bildirilmişdi: "Azərbaycanı ələ keçirmədən dəniz vasitəsilə İranı almaq mümkün deyildir. Qələbə çalmaq üçün ən yaxşı yol Azərbaycanı işğal etmək, sonra isə İranı ələ keçirməkdir. Azərbaycan xalqının nizami və hərbi sahədə isteçdadı İranın başqa xalqlarına görə daha üstündür".[8]

Azərbaycan Yaxın Şərqdə rusların ekspansiyasına qarşı duran ən böyük qüvvə idi. Müzəffərəddin şahın və Məhəmmədəli Mirzənin Peterburqun diqtəsi ilə hərəkət etməsi Azərbaycanlıların heysiyyətinə toxunurdu. Onlar deyirdilər ki, Şah İranı kirov qoyub və bu torpağı ruslara satıb. Ruslar Təbrizə daxil olduqda Səttarxan Təbrizdəki rus konsulluruna gedib tələb etmişdi ki, ruslar ölkənin daxili İşlərinə müdaxilə etməsinlər. Lakin İran hökumətinin biganəliyi ucbatından rus müdaxiləsinin qarşısı alınmadıqda Sərdar Osmanlı konsulluğuna üz tutdu, rusların hərəkətlərinə protest olaraq Dövləti Aliyeyi Osmaniyənin himayəsini istədi. Bununla bağlı o deyirdi: "Mən artıq istərdim ki, bizim millət Osmanlı ilə yaxınlaşsın. İndi bu haldan bir dərəcə mütəşəkgirəm ki, bizi birləşdiriyor. Təmin almaq və bəstə girmək üçün doğrusu burasını müvafiq gördük. Zira, İslam məmləkəti və ümdəsi məşrutəli bir məmləkətin nümayəndəsidir".[9]

Osmanlı Xarici İşlər Nazirliyinə bu xüsusda məlumat verindikdə belə bir cavab alınmışdı: "Baydağı-

Osmaniyə təhətinə sığınanlar lazımınca himayə olunmalıdır". Bu cavaba uyğun olaraq Təbrizdəki Osmanlı konsulluğu İran hökumətinə və rus konsulxanasına rəsmi məktubla bildirmişdi: "Səttarxan, Bağırxan və qeyri şəxslərə məxsus əmlaki-mənqulə və qeyri-mənqulə təhti-təmində olduğu kimi bu adamların canları da Osmanlı bayrağının himayətindədir".[10] Lakin ruslar sərdarın Osmanlı konsulxanasıvda icra olunan bəstinə etiraz etdilər. Onlar bildirdilər ki, "Biz Osmanlı konsulxanasında mütəhəssin olanların İranlı təbəəsi tanıdığımızdan vəqqi-lüzumuqda onlara nisbət əlaqəmizi İranlı təbəəsi nöqteyi-nəzərindən içra edəcəyiz".[11]

Rusiyanın təzyiqi ilə İran hökuməti 1910-cu ilin martında Səttarxanı və Bağırxanı Tehrana dəvət etdi. Dəvət edənlər arasında hökumətdə və məclisdə təmsil olunan məşruqəçilər də var idi. Lakin Sərdar Tehrana getmək istəmirdi. O deyirdi: "Baba bağını mənə versinlər, mən rəncbərliklə məşğul olaçağam". İngilislər və ruslar silahı yerə qoymuş Səttarxanın Azərbaycanda qalmasına etiraz etdilər. Əgər Sərdar və Salar Təbrizi tərk etməzlərsə, ruslar güc tətbiq edəcəklərini kizlətmədilər. Nəhayət, rus silahının Azərbaycan xalqının canına və malına yetirəcəyi zərəri istəmədiklərindən Səttarxan və Bağırxan Tehrana getməyə razılıq verdilər. Sərdar və Saların Tehrana səfəri bir tarix idi. Bütün Təbriz göz yaşları içində öz qəhrəmanları ilə vidalaşmağa çıxmışdılar. London qəzetləri yazırdı ki, yol boyu bütün xalq Səttarxanın qarşısına çıxırdı. Tehranlılar Qəzvin şəhərinə qədər Sərdarı qarşılamağa gəlmişdilər. Müxtəlif dəstələrə mənsub olan şəxslər addımbaşı Səttarxanın ayağı altında inək və qoyun qurbanı kəsirdilər. Kərəcdə artıq 300-dən artıq araba Təbriz qəhrəmanlarının ətrafında hərəkət edirdi. Mehrabadda dövlət adamları, məclis nümayəndələri və məşrutəçilər çadır qurub onların yolunu gözləyirdilər. Onları "Yaşasın Təbriz qəhrəmanları!" şüarları ilə qarşıladılar. Britaniya konsulu Londona yazırdı: "İndiyə qədər Tehran belə

şadlıq və təntənə görməyib. Şah tərəfindən iki at göndərilmişdi. Camaat dam-divardan Sərdarın və Saların başına kül səpirdi. Şah sarayında bir neçə saatlıq qəbuldan sonra Səttarxan öz fədailəri ilə birlikdə onun üçün ayrılmış Ətabək parkındakı Tehranın İkinci sarayına getdi. Ətabək sarayında olduğu müddətdə Səttarxan dağılmış ölkənin bərpası, konstitusiyanın qorunması, məşrutə inqilabında qazanılmış uğurların saxlanılması istiqamətində siyasi fəaliyyətdən qalmırdı. Bəzən elə olurdu ki, onun şöhrətli adından, böyük nüfuzundan hərə bir məqsədlə istifadə etmək istəyirdi. Qacar səltənətinə göz dikənlərdən biri İsfahan hakimi Zillisultan Sərdara göndərdiyi gizli məktubda xahiş edirdi ki, oğlu Bəhram Mirzəni himayə edib şahlıq taxtına əyləşdirsin. Hətta bu məqsədlə o, bir milyon tümən pul təklif etmişdi. Qacarlar əvvəl-axır Sərdarın millət yolundakı böyük ideallarını dərk etmədilər. Fəqət Sərdarın Ətabəkdəki sakit həyatı belə ingilis-rus siyasəti üçün, İran hakim dairələri üçün ciddi təhlükə idi. Beynəlxalq və daxili irticanın əsas məqsədi Sərdari-millini aradan götürmək idi. Səttarxanın tərksilah olmağa razılıq verməsinə baxmayaraq Yefrem öz işini gördü. 1910-cu il avqustun 7-də Ətabəkdəki fədailərə hücum edildi. Sərdar bu xəyanətə dözmədi. Tüfəngini ələ alıb bayıra çıxdı. Şahidlər yazır ki, 5 güllə atdı. Hər güllə bir nəfəri torpağa sərdi. Sərrast atmaq onun adəti idi. Hədəfdən başqa vurmazdı. Lakin bunlar onun Tüfəngindən çıxan son güllələr oldu. Yefrem və Bəxtiyari əsgərlərinin atdığı güllə onun dizindən dəydi. Salar öz yaralı Sərdarını əlləri üstündə Ətabək parkından çıxardı. Bununla da hər şey bitdi. Sərdari-milli ayağından, Azərbaycan isə ürəyindən yara aldı...

Yefrem xanın Ətabək "qələbəsindən" sonra rusların İrana təsir imkanları artdı. Güney Azərbaycan dövlətlərarası ziddiyyətlərin mərkəzinə, tədricən çarizmin müstəmləkəçilik siyasətinin hərbi meydanına çevrildi. Rus ordusunun baş qərargahı Güney

Azərbaycanın ərazisi və əhalisi məsələləri ilə bağlı hərbi strateji məlumatlar hazırlayıb imperator hökumətinə təqdim edirdi. Baş qərargahın polkovniki Medvedevin və Peterburqdakı İran baş konsulluğunun məlumatlarına görə, Azərbaycan əhalisi bu dövrdə İran əhalisinin 25 faizini təşkil edirdi.[12] Lakin bu məlumat əhali sayımına əsaslanmırdı və türk tayfalarını özündə əks etdirmirdi. Təxmini xarakteri ilə bərabər İran hakimiyyət orqanlarının və rus hərbi dairələrinin Azərbaycan əhalisi və ərazisini azaltmaq meyli də bu məlumatlarda hiss edilirdi. Rusiyanın Güney Azərbaycanında ciddi narahatçılığı Alman ekspansiyası, İrana yeni ayaq acan Amerika təhlükəsi ilə də bağlı idi.

Bu məqsədlə Rusiya hökumətl 29 noyabr 1911-ci ildə İrana çox kobud bir ultimatum vermişdi. Və bu ultimatumda üç tələb irəli sürülürdü: İran Amerika nümayəndələri Şuster və Lekoferi ölkədən çıxarmalı idi; İran bundan sonra xarici ölkə nümayəndələrini işə dəvət edərdisə, gərək Rusiyadan icazə alaydı; Rusiyanın Rəşt və Ənzəlidəki ordusunun xərclərini İran çəkməli idi.[13] Bu ultimatuma 48 saat ərzində cavab verilməli idi. Naübüsəltönə Nasirülmülk, xarici İşlər naziri və qeyri nazirlər rus ultimatumuna məclisdən müsbət cavab almaq istəyirdilər. Fəqət Məclisdəki Azərbaycan vəkilləri rus ultimatumunun mahiyyətini və İran hökumətinin mövqesizliyini dəlillərlə açıqladılar. Məşrutə hərəkatının iştirakçısı, tanınmış din xadimi, müctəhid, Azərbaycan əncüməninin üzvü Şeyx Məhəmməd Xiyabani çox təmkinli və təbiətinə uyğun sakit danışığı ilə hökumətin təslimçilik siyasətini tənqid etdi. Şeyxin cəsarətli çıxışı, məntiqi dəlilləri Məclisin rəyinə güclü təsir etdi. Və məclis özündə küc tapıb rus ultimatumuna "yox" dedi. Şeyxin çıxışının əks-sədası tezliklə Məclisin divarları arasından kənara çıxdı. Səhərisi gün meydanlara toplanan minlərlə adam Xiyabanini dinləmək istəyirdi. Şeyx rus ultimatumu ilə bağlı bir saat yarımpıq nitq irad etdi. O, rus siyasətini və İran hökumətini ifşa etdi. Dostları onun həbs

ediləcəyini bildiklərindən meydan çıxışından sonra evlərinə dəvət etdilər. Lakin o dedi: "Biz vəzifəmizi yerinə yetirdik və istədiyimiz nəticəni əldə etdik. Məni gərək mitinqdə danışmadan əvvəl tutaydılar. Mən deyilməyəcək sirləri faş etdim, artıq tutulmağım onlar üçün əhəmiyyətsizdir".[14] Daxili İşlər Nazirliyi Xiyabanini həbs etmək üçün Yefrem xanı meydana göndərəndə Şeyx artıq evinə dönmüşdü. 24 dekabr 1911-ci ildə İkinci məclis qovuldu. İran hökumətinin əsas qarışıqlıq ocağı hesab etdiyi Güney Azərbaycan vəkilləri məclisin ən məşhur, ən ardıcıl vəkilləri idi.[15]

İkinci məclisdə öz dərin məzmunlu çıxışları ilə Şeyx Məhəmməd Xiyabani siyasi mübarizə meydanına qədəm qoydu. Məclis qovulandan sonra Şeyx Xorasana, Orta Asiya və Qafqaza səyahət etdi. Bakıda oldu, Güneyə qayıtmaq təhlügəli olduğundan dostlarının məsləhəti ilə Mahaçqalaya getdi. 1914-cü ildə gizli şəkildə Təbrizə döndü. Elə həmin il noyabr ayının 9-da ayağındakı yaradan, ürəyindəki dərddən Sərdari-milli vəfat etdi. Səttarxanın taleyi Şeyxi düşündürmöyə vadar etdi. Azərbaycan tarixinin bu iki böyük şəxsiyyətinin qəhrəmanlığı ilə XX əsrin ilk iki onilliyindəki Güneydə azadlıq ideallarından milli ideallara doğru böyük bir dönüş prosesi baş verdi. 1946-cı ilin oktyabrında Təbrizdə Xiyabaninin abidəsinin açılışında M.Ç.Pişəvəri deyirdi: "Rəşidlik nəzəri ilə baxsaq, Səttarxan qəhrəman imiş. O, düşmən qabağında təslim olmamışdır. Amma fikir, elm və məlumat nöqteyi-nəzərindən baxsaq, Şeyxin məqamı fövqəlladə böyükdür. Sərdar rəşid imiş. Şeyx o xasiyyətlərə malik olduğu halda bir də onun alimlik məqamı var idi".[16]

1917-ci il inqalabı Rus imperiyasını dağıtdı. Fəqət Güney Azərbaycan rus süngüsündən hələ çox ziyan çəkdi. Şeyx dünyada gedən prosesləri çox diqtətlə izləyirdi. XX əsrin milli mübarizə və yeniləşmə əsri olduğunu o dərindən dərk etmişdi. 1917-ci ildən etibarən Təbrizdə

buraxdığı qəzet "Yeniləşmə" («Təcəddüd») adlanırdı. Adı, qəzetin qayəsini, naşirin amallarını açıqlayırdı. 1917-ci ilin yayında Xiyabaninin başçılığı ilə Azərbaycan Demokrat Firqəsi yarandı. ADF Güney Azərbaycanındakı xalq hərəkatına getdikcə milli-demokratik xarakter verirdi. Və bu mübarizənin gedişində Şeyx özü də demokratik dəyərlərə tapınan bir lider kimi yetkinləşirdi. Sərdar Təbrizdə qaldırılan silahın İranı xilas edəcəyini söylədiyi halda, Şeyx Azərbaycan demokratiyasının əvvəlcə özünü, sonra isə bütün İranı qurtaracağına ümid bəsləyirdi.

Məhz birinci dünya müharibəsindən sonra Rus imperiyasının və Osmanlı sultanlıpının çökməsi yeni geosiyasi reallıqlar doğurmuş, Britaniya "demokratiyasının" Güney Azərbaycana ekspansiyası üçün əlverişli şərait yaratmışdı. 1919-cu il 9 avqust İngilis - İran sazişindən sonra İran xarici İşlər nazirinin şərəfinə Londonda ziyafət verən Lord Kerzon deyirdi:"Avropada müharibənin qurtarmasına baxmayaraq, Asiyada hələ uzun müddət sakitlik olmayacaq. Rus və Osmanlı imperiyalarının dağılması regionda böyük bir boşluq yaratmışdır. Bu şəraitdə İran yalnız böyük və qüdrətli qonşusu Britaniyaya arxalanmalıdır".[17] İngilislərin Güney Azərbaycana birtərəfli qaydada nüfuz etməsi çarlığın çöküşündən sonra hələ orada qalan kazakları bərk narahat etmişdi. İngiltərənin təhriki ilə baş nazir Vüsuqüddövlə çarlıq zamanında Qafqaz canişininə tabe olan kazak alayının buraxılması haqda əmr versə də, polkovnik Staroselski başda olmaqla rus zabitləri əmrə tabe olmadılar. Onların fikrincə, kazak alayı ləğv olunardısa, "rus ruhu İranda birdəfəlik yox olacaqdı". Rusiya bolşevik hökuməti "İrandakı rus ruhunu xilas etmək" üçün çox gözləmədi. Qərbdə bolşevik inqilabı baş tutmadıqdan sonra ruslar yenidən Asiyaya döndülər və İranı bolşevik ekspansiyası meydanına çevirdilər. İvan Kolomiysevin İran avantürasının faciəli sonluğundan bolşevik hökuməti Xəzərin

aşağısının və Güney Azərbaycanın sovetləşməsi kimi istifadə etmək istəyirdi

İran tərəfindən əzilən, ingilis, ağ və qırmızı Rusiya siyasəti girdabına salınmış Güney Azərbaycanın çətin günlərində Şeyxin qüdrətli səsi eşidildi. O deyirdi: "Ey qeyrətli Azərbaycan xalqı, ey Vətənin əsirliklə yaşamış igidlərinin oğulları və qızları,

Ey azadlıq yolunun qorxmaz qəhrəmanı,

Ey tərifə belə ehtiyacı olmayan Azərbaycan,

Ey Azərbaycan!

Bu tərif, təhsinlərin hamısı verdigin qurbanların qan bahasıdır.

İran fəzasında yüksələn bu tərif, təhsin səsləri sənin ölməz cavanlarının, mərd qocalarının, iradəli uşaqlarının, hələ də təsəlli tapmayan, ovunmayan qadın və qızlarının səsidir.

İndi eşitdiyin bu səslər onların səsidir.

Ayıl!

Qulaq as!

Ey Azərbaycan, ey Azərbaycanın demokratik qüvvələri, başını qaldır!

Tutalım ki, hazırda döşünə qədər fəlakət, bədbəxtlik burulğanında batmısan, bədəninə endirilmiş zərbələr nəticəsində təfəkkür qüvvəsini itirmisən və ən dəhşətli ehtiyac içərisində əlacsız qalaraq çabalayırsan.

Tutalım ki, qışın şaxtası çılpaq bədənini dəhşətli surətdə parçalayır, düşgün, pərişan olmusan, ac-yalavac qalmısan.

Tutalım ki, həddindən artıq bədbəxt olmusan.

Axı müharibədə iştirak edən ölkələr sənin tək korluq çəkməmişdir.

Təqsirkar olan millətlər sənin tək əzab; işkəncə görməmişdir.

Dünyada ən ağır cəzaya layiq olan zalımlar xilas olmuşlar. Sən isə hələ də giriftarsan.

Tutalım ki, bədənin başdan ayağa deşilib yaralanmışdır... Buna baxmayaraq sən yenə də şərəfli

başını qaldır, ölkədən yüksələn bu səmimi tərif, təhsin, həmrəylik səslərinə qulaq as!.. Qoy bu səslər sənin ürəyində, ruhunda güclü bir tufan, dərin bir intibah hissi oyatsın. Sən zəifləmiş bir pəhləvan, gücdən düşmüş bir qəhrəmana oxşayırsan ki, onu cəsarətləndirmək, yenidən ayağa qaldırmaq üçün onun qeyrət, heysiyyət və izzət-nəfsinə təsir etməkdən güclü
tədbir və vasitə ola bilməz. Kamıdan əvvəl sən özünə yardım göstərməlisən, sən özün-özünə nicat verməlisən!..

Ey Azərbaycan demokratiyası, qabaqda xoşbəxt gələcəyin var. O bəxtəvər günlər üçün sənə və xəlqinə eşq olsun!..".[19]

Şeyxin çıxışları və çağırışları Təbrizi yenidən oyandırdı. 1920-ci il aprelin 7-də Təbriz yenidən silaha əl atdı və qələbə çaldı. Elə həmin gün Xiyabani Təbriz əhalisi qarşısındakı çıxışında dedi: "Bu gün dünya camaatına rəsmən bildiririk ki, biz Vüsuqüddövlə və ingilis talançı sazişini bağlamış hökumət əleyhinə üsyan etmişik".

Təbrizdəki qələbədən sonra Əmir Xizi məsləhət gördü ki, Azərbaycan məşrutə yolunda çox səylər etdikindən və İrana azadlıq gətirdiyindən, dünyada artıq Azərbaycan adlı dövlət olduqundan milli azadlığına qovuşmuş ölkənin adını "Azadıstan" qoysunlar. Şeyx bunu qəbul etdi və bildirdi:"Azərbaycanın adını Azadıstana dəyişərək bu gündən bu adı rəsmi ad kimi elan edirik".[20]

Yazışmalar yalnız Azadıstan markası vurulmuş kağızlarla aparılmalı idi. Tehrandan tələb edildi ki, Azadıstanı tanısın. Hərəkatın qayəsi Təbrizdəki konsulluqlara da bildirildi.

Bolşeviklər həm Britaniya əleyhinə, həm də İranı sovetləşdirmək məqsədilə Xiyabani hərəkatından istifadə etmək istəyirdilər. Alman imperatoru Vilhelmdən sonra Vladimir Lenin Şərqdə müsəlmanların "Himayədarı" rolunda zühur etmişdi. Çoxlu bolşevik emisarları İrana göndərilmişdi. Sovet Rusiyasının fikrincə, onun diplomatiyası

İngiltərənin İranda mövqelərinə sarsıdıb sonuncunu öz himayəsinə salmalı idi. Ruslar belə düşünürdülər ki, Bratinyanı İrandan çıxarmadan oranı sovetləşdirmək mümkünsüzdür. Bolşevik hökumətinin fikrincə, "İranda ingilis təsirini qırmaq üçün Şahı yıxıb yeni dövlət yaratmaq lazımdır. Yeni dövlət yaransa, İngiltərəyə qarşı mübarizə asan olar".[21]

Heydər xan Əmioğlu N.Nərimanova məktubunda yazırdı: "Əgər biz iki min Tüfəng və buna uyğun sursat alsaq, mən Heydər xan sizi əmin edirəm ki, iki aydan sonra biz Tehranı alarıq".[22] Heydər xan Əmioğlunun arzusunda olduğu silah və hərbi sursat artıq onlar üçün ayrılmışdı. Bolşeviklər Təbrizdəki milli hərəkatı öz mənafelərinə tabe etmək üçün oraya öz adamlarını salmışdılar. Elə ilk günlərdə Şeyxin çıxış etdiyi Təbriz meydanında bolşeviklər qırmızı bayraq qaldırdılar. Lakin bu sonuncu hadisə oldu. Şeyx Təbriz meydanında bolşevik bayrağının qaldırılmasını qəti qadağan etdi. Bolşeviklər isə milli hərəkata qarşı düşmən mövqeyinə keçdilər. Onlar bütün vasitələrlə Təbrizdə milli hökumətin təşkil olunmasına qarşı çıxdılar. Hətta vali Eynüddövləyə öz yardım payını belə təklif etdilər. Alman konsulu isə Xiyabaniyə qarşı mübarizə aparmaq üçün konsulxanada bolşeviklərə yer ayırmışdı.

Təbriz üsyanı və xüsusilə orada bir günlük də olsa qarmızı bayrağın qalxması ingilislərin narahatlığını daha da artırdı. Onlar istəyirdilər ki, hay-küysüz Şeyxi aradan götürsünlər. Bu məqsəddə İngiltərə səfirliyinin siyasi idarəsinin rəisi M.Edmond guya vəziyyəti öyrənmək bəhanəsi ilə Təbrizə gəldi. Və Xiyabani ilə müxalif olan qüvvələrə onu devirmək üçün həm ingilis, həm də İran dövlətinin yardımını təklif etdi. Lakin Təbrizin müxalif qüvvələrinin sözü bu oldu ki, Şeyx bu İşləri Azərbaycan naminə etdiyindən biz ona qarşı dura bilmərik, onunla dava edə bilmərik. Təbriz müxaliflərinə ümidini itirən M.Edmond Xiyabaninin özü ilə görüşmək fikrinə düşdü. Görüş zamanı o

bildirdi ki, əgər Şeyx bolşeviklərdən uzaq olsa, ingilislər onunla düşmənçilik etməz. Təbrizdəki vəziyyət ingilisləri məcbur etdi ki, Güney Azərbaycandakı öz hərbi dəstələrini Tehrana doğru çəksinlər.

1920-ci il iyun ayının 24-də Şeyx Məhəmməd Xiyabaninin başçılığı ilə milli hökumət yaradıldı. O vəliəhdlərin iqamətgahı olan Alaqapıda fəaliyyətə başladı. Qocalmış və Tehrandan pul tələb etməkdən başqa bir şeyə yaramayan vali Eynuddövlə oğlu Şəmsülmülkü də götürüb Təbrizdən çıxdı. Şeyxin demokratik islahatları onun mövqeyini daha da möhkəmləndirdi. Milli hökumət Azərbaycanın bütün şəhərlərinə öz adamlarını göndərdi. Öz hərbi qüvvələrini formalaşdırdı. Maarif, mədəniyyət, səhiyyə, ədliyyə, vəqf, hərbi və s. sahələrlə bağlı nazirliklər yaradılmışdı. Lakin Şeyx milli haqlara və demokratiyaya İran daxilində qovuşmaq istəyirdi. Təbrizə İrana nicat verəcək qüvvə kimi baxırdı. Şeyxin müstəqillik anlayışı İran daxilində muxtariyyatdan qabağa getməmişdi. Baxmayaraq ki, Tehran qəzetləri onun Quzeyə üz tutaçağından çox ehtiyatlanırdılar.

Təbriz hadisələri Vüsuqdövlə hökumətinin süqutunu doğurdu. İngilislərin himayəsi ilə təşkil olunmuş Müşirüddövlə hökumətinin başlıca vəzifəsi "Azadıstana" son qoymaq idi. İngilislərin məsləhəti ilə Müxbirüssəltənə Azərbaycana vali təyin edildi. Bunların hər ikisinə İran cəmiyyətində müəyyən loyal münasibət var idi, hətta Şeyx də onlar haqqında pis fikirdə deyildi. Lakin o, Müxbirüssəltənəni qarşılamadı və onu Alaqapıya buraxmadı. Təbrizə qoşunla deyil, pul və siyasətlə gələn Müxbirüssəltənə tədricən narazı qüvvələri, şəhər yaxınlığındakı kazakları, milli hökumətə tabe olmayan Qaradağda həbs olunan Sədrari Əşayirin qardaşı Əmir Ərşadı öz tərəfinə çəkə bilmişdi. Baxmayaraq ki, kazak alayının başçısı və Əmir Ərşad öz hərəkətlərinə görə Şeyxdən üzr istəmişdi və milli hökumətə qarşı olmayacağını

bildirmişdilər. Müxbirüssəltənə şəhrivərin 21-də (sentyabrın 11 -də) gizli şəkildə kazak başçıları ilə görüşüb Təbrizin tutulma planını müzakirə etdi. 22 şəhrivərdə (12 sentyabrda) sübh çağı kazaklar Təbrizə qəflətən hücum edib Alaqapını tutdular. Bu zaman milli hökumətin qüvvələri təxribat nəticəsində şəhərdən çıxarılmış, Şeyxin ətrafında çox az adam qalmışdı. Xiyabani iki kecə Kaçı Şeyx həsən xanın evində qaldı. Şeyx həsən xanın Müxbirüssəltənədən can təhlükəsizliyi istəmək təklifinə cavab olaraq o dedi: "Mən ölməyi təslim olmaqdan üstün tuturam. Düşmənlərin qarşısında diz çökmərəm. Mən məşrutiyyət dövrünün uşağıyam. Ərəb xilafətinə baş əyməyən Babək Xürrəminin sülaləsindənəm".[23]

Sentyabrın 14-də günortadan sonra kazaklar onun gizləndiyi yeri tapıb Şeyxə atəş açdılar. Onu qan içində küçənin ortasına atıb döyməyə başladılar, qolunu sındırdılar və Şeyx canını tapşırdı. Onun cənazəsini nərdivan üzərinə qoyub Müxbirüssəltənənin hüzuruna apardılar. Öz nitqləri ilə, əməlləri ilə bütün Azərbaycanı təlatümə gətirən demokratiya işığı söndürüləndə Şeyx ömrünün qırxıncı payızını hələ yaşamamışdı. Onun ölümü ilə İranda sabitlik yaranmadı. Qacarlar 1921-ci ildə səltənət tacını itirdilər. Rus kreditləri ilə Avropada uzun sürən səyahətlər onlara baha başa gəldi. Daha çox qumarbazlığı ilə ad çıxarmış kazak alayının başçısı Rza xan dövlət çevrilişi etdi və asanlıqla Qacar tacını ələ keçirdi. Soltan Əhməd şahın bibisi, Məhəmmədəli Mirzənin bacısı Fəxrüssəltənə Rza şahı Qacarların tacını oğurlamaqda ittiham edərkən Pəhləvi adı ilə səltənətə sahib olmuş Rza şah dedi: "Xanım, mən Qacarın tacını oğurlamadım: tac düşmüşdü küçəyə, onu götürüb qoydum öz başıma". Bundan sonra ağır bir dövr başladı. Əvvəllər paytaxt olmuş Təbriz Vəliəhdnişin məqamını da itirdi və 25 il yeni inqilabı gözləməli oldu...

### III. Güney Azərbaycan Sovetlərin hərbi-strateji planlarında

Şeyx Məhəmməd Xiyabani qəddarçasına qətlə yetirildikdən sonra İran hakim dairələrinin, ingilislərin və rusların əsas diqtəti Azərbaycana yönəlmişdi. Rusların yeni İran qurmaq planı Qacarların devrilməsi ilə nəticələndi. 1921-ci il fevralın 21-də

Rza xan rusların yardımı ilə dövlət çevrilişi etdi. Bundan 5 gün sonra Sovetlərlə məşhur 26 fevral 1921-ci il müqaviləsi bağlandı.[1] Rusiya məqsədlərinə nail oldu. Lakin İngiltərə də İranda öz mövqelərini itirmək fikrində deyildi. 1923-25-ci illərin baş nazirliyi Rza xan üçün səltənət tacını ələ keçirmək məqamı oldu. 12 dekabr 1925-ci ildə o, Britaniyanın yardımı ilə şahlıq taxtına oturdu. Özünə dayaq yaratmaq məqsədilə Rza şah İranda Azərbaycana qarşı yönəlmiş antitürk siyasəti yeritməyə başladı. O, əsrin əvvəllərindən iki dəfə inqilab etmiş, ayağa qalxmış Azərbaycana qarşı dura
bilmək üçün Pəhləvi səltənətinin dayaqlarını farsçılıq ideologiyasına və siyasətinə dayadı.

Azərbaycanın paytaxt şəhəri, vəliəhdlərin iqamətgahı olan Təbriz Rza şah diktaturası dövründə tədricən İranın onlarla şəhərlərindən birinə çevrildi. Arxiv sənədində deyilir: "Rza şah diktaturası dövründə İran hakimiyyəti Azərbaycanın mədəni-təsərrüfat inkişafına, şəhərlərinin və kəndlərinin qurulmasına heç bir diqtət yetirmədi. Azərbaycanın bütün sərvətləri İranın digər vilayətlərində yeni şəhərləriй, dəmir və avtomobil yollarının tikilməsi üçün daşınıb aparılırdı. Tehran şəhəri bütövlükdə Azərbaycanın hesabına yenidən tikildi. Bununla eyni vaxtda Azərbaycanın mədəni-siyasi mərkəzi, keçmişdə İranın ən böyük ticarət mərkəzi olan Təbriz tədricən dağılmağa başladı".[2] Rza şah 1925-26-cı illərdən başlayaraq zorla Azərbaycanın başına "Pəhləvi" papağı geyindirməyə çalışırdı. Türk tayfa başçılarının, o cümlədən şahsevənlərin səfəviyyə və Qacarlar dövründə verilmiş

irsi hüquqlarının 20-ci illərdə ləğv edilməsi və mülklərinin məhdudlaşdırılması ciddi narazılıq doğurmuşdu.[3] 1939-cu ilin başlanğıcında ictimai fikrin tərbiyə edilməsi haqqında fərman ədəbiyyatı, sənəti, maarif və mədəniyyəti bütövlükdə farslaşdırma siyasətinin alətinə çevirirdi. Farslaşdırma isə öz növbəsində monarxa xidmət etməli idi. Böyük Vətən müharibəsindən əvvəl Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov İ.Stalinə Güney Azərbaycanla bağlı göndərdiyi məlumatda qeyd edirdi: "Rza şah diktaturası dövründə Azərbaycan əhalisi nəinki yüksək vəzifələrə, heç dövlət aparatında orta və kiçik vəzifələrə belə yaxın buraxılmırlar. Belə bir vəziyyət orduda da hökm sürür, ordudan yüksək komanda heylətində azərbaycanlılara nadir hallarda təsadüf edilir. Fars dilini İranda dövlət dili etməkdən şah hökuməti Güney Azərbaycanın dövlət orqanlarını farslaşdırma məqsədilə istifalə edir. Məktəblərdən Azərbaycan dili tamam sıxışdırılıb çıxarılıb, tədris yalnız fars dilində aparılır. İdarələrdə bütün yazışmalar fars dilindədir. Rəsmi idarələrdə azərbaycan dili qəti qadağan edilib. Vəzifəli şəxslərə Azərbaycan dilində müraciət etmək yasaqdır. Fars çinovnikin lduğuyerdə zərbaycanlıların öz aralarında ana dilində danışmaqlarına icazə verilmir".[4] Rza şah dövründə Azərbaycan elə miskin bir vəziyyətə salındı ki, Sovetlərin Güneydə topladığı siyasi xarakterli məlumatı Quzey Azərbaycanın çarlıq dövrü ilə müqayisə edib bu nəticəyə gəlirdilər: Xalqlar həbsxanası adlanan çar Rusiyasında azərbaycanlıların maddi-mədəni vəziyyəti, milli haqları Rza şahın diktatorluğu dövründə Güney Azərbaycan əhalisinin vəziyyətindən xeyli yaxşı idi. Çar dövründə azərbaycanlılar kec də olsa ana dilində oxumaq, qəzet-jurnal nəşr etmək haqqını ala bilmişdilər.[5] Təqib və repressiyalar Güney türklərinin etirazını, İrandaxili demoqrafiyasını və mühacirət meylini doğurmuşdu. Yalnız 1940-cı ildə 261 nəfər gizli yolla Sovet Azərbaycanına keçməyə cəhd etmişdi.[6] 1939-cu ilin sonunda İran hakimiyyət orqanlarına qarşı olan

çıxışları yatırmaq üçün Ərdəbilə böyük ordu göndərilmişdi. 1940-cı ilin ortalarında və oktyabrında Təbrizdə, 1940-cı ilin sonunda Əhərdə belə çıxışlar olmuşdu.

1938-ci ildə keçirilən ərazi inzibati islahatı siyasi-ideoloji baxımdan İranlaşdırma məqsədi küdürdü. İslahata görə İran 10 ostana, 49 şəhristana, 290 bəxşə bölünürdü ki, burada da əsas məqsəd Azərbaycan türklərinin və digər xalqların tarixən formalaşmış milli, etnik, inzibati, mədəni birliyinə, daha dərinə getsək Vətən anlayışına son qoymaq idi.[7] Şimal Şərqi Azərbaycan Mərkəzi Təbriz olmaqla 3-cü Ostan, Qərbi Azərbaycan mərkəzi Urmiyə olmağa 4-cü ostanın tərkibinə daxil edilmişdi. Hər iki ostan Təbriz, Marağa, Sərab, Ərdəbil, Xalxal, Əhər, Astara, Maku, Xoy, Urmiyə, Mehabad, Soucbulağ, Bicar, Mianə və digər əraziləri əhatə edirdi. Yeni inzibati bölgü nəticəsində əhalinin bütövlükdə türklərdən ibarət olan Zəncan və Qəzvin, habelə türklərin üstünlük təşkil etdiyi Həmədan, Sultanabad, Rəşt, Pəhləvi və digər ərazilər Azərbaycandan kənarda qalırdı.

Müharibə ərəfəsində Güney Azərbaycan haqqında hazırlanmış arayışda göstərilirdi: "Nə coğrafi, nə də etnoqrafik baxımdan Güney Azərbaycanın cənub sərhədlərini düzgün hesab etmək olmaz. Belə ki, İran ərazisi Həmədana qədər, hətta Həmədandan cənuba Sultanabada qədər türklərin yaşadığı ərazilərdir (Sənəddə mötərizə içərisində yazılır: İranda azərbaycanlıları türk adlandırırlar). Zəncan Şəhristanı bütövlükdən türklərindir. Tehrandan cənubda Qum şəhəri ətrafındakı kəndlərdə ancaq türklər yaşayırlar".[8]

Azərbaycan Dövlət Təhlükəsizlik Komissarlığının "Güney Azərbaycanın siyasi-iqtisadi durumu haqqındakı xüsusi arayışında Rəşt, Pəhləvi, Qəzvin və Zəncan şəhristanlarının daxil olduğu 1-ci ostanın formal olaraq Azərbaycandan ayrıldığı qeyd edilir. 1938-ci ilin inzibati bölgüsü Güney Azərbaycanın sərhədləri, ərazisi

və əhalisinin sayı barədə düzgün məlumat almağı xeyli çətinləşdirmiş və ziddiyyətli fikirlər doğurmuşdur. Güney Azərbaycanın şimal və şimal-şərqdə müharibə ərəfəsində Sovetlər Birliyi ilə 770 km sərhəd xətti Qara su çayının Araza töküldüyü yerdən Astara çayının Xəzərə töküldüyü yerə qədər uzanırdı. Bu sərhəd xətti vaxtilə Rusiya ilə İran arasında imzalanmış 12 sentyabr 1723-cü il Peterburq traktatı, 12 oktyabr 1813-cü il Gülüstan, 10 fevral 1828-ci il Türkmənçay müqavilələri, 9 dekabr 1881-ci il, 27 may 1893-cü il Tehran konvensiyaları, 26 fevral 1921-ci il Sovet-İran müqaviləsi ilə müəyyənləşmişdi.[9] Güney Azərbaycanın Qərbdə 376 km Türkiyə ilə, Şeyxsən - Rəvandüz yolu boyunca İraqla sərhədləri vardı. Şərqdə bu sərhədlər Xəzər boyunca uzanır, cənubda isə təxmini xarakter daşıyırdı. Buna uyğun olaraq İkinci dünya müharibəsi ərəfəsində Azərbaycanın ərazisi barədə müxtəlif fikirlər söylənilmişdir. M.C.Bağırov Stalin üçün hazırladığı məcmumatda Güney Azərbaycanın 230 min kv. km sahəsi olduğunu yazır.[10]

Dövlət Təhlükəsizliyi Komissarlığının xüsusi arayışında 170 min kv. km, Sovet ordusunun 5-ci idarəsinin məlumatları 1938-ci il inzibati ərazi bölgüsünə əsaslandığından 3-cü və 4-cü ostanın ərazisi olaraq 102 min kv. km,[12] Azərbaycan Xalq Daxili İşlər Nazirliyinin 3-cü şöbəsində agentura materialı əsasında hazırladığı "Güney Azərbaycanın siyasi iqtisadi təsvirində ərazi daha az 80 min kv. km 13 göstərilir. Sovet dövrünün nəşrlərində Güneyin ərazisinin 109 min kv. km-dən bir qədər artıq olduğu qeyd edilir. Lakin Zəncan, Qəzvin, Rəşt, Həmədan və Güney türklərinin yaşadığı ərazilər sovet nəşrlərinin istinad etdiyi rəqəmə daxil edilməmişdi. Müqayisəli götürdükdə Dövlət Təhlükəsizliyi orqanlarının məllumatında göstərilən 170 min kv. km ərazi gerçəkliyə daha yaxındır.

Sovet müdaxiləsi ərəfəsində Güney türklərinin sayı barədə də fikir müxtəlifliyi var. 1932-ci ildə İran

coğrafiyasını hazırlamış Keyhani əhalinin sayını 2 mln. nəfər, az sonra "İranın hərbi coğrafiyası"nı hazırlamış Əhməd xan Azərbaycan əhalisinin sayını 3 mln. nəfər göstərir. 1928-29-cu il pasportlaşması zamanı Azərbaycanda 1216400 seçilnamə verilmişdi.[14] M.C.Bağırovun mərkəzə hazırladığı geniş məruzədə göstərilir ki, İran əhalisinin sayı 16.850 mln nəfərdir. 1939-cu il məlumatına görə Azərbaycanda 4,2 mln. nəfər əhali yaşayır, bunun 3,2 mln. nəfəri türklərdir. Eyni zamanda Bağırov öz məlumatında göstərir ki, Güney Azərbaycandan kənarda, İranın müxtəlif yerlərində bir mln. nəfər türk əhalisi yaşayır.[15] Bu məlumat Zaqafqaziya hərbi dairəsinin siyasi idarəsinin yeddinci şöbəsinin "Güney Azərbaycan: qısa tarixi-etnoqrafik və iqtisadi oçerk" adı ilə hazırladığı materiallarla üst-üstə düşür. Lakin İkinci Dünya müharibəsi başlandıqdan sonra Güney Azərbaycan Sovetlər Birliyinin hərbi-strateji planlarına daxil olduğundan bir sıra hərbi, iqtisadi, texniki məlumatlar müəyyən qədər dəqiqləşdirildi. Eyni zamanda təxminən müəyyənləşdirildi ki, Güney Azərbaycanda 5,5 mln. nəfər əhali yaşayır ki, bunun 80%-dən bir qədər artığı türk, 10%-i kürd, 5%-i fars, qalan hissəsi isə talış, kilək, aysor, erməni və s. ibarətdir.[16]

Azərbaycanın ən böyük şəhəri olan Təbrizdə 300.000, Təbriz şəhristanı kəndlərində (268 kənd) 139.608 nəfər əhali yaşayırdı ki, bunun da 85%-dən çoxu türklər idi. Ərdəbildə 424 kəndlə birlikdə 269.211 nəfər, Xoy şəhristanında 760.000, Urmiyədə 200.000, Zəncanda 238.000, Qəzvində 450.000, Rəştdə 450.000 və s. əhali yaşayırdı. Güney Azərbaycan əhalisinin 20%-i şəhərlərdə, 80%-i kəndlərlə yaşayırdı. Azərbaycan bütün İran üzrə əhalinin ən sıx yaşadığı region idi.[17] Hər kvadrat kilemetrə 12-14 nəfər, bəzi yerlərdə 14-20 nəfər adam düşürdü. Halbuki İranın qalan ərazisində bu göstərici 8-9 nəfər idi.[18] Əhali sayımı ilə bağlı qeyd edək ki, 1937-1938-ci illərdə Quzey Azərbaycandan 50 min adam sovet vətəndaşlığını qəbul etmədiyi üçün köhnə

İran təbəqələri kimi Güney Azərbaycanına sürgün edilmişdi.[19] Özləri ilə çoxlu Sovet onluqlarını apardıqlarından əhali arasında onlara "çervonlular" deyirdilər.

İkinci Dünya müharibəsi ərəfəsində Güney Azərbaycanda [1] mln. ton taxıl, 256 min ton çəltik, 24 min ton noxud, 135 min sentner pambıq yışlırdı. Sovetlərin strateji məlumatında göstərilirdi ki, güneydə pambığın əkin sahəsini.27 min hektardan 160 min hektara qaldırmaq mümkündür. 30-cu illərin sonunda Güneydə 7 mln. xırda buynuzlu, 720 min baş iri buynuzlu mal-qaranın, 15 min qatır, 15 min dəvə və s. olduğu göstərilir.[20]

İkinci dünya müharibəsinin ilk günlərində Qərbi Ukrayna və Qərbi Belarusiya məsələlərinin həll edilməsi sovetlərin Güney Azərbaycana marağını artırmışdı. 1940-cı ilin ilk günlərindən Güney problemi Moskvanın hərbi strateji planlarına daxil edilmişdi. Sovetlər Birliyi üçün bu ilk növbədə ərazi ekspansiyası məqsədləri güdürdü. İkincisi, hərbi strateji baxımdan 15 yanvar 1915-ci ildə Türk - Alman blokunun birinci dünya müharibəsinin ilk aylarında Təbrizi tutması yaddan çıxmamışdı. Üçünçüsü, Güney Azərbaycandan geçən dəmir və atomobil yolları İran körfəzinə, Yaxın Şərqi hiйdistan və Uzaq Şərqlə birləşdirən dəniz yollarına çıxırdı. Ən nəhayət, dördünçüsü, Sovetlər ehtiyat edirdi ki, Güney Azərbaycanın, Xəzərin cənubunun strateji, yanacaq energetika ehtiyatları Almaniyanın, İngiltərənin əlinə geçə bilər. Sovet siyasi rəhbərliyinə bəlli idi ki, İrandakı Alman rezidenti A.F.İləl hələ XIX əsrin sonunda Güney Azərbaycanı öyrənmiş, öz ölkəsinə iqtisadi, hərbi, strateji xarakterli hesabatlar vermişdi. Tanınmış rus geoloqu, prof.D.V.Qolubyatnikov hələ 1916-cı ildə Xəzərin cənubunda, Gilan, Mazandaran və Astarabadda böyük neft ehtiyatlarının olduğunu söyləmişdi. Qolubyatnikovun "Şimali İranın neft yataqları" adlı araşdırmaları 1921-ci ildə nəşr edilmişdi. Sovet kəşfiyyatının iqtisadi xarakterli məlumatlarında da Xəzərin

cənubunda və Azərbaycanda böyük yanacaq-energetika ehtiyatlarının olduğu göstərilirdi.

İkinci dünya müharibəsi başlandıqdan sonra 4 sentyabr 1939-cu ildə İran neytrallıq haqqında bəyanat versə də, Almaniya ilə əməkdaşlıq strateji xətt olaraq qalırdı. 1936-cı ilin Kihrinq sazişi Almaniyanı İranın xarici ticarətində 2-ci yerə çıxarmışdı. Almanlar İranın 50-yə yaxın dövlət müəssisələrində öz adamlarını yerləşdirə bilmişdilər. Hərbi idarələrdə mühəndis, texnik, məsləhətçi və s. adlar altında Almaniyanın hərbi və xüsusi idarələrinin nümayəndələri yerləşdirilmişdi. Almaniya qeyri-qanuni yollarla İrandan yüksək keyfiyyətli benzin çıxara bilirdi.

Dünya müharibəsi ərəfəsində və müharibənin ilk vaxtlarında alman firmalarının nümayəndələri adı altında xüsusi xidmət orqanlarının işçiləri Təbriz, Maku, Xoy, Mianə, Mərənd kimi şəhərlərdə də yerləşdirilmişdi. 1941-ci ilin əvvəllərində Almaniya gizli yolla İrana 11.000 ton silah və sursat gətirmişdi. İranın "turist düşərgələrində" istirahət edənlərin çoxunun hərbçi olması barədə kəşfiyyat materialları var idi. 1941-ci ilin iyul-avqust aylarında minə qədər mülkü geyimli alman zabitlərinin Ərzurum yolu ilə İrana keçməsi müşahidə edilmişdi. Rusların köməyi ilə dövlət çevrilişi etmiş, ingilislərin köməyi ilə səltənəti ələ keçirmiş Rza şah Almaniya yardımı ilə XX əsri İranda "Pəhləvinin qızıl əsrinə" çevirmək ümidində idi.21 SSRİ-nin İrandakı müvəqqəti İşlər vəkşş Xarici İşlər Nazirliyinə hesabatında yazırdı: Almaniyanın Qərb cəbhəsindəki uğurları və iqtisadi təlsir imkanlarının yüksəlməsi ilə bağlı İranda almanpərəst meyl ciddi şəkildə güclənmişdir; Britaniyanın Qərbdə və Liviyada məğlubiyyətləri ingilis təsirini xeyli aşağı salmışdı; Türkiyə istisna olmaqla İranın Almaniya ilə əsas tranzit yolu SSRİ-dən keçdiyi üçün Sovet İttifaqı ilə münasibətlərinə ehtiyatla yanaşılır.[22]

1941-ci ilin yazında Yuqoslaviya və Yunanıstan işğal edildikdən sonra İranın xarici siyasətində Almaniyaya söykənmək qəti şəkil aldı. Almaniyanın məğlubedilməzliyi fonunda qarşıdakı böyük müharibədə Zaqafqaziyanın və Orta Asiyanın 16 şəhərinin İrana birləşdirilməsi barədə planlar cızılırdı.[23] Eyni zamanda Molotovun tapşırığı ilə İranın 1919-cu ildə Paris sülh konfransına tələbləri ətraflı şəkildə öyrənilmişdi. Onun fikrincə, İranın köhnə tələbləri ilə yeni arzuları üst-üstə düşürdü. SSRİ Xalq Xarici İşlər Komissarlığı 1940-cı ilin aprelində İran məclisinin qərarı ilə məclisin mətbəəsində nəşr edilmiş "İran dövlətinin yeni ərazi inzibati bölgüsü" adlı xəritəni əldə etmişdi. Xəritənin altında belə bir qeyd vardı: "Türkiyə ilə sərhədləri çıxmaq şərtilə İranın digər sərhədləri rəsmi xarakter daşımır".[24] Bakıda yeni konsulluq üçün şəhadətnamə almaq məqsədilə İran səfirliyinin Rza şah və xarici İşlər nazirinin imzaladığı XXIK-na 17 may 1940-cı il 643 nömrəli notasında Azərbaycan SSR "Qafqaz Azərbaycanı" kimi verilmişdi. Dövlət Təhlükəsizliyi orqanlarının yoxlamaları nəticəsində aydın oldu ki, baş konsul XXIK-na göndərdiyi rəsmi sənədlərin fars mətnində öz vəzifəsini belə yazır "Şahənşahın Qafqaz Azərbaycanında baş konsulu". SSRİ Xarici İşlər Nazirliyinin Bakıdakı müvəkkilənə yazdığı məktubları baş konsulluq "Xarici İşlər üzrə Komissarlığın Qafqaz Azərbaycanındakı nümayədəliyinə" kimi ünvanlayırdı. Rəsmi yazışmalarında o, Bakının adını əski fars dilində olduğu kimi "Bad Kubə" yazırmış.[25]

Bütün bunlar sovetlərə şübhələnmək üçün əlavə imkanlar vermişdi. Artıq 1939-cu ilin payızından başlayaraq Sovet İttifaqı Güney Azərbaycanla bağlı hərbi, siyasi, iqtisadi, strateji məlumatları çox diqtətlə toplayırdı. 1938-ci ildə İran təbəələrinin Sovet Azərbaycanından sürgünü prosesində SSRİ xüsusi xidmət idarələri öz adamlarını da İrəvana göndərilən 50 min əhalinin içinə qatmışdı. Sovet hərbi

kəşfiyyatı 1940-cı ildə Güney Azərbaycanda olan bütün sənaye obyektlərinin Kartetekasını hazırlamışdı.

90 sənaye müəssisəsinin, 25 elektrik stansiyasının bütün texniki göstəriciləri bu kartetekalarda öz əksini tapmışdı.[26] 1940-cı ildə Qızıl Ordunun 5-ci idarəsi "İran Azərbaycanın hərbi coğrafi təsviri"ni hazırlamışdı. Ən kiçik detallara belə təsvirlərdə diqtət yetirilmişdi. Məsələn, Güney Azərbaycan çaylarının hər kiləmetrdən bir dərinlik səviyyəsi verilirdi. Orada göstərilirdi: Qara su çayının Araza qovuşduğu ərazidən Qaracadağ dağlarına qədər bütün ordu növlərndən istifadə etmək olar. Qaradağdan Astaraya qədər meşə və kolluqlarla əhatə olunmuş dağ zirvələri çətin keçilən ərazilər hesab edilir. Dağ hissələrini çıxmaqla heç piyada qoşunlardan da bu ərazidə istifadə etmək olmaz.[27]

1941-ci ilin yanvarında Moskvada 216 səhifədən ibarət "Güney Azərbaycanın texniki-iqtisadi icmalı" hazırlanmışdı. 1920-40-ci illər arasında Güney Azərbaycanın siyasi, iqtisadi, coğrafi, sənayesi, kənd təsərrüfatı, və nəqliyyatı, əhalisi, şəhərləri və s. məsələləri texniki-iqtisadi icmalda əks olunmuşdu.28

1941-ci ilin martında M.C.Bağırovun Stalinə göndərdiyi 35 səhifəlik "Güney Azərbaycan haqqında qısa arayış"da faktların zənginliyi baxımından diqtəti cəlb edir. Bu əlyazmada Azərbaycan haqda qısa tarixi məlumat, Güney Azərbaycan və onun sərhədləri, əhalisi, şəhərləri və yaşayış məntəqələri, əhalisinin mədəni səviyyəsi, kənd təsərrüfatı, əkinçilik və torpaqdan istifadə, ticarət, milli məsələ, əhalinin əhvali-ruhiyyəsi ətraflı şəkildə təhlil edilmişdir. O, yazırdı: İranın şah hökuməti azərbaycan xalqının Sovet Azərbaycanına qovuşmaq istəyini bildiyindən hər gün polis rejimini və cəza tədbirlərini küclǝndirir.[29]

Müdaxilə ərəfəsində sovet kəşfiyyatı İran ordusunun, o cümlədən Güneydəki hərbi hissələrin sayı, komanda Heyəti, döyüş qabiliyyəti, kəşfiyyat imkanları barədə müfəssəl məlumatlar almışdı. SSRİ barədə

kəşfiyyat materilları toplayan zabitlərin siyahısı Baş qərargaha verilmişdi. İran hərbi kəşfiyyatı tərəfindən hazırlanan Bakının müfəssəl şəkildə işlənmiş baş planı sovet xüsusi idarələri tərəfindən əldə edilmişdi. İran generallarının hansı ünvavda yaşadıqları da daxil ən kiçik detallar belə bu materiallarda əks olunmuşdu. İran ordusunda xidmət edən 6300 nəfər yüksək rütbəli zabitdən 602-si haqda Baş qərargahın məruzə-arayışında məlumat verilmişdi. Bunlardan 55-ə qədəri korpus, diviziya, briqada generalları idi. İran ordusunun şəxsi Heyətiйn 200 min nəfər olduğu göstərilir.[30] Rza şahın hay-küyünə baxmayaraq ordunun müqavimət imkanlarının zəif olduğu müəyyənləşdirilmişdi.

Sovet qoşunlarının müdaxiləsi ərəfəsində 1941-ci ilin may-iyun aylarında Azərbaycan Sovet Respublikasından hərbçi adı ilə Güneyə göndəriləcək 3816 nəfər mülki şəxs səfərbər edilmiş, 52 briqada formalaşdırılmışdı. Bunların 12 nəfəri yüksək vəzifəli partiya işçiləri, 70 nəfəri rəhbər partiya, 100 nəfəri sovet orqanlarında işləyənlər, 200 nəfəri təhlükəsizlik orqanlarının, 400 nəfəri milis, 70 nəföri prokurorluq, 90 nəfəri məhkəmə, 150 nəfəri nəşriyyat və mətbuat orqanları işçiləri idi. Səfərbər edilənlər arasında 245 dəmiryolçu, 42 neftçi-geoloq və s. var idi. Güneyə göndəriləcək Sovet Azərbaycanı missiyasına Azərbaycan KP MK-nın üçüncü katibi Əziz Əliyev rəhbər təyin edilmişdi. [31]

Ən nəhayət, Güney Azərbaycana müdaxilə ərəfəsində Sovet hərbi kəşfiyyatı onu da müəyyən etmişdi ki, İran və Türkiyə ilə bağlı yaranmış böhranlı vəziyyətdən istifadə edib ermənilər və onların siyasi partiyaları Qarsdan Təbrizəcən Sovet Ermənistanı da daxil olmaqla Böyük Ermənistan" yaratmaq barədə fikirləşirlər".[32]

1941-ci ilin iyun-iyul aylarında Sovetlər artıq İrana üç hədələyici Nota vermişdi. Zaqafqaziyadakı 47-ci ordu Güney Azərbaycan sərhədlərində dayanmışdı. «ran şəhrivər hadisələri ərəfəsində idi...

## IV.**Sovetlərin İrana müdaxiləsi və Güney Azərbaycanda möhkəmlənməsi (avqust-dekabr 1941)**

Almaniyanın Sovetlərə hücumundan sonra Zaqafqaziyadakı 47-ci ordunun Güney Azərbaycana daxil olması üçün şərait yetişdi. 1941-ci il iyun ayının sonunda Britaniya xarici İşlər naziri A.İden İranın Londondakı səlahiyyətli naziri Əli Müqəddimini qəbul etdi. Almaniyanın İrandakı fəaliyyəti, Sovetlərdən təhlükənin artması danışıqların əsas mövzusu oldu. İden tələb etdi ki, almanların İrandakı şübhəli fəaliyyətinə son qoyulsun. İyul ayının 10-da Britaniya Xarici İşlər naziri Londondakı Sovet səfiri İvan Mayski ilə görüşdü. Əsas müzakirə mövzusu İrandakı alman təhlükəsi idi. Bu məsələ Britaniya Nazirlər Kabinetinin qapalı iclasında da müzakirə edilmişdi.[1] Britaniya hökuməti bir tərəfdən Almaniyanın İranın cənubunda İngiltərənin nəzarətində olan neft rayonuna girməsindən ehtiyat edirdi, digər tərəfdən Sovetlərin İrana daxil olub cənuba doğru irəliləmək ehtimalından narahatlıq keçirirdi. İngilislərə məllum idi ki, Sovetlər İrana daxil olacaq, lakin strateji baxımdan onlar istəmirdilər ki, SSRİ cənubun isti dənizlərinə çıxsın, yanacaqla zənkin olan rayonları öz nəzarətinə götürsün. İyulun 19-da Britaniya Nazirlər Kabineti İranın cənubuna daxil olmaq barədə gizli qərar qəbul etmişdi. Britaniyanın planına görə, müttəfiq orduları Həmədanla Qəzvin arasında görüşməli, lakin Tehrana daxil olmamalı idilər. U.Çerçill Stalinə yazırdı: "Bizim fikrimizcə yaxşı olar ki, indiki dövrdə nə biz, nə də siz Tehrana daxil olaq".[2]

İyul ayının sonlarında Zaqafqaziya cəbhəsində və sərhəd qoşunlarında hərbi hazırlıq elan edildi. İyulun 25-i ilə avqustun 5-i arasında hücum əməliyyatında son dəqiqləşdirmələr aparıldı. İşğal ediləcək şəhərlərin, yaşayış məntəqələrinin, tutulacaq, məhv ediləcək sənaye və hərbi obyektlərin planı təsdiq edildi. Avqustun 20-də

hücum əməliyyatı ilə bağlı sənədlər çox məxfi olaraq müvafiq yerlərə göndəriddi.[3] Dövlət Müdafiə Komitəsinin qərarı ilə Zaqafqaziya Cəbhəsi hərbi Şurasının əmrinə əsasən Güney Azərbaycan sərhədlərində dayanmış Sovet qoşunları avqust ayının 25-də kecə saat 2-də hərbi əməliyyata başladı. Kecə saat 5-ə qədər Naxçıvandan Xəzərin cənubuna doğru bütün istiqamətlərdən SSRİ sərhəd qoşunları, 44-cü və 47-ci ordular, Xəzər donanması, Zaqafqaziyadakı 8-ci aviakorpus, Yevlaxdakı 132-ci aviadiviziya artıq Güney Azərbaycanda və Xəzərin cənubunda hərbi əməliyyatlara başlamışdı. İran ordusunun arxa ilə rabitə əlaqəsi kəsildi, saat 5.00-dan 6.30-a qədər bütün ön cəbhə ləğv edildi. Müəyyən yerlərdə müqavimət gündüz saat 12.00-dan 13.00-a dək davam etdi.[4] İran ordusu demək olar ki, vuruşmadı. Baş qərargah ehtiyat hissələri cəbhəyə göndərə bilmədi. Rza şahın müqavimət göstərmək əmrinə baxmayaraq, əsgərlər və zabitlər silahı və hərbi sursatı tökərək sürətlə qaçdılar. Avqustun 28-də İran ordusunun müqaviməti rəsmən dayandırıldı. Sovet qoşunları Güney Azərbaycan, Gilan, Mazandaran və Xorasanı tutdu. Eyni zamanda hərbi əməliyyatlara başlayan Britaniya on iki hind diviziyası ilə Kirmanşah, Abadan, Xorrəmabad, Məcidi-Süleymaniyyə, hörmüz, Bəndər Deylim xəttinə çıxdı. Avqust ayının 27-də Əli Mənsur hökuməti istefa verdi. Səhəri gün İran Məclisi Mirzə Məhəmməd Əli xan Foruqi hökumətinin tərkibini, SSRİ və Britaniya qoşunlarına qarşı müqaviməti dayandırmaq barədə hökumətin qərarını təsdiq etdi. Qısa sürən hərbi əməliyyatlarda İrandan 106 nəfər həlak oddu, 320 nəfər əsir götürüldü. Bilavasitə döyüşlərdə Sovetlər 6 nəfər itirdi, 18 nəfər yaralandı, 9 nəfər Arazı geçərkən boğuldu.[5] Sovet aviasiyası 25-26 avqust hadisələri zamanı ciddi itkilər verdi. 10 hərbi təyyarə 25 nəfərlik Heyəti ilə birlikdə sıradan çıxdı.[6] Lakin bu, döyüş əməliyyatları ilə bağlı olmayıb, zabitlərin səhlənkarlığı, sərxoşluğu və yerli şəraiti, meteroloji vəziyyəti bilməmələri ilə bağlı idi. Sovet ordusunun

Güney Azərbaycana daxil olduğu ilk dövrlərdə soyğunçuluq hərəkətləri barədə arxiv sənədlərində onlarça fakt mövcuddur. Müdaxilə dövründə imkanlı adamların çoxu təcili şəkildə Azərbaycanı tərk edirdi. Avqustun sonu, sentyabrın əvvəllərində keçirilən hərbi əməliyyatlarda Azərbaycan SSR-dən yalnız çekist qrupu iştirak edirdi. S.Yemelyanov başda olmaqla bu qrupun iştirakının müəyyən əhəmiyyəti oldu. Belə ki, Ermənistan SSR-dən çekist qrupuna rəhbərlik edən daxili İşlər nazirinin müavini Gözəlyan Ermənistan rəhbərliyinin fikrini belə açıqlamışdı ki, guya Sovet qoşunlarının işğal etdiyi "İran ərazisi" Azərbaycanla Ermənistan arasında təsir dairəsinə bölünməlidir. Onların fikrincə, Təbriz Ermənistanın respublika orqanlarına tabe edilməli idi. Ancaq ona görə ki, Ermənistanın əməliyyat işçiləri guya orada işə başlayıblar. Ermənistanın xüsusi xidmət orqanları əsaslandırmağa çalışırdı ki, Ermənistan Təbrizdə daha çox maraqlıdır, nəinki Azərbaycan.[7] Azərbaycan əməliyyatçılarının avqust ayının 29-da verdiyi bu məlumat M.C.Bağırovu daha fəal olmağa sövq etdi. O, Güney Azərbaycan üçün Qərbi Ukrayna, Qərbi Belorusiya məqamının yetişdiyini zənn edirdi. Azərbaycan SSR-dən Güneyə göndərilmək üçün səfərbər edilmiş "Əziz Əliyev qrupu" əslində bu məqsədə xidmət etməli idi. Hələ avqustun 26-da M.C.Bağırovun Stalinə göndərdiyi şifrəli teleqramda göstərilirdi: "Bizim qoşunların irəliləməsi bir sıra məsələlər doğurmuşdur, həmin məsələlərin həlli üçün göstərİşlərinizi gözləyirik. Birincisi, bizim hissələrin İrana daxil olması əhali tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır, lakin eyni zamanda yerli hakimiyyət orqanları qaçırlar. Bizim hissələr isə böyük yaşayış məntəqələrində qayda-qanun və normal həyat yaratmaq üçün öz nümayəndələrini qoymurlar. Nəticədə belə faktlar var ki, dükanlar bağlıdır, hakimiyyət orqanları yoxdur, əhalinin zəruri mallara ehtiyacı ödənilmir. İkincisi, İran hakimiyyət orqanları mülkədarları və köçəri tayfaları bizə qarşı silahlandırırlar, Sovet

hərbi hissələri isə keçdiyi yerlərdən İran ordsunun töküb getdiyi silahları yığmamışdır. Ona görə də bizim ordunun arxasında silahlı çıxışlar ola bilər. Üçüncüsü, bizim ordu sürətlə irəlilədiyi üçün əhali içərisində izahat işi apara bilmir".[8] M.C.Bağırov çalışırdı ki, vəziyyətə nəzarət etmək üçün "Əziz Əliyev qrupu" Təbrizə tez daxil olsun. Lakin avqustun 28-də Stalindən Bakıya gələn teleqramda göstərilirdi: "İranda vəziyyət hələ aydın deyil. Vəziyyət üç-dörd gündən sonra aydınlaşaçaq. Siz bütün suallarınızla bağlı direktivləri üç gündən sonra alacaqsınız".[9] Güneydə bilavasitə vəziyyətlə tanış olmaq üçün M.C.Bağırov məxfi şəkildə Naxçıvan vasitəsilə Təbrizə getdi. O deyirdi: "Mən Naxçıvanda olarkən oradan 3-4 saatlığa Təbrizə getdim... Təbrizdə bir neçə yerdə 7-8 qız və oğlan uşağına rast gəldim və onlarla danışmaq istədim. Ançaq mən maşını saxlayan kimi onlar qaçdılar. Mən uzaqdan Azərbaycan dilində onlara dedim: "Bura gəlin". Mənim Azərbaycan dilində danışığımı eşidən kimi hamısı qayıdıb yanıma gəldi... Cənubi Azərbaycan torpağı bizim xalqımızın əsl ana torpağıdır. Respublikamızın sərhədlərində yaşayan bir çox adamlarımızın ən yaxın qohum-qardaşları uzun müddət idi ki, bir-birindən ayrı düşmüşdü... İran hökuməti özü məmləkəti oblastlara bələndə Azərbaycanı belə göstərmişdir (xəritədə göstərir). Bu, yalandır. Azərbaycan bax buradan buraya qədərdir (xəritədə göstərir). Əslinə baxsanız, Tehranın özü də Azərbaycanındır".[10] Nəhayət, sentyabrın ilk günlərində Güney Azərbaycan məsələsini müzakirə etmək üçün M.C.Bağırov Moskvaya çağırıldı. Teleqramda deyilirdi: "ÜK(b)P MK sizi bir günlük Moskvaya çağırır. Xahiş edirik gəlin. Stalin. 5.1X.41 q. № 30".i Elə həmin gün o, təcili Moskvaya getdi. Moskva danışıqları zamanı razılıq əldə edildi ki, Azərbaycan SSR-də səfərbər edilmiş partiya, sovet, hüquq-mühafizə, təsərrüfat və mədəniyyət işçilərinin mərhələlərlə Güney Azərbaycana göndərilməsinə başlanılsın. Azərbaycan K(b)P MK-da Güneyə göndəriləcək qrupun

rəhbərliyinə MK-nın 3-cü katibi Əliyev Əziz Məmmədkərim oğlunun namizədliyi təsdiq edildi. Qərara alındı ki, sentyabrın 2-ci yarısında "Əziz Əliyev missiyası" Təbrizdə fəaliyyətə başlasın. Süleyman Rəhimov təbliğat, Meybalı Əmiraslanov inzibati-təsərrüfat, Ağasəlim Atakişiyev xüsusi əməliyyat, Mustafa Quliyev tibbi sanitar qruplarının, Mirzə İbrahimov türk dilində çıxacaq ordu qəzetinin redaktoru təsdiq edildi,[12] Güney Azərbaycan Sovet təsirini yaymaq, ədəbiyyat, sənət, məddniyyət, iqtisadiyyat və digər sahələrdə Sovet Azərbaycanı uğurlarını nümayiş etdirmək məqsədilə "missiya" vasitəsilə Təbriz, Pəhləvi, Ərdəbil, Rəşt, Astara və digər yerlərə taxıl, qənd, kerosin, manufaktura və s. göndərilməli idi. Güney Azərbaycanın iri şəhərlərində opera teatrının ifasında "Koroğlu", "Leyli və Məcnun", "Şah İsmayıl", "Arşın mal alan", "O olmasın, bu olsun" tamaşaları göstərilməli idi. Moskvadan razılıq alındı ki, 2-3 ay ərzində "Əziz Əliyev missiyası" üzvlərinin sayı 2-2,5 min nəfərə çatdırılsın. Ən yaxın günlərdə isə 500 nəfərdən ibarət əsas hissə təcili yola düşməli idi.[13] Dövlət Müdafiə Komitəsinin göstərişinə və Zaqafqaziya cəbhəsinin komandanı general-leytenant D.Kozlovun 16 sentyabr 1941-ci il tarixli əmrinə əsasən polkovnik-komissar Əziz Əliyev Təbrizdə yerləşmiş 47-ci ordunun hərbi şurasının üzvü vəzifəsinə təçyin edildi. Əmrdə göstərilirdi: "Ezam olunan yoldaşlar bütün İşlərində Azərbaycan K(B)P MK-nın katibi və hərbi şura üzvü Əziz Əliyevin göstərİşlərini rəhbər tutmalıdırlar. Komissarlar və hərbi-siyasi orqanlar "Əziz Əliyev qrupu"nun işinə qarışa bilməzlər və bilavasitə onlara rəhbərlik edə bilməzlər. Eyni zamanda ezam olunanlar hərbi İşlərə müdaxilə edə bilməzlər, hərbi xarakterli hər hansı göstərİşlər verə bilməzlər".[14] Lakin 47-ci ordunun hərbi şurası öz üzərinə götürürdü ki, Azərbaycan Sovet Respublikasının nəzərdə tutduğu tədbirləri həyata keçirmək üçün bütün zəruri olan şəraiti yaradacaq. M.C.Bağırov bu işi sürətləndirmək və daha çox sayda

adam göndərmək məqsədilə Zaqafqaziya cəbhəsi komandalığına məktubla müraciət edərək bildirmişdi ki, Azərbaycandan Güneyə göndərilən bütün şəxslərin hərbi geйim, ərzaq, sursat və s. xərcləri respublika büdcəsi hesabına ödəniləcəkdir.[15] Sentyabr ayının 12-dən 25-nə qədər demək olar ki, hər gün M.C.Bağırovun Güney Azərbaycana göndərilən işçilərlə görüşləri keçirilirdi. O, deyirdi: "İlk dəstə kimi biz 500 nəfər göndəririk. Lakin hissə-hissə göndərməklə ay yarım ərzində bu rəqəmi biz 3000-ə çatdıracayıq..."[16] Sonrakı görüşlərin birində Bağırov qeyd edirdi: "Sizə məlumdur ki, bizim Qızıl Ordumuz az vaxt içərisində İranın şimal hissəsində xeyli yer tutmuşdur. Qızıl Ordumuzun tutduğu yerlər əsas etibarilə bizim Cənubi Azərbaycan torpağıdır. Tarixə görə neçə ki, məçlumdur İranın şimal tərəfinin çox hissəsi bizim Azərbaycan torpağıdır. İranın böyük şəhərlərindən olan Qəzvin, Urmiyə, Miyanə, Marağa, Təbriz, Ərdəbil, Salmas, Xoy, Ənzəli və s. bizim ata-babalarımızın doğma vətənləri olmuşdur. Hələ doğrusunu bilmək istəsəniz Tehran da qədim Azərbaycan şəhəridir".[17]

Sentyabr ayının 15-də "İrana göndərilən yoldaşlarla Bağırovun söhbətinin stenoqramında göstərilir: "Burada mən sizə bir məsələni də deməliyəm. O məsələ də bundan ibarətdir; nə qədər ki bizim Qızıl Ordumuz oradadır, biz heç vaxt razı ola bilmərik ki, gözümüzün qarşısında . Cənubi Azərbaycan torpağında yüzlərlə adam acından həlak olsun. Biz azərbaycanlılar, əgər bizdə bir damcı belə Azərbaycan qanı varsa, gərək kec-tez orada olan Azərbaycan xalqını vaxtilə məcburən ayrılmış doğma Sovet Azərbaycanı xalqı ilə birləşdirək... Buna bizim qüvvəmiz və bacarığımız var... Nə qədər çətin olsa da, biz Cənubi Azərbaycan zəhmətkeşlərinə bu köməyi göstərməliyik. Buna bizi qeyrətimiz, namusumuz, insafımız və sədaqətimiz məcbur edir... Buna görə də biz öz rəhbərimiz Stalin yoldaşa məktub yazıb ondan Cənubi Azərbaycan zəhmətkeşlərinə kömək etmək məsələsini xahiş etmişik... Biz dörd-beş

gündür ki, bu məsələyə başlamışıq. Mən bu barədə bir az əvvəl Moskvaya yazmışam. Məni Moskvaya çağırıb soruşdular ki, nə istəyirsən. Cavab verdim ki, biz Cənubi Azərbaycanda yaşayan qardaşlarımıza kömək etmək istəyirik, buna bizə icazə verməlisiniz. Moskvadakı yoldaşlarımız da bu icazəni verdilər".[18] Lakin M.C.Bağırov Moskvanın direktivinin izahında bildirirdi ki, "Güney Azərbaycana kömək elə olmalıdır ki, nə şah hökuməti, nə də ingilislər bizi İranın daxili İşlərinə qarışmaqda günahlandırsınlar. Çıxışının sonunda o, deyirdi: "Sizin vəzifəniz olduqca məsul və olduqca şərəflidir. Siz çox böyük məsələ üçün ora gedirsiniz. Sizin öhdənizə atılan vəzifəni yerinə yetirməklə Azərbaycan xalqının qarşısında çox böyük xidmət göstərimiş olacaqsınız. Siz bu şərəfli vəzifəni yerinə yetirməklə 100 illərlə ikiyə bölünmüş qardaşların arzusunu yerinə yetirmiş olacaqsınız. Siz uzun müddətdən bəri bir-birindən ayrılan qəlbi, məhəbbəti, duyğunu birləşdirmiş olacaqsınız. Bu namus, qeyrət, sədaqət və möhübbət məsələsidir".[19]

Sentyabr ayının 24-də keçirilən görüşdə Güneydən ezamiyyətdən qayıdan K.Şahgəldiyev belə bir məlumat verdi: "Biz Türkmənçay kəndindən keçirdik (Bağırovun replikası: həmin kənddə böyük Azərbaycan xalqanı iki parçaya bölmüşlər). O kənddə kəndlilərlə söhbət etdik. Onlar dedilər: "Biz burada yığınçaq etdik, bir nümayəndə seçib Təbrizə göndərmişik, gəlib Sovet hökumətini qursun".[20] Güney Azərbaycana göndərilən qruplarla görüşlərdə M.C.Bağırov işin məxfi xarakter daşıdığını və bütün məsələlərlə bağlı Əziz Əliyevin göstərİşlərinə əməl edilməsini ciddi şəkildə göstərirdi. M.C.Bağırovun cəhdlərinə baxmayaraq, Güney Azərbaycan məsələsinə münasibətdə Sovet rəhbərliyi tərəddüd edirdi. İrana təsir vasitəsi kimi Sovet xüsusi idarələri kürd seperatizmi məsələsindən istifadə etmək barədə təkliflər hazırlamışdı. Lakin İrana daha yaxından bələd olan Sovet səfiri Andrey Smirnov "kürd məsələsi ilə oynamağın" əleyhinə idi. O, yazırdı: "İranda

kürd seperatizmi həmişə xarici ölkələrin oyununa çevrilib. Biz qəti şəkildə kürdlərlə olan səhv oyundan imtina etməliyk. Bu o demək deyil ki, kürdlərlə olan bütün əlaqələrdən, onlardan öz mənafeyimiz naminə istifadədən əl çəkməliyik. Lakin bizim İranın şimalında siyasi işimiz azərbaycanlılara söykənməl idir".[2]

İran hökuməti Azərbaycan məsələsindən ciddi şəkildə narahat olmağa başlamışdı. Avqust ayının 28-də təşkil olunmuş Foruği hökumətində Xarici İşlər naziri vəzifəsini tutan Mirzə Əli xan Soheyli xarici ölkələrdəki İran diplomatik korpuslarına gizli tapşırıq vermişdi ki, şurəvi təhlükəsinə qarşı dayanmaq üçün ingilis meylinə üstünlük versinlər və Azərbaycan məsələsi ilə ciddi məşğul olsunlar. O, Ankaradakı İran səfirinə yazırdı: "Əgər İşlər bundan sonra da belə davam etsə, onda biz Azərbaycanı itirəcəyik".[22] Baş nazir Foruği bütün vasitələrlə SSRİ-nin və Böyük Britaniyanın İrana münasibətini yumşaltmağa çalışırdı. O, sentyabr ayının 8-də Britaniya və Sovetlərin hərbi qüvvələrinin İranda yerləşməsi barədə sazişi imzaladı. İngilislər əvvəl Tehrana girməyi lazım bilməsələr də, İran paytaxtının Sovet təsirinə düşəçəyindən ehtiyat edərək tezliklə fikirlərini dəyişdilər. Britaniya hökuməti sentyabr ayının əvvəllərində Moskvaya bildirdi ki, o öz qoşunlarına təcili olaraq Tehrana girmək əmri verib. U.Çerçill Stalindən xahiş edirdi ki, müvafiq qaydada İranda olan Sovet qoşunlarına da belə bir göstəriş verilsin. Müttəfiq qoşunlarının Tehranın astanasıvda olduğu dövrdə - sentyabrın 16-da baş nazir Foruği səltənət taxtından əl çəkmək barədə tələbi Rza şaha təqdim etdi. Yaranmış vəziyyətdə əlaçsızlıqdan Rza şah tələbi qəbul etdi və oğlu Məhəmməd Rza Pəhləvinin xeyrinə səltənət tacından əl çəkdi. Ayın 17-də Sovet qoşunları, bir gün sonra isə Britaniya hərbi hissələri Tehrana daxil oldu. Sentyabrın 17-də 22 yaşlı Məhəmməd Rza Məclisdə konstitusiyaya riayət edəcəyinə və ölkəni

Məclisin qəbul etdiyi qanunlarla idarə edəçəyinə söz verdi. O, hələ 1 yanvar 1926-cı ildə vəliəhd elan olunmuşdu. İsveçrədə oxumuş, Tehranda zabit məktəbini bitirmişdi. 1938-ci ildə Avropadan qayıdarkən Bakıda olmuş, R.Qliyerin "Şahsənəm" operasına baxmışdı. Rza şahın dövründə tez-tez hökumət iclaslarında iştirak edirdi. Atasının dövründə o, faktiki olaraq hərbi nazir vəzifəsini yerinə yetirirdi. Həmin dövrdə hərbi nazir işləyən general Əhməd Naxçıvani (əslən Naxçıvandan idi) əslində onun köməkçisi rolunda çıxış edirdi. 16 mart 1939-cu ildə Misir şahzadəsi Fövziyə ilə evdənmişdi.[23] Fövziyə Britaniyada təhsil almışdı və Misir kral ailəsi ingilislərlə çox yaxın idi. Məsələnin bu tərəfi ingilislərin kənc şahı öz tərəflərinə çəkəcəklərinə ümidlərini artırmışdı. Sentyabrın 21-də taçqoyma mərasimi keçirildi. Elə həmin gün yeni şah tərəfindən formal olaraq Foruğinin İkinci hökumət kabinetinin tərkibi Məclisə təqdim edildi. Yeni hökumətin ilk addımı sentyabr ayının 21-də köhnə aristokrat ailəsindən olan, vaxtilə bir sıra nazir postlarında çalışmış, Ankarada səfir işləmiş Fəhimini (Fəhim-ol-Mülkü) Azərbaycana vali təyin etmək oldu. Bu təxyinat exlan olunan gün - sentyabrın 21-də Əziz Əliyev artıq Təbrizdə, onun başçılıq etdiyi qrup Güney Azərbaycanda işə başlamışdı.[24]

1941-42-ci illərdə Sovet Azərbaycanından göndərilən missiya Güneydə çox ciddi İşlər gördü. SSRİ Xarici İşlər Komissarlığından M.C.Bağırova göndərilən şifrəli teleqramda deyilirdi:"İranın xarici İşlər naziri Soheyli bizim səfir Smirnova şikayət edib ki, Təbrizdə Əliyev qrupu türk dilində "Vətən yolunda" qəzeti buraxır. Smirnov cavab verib ki, qəzet Azərbaycandakı qızıl əsgərlər və sovet xidmətçiləri üçün nəzərdə tutulub. Soheyli xahiş edib ki, onu İran əhalisi arasında yaymasınlar. Xahiş edirik xarici İşlər nazirinin bəyanatına əsaslandırılmış cavab hazırlayın".[25] Xalq Xarici İşlər Komissarlığına, Dekanazova və kommisarlığın baş katibi Arkadi

Sobolevə göndərdiyi teleqramlarda M.C.Bağırov yazırdı: Soheylinin iddiaları əsassızdır və təsadüfi deyil. Əlavə olaraq bildirirəm ki, Smirnov Əliyev qrupunun işini qərəzli işıqlandırır. Əliyevin işinin bizim İranda olan ayrı-ayrı rəsmi adamlarla, o cümlədən hərbçilərlə uzlaşmaması onunla bağlıdır ki, o, onlarla birlikdə sərxoşluq etmir. Əksinə onları başa salmağa çalışır ki, özlərini təmkinli aparsınlar. Körünür bu yoldaşların xoşuna gəlmir. Sizdən xahiş edirəm bütün bunları Vyaçeslav Mixayloviçə (Molotov nəzərdə tutulur - C.H.) çatdırın"

Əziz Əliyev Təbrizə gəldiyi günün səhəri, sentyabrın 22-də Güneyə göndərilənlərlə söhbətdən sonra onlar ayrı-ayrı şəhərlərdə yerləşən hərbi hissələrə getdilər. Birbaşa təYinat almayanların çoxu Təbrizdə saxlanıldı. Süleyman Rəhimov başda olmaqla təbliğatçılar qrupu, Meybulla Əmiraslanov başda olmaqla təsərrüfat qrupu, Ağasəlim Atakişiyev başda olmaqla xüsusi qrup, Mustafa Quliyev başda olmaqla səhiyyə qrupu, Mirzə İbrahimov başda olmaqla redaksiya qrupu, Yunis Hacıyev başda olmaqla 1-ci Qafqaz diviziyasına düşənlər Təbrizdə işləməli idilər. Bundan əlavə ilk göndərilən dəstədən 16 nəfər Maguya, 22 nəfər Urmiyəyə, 15 nəfər Zəncana, 27 nəfər Pəhləviyə, 16 nəfər Xoya, 15 nəfər Ərdəbilə, 14 nəfər Marağaya, 15 nəfər Dilmana, 16 nəfər Uşnuya, 16 nəfər Qəzvinə, 16 nəfər Mianəyə, 16 nəfər Rudəsərə, 15 nəfər Noşəhrə göndərilmişdi.27 Təbrizə gələcək opera teatrı truppası üçün şəhərdə yer ayrılmışdı. İlkin İşləri gördükdən sonra Əziz Əliyev sentyabrın 22-də axşam Tehrana getdi. Sovet qoşunları Tehrana daxil olduğu üçün komandanlıq və hərbi şura orada idi. İki gün ərzində Ə.Əliyev Azərbaycan qrupunun gəlməsi barədə komandanlığa, Tehrandakı sovet səfiri A.Smirnova və ticarət müvəkkili Alekseyevə məlumat verdi.[28]

Əziz Əliyev Təbrizə qayıdan gün şəhərdə qənd ticarətinə nəzarət edən erməni Budaqyan narazılıq Yaratmaq məqsədilə əhaliyə qənd buraxılmasını qadağan etmişdi. Anbarlarda olan qənd və şəgər gizli yolla

İranın cənubuna göndərilirdi. Şəhərin normal həyatının pozulmaq təhlükəsi olduğundan Təbrizdə olan ingilis və türk konsulluğu Ə.Əliyevdən xahiş etmişdilər ki, şəhərdə normal həyatı bərpa etmək üçün tədbirlər körsünlər. Baş vermiş təxribatı aradan qaldırmaq üçün şəhər fərmandarı və polis rəisi Təbrizdəki ordu qərargahına dəlvət edildi və onlara bildirildi ki, bu oyunlara son qoyulsun. Bundan əlavə Sovet Azərbaycanından Təbrizə göndərilən ərzaq məhsullarının ilk hissəsi sentyabrın 24-də axşam gəlib yetişdi.[29] Bakıdan, respublşea fondundan yardım olaraq 800 ton qənd, 360 ton un, 105 ton buğda, 300 min metr parça və s. göndərilmişdi. Ümumiyyətlə, 1941-ci ilin axırına qədər Bakıdan Güney Azərbaycana 1.494.053 metr parça, 2.548 ton qənd, 1.371 ton un, 1.814 ton buğda və ümumi dəyəri 2 mln. manat olan digər mallar göndərilmişdi.[30]

Əziz Əliyev qrupu sentyabrın sonu oktyabrın əvvələrində Güney Azərbaycan şəhərlərində fəaliyyət göstərmiş Alman firmalarının əmlakını müsadirə etdi. "İran ekspress", "Veberbauer transport", "Kes və K-o", "AEQ" firmalarına məxsus ümumi dəyəri 1247000 İran rialı həçmində olan müxtəlif növ mallar müsadirə edildikdən sonra sovetlər birliyinə göndərildi. İran Milli Bankının Güney Azərbaycanda olan şöbələrində Alman təbələrinə aid 11 hesab müəyyənləşdirildi. Bu hesablarda olan 923305.85 rial pul vəsaiti 47-ci ordunun hesabına keçirildi. Avqustun 25-nə qədər İran tacirlərinin Almaniyadan aldığı malların başı
bağlandı.[31]

Sentyabr-oktyabr ayında şahsevən tayfa başçıları arasında ciddi iş aparıldı. Avqust ayında İran qoşunları geri çəkilərkən onların qaçdığı silah və hərbi sursat şahsevənlərin əlinə keçmişdi. Ehtiyat edilirdi ki, gizli fəaliyyətə keçmiş şahsevən tayfa başçıları bu silahdan Sovet siyasətinə qarşı istifadə etsinlər. Əziz Əliyev sentyabrın sonlarında tapşırıq vermişdi ki, şahsevənlər arasında ciddi izahat işi aparılsın, onlar inandırılsın və əllərdə olan silah

yığılsın. Onun adına hazırlanan hesabatda şahsevənlərin [32] tayfadan, 40020 nəfər əhalidən ibarət olduğu göstərilir. Onların 21490 dəvəsi, 7967 atı, 595200 qoyunu, 50260 iribuynuzlu mal-qarası var idi.[32] Şahsevənlər bu dövləti itirməkdən çox ehtiyatlanırdılar. Sentyabr ayının 28-də Xiovda şahsevən tayfa başçıları ilə keçirilən görüşdə Qoçabəydidərdən Əli xan Bəhrəm xan oğlu, Əçirlilərdən Nüsrət bəy, Kəmzəlilərdən Qulam xan, Alarlılardan Yadulla xan, hüseynağa xan, Sahib xan, Xəlfəlilərdən Mir Qulam xan, Köykilərdən hətəm xan, Sarxanbəylilərdən Alış bəy, Talış Mikayıllılardan Fərzulla bəy və s. iştirak edirdilər.33 Təbrizdən gələn adamlardan başqa M.C.Bağırov hələ Azərbaycan siyasi idarəsinin rəisi işlədiyi dövrdə şahsevən tayfa başçılarını yaxşı tanıdığından M.Sarıcalinskidən xəbər göndərmişdi ki, silahları təhvil versinlər. Şahsevən tayfa başçıları silahları verməyə razı oldular və onlar Bakıya M.C.Bağırovla görüşə dəvət edildilər. Şahsevənlər Pəhləvi hakimiyyətinlən çox narazı idilər. 1941-ci ilin noyabrında Bakıda M.C.Bağırovla görüş zamanı bildirdilər ki, ümumiyyətlə onların İranla heç bir əlaqəsi yoxdur, camaatlarının yarısı Şura Azərbaycanındadır və özləri də Yuxarı Azərbaycana birləşmək istəyirlər.[34]

1941-ci ilin sentyabr ayının 26-da siyasi işçilərin İkinci dəstəsinin göndərildiyi barədə Azərbaycan K(b)P MK katibi Qafarzadə Əziz Əliyevə yazırdı. Oktyabrın ilk günlərində 2-ci dəstədə gələnlər hamısı yerlərə təyinat üzrə göndərilmişdilər. Ə.Əliyev məsləhət bilirdi ki, bundan sonra 47-ci ordunun yerləşdiyi ərazidə göndərilənlərin təyinat yeri Bakıda dəqaqləşdirilsin və elə adamlar oradan da birbaşa təyinat yerinə yola düşsünlər.

Oktyabrın 24-də Əziz Əliyev rəhbərlik etdiyi qrupun fəlaiyyəti, habelə Güney Azərbaycandakı vəziyyət haqqında M.C.Bağırovun adına ilk geniş hesabatın göndərdi.[35] Orada göstərilirdi ki, Güney Azərbaycana Bakıdan

partiya, sovet, mədəniyyət və təsərrüfat işçilərinin göndərilməsi çox faydalı olmuşdur. Əhali sovetlərin İrana daxil olmasını sovetləşmə məqamı kimi qəbul edir. Lakin biz adamlarımıza göstəriş vermişik ki, müxtəlif şübhəli qüvvələrin ortaya atdığı bu təxribata imkan verməsinlər. Sovet ordusunun yerləşdiyi bütün şəhərlərdə və onlara yaxın kəndlərdə əhali arasında geniş təbliğat İşlərinə başlamışıq. Yayılan broşuralar və vərəqələr əhaliyə güclü təxsir göstərir. Çox yerlərdə kəndlilər açıq şəkiddə deyirdilər: "Biz Qırmızı Ordunun Güney Azərbaycandan çıxmasına imkan verməyəçəyik, əgər çıxsanız biz də sizinlə birlikdə çıxıb Sovet İttifaqına gedəçəyik. Artıq Azərbaycanın hər yerində İran hakimiyyət orqanlarının törətdiyi qanunsuzluqlar barədə əhali bizə şikayət etməyə başlamışdır. Biz mümkün olan bütün vasitələrlə onları müdafiə edirik". O, yazırdı: "Mənim sərəncamıma Bakıdan 7 minik avtomobili gəlib. Onun biri qəzet redaksiyasına, biri S.Rəhimova, qalan 5 maşın Təbriz, Urmiyə, Maku, Pəhləvi və Zəncana, bizim diviziyalarda çalışan yoldaşlara göndərilib. Azərbaycan dilində "Vətən Yolunda" qəzetinin iki nömrəsini artıq buraxmışıq. Əhali arasında rəğbətlə qarşılanıb. Urmiyədə, Pəhləvidə də Azərbaycan dilində qəzet buraxmağa böyük ehtiyac var". Əziz Əliyev öz hesabatında yazırdı: "Təbrizdə, son 15 il ərzində ədəbiyyat, sənət, elm və texnika ilə bağlı Azərbaycan dilində bir dənə də olsun kitab buraxılmayıb. Şair və yazıçıların yaradıcılığı üçün heç bir şərait olmayıb, əksinə onlar hakimiyyət tərəfindən təqab olunublar. Təbrizin şair və yazıçılarından Zeynal Gənci, Turxan Gənci. Nadir Fitrət, Ruhi, Sadıq Naxçıvani, Heybulla Çavid və digərləri öz əsərlərindən heç birini çap etdirə bilməmİşlər". Güney Azərbaycanda məktəblərin vəziyyətini təhlil edərək Ə.Əliyev yazırdı: "Bir qayda olaraq maarif sistemində və məktəblərdə rəhbər vəzifələri farslar tutublar. Mövcud qaydaya müəllimlər etiraz edirlər, onlar tələb edirlər ki, dərslər

Azərbaycan dilində keçirilsin və fars müəllimlərə verilən əlavə küzəştlər ləğv edilsin.[36] Səhiyyə ilə bağlı vəziyyət bərbaddır. Biz indi Güney Azərbaycanın tibbi-sanitar xəritəsini hazırlamağa başlamışıq. Oktbyarın 6-da bizim həkimlərlə prof. Fəxri-Atam başda olmaqla Təbriz həkimlərinin görüşünü təşkil etdik. Görüşdə yerli həkimlərlə erməni və fars həkimləri arasında antoqonizi olduğu kəskin şəkildə körsəndi... Bakıdan gələn dərmanların hamısını paylamışıq. Qadın həkimlərə, tibb kadrlarına, akuşerkalara qadınlar arasında işləmək üçün böyük ehtiyac var. Onların arasında xəstəlik yüksək həddə çatıb. Kişi həkimlərdən istifadə etməyin çətinlikləri var".[37]

Güney Azərbaycanda normal həyatın yaradılmasında İran hakimiyyət orqanlarının maraqlı olmadığına diqtəti cəlb edərək Ə.Əliyev yazırdı: "Təbriz valisi Fəhimi özü qarışıqlıq salanları Himayə edir. O, yaxşı bilir ki, bir çox sənaye obyektləri işləmir, iri tacirlər Tehrana və ingilis işğal zonasına gedirlər. Belə vəziyyətdə vali heç bir iş körmür və bizim iqtisadi-təsərrüfat həyatını normallaşdırmaqla bağlı bütün tələblərimizdən yayınır. Lakin son vaxtlar mən bildirdim ki, onun fəaliyyətsizliyi barədə bizim səfir vasitəsilə Tehran hökumətinə məlumat çatdıraçağam. Yalnız bundan sonra o, bir qədər fəallaşdı.[38] Daha sonra Əziz Əliyev 47-ci ordunun bəzi zabit və əsgərlərinin soyğunçuluğu, sərxoşluğu, oğurluğu barədə faktları göstərirdi:"Təbrizdə və digər şəhərlərdə ayrı-ayrı qızıp əsgərlər tərəfindən soyğunçuluq hadisələri baş vermişdir. Geçələr silah axtarışı adı altında onlar evlərə daxil olurlar, əhalinin pullarını götürürlər. Belə faktlar çoxdur. Belə vəziyyətə son qoymaq üçün biz zəruri ölçülər götürürük". Nəhayət, məruzənin sonunda Ə.Əliyev yazırdı: "Ermənistan SSR Xalq Daxili İşlər Komissarının müavini Gözəlyan İranlının minik avtomaşınını qənimət kimi əlindən alıb və aparıb. Qənimət Komissiyasının dəfələrlə tələbinə baxmayaraq maşının qaytarılması nəticəsiz qalmışdır".[39]

Əhali arasında belə tələblər var idi ki, "Biz Qızıl Ordunu iyirmi ildən artıqdır ki, gözləyirik. Artıq səbrimiz tükənib. Yubanmağın vaxtı deyil. Sovet hökumətini verin".[40] Noyabrın 7-si ərəfəsində belə şayiələr yayılmışdı ki, guya Güney Azərbaycanda Sovet hakimiyyəti qurulacaqdır.

Sovetlər Güneyə İran qoşunlarının gəlməsinə icazə vermədiyi üçün Tehran hökuməti Azərbaycanda jandarmanın sayını artırıb 3784 nəfərə çatdırdı.41 Azərbaycan əhalisinə "Vətən yolunda" qəzetini oxumaq qadağan edilmişdi. İki gündən bir 4000 nüsxə çıxan qəzet əldən-ələ gəzirdi. Güneydən gələn məlumatda göstərilirdi: "Təbrizdə bir qoça "Vətən yolunda" qəzetini əlinə alıb xahiş etdi ki, bunu onun üçün oxusunlar. Oxumağa başlayan zaman o, dərindən nəfəs alıb dedi: "Allaha şükür olsun, iйdi biz öz ana dilimizdə qəzet oxuyuruq".42 "Vətən yolunda" qəzetinin geniş yayılması və bolşevikləşmə meylinin küclənməsi Azərbaycanda sərt tədbirlərlə müşayiət olundu. Oktbayrın axırlarında İranın Daxili İşlər naziri Cahanbani Təbrizə gəldi. Oktybarın 30-da o, əyalətin bütün vəzifəli və imkanlı adamlarının toplantısını keçirdi, Öz çıxışında bildirdi ki, hər kəs gərək ayıq olsun, şahın və hökumətin tapşırıqlarını sözsüz yerinə yetirsin. Nazirdən sonra Vəli Fəhimi çıxış etdi və bildirdi ki, əhali gərək Qızıl Ordu tərəfindən aparılan təbliğata uymasın, öz pullarını havayı yerə Sovet kino filmlərinə və teatr tamaşalarına xərcləməsinlər. Güney Azərbaycanda oktyabr ab-havası qurtarana qədər, yəni noyabr ayının 10-na qədər Cahanbani Təbrizdə qaldı.

Güney Azərbaycandakı vəziyyət artıq bir sıra dövlətlərin siyasi dairələrinin müzakirə mövzusuna çevrilmişdi. Tehran, London, Moskva, Ankara qəzetləri tez-tez Azərbaycan haqqında yazılar verirdilər. İran məclisində Azərbaycan deputatları çıxış edib bildirmişdilər ki, İran hökuməti Güney Azərbaycana yetərincə diqtət yetirmir, Azərbaycan üçün ayrılan vəsait və vilayətin gəliri İranın digər rayonlarının

qurulmasına sərf olunur. Baş nazir Foruği deputatların çıxışlarının doğruluğunu təsdiq etdi və söz verdi ki, bundan sonra bütün kücünü qoyacaq ki, Azərbaycanın ehtiyaclarını ödəsin. O, dedi: "Azərbaycan İranın əsas hissəsidir, həmişə vaçib dövlət məsələlərinin həllində birinci olmuşdur".[43] Azərbaycanı itirmək təhlükəsi İran mətbuatında ona qarşı "sevgi" dolu yazılar doğurmuşdu. Hökumət Əhməd Kəsrəvini Təbrizə göndərmişdi ki, qəzet çıxarıb Azərbaycan əhalisinə "türk olmadığını" onlara başa salsın.[44] Tehran qəzetləri İranı insan bədəninə bənzədib deyirdilər: "Azərbaycan bu bədənin həm başıdır, həm gözləridir, həm də ürəyidir". Tehranda çıxan "Quşeş" qəzeti öz səhifələrində Təbrizdəki hadisələrdən bəhs edərək yazırdı: "Şəhrivər hadisələrindən sonra Azərbaycandan kədərli və qəribə xəbərlər alırıq. Deyirlər ki, Azərbaycan keçmiş şahdan və onun çinovniklərindən çox zülmlər körüb. İndi onlar öz narazılıqların mərkəzi hökumətə müxalifət olmaqla, mərkəzin göndərdiyi adamlara tabe olmamaqla nümayiş etdirir".[45] Qəzet yazır:"Bir gün Molla Nəsrəddin nərdivana çıxanda eşşəyi ayağı ilə nərdivanı vurur və Molla yıxılır. Ayağa qalxdıqdan sonra Molla birinci nərdivanı sındırır, sonra isə eşşəyi cəzalandırır. Ondan soruşurlar niyə sən nərdivanı sındırdın, o, deyir ki, çünki nərdivan zərbəni alıb. İndi Azərbaycanda narazılıq edən qüvvələrin fikri belədir ki, bizim ölkənin bütün əhalisi keçmiş şahdan narazıdır, ona görə Azərbaycanı İrandan ayırmaq lazımdır. Cənab azərbaycanlılar biz İranın bütün xalqları birik, fərqamiz yoxdur. Sizin qəhrəmanlığınız və şücaətiniz sayəsində İranın adı indiyə qədər yaşayır. Bu sizlərsiz ki, İran üçün indiyə qədər sinənizi düşmənin qabağına vermisiniz, onun üçün qanınızı tökmüsünüz. Bu sizlərsiniz ki, öz qəhrəmanlığınızla İran üçün tarixi iftixar fəth etmisiniz, indi biz Azərbaycana sevgi ilə yanaşırıq".[46] Güney Azərbaycanın qabaqcıl adamları İran mətbuatında başlanan belə təbliğatı elə də yaxşı

qarşılamırdılar. Arxiv sənədində göstərilir: "Təbrizin yazaçı və jurnalistləri bu sözlərdən hiddətə gəlib deyirdilər: "bu ikiüzlülər və əclaflar dünən bizi "türkəxər" adlandırırdılar, bu gün isə riyakarlıqla bizi aldatmaq məqsədilə Azərbaycanı gözəl sözlərlə tərifləməyə başlayıblar".[47]

Eyni zamanda Türkiyənin "Yeni Sabah" və "Cümhuriyyət" qəzetləri də 1941-ci ilin oktyabr ayında Güney türkləri ilə bağlı geniş yazılar vermişdilər. Oktyabr ayının axırlarında türk yazıçısı və publisisti Yalçının "Çümhuriyyət" qəzetindəki yazısında bildirilirdi ki, İran hökuməti orada yaşayan türklərə heç bir diqtət yetirmir və onların taleyinə bikanədir. O, yazırdı: "İranda hətta türkləri əzməkdən çəkinmirlər. Biz bikanə qala bilmirik ki, türklər maarif sahəsində farslarla bərabər hüquqa malik deyillər, onların dilləri və mədəniyyəti sıxışdırılır... Keçmişdə İranda parlament yarananda Məclisdə türkçə çıxış etməyə icazə verilirdi. Bizim dostumuz ağayi Foruği bir vaxtlar İranın Ankarada səfiri olub və indi Baş nazirdir, birinci vəzifəsini parlamentdə türkcə danışmağı qadağan etməkdə gördü".[48] "Cümhuriyyət" qəzetinin bu yazısından sonra Tehran mətbuatında Türkiyəyə qarşı geniş kampaniya başladı. İran qəzetləri cavab olaraq göstərirdilər ki, türk dili İran əhalisinin bir hissəsinin danışdığı dildir. Bu o demək deyil ki, onlar türk millətidir. İranda yaşayan türklər İranlılar olaraq bütün hüquqlardan istifadə edirlər. Azərbaycan türkçə danışan İranlıların yaşadığı yerdir ki, bütün İranın beyni və ürəyi olub, indi də olmaqdadır. İranın öz dövlət dili var və bu bütün İranlılar üçün məcburidir. Qəzetlər sübut etməyə çalışırdılar ki, azərbaycanlılar elə əski farslardır ki, azərbaycan dilini onlara XVI əsrdə çalaşdırıblar. İran və Türkiyə mətbuatında Azərbaycanla bağlı gedən yazılar M.C.Bağırovu bərk əsəbləşdirmişdi.

Bu barədə Əziz Əliyevin göndərdiyi məlumatla tanış olduqdan sonra o, deyirdi: "İndi Cənubi

Azərbaycanlılara təzə sahib çıxıb, o da ibarət olsun Osmanlı türklərindən. Yəqin onlara belə xəbər çatmışdır ki, başlamışlar ki, Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar bizimkilərdir. Bilmirəm bu vaxta qədər bunlar harada imİşlər. Bu vaxta qədər bunların qabağını kim kəsirdi. İş o yerə gəlib çatmışdır ki, Tehran ilə Ankara bir-birilə mübahisəyə başlamışlar. Deyirlər dövlətə sahib olmaq lazımdır. Guya 5 milyon Azərbaycan xalqı sahibsiz qalmışdır. Bunlar deyir bizimdir, onlar deyir bizimdir. Ortalığa bölhaböl məsələsi düşmüşdür. Tehran bu məsələdə görünür özünü o qədər itirmişdir ki, bir neçə tarixi şeyləri guya bu vaxta qədər bilmirdilər... Bizim öz məqsədimiz və getdiyimiz yol özümüzə aydındır... Biz Sovet Azərbaycanında yaşayan azərbaycanlılar deyə bilərik ki, istədiyimiz məqsədin birini əldə etdik... İndi bu günlər məcbur olurlar etiraf etsinlər ki, əgər min illərlə böyük dövlətə, tarixə malik olan xalq varsa, o da Azərbaycandır". [49]

Güney Azərbaycandan alınan məlumatlar təhlil edildikdən sonra M.C.Bağırov noyabrın 10-da görülən İşlərlə bağlı Əziz Əliyevə öz rəy və təkliflərini göndərmişdi.[50] "Vətən Yolunda" qəzetinin uğurlarından Bağırov razı idi. Eyni zamanda o, təklif edirdi ki, oxunaqlı olmaq üçün qəzetdə yığcam materiallar verilməli, bədий materiallar qısaddılmaqla siyasi mövzulara maraq gücləndirilməlidir. O, yazırdı: "Siz yaxşı etmisiniz ki, qabaqçıl ziyalıları qəzetin ətrafında toplamısınız, lakin bunu ehtiyatla etmək lazımdır, qəzetdə işə cəlb olunan hər kəsi fərdi qaydada yoxlamaq lazımdır. Eyni zamanda Bağırov Xoyda, Pəhləvidə və digər şəhərlərdə qəzet çıxarmağa razılığın bildirdi. Opera teatrının Güneydəki fəaliyyəti onun tərəfindən yüksək qiymətlənləndirildi. Truppanın Təbrizdə noyabrın 20-nə qədər qalmasına icazə verdi. Lakin Ə.Əliyevdən xahiş edirdi teatr işçilərinə aydınlaşdırsın ki, onlar necə Bakıdan mütəşəkkil getmişdilər, elə də gərək geri qayıtsınlar. Özünü saxlaya bilməyən müxtəlif əşyalar

almağa cəhd göstərənlər gərək məzəmmət edilsinlər. "Sovet Azərbaycanının sənəti, aktyor kollektivi, bizim teatr haqqında əhalidə ən yaxşı təəssürat qoymaq lazımdır".

M.C.Bağırov xəbərdarlıq edirdi ki, kürd məsələsində ehtiyatlı olmaq lazımdır. O, xatırladırdı ki, "kürd məsələsi İran və Türkiyə siyasətində ən kövrək yerdir, ingilislərin əlində ən sevimli silahdır. Bunu heç vaxt, xüsusilə indiki anda unutmaq olmaz. Güney azərbaycanlılar ilə kürdlərin barışığı üçün hər şeyi etmək lazımdır, bu əsasda bütün vasitələrlə kürdləri özümüzə yaxınlaşdırmalıyıq. Bizim kürdlər arasında fəaliyyətimizin əsas istiqaməti ondan ibarət olmalıdır ki, kürdlər xarici kəşfiyyatın təxribatlarına uymasınlar, ayrıca kürd dövləti yaratmaq məqsədi ilə silahlanmağa cəhd göstərməsinlər".[51]

Öz məktubunda Bağırov xatırladırdı ki, Güney Azərbaycanın bir sıra yerlərində əhalinin müəyyən təbəqələri, xüsusilə bir neçə il əvvəl Sovet Azərbaycanından sürgün edilənlər İranda Sovet hakimiyyəti qurmaq üçün fəallaşıblar. Astarada, Ərdəbildə, Pəhləvidə belə faktlar olmuşdur. Bütün bunlar xarici kəşfiyyatın işidir və bizimlə müttəfiqlərin arasını vurmağa yönəlmişdir. Buna qəti surətdə yol vermək olmaz. O, xəbərdarlıq edirdi ki, yeni təşkil edilən kommunist özəkləri, aysor, erməni, Tudə təşkilatları ilə son dərəcə ehtiyatlı olmaq lazımdı. Şübhəsiz, belə bir fakt diqtətdən yayınmamışdı ki, İran Xalq Partiyasının 1941-ci ilin noyabrında Təbriz filialının əsas yaradıcıları Artaşes Ovanesyan, David Gevorkyan, Əli Əmir Xizi və b. idi.[52]

Birinci haqqında Bağırovun məlumatı geniş idi. Ona görə Bağırov xəbərdarlıq edirdi ki, daşnaklarla ehtiyatlı olsunlar. O, yazırdı: "Əlimizdə məxlumatlar var ki, daşnaklar sovetlərin etimadını qazanıb öz pozuculuq İşlərini kücləndirmək istəyirlər. İstisna olunmur ki, bütün bu partiya və cəmiyyətlər xarici kəşfiyyatın birbaşa tapşırığı ilə yaranır". Məsələn, o, deyirdi: "Aysorlar

həmişə ingilislərə meyl ediblər və ingilis kəşfiyyatının agentləridirlər. Bu səbəbdən onların hazırki fəallaşması bir qədər şübhəlidir".[53]

Məktubun sonunda M.C.Bağırov Təbriz ziyalılarının, Şahsevən və Kürd tayfa başçılarının Bakıya gəlişini bəyənirdi, lakin qeyd edirdi ki, bu iş yüksək səviyyədə təşkil olunmalıdır.

Qeyd edilən göstərişə uyğun olaraq noyabrın 18-də Şahsevən tayfa başçıları, 20-də Təbriz ziyalılarının nümayəndələri, 27-də Kürd tayfa başçıları Bakıya gəldilər. Hər üç nümayəndəlik M.C.Bağırov tərəfindən qəbul edildi. Süleyman Rüstəm, Süleyman Rəhimov və Mirzə İbrahimov Güneydən nümayəndələrlə birgə gəlmişdilər. Ən maraqlı müzakirələr Təbriz ziyalıları ilə oldu. Təbriz qonaqlarını müşayiət edən M.S.Ordubadi görüş zamanı Bağırova bildirdi: "Yoldaşlar buraya gələndə bizim azərbaycanlılar onları görən kimi gözləri yaşardı. Əlbəttə bu, onlarda olan sevinci ifadə edirdi".[54] Təbriz ziyalıları ilə görüşdə M.C.Bağırov dedi ki, İran hökuməti Azərbaycandan götürdüyü dövlətdən heç olmasa bir payını oranın abadlıq işinə sərf etməlidir. "Biz bu barədə səsimizi qaldırdıq ki, bəsdir, daha bu vaxtacan 5 milyon xalqı axır damarına qədər çatdırmısınız. Bu yaxşı şey deyil. Görünür ki, nəinki İranda yaşayan azərbaycanlı qardaşlarımız, hətta İran hökuməti də başa düşmüşdür ki,... əgər lazım gələrsə bir də səsimizi qaldıracayıq. Hanı məktəb, hanı azərbaycanlıların dili, hanı onların oxuması, onların dilində qəzet, hanı ədəbiyyat? Bu məsələləri onların qarşısına qoyacağıq. Ancaq hələ vaxtı deyil... Bizim istədiyimiz odur ki, Azərbaycan xalqının öz hüququnu öz ixtiyarına versinlər. Onlara, özləri özlərinə sahib olmaq hüququ versinlər. Əgər biz azərbaycanlıyıqsa, biz öz azərbaycanlılarımızı bilirik. Onların namusunu da bilirik. Daha əsir olmaq bəsdir, 10 illərlə, 100 illərlə Azərbaycan xalqı əsir olmuşdur... Əgər sizin dediyiniz bir olsa, yolunuz bir olsa, fikriniz bir olsa, onda siz böyük İşlər görərsiniz... Bizim borcumuzdur sizə kömək

etmək. Burada nə görürsünüz bu hamısı Azərbaycan xalqanındır. Odur ki, Siz Azərbaycan balaları olduğunuz üçün ixtiyarınız var öz payınızı buradan istəyəsiniz. Elə olsun ki, sizin özünüzdə də bir hərəkət olsun. Həqiqətən millətin qanı gərək işləsin".[55]

Güney ziyalıları Təbrizə qayıtdıqdan sonra İran hakimiyyət orqanları çox çalışdılar öyrənsinlər ki, Bağıroşa hansı söhbətlər olub. Hətta Bakıya gələnlərin bəziləri təqiblərə də məlruz qaldı. Yalnız Ə.Əliyevin ciddi müdaxiləsindən sonra bunlara son qoyuldu.

1941-ci ilin sonuna qədər Güney Azərbaycanda görülən İşlərlə bağlı M.C.Bağırov Stalinə geniş hesabat hazırlamışdı.[56] Müəyyən məsələləri müzakirə etmək üçün İrandakı Sovet siyasi, hərbi, diplomatik orqanları ilə Sovet Azərbaycanı missiyası arasında yaranmış gərginliyi araşdırmaq məqsədilə Güneydəki missiyanın başçısı Əziz Əliyev Bakıya dəvət edilmişdi. Güney Azərbaycana göstərilən yardım, orada aparılan siyasi iş, iqtisadi-mədəni tədbirlər, səhiyyənin təşkili və s. Hesabatda öz əksini tapmışdı. M.C.Bağırov öz hesabatında Stalindən xahiş edirdi ki, Təbrizin kimsəsiz, yetim uşaqları üçün 200-300 nəfərlik uşaq evi açmağa icazə verilsin və təklif edirdi ki, bu uşaq evlərində dərslər azərbaycan dilində keçilsin.[57] hesabatda eyni zamanda qeyd olunurdu: "Bəzi ordu hissələri və bölmələrdə lazımi rəhbərlik olmadığından fərarilik, soyğunçuluq və sərxoşluq halları olmuşdur. Bu onunla bağlıdır ki, İrandakı Sovet ordusunun komandanı general mayor Novikov və hərbi komissar Yarkov hərbi intizamı yüksəltmək üçün gündəlik işlə məşğul olmurlar, təsadüfi halda hissə və bölmələrdə olurlar, vaxtlarını bangetlərdə, içki məclisində keçirirlər. Novikov özünü elə biabır edib ki, İran generallarından biri bizim işçilərə deyib ki, Sizin komandan gələnəcən içir, onun badə yoldaşı isə hərbi Şuranın üzvü polkovnik komissar Yarkovdur. Novikov bərk içdikdən sonra İran ərazisindəki və Zaqafqaziyadakı ordu hissələrinizin sayı barədə məlumatları ingilislərə

verib. Təbrizdə olarkən o, məşhur daşnak qardaşları Budaqyanlarla əlaqəyə kirib, vaxtını onlarla birlikdə içki mərasimlərində, kef məclislərində keçirib".[58] Həm general Novikov, həm də polkovnik Yarkov Əziz Əliyev qrupu əleyhinə Moskvaya gizli məlumatlar verirdilər. M.C.Bağırovun ciddi müdaxiləsi ilə onların hər ikisini İrandan geri çağırdılar. Lakin Əziz Əliyev missiyasını xilas etmək mümkün olmadı. Bu həm də onunla bağlı idi ki, 1941-ci ilin sonunda Sovet - Alman cəbhəsində vəziyyət çox ağır idi. Sovet idarələri paytaxtdan Kuybışevə köçürülmüşdü. Güney Azərbaycan məsələsinə müdaxiləni dərinləşdirməklə Sovetlər özləri üçün əlavə problem yaratmaq istəmirdilər. Dekabr ayında Əziz Əliyev Bakıya çağırılanda Tehrandakı Sovet səfiri A.Smirnov səfirliyin məsləhətçisi Nikolay İvanovu Təbrizə göndərmişdi, ona və Təbrizə yeni təyin olunmuş Baş konsul Anatoli Kulajenkova xüsusi tapşırıq vermişdi ki, Əziz Əliyevin və onun qrupunun əleyhinə materiallar toplasınlar...[59]

## V. 42-ci ilin tərəddüdləri.

Təbrizdəki Baş konsul Anatoli Kulajenkovun və Tehrandakı Sovet səfirliyinin müşaviri Nikolay İvanovun topladığı materiallar əsasında səfir Andrey Smirnov 12 yanvar 1942-ci ildö SSRİ Xarici İşlər Komissarlığına Əziz Əliyev qrupu əlehyinə geniş hesabat göndərmişdi. Hesabatın əsas bəndlərini Dekanazov yanvarın 17-də M.C.Bağırova göndərdiyi teleqramda açıqlamışdı. Orada deyilirdi: "Kulajenkovun məruzəsindən aydın olur ki, yerli hakimiyyət və xarici konsulluqlar Əliyev qrupunun mövcudluğuvdan yaxşı xəbərdardılar. Kulajenkov Əliyev qrupunun saymazyana işi barədə bir neçə fakt sadalamışdır". Səfir Smirnovun hesabatına düşmüş bu faktlar əsasən aşağıdakılardan ibarət idi:

1. Yetərincə əsas olmadan "Azərbaycanın səsi" qəzeti bağlanmış və onun redaksiyasında axtarış aparılmışdır.

2. Dekabrın əvvəllərində Əliyev yerli adamlar vasitəsilə Urmiyədəki Sovet qornizonunun komandiri polkovnik Selivanova məktub göndərmişdir. Bu məktubda o, tələb etmişdir ki, əhalinin əlində olan silahlar yığılmasın və yığılanlar da qaytarılsın. Bu məktub İran hakimiyyət orqanlarının əlinə keçmişdir və Urmiyənin valisi onun haqqında təqdimat hazırlamışdır.

3. Əliyevin müavini Əmiraslanov dekabrın 16-da Urmiyədə valinin müavinini həbs etmiş və onu Təbrizə gətirmişdir. Burada o buraxılmışdır. Həbsin səbəbi kürdlərin döyülməsidir. İndi Əmiraslanov deyir ki, valinin müavininin həyatı təhlükədə olduğu üçün guya o, həbs adı ilə oradan çıxarılıb.

4. Azərbaycan Daxili İşlər komissarının müavini Atakişiyev dekabrın 30-da Sərab şəhərində mülkədarı həbs edib, jandarm idarəsində onu istintaq edib və jandarmaya təklif verib ki, onu həbs etsinlər. Bu barədə də vali təqdimat hazırlayıb.

Smirnov yazırdı: "Əliyev qrupunun geniş açıqlanması ətin ki, bizə xeyirli olsun, halbuki o, özü burada Azərbaycan K(b)P MK-nın katibi kimi geniş tanınır. Yalnız onun bu işə rəhərlik etməsi İranlıların, türklərin və ingilislərin narahatçılığını və etimadsızlığını doğurmuşdur. Əliyev qrupunun fəaliyyəti haqqında yalnız Soheyli deyil, Bulard (İngilis səfiri - C.H.) və Türk səfiri də məlumatlıdır".[2] Dekazanov teleqramın sonunda Bağırovun nəzərinə çatdırırdı ki, səfir Smirnovla Əziz Əliyevin əlaqələrini tənzimləmək hələ ki, mümkün olmamışdır. Dekazanov onların görüşməsini məsləhət bilirdi. Teleqramdan başqa Bağırovun bu barədə Dekazanovla telefon danışıqları da olmuşdu. Elə həmin gün, yanvarın 17-də M.C.Bağırov Kremlə teleqram vurdu və Dekazanovun teleqramına cavab verdi. O, yazırdı: "Sizinlə söhbətdən sonra Əliyevə təklif edildi ki, yerli hakimiyyətin İşlərinə müdaxilə etməsin. Smirnovla sıx əlaqə saxlasın, bütün tədbirlərini onunla razılaşdırsın və yalnız onun razılığından sonra bu və ya digər məsələni yerli hakimiyyət qarşısında qaldırsın. Bu gün Əliyevə təklif etdim ki, təcili Tehrana getsin və bütün məsələləri, o cümlədən Kulajenkovun məruzəsini Smirnovla aydınlaşdırsın... O ki qaldı ingilis, türk və digər nümayəndələr qarşısında Əliyevin kimliyinin açıqlanmasına, nə Əliyev, nə də onun qrupu özünü açıqlamayıb. Mən ehtiyat edirəm ki, heç nəyə məhəl qoymadan şübhəli adamlarla sərxoşluq edən bizim ayrı-ayrı işçilərimiz onları açıqlasınlar. Yaranmış vəziyyət imkan vermir ki, bizim orada ilk günlərdən başladığımız böyük İşləri davam etdirək. Smirnov, ya qeyrisi körünür bizim başlayaçağımız İşləri ləğv etməyə nail olur".[3] Sənədlərin araşdırılması əsasında qeyd etmək olar ki, sovet Azərbaycanından olan siyasi işçilərin fəaliyyətinin məhdudlaşdırılması və tədricən onların Güneydən çıxarılması ideyası Sovet rəhbərliyindən gəlirdi. Sovet səfiri Smirnovun Əziz Əliyev qrupu əleyhinə hesabatlar, teleqramlar göndərməsi

də Xarici İşlər Komissarlığının gizli tapşırığı əsasında baş vermişdi. Bu daha çox müharibənin əvvəlində Sovetlərin məğlubiyyəti ilə izah edilməlidir. İkincisi, Tehranda gizli şəkildə Sovet - İngilis - İran üçtərəfli danışıqları anarılırdı və Sovetlərin müttəfiqlərə daha böyük ehtiyacı olduğundan Güney Azərbaycanda əvvəllər başlanmış "bolşevik eksperimentlərindən" tədricən imtina edilirdi. Üçüncü tərəfdən İran ərazisindən Sovetlərə müttəfiqlərin hərbi strateji yardımı daşınmalı idi. Bu məsələdən İran öz ərazi bütövlüyünə SSRİ-dən təminat almaq məqamı kimi istifadə etdi. Dördüncüsu isə, ingilislər "bolşevik təhlükəsi" ilə şahı və İran hökumətini daim qorxu altında saxlayırdı. Türkiyə də öz növbəsində Güney Azərbaycanda Sovetlərin fəlaiyyətini diqtət mərkəzində saxlayırdı. Sovet hərbi kəşfiyyatının məlumatlarında göstərilirdi ki, 1942-ci ilin əvvəllərindən başlayaraq ingilislər Güney Azərbaycana maraq göstərməyə, türklər isə Şərqi və Qərbi Azərbaycanda təbliğat İşlərini genişləndirməyə başlamışdılar. Onlar kürdlərlə azərbaycanlılar arasında yaranmış gərginlikdən İran hakimiyyətinə təlsir vaistəsi kimi istifadə edirdilər və bildirirdilər: "Yalnız Türkiyə Azərbaycan əhalisini kürdlərin soyğunçuluğuvdan xilas edə bilər". Sovet səfiri öz məlumatında yazırdı: "Türklər müharibədən sonra Azərbaycanı Türkiyəyə birləşdirmək üçün zəmin hazırlayırlar".[4]

1941-ci ilin sentyabr ayının əvvəllərində Kremldə Güney Azərbaycanla bağlı tədbirlər müzakirə edilən zaman M.C.Bağırova müstəsna səlahiyyətlər verilmişdi. 1941-ci ilin sonu - 1942-ci ilin əvvəllərində Sovet rəhbərliyi hərbi, siyasi, diplomatik idarələrin, kəşfiyyat orqanlarının əli ilə Güneydəki Sovet hərbi zonasında müxtəlif təxribatlar törədib M.C.Bağırovu fakt qarşısında qoymaq və Sovet Azərbaycanı işçilərini oradan çıxarmaq planını gerçəkləşdirməyə başlamışdılar. Güney Azərbaycandakı proseslərin getdikcə milli müstəviyə keçməsi Sovetləri o qədər də

təmin etmirdi. Ona görə Andrey Smirnov ilk olaraq türk dilində çıxan və Güney Azərbaycanda əl-əl gəzən "Vətən yolunda" qəzetinin bağlanmasını SSRİ Xarici İşlər Komissarlığından xahiş edirdi. Bu elə bir vaxt idi ki, qəzet redaksiyasında Mirzə İbrahimov, Süleyman Rüstəm, İsrafil Nəzərov, Osman Sarınəlli, Mehdixan Vəkiləv, Qılman Musayev, Şəmsi Bədəlbəyli və digərlərindən ibarət maraqlı kollektiv formalapşışdı.5 M.C.Bağırov "Vətən Yolunda" qəzetinin bağlanmasına etiraz edirdi. Kuybışev şəhərində yerləşən SSRİ XIK-nın aparatının baş katibi. Arkadi Soboləvə və Dakanazova göndərdiyi teleqramda bildirirdi: "Bizim əlimizdə yoxlanılmış məlumatlar var ki, son zamanlar yerli İran hakimiyyət orqanları Güney Azərbaycanda bizə loyal münasibət bəsləyən, bizə sevgisi olan adamları həbs edib incidirlər. İran hakimiyyətinin Güney Azərbaycanda bizə münasibəti o dərəcəyə çatıb ki, Təbrizdə Alman faşistlərinin müharibə cəbhəsindən bəhs edən kinofilmlərini açıq nümayiş etdirirlər. Təbriz valisinin bilavasitə himayəsi ilə "Azərbaycanın səsi" adlı faşistpərəst qəzet buraxılır. Güney Azərbaycan şəhərlərində bizə loyal münasibəti olan şəxslər vali tərəfindən vəzifələrindən azad edilir. Belə bir vəziyyətdə nəinki əhali arasında "Vətən Yolunda" qəzetinin yayılmasını dayandırmaq, əksinə olaraq Smirnova tapşırılmalıdır ki, yerli hakimiyyəin bizə qarşı törətdiyi təxribatlara daha ciddi reaksiya versin".[6] Daha sonra M.C.Bağırov Xarici İşlər Komissarlığının məsul vəzifəli şəxslərinə xəbərdarlıq edirdi ki, bütün bu məsələlər barəsində o, ingilis səfirini Bakıdan Moskvaya müşayiət edən SSRİ Daxili İşlər Komissarlığının əməkdaşı Viktorov vasitəsilə, Çernopyatovun idarə etdiyi təyyarə ilə Stalinə geniş məktub göndərib.[7]

Sovet Azərbaycanından göndərilmiş siyasi işçiləri Güneydən uzaqlaşdırmaq məqsədilə İran xüsusi xidmət orqa**il**əri 1942-ci ilin ilk günlərində "Sərtibzadə qiyamından" istifadə etdilər. Sərtibzadənin

keçmişi Kominternlə bağlı olsa da, sonradan İran xüsusi xidmət orqanları ilə əməkdaşlığa keçmişdi. Sərtibzadə vaxtilə Sovet Azərbaycanından sürgün edilmiş Ağayev və Rəsulovla birlikdə Sovetlərlə sərhəd bölkələrdə Qaradağda, Culfada, Mərənddə və digər yerlərdə Sovet hakimiyyəti qurmaq uçün partizan dəstələri yaradıb qırmızı bayraqlar qaldırmışdılar. Partizan dəstələrində 5000 adamın olduğu göstərilir ki, bunun da 1800 nəfəri müxtəlif silahlarla silahlanmışdı.[8] Lakin bu silahların haradan alındığı müəmmalı idi. Əziz Əliyev qrupunu fakt qarşısında qoymaq üçün silahların Sovet xüsusi xidmət orqanları tərəfindən verildiyi də istisna olunmur. Partizan dəstəsinin əlinə keçmiş bəzi yerlərdə hakimyyət orqanları qovulmuş, yerli özünüidarə orqanları yaradılmışdı. Bu hadisələr başlayanda Bakıdan Təbrizə qayıdan Əziz Əliyev hələ Naxçıvanda idi. Azərbaycan daxili İşlər komissarı M.Yaqubov sərhəd qoşunlarının rabitə sistemi ilə Bağırovun tapşırıqlarını ona çatdırdı. Bağırov təklif edirdi ki, təcili olaraq "Partizan dəstələri" ləğv edilməlidir. O, deyirdi: "Bu çıxışın ziyanlı olduğu yerlərdə izah edilməlidir. Bundan əlavə ayrı-ayrı şəxslərdən alınmış pul və silah təcili olaraq qaytarılmalı, həbs olunmuş hakimiyyət nümayəndələri azad edilməlidir. Müxtəlif bəhanələrlə Rəsulovu hələlik bizim ərazimizdə saxlayın. Elə yaxşı şərait yaradın ki, o, həbs olunduğunu hiss etməsin".[9] Bağırovun tapşırığı üzrə Əziz Əliyev təcili olaraq bir qrup siyasi işçi ilə Mərəndə getdi. Yerlərdə görüşlər keçirdi. Silahlı dəstələri dinç yolla dağıtmaq mümkün oldu. Dəstələrin başçıları danışıqlar aparmaq üçün Culfaya gətirildi və Sovet Azərbaycanı Daxili İşlər orqanları tərəfindən zərərsizləşdirildi.

İran hökuməti bu hadisədən Azərbaycana qoşun yeritmək məqamı kimi istifadə etmək istəyirdi. Yanvarın 7-də, 1942-ci iddö M.C.Bağırov "Sərtibzadə qayamı" barədə Stalinə məlumat göndərdi.10 Eyni zamaada Xarici İşlər Komissarlığına yazırdı: "İran hökumətinin

Sovet Ordusu tərəfindən nəzarət edilən İran ərazisində bizə və onlara düşmən münsibət bəsləyən quldur dəstələrini, faşistpərəst elementləri ləğv etmək təklifinə bu şərtlərlə razılaşmaq olar: Faşistpərəst quldur dəstələri Əmniyyə və polis qüvvələri tərəfindən hökmən bizim komandanlıqla məsləhətləşdikdən sonra, hökmən bizim nəzarətimizlə ləğv oluna bilər. Biz, əsl quldur və faşistpərəst dəstələri barədə dəqiq məllumatlara malikik. İran hökumətinin anlayışında quldur Sovetlərə meyl edən adamlardır. İngilislərlə razılıq əsasında İran hökuməti quldur adı altında bizə tərəfdar olan, bizə lazım olan adamları məhv etmək istəyir. Bununla da nəzarət etdiyimiz ərazidə bizim nüfuzumuzu aşağı salmaq istəyirlər. Eyni zamanda İran hökumətinin bizim nəzarətimizdə olan əraziyə nizami qoşun yeritmək təklifi ilə razılaşmaq olmaz. Əks təqdirdə bizim qarnizonların az olduğu yerlərdə bu ordudan müxtəlif təxribatçılıq məqsədilə istifadə edilə bilər".[11]

1942-ci ilin yanvarında M.C.Bağırov yaranmış vəziyyətlə əlaqədar olaraq SSRİ Daxili İşlər Komissarının müavini Merkulova və Xarici İşlər Komissarının müavini Dekonazova müraciət etdi. Müraciətdə ingilis kəşfiyyatının kürdlər arasında və Güney Azərbaycanda apardıqları pozuçuluq İşləri barədə məlumat verilirdi. O, yazırdı: "İngilislərin bütöv qrupları nəinki Britaniya təsir dairəsində, eyni zamanda bizim qoşunların yerləşdiyi ərazidə heç nədən çəkinmədən dolaşırlar.[12] Hər yerdə onlar əhaliyə, xüsusilə kürdlərə silah paylayıb İran hökumətinə qarşı çıxmağa təhrik edirlər. Düzdür onlar bilavasitə silah paylamırlar, lakin silahları yük maşınları ilə daşıyıb yaşayış məntəqələrinin yaxınlığına tökürlər. Sonra isə kürdlərə deyirlər ki, filan yerdə silah var, niyə onu götürmürsünüz. Onlar bütün fəaliyyətində kürdlərə və azərbaycanlılara deyrlər: hətta silahlı üsyan yolu ilə də olsa, Siz öz mütsəqilliyinizə nail olun, lakin biz Sizin İşlərinizə müdaxilə etməyəcəyik, biz İran hökuməti

tərəfindəyik".[13] Bu məktubda M.C.Bağırovun əsas məqsədi Əziz Əliyev qrupuna qarşı yönəlmiş təhlükəni sovuşdurmaq idi. O, sözünə davam edərək deyirdi: "İngilislərin Sizə məlum olduğu bütün bu əməlləri bizim işçilərin adına yazılır. Onlar bizim səfirə təqdimat verirlər ki, guya bu pozuçuluq faktları bizim işçilərin əməlləridir. Yoldaş Smirnov isə heç nəyi yoxlamadan, bizim işçilərdən izahat tələb etmədən, guya bizim işçilərin özlərini pis aparması barədə tamamilə səhv məlumatları Moskvaya verir. Halbuki bizim işçilər özlərini çox təmkinli aparırlar. İndiyə qədər onlardan heç kəs ingilis zonasına ayaq basmayıb. Bizim İranda olan hərbi işçilərin özlərini pis aparması barədə məndə olan məlumatları Moskaya çatdırmışam. Bütün məsələ ondadır ki, ingilislər, türklər və İranlılar Güney Azərbaycan əhalisi arasında bizim gündən-günə artan nüfuzumuzdan bərk qorxurlar. Ona görə xarici kəşfiyyat qüvvələri bütün vasitələrlə bizim Güneydəki İşlərimizə mane olmağa çalışırlar. Mənə elə gəlir ki, bütün bunları bizim bir sıra yoldaşlar, o cümlədən Smirnov düzgün qiymətləndirmir".[14]

M.C.Bağırov məktubun sonunda maraqlı bir məsələyə toxunurdu. O, yazırdı: "Mən Sizin diqtətinizi daha bir məsələyə cəlb etmək istəyirəm, hansı ki, həmin ingilislər, türklər və İranlılar bundan istifadə edə bilərlər ki, bizim tədbirlərimiz heç bir nəticə verməsin. Bu da Güney Azərbaycan əhalisi, kürdlər, aysorlar və ermənilər arasında işləyən bizim qrupların paralelliyi və bir-birini təkrar etməsidir. Mən Ermənistan Daxili İşlər Komissarlığının işçilərini, kəşfiyyat qrupunu nəzərdə tuturam. SSRİ Daxili İşlər Komissarlığının onların İrandan çıxması barədə müvafiq göstərişi olmasına baxmayaraq onlar hələ ki, öz İşlərini davam etdirirlər".[15]

Moskvadan M.C.Bağırova söz verdilər ki, Tehrandakı səfir Andrey Smirnovla danışacaqlar və Əziz Əliyev qrupu ilə bağlı yaranmış gərginliyi tənzimləyəcəklər. O, Təbrizə göndərdiyi məktubda xahiş edirdi ki, Əziz

Əliyev yaxın vaxtlarda bir neçə günlüyə Tehrana getsin, Smirnovla görüşüb məsələləri müzakirə etsin. Bağırov Əziz Əliyevə və Güneydəki rəhbər işçilərə məsləhət görürdü ki, işimizin xatirinə nə edirsinizsə Smirnovun məlumatı olsun. Smirnovla əlaqə saxlamaq elə də çətin deyildir. Şifrəli yazışmalardan da istifadə etmək olar, lakin yaxşı olar ki, vaxtaşırı Tehrana kedilsin. Yoldaş Smirnov da bu məsələ ilə bağlı müvafiq göstəriş alıb.[16]

M.C.Bağırov Əziz Əliyevə məktubunda Sovet Azərbaycanından göndərilən siyasi işçilərin ruhdan düşməməsini məsləhət görürdü. O, deyirdi: "Bizim ilk gündən başladığımız kütləvi izahat İşlərindən, faydalı mədəni tədbirlərdən, ümumilikdə bütün bu ali məqsədlərdən imtina edilməsin. Elə həmin ruhda da İşləri davam etdirin...".[17]

Qaradağda, Mərənddə, Culfadakı gərginliyi tənzimlədikdən sonra yanvarın 18-də Əziz Əliyev Təbrizə döndü və yeni təyin edilmiş baş konsul Anatoli Kulajenkovla görüşüb onun Smirnova göndərdiyi məlumat vərəqəsi haqqında söhbət açdı. Baş konsul qəti şəkildə bildirdi ki, o, heç bir məlumat vərəqəsi hazırlamayıb, yalnız öz gündəliyindəki qeydlərə əsasən Smirnova bəzi məxlumatlar verib.[18] Müzakirə zamanı Əziz Əliyev baş konsulun qeydlərinin əsaslı olmadığını bildirdi. Yanvar ayının 12-də Smirnovun SSRİ Xarici İşlər Komissarlığına göndərdiyi məruzəni aydınlaşdırmaq məqsədilə Əziz Əliyev yanvarın 21-də Tehrana getdi. Güney Azərbaycanda görülən İşlər barədə Smirnova məlumat verdikdən sonra, aparılan İşlərdə hansı səhvlərə yol verildiyini səfirdən soruşdu. A.Smirnov əvvəl heç nə demədi, lakin sonra Kulajenkovun qaldırdığı məsələlərə toxunub Sovet Azərbaycanı siyasi işçilərini İran hökumətinin İşlərinə müdaxilədə günahlandırdı. Söhbət əsasında o, əhali arasında izahat işi aparılmasının əleyhinə olduğunu bildirərək dedi: "Güney Azərbaycan əhalisi kifayət qədər inqilabiləşmişdir. Ehtiyaç yoxdur ki, orada hər hansı

izahat və tərbiyə İşləri aparılsın". Muzagirələr zamanı Smirnov Əziz Əliyevə təklif etdi ki, yaxşı olar ki, o, Bakıya qayıtsın və oradan İşlərə rəhbərlik etsin.[20] Ə.Əliyev Tehranda olarkən Sovet səfirliyinin birinci katibi Avapovla, Kuznetsovla, məsləhətçi N.İvanovla, ticarət müvəkkilinin müavini Polyanski ilə görüşlər keçirmişdi. Tehrandakı səfir Smirnovla, səfirliyin əməkdaşları ilə, Təbrizdəki baş konsul Kulajenkovla keçirdiyi görüşlər, apardığı danışıqlar barədə o, yanvar ayının 28-də (1942) M.C.Bağırova geniş hesabat göndərmişdi. Hesabatda göstərilirdi: "Əhali arasında təbliğat və izahat işinin dayandırılması barədə Smirnovun və Kulajenkovun xəttini səhv və ziyanlı hesab edirəm. Fikrimizcə, Smirnovun müəmmalı və qəribə hərəkətləri barədə mərkəzə xəbər verməliyik. Smirnov bütün vasitələrlə çalışır ki, bizim apardığımız böyük işi nüfuzdan salsın. Bizə qarşı etimadsızlıq yaradıb fəaliyyətimizi dayandırmağa cəhd göstərir. Smirnov hökumət qarşısında məsələ qaldırır ki, Foruği və Soheyli hökuməti müdafiə edilsin. Guya bu hökumət Sovetlərlə əməkdaşlığa hazırdır. Ə.Əliyev qeyd edir ki, sadəcə olaraq Smirnovun məlumatları səhidir. Foruği hökuməti bizimlə yox, ingilislərlə əməkdaşlığa hazırdır. O, yazırdı ki, Foruği hökuməti İranda öz sosial dayaqlarını itirmişdir".[21] Smirnov isə belə bir hökumətin müdafiə edilməsini SSRİ Xarici İşlər Komissarlığına məsləhət görürdü. Yeri gəlmişkən, bu məsələdə Əziz Əliyevin fikri düz çıxdı. Yeddi ay ərzində 4 dəfə hökumət böhranı ilə qarşılaşmış Foruği hökuməti 9 mart 1942-ci ildə istelfa verməli oldu.[22]

Əziz Əliyev 28 yanvar tarixli hesabatında daha sonra yazırdı: "Səfir işlədiyi 7 ay müddətində Smirnovun bir nəfər də olsun etibarlı informasiya mənbəyi yoxdur. Onun əsas informasiya mənbəyi Britaniya səfiri Bulard, Foruği, Soheyli, ticarət müvəkkilinin müavini, öz saxtakarlığı ilə məşhur olan, bu saxtakarlığa görə vaxtilə universitetdən qovulmuş Beloşapkindir".[23]

Hətta xarici İşlər üzrə İran məclisinin parlament komissiyasının sədri Eqbal 14 yanvar 1942-ci ildə Smirnovla görüş zamanı onun ictimai rəydən və İranın daxili həyatından ayrı düşdüyünü, demokratik elementlərə heç bir yardım göstərmədiyini vurğulamışdı. Eqbalın fikrincə, Smirnovun zəifliyi nəticəsində faşistlərlə əməkdaşlıq etmiş keçmiş baş nazir Əli Mansur Xorasana vali təyin edilmişdi.[24] İş gəlib o yerə çatmışdı ki, Tehranda Sovet səfirliyi işçilərinin yaşadığı evlərin divarlarına dəfələrlə faşist svasikası və Almaniyanın xeyrinə şüarlar yapışdırılmışdı.[25] Əziz Əliyevin hesabatından başqa M.C.Bağırov İranda və Güney Azərbaycanda çərəyan edən hadisələr barədə xüsusi xidmət orqanlarının gizli məlumatlarını da almışdı.[26]

Yanvarın 26-da İran Məclisində SSRİ, Böyük Britaniya, İran arasında ittifaq müqaviləsinin müzakirəsi başa çatdı.[27] 80 deputat lehinə, 8 əleyhinə, 5 deputat tərəfsiz qalmaqla Məclis İttifaq müqaviləsini təsdiq etdi. İran hökumətinə səlahiyyət verildi ki, onu imzalasın.[28] İttifaq müqaviləsinin məclisdə müzakirəsi zamanı maraqlı bir hadisə baş verdi. Məclisin son iclasında tamaşaçı kimi iştirak edən Məhəmməd Əli. Rövşən baş nazir Foruği çıxış edən zaman yerindən qalxıb sürətlə tribunaya doğru yeridi. O, cibində gizlətdiyi daşı çıxarıb baş nazirə atdı, onu söydü və Foruğini döyməyə cəhd göstərdi. Məhəmməd Əli Məclisin iclas zalında həbs edildi.[29]

29 yanvar 1942-ci ildə axşam saat 18.15-də Tehranda Sovetlər Birliyi, Böyük Britaniya, İran arasında ittifaq müqaviləsi imzalandı. Müqaviləni Sovetlər tərəfindən A.Smirnov, Britaniya tərəfindən səfir R.Bulard, İran tərəfindən Xarici İşlər naziri Soheyli imzaladı. Mərasimdə baş nazir Foruği iştirak etdi.[30] Bu münasibətlə marşal Stalindən baş nazir Foruğiyə təbrik teleqramı gəldi. İttifaq müqaviləsinin imzalanmasını Smirnov Sovet - İran münasibətlərinin dönüş məqamı hesab edirdi.[31]

10 fevral 1942-ci ildə ittifaq müqaviləsi ilə bağlı Məhəmməd Rza Pəhləvi və ABŞ prezidenti F.D.Ruzvelt arasında teleqramlar mübadiləsi oldu. Şah xahiş edirdi ki, Ruzvelt İranın ərazi bütövlüyünün və müstəqilliyinin təminatçısı olsun. Əhməd Qəvam (Qəvam əs Səltənə) isə belə bir plan irəli sürdü ki, İrandakı Sovet və Britaniya qoşunlarını Amerika qoşunları əvəz etsin.[32] 1942-ci ilin yazıvda İranda və Güney Azərbaycanda vəziyyyət dəyişmişdi. Moskvanın təzyiqi. ilə 1942-ci ilin martında Əziz Əliyev və Sovet Azərbaycanından göndərilmiş siyasi işçilərin çoxu geri çağırıldı. ) 1942-ci ilin ortalarında Güneydə Bakı missiyasından cəmi 84 nəfər qalmışdı. Bunun 62 nəfəri siyasi və mətbuat işçiləri, 17 nəfəri həkim idi.[33] SSRİ Daxili İşlər komissarı Lavrenti Beriya 29 mart 1942-ci ildə M.C.Bağırova vurduğu şifrəli teleqramla bildirirdi: "İranda qalan partiya və sovet işçilərinin geri çağırılması, Təbrizdə və Rəştdə nəşr olunan qəzetlərin bağlanması haqqında məsələ mənim tərəfimdən qaldırılıb və Mərkəzi Komitədən razılıq alınıb ki, işçilər geri çağırılsın və qəzetlərin nəşri dayandırılsın".[34] Bu direktivdən sonra Təbrizdə Sovet Azərbaycan işçilərindən M.Əmiraslanov başda olmaqla cəmi bir neçə nəfər qaldı. İranda rejim bir qədər möhkəmləndi. 9 mart 1942-ci ildə şahın təqdimatı ilə yeni hökumət kabinəsini quran Mirzə Əli xan Soheyli Təbrizdə, Zəncanda, Qəzvində və s. yerlərdə sərt tədbirlərə əl atdı. Güney Azərbaycan səmasında körünən faşist təyyarəsi Azərbaycan dilində nəşr edilən və Almaniya ali komandanlığı tərəfindən imzalanan antisovet vərəqələri şəhər və kənddərə tökməyə başlamışdı.[35]

1942-ci ilin yazıvda İranın Qərbə meyli xeyli gücləndi. May ayında İran - İngilis maliyyə sazişi imazalandı. İran hökuməti ingilislərin riala olan ehtiyaclarını ödəməli idi. İngilislər isə bu realı müxtəlif mallarla, funt sterlinqlə və qızılla əvəz etməli idilər.[36] 1942-ci ildə ingilislər, amerikanlar və

İran hökuməti arasında imzalanmış sazişə görə İran ərzaşa təmin olunmalı idi. 3 may 1942-ci ildə ABŞ lend lizi İrana aid etdi.[37] Soheylinin Qərblə yaxınlaşma xətti İranın Yaponiya ilə diplomatik əlaqələrini kəsməsi ilə nəticələndi. O, Berlin - Roma - Tokio xətti lehinə təbliğat aparan şəxslərə qarşı qanunu məclisdən keçirdi. Soheyli elə etmək istəyirdi ki, həm müttəfiqlərin dediyi ilə oturub-dursun, həm də ictimai rəydə öz müstəqilliyini saxlasın. Lakin iqtisadi vəziyyəti düzəldə bilmədiyindən, ingilislər tərəfndən vəd edilən kömək gəlmədiyindən, Yaponiya ilə diplomatik əlaqələrin kəsilməsindən, bəzi siyasi dairələr narazı olduğundan, məclisi buraxmaq haqqında şaiyələr yayıldığından Soheyli hökuməti istefaya getməli oldu.[38] 9 avqust 1942-ci ildə Qəvam əs-Səltənə yeni hökumət kabinəsini qurdu və elə həmin axşam hökumət bəyanatı ilə çıxış etdi. Qəvam öz proqramında ABŞ-la əlaqələri kücləndirəçəyini xüsusi şəkildə qeyd edirdi.

Mirzə Əhməd xan Qəvam əs Səltənə İranın köhnə aristokratlarından idi. Gilanda böyük çay plantasiyalarının və çay fabrikinin sahibi idi. Siyasi fəaliyyətə 1905-ci ildən başlamışdı. İran hökumətinə bir neçə dəfə rəhbərlik etmiş, Vüsuqəddövlənin qardaşı idi. 1911-ci ildə Samsam əs-Səltənə hökumətində ilk dəfə olaraq nazir vəzifəsini tutanda ABŞ missiyasını İrana dəvət etməyin təşəbbüsçüsü kimi çıxış etmişdi. 1921-22-ci illərdə İranda hökumət kabinəsinə rəhbərlik etmişdi. Hələ o zaman Qövam Şimal neftini adoerikanlara vermək barədə danışıqlar aparmış və Artur Milspo başda olmaqla ABŞ missiyasını İrana dəvət etmişdi. Rza xan və Seyid Ziya Əddinlə ciddi ixtilafda olduğundan hakimiyyət uğrunda mübarizödə məğlub olmuş və 1930-cu ilə kimi xaricdə yaşamışdır. Rza şah dövründə dövlət İşlərinə yaxın buraxılmamışdı. Rza şah dövrildikdən sonra onun əleyhdarı rolunda çıxış etmək Qəvamı yenidən məşhurlaşdırmışdı. 9 avqustda hökumətə gələn kimi

Qəvamın ilk addımı köhnə tanışı Artur Milspo başda olmaqla Amerika maliyyə missiyasını İrana dəvət etmək oldu. Bunun ardınca müxtəlif adlarla dəvət edilən Amerika muşavirləri İran hökumətinə nəzarəti kücləndirmək üçün əlverişli vasitəyə çevrildilər. 1942-ci ilin oktyabrında iki Amerika hərbi missiyası - polkovnik Norman Şvarskomf və general Klarens Ridl başda olmaqla İrana gəldi. Şeridan İran hökumətində müşavir postunu tutdu. Beş aylıq fəaliyyətdən sonra 1942-ci ilin noyabrında Əhməd Qəvam hökuməti Milspo missiyasına rəsmi status verdi. Tehrandakı Sovet səfirliyi öz hesabatında yazırdı: "1942-ci ilin İkinci yarısında Tehrandakı Amerika missiyaları İran dövlət xadimləri və mətbuatla əlaqələri gücləndirməyə kuclü səy göstərirlər. Azərbaycanda amerikanlar yerli hökumət aparatını və ziyalıları öz tərəflərinə çəkməyə çalışırlar".[39]

Eyni zamanda SSRİ Xarici İşlər Komissarlığına Tehrandan məlumat verilirdi ki, 1942-ci ildə türklərin Güney Azərbaycandakı fəaliyyətləri diqtəti cəlb edir. İyun - sentyabr aylarında Güneydə Türkiyə qərəfindən təbliğat İşlərinin gücləndirilməsi, Şərqə və Qərbi Azərbaycanda Sovetlərə qarşı kəşfiyyat İşlərini genişləndirilməsi Moskvanın narahtlığını artırmışdı.[40] Yeni baş nazir Qəvam əs Səlqənənin kommunizmin düşməni olmasını açıq elan etməsi də müttəfiqlərlə əməkdaşlığa hazır olması ilə bağlı bəyanatı ilə birlikdə Kremlin diqtətindən yayınmamışdı. 1942-ci ilin payızında Soveqlər başa düşdü ki, Güneydən Sovet Azərbaycanı siyasi işçilərini geri çağırmaqda səhvə yol verib. Oktyabr ayının sonunda İrandakı Sovet səfiri A.Smirnov Təbrizdə bir neçə nəfərlə qalmış Meybulla Əmiraslanovu danışıqlar üçün Tehrana dəvət etdi.[41] İrandakı Sovet qoşunlarının komandanının iştirak etdiyi danışıqlarda Smirnov SSRİ Xarici İşlər Komissarlığının göstərişi əsasında hazırlanmış direktivi müzakirəyə təqdim etdi. Direktivdə İran hakimiyyəti ilə münasibətlər, əhali ilə

əlaqələr, Mərkəzi qərargahı Təbrizdə olmaqla şimal-qərb İran hərbi diviziyasının formalaşdırılması məsələləri əks olunmuşdu. Direktivdə yerli əhali ilə iş məsələsi xüsusi şəkildə qeyd olunaraq deyilirdi: "Bizim konsulluq işçiləri və hərbi yoldaşlar unudurlar ki, İranın şimalının əhalisi əsasən azərbaycanlılardır. Bu əhalini kənarlaşdırmaq olmaz, onların simpatiyasını qazanmaq lazımdır. Lakin əslində İşlər əks istiqamətdə getmişdir. Belə ki, bizim konsulluq işçilərimiz və hərbçilərimiz öz məlumatlarında əsasən kürdlər haqqında, onların bizə olan simpatiyası haqqında yazırlar. Halbuki İran hökumətinin zəifliyindən istifadə edərək kürdlər talançılıqla, Azərbaycan kənddərində soyğunçuluqla məşğuldurlar. İran hökumətində də belə bir səhv fikir formalaşır ki, ...guya kürdləri Sovetlər silahla təchiz edir. Bu qədər sadəlövh olmaq olmaz ki, fikirləşəsən bütün kürd tayfa başçıları Sovet hakimiyyətinə və Qızıl Orduya simpatiya ilə yanaşır... Kürd başçıları arasında xarici kəşfiyyatın agentləri çoxdur. Tayfalar parçalanmışlar və öz aralarında düşmənçilik edirlər. Bu və digər məsələlər belə deməyə əsas verir ki, hazırda kürdlərə millət kimi baxmaq olmaz. Beləliklə, əsas və başlıca iş kimi bütün diqtət Azərbaycan əhalisinin simpatiyasının qazanılmasına yönəldilməlidir".[42]

Direktivlə tanış olduqdan sonra Smirnov bildirdi ki, hərbi hissələr əhali içərisində heç bir iş aparmır və aparmaq da istəmir. General Novikovun yerinə komavdan təyin olunmuş general Antonov səfirin bu sözlərinə etiraz etdi və bildirdi ki, hər kəsə bu məsul işi etibar etmək olmaz. O, qeyd etdi ki, əhali arasında iş ordunun funksiyasına aid deyil.[43] Lakin general Antonovun əhali arasında özünəməxsus iş metodları var idi ki, bu barədə də M.C.Bağırova operativ məlumat verilmişdi.. Məlumatda deyilirdi: "Erməni caz artistləri İrana gələrkən general Antonov caz aktrisalarından birini yanına gətirmişdi. Bu hadisə bütün caz kollektivinə məlum oldu və Antonovun

ətrafında hər cür söz-söhbət dolaşmağa başladı".[44] Operativ məlumatda Antonovun sərxoşluqla məşğul olması, hərbi qospitalın həkim və tibb işçilərini öz mənzilinə gətirməsi barədə faktlar var idi.

Tehranda keçirilən görüşdə Smirnov əhali arasında işin əhəmiyyətindən danışdı və misal kimi Əziz Əliyevin siyasi işçilərinin vaxtilə apardıqı nəhənk işi xatırlatdı. Səfir təəssüf etdi ki, başlanmış bu faydalı iş yarımçıq dayandırıldı və Əziz Əliyev qrupu nahaq geri çağırıldı. M.Əmiraslanov Smirnovun bu sözlərinə dözməyərək bildirdi ki, sizin bu təəssüflərinizi mən bapYa düşə bilmirəm. Əgər siz təəssüf edirsinizsə onda nə üçün təkid edirdiniz Əliyev qrupu buradan çıxarılsın. Axı biz bir neçə dəfə sizə bildirdik ki, qrupun işini təkmilləşdirmək üçün öz təkliflərinizi verin. Siz qətiyyən bizim sorğularımıza reaksiya vermədiniz. Belə bir vəziyyətdə siyasi işçilər qrupu burada qalıb İşləri davam etdirə bilməzdi, ona görə geri çaqırıldı. Səfir cavab verdi ki, işçilərin geri çağırılmasına yox, iş metodlarının dəyişdirilməsinə nail olmaq istəyirdi.[45] Lakin A.Smirnov yalan danışırdı. Uzun müzakirələrdən sonra Smirnov Əmiraslanovdan xahiş etdi ki, əhali arasında işi kücləndirmək üçün siyasi işçilər qrupunun bərpa olunması məsələsini M.C.Bağırovun qarşısında qaldırsın. Əmiraslanov bildirdi ki, onun M.C.Bağırovun qarşısında öz səlahiyyətinə aid olmayan məsələni qaldırmağa haqqı yoxdur. Lakin, 15 dekabr 1942-ci ildə o, Bağırova yazırdı: "Səfirə belə cavab verməyimə baxmayaraq "əhali arasında iş aparılmasını vacib və faydalı hesab edirəm. Məqsədə uyğundur ki, Siz özünüz və səfir bu məsələni harada lazımdır orada qalırasınız və həllinə nail olasınız..."[4]

## VI Təbrizdə diplomatik missiyalar

1943-cü ilin yanvar ayının 1-də hərbi kəşfiyyatın Təbrizdən M.C.Bağırova göndərdiyi məllumatda Güney Azərbaycanda vəziyyətin kəskinləşdiyi, faşistpərəst ünsürlərin fəallaşdığı göstərilirdi. Vəziyyətin gərginliyi İranda yaranmış durumla əlaqələndirilirdi. Xüsusilə Qəzvində və Zəncanda Sovetlər əleyhinə təbliğatın artdığı qeydə alınmışdı. Kəşfiyyat materiallarında Qəzvivdəki faşist təbliğatına İran təbəəsi, milliyyətcə alman olan Kate addı bir qadının, daha sonra Voskonyan, Qrant, Mezik Azaryan, Tratat, Karen oşu Akop və digər ermənilərin rəhbərlik etdiyi göstərilirdi.[1] Zəncanda da təxminən buna bənzər hadisələr baş vermişdi. Əhali arasında izahat işi aparılırdı ki, "Almaniya üzərində qələbə çaldığı təqdirdə Sovet İttifaqı öz qoşunlarını İrandan çıxarmayacaqdır, İran Azərbaycanında Sovet hakimiyyəti qurulacaq və kolxozlar təşkil ediləcəkdir".[2] Şayiələr bəzən elə güclü xarakter alırdı ki, torpaq və mülk sahibləri öz təsərrüfatların dağıdır, evlərini dəyər-dəyməzinə satıb Tehrana gedirdilər. İş gəlib o yerə çatmışdı ki, 1943-cü ilin yanvarında SSRİ-nin Təbrizdəki baş konsulu İran hakmiyyəti orqanları qarşısında təsərrüfatlarını və meyvə bağlarının kütləvi şəkildə məhv edilməsinin təcili olaraq dayandırılması məsələsini qaldırmışdı.[3]

1943-cü ilin əvvəllərindəki vəziyyət Əhməd Qəvam hökumətinin böhranı ilə nəticələndi. Onun şaha, Məclisə və demokratik qüvvələrə qarşı siyasəti uğursuzluğa düçar oldu. Qəvamın "dövlət yalnız hökumət tərəfindən idarə edilməlidir" ideyası şahın və Məclisin rolunun məhdudlaşdırılmasına yönəldilmişdi. O, hərbi hakimiyyəti də öz əlində cəmləşdirməyə çalışırdı. Lakin Qəvam əs-Səltənənin yetərincə dayağı yox idi. 7 fevralda əleyhdarları onu istefaya göndərə bildi. 17 fevralda Mirzə Əli xan Soheyli yeni hökumət qurdu. Birinci hökumətindən fərqli

olaraq Soheylinin İkinci hökumətində əsasən şah rejiminin tərəfdarları üstünlük təşkil edirdi. Sovetlərin əleyhdarı kimi tanınan Səvd Nuri Soheyli hökumətində Xarici İşlər naziri, Rza şaha yaxın silahdaşı olmuş general Əhmədi hərbi nazir, Amerikanın adamı sayılan Allahyar Saleh maliyyə naziri, ingilislərə yaxın olan Tadayon daxili İşlər naziri vəzifəlerini tutdular. 14 mart 1943-cü ildə Soheyli - Səid hökuməti A.Milspo missiyasına fövqəladə səlahiyyət verməklə İranda ABŞ-ın mövqelərini xeyli möhkəmləndirdilər. Güney Azərbaycanda sovetlərin rolunu zəiflətmək, oradakı Qırmızı Ordunun fəaliyyəti üzərində beynəlxalq müşahadəni möhkəmləndirmək məqsədilə yeni Xarici İşlər naziri Səid Nuri Təbrizdəki diplomatik missiyaların və xarici nümayəndəliklərin işinin canlanmasında maraqlı idi.

1943-cü ildə Təbrizdə Britaniya, SSRİ, Türkiyə Baş konsulluqları, Amerika konsulluğu, İraq vitse konsulluğu və qeyd edilən ölkələrin iqtisadi, hərbi, maliyyə, səhiyyə, maarif, missioner və s. təşkilatları fəaliyyət göstərirdi.[4] Dövlət Təhlükəsizliyi Komissarlıqının hazırladığı xüsusi arayışda ingilislərin Güney Azərbaycanda, o cümlədən SSRİ ilə sərhəd rayonlarında möhkəmlənməsindən ciddi narahatçılıq keçirdiyi hiss olunurdu. Keçmişdə Müsavat mühaçirətinə yaxın olan İskəndər Bakbeylinin ingilislər vasitəsilə Təbrizə polis rəisi təyin edilməsi sovet təhlükəsizlik xidmətini hövsələdən çıxarmışdı. Bu təyinat Güneydəki polis xidmətinin ingilis nəzarətinə keçməsi kimi qiymətləndirilirdi. Digər tərəfdən ingilislər İran hökumətinin əli ilə ölkənin cənub rayonlarından 50 mindən artıq bəhayi ailəsini Xəzər sahillərində, Şimal rayonlarında yerəşdirə bilmişdi. Sovet təhlükəsizlik orqanlarının məlumatında göstərilir: "Bəhayilər öz nizamnamələrinə görə hər hansı siyasi qruplaşmaya məxsus ola bilməzlər. Lakin məlumatlar var ki, onlardan əhali arasında təbliğat üçün istifadə edirlər".[5] M.C.Bağırov Stalinə göndərdiyi məktubda ingilislərin

Xəzərin cənub sahillərini müxtəlif yollarla nəzarət altında saxlamalarının, çətinlik çəkmədən öz adamlarını kəşfiyyat və s. məqsədlərlə bağlı müxtəlif yerlərdə yerləşdirmələrinin Sovet İttifaqı, o cümlədən Bakı üçün təhlükə törədə biləcəyini yazırdı.[6]

Təbrizdəki Britaniya Baş konsulluğu iki diplomatdan - baş konsul və vitse-konsuldan ibarət idi. Texniki işçilər, katib və tərcüməci yerli adamlardan götürülmüşdü. 1943-cü ilin sentyabrına qədər baş konsul Robert Uorkart işləmişdi. O, ilk dəfə 1936-cı ildə Təbrizdə çalışmışdı. Lakin sonra Beyrutda və Britaniya Xarici İşlər Nazirliyinin Yaxın Şərq şöbəsində işlədikdən sonra yenidən Təbrizə baş konsul təyin edilmişdi. Sovetlərin qatı düşməni idi və sovet hakimiyyətinin müvəqqəti hadisə olduğuna, onun hökmən dağılaçağına inanırdı.[7] İran torpaq nazirinin fevral 1943-cü il tarixli teleqramı ilə Britaniya konsulu yeganə xarici olaraq Azərbaycanda yaz tarla İşləri komissiyasının tərkibinə daxil edilmişdi. 1943-cü ilin iyununda Uorkart Əhərə gedib Xalq Partiyasının mitinqandə iştirak etdikdən sonra bildirmişdi ki, Tudə Partiyasına gizli şəkildə ruslar rəhbərlik edirlər. Uorkart 1943-cü ilin sentyabrında Yeni Orleana (ABŞ) konsul təyin edildikdən sonra, vaxtilə Ərəbistanda, Yuqoslaviyada işləmiş, 26 ay faşist konslagerinin sakini olmuş T.Repp Təbrizdə baş konsul vəzifəsini tutdu, Sovet diplomatik idarələrinin məllumatında göstərilir ki, Repin SSRİ-yə münasibəti mənfidir. Siyasi oyunların, şantaj və intriqaların həvəskarı idi. Təbrizdə ailəsi ilə yaşayırdı. Lakin Təbriz həyatını konslager həyatının davamı hesab edirdi.[8] Britaniyanın Təbrizə 1942-ci ilin dekabrında vitse-konsul təyin etdiyi Oqden sovet xüsusi idarələrinin məlumatına görə mayor rütbəsində ingilis kəşfiyyat orqanlarının nümayəndəsi idi.[9] Təbrizdəki Britaniya Baş konsulluğunun qarşısında duran əsas vəzifə Güney Azərbaycanda sovet nüfuzuna qarşı ingilis nüfuzunu qaldırmaq idi. Antisovet əhvali-ruhiyyəli [79] şəxslər açıq, yaxud gizli şəkildə Britaniya konsulluğu tərəfindən himayə edilirdi. Təbliğat məqsədilə kino, radio verlİşləri, kitab mağazası, plakat və s. vasitələrdən istifadə edilirdi. Böyük müharibədə Britaniya ordusunun rolundan bəhs edən "Səhrada qələbə" filminin Təbrizdə və Urmiyədə pulsuz nümayiş etdirilməsi sovet hərbçilərini bir qədər qıcıqlandırmışdı.[10] Tehrandakı SSRİ səfirliyinin Moskvaya göndərdiyi hesabatda bildirilirdi: "İran məlmurlarının rəhbər Heyətiə, o cümlədən xanlara və sərdarlara ingilislərin təsiri

böyükdür. Onlar buna əsasən maliyyə yardımı göndərməklə nail olurlar". İngilislər Tehran məmurlarına yaxın olduqlarından Güney Azərbaycanda özlərinə münasib olmayan məxmurları asanlıqla dəyişə bilirdilər. 1943-cü il ərzində onlar sovetlərə loyal münasibəti olan 70-dən çox rəhbər işçini Tehran vasitəsilə geri çağırtdıra bilmişdilər. İrandakı Sovet səfirliyinin məsləhətçisi Mixail Maksimov 20 sentyabr 1943-cü ildə Moskvaya göndərdiyi məktubda yazırdı: "İngilislər şahı və hökuməti yaxınlaşan inqilab dəhşəti ilə... Şimal əyalətlərinin bolşevikləşməsi təhlükəsi ilə qorxudaraq İranlılarla antisovet əsasda yaxınlaşmağa çalışırlar".[12] 1943-cü ilin iyulundan başlayaraq Güney Azərbaycanda ingilislər 14-cü çağırış İran Məclisinə seçkiləri öz nəzarətləri altında keçirmək istəyirdilər. Seçkilərin nəticələri haqda Repp bildirmişdi: "İranlılar üçün bağışlanmazdır ki, ruslar Pişəvərini və İpəkçianı Məclisə keçirə bildilər".[13]

Hakimiyyətlə yaxınlaşmaqla yanaşı Britaniya diplomatiyası 23 il İraqda, Misirdə, Fələstində mühacirətdə yaşamış ingilis adamı kimi tanınmış Seyid Ziya əd-Dinin 1943-cü il sentyabrın 30-da Tehrana dönüşünə nail ola bildilər. Bu dönüş İranda böyük qalmaqala çevrildi. Hətta doktor Müsəddiq Məclisdəki çıxışında açıq şəkildə Seyid Ziyanı ingilis agenti adlandırdı. Onun dönüşündən narahat olan baş nazir Soheyli Sovet səfirliyinə bildirmişdi ki, Xalq

Partiyası ilə yaxınlaşmağa hazırdır. Məhəmməd Rza Pəhləvi isə Sovetlərə meylini nəzərə çarpdırmışdı.[14] Bir sözlə, "Ağanın" (Seyid Ziyanı İranda belə adlandırırdılar) qayıdışı İranda böyük təlatümə səbəb olmuşdu. Britaniya baş konsulluğundan əlavə Təbrizdə ingilis nəqliyyat kampaniyası, ingilis neft kampaniyasının filialı, Britaniya "İmperial" bankının şöbəsi, ingilis hərbi düşərgəsi, ingilis göz xəstəxanası, yol tikintisi üzrə Britaniya İdarəsi və s. fəaliyyət göstərirdi. Britaniya nəqliyyat kampaniyasına ingilis ordusunun polkovniki Henri Biçer rəhbərlik edirdi. O, vaxtilə, 1923-30-cu illərdə Sovet Uşaq Şərqində işləmişdi və rus dilini yaxşı bilirdi. Kampaniyada polkovnik Dey, ingilis ordusunun zabiti Conson, yol nəzarətçisi Vinn, avtomobil mühəndisi Vest, 8-ci ingilis ordusunun zabiti Vallas və ümumilikdə 13 nəfər işləyirdi. İngilis Neft Kompaniyasının Təbriz şöbəsində isə ingilislər işləmirdi. Bütün İşlərə İran yəhudisi Foruti və erməni Delfanyan rəhbərlik edirdi.

"İmperial" bankının Təbriz şöbəsinə uzun müddət ingilis Vilyam Kennedi, 1943-cü ilin martından isə Miller rəhbərlik etmişdi. Təbrizdəki Britaniya hərbi düşərkəsi 1943-cü ilin ortalarında təşkil edilmişdi. Düşərgə əsasən SSRİ-yə hərbi yüklər daşıyan sürücülər və texniki işçilər üçün təşkil edilmişdi. Ona 20-ci illərdə Rusiyadan İngiltərəyə mühacirət etmiş Odessa yəhudisi mayor Şneerson rəhbərlik edirdi. Əslində isə o, Britaniya kəşfiyyat orqanlarının rəhbər işçilərindən idi. Şneersondan başqa Təbriz hərbi düşərkəsində hindistanlı mayor Pahananda, kapitan Moйd, kapitan Kan, doktor Ferpley, leytenant hyuqes, leytenant Sudes və başqaları yaşayırdı. Təbrizdəki ingilis göz xəstəxanasına doktor Henri Harqrevis başçılıq edirdi. Onun həyat yoldaşı alman idi. Almaniyadakı qohumları ilə Türkiyə vasitəsilə əlaqə saxlayırdı. Yol tikintisi üzrə ingilis idarəsinə, o cümlədən Təbriz - Tehran, Təbriz - Mianə, Mianə - Zəncan

yolunun təmir və tikintisinə ingilis ordusunun zabitləri Stedamn, Dreyzi, Kenerdi rəhbərlik edirdi. Təmir və tikinti İşləri ilə barəbər onlar Güney Azərbaycanın butün yollarını ətraflı şəkildə öyrənmişdilər.

Təbrizdəki ABŞ konsulluğuna 1943-cü ilin aprel ayına qədər Bertel Erik Kenixolm, aprel-iyul aylarında Eblinq Samuel, iyul-noyabr aylarında isə Ford başçılıq etmişdi. Sonuncu Təbrizdə olarkön bildirmişdi ki, Güney Azərbaycan barədə ABŞ-ın siyasəti hələ aydın deyil. Azərbaycandan vəziyyətin müşahidə edilməsi, Tehrandakı Amerika səfirinə, Birləşmiş Ştatların xarici siyasət idarəsinə Azərbaycan barədə operativ məlumatların verilməsi ABŞ-ın Təbriz konsulluğunun qarşısına xüsusi vəzifə olaraq qoyulmuşdu. Lakin Güney Azərbaycan uğrunda ingilis-rus mübarizəsini amerikanlar dərindən müşahidə edirdilər.[17] ABŞ 1943-cü ildə İranda daha çox iqtisadi maraqlara söykənirdi. 29 mart 1943-cü ildə ABŞ - İran ticarət müqaviləsi imzalanmışdı. 4 may 1943-cü ildə A.Milsponun başçılıq etdiyi Amerika missiyasına fövqəladə səlahiyyətlər verilmişdi. 1943-cü ilin martında Tehranda Amerika - İran mədəni əlaqələr cəmiyyəti yaranmışdı. 1943-cü ilin iyulunda Milspo layihəsi əsasıvda İrana Amerika krediti verilmişdi.[8] ABŞ-ın İranda iqtisadi cəhətdən möhkəmlənməsi nəinki sovetləri, eləcə də Britaniyanı narahat etməyə başlamışdı. Lakin hələ ki, İranda Amerika - İngiltərə ziddiyyətləri gizli şəkildə cərəyan edirdi. 1943-cü ilin aprelində prezident Ruzveltin şəxsi nümayəndəsi general Xerli Tehrandakı sovet səfiri ilə söhbətində Britaniya ilə münasibətlərə toxunaraq demişdi: "İndi mübahisə etməyin vaxtı deyil".[19] Lakin ingilislərin Seyid Ziyanı hakimiyyətə doğru irəli çəkmək planına amerikanlar müqavimət göstərirdilər. Konsulluqdan başqa Təbrizdə 1943-cü ildə Amerika xəstəxanası, Amerika kilsəsi və missioner cəmiyyəti də fəlaiyyət göstərirdi. Amerika xəstəxanası Təbrizdə vaxtilə xristian missionerləri tərəfindən

təşkil edilmişdi və 30 il müddətinə ona doktor Çarlz Lamm başçılıq etmişdi. Xəstəxananı erməni Tatavos Akopyan idarə edirdi ki, müxtəlif maliyyə fırıldağı nəticəsində Tehranda özünə 40 min tümənə malikanə almışdı. Təbrizdəki sovet diplomatik idarəsinin məllumatında göstərilirdi: "Güney Azərbaycandakı Amerika xəstəxanasına başçılıq edən fırıldaqçılar çox böyük vəsait qazanmışlar".[20]

Təbrizdəki Amerika kilsəsi və missioner cəmiyyəti hələ 1910-cu ildə təşkil olunmuşdu. İranda Amerika missioner mərkəzi Həmədanda yerləşirdi və Təbriz cəmiyyəti də oradan idarə edilirdi. Ümumiyyətlə isə Yaxın Şərqdəki Amerika Missioner İdarəsi Suriyada yerləşirdi. Təbrizdəki cəmiyyətə türk dilini yaxşı bilən Filadelfiyalı alman Hüqo Artur Müller rəhbərlik edirdi. Missioner qadınları klubu isə 10 il Güney Azərbaycanda işləmiş, yerli dili bilən Çorciya L.Mak Kinlinin başçılığı ilə fəaliyyət göstərirdi. Təbrizdəki Amerika missioner cəmiyyətinin xəzinədarı erməni Tatevos Adamoviç idi. Amerika missionerləri moйzə oxuyarkən yerli əhaliyə izah edirdilər ki, "Allah hər şeyi insanlara əvəzsiz verib ki, onlar doğruçu və ədalətli olsunlar. Bolşeviklər isə, birincisi, Allahı tanımırlar, İkincisi, insanları talayırlar, onların əmlakını silah küçünə əllərindən alırlar".[21]

Sovet Azərbaycanı xüsusi xidmət orqanları ABŞ-ın Güneydəki fəaliyyəti barədə hazırladıqları məlumatda bildirirdilər ki, amerikanlar Azərbaycandakı vəziyyəti dərindən öyrənirlər.[22] Öz növbəsində M.C.Bağırov da bu barədə 6 dekabr 1943-cü ildə Stalinə göndərdiyi arayışda məlumat verirdi.[2]

Təbrizdəki Türkiyə baş konsulluğuna vaxtilə Bakıda, Batumda, Novorossiyskdə diplomatik işdə olmuş Korkud rəhbərlik edirdi. Vitse-konsul kimi fəaliyyət göstərən Yücel Muammer sovetlərin məlumatına görə, Türkiyə xüsusi xidmət orqanlarının işçisi idi və Təbrizdə türkofil millətçi cəmiyyət yaratmağa cəhd göstərmişdi. Güney Azərbaycanda olan sovet ordusunun sayı, yerləşməsi

barədə məllumatlar baş konsulluq tərəfindən Ankaraya verilmişdi. Yerlərdə dayaq yaratmaq üçün baş konsulluğun məsləhəti ilə Güney Azərbaycandan 70-ə yaxın kənc pulsuz olaraq oxumaq üçün Türkiyə təhsil müəssisələrinə göndərilmişdi.[24] 1943-cü ildə Almaniya siyasətinin perspektivsizliyini başa düşən prezident İsmət İnöynü və baş nazir Şükrü Saraçoğlu sovetlərin küclənməsinin də Türkiyəyə yaxşı bir şey gətirməyəcəyini bildiklərindən ABŞ və Britaniyaya meyl edirdilər.

Hətta Amerikada çıxan "Ridəs Diçest" jurnalı 1942-ci ilin noyabrında yazırdı: "Türklər möhkəm millətdirlər. Onların çox gözəl hərbi ruhu var. Dünyada təbiətən döyüşkənliyi ilə tanınırlar".[25] Türkiyənin ABŞ və Britaniya ilə yaxınlaşmaq meyli müvafiq ölkələrin Təbrizdəki diplomatik nümayəndəliklərinin münasibətlərində də hiss edilirdi. Sovetlər ABŞ və Britaniya xüsusi xidmət orqanlarına belə bir məlumat ötürmüşdülər ki, guya müharibədən sonra Türkiyə Güney Azərbaycanı özünə birləşdirmək istəyir. Sovet İttifaqı daim Türkiyəni müttəfiqlərin gözündə Almaniyanın tərəfdarı kimi təqdim etməyə bir növ adət etmişdi. Halbuki Sovet xüsusi orqanlarının əlində məlumat var idi ki, Almaniya vaxtilə Türkiyənin ondan aldığı "Messerşmit", "Heynkel", "Dorne" döyüş təyyarələrinə ehtiyat hissələr satmaqdan imtina etmişdi. Bu ehtiyacı Suriyada alman təyyarələrini qənimət olaraq ələ keçirmiş Britaniya ödəməli olmuşdu.[26]

Türkiyə Sovet ordusunun Güney Azərbaycanda olmasına özü üçün təhlükə kimi baxırdı. Onlar təbliğat aparırdılar ki, Azərbaycanın bədbəxtliyi ruslarla bağlıdır və sovet ordusu Təbrizdən mütləq çıxmalıdır.[27] 1943-cü ildə Təbrizdəki İraq konsulluğu Britaniya Baş konsulluğunun nəzarəti altında işləyirdi. Ona vitse-konsul, məşhur şair Əbdül Həqt Fadil başçılıq edirdi ki, 1943-cü ilin əvvəllərində yazdığı "Stalinqrad" poemasında Qırmızı Ordunu və marşal Stalini vəsf edirdi.[28]

Güney Azərbaycanda ən böyük və çoxsaylı diplomatik korpus Sovetlərin idi. Təbrizdə SSRİ baş konsulluğu, SSRİ ticarət nümayəndəliyinin Azərbaycan şöbəsi, Rus - İran bankının Təbriz şöbəsi, "İransovneft"in Azərbaycan bölməsi, "VEO-17" nəqliyyat vdarəsi, "Texnoeksport"un Təbriz məntəqəsi, "İransovtrans"ın Təbriz agentliyi, baş konsulluq yanında Sovet məktəbi və s. fəaliyyət göstərirdi. Sovet baş konsulluğuna Anatoli Kulajenkov və vitse-konsul Marçenko rəhbərlik edirdilər. Təbrizdəki sovet idarələrində 1943-cü ildə 81 nəfər işləyirdi. Ailə üzvləri ilə birlikdə onların sayı 164 nəfər idi. Bunların 43-ü qadın, 58-i uşaq idi.[29]

SSRİ Xarici İşlər Komissarlığının göstərİşlərinə uyğun olaraq Təbrizdəki Baş konsulluq Güney Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında Sovet təsirini yayırdı. İngilislərdən sonra ruslar da Təbrizdə təbliğat evi açmışdılar ki, bundan da sovetlər hərbi, siyasi, iqtisadi yönümlü məlumatları türk dilində yaymaq məqsədilə istifadə edirdilər. Baş konsulluq əhalini inandırmağa çalışırdı ki, SSRİ-nin Güney Azərbaycanı özünə birləşdirmək niyyəti yoxdur. Baş konsulluq vasitəsilə Təbriz dairəsində 1943-cü ildə SSRİ-yə yardım fonduna 1.116.964 rial vəsait toplanmışdı.[30] Lakin 1942-ci illə müqayisədə 1943-cü ildə Güney Azərbaycandakı Sovet ticarət orqanlarının göstəriciləri xeyli aşağı düşmüşdü. Əgər 1942-ci ildə Güneydə 115.131.000 rial dəyərində sovet malı satılmışdısa, 1943-cü ildə bu rəqəm 70.005.000 riala düşmüşdü.[31] Siyasi məsələlərə gəldikdə Baş konsulluq İran Xalq Partiyasının Azərbaycan filialı ilə rəsmi əlaqələr saxlamaqdan çəkinirdi. 1943-cü ildə Sovet səfirliyinin sorğusuna cavab olaraq SSRİ Xarici İşlər Komissarlığının göstərişi belə idi ki, Xalq Partiyası ilə heç bir rəsmi əlaqə ola bilməz və bu partiya rəsmən açıq şəkildə müdafiə edilə bilməz. Bizim tərəfimizdən Xalq Partiyası ilə münasibətlər qeyri-rəsmi xarakter daşımalıdır. Ayrıca götürülmüş müəyyən məsələdə,

məsələn Məclis seçkilərində Xalq Partiyasını müdafiə etmək olar.[32]

Nəhayət, müttəfiqlərin təzyiqa ilə, uzun tərəddüdaərdən sonra 9 sentyabr 1943-cü ildə İranın Almaniyaya müharibə elan etməsi barədə şahın fərmanı elan olundu. Fərman elə həmin gün Məclisdə təsdiq edildi. Sentyabrın 13-də İranın ABŞ-dakı səfiri Birləşmiş Millətlərin Bəyannaməsini imzaladı. Bu aksiyadan İran siyasi dairələri bir tərəfdən müttəfiq qoşunları ölkədən çıxarmaq məqamı kimi, digər tərəfdən bu mümkün olmazsa Amerika ordusunun dəvəti məqsədilə istifadə etmək istəyirdilər.

Tehran Konfransı dövründə "İran haqqında üç dövlətin Bəyannaməsi"nin imzalanması,[33] Stalin və Molotovun gənc şah və Baş nazir Soheyli ilə görüşməsi, İranın ərazi butövlüyünə təminat verilməsi,

Şahənşah hökumətinin mövqelərini xeyli möhkəmləndirdi. Dekabr ayının 7-də İran Xarici İşlər Nazirliyi Tehran konfransı ilə bağlı diplomatik korpus üçün qəbul keçirdi. Qəbulda baş nazir Soheyli çıxış edib İran haqqında üç dövlətin Bəyannaməsini yüksək qiymətləndirdi...

## VII. Təbrizdə işlərin yenidən başlanması

1944-cü ildə Güney Azərbaycanda Sovetlərin siyasəti tədricən dəyişməyə başladı. Tehran konfransında İran haqqında imzalanmış sənədlər və yüksək səviyyəli görüşlər getdikcə öz əhəmiyyətini itirməyə başladı. Sovet ərazisinin faşistlərdən təmizlənməsi, Qırmızı Ordunun Avropa sərhədlərinə çıxması SSRİ-nin ekspansionist meyllərini kücləndirdi. İranın və Yaxın Şərqən yanacaq energetika mənbələrinə çıxmaq yenidən Sovet siyasətinin mərkəzi məsələsinə çevrildi. İranın cənubunda ingilislərin 1943-cü ildə 10 milyon tondan artıq neft çıxarması Sovetlərin də neftə olan iləhını itiləmişdi.[1] Hələ 1943-cü ilin iyununda Tehrandakı SSRİ səfiri A.Smirnov M.C.Bağırova müraciət etmişdi ki, İranın Şimalındakı neft ehtiyatlarını öyrənmək üçün bir neçə neftçi-geoloq göndərilsin.[2] M.C.Bağırovun göstərişi ilə Azneftin geoloji axtarış idarəsinin baş keoloqu A.N.Korneyev və həmin idarənin işçisi İ.Q.Həsənov hərbi mühəndis adı altında iyulun 2-də Tehrana göndərildi. İlkin axtarışlar nəticəsində müəyyən olundu ki, Güney Azərbaycanda, Gilanda, Mazandaravda, Astarabadda, Şimali Xorasanda olan neft-qaz ehtiyatları heç də ingilislərin nəzarətində olan cənubi İrandakı ehtiyatlardan az deyildir. Geoloji axtarış işlərinin nəticələri Tehrana gəlmiş SSRİ Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsinin rəisi İvan Sadçikovun iştirakı ilə müzakirə edildi. O, bildirdi ki, neft axtarışının nəticələri Sovet Xarici İşlər Komissarlığında müzakirə ediləçək və işlərin təşkili hattında müvafiq göstərişlər veriləcək.[3] İşləri genişləndirmək üçün Tehrandakı SSRİ ticarət müvəkkili Miqunova göstəriş verildi ki, geoloji qrupu avtomobillə təmin etsin, maliyyə işləri isə Moskvanın göstərişi ilə Narkomneftə tapşırıldı. 1944-cü ilin fevralında geoloji qrup Ordubad rayonunun 20 km. cənubunda bitum ehtiyatının, Sərab - Ərdəbil arasında

neft ehtiyatının, Rəşt düzənliyində qaz ehtiyatının, Lahicandan cənubda Azərbaycan SSR-dəki Neftçala yataqlarına bənzər neft yataqlarının, Qorqanda, Taş-Abadda, Seminanda böyük neft ehtiyatlarının olduğunu bildirdi.[4]

1943-cü ilin ortalarından başlayaraq İran hakimiyyət orqanları da öz növbəsində Güney Azərbaycanda ordu və jandarm qüvvələrini möhkəmləndirməyə çalışırdılar. Azərbaycanda yerləşən 3-cü Şimal - Qərb diviziyası 7-ci Təbriz, 8-ci Urmiyə, 9-cu Ərdəbil briqadalarından ibarət idi. 3-cü diviziyada 1943-cü ilin axırlarında 123 unter-zabit, 4170 zabit və sıravi, bütövlükdə 4293 əsgər və zabit xidmət edirdi. Azərbaycandakı ordunun bu dövrdə 3546 "Brno" tipli tüfəngi, 189 "Brno" pulemyotu, 6 ədəd 75 mm dağ topları, 4 "Bofors" topları, 6 tankı var idi. 1943-cü ilin dekabrında Amerika hərbçilərinin hazırladığı proqram əsasıvda 3-cü diviziyada 6 aylıq hərbi kurslar yaradılmışdı. 1944-cü ilin əvvəllərində Azərbaycandakı ordunun sayı 5200 nəfərə çatdırılmışdı.[5] 3-cü orduya əvvəlcə briqada generalı Xosrovani, 1944-cü ildən isə əslən Urmiyədən olan, bir müddət 4-cü ostanın general-qubernatoru işləmiş briqada generalı Ələkbər Dərəxşani komandan təlyin edşşişdi.[6]

1944-cü ilin əvvəllərində Güney Azərbaycandakı jandarm qüvvələri Təbriz, Urmiyə, Xoy polklarından və əlahiddə Ərdəbil batalyonundan ibarət idi. Jandarm qüvvələrinin ümumi sayı 3309 nəfər idi: bunun 1074 nəfəri Təbriz polkunda, 1108 nəfəri Urmiyə polkunda, 718 nəfəri Xoy polkunda, 462 nəfəri Ərdəbil batalyonuvda xidmət edirdi. Təbrizdəki SSRİ baş konsulluğunun məxlumatında göstərilirdi: "İran ordusunun və jandarmasının mənəvi-siyasi durumu çox aşağıdır. Hərbi baxımdan onlar heç bir real külə malik deyillər. Belə ki, birincisi təlim görməyiblər, İkincisi pis silahlanıblar".[7] hərbi nazirliyin və yüksək rütbəli zabitlərin 1943-cü ilin dekabrından başlayaraq

ictimai fikirdə İran ordusunun nüfuzunu qaldırmaq cəhdləri elə bir ciddi nəticə vermədi.[8]

1942-ci ilin axırlarında Sovet hökumətinin tələbi ilə Fəhim ol-Mülk 3-cü ostanın Ostandarı vəzifəsindən geri çağırılmışdı. Onun yerinə Mükkədəm Ostavdar təyin edilmişdi. O, Sovetlərə və ona yaxın olan qüvvələrə loyal münasibətdə idi. Lakin ingilislərin yardımı ilə İran xüsusi xidmət orqanları müxtəlif çətinliklər yaratmaqla Mükkədəmi Azərbaycandan geri çağıra bildilər. Yeni təyin edilmiş Ostandar Əhmədinin kim üstünə bərk qışqırırdısa ondan qorxurdu. Əslində isə xırda-xırda rüşvət yığmaqla "Təbrizi rüşvət toplanışının mərkəzi qərargahına çevirmişdi". Tehranı taxılla təchiz etmək məqsədilə Azərbaycandan taxıl ehtiyatının daşınmasına etiraz edən Sovet Baş konsulluğu ona xəbərdarlıq etdikdə Əhmədi taxıl tədarükü idarəsinə bu məzmunda göstəriş vermişdi: "Bu gün Təbrizdəki SSRİ baş konsulu cənab Kuznetsov və Tehran səfirliyinin nümayəndəsi cənab Rassadin mənim yanıma gəlmişdilər. Onlar dedilər ki, biz taxıl toplanması ilə bağlı heç nə etmirik və qəti şəkildə tələb etdilər ki, taxıl toplanmasına başlayaq. Acizanə şəkildə xahiş edirəm, taxıl gətirilməsinə başlayın ki, mən belə xəbərdarlıqlar almayım".[9]

Sovet ordusunun müharibədəki qələbəsi, onun beynəlxalq münasibətlərə təsirinin artması Güney Azərbaycanda bir çoxlarını düşündürməyə vadar etmişdi. Təbrizin iri tacirlərindən və fabrikantlarından olan Xoyi Rəhimzadə beynəlxalq vəziyyəti belə qiymətləndirirdi: "Vəziyyət elə yaranıb ki, gərək biz ruslarla əməkdaşlıq edək. Əks təqdirdə onlar hər hansı bir Titonu, yaxud ona bənzər birini tapıb onun vasitəsilə bizim bütün əmlakımızı alacaqlar. Yuqoslaviyadakı hadisələr və Polşa məsələsi göstərdi ki, İngiltərə və Amerika Rusiyaya qarşı nə isə etməkdə kücsüzdür".[10] Ümumiyyətlə, Güney Azərbaycanda baş verən hadisələr barədə Təbrizdəki vitse-konsul Marçenko 5 iyun 1944-cü ildə SSRİ Xarici İşlər Komissarının

müavini Sergey Kavtaradzeyə 84 səhifəlik geniş məruzə göndərmişdi.

1944-cü ilin martında İranda üç mühüm hadisə baş verdi. Birincisi, 8 avqust 1943-cü ildə XIV çağırış İran Məclisinə başlamış seçkilər başa çatdı. İkincisi 1943-cü ilin fevralında qurulmuş Soheyli hökumətini Məhəmməd Said Marağayi hökuməti əvəz etdi (mart – noyabr 1944). Məhəmməd Said və ardıcıl olaraq ondan sonra hökumət kabinələrinə rəhbərlik etmiş Mürtəza Bayat (Səham əs-Səltənə), İbrahim həküm-ül-Mülk azərbaycanlı idilər. Üçüncüsü isə, mart ayının 4-də Məhəmməd Rzanın bacısı şahzadə Əşrəf əvvəlki əri Əli Qəvamdan (Rza şahın yaxın dostu Qəvam ol-Mülgün oğlu, ABŞ-dakı İran hərbi ataşessinin köməkçisi) ayrılıb İkinci dəfə
Misir əsilzadəsi Əhməd Şafiqə ərə getdi. Şahın arvadı Fevziyə Misir kralının qızı olduğundan Əşrəf Cənubi Afrikada, İohanesburqda sürgündə olan atasının yanına Misirdən gedib gəlirdi. Elə Əhməd Şafiqlə bu səfərlərin birində tanış olmuşdu. İrana gələrkən Ə.Şafiq xeyriyyə məqsədilə İran ana və uşaqlar cəmiyyətinə 200.000 rial pul köçürmüşdü."

1943-cü ilin avqustundan başlayaraq İran Məclisinə seçkilərin keçirilməsi Azərbaycandakı partiya və cəmiyyətlərin fəaliyyətinin genişlənməsinə səbəb oldu. Azərbaycan seçilən 21 deputat yeri uğrunda gərgin mübarizəyə başladı. Tudə partiyası Sovetlərin gizli yardımı ilə seçkilər dövründə xeyli fəllaşdı. Bu canlanma 1944-cü ilin ortalarında Xalq partiyasının Təbriz vilayət komitəsinin yenidən təşkil olunması ilə nəticələndi. 17 nəfər, o cümlədən Sadıx Padeqan, Əhməd İsfahani, Cəfər Kavian, Məhəmməd Biriya, David Gevorqyan, Mir Qasım Çeşmazər, Kazım haşımniya, Səlim haşimi, Tağı Ənqam və digərləri vilayət komitəsinimn üzvü seçilmişdi.12 Vilayət komitəsinə seçilənlərin yarıdan çoxunun keçmişi müəyyən formada Sovetlərlə bağlı idi. Tudə partiyasının Ərdəbil vilayət komitəsinə M.Nünəgərani, M.Məzlumi, Q.Şəmsi, B.Ədaləti, Z.Ocaqaavin, B.Abizadə, Xoy komitəsinə

Nəsrulla xan Ekani, Rəhim Ekani, Ə.Zeynalov, Mir Satda, Mustafa həsən və digərləri daxil idi.[13]

A.Ovenesyan, Əli Əmir Xizi, Azad Vətən və b. Tudə partiyasının Azərbaycan təşkilatlarının qurulmasında böyük fəallıq göstərmişdilər. Lakin Sovetlərdən yardım almadan və digər qruplarla bloka girmədən Tudə partiyası öz namizədlərini məclisə keçirmək iqtidarında deyildi.[14]

1943-ci ildə Seyid Ziyanın başçılığı ilə Tehranda yaranmış "Vətən" partiyası İranda Tudə Partiyasına qarşı kəskin mübarizə aparırdı. Seyid Ziyanın vətənçiləri Azərbaycana da ayaq açmışdılar. Onlar Təbrizdə "Vətən" partiyasının filialını yaratmağa çalışırdılar. Sovet xüsusi idarələri öz məlumatlarında göstərirdilər: "Biz bu filialın yaranmasına qarşı tədbirlər görürük".[15] Bunlardan başqa Güney Azərbaycanda "Qanuni Demokrasi Azərbaycan", "Cavanani roşənfikir Azadixi", "İttihadi Kərkaran", "Antifaşistlər komitəsi", "SSRİ dostları cəmiyyəti", "İran - Bidar", "Radi Mardan", "Ektan - Parastan", "Azadaqan", "İttihadi İslam" və s. partiya və cəmiyyətlər var idi.[16]

XIV Məclisə seçkilər Azərbaycanda çox gərgin keçdi. Xoy, Maku, Sərab, Mianə, Əhərdəki nəticələr Sovetlər üçün arzuolunmaz idi. İrandakı Britaniya səfiri Bulard Londondakı İran səfiri Seyid Kəsən Tağızadə ilə birlikdə Azərbaycana gəlmişdi, O, nüfuzlu adamlara məsləhət görürdü ki, Tağızadənin namizədliyini müdafiə etsinlər.[17]

Seçkilərin keçirilməsi haqqında sovet xüsusi idarələrinin məlumatında göstərilirdi: Təbrizdəki seçkilər bizim üçün uğurlu oldu. Bizim müdafiə etdiyimiz 7 namizəddən 5-i uğur qazandı. Təbrizdəki seçkilərin nəticələri bizim Güney Azərbaycanda nüfuzumuzun göstəricisidir. Təbrizdə 9 deputat yerinə namizəd göstərilən 300 nəfərdən hər biri bizim müdafiə etdiyimiz namizədlərə qarşı hər çür təxribatlara əl atırlar. Sərabın iri torpaq sahibkarlarından olan

Fərman Fərmanian Tehrandan Təbrizdə yaşayan qohumlarına yazırdı: "Rusların müdafiə etdiyi namizədləri sıradan çıxarıb bizim üçün arzuolunan şəxslərin seçilməsini təmin etmək lazımdır, bu mümkün olmasa seçkiləri pozmaq və onu dayandırmağa nail olmaq lazımdır".[18] Təbrizin keçmiş ostandarı Fəhim ol-Mülk ona yaxın olan torpaq sahibi Liqvaniyə seçkilərlə bağlı bildirirdi: "Mənim eşitdiyimə görə ruslar artıq sənin namizədliyini müdafiə etmirlər. Sən buna sevinməlisən ki, Məclis üzvü olmamaq rusların yardımı ilə seçilməkdən min dəfə yaxşıdır. Azudiyə (hökumətin seçkilər üzrə müvəkkili) tapşırıq verilmişdi ki, rusların bizə sırıdığı namizədləri batırsın, əgər bu mümkün olmasa yeni Məclis açılana qədər seçkiləri yubatsın. Ola bilsin ki, məclis Azərbaycandakı seçkiləri ləğv etsin. Rüsvayçılıqla seçilməkdənsə parlamentdə Azərbaycandan deputatın olmaması daha yaxşıdır. Bizə soxuşdurulan namizədləri batırmaq üçün büqün tədbirləri körün".[19] Tüdəçilərin Təbrizdəki uğuru ilə bağlı Britaniya konsulu deyirdi: "Xalq partiyasının namizədlərinin Təbriz şəhərindəki uğurları rusların şəhər əhalisinə təsirinin güclü olduğundan xəbər verir. Azərbaycanın gələcək taleyi kəndlərdəki seçkilərin nəticələrindən asılıdır".[20]

Təbriz şəhridari Kərim Rövşəni Sovetlərin müdafiə etdiyi namizədlərə kömək edəcəyinə söz versə də, əslində ingilislərə tərəfdar olan İmami, Vahabzadə, Həsən Tağızadə kimi namizədləri müdafiə edirdi. Azərbaycandakı seçkilərdə Fərman Fərmanian (Sərab -Mianə), Xoyi İmami (Xoy - Maku), hüseyn Əşrəf Sadiqi (Urmiyə, Məclisdə Sovetləri müdafiə edəçəyinö söz vermişdi), S.Qazi (Mehabad, 1941-ci ildə Bakıya gələnlərdən idi), Bahaduri (Əhər), F.İpəkçian (Təbriz, 1928-ci ilə kimi Bakı, Tbilisi, Moskvada yaşamışdı), Mir Cəfər Pişəvəri (Təbriz), Əbdül həsən Sadiqa (Təbriz), Əmir Nüsrət İskəndəri (Təbriz, əslən Şamaxılı idi), Əbül Həsən Siqtətül İslam (Təbriz, Sovetlərə söz vermişdi ki, onları Məclisdə müdafiə

edəcək), Əsgər Pənahi (Təbriz), Yusif Müştəhidi (Təbriz), Əli Əsgər Sərtibzadə (Təbriz), İskəndər Müqəddəm, Musa Fatuqi (Marağa), Mehdi Ədl (Meşkinşəhr), Şeyx Lənkərani (Ərdəbil, Seyid Ziyanın və ingilislərin əleyhdarı idi), A.Ovanesyan (ermənilərin nümayəndəsi kimi, Xalq Partiyasından) və d. uğur qazavdılar.21 Beləliklə, Güney Azərbaycandan seçilən vəkillərin 8 nəfəri Sovetlərlə əməkdaşlıq etməyə hazır olan şəxslər idi. 3 nəfəri SSRİ-yə düşmən münasibət bəsləmirdi və 2 nəfəri tərəddüd edirdi. Yeni seçilmiş Məclis 1944-cü ilin fevral ayının 26-da açıldı. Lakin XIV çağırış İran Məclisi 1944-cü ilin iyun ayındakı iclasında 16 min təbrizlinin səsini alan! M.C.Pişəvərinin və Şeyx Lənkəraninin mandatlarını ləğv etdi.

Doktor Müsəddiqin "oğrular yuvası" adlandırdığı Məclisdə baş vermiş bu hadisə ilə bağlı M.Ç.Pişəvəri yazırdı: "Bilirdim, Məclis kürsülərini qəsb edən xainlərlə mənim suyum bir arxa getməyəcək və hiss edirdim ki, bu yolkəsənlər dəstəsi mənim aralarına girməyimə asanlıqla razı olmayacaqlar. Ona görə fürsətdən istifadə edib sözlərimi dedim. Məni 16 min rəy ilə intixab edib Məclisə göndərən Azərbaycan xalqının ehtiyaclarını sayıb söylədim, sözlərimi böyük bir diqtət və dərin bir sükut ilə eşidib təsdiq etdilər. Lakin bu təsdiqlər xəyanətlərini gizlətmək üçün qara bir pərdədən başqa bir şey deyildi. Fürsət əllərinə düşən kimi də "bu azərbaycanlı rahat oturan adama bənzəmir, bunu buradan uzaqlaşdırmaq lazımdır" - deyib etibarnaməmə tülkülərə yaraşan alçaqlıqla müxalifət etdilər".[22]

1944-cü ilin əvvəllərində beynəlxalq aləmdə və İranda yaranmış vəziyyətlə əlaqədar Moskva Güney Azərbaycan məsələsinə yenidən qayıtdı. Mart ayının 6-da SSRİ Xalq Komissarları Soveti V.Molotovun başçılığı ilə "Güney Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın kücləndirilməsi tədbirləri haqqında"

məsələni müzakirə edib müvafiq qərar qəbul etdi, 23 Qərarda göstərilirdi:

"1. Güney Azərbaycanın və Qırmızı ordunun yerləşdiyi şəhərlərin əhalisinin böyük əksəriyyətinin azərbaycanlılardan ibarət olduğunu nəzərə alaraq yerli əhali ilə əlaqələri kücləndirmək üçün məqsədəuyğundur ki, siyasi işçilərin və digər hərbi müəssisələrin tərkibinə azərbaycanlılar daxil edilsin;

2. Yuxarıdakı mülahizələrə uyğun olaraq hərbi hissələrində həftədə üç dəfədən az çıxmamaqla Azərbaycan dilində ordu qəzeti nəşr edilsin və mülki əhaliyə çatdırılsın;

3. Məqsədəuyğundur ki, Təbrizdə, Ərdəbildə və Güney Azərbaycanın digər şəhərlərində sovet ticarət müvəkkillərinin nümayəndələri azərbaycanlılarla əvəz edilsin. Bu iş tədricən Güneydəki maliyyə və digər idarələrin nümayəndələrinə də tətbiq edilsin. Məsələn, Təbrizdəki Sovet Bankı;

4. Məqsədəuyğundur ki, bizim diplomatik orqanlarda - konsul, vitse-konsul və konsulluğun katibi vəzifələrində azərbaycanlı işçilərimiz olsun. Xüsusilə Təbrizdə və Makuda bu daha çox vacibdir;

5. Məqsədəuyğundur ki, Tehrandakı Sovet səfirliyi və ticarət nümayəndəliyində 1-2 nəfər azərbaycanlı işçimiz olsun;

6. Müxtəlif siyasi və bədiй ədəbiyyat, o cümlədən Güney Azərbaycan yazıçı və şairlərinin əsərlərinin nəşri və əhali arasında yayılması məqsədilə Təbriz şəhərində yaxşı avadanlıqla təchiz edilmiş "Təbriz" adı altında mətbəə yaradılsın;

7. 1944-cü ilin may-iyun aylarında Azərbaycan Dövlət Dram Teatrının Təbrizə və bir konsert briqadasının Güney Azərbaycan şəhərlərinə qastrolu təşkil edilsin;

8. Təbrizdə Azərbaycan dilində təhsil verən on illik məktəb təşkil edilsin. Fars dili və ədəbiyyatı orada bir fənn kimi keçilsin, təhsil pulsuz olsun. Pedaqoji kollektiv Sovet Azərbaycanı müəllimlərindən komplektləşdirilsin;

9. Qeyd edilən məktəbdə kitabxana - oxu zalı açılsın, oradan təkcə şakirdlərin deyil, yerli əhalinin də istifadəsinə icazə verilsin;

10. Torpağın beçərilməsi və bağçılıq sahəsində kəndlilərə əməli kömək göstərmək üçün Təbriz rayonunda nümunəvi aqro-texniki stansiya yaradılsın;

11. İşsizlərin heç olmasa kiçik bir hissəsinə iş vermək məqsədilə Təbrizdə corab-trikotaj fabriki yaradılsın".[24]

Mart ayının əvvəllərində İrandakı Sovet təsərrüfat və ordu hissələrində işləmək üçün Sovet Azərbaycanı zabit və siyasi işçiləri üçün 33 yer, ticarət müvəkkilliyində işləmək üçün 11 yer ayrıldı. SSRİ Xalq Komissarları Sovetindən M.C.Bağırova göndərilən teleqramda deyilirdi: "Xahiş edirik göstəriş verin ki, müvafiq namizədləri seçsinlər və sənədləşdirmək üçün onları Moskvaya göndərin".[25] Azərbaycan K(b)P MK-sı Bürosunun 20 mart 1944-cü il tarixli qərarı ilə İrandakı Sovet diplomatik idarələrində işləmək üçün 14 nəfər azərbaycanlı təsdiq üçün ÜK(b)P MK-sına göndərildi. Qısa müddətdə Azərbaycandan göndərilən şəxslər müvafiq tə"yinatlar üzrə təsdiq edildi. Azərbaycan K(b)P MK-nın katibinin müavini Əhəd Yaqubov Tehrandakı Sovet səfirliyinə müşavir, Dərbənd şəhər komitəsinin katibi Əli Əliyev səfirliyin birinci katibi, Saatlı rayon Dövlət Təhlükəsizliyi şöbəsinin rəisi Cəbrayıl Aşumov səfirliyin üçüncü katibi, Azərbaycan kompartiyasının üçüncü katibi həsən Həsənov Təbrizdəki baş konsulluğa vitse-konsul, kompartiyanın yünkül sənaye üzrə katibinin müavini Mirzə Məmmədov baş konsulluğa katib, Azərbaycan dövlət Təhlükəsizlik komisarlığının birinci şöbəsinin rəisi Mustafa Mustafayev Maguya vitse-konsul, Azərbaycan Komsomol Təşkilatının İkinci katibi Bağır Seyidzadə Maku konsulluğuna katib, Quba rayon Dövlət Təhlükəsizliyi şöbəsinin rəisi Paşa Ələkbərov Urmiyə vitse-konsulluğuna katib, Bakı partiya təşkilatı katibinin müavini Bəndalı Mehdiyev Ərdəbil vitse-

konsulluğuna katib, Azərbaycan Dövlət Təhlükəsizliyi Komissarlığının istintaq şöbəsinin rəisi Şamil Nəzərli Rəşt Baş konsulluğuna vitse-konsul, Azərbaycan kompartiyası katibinin müavini Məmməd Şərifov Qorqana konsul, Daxili İşlər Komissarlılının məsQul işçisi Zeynal Gözəlov Qəzvin konsulluğuna katib, yenə həmin komissarlığın xüsusi idarəsinin rəisi Seyfulla Süleymanov Bəndərşah konsulluquna katib, Daxili İşlər və Dövlət Təhlükəsizliyi Komissarlığının partiya təşkilatı katibi Əhəd Bağırzadə Tehrandakı Sovet səfirliyinin mədəniyyət evinin direktoru vəzifəsinə təyin edildi.[26] Yeni təYinat almış şəxslər Moskvada V.Molotov tərəfindən qəbul edildilər. Görüş zamanı o, başlanan işin əhəmiyyətindən və məs"uliyyətindən danışaraq dedi: "Hər kiçik şeyə belə diqtət yetirin, əhali arasında bizim nüfuzumuzu qaldırmaq üçün ən çətin işləri belə bilavasitə aparın".[27]

Yuxarıda adları çəkilən şəxslər və Sovet Azərbaycanından göndərilən digər təsərrüfat, mədəniyyət, mətbuat işçiləri 1944-cü ilin yazında ilk dəstə olaraq Güney Azərbaycanda işə başladılar. Təbrizdə M.C.Bağırova göndərilən teleqramda bildirildi: "Aprel ayının 10-da 4 min tirajla "Vətən yolunda" qəzetinin birinci sayı çaodan çıxdı və üç saat ərzində yayıldı. Bizim oxuçular birinci nömrənin çıxmasını sevinçlə qarşıladılar. Növbəti nömrəmiz ayın 12-də artırılmış tirajla çıxacaq".[28] Təkcə "Vətən yolunda" qəzetini çıxarmaq üçün Bakıdan 27 nəfər mətbuat işçisi edam olunmuşdu. Bunların arasında Əli Həsən Şagəldiyev, Cəfər Xəndan Hacıyev, İsrafil Nəzərov, Qulam Məmmədli, Qılman Musayev, Ənvər Məmmədxanlı, Məmməd Rahim, Kazım Kazımzadə, Məlik Məlikzadə və d. var idi.[29] Güney Azərbaycanına yeni dəstələrin göndərilməsi demək olar ki, Sovet Azərbaycanı rəhbərliyinin gündəlik işinə çevrilmişdi. Aprel ayında İmam Mustafayev başda olmaqla Təbriz aqrotexniki stansiyasında, Hüseyn Babayev başda olmaqla corab-trikotaj fabrikində, Hüseyn Şərifov başda

olmaqla "Təbriz" mətbəəsində, Cəbrayıl Ələsgərov başda olmaqla Təbrizdəki orta məktəbdə işləyəcək şəxslərin siyahısı təsdiq edilmək üçün Moskvaya, Malenkova göndərildi.[30]

Güney Azərbaycana təsir imkanını artırmaq üçün ÜK(b)P MK-nın 6 mart 1944-cü il qərarına uyğun olaraq Azərbaycan Partiya Təşkilatı Bürosunun 20 mart tarixli qərarı ilə tə"çili olaraq Bakıda Qafqaz Müsəlmanları Dini İdarəsi yaradıldı.[31]

SSRİ Müdafiə Nazirliyi Baş Qərargahının tapşırığına əsasən Qırmızı Ordu Xarici Dillər Hərbi İnstituqunun rəisi Azərbaycan K(b)P MK-ya yvzırdı: "Fars dili üzrə hərbi tərcÜMƏCilər hazırlamaq üçün təcili olaraq tat dili bilən 15-20 nəfər göndərin. Göstəriş verilib ki, bu adamlar Balaxanı, Suraxanı və Maştağanın tat əhalisi içərisindən seçilsin".[32] Nəhayət, işlər genişləndikdən sonra M.C.Bağırovun göstərişinə əsasən İrana Sovet Azərbaycanından xüsusi tapşırıqla göndərilən bütün işçilərə ümumi rəhbərlik etmək Həsənov Həsən Məmməd oğluna tapşırıldı...[33]

Sovet Azərbaycanından xüsusi tapşırıqla Güneyə göndərilən qruplara ümumi rəhbər təyin edilən H.Həsənov Azərbaycan K(b)P MK-nın ideologiya üzrə katibi Qəzənfər Məmmədovla birlikdə rəhbər işçilər arasında aparılmış iş bölgüsünü və görüləçək ilkin işlər barədə öz təkliflərini M.C.Bağırova təqdim etdilər. Həmin sənədə görə Təbrizdə və onun ətraf rayonlarında bütün təşkilatlara partiya rəhbərliyi H.Həsənov, M.Məmmədov və Ə.Şahgəldiyevdən ibarət üçlüyə, Qəzvindəki işlərə rəhbərlik etmək A.Atakişiyevə, Tehran və onun ətraf rayonlarında xüsusi işləri əlaqələndirmək Ə.Yaqubov, Ə.Əliyev və Ağayevə, Ərdəbildə işlərə rəhbərlik etmək B.Mehdiyevə, Qorqanda xüsusi tapşırıqları yerinə yetirmək M.Şərifova, ordu, səfirlik və konsul idarələri xətti ilə işə cavabdehlik H.Həsənov, Ə.Yaqubov və A.Atakişiyevə tapşırılırdı.[34]

Güney Azərbaycan üçün hazırlanmış iş planında göstərilirdi ki, azərbaycanlı əhalini özümüzə daha artıq

yaxınlaşdırmaq üçün ilk növbədə dinə və din xadimlərinə diqtət yetirmək lazımdır. "Ona görə yox ki, onlar Sovet hökumətinin dayağı olacaqlar, ona görə ki, biz ruhanilər vasitəsi ilə daha çox iş görə bilərik".[35] Xüsusi tapşırıqla göndərilənlərə tövsiyyə edilirdi ki, əhalinin sosial vəziyyətinə fərq qoymadan, yoxsul, yaxud varlı olmasından asılı olmayaraq onları öz tərəfimizə çəkməliyik. İşi elə aparmaq lazımdır ki, orta və xırda mülkiyyət sahibləri hiss etsinlər ki, hətta Sovet hakimiyyəti şəraitində belə onlar öz yerlərində qalaçaqlar. Siyasi partiyalara ehtiyatla yanaşmaq məsləhət bilinirdi. Xüsusilə o şəxslərdən uzaq olmaq tövsiyyə edilirdi ki, həmin şəxslər özlərini köhnə bolşevik adlandırıb Sovet hakimiyyəti qurulmasında təkid edirdilər. Sovet Xüsusi xidmət orqanlarının məlumatında göstərşşrdi ki, onların çoxu xarici kəşfiyyatın cəsuslarıdır.

Ona görə "biz özümüzü elə aparmalıyıq, elə göstərməliyik ki, guya sovet hakimiyyəti qurmaq barədə düşünmürük. Belə ki, biz sovet vətəndaşlarıyıq, qonşu ölkənin vətəndaşları olaraq onlarla ən dostanə qarşılıqlı münasibətlər yaratmağa, ticarət və iqtisadi əlaqələrini kücləndirməyə, stansiyalar açmağa və s. Hazırıq".[36]

Xüsusi tapşırıqla Güneyə gedənlərin qarşısında duran başlıca vəzifə Arazın o tayındakı azərbaycanlıların milli özünüdərk hissini yüksəltmək, onların tək olmadığını, sərhədin yuxarı tərəfində qardaşlarının yaşadığını, həm də onlardan bir neçə dəfə yaxşı yaşadığını başa salmaq idi. Bunun üçün teatr, konsert briqadaparı, qəzet, nəşriyyat, kino, məktəb, Tehranda və Təbrizdə mədəniyyət evləri, kitabxanadan və s. istifadə etmək planlaşdırılmışdı.

Siyasi və dövlət intriqalarına qarışmamaq tövsiyyə edilərək bildirilirdi: "Bununla qoy səfir məşğul olsun, bu barədə o, təlimat alıb... Biriya kimi yaxşı adamları, sağlam millətçiləri, bolşeviklərdən, sovet hakimiyyəti tərəfdarlarından fərqli olaraq öz xalqını dərindən

sevən qabaqcıl, istedadlı, mədəni adamları hərdən bizim qəzetlər vasitəsilə qaldırmaq lazımdır".[37]

Güneydə işləyənlərə məsləhət görülürdü ki, özlərini yaxşı aparsınlar. İngilis, Amerika, Türkiyə, İran xüsusi xidmət orqanlarının sovet işçilərini izləməsi barədə məlumatlar var idi. Eyni zamanda tələb olunurdu ki, işə başladıqları regionun tarixini, iqtisadiyyatını, Güneylə bağlı ən kiçik şeyləri belə dərindən öyrənsinlər ki, "sabah məsələ həll olunduqda nədən başlayacağımızı bilək... Əgər biz birləşmək məsələsini həll ediriksə, müəyyən müddət üçün indi mövcud olan əlifbanı istəsək də, istəməsək də, saxlamalıyıq. Ona görə də, əgər unudubsunuzsa, əski əlifbanı və fars dilini öyrənmək üçün gündə bir-iki saat vaxt ayırıb öz üzərinizdə işləmək vacibdir... Sizlərdən hər biriniz zahirən nə ingilislərə, nə amerikanlara, nə də digər ölkələrin nümayəndələrinə bəhanə verməməlisiniz ki, siz konsul deyil, partiya təşkilatlarının işçilərisiniz. Zahirən siz konsulsunuz və hərəkətləriniz bu barədə heç bir şübhə doğurmamalıdır". [38]

SSRİ Xalq Komissarları Sovetinin 6 mart tarixli qərarına uyğun olaraq Təbrizdə və Azərbaycanın digər şəhərlərində nəzərdə tutulan işləri görmək üçün M.C.Bağırov və Teymur Quliyev Moskva ilə çoxsahəli yazışmalar və məsləhətləşmələr aparırdılar. 19 may 1944-cü ildə sovet hökuməti ümumittifaq Mədəni Əlaqə Cəmiyyətinin filialı kimi Təbrizdə Mədəniyyət evi açılmasına icazə vermişdi. İşin təşkili Dekanazova və Azərbaycan rəhbərliyinə tapşırılmışdı. M.C.Bağırov ÜMƏC-nin sədri Kamenova yazdığı məktubda Təbrizdə mədəniyyət evinin açılması üçün əməli işlərin sürətləndirilməsini xahiş etmişdi. SSRİ rabitə nazirinin müavini Nikula Azərbaycan XKS sədrinin müavini Ə.Əzizbəyova yazırdı ki, Təbrizdəki Mədəniyyət evi üçün 3 radio, 10 reproduktor, 5 telefon, 2 patifon və s. ayrılıb. Təzə mebel və kreslo olmadığından M.C.Bağırovun göstərişi ilə neftçilərin mədəniyyət

evindən 400 kreslo, Bakının digər klublarından 200 kreslo sökülüb Təbriz Mədəniyyət evi üçün göndərildi.[39]

Təbrizdə nümunəvi aqrotexniki stansiya yaratmaq üçün İ.Mustafayevin məktubuna cavab olaraq T.Quliyevin sərəncamı ilə Azərbaycan XKS-i 15 traktor, 5 maşın, toxumçuluq laboratoriyası üçün avadanlıq, 50 nəfərlik yeməkxana üçün inventar və s. ayırdı. Eyni zamanda M.C.Bağırov və T.Quliyev SSRİ XKS-nə müraciət etdilər ki, Mərənddə də aqrotexniki stansiya yaratmağa icazə versinlər. T.Quliyevin adına hazırlanmış arayışda "Təbriz" mətbəəsi üçün ərəb və kiril əlifbası ilə işləyən mətbəə maşını, 30 ton kağız, 2 taxta kiosk, hazır kitablar, mebel, 2 ədəd makina, yağlı rənk, 15 ədəd dəmir soba, hər ay 400 litr benzin və s. göndərildiyi göstərilir.[40] Güney Azərbaycana göndərilən poliqrafiya avadnlığının, ədəbiyyat və kultinventarın ümumi dəyəri 652210 manat idi.[41] 1944-cü ilin may ayında T.Quliyev V.Molotova məktubla müraciət edərək Tehranda, Təbrizdə, Rəştdə təsərrüfat hesablı aptek açmağa icazə istəmişdi. Lakin 24 iyul 1944-cü iddə SSRİ XKS-nin idarə rəisi Y.Çadayevin göndərdiyi məktubda buna icazə verilmədiyi göstərilir.42 hələ 1944-cü ilin aprel ayının 12-də Güney Azərbaycandakı Sovet ordusu hərbi Şurasının üzvü general mayoru Rusov M.C.Bağırova yazırdı ki, Qəzvində içməli su problemi ciddi xarakter alıb. Yerli hakimiyyət amerikanlara müraciət edib.

Amerikanların qazma qurğusu olsa da boruları bizdön istəyiblər. Əgər təlcili olaraq 2 qazma qurğusu və 700 m boru göndərsəniz biz özümüz bu işi iki həftəyə görərik.[43] Qəzvin şəhridarı Fəqazadə Sovetlərə pis münasibəqi olan adam idi. O, deyirdi: "Mən Qəzvində olduğum müddətdə bolşevik oyunlarına yol verməyəçəyəm".[44] Lakin şəhər hakimiyyətinin müqavimətinə baxmayaraq M.C.Bağırovun göstərişi ilə mayın 11-də Qəzvinə 2 "Franks" markalı qazma qurğusu, lazım olan miqdarda boru və 33 qazmaçıdan ibarət briqada göndərildi. Qısamüddətdə Qəzvində əhalini təmin edə biləçək 4 su quyusu qazıldı.[45] Su problemi həll olunduqdan sonra Qəzvin şəhər

ictimaiyyəti M.C.Bağırova təşəkkür məktubu göndərdi. Nəhayət, 24 iyun 1944-cü ildə V.Molotov SSRİ Xalq Komissarları Sovetinin Təbrizdə Azərbaycan dilində orta məktəb açılması haqqında 13421 saylı qərarını imzaladı. Qərarda deyilirdi: SSRİ Xarici İşlər Komissarlıqına icazə verilsin ki, Sovetlər Birliyindən ezam olunmuş azərbaycanlıların və yerli azərbaycanlı əhalinin uşaqlarının oxuması üçün 1944/45-ci tədris ilində Azərbaycan dilində orta məktəb açsın. Aylıq əmək haqqı fondu 28979 xarici valyuta, 4094 sovet manatı olmaqla 36 nəfər müəllim, inzibatı-təsərrüfat işçilərindən ibarət ştat cədvəli təsdiq edilsin. Xarici İşlər Komissarlığına icazə verildi ki, Təbrizdə açılan orta məktəbə bir avtomaşın ayırsın.46 Təbrizdə türk dilində orta məktəbin açılması əhali arasında böyük marağa səbəb oldu. Sentyabrın 20-nə qədər 812 şakird bu məktəbdə oxumaq üçün ərizə verdi. Müraciət edənlərin sayı o qədər çox idi ki, sentyabrın 20-də ərizələrin qəbul edilməsi dayandırıldı. Bundan əlavə İran orta məktəbini bitirmiş 31 nəfər müraciət etmişdi ki, onlar təhsillərini Bakıda davam etdirmək istəyirlər. Təbrizdə türk dilində orta məktəb açılması İran hakimiyyət orqanlarının narahatlığına səbəb olmuşdu. 3-cü Ostanın Maarif İdarəsinin rəisi Səlimi Təbrizdəki Sovet Baş Konsulluğunda orta məktəbin direktoru Cəbrayıl Ələsgərovla görüşüb demişdi: "Ötən il erməni əhalisinin nümayəndələri bizə müraciət etmişdilər ki, onlar üçün erməni milli məktəbləri açaq. Buna cavab olaraq İran hakimiyyəti bir sahibkara icazə verdi ki, erməni uşaqları üçün fars dilində üç məktəb açsın. Erməni dili həftədə 2 saat tədris edilirdi və şakirdlər üçün ayda 100 rial pul ödənilirdi.- Bu il ermənilər 700-800 şakirdi əhatə edən, tədrisin erməni dilində olduğu xüsusi milli məktəb açdılar. Nəticədə erməni uşaqları üçün olan 3 fars özəl məktəbinin şakirdləri erməni milli məktəbinə keçdilər. Bu üç məktəbin sahibi maliyyə cəhətdən çox ziyana düşdü".[47] Ç.Ələsgərov M.C.Bağırova yazırdı: cənab Səlimi bu

misalı xəbərdarlıq kimi çəkdi ki, Sovet məktəbinin açılması İran məktəblərinin işinə maneçilik törətməsin. Cənab Səlimi əhalinin və ziyalıların bizim məktəbə münasibətini çox gözəl bilir və şakirdlərin kütləvi şəkildə İran məktəblərindən bizə gəlməsindən bərk narahatdır.

1944-cü ilin yazında və yayında ÜİK (b) P MK-nın və SSRİ Xalq Komissarları Sovetinin 6 mart tarixli qərarına uyğun olaraq Sovet Azərbaycanından Güneyə 620 nəfərdən çox müxtəlif işçilər göndərilmişdi. Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov 14 sentyabr 1944-cü ildə Stalinə göndərdiyi "Güney Azərbaycandakı vəziyyətin bir sıra məsələləri haqqında" geniş məruzəsində yazırdı: "Güney Azərbaycanda Sovet İttifaqının təsirini kücləndirmək haqqında sizin göstərişinizi yerinə yetirərək son vaxtlar bizim tərəfimizdən bir sıra tədbirlər həyata keçirilmişdir. Respublikanın partiya, sovet və hərbi kadrlarından 245 nəfər Güney Azərbaycana göndərilmişdir. Bunlardan 13 nəfəri diplomatik işdə, 10 nəfəri ticarət təşkilatlarında, 150 nəfəri qarnizon komendantları olmaqla hərbi işdə, qalanları təsərrüfat, nəqliyyat, maarif mədəniyyət təşkilatlarında çalışırlar. Xarici Ticarət Komissarlığı, səhiyyə, dəmir yolu və digər sovet və təsərrüfat orqanlarında işləmək üçün daha 375 nəfər səfərbər edilmişdir ki, yaxın günlərdə Güney Azərbaycana gedəcəklər. Güney Azərbaycana göndərilənlər istisnasız olaraq azərbaycanlılardır".[48]

1944-cü ilin yazında və yayında Seyid Ziya əd-Dinin tərəfdarları Güney Azərbaycanda fəaliyyətlərini genişləndirmək üçün bütün vasitələrə əl atırdılar. Sovet xüsusi idarələri onun bütün hərəkətlərinə göz qoyurdular. Onun haqqında olan xüsusi məlumatda göstərilirdi: hökumət əleyhinə olub şaha qarşı müxalifətdə olanlar Seyid Ziyanın ətrafında toplanıblar. O, özü şaha qarşı antipatiyasını artıq gizlətmir. Məsələn, Şah Məclisin iclaslarının birinə gəldikdə hamı ayağa qalxıb Məhəmməd Rzanı

alqışladığı halda Seyid Ziya nümayişkaranə şəkildə yerindən qalxmadı.[49] hətta hərbi kəşfiyyat 5 may 1944-cü ildə M.C.Bağırova verdiyi məlumatda Seyid Ziyanın yüksək rütbəli hərbçilərlə birləşib şaha qəsd etmək və hakimiyyəti ələ keçirmək cəhdində olduğunu, Tehranda 70 nəfər zabitin həbs olunduğunu bildirirdi, 50 Sovet Azərbaycanından Güneyə gedənlərə tapşırıq verilmişdi ki, seyidçilərə qarşı möhkəm dursunlar. Əslində Təbrizdə və digər şəhərlərdə Seyid Ziya özünə geniş baza yarada bilmədi. Baxmayaraq ki, İranın başı üzərində onun "xilaskar" kölkəsi zühur etmişdi. Güney türklərinin xilas olmaq arzuları Seyid Ziyanın "xilaskarlıq" missiyası ilə uyğunlaşmırdı. Təbrizdən göndərilən məlumatda deyilirdi: çoxsaylı faktlar təsdiq edir ki, Güney Azərbaycan əhalisi çox əsrlik arzusuna, farsların zülmündən qurtarmağa can atır. İranın Şimal vilayətlərinin azərbaycanlıları öz qan qardaşları ilə birləşməyin həsrətindədir. Milli birlik hissləri öz təzahürünü azadfikirlilikdə, ana dilində təhsil almaq istəyində, öz uşaqlarını vətənə və xalqa dərin məhəbbət hissi ilə tərbiyələndirməkdə tapır. Ərdəbil şəhərindəki antifaşistlərin başında öz vətənini həddindən artıq sevən gənç, iste"dadlı şair Balaş Azəroğlu dayanır. Bu yaxınlarda biz onun "Tarix boyu" poemasından parçalar çap etdik. Ziyalıların qabaqcıl hissəsi öz fikirlərini fars dilində deyil, xalqın başa düşdüyü Azərbayan dilində yazıb yayırlar. Əhalinin Sovetlərdə yaşayan azərbaycanlı qardaşlarına tükənməz sevgisi vardır.[51]

"Vətən yolunda" qəzetinin əməkdaşları Təbrizə birinci getdiklərindən M.C.Bağırovun adına ilk hesabatı 6 may və 18 may 1944-cü ildə Ə.Şahgəldiyev göndərmişdi. O, Təbrizdən başqa qəzetin Urmiyədə, Xoyda, Mərənddə, Mianədə, Zəncanda, Qəzvində, Sərabda və digər şəhərlərdə geniş yayıldığını bildirirdi. Qəzetin işi ilə bağlı Cəfər Xəndan və Qulam Məmmədli bu şəhərlərə ezam olunmuşdu. Yerli ziyalıların işə cəlb olunması ilə bağlı Şahgəliyev yazırdı: Məhəmməd

Biriya mənimlə əlaqə saxlayır. Hər gün görüşürük, onun gələcək ədəbi fəaliyyəti barədə müzakirələr aparırıq. Biriya "ədəbi vərəqəni" və "Yumruq" vərəqəsini buraxmaq üçün geçə-gündüz çalışır. O, məndən xahiş edib ki, göstərdiyiniz atalıq qayğısına görə atəşin salamlarını sizə çatdırım.[52]

17 may 1944-cü ildə "Vətən yolunda" qəzetinin redaksiyasında deputat seçildikdən sonra Təbrizö mandatını almaq üçün gəlmiş, Tehranda çıxan "Ajir" qəzetinin redaktoru Mir Cəfər Pişəvəri ilə görüş keçirildi. Görüş 4 saat davam etdi. Pişəvəri redaksiya işçilərinə müttəfiqlərin İranda fəaliyyəti, xüsusilə ingilis adamı kimi tanınan Seyid Ziyanın pozuculuq fəaliyyəti haqqında məlumat verdi. Pişəvəri ilə söhbətdə Xalq Partiyasının Təbriz şöbəsinin azərbaycanlı kadrlar hesabına küclǝndirilməsi müzakirə edildi. Halbuki Urmiyədən deputat seçilmiş A.Ovanesyan "Tudə" partiyasının Təbriz bölməsinə başçılıq edirdi.[53] Bununla bağlı M.C.Bağırov Stalinə yazırdı: "Belə bir faktdan yan keçmək olmaz ki, Güney Azərbaycanda tərkibi əsasən azərbaycanlılardan ibarət güclü siyasi təşkilatlardan biri olan Xalq Partiyasının başında iňdiyə qədər erməni Artaşes Ovanesyan dayanır".[54] Bu faktdan Seyvd Ziyan Əd-Din Təba-Təbai böyük məharətlö istifadə edirdi. O, özünün məşhur Bəyanatında deyirdi: "Müsəlman dünyası buna dözə bilməz ki, Şəmsəddin Təbrizinin (Təbrizin məşhur orta əsr şairlərindən) yurdunda erməni Artaşes ağalıq etsin".[55] "Vətən yolunda" qəzetinin fəaliyyəti, Güney ziyalıları ilə iş barədə geniş məlumatı M.C.Bağırov 1944-cü ilin sentyabrıvda bir neçə günlüyə Bakıya çağırılmış Cəfər Xəndandan almışdı.[56] Ə.Şahgəldiyevin məktubları Azərbaycan K(b)P MK-da müzakirə edildi. Redaksiyaya tövsiyyə olundu ki, son dərəcə ehtiyatlı olsunlar ki, İran hakimiyyət orqanları qəzeti bağlamağa cəhd göstərməsinlər. Çünki "Vətən yolunda" çap olunmuş "Fətəli xan" məqaləsi və "Mən nə gətirərəm" şeri ostandarın etirazına səbəb olmuşdu. Məhəmməd Biriya ilə əlaqələrin açıq şəkildə

aparılması, onun hər gün redaksiyada görünməsi, İran hakimiyyət orqanları əleyhinə açıq təbliğat aparması siyasi cəhətdən düzgün hesab edilmirdi. Şahgəldiyevə göstəriş verildi ki, "Şair Biriya kimi dəyərli işçilərdən son dərəcə ehtiyatla istifadə etmək lazımdır, onu xırdapamaq lazım deyildir".[57] M.Biriya ilə bağlı göndərilən xüsusi təllimatda deyilirdi: "Sabahın böyük siyasəti" naminə o, bizim üçün son dərəcə yararlıdır... Biriya Təbrizdə yaşayır və onun çox geniş əhatəsi var. Şübhəsiz ki, bu əhatədə müxtəlif siyasi qrpulaşmalara xidmət edən təxribatçılar da yox deyildir, Onu bu əhatədən ağılla və ehtiyatla təcrid edib yorulmadan bizə lazım olan istiqamətdə tərbiyələndirmək olar".[58] Azərbaycan K(b)P MK-nın ideologiya üzrə katibi Q.Məmmədova tapşırıldı ki, Zakfrontun siyasi idarəsinin rəisi general Sorokinlə danışıb "Vətən yolunda" qəzetinin texniki, məişət, sosial məsələlərini həll etsin və müvafiq göstərişləri vermək üçün Şahgəldiyev vaxtaşırı Bakıya dəvət edilsin. Tədbirlər planının yerinə yetirilməsinə nəzarət etmək Azərbaycan K(b)P MK katibi Əlizadəyə tapşırıldı.[59]

Güney Azərbaycana xüsusi tapşırıqla göndərilən bütün siyasi işçilərə rəhbər təyin edilən Həsən Həsənov 1944-cü ilin iyununda qarşılaşdığı çətinliklərlə bağlı M.C.Bağırova üç məktub göndərmişdi. Bu məktublarda qaldırılan məsələlər Azərbaycan K(b)P MK-da müzakirə edildikdən sonra Bağırov H.Həsənova yazırdı: xalq partiyasının konfransına, ümumiyyətlə bu partiyanın tədbirlərinə müdaxilə etmək lazım deyil. Yaxşı olar ki, qeyd edilən partiyanın fəaliyyətini izləyəsiniz, onun tərkibini, xüsusilə rəhbərlərini və əhalinin müxtəlif təbəqələri ilə əlaqələrini öyrənəsiniz. Fabrik və zavodlarda tətillərə gəldikdə, qoy fəhlələr bunu öz təşkilatları və həmkarlar ittifaqı vasitəsilə etsinlər. Sizin bu işlərə müdaxiləniz düşünülmüş və ehtiyatlı olmalıdır. Biriya ilə bağlı müvafiq göstərişləri biz bu yaxınlarda Bakıya gəlmiş Şahgəldiyevə vermişik və siz də buna

əməl etməlisiniz. Adamların saxta sənədlərlə o biri tərəfə keçib işə düzəlməsi ilə bağlı sərhəddə yaranmış problem sərhədçilərə aid deyil, onlar öz vəzifələrini yerinə yetirirlər. Bu həmin sənədləri verən hərbi orqanların günahıdır ki, işi yaxşı təşkil edə bilmirlər. Qaldırılan məsələ Zakfrontun nəzərinə çatdırılacaq. Təbrizdəki xəstəxananın baş həkimi HZ.Quliyeva təyin edilmişdir və bu günlərdə ora gələcəkdir. Güneyli gənclərin rus dilini öyrənməsi məsələsi Təbriz Mədəniyyət evinin dərnəklərində həll edilsin. Sovet Azərbaycanı ali məktəblərində oxumaq istəyəştərin məsələsi SSRİ Xarici İşlər Komissarlığının Yaxın Şərq şöbəsi ilə birgə həll edilməlidir. Bizim mədəniyyətimizin və təsirimizin geniş yayılması, gələcək kəşfiyyat işləri baxımından arzuolunandır ki, bu məsələ müsbət həll olunsun. Araz çayından su götürməklə Muğanın aşağı hissəsinə kanal çəkilməsi SSRİ və İranın müvafiq orqanları tərəfindən həll edilə bilər. Qoy İran hökuməti rəsmi qaydada Sovet hökumətinə müraciət etsin. Ərdəbildə xəstəxana açılması məsələsinə Təbriz və Rəştdən sonra İkinci növbədə baxılaçaq.[60]

1944-cü ilin iyun ayının 14-də Makunın, Xoyun, Şapurun, Şərəfxanın Azərbaycan kəndlərinin kürd talanlarına məruz qalması ilə bağlı ağır vəziyyət yarandığı üçün Tehrandakı Sovet səfirliyinin müşaviri Əhəd Yaqubov təcili olaraq Maguya getmişdi. İyunun 28-də H.Həsənov da Urmiyəyə getdi. Kürd talanlarında İran hakimiyyət orqanlarının əli olması barədə məçlumatlar var idi. Azərbaycandakı 3-cü piyada diviziyasının komandiri general Cavadinin İran ordusu baş qərargahının rəisinə məktubu ələ keçirilib, hərbi kəşfiyyat xətti ilə M.C.Bağırova göndərilmişdi. General Cavadi yazırdı: "3-cü, 4-cü və 15-ci diviziyanın silahları kürdlərin əlinə keçmişdir. Bundan başqa Tehrandan da gizli yollarla silah gətirilir və kürdlərə satılır... Kürdləri tərksilah etmək indi nəinki mümkün

deyil, heç məqsədəuyğun da deyil. İndiki anda ən yaxşı vasitə kürdlərin birləşməsinin qarşısını almaqdır".[61] Bu məsələdə sovet hərbi və diplomatik idarələrinin də günahı var idi. İyul ayının 4-də Ə.Yaqubov Makudan M.C.Bağırova göndərdiyi məlumatda bildirirdi: "Qeyd edilməlidir ki, indiyə qədər konsulluq və hərbi idarələrin işçiləri kürd məsələsinə düzgün yanaşmırlar. Kürd məsələsi ilə bağlı yoldaş Molotovun göstərişləri tamamilə yerinə yetirilmirlər. Ona görə kürdlərin soyğunçuluğu və adamların qətlə yetirilməsi bizim ünvanımıza arzuolunmaz söz-söhbət doğurur. Mən sizi xəbərdar etmək istəyirəm ki, indiki səfir çoxdan işlədiyindən səfirliyin köhnə səhvlərini, öz işinin çatışmayan cəhətlərini göstərməmək üçün qaldırılan məsələyə münasibətdə lazımi tədbirləri görmür... Mən sizinlə görüşmək istəyirəm və şəxsən sizə məlumat vermək istəyirəm. Ona görə fikirləşirəm ki, Tehrana gedən kimi səfirdən xahiş edəcəyəm ki, Dekanazov vasitəsilə mənim 3-4 günlüyə Bakıya gəlməyimə nail olsun. Bəhanə olaraq ailəmə baş çəkməyi göstərəcəyəm".[62] Ə.Yaqubov kürd məsələsi ilə bağlı məlumatları SSRİ Xarici İşlər Komissarlığına da göndərmişdi. Güney Azərbaycana münasibətdə siyasət dəyişdiyi üçün Tehrandakı Sovet səfiri A.Smirnov vəzifəsindən azad edildi. M.Maksimov yeni səfir təyin edildi.

İyunun axırlarında Qərbi Azərbaycana gəlib vəziyyətlə tanış olduqdan sonra Təbrizdəki vitse-konsul H.Həsənov iyulun əvvəllərində V.Molotova, Tehrandakı sovet səfirinə və iyulun 11-də M.C.Bağırova geniş məruzələr hazırlamışdı. Maraqlıdır ki, M.C.Bağırova göndərilən məruzə Moskvaya və Tehrana göndərilən məruzədən fərqlənirdi. Həsən Həsənov yazırdı: "Sizə məlum olduğu kimi, mən Azərbaycanın Qərb rayonlarına getdim. Səfərin nəticəsi kimi hazırladığım məruzəni Moskvaya, Tehrana yolladım və sizə göndərirəm. Bu məruzəyə Moskvaya və Tehrana yazmaq istəmədiyim məsələləri əlavə etmək istəyirəm...".[63]

Azərbaycandan Güneyə göndərilən siyasi işçilərin rəhbəri, Təbrizdəki vitse-konsul Həsən Həsənov V.Molotova və Tehrandakı Sovet səfirinə nələri yazmaq istəməmişdi? Həmin məsələləri o, M.C.Bağırova 11 iyul 1944-cü ildə "çox məxfi" qrifi altında göndərdiyi məruzədə açıqlamışdı. Molotova yazılan məruzə İranın kürd rayonlarında ümumi vəziyyət haqqında kürdlərin azərbaycanlılarla münasibətləri barədə məlumatdan ibarət idi. Həsənov kürdlərin sovetlər tərəfindən himayə edilməsindən ingilislərin və türklərin bərk narahat olduğunu bildirirdi. İngilis kəşfiyyatı zabitlərinin kürd tayfa başçıları ilə tez-tez görüşüb danışıqlar aparması barədə məlumatlar var idi. Kürdlərin azərbaycanlılara qarşı talançılığının ingilis kəşfiyyatı və İran hakimiyyəti tərəfindən gizli şəkildə təşkil olunduğu bildirilirdi. O, yazırdı: kürdlərin azərbaycanlı əhaliyə qarşı bütün azğınlığı Rezayə şəhərinin şəhridarı doktor Mərzbanın gözləri qarşısında baş verir. Bu talanlardan cana doyan əhali 7 iyulda Şəhridara qarşı çıxdılar və onu hamının gözü qarşısında döydülər.[64] Xoy şəhərinin jandarm rəisi Teymurinin himayə etdiyi kürd talançılarının başçıları türk əhalisinin mal-qarasını, qoyunlarını sürüb aparanda açıqca bildirdilər ki, bundan Sovet ordusunun komaidirinə də pay verirlər. H.Həsənov Molotova bildirirdi ki, kürdlərlə azərbaycanlılar arasında gərginlik yaratmaqala İran hakimiyyət dairələri Azərbaycanda ordu və jandarmanı küclə̈ndirmək, sovetlərə münasibətdə artan rəqabəti boğmaq isqəyirlər.[65]

M.C.Bağırova göndərdiyi məruzədə isə Həsənov Güneydə yaranmış real vəziyyəti açıqlayaraq əhalinin İran hakimiyyətivdən bərk narazı olduğunu, Sovet Azərbaycanına ümidlə yanaşdığını bildirirdi. O, yazırdı: Yoldaş Bağırov bu bir faktdır ki, əhali qırılıb əldən gedir. Kəndlərdə dəhşötli vəziyyətdir. Əyinlərindəki paltarlara o qədər yamaq vurulub ki, elə miskin körkəmdədir ki, ilk dəfə onun hansı materialdan tikildiyini müəyyən etmək olmur. Demək olar ki, hamı lüt

və səfil kökündədir. Çox hallarda kəndlərdə meyidləri kəfənsiz basdırırlar. Azərbaycanlı kəndlilərin İranda indiki həyatından daha dəhşətli mənzərəni təsəvvürə gətirmək çətindir. Çoxları sual verir ki, nə vaxt bu biçarə xalq çəhənnəm əzabından qurtaraçaq. Qərb rayonlarına gedərkən keçirdiyim görüşlərdə heç nədən çəkinmədən ucadan deyirdilər: "Axı bu millət qarıldı, / əldən getdi, gəlin buna sahib olun".[66]

Qərbi Azərbaycana səfər edərkən H.Həsənov kürd tayfa başçıları ilə də görüşdüyünü bildirirdi. Onlardan bir neçəsi - Qotaz bəy, Rəşid bəy, Nuru bəy, Zero bəy MD.Bağırovu şəxsən tanıyır və deyirdilər: "Yoldaş, Bağırov bizə söz verib ki, müharibədən sonra kürd məsələsini həll edəcək. Biz ançaq ona ümid bağlayırıq...Biz sizin adamlarınızıq, bizi özünüzdən uzaqlaşdırmayın. Əgər sözlərimizə inanmırsınızsa, istənilən çətinliklərdə yoxlayın".[67] Doğrudan da Sovet Ordusunun İrana daxil olmasından kürdlər çox faydapanmışdılar. Rza şah dövründə ipə-sapa yatmayan kürd tayfa başçılarının çoxu cənuba və İranın digər uzaq yerlərinə sürgün edilmişdilər. 1941-ci ilin şəhrivər hadisəsindən sonra həbs və sürgün edilən kürdlər öz yerlərinə qayıtmışdılar. H.Həsənov öz məruzəsində təklif edirdi ki, bizim İranda məqsəddərimizdən asılı olmayaraq kürdlər arasında dayaqlarımızı yaratmalıyıq. 30-40 kürd uşağını Bakıda oxuda bilsək, gələcək işlərimiz üçün çox yaxşı olar.[68]

Daha sonra məruzədə təxribatçı Xəlil İnqilabın, Britaniya konsulunun və s. fəaliyyətinə toxunaraq, mətbuatda işin gücləndirilməsinin vaçibliyini bildirərək yazırdı: Sabah Maguya yola düşürəm, qayıdanda Mehabada, sonra isə Ərdəbilə baş çəkmək fikrindəyəm. Bütün bunlardan sonra sizinlə görüşmək istəyirəm, bilmirəm bunu neçə etmək olar.[69] 1944-cü ilin yayında Sovetlər İranda öz təsirini gücləndirmək üçün mətbuata xüsusi diqtət yetirirdi. İngilislərin Tehrandakı çoxsaylı qəzet və jurnalları da onları qıçıqlandırırdı. "İranda Britaniya təbliğatının mətbuat orqanları" adlı

arayışda göstərilirdi ki, 1944-cü ildə ingilislər İranda "Təfsire Xəbərxaye cahan", "Axan", "Tehran deyli nyus", "Nau Nexalan", "Aləme Zənən" qəzetlərini, "Şeypur", "Cahane Azad", "Ruziqare Nou", "Cahane Emruz", "Oxanq", "Taç mahal" jurnallarını buraxırdılar. Bundan əlavə iraştıların buraxdıqı "Raade Emruz", "Karvan", "Xur", "Şam", "Tehrane Mosavvar", "İrane Kanuni", "Kanun"., "Dadqostaran" qəzetlərini də ingilislər maliyyələşdirirdilər.[70] Sovet səfirliyi M.C.Bağırovdan xahiş edirdi ki, Tehranda mətbuat işinin təşkilində onlara köməklik göstərsin. Sovet Azərbaycanından göndərilən tərcÜMƏCilərin və mətbuat işçilərinin yardımı ilə SSRİ səfirliyi Tehranda "Duste İran" qəzetini, İranın Sovetlərə mədəni əlaqə cəmiyyətinin "Piyame Nou" (Yeni Xəbərlər) jurnalını buraxmağa başladılar. Jurnalın ilk sayı 30 avqust 1944-cü ildə çıxdı. Onun məsul katibi Seyid Nəfisi idi.[71]

İrana yeni təyin edilmiş səfir Mixayil Maksimov 1944-cü ilin yayında Tehranda, Təbrizdə və Guney Azərbaycan şəhərlərində Bakıdan göndərilən konsert briqadalarının böyük uğur qazandıqanı M.C.Bağırova yazırdı.[72]

1944-cu ilin yazında və yayında Güney Azərbaycanda aparılan siyasət barədə M.C.Bağırov Stalin üçün hazırladığı ilk geniş məlruzəsini (21 səhifəlik) 14 sentyabrda Kremlə göndərdi. Hesabatda ilk olaraq "Vətən yolunda" qəzetinin fəaliyyətivdən söhbət açılırdı. Onun Güney Azərbaycanda geniş yayıldığı, yaradıcı ziyalıları öz ətrafında topladığı bildirilirdi. Təbriz ziyalılarından Biriya, Yusif, Tofi, Möhtaq Rza, Əliyarzadə, Mir-Mehdi, Yəhya Tehfi, humay xanım, Lalə xanım qəzetin işində yaxın iştirak etməklə yanaşı, Tehranda, Miyanədə, Ərdəbildə, Mərənddə, Şapurda və digər şəhərlərdə qəzetin 30-dan çox müxbiri iştirak edirdi. Məsələn Təbrizin orta məktəb müəllimlərindən biri yazırdı: "Mən qəzetin birinci nömrəsini aldım və böyük həyəcanla onu oxudum. Əgər qəzetin bir sayı üçün mənim bütün var-yoxumu istəsələr, mən tərəddüd etmədən

verərəm. Ümidvaram ki, "Vətən yolunda" qəzeti parlaq ulduz kimi öz işığı ilə Təbriz üfüqlərini işıqlandıracaq".[73] Stalinə məruzəsində M.C.Bağırov Məhəmməd Biriyanın və Balaş Azəroğlunun adını xüsusi iftixarla çəkirdi. İ Məruzədə qoyulan ciddi məsələlərdən biri də Güney Azərbaycana təsir vasitəsi olaraq islam dinindən istifadə edilməsi idi. Bakıda Qafqaz müsəlmanları dini idarəsi yaradıldıqdan sonra ruhanilərin və Zaqafqaziya dindarlarının Bakıda qurultayı keçirilmişdi. Qurultayda bütün dünya müsəlmanlarına qəbul edilən müraciətin 5000 nüsxəsi azərbaycan və fars dillərində nəşr edilib Təbrizə göndərşşişdi. Qurultayın qəbup etdiyi "Müsəlman qardaşlara müraciət"də deyilirdi: "Müsəlman qardaşlar! cəllad Hitler və onun əlaltısı Mussolini müqəddəs islam torpaqlarını - Ərəbistanı və Misiri tapdalayıb işğal etmək məqsədi küdürlər. Liviyada Mussolini yüz minlərlə müsəlmanları işgəncələrə məruz qoyub güllələyibdir. Onun həyasızlığı o dərəcəyə çatmışdı ki, üç il öncə islam xəlifəliyi iddiasına düşmüşdü... Biz Azərbaycan və bütün Sovet İttifaqının ruhaniləri torpaqlarımıza hücum etmiş, yüz minlərlə insanların həyatını məhv etmiş faşistlərin cinayətinə neçə dözüb cihad elan etməyək. Hitler, Mussolini və onların əlaltıları çürbəçür şaiyələr yayırlar ki, guya Sovet hökuməti islam dininə təzyiq göstərir. Bundan böyük yalan və böhtanı dünyada hələ heç kəs görməyibdir... Biz Sovet İttifaqının müsəlmanları həmrəy olub alman faşizminö cihad elan edirik. İntiqam günü çatıb. Hədisi Şərifdə buyrulub ki, başqasına hücum edən tezliklə öz cəzasını almalıdır. Biz Sovet İttifaqının mömin müsəlmanları bütün dünya müsəlmanlarına müraciət edirik: Alman və İtalyan faşistlərinə rəhminiz gəlməsin. Hər yerdəki onları gördünüz öldürün. Çünki bu müqəddəs əmrdir.[74] Qafqaz müsəlmanları qurultayının bu müraciəti Güney Azərbaycanda da böyük əks-səda doğurmuşdu. İran Məclisinin üzvü Şeyxülislam Məlairi, məşhur din xadimlərindən Hacı Seyid Rza

Firuzabadi, qazi Hacı Mirzə Bağır ağa, müctəhid Siqtətul İslam, Hacı Mirzə Xəlil ağa və digərləri mətbuatda bu müraciətə öz müsbət münasibətlərini bildirmişdilər. Sovet Azərbaycanında yeni yaranan dini idarənin başçısı Şeyxül İslam Əlizadə Güney Azərbaycanın din xadimləri ilə şəxsi əlaqələr yaratmışdı. Burada əsas məqsəd Güney Azərbaycana Sovet təsirini yaymaq idi.

Sovet Azərbaycanı sənətinin uğurlarını nümayiş etdirmək üçün Güney Azərbaycana 44 nəfərdən ibarət konsert qrupu göndərilmişdi. Tehranda, Təbrizdə, Pəhləvidə, Rəştdə, Ərdəbildə, Qəzvində, Makuda, Şapur və Urmiyədə konsertlər böyük uğurla keçmişdi. M.C.Bağırov Stalinə yazırdı: Azərbaycan konsert briqadasının exzam olunması çox faydalı oldu. Güney Azərbaycanda əhali Azərbaycan xalqının keçmişini və bugününü özündə əks etdirən, ona doğma olan incəsənəti böyük məhəbbətlə qarşıladı. "Yaşa Azərbaycan" kimi mahnılar dildən-dilə düşdü.[75] M.C.Bağırov öz mə"ruzəsində ÜİK(b)P MK-nın və XKS-nin qərarına uyğun olaraq Güney Azərbaycan üçün radio verilişlərinin təşkil edilməsini, Təbrizdə xəstəxananın, mədəniyyət evinin, çorab trikotaj fabrikinin və Sovet Orta məktəbinin açılmasını, Qəzvində əhalinin içməli su ilə təmin edilməsini, Dövlət Müdafiə Komitəsinin qərarına əsasən Bakı-Astara-Qəzvin avtomobil yolunun çəkilməyə başlamasını yüksək qaymətləndirirdi. Onun fikrincə, son zamanlar görülən bütün bu tədbirlər şübhəsiz ki, İranlılar arasıvda Sovet İttifaqına inam və eÇimadı yüksəltmiş, azərbaycan əhalisi arasında milli özünüdərki gücləndirmişdir.[76] Bu işdə Güney Azərbaycan əhalisinin dilini, məişətini, milli xüsusiyyəqlərini bilən azərbaycanlı işçilərin İrana ezam edilməsi böyük rol oynamışdı. M.C.Bağırov yazırdı: İran hökuməti və yüksək dövlət məmurları son zamanlar bizim orada nüfuzumuzun yüksəlməsindən və onun gələcək nəticələrindən ehtiyat edirlər. Onlar bizim İrandakı tədbirlərimizi pozmaq üçün əks tədbirlər görürlər. Bir sıra mübahisəsiz faktlar təsdiq edir ki, bütün bunlar

ingilislər tərəfindən istiqamətləndirilir və müdafiə edilir.[77]

M.C.Bağırov Stalin üçün hazırladığı geniş məruzədə Seyid Ziya tərəfdarlarının Azərbaycandakı fəaliyyətindən də söz açırdı. Onun İranda Sovet siyasətinə qarşı durduğunu göstərirdi. Seyid Ziyanın emissarı olan Hüseyn Etika Təbrizdə və Şahsevən tayfaları arasında təbliğat aparırdı ki, "ruslar İranı parçalamaq və İran ərazisinin bir hissəsini SSRİ-yə birləşdirmək istəyirlər. İngilislərin müdafiə etdiyi İranın bütövlüyünü və müstəqilliyini saxlamaq üçün Vətənin yekanə xilaskarı olan Seyid Ziya Əd-Dinin partiyasına girmək lazımdır".[78] Bağırovun məlumatına görə seyidçilərin bu təbliğatı ingilislər və İran hakimiyyət orqanlarının Güney Azərbaycandakı nümayəndələri - o cümlədən ostandar Dadvər tərəfindən müdafiə edilirdi. İngilislərin Xəzərin cənubuvda və kürdlər arasında iş apardıqları da qeyd edşqardi.1944-cü ilin aprel-avqust aylarında kürd silahlı dəstələrinin hücumları nəticəsində Meylanlı, Təzəkənd, Qızılsulu, Qaraağac, Arıxlı, Dərəkənd və d. Azərbaycan kəndləri talan edilmiş, üç kəndli, iki uşaq öldürülmüş, 6000 baş xırda buynuzlu, 700 baş iribuynuzlu mal-qara sürülüb aparılmışdı.[79] M.C.Bağırov Stalinə yazırdı: "Uzun müddətdir ki, kürdlər bizim komavdanlığın gözü qarşısında Azərbaycan əhalisini soyub-talayır. Bizim komandanlıq kürdlərə qarşı heç bir qəti tədbir görmür, yalnız xəbərdarlıq etməklə işini qurtarmış hesab edir.[80]

Güney Azərbaycanda işi kücləndirmək üçün M.C.Bağırov təklif edirdi:

Azərbaycandan seçilmiş deputatların mandatlarının Məclis tərəfindən təsdiqanə bütün vasitələrlə nail olmaq;

- lazımi tədbirləri görməklə yaxın zamanlarda həmkarlar təşkilatlarını birləşdirmək, Sovet İttifaqına düşmən münasibəti olanların hamısını

rəhbərlikdən uzaqlaşdırmaqla orada bizim təsirimizi kücləndirmək;

- "Hizbe-Tude" partiyasının rəhbərliyini azərbaycanlılardan olan nüfuzlu ziyalılar hesabına möhkəmlətmək, onun nüfuzunu qaldırmaq üçün bir sıra tədbirlər görmək;

- İran hakimiyyət orqanları vasitəsi ilə Güney Azərbaycanda bizə qarşı mübahisələr yaradan təxribatçı düşmən ünsürləri ləğv etmək üçün qəti tədbirlər görmək;

- İrandakı Sovet Ordusu komandanlığına və diplomatik işçilərə göstəriş vermək ki, azərbaycanlı əhaliyə hücum edən bir sıra Kürd talançı tayfa başçılarına münasibətdə qəti mövqe tutsunlar.

Azərbaycanlılarla kürdlər arasında normal münasibətlər yaradılmasına nail olmaq;

- Sovet Ordusunun yerləşdiyi ərazidə qarnizonların nüfuzunu qaldırmaqla İran hakimiyyət orqanlarının bizim mənafeyimizə toxunan hər hansı tədbirinin sovet qarnizonlarının razılığı olmadan keçirilməsinin qarşısını almaq;

- Kəşfiyyat işlərini genişləndirmək, bu məqsəddə əhalinin nüfuzlu hissəsindən istifadə etmək;

- Çox ehtiyatlı formada kəndlilər arasında bizim işimizi kücləndirməyə xüsusi diqtət yetirmək;[81]

Güney Azərbaycana münasibətdə Sovetlərin siyasəti dəyişildiyi üçün İranın siyasi həyatı, ordunun quruluşu barədə məlumatlar toplanılması kücləndirildi. Hərbi kəşfiyyat 15 iyul 1944-cü ildə "İran silahlı qüvvələri haqqında" geniş məlumat hazırlanmışdı. Bu sənəddə İran ordusunun baş qərargahı, hərbi dairələr, hərbi təhsil müəssisələri, ordunun şəxsi Heyəti, yerləşməsi, döyüş ruhu, hərbi hava qüvvələrinin vəziyyəti barədə kəşfiyyat materialları toplanmışdı.[82] Zaqfrontun kəşfiyyat idarəsinin 20 sentyabr 1944-cü ildə hazırlayıb bir nüsxəsini də M.C.Bağırova göndərdiyi "İran Ordusunun geniraliteti və zabit korpusu" adlı arayış-məlruzəsi 236 səhifədən ibarət idi. Arayışı Zaqfrontun qərargah rəisi kenerap-mayor İvanov və kəşfiyyat idarəsi

rəisinin müavini podpolkovnik Qorşkov hazırlamışdı. Həmin arayışda İran ordusunun sayının 123 min, zabitlərin sayının 9 min olduğu göstərşşrdi. Sovet hərbi kəşfiyyatının məlumatına görə İran ordusunda 1 hərbi nazir, 2 müavini, 2 korpus generalı, 17 dviziya generalı, 34 briqada generalı, 338 polkovnik, 239 podpolkovnik, 320 mayor, 1470 kapitan, 1960 baş leytenant, 1247 leytenant, 870 leytenant və s. xidmət edirdi.[83]

Hərbi nazir İbrahim Zənd, baş qərargah rəisi Şahin dəftərxanasının keçmiş başçısı general Kaçı Əli Razmarə idi. Hərbi şura üzvləri olan diviziya generalı İbrahim Zəndin, diviziya generalı Hacı Əli Razmarənin, korpus generalı Yazdən Pənahın, briqada generalı Hidayətin, briqada generalı Moktadirin, diviziya generalı Məhəmməd Firuzun haqqında hər şey Sovet hərbi kəşfiyyatına məlum idi. Onların yaşadıqları evlərin nəinki ünvanı, hətta planı belə Sovet xüsusi xidmət orqanları tərəfindən öyrənilmişdi.[84] İran hərbi hava qüvvələrində 725 nəfər xidmət edirdi, 191 hərbi təyyarəsi var idi. Bundan 78-i uçuşa yararlı idi. Hərbi hava qüvvələrinin rəisi keçmiş hərbi nazir, Avropada təhsil almış general Əhməd Naxçıvani idi,[85] 1944-cü ilin oktyabrında Sovet Xüsusi Xidmət Orqanları və hərbi kəşfiyyatı tərəfindən İran dövlət aparatıvda işləyən bütün yüksək vəzifəli şəxslərin siyasi oriyentasiyası və SSRİ-yə münasibəti haqqında mövqeləri öyrənşşişdi. Bu barədə 219 səhifədən ibarət geniş arayış hazırlanmışdı.[86]

İran ordusu zabitlərinin siyahısı və onlar haqqında məlumatlar Qızıl Ordunun Baş Qərargahının rəisi ordu generalı Aleksey Antonova təqdim edilmişdi.[87]

Güney Azərbaycan şəhərlərinə azərbaycanlı zabitlər hərbi komendantlar.təyin edildikdən sonra qarnizonlarda nizam-intizam xeyli möhkəmləndirildi. Milliyyətcə rus olan zabitlər azərbaycanlıların qayda-qanun yaratmaq cəhdlərindən narazı qalmışdılar. Hələ avqust ayında 4-cü ordunun əks-kəşfiyyat bölməsinin rəis müavini

podpolkovnik Kupriyanov Zaqafqaziya Cəbhəsi əks-kəşfiyyat idarəsinin rəisi general-mayor N.Ruxadzeyə azərbaycanlı hərbi komendantların "cinayətkar fəaliyyəti haqqında" geniş kəşfiyyat materialı göndərmişdi. Burada Marağa şəhərinin komendantı İsmayılovun, Qəzvinin komendantı Əliyevin, Təbrizin komendantı Maniyevin, Mərəndin komendantı Əhmədovun, Əşrəf şəhərinin komendantı Quliyevin, Baboləsərin komendantı Haqverdiyevin, Şahi şəhərinin komendantı Nuriyevin, Çalusun komendantı Mustafayevin, Uşnu şəhərinin komendantı Mirfətullayevin, Sarı şəhərinin komendantı Ağayevin və d. fəaliyyətindən söhbət açılırdı. Məsələn, agentin verdiyi məlumata görə, mayın 1-də Qəzvinin komendantı mayor Əliyev şəhər polisinin rəisi Serreşt ilə birlikdə Şapur Hotelində nahar edərkən bütün qazıl ordu zabitlərinin sağlığına içməkdən imtina etmiş, yalnız azərbaycanlı zabitlərin şərəfinə içməyi təklif etmişdi. Ondan bir Azərbaycan mahnısı oxumağı xahiş etdikdə o, demişdi: "Mən artıq 4 il bu sarıların (rusların) içində olduğumdan, hətta azərbaycança mahnı oxumağı da unutmuşam".[88] General Ruxadze bu məlumatları M.C.Bağırova göndərdi və bildirdi ki, ondan cavab almayana qədər məsələni Zaqfrontun hərbi Şurasına çıxarmayacaqdır. M.C.Bağırov tə"çili olaraq Güneydəki komendantlardan məlumat tələb etdi. Azərbaycanlı komendantlar öz məlumatlarında Sovet Ordusu zabitlərinin sərxoşluğundan, əyyaşlığından, oğruluğundan və soyğunçuluğundan yazaraq bu zəmində əks kəşfiyyat zabitlərinə təsir göstərdiklərini bildirirdilər.[89] M.C.Bağırov Zaqfrontun komandanı, Ordu generalı Tülenevə, 4-cü ordunun komandanı general-leytenant Sovetnikova və Ruxadzeyə göndərdiyi cavabda yazırdı: Əks kəşfiyyatın Güney Azərbaycandakı şəhərlərin azərbaycanlı hərbi komendantları haqdakı məlumatlar həqiqətə uyğun deyil. Qızıl ordu zabitləri Təbrizdə qayda-qanun yaratmaq istəyən komendant mayor Əjdər Maniyevi ölümlə hədələyiblər. Niyə kəşfiyyat materiallarında

yoxdur?[90] Bu məlumatlarda göstərirlər ki, guya hərbi komendantlar fars dilini yetərincə bilmədiklərindən yerli əhali ilə yaxından əlaqəyə girə bilmirlər. 4-cü ordunun kəşfiyyat işçilərinə məlum olmalıdır ki, Sovet qarnizonları Güney Azərbaycanda yerləşir, buranın əhalisi azərbaycanlılardır və fars dilində deyil, Azərbaycan dilində danışırlar.[91]

1944-cü ilin dekabrında alınan məlumatlara və öyrənilən vəziyyətə uyğun olaraq Zaqafqaziya Cəbhəsi Ordusunun komandanı, ordu generalı Tülenev, Azərbaycan K(b)PMK-nın katibi M.C.Bağırov, hərbi şura üzvü general-mayor Yefimov, Zaqafqaziya Cəbhəsi Siyasi İdarəsinin rəisi general-mayor Yemelyanovun imzası ilə Qızıl Ordu Baş Siyasi İdarəsinin rəisi general-polkovnik Aleksandr Şerbakovun adına "İranın yerli əhalisi içərisində işin gücləndirilməsi haqqında" məruzə hazırlandı. Orada deyilirdi: Sovet Ordusunun İranda olduğu 3 ildən artıq bir dövrdə İran əhalisinin, xüsusilə Güney Azərbaycan əhalisinin siyasi təfəkkürünün yüksəldilməsində əhəmiyyətli iş görülmüşdür. Azərbaycan partiya təşkilatı yalnız 1944-cü il ərzində Sovet Ordusunun siyasi idarələrində, hərbi komendaturalarda, Sovet Ticarət və Nəqliyyat İdarələrində işləmək üçün 800 nəfərə yaxın adam göndərmişdir. Bunlar yerli əhali içərisində böyük iş görürlər. Buna baxmayaraq bizim əhali içərisində təbliğat işlərimiz arzuolunan səviyyədə deyildir. Təbliğat işlərini yüksəltmək üçün təklif olunurdu: "Duste İran" qəzeti yenidən qurulsun və onun tirajı 15 minə çatdırılsın, Güney Azərbaycan əhalisi içərisində yayılan "Vətən yolunda" qəzetinin tirajı 15 minə çatdırılsın; İranda tez bir zamavda fars, Azərbaycan, erməni, ərəb və kürd tekstləri ilə illüstrativ jurnal buraxılsın; bizim nəzarətimizdə olan nəşrlərdə müxtəlif istiqamətləri təmsil edən yerli müəlliflərin yazılarının dərc edilməsi artırılsın; Şimali İrana verilişlər yayan radio qovşaqlarının işi təkmilləşdirilsin və ştatları artırılsın; Zaqafqaziya

Cəbhəsi Siyasi İdarəsinin 7-ci bölməsinə icazə verilsin ki, Tehranda Məlumat-Tərcümə Mərkəzi yaratsın; İranda olan Sovet Ordusunun qərargahı və siyasi orqanlarına tapşırıq verilsin ki, İranı və fars dilini dərindən öyrənsinlər; ÜİMƏC xətti ilə İranda rus dili öyrədən kurslar açılsın; aztəminatlı əhaliyə pulsuz xidmət göstərən "xalq xəstəxanaları" açılsın və hərbi həkimlərin işləyəcəyi bu xəstəxanalara dərman və lazımi avadanlıq buraxılsın; Təbliğat işlərini təşkil etmək üçün yuz min xarici valyuta ayrılsın və s.[92] Ən nəhayət 1944-cü ilin dekabrıvda daha bir addım atıldı. M.C.Bağırovun noyabrın 27-də Malenkovun adına vurduğu teleqrama cavab olaraq Moskva Güney Azərbaycana mədəni, ədəbi, elmi təsiri kücləndirmək üçün Azərbaycan - İran Mədəni Əlaqə Cəmiyyətinin yaradılmasına icazə verdi. Bağırovun qəklifi ilə iki dəfə Stalin mükafatı laureatı, 1940-cı ildən partiya üzvü Səməd Vurğun cəmiyyətin sədri təsdiq edildi...[93]

## VIII. Neft uğrunda mübarizə və S.Kavtaradzenin Tehran səfəri

1944-cü ilin ortalarında böyük müharibənin sonu görsənməkdə idi. İtaliya məğlub olmuşdu. Almaniya Şimali Afrikadan, Yaxın və Orta Şərqdən, Sovetlər Birliyindən çıxarılmışdı. Artıq müttəfiqlər müharibədən sonrakı dövrün perspektivləri haqqında düşünürdülər. İstənilən qədər ziddiyyətlər toplanmışdı. Almaniya tərəfindən işğal olunmuş dövlətlərin gələcək taleləri, Sovetlərin Şərqi Avropada və Güney Azərbaycanda möhkəmlənmək cəhdləri, Uzaq Şərq və Sakit okean hövzəsindəki qeyri-sabitlik açıq və ya gizli müzakirələrin mövzularıia çevrilmişdi. Dünya yanacaq və energetika mənbələri uğrunda gərgin mübarizə dövrü başlayırdı. Müttəfiqlər tədricən rəqiblərə çevrilirdilər. 1944-cü ilin ortalarından başlayaraq neft uğrunda mübarizə İrana münasibətdə siyasəti müəyyən edən başlıca amil olmaqda idi. ABŞ və İngiltərə Sovet İttifaqını Yaxın Şərqin, İranın neft mənbələrinə buraxmamaq siyasətini rəhbər tutmaqla öz aralarında da ciddi ixtilaflardan yan keçə bilmədilər. Birləşmiş Millətlərın keçmiş prezidenti hardinq qeyd edirdi ki, biz dünyanın, ictimai münasibətləri və hüququ öyrənməklə məşğul olarkən İngiltərə neft mənbələrini ələ keçirir. Bu sərvət isə dünya ağalığının əsasını təşkil edir.[1]

1944-cü ilin iyulunda Vaşinqonda neft məsələsinə həsr olunmuş İngilis-Amerikan Konfransı keçirilmişdi. On gün davam edən Konfransda İran nefti ilə bağlı məsələlər müzakirə edilmişdi.2 Hələ 1943-cü ilin sonunda "Standart Vakum Oyl Komnani" amerikan şirkətinin nümayəndəsi Drayper Tehrana gəlmiş, İran Bəluçistanında neft konsessiyası almaq barədə ticarət və sənaye naziri general Şəfai ilə danışıqlar aparmışdı. Bu danışıqlarla bağlı Tehrandakı ABŞ müvəqqəti işlər müvəkkili Ford 2 fevral 1944-cü ildə Birləşmiş Ştatların səfirliyi adından Şəfaidən, [11]

fevralda Saiddən, 19 fevralda Baş nazir Soheylidən xahiş etmişdi ki, konsessiya barədə danışıqlarda Drayperi müdafiə etsinlər. 1944-cü ilin aprelində Milsponun Cənubi İran üzrə müavini təyin edilmiş amerikalı Breyton Tehrana gəldi. Rəsmi olaraq o, Germanda oturmalı, cənubi İran vilayətlərinin maliyyə işlərinə nəzarət etməli idi. Lakin əslində Breyton Bəluçistan neftində maraqlı olan Amerikanın "Sinkler" kamnaniyasının nümayəndəsi idi. 1944-cü ilin yayında bu kampaniyanın digər bir nümayəndəsi - Vilson Tehrana gəldi. Eyni ilə bu dövrdə "Amerikan İstern Ko"-nun nümayəndəsi Vaqram Frendyana və Kempel də İranda danışıqlar aparırdılar. İyulun əvvəllərində neft məsələləri üzrə Amerika hökumətinin nümayəndəsi polkovnik Levelin Tehrana gəlişi ilə işlər yeni xarakter almağa başladı. O, 12 iyulda İranda danışıqlar aparan bütün kampaniyalara bildirdi ki, bundan sonra neft konsessiyası danışıqları Amerika hökumətinin adından aparılaçşdır. İyul ayının 20-də keçmiş prezident Herbert Huverin oğlu və Kurtis İran hökuməti tərəfindən neft üzrə mütəxəssislər kimi Tehrana dəvət edildilər. 1944-cü ilin iyulundan başlayaraq İran hökuməti gizli şəkildə Amerika hökuməti və kampaniyaları ilə danışıqlar aparırdı.[3] Lakin İranlılar elə bilirdilər ki, bu danışıqlar gizli aparılır. Danışıqların gedişi barədə Sovet xüsusi xvdmət orqanlarının məlumatı var idi. Amerikalıların neft danışıqları barədo topladığı materialları Tehrandakı Sovet ticarət nümayəndəsi Miqunov avqust ayında gizli şəkildə M.Ç.Bağırova göndərmişdi.[4]

ABŞ-ın İrandakı fəallığı Sovetlərin diqtətindon yayınmadı. İrandakı SSRİ diplomatik, hərbi və xüsusi xidmət idarələri neft məsələsi ətrafında cərəyan edən bütün prosesləri izləyirdilər. Əslində 1944-cü ilin yazından başlayaraq Sovet Azərbaycanı işçilərinin xüsusi tapşırıqla Güneyə göndərilmusi Moskvanın neft siyasətinin tərkib hissəsi idi. Lakin hələ nə Güneyə

gedənlərin, nə də milli hissləri oyanmış yerli əhalinin bu niyyətlərdən xəbərləri yox idi.

Sovetlər tərəfindən himayə edilən Tehran mətbuatı 1944-cü ilin ortalarından Şimal nefti ideyasını dövriyyəyə gətirməyə başlamışdı. "Toufik" satirik jurnalı iyul ayının 19-da "Neftdən bəla" adlı yumoristik bir yazı dərc etmişdi. Yazının qəhrəmanı olan İran xanım nefq çətinliyi olanda özü üçün bir neçə banka neft ehtiyatı yığmışdı. Onun hər iki tərəfində iki qonşusu var idi ki, İran xanımın neftinə tamah salırdı. Biri varlı və təkəbbürlü idi, o birisi kasıb, adi və qaba idi ki, xaricən İran xanıma çox mehribancasına müraciət edirdi. Lakin o, İran xanımın evində baş verən hadisələri də çox diqtətlə izləyirdi. Elə ki, İran xanım birinci qonşusuna lazım olduğundan çox neft verirdi, İkinci qonşusu çoxmənalı düşüncələrlə İran xanıma gözlərini bərəldirdi. Nəhayət, İkinci mərtəbədə üçüncü varlı rəqib peyda oldu və o birilərdən yüz dəfə artıq İran xanımın neft gözəlliyinə aşiq oldu. Allaha şükür ki, İran xanıma bu mübarizədə həyatını xilas etmək mümkün oldu.[5] Sonradan peyda olan varlı məşuq - Amerika öz mövqelərini İranda artıq xeyli möhkəmləndirmişdi. Hələ 1942-ci ildə Britaniya İran ərazisindən SSRİ-yə yük daşıimasını amerikalılara vermişdi. Cənubdan Tehrana gedən limanlar, avtomobil və dəmir yolları ABŞ-ın nəzarətinə keçmişdi. 1944-cü ildə amerikanlar Təbrizə və Xəzər dənizi limanlarına gedən yolları da öz nəzarətlərinə götürmək istəyirdilər. 1944-cü ilin payızında Tehran, Həmədan, Xorrəmabad, Əhvaz, Abadan, Qəzvin, və digər yerlərdə olan Amerika ordusunun sayı 50.000 əsgər və zabitdən ibarət idi. 1 avqust 1944-cü ildə Amerika ordusunun Tehrandakı paradında şah özü iştirak etmişdi. O, xanımı və hökumət üzvləri ilə birlikdə Əmirabadda Amerika hərbi düşərkəsində olmuşdu.[6] Sovet xüsusi xidmət orqanlarının məlumatına görə ABŞ ordusu Yaxın Şərqə gəldikdə onların qarşısına belə bir vəzifə qoyulmuşdu ki, əgər alman

ordusu Bakı neft mədənlərinə doğru irəliləyərdisə Amerika ordusu təcili Zaqafqaziyaya daxil olmalı və ilk olaraq Abşeron yarımadasını tutmalı idi.[7]

1944-cü ilin axırlarında İrandakı Amerika müşavirlərinin sayı yüzə yaxın idi. Maarif sahəsində işləmək üçüi daha 60 müşavir dəvət edilmişdi. Tehranda Amerika kolleci açılmışdı. İrana gələn Amerika müşavirlorinin əsas vəzifələrindən biri Sovetlərə qarşı durmaq idi. "Nyusvik" jurnalı yazırdı: "Təsir dairəsi uğrunda intriqa aparan Britaniya və Rusiyadan fərqli olaraq ABŞ qəti olaraq İranın müstəqalliyinə tərəfdardır. İran haqqında bəyannamə ABŞ nöqqeyi-nəzərinin qələbəsidir. Bu bəyannamə rusları Fars körfəzinə çıxmaq təhlükəsini aradan qaldırdı".[8] İran müdafiə nazirinin müşaviri Amerika general-mayoru Ridli Məşhəddə olarkən polis və jandarma başçılarına demişdi: Xorasavda çoxlu sovet casusları var, siz onlara qarşı heç bir mübarizə aparmırsınız, Sovet çasuslarına qarşı mübarizəni kücləndirmək lazımdır.[9] Təbrizdə olarkən Ridli göstəriş vermişdi ki, İran ordusu əsgər və zabitləri, habelə və Amerika müşavirləri üçün böyük miqdarda buğda ayrılsın. O, bildirirdi ki, "onsuz da buğdanı ruslar alacaqlar".

1944-cü il ərzində amerikalılar gənc şahı öz tərəflərinə çəkmək üçün bir sıra aldımlar atmışdılar. 1944-cü ilin yayında Məhəmməd Rza Amerika təyyarəsində Tehrandan Abadana getmişdi. Abadanda şaha SSRİ-yə göndərmək üçün təyyarələr yığılan nəhənk emalatxana göstərmişdilər. Amerikanlar vəd etmişdilər ki, bu emalatxana müharibədən sonra İrana veriləcək. "Assoşeyted press"in müxbiri Qermanın iyul ayında şahdan götürdüyü müsahibə Birləşmiş Ştatların mətbuatında şahın ünvanına yazılan komplementlərin müşayiəti ilə dərc edilirdi. 1944-cü ilin sentyabrında Məhəmməd Rza Vaşinqqona dəvət edilmişdi. Lakin atası İohanesburqda vəfat etdiyindən o, bu dəvətdən imtina etmişdi.[10] 1944-cü ilin payızında ruslar İranın Şimal

neftinə konsessiya almaq fikrində idilər, İran hökumətindən xəbərsiz Sovet İqtisadi Komissiyasının Tehrana səfəri gözlənilirdi. İmzalanması nəzərdə tutulan konsessiya müqaviləsinin, gizli protokolun və niyyət protokolunun layihələri hazırlanmışdı. İran neft sənayesi haqqında hazırlanan arayışda göstərilirdi ki, İraqda, Səudi Ərəbistanda və Bəhreyndə ildə beş milyon ton neft çıxarıldığı halda, İranda 16 milyon ton neft çıxarılır.11 İranın neft sənayesi bütövlükdə Britaniya kampaniyalarının nəzarəti altında idi. Abadan və Germanşah neftayırma zavodları bütövlükdə İngilis kapitalı əsasında qurulmuşdu.[12] SSRİ xarici İşlər Komissarlığı Yaxın Şərq şöbəsinin müdiri İvan Sadçikova tapşırılmışdı ki, "İngiltərə - İran Neft Kampaniyası" ilə rəqabətə dözümlü "Sovet - İran Neft Kampaniyasının" müqayisəli təhlilini hazırlasın. Sadçikovun mütəxəssislərlə birgə hazırladığı arayışda İngiltərə-İran kampaniyasına aid müharibə ərəfəsindəki rəqəmlər götürülmüşdü. 8 sentyabrda təqdim edilmiş arayışda göstərilirdi: İngilislər 1938-ci ildə İranda 10.195.000 ton neft çıxarıblar, Bu neftdən gələn 6.109.477 funt sterlinq gəlirin 3.307.479 funt sterlinqi İran hökumətinə veriblər. "Sovİranneft" yaranardısa, hazırlanmış müqavilə layihələrinə görə Şimali İranda şərti olaraq 10.195.000 ton neft çıxarılmalı idi. Bundan gələn 11.418.000 Amerika dolları gəlirin funt sterlinq hesabı ilə 3.933.905 funtu İran hökumətinə verilməli idi. Bu hesablamalara görə Sovet neft konsessiyası, İngiltərə - İran neft kampaniyası ilə müqayisədə 18-19 faiz İran hökuməti üçün sərfəli idi. Arayışın sonunda hesablamaların şərti xarakter daşıdığı qeyd olunurdu.[13]

1944-cü ilin yayında neft məsələsi demək olar ki, İran mətbuatının başlıca mövzusuna çevrilmişdi. "Dəmavənd" qəzeti yazırdı: Təbrizdəki son iğtişaşlar neft məsələsi ilə əlaqəlidir. İran Azərbaycanında Məsul və Kərkuk əraziləri ilə bağlı olan çox zəngin neft ehtiyatları var. Pantürkizm və vahid kürd dövləti

yaratmaq ideyası bu məsələ ilə bilavasitə əlaqəlidir. Ona görə SSRİ, İngiltərə və Türkiyə Azərbaycan məsələsində maraqlıdırlar. Keçmişdə baş vermiş erməni, aysor, kürd məsələsinin köklərini də neft problemində axtarmaq lazımdır. Əgər neft kampaniyalarının təhrikçiliyi olmasaydı, yəqan ki, türklər (yerli əhali nəzərdə tutulur - C.H.) Azərbaycanla bağlı heç bir qələb irəli sürməzdilər.[14] Tehranda çıxan "Fərda" qəzeti də Azərbaycanın neftlə zəngin olduğunu, hətta bir sıra yerlərdə bu neftin torpağın ustünə çıxdığını göstərirdi. Qəzet *dünyanın* məşhur bir iqtisadçısının sözlərinə istinadən deyirdi: hansı ölkənin ki, qara qızılı var, onun sarı qızıl haqqında düşünməyə ehtiyacı yoxdur.[15] "İran ma" qəzeti yazırdı ki, Abadanda Ali Neft məktəbinin tələbələri içərisindən 12 İranlı seçilib ki, Londona oxumağa göndərilsinlər.[16]

Tehranda çıxan "Dariya" qəzeti 17 iyul sayında Sovetlərin almaq istədiyi Şimal nefti konsessiyası ilə bağlı geniş yazı vermişdi. Neft çaxnaşmaları ilə bağlı məsləhətləşmələr aparmaq üçün Londondakı səfir Tağızadə, Moskvadakı səfir AHİ, Qahirədəki səfir Cam eyni vaxtda Tehrana dəvət edilmişdilər. Əhali arasında belə şaiyə gəzirdi ki, guya yeni hökumət təşkil etmək üçün tanınmış səfirləri İrana çağırıblar. Sovetlərin istədiyi Kevir-Xuryan neft yataqlarının ərazisi vaxtilə Nəsrəddin şah tərəfindən bir İranlıya verilmişdi. Sonra həmin İranlı bu ərazini rus təbəəsi olan Xoştariya adlı bir gürcüyə satmışdı. Neft konsessiyası yaratmaqla bağlı Xoştariya bu ərazini İngilis-Amerika kampaniyasına 400.000 funt sterlinqə satmaq istəyəndə rus hökuməti buna etiraz etmişdi.[17] Sovetlər dövründə burada fəaliyyət göstərən "Kevir Xuryan Limited" aksioner cəmiyyəti ilə bağlı İranla 8 iyul 1928-ci il, 7 oktyabr 1929-cu il, 28 avqust 1932-ci il sazişləri imzalanmışdı.[18] Sovetlərin narahatçılığı onunla bağlı idi ki, hələ 1921-ci ildə İran məclisi şimal neftinin "Standart oyl" kampaniyasına konsessiyaya vermək haqda beş bənddən ibarət qərar qəbul etmişdi. Bu qərarı pozmaq

üçün ruslar İranda çox ciddi dəyişiklik etmək məcburiyyətində qalmışdılar. 1944-cü ilin yayında Amerika kampaniyalarının İrana axışması, Tehran mətbuatında Şimal neftinin İngilislərə verilməsi haqda fikirlərin səslənməsi SSRİ-nin narahatçılığını daha da artırdı.

10 sentyabr 1944-cü ildə SSRİ Xalq Xarici İşlər Komissarının müavini S.Kavqaradzenin sədrliyi ilə N.Baybakov, Kumıkin (komissiya üzvləri), N.Heydərov, Y.Dmitrev, M.Korasyov, Kanrodovdan (ekspertlər) ibarət Sovet hökumət komissiyası Tehrana gəldi. Sentyabrın 11-də komissiyanı Baş Nazir Said Tehran yaxınlığındakı villasında qəbul etdi. Öz nitqində o, Sovetlərə şahənşah hökumətinin qarşılıqaı dostluq münasibətlərindən, Kavtaradzenin səfərindən məmnun qaldığını bildirdi. Sonra SSRİ Xarici İşlər Komissarının müavini Baş nazirə təşəkkür etdi və Sovetlər Birliyinə silah, hərbi sursat gətirilməsində İranın rolunu yüksək qiymətləndirdi. O, bildirdi: ölkələrimiz arasında bərqərar olmuş əsl dostluq sonrakı siyasi, ittisadi və mədəni əlaqələrimizin genişlənməsi üçün yaxşı bünövrədir. Kavtaradze İran hökumətinin ölkədə nüfuzunu qaldırmaq üçün üç tərəfli sazişlərə uyqun olaraq müttəfiq ordularının İrandan vaxtında çıxarılmasının zəruriliyini qeyd etdi.[19] Danışıqlar zamanı Sovet tərəfi səfərin əsas məqsədinin İranın Şimalındakı neft mənbələri ilə tanış olmaq, "Sovet-İran Neft" Birliyinin konsessiya müqavilələrini imzalamaq olduğunu elan etdi. Baş nazir Said Komissiyaya bütün vasitələrlə köməklik edəcəyini bildirdi.[20] Sentyabrın 16-da Kavtaradze Tehrandakı səfir M.Maksimovun müşayiəti ilə Saadabad sarayına getdi və Məhəmməd Rza şahla görüşdü.[21] Sentyabrın 17-dən 23-nə qədər komissiya tam heyətdə Sovet səfirliyinin müşaviri Ə.Yaqubovun müşayiəti ilə Şimal vilayətinə səfər etdi. Semnan, Mazandaran, Gilan, Qorqanda Kevir-Xuryan aksioner cəmiyyətinin kəşfiyyat işləri ilə, palçıq vulkanı ilə, Türkmən çölündəki neft mənbələri ilə Komissiya

yaxından tanış oldu. Daha sonra bir neçə gün N.Heydərov və Y.Dmitrev Güney Azərbaycanda - Ərdəbil, Təbriz, Urmiyə və Miano yaxınlıqında bəzi yerlərə baxdılar, qalan komissiya üzvləri isə Tehrana qayıtdı.

Komissiyanın qənaətinə görə ilk işlər Mazandaranda başlamalı idi. Neftlə zəngin olan Sari-Şahi rayonu Xəzər dənizindən 40 km. cənubda yerləşirdi və qazma işləri aparmaq üçün əlverişli idi. İkinci perspektivli rayon Qorqan hesab edilirdi. Semnanda isə qazma işlərinin aparılmasının bir sıra çətinlikləri olduğu qeyd edilirdi. Gilan və Azərbaycanda hələ geoloji-kəşfiyyat işlərinin aparılması məsləhət bilinirdi.[22]

Sentyabr ayının 25-də Komissiyanın Şimali İranda - Semnan, Qorqan, Mazandaran, Gilan və Azərbaycanda neft konsessiyası haqqında təklifləri və Şimal neftivdən SSRİ-yə istifadə etmək hüququ verilməsi barədə Sovet hökumətinin notası Baş nazir Saidə təqdim edildi. Sovetlərin neft tələbi Tehran mətbuatının başlıca mövzusuna çevrilmişdi. Danışıqların ilk dövründə qəzetlər Şimal neftinin Sovet İttifaqına Konsessiyaya verilməsinə müsbət yanaşırdı. "Rəstaxiz" qəzetinin fikrincə, hökumət İran neftinin xaricilərə konsessiyaya verilməsinin əleyhinə deyildi. Qəzet yazırdı: bu məsələyə beynəlxalq siyasət nöqteyi-nəzərindən yanaşaraq belə nəticəyə gəlirik ki, əgər biz cənub neft mənbələrini İngiltərəyə konsessiyaya vermişiksə, şübhə yoxdur ki, o biri qonşumuz istisna edilə bilməz. Heç bir əsas yoxdur ki, Şimal qonşumuza, eyni zamanda Amerikaya konsesiyadan imtina edilsin.[23]

Sovet iqtisadi komissiyasının İran hökumətinə təqdim etdiyi "Konsessiya müqaviləsi" 22 maddədən ibarət idi. Müqavilədə göstərilirdi: "Sovİranneft" Birliyi Konsessiya ərazisində neft, təbiй qaz və digər məhsulların axtarışı və çıxarılmasında, onların təmizlənməsində, nəqlində, İranda və ondan kənarda satılmasında müstəsna hüuqlara malikdir. Konsessiyanın ərazisi xəritədə müəyyən olunmalı və həmin xəritə hər iki dövlət tərifindən imzalanmalı və müqavilənin

ayrılmaz hissəsinə çevrilməli idi. Müqavilə qüvvəyə mindiyi andan 60 il müddətinə imzalanırdı və 40 ildən tez pozula bilməzdi. Müqavilə birtərəfli qaydada İran hökuməti tərəfindən ləğv edilə bilməzdi, onun maddələri gələcəkdə qəbul olunan hər hansı qanun və ya aktla dəyişdirilə bilməzdi. Tərəflər arasında yarana biləcək münaqişə hər iki tərəfdən iki nəfər olmaqla bərabər Komissiyada həll edilməli idi. Əgər bu mümkün olmazdısa fikir ayrılıqları SSRİ ilə İran arasında diplomatik qaydada həll edilməli idi. Müqavilə Məclis tərəfindən qəbul edildikdən və şah tərəfindən imzalandıqdan sonra qüvvəyə minməli idi.[24] Müqavilə ilə bərabər "Kevir Xuryan Limited" aksioner cəmiyyəti haqqında gizli protokol da İran hökumətinə verilmişdi. Gizli protokolda aksioner cəmiyyətlə bağlı əvvəllər iki dövlət arasında imzalanmış 8 iyul 1928-ci il, 7 oktyabr 1929-cu il, 28 avqust 1932-ci il tarixli sazişlərin öz hüquqi qüvvəsini itirdiyi bildirilirdi. Bununla da "Kevir Xuryan Limited" aksioner cəmiyyəti öz nizamnaməsi çərçivəsində ləğv edilirdi. Gizli protokol, konsessiya müqaviləsi Məclis tərəfindən müdafiə edilib, şah tərəfindən imzalandıqdan sonra qüvvəyə minə bilərdi.[25] Üçüncü sənəd isə 4 bənddən ibarət olan niyyət protokolu idi. Niyyət protokoluna görə "Sovİranneft" Moskvada təşkil olunmalı, 60 il müddətinə Şimali İranda neft kəşfiyyatı və çıxarılması ilə məşğul olub istehsal münasibətlərinin inkişafına yardım göstərməli idi.[26] Baş nazir Məhəmməd Said söz verdi ki, İran hökuməti konsessiya müqaviləsini tam müdafiə edəcək və o, müqaviləni Məclisdən keçirəcək. İran hökuməti, tanınmış siyasi xadimlər və Məclisin deputatları ilə əlaqə yaratmaq məqsədilə Tehrandakı Sovet səfirliyi iki tədbir keçirdi. Sovet hökumət komissiyasının Tehrana gəlişi ilə bağlı nazirlər, depuatlar və nüfuzlu siyasətçilər SSRİ səfirliyinə dəvət edildilər. Dəvətlilərin şoferinə ziyafət verildi və kokteyl təşkil edildi. İran hökuməti və Xarici İşlər Nazirliyi də Sovet nümayəndə Heyətiйn şərəfinə

ziyafət verdi. Sentyabrın son günlərində Kavtaradze yenidən şahla görüşdü. "Ettelavt" qəzetinin redaktoru Məsudi Kavtaradze ilə müsahibə alardı. SSRİ Xarici İşlər Komissarının müavini "Ettelavt" qəzeti üçün müsahibəsində deyirdi: "Mən "Kevir-Xuryan" cəmiyyətinin vəziyyətini və Şimali İranın təbiй sərvətlərini öyrənən komissiyanın başçısı olaraq İrana gəlmişəm. Bu iş hələ Moskvada başlanmışdı və mənimlə bura gəlmiş tanınmış geoloqların köməyi ilə başa çatdırılmışdı. Sovet iqtisadi komissiyası bizi maraqlandİran yerlərdə oldu və bir sıra coğrafi, texniki iqtisadi göstəriciləri öyrəndilər. İşin nəticələrini mən öz hökumətimə məruzə etdim. Sovet hökuməti mənim başçılıq etdiyim komissiyaya səlahiyyət vermişdir ki, İranın şimalında neft kəşfiyyatı və çıxarılması ilə bağlı SSRİ-yə konsessiya verilməsi təkliflərini İran hökumətinə təqdim etdim. Sovet hökuməti belə hesab edir ki, Şimali İranın təbiй ehtiyatları, İran fəhlələrinin, ziyalılarının əməyi və güclü, mükəmməl Sovet texnikası ilə birləşərsə, hər iki tərəf üçün fərəhli nəticələr verər, İranın Şimalının sənayeləşməsinin bünövrəsi qoyular... Mən bu məsələ ilə bağlı iki dəfə əlahəzrət şahla və bir neçə dəfə cənab Baş nazirlə görüşmüşəm. Ümidvaram ki, hər iki tərəf üçün faydalı olan bu böyük işin bünövrəsini qoymaq mümkün olacaq".[27]

Artıq oktyabrın ilk günlərində hökumət dairələrinə yaxın olan mətbuat orqanları Sovetlərə konsessiya verilməsi əleyhinə yazılar verməyə başlamışdılar. "Vəzifə" qəzeti 3 oktyabr sayında yazırdı: "Müttəfiq qoşunlarının ölkədə olduğu hərbi dövrdə hüquqi cəhətdən hökumət konsessiya haqqında müqavilə imzalamağa səlahiyyətli deyildir".[28] Oktyabrın 4-də həmin qəzetdə Məhəmməd Saidə və Kabinetin digər üzvlərinə müraciət verilmişdi ki, neft konsessiyaları haqda məsələ hərbi əməliyyatlar başa çatana qədər təxirə salınsın. "Əxtər" qəzetində gedən "Bizim nefti əldən buraxmayın" adlı yazıda müharibə dövründə hər hansı

xarici dövlətə neft konsessiyası verilməsi xəyanət hesab edilirdi. Qəzet yazırdı: "Hətta konsessiya məclisdə təsdiq edilsə də İran xalqı onu qeyri-qanuni hesab edəcək. Bizim əzabkeş xalqımız özünə haqq verəcək ki, təbiй sərvətlərini öz əlinə alsın... İran nefti İran xalqına məxsusdur".[29]

"Rəstaxiz" qəzetində isə sentyabrın 27-də dərc olunan məqalə həmin qəzetdə iki gün əvvəl dərc edilmiş yazının tam əksini təşkil edirdi. Neft konsessiyası ilə bağlı hökumətin çıxılmaz vəziyyətə düşdüyünü xatırladaraq qəzet bildirirdi: "Bizə belə gəlir ki, daha əlverişli məqama qədər hökumət yeni konsessiyalar verilməsini təxirə salmalıdır. Cənub neftinin Amerikaya, Şimal neftinin Rusiyaya verilməsi məsələsi gündəlikdə durduğu hazırki anda bizim hökumətdən tələb etməyə haqqımız var ki, o sazişləri gözü bağlı imzalamasın. Böyük dövlətlərin siyasəti aydınlaşana qədər biz heç bir qərar qəbul etməməliyik ki, ölkəmiz yenidən beynəlxalq qarşıdurmanın meydanına çevrşşəsin".[30]

Sovet təkliflərinin İranhökumətinə verilməsindən xeyli keçməsinə baxmayaraq Baş nazir Məhəmməd Said cavab verməyi müxtəlif bəhanələrlə yubadırdı. Oktyabrın 2-də Said Sovet təkliflərini kabinetin qapalı müzakirəsinə qoydu. Kəmin axşam Said bəyanat verdi ki, vəziyyət mürəkkəb olduğundan kabinetin iclasında heç bir qərar qəbul edilmədi. Halbuki Nazirlər Kabinetinin iclasında qərar qəbul edilmişdi ki, neft konsessiyalarının verilməsi müharibə qurtarana qədər təxirə sadınsın.[31] Baş nazir istəmirdi ki, Sovet hökumət komissiyası Tehranda olarkən bu qərarı elan etsin. Lakin heç kəsə məlum deyildi ki, sentyabrın 10-da İrana gələn SSRİ nümayəndələri nə zaman Moskvaya qayıdacaqlar. Tehranda olan Sovet hökumət komissiyasına məlumat vermədən oktyabrın 5-də hökumətin və Məclisin birgə qapalı iclası keçirildi. İclasda Kavtaradzenin Saidə təqdim etdiyi təkliflər müzakirə edildi. Sovet idarələrinə məlum oldu ki, müzakirələr elə də yaxşı şəraitdə keçməyib. Oktyabrın 9-da Məclisin qapalı

iclası keçirildi və Baş nazir hökumətin Sovet təkliflərinin əleyhinə olması barədə geniş rəsmi bəyanatı ilə çıxış etdi.

Tehranda olan Sovet hökumət komissiyası öz təkliflərinə rəsmi cavab almadıqları üçün Baş nazirdən tələb etdilər ki, onları qəbul etsin. Oktyabrın 11-də Kavtaradze, Baybakov vo Kumıkin Məhəmməd Saidlə görüşdülər. Artıq səbri dükənmiş Kavtaradze Baş nazirdən qəti cavab tələb etdi. Said etiraf etdi ki, müharibə qurtarana qədər İran hökuməti Sovetlərə konsessiya verməyəcəkdir. Səfərin yekunları barədə M.C.Bağırova hesabat hazırlamış Azneftin rəhbərləri yazırdılar: "Sovet İttifaqının hökumət komissiyasına münasibətdə Baş nazir Said özünü nəzakətsiz apardı və ikibaşlı oyun oynadı. O, sözdə hərtərəfli yardım göstərəcəyini vəd etsə də, işdə bizim təkliflərimizi pozdu".[32] Oktyabrın 23-də Kavtaradze Məhəmməd Rza şaha bildirdi ki, artıq Said hökuməti ilə əməkdaşlığı davam etdirmək mümkün deyil. Lakin məlum oldu ki, şah da bu məsələdə Baş naziri müdafiə edir. Sovet nümayəndələrinin fikrincə, İran hökumətinin belə hərəkəti ingilislərin onlara təsiri ilə bağlı idi. İngilislər öz adamları vasitəsi ilə belə bir təbliğat aparırdılar ki, Sovet hökumətinin məqsədi neft almaq olmayıb İranın Şimal vilayətlərini ələ keçirməkdir. Ona görə ingilislər məsləhət verirdilər ki, İran öz neftini hökumətə deyil (Sovet hökuməti nəzərdə tutulurdu - Ç.H.), xüsusi kampaniyalara verməlidir.[33] Sovet xüsusi idarələrinin məlumatına görə İran məclisinin 112 deputatından 90 nəfəri, kabinetin 11 üzvündən 9-u ingilislərə tərəfdar idi. Danışıqlar getdiyi dövrdə Tehrandakı Britaniya səfirliyinin mətbuat katibi xanım Lamiton qəzet redaktorlarını yanına dəvət edib onlara müəyyən təlimatlar vermişdi. "İrani ma" 11 oktyabr sayında "Said və İranın Şimal neftinin problemi" adlı geniş məqalə dərc etdiyindən qəzetin redaktoru İngilis səfirliyinə xüsusi söhbətə çağırılmışdı. "Setare", "Baxtər", "Kuşeş", "Dad",

Rəhbər" və digər qəzetlər Şimal Nefti Konsessiyası ilə bağlı oktyabrın sonuncu ongünlüyündə geniş yazılar vermişdilər. "Setare" qəzetinin redaktoru Baş nazirlə görüş zamanı Sovet hökumət komissiyasının İrana səfəri haqda onda qabaqcadan məlumat olub-olmadığını soruşduqda Said bu səfərdən onun məlumatı olmadığını bildirmişdi.[34] İran hökumətinin başçısı mətbuatı və ölkə ictimaiyyətini inandırmağa çalışırdı ki, guya SSRİ-yə neft konsessiyası verilməkdən imtina edilməsi Sovet-İran münasibətlərini pisləşdirməyəçəkdir. Baş nazirin özünə və ölkəyə təskinlik verməsinə baxmayaraq Sovet hökumət komissiyası hələ Tehranda ikən onun yerinə namizəd axtarışına başlamışdı. Namizəd isə özü öz ayağı ilə gəlmişdi. Tehranda danışıqların getdiyi bir vaxtda Qəvam-əs-Səltənə gizli şəkildə Sovet hökumət komissiyasının üzvü, SSRİ neft sənayesi komissarının müavini Nikolay Baybakovla görüşüb Məhəmməd Saidin onları aldatdığını və Sovetlərə neft verməyəcəyini anlatmışdı. Əhməd Qəvam vəd vermişdi ki, əgər o, hökumət kabinəsinə rəhbərlik etsə Sovetləril təkliflərini həyata keçirəcəkdir.[35] Bir aydan artıq sürən danışıqlar hsç bir nəticə vermədiyindən oktyabrın 25-də Sovet hökumət Komissiyası Tehrandan Moskvaya qayıtdı. Bu səfər Nikolay Baybakova düşdü. O, Tshrandan qayıdandan bir neçə gün sonra noyabr ayında 33 yaşında ikən SSRİ neft sənayesi Komissarı təyin edildi. Sovet Neft Krnsessiyasının əleyhinə çıxmaq Məhəmməd Said Marağayiyə baha başa gəldi. 1944-cü ilin noyabr ayının 9-da Sovet nümayəndələri Moskvaya qayıtdıqdan iki həftə sonra o, istefa ərizəsini şaha təqdim etdi. Amma Qəvam əs-Səltənə isə 1946-cı ilin yanvarına qədər gözləməli oldu...

## IX. Güney Azərbaycanda etiraz dalğası və Tehranda hökumət böhranı

Sovet hökumət komissiyası hələ Tehranda ikən İrandakı SSRİ hərbi, diplomatik və xüsusi idarələrinə Said hökumətini yıxmaq barədə təlimat verildi. Təlimatda göstəriddi ki, Baş naziri təcrid etmək üçün bütün diplomatik danışıqlar onun müavini, ayrı-ayrı nazirlərlə aparılmalıdır. Güney Azərbaycan başlıca kənd təsərrüfatı regionu olduğundan göstəriş verildi ki, Azərbaycandan Tehrana aparılan ərzaq məhsulları üzərində məhdudiyyət qoyulsun. Hətta Tehrana göndərilən 150 vaqon ərzaq təcili olaraq yolda dayandırıldı. Sovet idarələrinə tapşırıq verildi ki, hərbi yüklər istisna olmaqla Tehran istiqamətinə yük qatarları göndərməsinlər. Paytaxtla ölkənin şimalı arasında teleqraf əlaqələrinin kəsilməsi hökumət dairələri və tacirlər arasında çaxnaşma yaratdı. Sovet Komissiyasının Moskvaya dönüşü ərəfəsində SSRİ hərbi hissələrinin motomexaniki polklarından biri nümayişkaranə şəkildə Tehranın küçələrindən keçdi. İran hökumətinin Şimal vilayətlərində və Kürdüstanda hərbi qarnizonların sayını artırmaq cəhdlərişş qarşısı alındı. İran ordusunun şimal istiqamətində hər hansı hərəkətinə qadağanlıq qoyuldu. İran hökumətindən tələb edildi ki, həbs olunmuş beş nəfər müsavatçını Sovet idarələrinə versinlər. Güney Azərbaycan şəhərlərində, Gilanda və digər yerlərdəki Sovet Konsul İdarələri başçılarının müşavirəsi keçirildi. Onlara tapşırıq verildi ki, əhalinin sovet təkliflərini müdafiə edən nümayişləri təşkil olunsun, İran hökumətinin siyasətindən narazılıq ifadə edən teleqramlar vurulsun.[1]

Sovet hökumət Komissiyası Tehrandan yola düşən gün oktyabrın 25-də artıq Təbrizdə Said Hökuməti əleyhinə mitinq və nümayişlər başlanmışdı. Oktyabrın 26-27-də bu nümayişlər daha da genişləndi. 27 oktyabrda Gülüstan bağında və Ali qapı meydanındakı mitinqlərdə

iştirakçıların sayı 12 min nəfərə çatmışdı. 30 oktyabrda Təbrizdo Said hökuməti əleyhinə yönəlmiş mitinqdə 40 mindən çox adam iştirak etmişdi. Məsələ o qədər gərgin xarakter aldı ki, Azərbaycandakı İran Ordusunun komandanı general Xosrovani nümayişçilərə atəş açmaq əmri verdi. Atəş nəticəsində 1 nəfər öldü və 3 nəfər yaralandı. Oktyabrın 31-də ölmüş nümayişçinin dəfnində 50 min təbrizli iştirak edirdi. Dəfn mərasimində Səttarxanın qardaşı Hacı Əzim xan çıxış etdi. 29 oktyabrda Tehranda təşkil olunmuş mitinqdə 40 min. bir gün əvvəl Rezayedəki mitinqdə 3 min, Məşhəddəki mitinqdə 6 min, noyabrın 1-də Ərdəbildəki mitinqdə 6 min, Sərabdakı mitinqdə 6 min, Qəzvivdəki mitinqdə 3 min adam iştirak edirdi.[2] Mitinq və nümayişlərdo kütləvi şəkildə Stalinin prioritretləri peyda olmuşdu, 5 gün ərzində Azərbaycanda mitinqlərdə 70 min adam iştirak etmişdi. Mitinqçilər adından şaha və məclisə hər gün teleqramlar vurulurdu ki, Said və onun nazirləri cinayətə cəlb olunmalıdır. Seyid Ziya ölkədən qovulmalıdır. Təbrizdəki mitinqdə çıxış edən Məhəmməd Biriya bildirmişdi ki, əgər mərkəzi hökumət xalqın tələbini yerinə yetirməsə Azərbaycanda hakimiyyətin başında durub, Tehrandan asılı olmadan onu idarə etməyə layiq adamlar tapılacaq. Mitinqdən elə bu məzmukda da Tehrana teleqram göndərilmişdi.[3] Təbrizdəki vitse-konsul H.Həsənov M.C.Bağırova göndərdiyi arayışda yazırdı ki, Sovet İttifaqına neft konsessiyası vsrilməsi ilə bağlı Azərbaycanda keçirilən mitinq və nümayişlər bizim işçilərin yaxından iştirakı ilə təşkil olunur.[4] Diplomatik işçilərlə yanaşı hərbi komendantlar da Güney Azərbaycanda mitinqlər dalğasının təşkil olunmasında fəallıq göstərirdilər. Xoy şəhərinin komendantı C.Mikayılov, Makudakı vitse-konsul M.Mustafayev, Konsulluğun katibi B.Seyidzado Maku, Xoy, Urmiyədəki mitinqlərin təşkilində müxtəlif yaşlarla iştirak edirdilər. Savd hökumətinə qarşı Makuda keçirilən mitinq və nümayişlər haqqında M.Mustafayev və B.Seyidzadə SSRİ Xarici İşlər

Komissarlığına 21 noyabr 1944-cü ildə geniş məlumat göndərmişdilər. Eyni zamanda onların 15 yanvar 1945-ci ildə M.C.Bağırova göndərdikləri "Maku Konsul dairəsi üzrə 1944-cü il üçün siyasi-iqtisadi hesabatın 18-ci bölməsi "Said kabineti əleyhinə kampaniyalar" adlanırdı.[5] Makudakı mitinqlərdən şaha göndərilən telefonda tələb olunurdu: 1. Xalqa qarşı xəyanətkar siyasətinə görə Said və onun əlaltıları məhkəməyə verilsin; 2. İran əleyhinə düşmənçilik fəaliyyətinə görə Seyid Ziya ölkədən sürgün edilsin; 3. İran xalqının mənafeyinə uyğun siyasət yeridən, Sovet və İran xalqları arasında dostluğu möhkəmləndirən, SSRİ-yə neft konsessiyası verilməsini müsbət həll edən hökumət yaradılsın.[6] Hətta noyabrın 1-də Makunun Teymuri və Bayat Maku familiyasından olan Xanları Sovet Konsulluğuna yazırdılar: Saidin düşmən münasibətinin əleyhinə olaraq onlar SSRİ ilə öz həmrəyliklərini nümayiş etdirmək üçün Qızıl Ordu fonduna 250 min rial vəsait keçirirlər. Bu məlumat "Duste-İran", "Ettelaat", "İrane ma" qəzetlərində də getmişdi.[7]

Rezayedəki mitinqlərdə komendant Səfərov, Miandubdakı mitinqlərdə komendant Namaz Əliyev, Mianədəki mitinqlərdə komendant Məhərrəmov, habelə Mərənddə, Culfada, Marağada və digər şəhərlərdəki mitinq və nümayişlərdə Sovet hərbi, diplomatik idarələrişş işçiləri bilavasitə iştirak edirdilər. Sovet orqanlarının bu prosesdə fəallığına baxmayaraq yerli əhalinin İran hakimiyyət dairələrindən narazılığı və azadlıq meyli, milli hisslərin baş qaldırması mitiş və nümayişləriй kütləvi xarakter almasında başlıca rol oynamışdı. Oktyabr-noyabrdakı etiraz dalğasının səciyyəvi cəhətlərindən biri də Azərbaycan kəndlilərinin siyasi fəallığılın yüksəlməsi idi. Marağanın keçmiş şəhridarı Kəbiri Təbrizdəki vitse-konsul ilə görüşündə demişdi: əhalinin böyük əksəriyyətini təşkil edən Azərbaycan kəndliləri Sovet İttifaqının hər hansı təklifini müdafiə etməyə hazırdır. Əgər söhbət Azərbaycanın

ayrılıb Sovet İttifaqının himayəsi ilə müstəqil dövlət olmasından getsə, Azərbaycan kəndliləri bu tədbiri ürəkdən müdafiə edəcəklər. Əgər söhbət Quzey və Güney Azərbaycanın birləşməsindən getsə, bu təklif Azərbaycan əhalisinin böyük əksəriyyəti tərəfindən müdafiə ediləcəkdir.[8]

Azərbaycanda Said hökumətinə qarşı etiraz dalğasının kütləvi xarakter alması[9] nəinki İran hakimiyyət dairələrini, eyni zamanda ingilisləri də ciddi narahat etməyə başlamışdı. İngilislər Azərbaycanın ayrılıb müstəqil dövlət olması, yaxud Sovet Azərbaycanına birləşməsi fikrindən bərk həyəcanlanmışdalar. Onlar öz adamları vasitəsi ilə bu ideyanın nə dərəcədə gerçək olduğunu və Güneydəki Sovet işçilərinin bu fikrə münasibətini öyrənməyə çalışırdılar. Bəzən ingilislər ictimai rəyi öyrənmək üçün müəyyən şayələr də buraxırdılar. Məsələn, Təbrizdəki Britaniya konsulu Uoll ostandar Dadvər ilə söhbətində bildirmişdi ki, ruslar kürdlərin başçılarını çağırıb onları Bakıya göndərirlər.[10] İngilis konsulu bu məsələdə bir qədər səhv edirdi. 1944-cü ilin yayıpdan başlayaraq kürdlərə Sovetlərin münasibəti əsasən dəyişməyə başlamışdı. Makudakı SSRİ vitse-konsulu Xalq Xarici İşlor Komissarlığına göndərdiyi 21 noyabr 1944-cü il tarixli məlumatda yazırdı: Məlum olduğu kimi bizim tərəfimizdən keçirilən tədbirlərə kürdlər cəlb edilmədilər. Törətdikləri xuldurluq və soyğunçuluq hərəkətlərinə görə onların nə əhali arasında, nə də hökumət qarşısında elə bir nüfuzu qalmamışdır ki, bu hadisələrə hər hansı təsir göstərsinlər. Ona görə təbiй olaraq son hadisələrdə daha çox mütərəqti və demokratik qüvvə olub siyasi vəziyyətə təsir göstərə bilən, bizim mənafeyimizlə bağlı real dəyişiklik edə bilən Azərbaycan əhalisinə arxalanırıq.[11]

Azərbaycandakı hadisələrdən təşvişə düşən Tehranın mürtəce mətbuatı belə bir kampaniya qaldırmışdı ki, guya Azərbaycandakı bir sıra tayfalar

cənubi İrana köçmək istəyirlər. Tehranda çıxan "Nəsime Şimal" qəzetində dərc olunan məqalədə göstərilirdi ki, guya şahsevən tayfaların başçıları şahdan xahiş edirlər ki, onların İranın cənubda yerləşdirilməsi məsələsini həll etsin.[12] Bu Tehranın siyasi dairələrinin müxtəlif məqsədlər üçün uydurduqları təxribat idi. Bununla ictimai rəyə təsir göstərmək istəyirdilər ki, İranın imkanlı adamları Sovet vdarələri tərəfindən təqab olunur. Halbuki Güney türklərini narazı edən, onları küçələrə çıxmağa vadar edən məsələlərdən ən başlıcası şah hökumətinin Azərbaycana ögey münasibəti idi. Üçüncü ostanın başçısı, şahın Azərbaycanda canisini olan Dadvər etiraf etməyə məcbur olmuşdu ki, mərkəzi hakimiyyət Azərbaycana heç bir diqtət yetirmir. Azərbaycana baxımsızlıq özünü maarif sahəsində daha qabarıq göstərirdi. Əhalisi 300 min olan Qaradağ vilayətinin Mərkəzi Əhərdə cəmi 2 məktəbi var idi. Ən qabaqçıl sayılan Təbriz vilayətində şəhər özü də daxil olmaqla 60 məktəb, 2 pedaqoji texnikum var idi. Bu təhsil müəssisələrində də comisi 15326 uşaq oxuyurdu. Bütün məktəblərdə dərslər yalnız fars dilində keçilirdi. Təbriz məktəblərinin direktorlarından olan Əgər bu məsələyə toxunaraq qeyd edirdi ki, fars dili azərbaycanlılar üçün xarici dil hesab olunur, çünki bütün uşaqlar evdə öz doğma ana dilində, türk dilində danışırlar, ona görə də fars dilində keçirilən proqramı pis mənimsəyirlər.[13] Azərbaycanın mütərəqqi adamları ölkənin qurtuluşu üçün müxtəlif yollar düşünürdülər. Onlar parlament mübarizəsinin elə bir şey verməyəçəyini qeyd edirdilər. 3-cü ostanın baytarlıq idarəsinin rəisi doktor Mehtaş bildirirdi: o, adamlar ki, xalqı soyur, ölkəni xarici dövlətlərə satıblar, indi vətənin müstəqilliyi haqqında qışqırırlar. Hansı vətəndən söhbət gedir - məlum deyil. Azadlığı olmayan, əhalisi hüquqsuz olan, milləti acından qırılan ölkəni necə Vətən adlandırmaq olar? Azərbaycanın yeganə qurtuluş yolu xalqın silahlı çıxışıdır. Qan tökmədən

Azərbaycanın əsl azadlığına, müstəqilliyinə nail olmaq qeyri-mümkündür. Belə bir fikri Qaradağdan olan İran ordusunui polkovniki Neysəri də müdafiə edirdi.[14]

Xoyda Xalq Partiyasının sodri Nurullaxan Ekani qeyd edirdi ki, İranda 8 milyon azərbaycanlı yaşayır. İran hakimiyyəti neçə əsrdir ki, güclü şəkildə Azərbaycan əhalisini farslaşdırmağa çalışır. Türk dilinin ağır formada təqib olunmasına baxmayaraq indiyə qədər Azərbaycan əhalisini assimilyasiya etmək mümkün olmayıb. Hər bir azərbaycanlı hansı dildə oxumasından asşş olmayaraq evdə və dostları arasında türk dilində danışır. 8 milyonluq xalqı öz ana dilindən məhrum etmək olmaz.15 Azərbaycana ogey münasibət, onun dilinin, mədəniyyətinin təqib edilməsi, hüquqsuzluq, aclıq və yoxsulluq ziddiyyətləri son həddə çatdırılmışdı. Bütün bunlar Güneydə əhali arasında Sovet təbliğatı üçün əlverişli şərait yaradırdı. Oktyabr inqilabının 27-ci ildönümü ilə bağlı noyabrın 6-7-də Təbrizdə və digər şəhərlərdə keçirilən mitinqlər Said hökumətinə vurulan sonuncu zərbələr oldu. Təkcə Təbrizdəki 7 noyabr nümayişində 30 mindən artıq adam iştirak etmişdi.

Noyabr ayının 9-da Məhəmməd Said şaha istefa ərizəsini təqdim etdi və onun hökuməti istefaya getmək məcburiyyətində qaldı. Lakin bundan sonra da mitinq və nümayişlər dalğası aşağı düşmədi. Əgər əvvəllər nümayişçilər Said hökumətinin istefasını və Sovet İttifaqana neft konsessiyası verilməsini tələb edirdilərsə hökumətin istefasından sonra Məhəmməd Saidin və bir sıra nazirlərin məhkəməyə verilməsini, Sovetlərə dost olan hökumətin qurulmasını, Seyid Ziyanın ölkədən qovulmasını tələb edirdilər.

İranda yeni hökumət kabinəsinin qurulması iki həftə çəkdi. Noyabr ayının 17-də kəşfiyyat orqanları M.C.Bağırova məlumat verirdi ki, yeni hökumət kabinetini Əhməd Qəvamın qurması gözlənilir. O, İrandakı ingilis və Sovet səfirləri ilə görüşmüşdür. Xarici işlər naziri vəzifəsinə namizədlərdən biri Moskvadakı səfir AHİ Tehrana çağırılmışdır.[16] Lakin

noyabr ayının 20-də Məclisin qapalı iclasında yeni kabinetin başçılığına Mürtəzaqulu Bayatın namşədliyi irəli sürüldü. Noyabrın 25-də M.Bayat Nazirlər kabinetinin tərkibini elan etdi. Şahın razılığı ilə məclis 26-27 noyabr iclaslarında yeni hökumətin tərkibini təsdiq etdi. Bayat Mürtəzaqulu (Səham əs-Səltonə) baş nazir, Rəis Möhsün Xarici İşlər naziri, Ədl Mustafa (Mansur əs-Səltənə) ədliyyə naziri, Mapek Seid (Loğman ol-Mülk) səhiyyə naziri, İbrahim Zənd hərbi nazir, Əmənulla Ərdalan maliyyə naziri, Soruri Daxili İşlər aaziri, hidayət (Naser ol-Mülk) sənaye və ticarət naziri, Nadir Mirzə Arəstə poçt və teleqraf naziri, Sadıx İsa maarif naziri, Nəsrulla Entezam yollar naziri, Fəhim ol-Mülk və Əli Əkbər Siyasi portfelsiz nazir vəzifələrini tutdular.[17] Yeni qurulan hökumət Sovetlərin ümidlərini doğrultmadı. SSRİ xüsusi xidmət idarələrinin məlumatına görə Bayat kabinetinin üzvlərinin çoxu Seyid Ziyanın dostları olub ingilislərə tərəfdar idilər. Baş nazir Səham əs-Səltənənin iri torpaq mülkləri vardı. Azərbaycanın Maku vilayətinin əsilzadələrindən idi. Son bir neçə çağırış İran məclisi sədrinin dəyişməz müavini olmuşdu, 1943-cü ildə Soheyli hökumətində maliyyə naziri, Said kabinetində portfelsiz nazir vəzifəsində işləmişdi. Rza şah tərəfdarı idi. 1941-ci ilin şəhrivər hadisələrindən sonra "Ettihade Milli" (Milli Birlik) partiyasını yaraqmışdı. Lakin partiya kütləviləşmədi.

Xarici İşlər naziri Rəis Möhsün diplomat idi. 1935-37-ci illərdə Almaniyada, 1940-cı ildə Yuqoslaviyada, 1941-ci ildə "Vişi hökumətində" (Fransa) səfir işləmişdi. Hələ o, Əhməd Qəvam hökumətində poçt teleqraf naziri işləyəndə, 23 yanvar 1943-cü ildə Roma radiosu belə bir məlumat vermişdi: "Yeni poçt-teleqraf naziri Rəis Möhsün rusların qatı düşməni kimi tanınır... Biz ümid edirik ki, o, anqlo-saksların əlində alətə çevriləcəkdir".[18]

Ədliyyə naziri Mansur əs-Səltənə beynəlxalq hüquq üzrə tanınmış mütəxəssis idi. Tehran universitetinin hüquq fakültəsinin dekanı işləmişdi. 1935-38-ci illərdə xarici işlər nazirinin müavini, İranın Millətlər Cəmiyyətində nümayəndəsi, Foruqi və Söheyli hökumətlərində maarif naziri işləmişdi. 1937-ci ildə Sovetlərlə yaranmış sərhəd münaqişəsinin tərədicisi, Pəhləvi limanı haqqında 1927-ci il öhdəliyinin pozulmasının tərəfdarı kimi tanınırdı. 1930-cu illərdə İran hökuməti Araz çayı boyunca mübahisəli hesab etdiyi 11 kiçik torpaq sahəsini qaytarmağa cəhd göstərmişdi. Aşqabad şəhərindən 35 km. cənubda yerləşen Firuzə yaşayış məntəqəsi isə daimi olaraq Sovetlərlə İran arasında mübahisəli əraziyə çevrilmişdi.[20]

Sovetlər üçün ən maraqlı adam hərbi nazir İbrahim Zənd idi. O, vaxtilə Tiflisdə xidmət edən İran Xarici İşlər Nazirliyinin çinovniki Tağı xanın ailəsində, 1903-cü ildə doğulmuşdu. Hərbi təhsilini Rusiyada almışdı. Bakıda Azərbaycan milli hökuməti dövründə işləmişdi. Hətta Sovet hakimiyyətinin ilk illərində Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığında məsul vəzifə tutmuşdu. Zənd 1921-ci ildə Tehrana getmiş, İran Xarici İşlər Nazirliyində tərcümə bürosuna başçılıq etmişdi. 1924-cü ildə Muğana sərhəd məsələləri ilə bağlı göndərilən komissiyaya tərcüməçilik etmişdi. 1925-ci ildə şahın yaxın silahdaşı Teymurtaşla birlikdə Sovet-İran danışıqlarını aparmaq üçün Moskvaya gəlmişdi. 20-30-cu illərdə Ədliyyə Nazirliyində və Milli Bankda rəhbər vəzifələrdə çalışmışdı. 1940-cı ildə briqada generalı, 1944-cü ildə diviziya generalı hərbi rütbəsi almışdı. 1941-ci ildən başlayaraq şah sarayının komendantı və xəzinədarı olmuşdu. Şahın yaxın adamı idi və müdafiə nazirliyinə namizədliyi də Məhəmməd Rza tərəfindən irəli sürülmüşdü.[21]

Daxili İşlər naziri Soruri köhnə ədliyyə işçisi olmuşdu. Rza şahın saray naziri Teymurtaşın məhkəmə prosesində iştirak etmişdi. 1939-cu ildə Ədliyyə

naziri, sonra daxili işlər nazirinin müavini, Said hökumətində Daxili İşlər naziri işləmişdi. Yeni hökumətdə öz yerini saxlamışdı. O, Seyid Ziyanın və ingilislərin tərəfdarı idi.

Poçt və teleqraf naziri Nadir Mirzə Arəstə Qacar şahzadələrindən idi. Rus, ingilis və fransız dillərini bilirdi. Rusiyada 1917-ci il inqilabına qədər Peterburqdakı İran missiyasına başçılıq etmişdi. Sonra Aşxabadda Baş konsul işləmişdi. 20-30-cu illərdə İngiltərədə, Cənubi Amerikada, Polşada, Almaniyada diplomatik işdə çalışmışdı. 1943-cü ildən Nazir təyinatına qədər birinci ostanın osqandarı, işləmişdi. İngiltərəyə meyl edirdi.[22]

Məclisdə hökumətin mövqeyi elə də möhkəm deyildi. 100 nəfər məclis üzvündən 45-i əleyhinə, 5-i tərəfsiz qalmaqla 50 nəfəri Bayat hökumətinə səs vermişdi. Hökumət böhranına səbəb olan Şimal nefti konsessiyası məsələsi hələ aradan qaldırılmamışdı. Digər tərəfdən dekabrın 2-də, M.Bayat hökumətinin qurulmasından 5 gün sonra məclis neft konsessiyaları barədə danışıqlar aparmağı qadağan edən qanun qəbul etmişdi. İran məclisinin qəbul etdiyi qanunda deyilirdi: heç bir Baş nazir, nazirlər və olları əvoz edon müavinləri rəsmi və qeyri-rəsmi formada, qonşu və qonşu olmayan dövlətlərlə və xarici kampaniyalarla neft danışıqları apara bilməzlər. Məclisin bu qərarını pozan şəxsləri 3 ildən 8 ilə qədər həbs cəzası gözləyirdi və ömürlük yüksək dövlət vəzifəsi tutmaqdan məhrum edilirdi. Sovet idarələrinin məlumatına görə konsessiyalar haqqında qanunun müəllifi doktor Müsəddiq idi. Çox məhdud dairədə saray naziri Əli hüseyn, doktor Müsəddiq, Seyid Ziya və Saidin iştirakı ilə qanun müzakirə edilib Məclisə çıxarılmışdı. Yeni qanun baxmayaraq ki, Məclisdə böyük üstünlüklə keçmişdi, lakin səsvermə zamanı 10 nəfər deputat etiraz əlaməti olaraq nümayişkaranə şəkildə məclisi tərk etmişdi.[23]

Hökumət kabinəsi təsdiq edilən məclisdə M.Bayat hökumət proqramı ilə çıxış etdi. Proqramda dost və

müttəfiq dövlətlərlə əlaqələrin möhkəmləndirilməsi, ölkədə qanunların icrası nəticəsində təhlükəsizliyin təmin edilməsi, yaşayış səviyyəsinin, səhiyyə, maarif xidmətini yüksəltmək. Məclisdə əmək haqqında qanunun qəbuluna nail olmaq, dövlət aparatında və seçki sistemində islahat aparmaq, ölkə İqtisadiyyatının hərbi vəziyyətdən tədricən dinc vəziyyətə keçməsi üçün şərait hazırlamaq və s. məsələlər öz əksini tatşışdı. Said hökumətinin istefasına səbəb olan neft məsələsi ümumiyyətlə hökumət proqramına daxil edilməmişdi.

Yeni hökumətin təşkilindön sonra da Azərbaycanda etiraz dalğasını zəiflətmək mümkün olmadı, Dekabr ayının 1-də Təbrizdə 15 min nəfərin iştirak etdiyi böyük mitinq keçirildi. Nümayişin əsas tələbləri əyalət əncüməninin təşkili, Sovet İttifaqına neft konsessiyasının verilməsi, Seyid Ziyanın ölkədən qovulması idi.

SSRİ-yə neft konsessiyasının verilməməsini Sovet tərəfi Seyid Ziyanın və onun tərəfdarlarının hökumətə təsiri ilə əlaqələndirirdilər. Dekabr ayının 13-də Sovet səfirliyinin orqanı olan "Duste İran" qəzetində "Yoldaş Kavtaradze ilə söhbət haqqında" yazı dərc olunmuşdu. Orada Kavtaradze deyirdi: "Konsessiya danışıqlarını qadağan etmək barədə Məclisin təsdiq etdiyi qanun səhidir. Bu səhv Sovet - İran dostluğunun düşməni olan Said, Seyid Ziya kimilərin təzyiqinin nəticəsidir. Eyni zamanda konsessiya danışıqlarını qadağan edən qanun İranda Mövcud konsessiyaların hazırki durumuna uyğun gəlmir. Sovet hökuməti belə hesab edir ki, Məclis gərək qərara yenidən baxsın və öz səhvini düzəltsin".[24] Buna bənzər məlumatı SİTA da yaymışdı və Moskva radiosundakı bəyanatında Kavtaradze yuxarıda deyilənləri təsdiq etmişdi. Sovet rəhbərlərindən biri Kliment Voroşilov göstərirdi ki, 1944-cü ilin sentyabrında Sovet İttifaqı İrana neft əməkdaşlığını təklif etdi. Bu təklif İranın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə ardıcıl olaraq hörmət siyasəti yeridən SSRİ ilə İran arasında geniş

əməkdaşlığa yol açırdı.[25] Azərbaycandakı etirazların Seyid Ziyaya qarşı çevrilməsi, Sovet rəhbərliyinin müxtəlif çıxışlarında düşmən elan edilməsi onun səbrini tükəndirdi. Dekabr ayının 18-də Yəzddən olan deputat, keçmiş baş nazir Seyid Ziya-Əd-Din Təba-Təbai bütün deyilənlərə öz münasibətini açıqlayan geniş bəyanatla çıxış etdi. Bəyanatda göstərilirdi: İrana xoş niyyətlərlə gəlib onu səhv fikirlərlə tərk etmiş SSRİ Xarici İşlər komissarının müavini Kavqaradzenin çıxışları məni məcbur etdi ki, bəzi məsələləri aydınlaşdırım. Kavtaradzenin neft konsessiyası danışıqlarının qadağan edilməsi barədə məclisin qanununun Seyid Ziyanın və Saidin təzyiqi ilə qəbul edilməsi fikri çox böyük səhv, böyük siyasi yanlışlıq olub bilavasitə Məclisin ünvanına deyilmiş təhqirdir.[26] Sovet İnformasiya vasitələrində belə bir fikir getmişdi ki, guya neft məsələsi bəhanədir. Əsas məqsəd gələcəkdə İranın Şimaldan Sovetlər üçün yarana biləcək təhlükəni aradan qaldırmaqdır. SSRİ-nin cənub sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün İranın Şimal rayonları Sovet İttifaqa üçün "qoruq zonası" hesab edilirdi. Seyid Ziya bildirdi ki, bütün bunlar əsassızdır. İki yüz ildir ki, İran Rusiya üçün heç bir təhlükə təşkil etmir. Rusiya inqilabı zamanı rus mütləqiyyəti general Denikinin şəxsində İran uçün təhlükə təşkil etdiyindən biz İngiltərə ilə müqavilə bağladıq. Bu təhlükə sovuşan kimi biz həmin müqaviləni ləğv etdik (1919-cu il İngilis-İran sazişi nəzordə qutulur - C.H.) "Mən şəxsən Sovet səfirini dəvət etmək üçün Moskvaya teleqram göndərdim, birinci Sovet səfiri cənab Rotşteyni Tehranda qarşıladım və qəbul etdim... Tarixin möcüzəsidir ki, 24 il əvvəl Sovet İttifaqı ilə qarşılıqlı münasibətlər qurmağa cəhd göstərdiyim halda, Sovet nümayəndələrinin səhvləri nəticəsində bu gün ölkələrimizin münasibətlərinin yaxşılaşdırılmasını arzu etməyənlərdən hesab edilirəm"[27]

Seyid Ziya İranın Şimalının Sovetlər üçün "qoruq zonası" elan edilməsinin almanların "həyat sahəsi"

uğrunda mübarizəsindən heç nə ilə fərqlənmədiyini bildirirdi. Onun fikrincə "əgər Sovet sərhədlərinin təhlükəsizliyi üçün İranın Şimal rayonlarının "qoruq zonası" elan edilməsi prinsipi bu gün qəbul edilsə, sabah Tehran və İsfahan şimal rayonları üçün "qoruq zonası" elan ediləcək, birisi gün Fars və Kerman Tehran və İsfahan üçün "qoruq zonası" olacaqdır. Nəticədə İranlılar susuz və həyat olmayan Ərəbistan səhralarında azad nəfəs alacaqlar., əgər onları ora buraxsalar".[28]

Seyid Ziya belə hesab edirdi ki, çar Rusiyası İran ilə daha hörmətlə davranırdı, nəinki Sovet hökuməti. Onun fikrincə, birinci dünya müharibəsi dövründə general Baratovun yüz minlik ordusundan, general Ayronsaydın (İngilis generalı - C.H.) otuz minlik ordusundan bir əsgərin də ayağı Tehrana dəyməmişdi. Bütün səhvlərinə baxmayaraq o dövrkü İran hökumətləri paytaxtın təhlükəsizliyini təmin edə bilmişdilər. O, yazırdı: "Bu gün Tehran tapılarından başlayaraq İranın bütün Şimal vilayətlərinə Qırmızı ordu nümayəndələri nəzarət edirlər. İranlılar öz torpaqlarında hərəkət etmək üçün icazə almalıdırlar... İran hökuməti təhlükəsizliyi təmin etmək üçün bir sıra yerlərə öz qərarı ilə ordu göndərə bilməz. Bu məsələ ilə bağlı Sovet səfirliyindən və komandanlıqdan qabaqcadan razılıq alınmalıdır. Azərbaycana, Xorasana və Gilana maliyyə məmurunu göndərmək üçün Moskvadan icazə və buraxılış alınmalıdır".[29]

SSRİ Xarici İşlər komissarının müavini Kavtaradzenin bəyanatında irəli sürülən ideyalar İran Tudə partiyasının əsas fəaliyyət proqramına çevrilmişdi. Tudə mətbuatında və onların buraxdığı vərəqələrdə irəli sürülən tələblərin Sovet, səfirliyi tərəfindən hazırlandığı siyasi dairələrə artıq məlum idi. Kavtaradzenin bəyanatını və onun Sovet orqanları vasitəsi ilə geniş təbliğ olunmasını Seyid Ziya nəzakətsiz hərəkət, Said Marağayi hökumətinə qarşı hörmətsizlik. Hesab edirdi. Guya Sovetlərin fikrincə, danışıqları dayandırmağa əsas səbəb Baş nazir Saidin

SSRİ-yə nəzakətsiz münasibəti olub. O, yazırdı: Doğrudanmı cənab Said nəzakət anlayışına zidd olan nə isə edib? Said Marağayı nə Yəzddən çıxıb, nə Kermandan, o nə İsfahanda tərbiyə alıb, nə də Şirazda, nə də Fələstin naziri deyildir. Bu adam Marağadan çıxmış Azərbaycanın qeyrətli orqanlarındandır. Azərbaycan dörd əsrdir ki, İranın müstəqalliyi uqrunda mübarizədə öz cavanlarının qanını qurban verir. Allah özü belə istəyib ki, bu həyəcanlı günlərdə İranın dövlət işlərini azərbaycanlı idarə etsin. Bu həmin Said Marağayıdır ki, 30 il Rusiyada yaşayıb, 7 il İranın Moskvadakı səfirliyində olub, 3 il Xarici İşlər naziri və Baş nazir olub. Əgər bu azərbaycanlı beynəlxalq nəzakət hisslərinə vaqaf olmasaydı, onu başa düşməsəydi belə yüksək vəzifələri də tuta bilməzdi. Saidin bütün keçmişi üçtərəfli müqavilənin başanmasındakı qətiyyətli mövqeyi, İran - SSRİ müşsibətlərinə səmimi tərəfdarlığı bizə əsas verir ümidvar olaq ki, o, heç bir nəzakətsizliyə yol verməyib. Yalnız onun azərbaycanlı qanı ona icazə vermədi ki, İranın mənafeyinə zidd olaraq *dünyanın* qüdrətli dövlətlərindən birinin nümayəndələrinə yazılı, yaxud şifahi vəd versin. Saidin nəzakətsizliyi və cinayəti ondan ibarətdir ki, o, zəif dövlətin nümayəndəsidir. Əgər məsələyə küclülərin və zəiflərin münasibətlərindən yanaşsaq, əlbəttə zəif gərək nəzakətli olsun - təslim olsun. Lakin Said məğrur idi. Saidin məğrurluğu Leninin vədləri, Çeçerinin imzası, Stalinin bəyanatı ilə bağlı idi. Ruzveltin, Stalinin, Çerçilin bəyanatlarının dumanı Tehran səmasında şəhadətlik edir. Əgər bütün bunlar olmasaydı ola bilsin ki, Said Sovet hökumətinin tələbələrinə güzəştə gedərdi və indi Moskva da ona faşist damğası vurmazdı.[30]

Seyid Ziyanın fikrincə Said hakimiyyətdə qala bilərdi. Çünki Məclisin ona etimadı var idi. Tehrana gələn teleqramların da necə təşkil olunmağı Məclisə bəlli idi. Lakin İranda ordusu olan bir dövləqin teleqraf agentliyinin və "İzvestiya" kimi hökumət

qəzetinin İranda guya faşist hərəkatı haqqında məlumatları dünyaya car çəkməsi bunu mümkünsüz etdi. Said başa düşdü ki, bundan sonra onun hakimiyyətdə qalması İran üçün gözlənilməz nəticələr verə bilər. Ona görə istefa haqqında öz ərizəsini şaha təqdim etdi.

Nəhayöt, Kavtaradzenin bəyanatına cavab olaraq Seyid Ziya bildirirdi: Neft konsessiyaları haqqında Məclisin qərarını səhv adlavdırmaq xarici dövlətlərin səlahiyyətinə aid məsələ deyil. Hər hansı qərarı qəbul etmək məclisin müstəsna hüququdur; Məclisin guya Saidin və Seyid Ziyanın təzyiqi ilə belə qərar qəbul etməsi Sovet nümayəndələrinin İranda buraxdıqları səhvlərin, diqqətsizliyinin və İranı hədələmələrinin nəticəsidir. Xatırladılmalıdır ki, bu qərar yalnız xarici qoşunların İranda olduğu dövr üçün qüvvədədir.

O, yazırdı: "Mən əminəm ki, əgər Sovet nümayəndələri düşünülmüş siyasət yeritsəydilər, Sovet səfirliyi ilə bağlı olan qəzetlər, SİTA agentliyi, Moskva radiosu İran üçün müqəddəs olan anlayışları təhqir etməsəydilər, onlar hadisələrin belə gedişi ilə qarşılaşmazdılar".[31] Xarici konsessiyaların İrandakı Mövcud vəziyyətlə uyğun gəlməməsi haqda Kavtaradzenй fikrinə etiraz edərək Seyid Ziya qeyd edirdi: cənab Kavtaradzenin məsləhətçiləri gərək biləydilər ki, onların adlarını çəkmək istəmədikləri cənub neft konsessiyası 26 fevral 1921-ci il müqaviləsi imzalanan zamanda da, Tehranda Ruzvelt, Stalin və Çerçilin birgə bəyanatları ellan edilәndə də fəaliyyət göstərirdi. Məclisin öz səhv qərarını dəyişəcəyini təklif edənlərə Seyid Ziya bəyan edirdi ki, "İran Məclisi səhv etməmişdir və öz qərarını səhv adlandıraraq dəyişməməlidir"... Qoy 24 il əvvəl Rəştdə qurulan qarışıq hökumət (Gilan Sovet respublikası nəzərdə tutulur - C.H.) təhlükəsi ilə bizi qorxuzmasınlar... Azərbaycanda üsyan təbliğatı və təhlükəsi, yaxud Təbəristanın (Mazandaranın - C.H.) bölünməsi təhlükəsi ilə bizi qorxuzmasınlar,[32]

Seyid Ziyanın bəyanatı cavabsız qalmadı. 26 yanvar 1945-ci ildə İ.Volinin imzası ilə "Pravda" qəzeqində "Təxribatçı Seyid Ziya Əd-Dinin iç uzü" adlı geniş məqalə getdi. Məqalədə Seyid Ziya şeytan və fitnəkar adlandırıldı. Məqalədə onun bəyanatda söylədiyi fikirlərin təkzib edilməsinə cəhd göstərildi. Lakin gətirilən dəlillər elə də inandırıcı deyildi. Qəzet yazırdı: Seyid Ziya Əd-Dinin fəaliyyəti İran tarixinin qara səhifəsini təşkil edir. Məlum olduğu kimi 21 fevral 1921-ci il çevrilişi ilə o, milli azadlıq hərəkatının boğulmasının və ölkədə 20 illik Rza xan diktaturası rejiminin qurulmasıiin başlanğıcını qoydu. Çevrilişdən sonra Seyid Ziyanın təşkil etdiyi hökumətdə Rza xan hərbi nazir vəzifəsini tutmuşdu. Lakin iki diktator yola getmədi və Seyid Ziya yeni çevrilişdən sonra İrandan qaçdı. Çoxcəhətli hazırlıqlardan sonra İran irticası onu 29 sentyabr 1943-cu ildə təntənəli şəkildə ölkəyə gətirdi və iki gündən sonra isə Yəzd şəhərindən Məclisə deputat seçdirdi.[33]

Sovetlər Seyid Ziyanın Qərblə əlaqəsindən ciddi narahatçılıq keçirirdilər. Həlledici məqamda ABŞ və İngiltərənin onu mudafiə etməyəcəyinə Sovet İttifaqı arxayın deyildi. Seyid Ziyanın himayəsində olan "Raad" qəzeti belə bir məlumat vermişdi ki, guya ABŞ prezidenti F.Ruzvelt Said Marağayinin SSRİ-yə qardş siyasətini mudafiə edən məktub göndərmişdir. "Keşvər" qəzeti isə bildirmişdi ki, neft konsessiyası mubahisələri SSRİ, İngiltərə və Amerika arasındakı İttifaqı dağıda bilər və kapitalist ölkələrinin Soveqlər əleyhinə iqtifaqını formalaşdıra bilər.[34] Bu məsələ ilə bağlı "Pravda" qəzeqi bildirirdi ki, Seyid Ziya muttəfiqlərin arasını qızışdırır. Onun paytaxtı digər yerə köçurmək (Sovetlərdən uzaq yerə - C.H.) təklifi də Sovet tərəfinin hiddətinə səbəb olmuşdu.

İranda yaranmış vəziyyətlə əlaqədar Sovet Azərbaycanından xususi tapşırıqla göndərilən siyasi işçilərin rəhbəri Həsən Həsənov 13 fevral 1945-ci ildə M.C.Bağırova 67 səhifəlik "Güney Azərbaycan haqqında

arayış" göndərmişdi. Arayışın sonunda Güney Azərbaycanda həll edilməsi zəruri olan məsələlər sadalanırdı və Sovetlərin siyasətinə aydınlıq gətirilməsi təklif edşşrdi. O, yazırdı: Sovet Azərbaycanından göndərilən işçilər çox böyük iş aparıblar. Lakin bir sıra tədbirləri keçirən zaman onlar Sovet hakimiyyətinin son məqsədini bilmirlər və ona görə də işləri tam həçmdə genişləndirə bilmirlər. "Bizim İrandakı rəhbər işçilərə dəqiq və aydın deyilməlidir ki, biz Azərbaycan əhalisinə farsların əsrlik zulmündən qurtarmaq işində kömək etməliyik. Ona görə də büqün işləri bu istiqamətdə qurun. İranın tarixi inkişafının bütün gedişi göstərir ki, Azərbaycan xalqı fars zülmündən qurtarmalıdır. Belə ki, İran dövləti məhv olmaq və dağılmaq ərəfəsindədir və onun hökuməti istiqlaliyyəti və müstəqilliyi saxlamaq iqtidarında deyildir".[35] H.Həsənov bildirirdi ki, bütün cəza, terror və təqiblərə baxmayaraq Azərbaycan əhalisinin milli hissləri, Azərbaycanın ayrılıb müstəqil dövlət olmaq ideyası çox güclüdür. Lakin onun fikrincə, İranda Azərbaycan xalqının azad olması təşəbbüsü Sovet Azərbaycanından kendərilən işçilər tərəfindən qaldırılmalı idi. "Biz bu işlə çox yaxından bağlıyıq. Çünki Güney Azərbaycan əhalisinin azad olması bizim qardaşlarımızı birdəfəlik məhv olmaq təhlükəsindən xilas edir, Bütün Azərbaycan xalqının işkişafı üçün böyük perspektivlər açır. Biz belə hesab edirik ki, beynəlxalq vəziyyətin indiki anı bu vacib tarixi vəzifəni həyata keçirmək üçün daha əlverişlidir. İranda Azərbaycan xalqının azad edilməsi Kitler Almaniyasının qəti olaraq darmadağın olması ilə bir vaxta düşməlidir".[36] Görünür bu barədə Sovet işçilərindən kimsə ağzından nəsə qaçırmışdı. Ona görə ingilis konsulu proqnoz verirdi ki, Güney Azərbaycanda çevriliş may ayında olacaqdır. Arayışda qeyd edilirdi ki, bu məsələdə diplomatik danışıqlara ümid bağlamaq olmaz. Belə ki, ingilislər heç vaxt Azərbaycanın ayrılıb müstəqil dövlət olmasına və orada

demokratik cəmiyyət quruculuğuna razı olmazlar. "Azərbaycanın azadlığı və orada tam demokratak dövlətin qurulması, yaxud onun Sovet Azərbaycanına birləşməsi xalq üsyanı vasitəsi ilə həyata keçirilməlidir ki, müttəfiqlər baş vermiş fakt qarşısıvda qalsınlar".[37] H.Həsənov təklif edirdi ki, bu işləri görmək üçün Tehrandakı Sovet səfirliyinin imkanları çox məhduddur. Səfir Tehranla yaxşı münasibətlər saxlamağa borcludur. Nə qədər ki, Tehranın məiafeyi ilə Güney Azərbaycanın mənafeyi bir-biri ilə ziddiyyət təşkil edir, bizim hər hansı tədbirimiz mərkəzi İran hakimiyyəti tərəfindən qəzəblə qarşılanır. Bu da öz növbəsində səfirliyin işini çətinləşdirir və ona görə də səfir bizim Güney Azərbaycandakı tədbirlərimizdən heç də həmişə razı qalmır. Praktiki olaraq Güney Azərbaycanda bütün bu işlərə rəhbərlik etmək üçün "bilavasitə Bakıdan göstərişlər alan rəhbər yoldaşlar qrupu Təbrizdə olmalıdır. Həmin yoldaşların zəruri tapşırıqları almaqdan ötrü Bakıya azad şəkildə gedib gəlməsi üçün məqsədəuyuvdur ki, onlar hərbi xidmətdə hesab edilsinlər. Bu məqsədlə arzuolunandır ki, Atakişiyevin iqamətgahı Qəzvindən Təbrizə gətirilsin, yoldaşlardan biri korpus komandirinin müavini və digəri korpus siyasi şöbəsi rəisinin müavini təyin edilsinlər".[38]

Arayışda bildirilirdi ki, Güney Azərbaycanda yaxşı hazırlıqlı, viçdanlı, xalq işinə sədaqətli xeyli işçilər vardır. Onlar həm Xalq partiyasının rəhbərliyində, həm həmkarlar təşkilatında, həm də dövlət orqanlarında işləyirlər. Oşqara tam etibar etmək olar. Lakin onların sayı çox azdır. "Ona görə də "Ajir" qəzetinin redaktoru Mir Cəfər Pişəvəri, qəzet redaktoru Şeyləvər, müəllim Malek kimi azərbaycanlıların Tehrandan Təbrizə gətirilməsinö nail olmaq lazımdır. Zəruri olan anda Sovet Azərbaycanından da bir neçə rəhbər işçini Təbrizə atmaq lazım gələcək".[39]

1944-cü ilin dekabrında H.Həsənov Tehrana getdikdə Sovet səfiri M.Maksimov işarə etmişdi ki, İran

Azərbaycanında burjua demokratik cəmiyyəti qurulması barədə Moskvadan göstəriş verilmişdir. Bu işdə, Maksimovun fikrinə görə İran Məclisindəki Azərbaycandan olan deputatlara arxalanılmalı idi. Lakin H.Həsənov bu fikrin əleyhinə idi. Onun fikrincə burjua-demokratik quruluş ideyası Güney Azərbaycanda elə də populyar deyildi. Torpaq məsələsini həll etmədəi kəndliləri Azərbaycanii azadlığı uğrunda mübarizəyə cəlb etmək olmaz. Bu işdə deputatlara arxalanmağı da o, səhv hesab edirdi. Belə ki, deputatların çoxu iri torpaq sahibkarları idi və İranın digər yerlərində də onların torpaq mülkləri var idi. Ona görə də onlar Azərbaycanın ayrılıb müstəqil dövlət yaratmaq işinə rəhbərlik edə bilməzlər. O qeyd edirdi ki, "İndiki anda Güney Azərbaycanda ən populyar şüar azərbaycanlıların farsların zülmündən azad olması, demokratik dövlət qurulması və torpaq məsələsinin həll edşşəsidir".[40]

H.Həsənovun arayışında kürd məsələsinə də toxunulurdu. O, bildirirdi ki, Güney Azərbaycan problemini həll edərkən kürd məsələsindən yan keçmək mümkün deyildir. Kürdlərə muxtariyyət vermək lazımdır və bizim İranda olan işçilərə də tapşırmaq lazımdır ki, işləri bu istiqamətdə aparsınlar.

Nəhayət, arayışda tövsiyyə olunurdu ki, Azərbaycanın azadlıkı əhalinin geniş kütlələrinə - fəhlələrə, kəndlilərə, sənətkarlara və ziyalılara söykənən Xalq partiyası vasitəsi ilə həyata keçirilməlidir. Xalq partiyasını və onun rəhbərliyini möhkəmləndirmək üçün H.Həsənov təklif edirdi ki, hər ay ona təxminən on min tümən maddi yardım göstərmək lazımdır...[41]

## X. Təbriz: Yanvar - mart 1945-ci il

1945-ci ilin ilk günləri Güney Azərbaycanda İran Xalq Partiyasının əyalət təşkilatının küclənd irilməsi ilə başladı. Yanvar ayının 11 -da Təbrizdə tudəçilərin Azərbaycan təşkilatlarının birinci əyalət konfransı keçirildi. Lakin konfransa qədər IXP-nin nə Mərkəzi, nə də əyalət təşkilaqlarının işi Sovetləri qane etmirdi. Tudə İran Kommunist Partiyasının bazasında 1941-ci ilin oktyabrında yaranmışdı. Sovetlərin İrana daxil olmasından sonra toşəbbüsü ələ almağa çalışan, vaxtilə Komintern tərəfindən xüsusi tapşırıqla İrana göndərilən köhnə kommunistlərə inam yox idi. Onların Sovet İttifaqındakı tərəfdaşlarını artıq Stalin sıradan çıxarmışdı. Ona görə də SSRİ rəhbərliyi müxtəlif gizli yazışmalarda İrandakı köhnə bolşevikləri xarici dövlətlərin cəsusu adlandıraraq, onları işə yaxın buraxmamağa üstünlük verirdi. Partiyanın rəhbər orqanlarında olan doktor Yəzdi, İrəç İskəndəri, doktor Bəhrəmi, Radmaneş Avropanın marksist məktəblərində təhsil almışdBşar, Parisdə və Berlində Kommunist Partiyasına daxil olmuşdular. 30-cu illərdə onlar Kominternlə, Moskva ilə sıx əlaqəyə kirmişdilər. Komintern İran Kommunist Partiyasıvdan narazı idi. Hətta belə bir fakt da olmuşdu ki, Kominternin İKP üçün ayırdığı 25 min tümən pulu partiya rəhbərləri öz qohum-əqrəbaları arasında bölüşdürərək mənimsəmişdilər. Digər tərəfdən Kominternə belə bir məlumat daxil olmuşdu ki, İKP-nin daxilində hökumətin çoxlu adamları vardır. 1927-ci iddəi qeyri-leqal işə keçən və 1931-ci ildə Komintern tərəfindən buraxılan İran Kommunist Partiyası 1936-cı ildə vaxtilə Almaniyada təhsil almış doktor Tağı Ərani tərəfindən bərpa ediddi.2 İKP buraxılanda Moskvadakı İran kommunistlərinə bildirmişdilər ki, "bura mehmanxana deyil, qayvdın öz ölkənizə. Bizlərdən hər birimiz 10-20 il həbsdə yatmışıq. İnqalabçı və

kommunist gərək zindandan qorxmasın".[3] Köhnə kommunistlərdən daha çox Əbdülsəməd Kambəxşə və Sərtibiur adı altında partiya işi aparmış Artaşes Ovanesyana etibar edilirdi. Onların hər ikisi Moskva ilə bağlı adamlar idi. Azərbaycan SSR Təhlükəsizlik komissarı S.Yemelyanovun A.Ovanesyan haqqında hazırladığı məlumatda bildirilir ki, o, 1924-cü ildə İKP-yə daxil olub, 1926-cı ildə Moskvaya Şərq zəhmətkeşlərinin Kommunist uiňversitetinə oxumağa göndərilib. Sonra İrana qayıdıb və 1930-cu ildə həbs edilib. 1941-ci ilin noyabrında həbsdən azad edilib və Tudə partiyasının rəhbər Heyətiə seçilib. Yemelyanov yazırdı: A.Ovanesyan "1944-cü ildə bizim köməyimizlə İran Məclisinin deputatı olub... Onun fəaliyyətində, Xalq Partiyasının MK-sı adından apardığı tədbirlərdə solçu xarakterli təxribatlar müşahidə edilir".[4] Azərbaycan təhlükəsizlik orqanlarının köhnə bolşeviklərlə ciddi şəkildə maraqlanması qarşıdakı planlarla bağlı idi. Əsasən Tehranda oturan Nurəddin Əlamuti, Məhəmməd Bəhrami, Porvin Tonobadi, A.Ovanesyan, Ehsan Təbəri, İrəc İskəndərli, Radmaneş, Əbdülsəməd Kambəxş, Əli Əmir Xizi, Murtuza Yəzdi, Kiyanuri, Səid Rust və digər Tudə rəhbərləri partiyanın Azərbaycan əyalət təşkilatının gücləndirilməsindən bir qədər ehtiyat edirdilər. Yaxud elə etmək istəyirdilər ki, Tudənin Azərbaycan əyalət təşkilatı onların rəhbərliyi altında küclənsin. Azərbaycana münasibətdə Tudə rəhbərləri ilə İrandakı Sovet idarələri arasıvda fikir ayrılıqları getdikcə küclənirdi. Sovet İttifaqı 1944-cü ilin axırlarından başlayaraq Xalq Partiyasının Azərbaycan təşkilatının küclǝndirilməsi xəttini götürmüşdü ki, bu da Tudə rəhbərlərinin ehtiyat etdiyi İranın parçalanması ehtimalını doğururdu. 1945-ci ilin yanvarında Təbrizdə Xalq Partiyası Azərbaycan Əyalət Konfransının keçirilməsi Sovetlərin ideyası olub Təbrizdəki SSRİ Baş konsulu F.Matveyevin iəzarəti altında idi. Baş konsul bu konfrans barədə onun qəbul etdiyi sənədlər daxil SSRİ Xarici İşlər

komissarlığına və M.C.Bağırova geniş hesabat göndərmişdi.[5] Hesabatda hər şey dəqiqliklə verilmişdi. Azərbaycanın müxtəlif şəhər və şəhristanlarından gələn 148 nəfər numayəndənin iştirak etdiyi əyalət konfransının birinci iclası yanvarın 11-də səhər saat 9.30-da açıldı. Əli Şəbüsqəri, Sadıq Padeqan, Əhməd İsfahani, Nurulla Ekani, Çeşmazər Mirqasım Sədr, Əli Əmir Xizi; Məhəmməd Biriya, Xəlil Maleki fəxri sədr və daha beş nəfər katib seçildilər.[6] Konfransın açılışında çıxış edən Əmir Xizi bildirdi ki, Tudə Partiyasının Mərkəzi Komitəsi İran hakimiyyətinin qeyri-qanuni hərəkətlərinə qarşı mübarizədə Azərbaycana böyuk umidlər bəsləyir.

1944-cü ilin iyul ayında seçilmiş əyalət komitəsinin 7 aylıq hesabatı ilə komitənin sədri S.Padeqan məruzə etdi.[7] Məruzədə vo çıxışlarda xeyli tənqidi fikirlər söyləndi. Konfransın qətnaməsində Əyalət Komitəsinə göstəriş verildi ki, şəhərlə kənd təşkilatları arasında əlaqələr kucləndirilsin, həmkarlar təşkilatlarında, fabrik və zavodlardakı özəklərdə, İran əsgərləri arasında işlər genişləndirilsin. İrtica və mülkədarların özbaşınalığına qarşı mübarizəni kücləndirmək barədə qətnamə qəbul edildi. Qətnamədə göstərilirdi: nə qədər ki, Mərkəzi İran hakimiyyəti orqanları mülkədarların özbaşınalığına qarşı heç bir tədbir körmür, Xalq partiyasının üzvlərinə qarşı zorakılıq törədən mülkədarları biz özümüz cəzalandıraçağıq. Əyalət Komitəsi sədrinin məruzəsindən aydın olur ki, Tudə Partiyasının Mərkəzi Komitəsindən Azərbaycan firqəçilərinin müəyyən narazılıqları vardır. "Güney Azərbaycanda vəziyyət haqqında" hazırlanmış arayışda göstərilirdi ki, Xalq Partiyasının Tehrandakı rəhbərliyi və onun MK-da ingilislər tərəfindən qoyulmuş adamları vardır ki, nəinki Güney Azərbaycanda köklü dəyişikliklərə maraqlı deyillər, onlar Azərbaycan xalqının hər hansı milli xüsusiyyətdərinin əleyhinədirlər. Verilən məlumata görə 1944-cü ilin yayı

ilə müqayisədə Azərbaycanda xalq partiyasının üzvlərinin sayı xeyli artmışdı. Ümumiyyətlə, Tudə Partiyasının Azərbaycan təşkilatının 1945-ci ilin əvvəllərində 43716 nəfər üzvü var idi. Bundan 4812 nəfəri fəhlə, 31948 nəfəri kəndli, 2619 nəfəri sənətkar və ziyalı idi.[8]

Konfrans gizli səs vermə ilə 25 nəfərdən ibarət Əyalət Komitəsini, 7 nəfordən ibarət Rəyasət Heyətiй və 7 nəfərdən ibarət təftiş komisionunu seçdi. Ən çox səs alan M.Biriya oldu. O, 124 səs, Əmir Xizi - 122 səs, M.Çeşmazər - 121 səs, S.Padeqan - 118 səs, N.Ekani - 115 səs, D.Gevorkyan - 114 səs, Ə.Şəbüstəri - 106 səs, Qulam Yəhya - 98 səs və s. aldılar.9

Təbrizdən F.Matveyevin konfransla bağlı göndərdiyi sənədlərlə, xüsusi ilə protokolla tanış olduqdan sonra M.C.Bağırov müxtəlif rəngli qələmlə sənəd üzərində qeydlər aparmışdı. Adı çəkilən adamlarla bağlı müəyyən məsələləri öyrənməyi tövsiyyə etmişdi. Tudə partiyasının Azərbaycan əyalət konfransında başlanan yeniləşmə işləri 1945-ci ilin avqust-sentyabr aylarında Azərbaycan Demokrat Partiyasının yaranması ilə tamamlandı.

Güney Azərbaycanda işi küclәndirmək üçün Sovet Azərbaycanı K(b)P MK-nın 12-29 yanvar 1945-ci ildə keçirilən Bürolarında bir sıra qərarlar qəbul edildi. Büronun qərarı ilə M.Şərifli, H.Sadıxlı, S.Salamzadə əlavə olaraq Təbriz mədəniyyət evinə işləməyə göndərildi. ÜİK(b)P MK-dan xahiş edildi ki, bu şəxslərin Təbrizə göndərilməsi məsələsini həll etsinlər.

Yanvar ayının 19-da ÜİK(b)P MK Güney Azərbaycandan olan gənclərin Sovet Azərbaycanı ali məktəblərində təhsil almağına razılıq verən qərar qəbul etmişdi.M.C.Bağırovun tapşırığı əsasında hələ 1944-cü ilin noyabrında Azərbaycan Xalq Komissarları Soveti Maliyyə, Ticarət, Maarif Komissarlıqlarının, Tibb İnstitutu, Azərbaycan Dövlət Universiteti, Azərbaycan Sonaye İnstitutu rektorlarının və Bakı Şəhər İcraiyyə Komitəsinin rəhbərliyi ilə birlikdə bu məsələni

ətraflı öyrənərək qərara almışdılar: Sovet Azərbaycanı Ali məktəblərində Azərbaycan dilində oxumaq arzusunda olan güneylilərin arzusu təmin edilə bilər. Tehrandakı səfir M.Maksimova məllumat verilmişdi ki, Tibb İnstitutunun müalicə, pediatr, sanitariya və farmakologiya, Sənaye İnstitutunun muhəndis iqtisadçı, geoloji-kəşfiyyat, memarlıq tikinti fakültələrinə, universitetin hüquq fakültosinö arzu edənlər müvafiq razılıq olduqdan sonra qəbul edilə bilərlər. Erməni tələbələrlə bağlı Maksimova bildirilmişdi ki, məsələni SSRİ Xarici İşlər Komissarlığı vasitəsi ilə həll edib onların Yerevanda oxumasını təmin etsin.

Qərara alınmışdı ki, Təbrizdən gələn tələbələr kiril əlifbasını və rus dilini öyrənmək üçün Universitetin nəzdində bir illik kurslarda təhsil alıb sonra ali məktəblərə qəbul olunsunlar. Təbrizdəki vitse-konsul H.Həsənova məlumat verilmişdi ki, 39 nəfər azərbaycanlı gənci və Təbriz ostandarı Dadvərin iki qazını Azərbaycan ali məktəbləri qəbul edə bilərlər.

Ticarət Nazirliyinə göstəriş verilmişdi ki, milli mətbəx nəzərə alınmaşa Güneydən gələn kənclərin yeməklə təmin olunmalarını həll etsin." Azərbaycan Kompartiyası Bürosu ÜİK(b)P MK-nın respublika ali məktəblərinə Güney Azərbaycandan tələbə qəbul edilməsi ilə bağlı məsələlərin məsuliyyətini Qafarzadənin, M.Əliyevin, Ə.Əzizbəyovun, M.İbrahimovun,

S.Yemelyanovun, Musa Əliyevin üzərinə qoydu.[2] 1945-ci ilin martında MK Bürosu bu məsələ ilə bağlı SSRİ Xarici İşlər Komissarlığından ziddiyyətli göstəriş aldığından, habelə Təbrizdəki Sovet məktəbi və mədəniyyət evi ilə bağlı bir sıra məsələləri həll etmək üçün Güneydəki xüsusi tapşırıqla işləyən siyasi işçilərin rəhbəri H.Həsənovu Moskvaya göndərdi ki, Komissar Müavini S.Kavtaradze ilə büqün məsələləri müzakirə etsinlər. Təbrizdən gələn 40 nəfər tələbəyə xidmət göstərmək üçün Azərbaycan K(b)P MK-sı xüsusi qərar qəbul etmişdi. Tələbələr yerlə, gündə 700 qram çörək daxil olmaqla dörd dəfə yeməklə, paltar və ayaqqabı [154]

ilə, təqaüdlə və s. təmin edilməli idi. M.C.Bağırovun göstərişi ilə Güney Azərbaycandan gələn qızlar üçün Sənaye İnstitutunun qızlar yataqxanasında ayrıça otaq ayrılmışdı. Xalq Komissarları Soveti sədrinin müavini Ə.Əzizbəyova tapşırıq verilmişdi ki, Güneydən gələn tələbələrə xidmət etmək üçün xüsusi olaraq bir avtomaşın ayırsın. Bu tələbələrin siyasi tərbiyəsi ilə bağlı əlaqədar təşkilatlara müvafiq göstərişlər verilmişdi.[13] Hadisələrin sonrakı gedişi ilə bağlı Güney Azərbaycandan Bakının ali məktəblərinə təhsil almağa gələnlərin bir hissəsi öz sonrakı talelərini Sovet Azərbaycanı ilə əbədi bağladılar.

1945-ci ilin yanvarında Azərbaycan Kompartiyasının rəhbərliyi respublikada Sovet hakimiyyəti qurulmasının 25 illiyini Güney Azərbaycanda geniş qeyd etməyi qərara almışdı. Yanvar ayının 15-də Tehrandakı Sovet səfiri M.Maksimov M.C.Bağırova yazdığı məktubda xahiş edirdi ki, "Azərbaycan SSR-in 25 illiyi" adlı foto-sərgi, respublikanın xalq təsərrüfatı, sənət və mədəniyyətin inkişafı, milli kadrların artması, Azərbaycanın Böyük Vətən müharibəsində iştirakı, qadınların rolu, dinin vəziyyətini əks etdirən kitab, broşura, məqalə və oçerklər, kino filmlər və s. göndərilməsinə köməklik etsin.[14] M.Maksimovun məktubu ilə əlaqədar M.C.Bağırov tapşırıq vermişdi ki, tədbirlər planı hazırlansın. M.Əliyev, S.Rəhimov, Y.Kirsanov, Q.Antelepyan, S.Vurğunun təklifləri üzrə Azərbaycan K(b)P MK-sı və Xalq Komissarları Soveti 1945-ci ilin fevralında İranda "Azərbaycan SSR-in 25 illiyi" adlı sərki təşkil etmək barədə qərar qəbul etdi. Bu məqsədlə 120.000 manat pul ayrıldı. Hazırlıq işləri aprel ayının 1-nə qədər başa çatmalı idi.[15] Eyni zamanda Mərkəzi Komitənin Bürosu qərara almışdı ki, Azərbaycan SSR-in 25 illiyi münasibəqi ilə Güney Azərbaycan şairlərinin Stalin, Sovet İttifaqı, Qızıl Ordu, Böyük Vətən Müharibəsi haqqında iki şerlər kitabı çap edilsin. Hər iki kitabın hazırlanması S.Rəhimova, S.Vurğuna, M.İbrahimova tapşırılmışdı. Kitablara M.Biriyanın,

M.Bakırın, Ə.Fitrətin, Y.Şedanin, R.Əliyarzadənin, M.Mehdinin, Aşıq Seyid Həsənin, Q.Səbrinin, Ə.Tudənin və digərlərinin şerləri daxil edilmişdi. Həmin dövrdə M.Biriyanın "Ürək sözü" kitabı çapdan çıxmışdı.[16] Bu kitab onun 1941-ci ildə nəşr olunmuş "Bəşər" əsəri ilə müqayisədə siyasi təkamül prosesini aydın şəkildə özündə əks etdirirdi.[17] Sovet Azərbaycanının 25 illiyi Güney Azərbaycanın bütün şəhərlərində böyük siyasi kampaniyaya çevrildi. Güneydən göndərilən məlumatlarda 28 aprel münasibəti ilə təntənəli yığınçaqlar, mitinq və nümayişlərin keçirildiyi göstərilirdi. Bu tədbirlərdə İ.Stalinin, M.C.Bağırovun və Məhəmməd Rza şahın portretləri qaldırılır və onlar fəxri rəyasət Heyətiə seçilirdilər. Makudan M.C.Bağırov, T.Quliyev və M.Qasımova göndərilən təbrik teleqramında deyilirdi: Biz bir kökdən və bir qandan olan adamlarıq. Bizim qan qardaşlarımızın tarixi qələbələri ürəyimizi sevinç və milli iftixar hissi ilə doldurur. Biz azərbaycnlı qardaşlarımızın bəşəriyyəti azad etmək naminə faşizmlə döyüş cəbhəsində tökdüyu qanı belüşdürürük.[18]

25 illik yubiley tədbirləri ilə bağlı İrandan və Güney Azərbaycandan böyük bir nümayəndəlik Bakıya dəvət edilmişdi. Dəvət edilənlər arasında M.Biriya, B.Azəroğlu, doktor Oronki, Məhəmməd Rəsul, Hacı Ələkbər Sədiqyani, Seyid Nəfisi, Məliküşüara Bəhar, hacı Məhəmməd Naxçivani, hüseynqulu Kitabi, Məhəmməd Torabi, Məclis üzvü Mehdi Ədl, Məclis uzvü sədr Qazi və dikörləri Sovet Azərbaycanı mətbuatında çıxış etmişdilər.[19] İran ictimaiyyəti nümayəndələrinin Bakıya səfəri barədə SİTA-nın məlumatı yayılmışdı. Sovet Azərbaycanı rəhbərlərinin Təbrizdən gələnlərə xususi qayğı ilə yanaşması Tehrandan gələnlərin narazılıtqşa səbəb olmuşdu.[20] Lakin Sovet xüsusi idarələri Güney Azərbaycandan gələnlərə münasibətdə ehtiyatlılığı da əldən vermirdi. M.C.Bağırovun aprelin 26-da keçirdiyi operativ müşavirənin protokolunda göstərilir: "Güney Azərbaycandan gəlmiş nümayəndələri bangetdə elə oturtmaq lazımdır ki, onların hər iki tərəfindən respublika işçiləri otursunlar".[21]

SSRİ Xarici İşlər komissarının müavini S.Kavtaradzenin Azərbaycan SSR Xarici İşlər komissarı M.Əliyevə 11 yanvar 1945-ci ildə göndərdiyi gizli məktub da Mərkəzi Komitənin Bürosunun müzakirəsinə çıxarıldı. Məktubda söhbət İrana ezam edilən Konsert briqadasında başçılıq etmiş Mərkəzi Komitə katibinin müavini Ənnağı Babayevin buraxdığı nöqsanlardan gedirdi. Bu barədə Təbrizdəki Baş

konsul F.Matveyev SSRİ Xarici İşlər Komissarlığına keiйş məlumat göndərmişdi.[22] Kesabatda göstərilirdi: 1944-cü ilin payızında M.F.Axuidov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının, Dövlət Filarmoniyasının artistləri iki ay ərzində Güney Azərbaycanda 87, o cümlədən 10 pulsuz konsert vermişdir. Tehranda, Təbrizdə, Qəzvində, Ərdəbildə, Mərənddə, Makuda, Xoyda, Marağada, Nəmində, Rəştdə, Pəhləvidə, Şahpurda, Urmiyədə, Uşnuda və digər şəhorlərdə 60 mindən çox adam Azərbaycan artistlərinin konsertlərində iştirak etmişdi. Xüsusilə Təbrizdə konsertlərə böyük maraq göstərilmişdi. İri fabrikant Çorabçı deyirdi: "Mən dörd dəfə konsertlərdə olmuşam, böyük məmnuniyyətlə bir neçə dəfə də qulaq asaram, İran Azərbaycanında əhalinin 90 faizi doğma Azərbaycan mahnılarını və musiqisini sevirlər. Fars mahnılarını və musiqisini onlar doğma hesab etmirlər, ondan yetərincə zövq ala bilmirlər. Bizim ailədə, xüsusilə qadınlar Bakı radiosu ilə verilən konsertləri həmişə dinləyirlər və sizin tanınmış müqənnilərin adlarını demək olar ki, əzbər bilirlər.[23]

Qastrol başa çatdıqdan sonra Təbriz ostandarının xahişi ilə Azərbaycan artistləri daha bir konsert vermişdilər və ondan gələn gəliri bütövlükdə Təbrizin yerli idman cəmiyyətinin fonduna keçirmişdilər.

Baş konsulun hesabatında göstərilirdi ki, Makuda və Şahpurda biletlərin satılmasında ciddi nöqsanlara yol verilmiş, Ə.Babayevin günahı ucbatından havayı verilməli olan biletlər pulla, digərləri isə

artırılmış qiymətlərlə satılmışdır. Bu isə yerli əhalidə müəyyən narazılıq yaratmışdı.

Güney Azərbaycanda butun prosesləri diqtətlə izləyən SSRİ Xarici İşlər Komissarlığının məktubu iə Təbrizdəki Baş konsulluğun məlumatına əsasən Azərbaycan K(b)P MK-nın mart ayında keçirilən Büro iclasında işə yarıtmaz siyasi rəhbərliyinə görə Ə.Babayevə töhmət verilmişdi.[24]

Güney Azərbaycanda İşləri genişləndirmək üçün 1945-ci ilin əvvəllərində Sovet Azərbaycanındai göndərilən siyasi, diplomatik, mədəniyyət və təsərrüfat işçilərinin sayı 1000 nəfərə çatdırılmışdı. "Vətən yolunda" qəzetinin tirajı artıq on mini ötmüşdü. Qısa müddətdə 368 min tirajla 32 adda kitab əski əlifba ilə nəşr edilib Güney əhalisi arasında yayılmışdı. Sətqarxan hərəkatından sonra ilk dəfə olaraq Güney Azərbaycan ziyalıları dokma qürk dilindo kitab və broşuralar nəşr etdirmişdilər. İran uşaqlarının Sovet məktəblərində oxumaması haqqında keçmiş Baş nazir Məhəmməd Saidin əhaliyə müraciətinə baxmayaraq Təbrizdə 460 uşaq türk dilində çox böyük həvəslə təhsil alırdı.

1944-1945-ci ilin birinci üç ayında Güney Azərbaycanda 63956 nəfərə qibbi yardım göstərilmişdi. Təbrizdəki və Rəştdəki Sovet xəstəxanaları yerli əhali arasında çox məşhurlaşmışdı.[25] Lakin hələ ki, Güney Azərbaycaida müstəqil burjua demokratik cəmiyyəti qurmaqla İran daxilində muxtariyyət almaq arasında tərəddüd edilirdi. Moskva öz fikrini qəti bildirmirdi. Yerli əhali isə Sovetlərin apardığı yarımçılıq tədbirdən bir şey anlamırdı, öz gələcək taleləri üçün narahatlıq keçirirdilər. Onlar bildirirdilər: "Siz deyirsiňiz ki, İrticaya qarşı mübarizə aparın, bizim ardımızça gəlin. Gedirik - torpaqlarımızı alırlar, fabriklərdən qovurlar, müəssisələri bağlayrlar, özümüzü öldürürlər və hədələyirlər ki, gələcəkdə də öldürəcəyik".[26]

1945-ci ilin əvvəllərində İran hakimiyyət orqanları Azərbaycanda laxlamış dayaqlarını möhkəmləndirməyə çalışırdı. İran Daxili İşlər Nazirliyinin Şimal əyalətlərinin ostandarlarına göndərdiyi direktivdə sərəncam verilirdi ki, hökumətin daxili siyasəti ilə bağlı mitinq və yığıncaqlarda çıxış edənləri məsuliyyətə cəlb etsinlər, dövlət orqanlarında işləyib sovetlərə rəğbət bəsləyənləri təcili olaraq işdən çıxarıb həbs etsinlər.[27] 1944-cü ilin dekabrında Daxili İşlər Nazirliyi Azərbaycanda olan yerli orqanlarına göstəriş vermişdi ki, Sovet hərbi komendantlarına gündəlik raport verilməsini dayandırsınlar. Azərbaycan SSR-in təhlükəsizlik orqanlarının məlumatında göstərilirdi ki, İran hökuməti Azərbaycanda Sovet təsirinə qarşı bütün vasitlərlə mübarizə aparmaq üçün gizli qərar qəbul etmişdir. İngilislər hökumətə vəxd vermişdi ki, Güney Azərbaycanda Sovet təsirinə müqavimət göstərən təşkilatlara və ayrı-ayrı şəxslərə pul yardımı göstərəcəkdir. Şimal vilayətlərinə göndərilən məktubda qeyd edilirdi ki, yerli hakimiyyət orqanları Sovet nümayəndələrinin göstərişi ilə törədilən pozuculuğa qarşı yetərincə müqavimət göstərmir. General Seyfin imzası ilə yayılmış sərəncamda deyilirdi: "Sürgünlər və həbslər haqqında Sovet nümayəndələrinin tələbləri ilə bağlı bildiririk: bütün bunlar ölkənin daxili İşlərinə müdaxilə xarakteri daşıyır, mövcud qanunlarla ziddiyyət təşkil edir. Bu tələblərə əməl etməkdən imtina olunmalıdır və hər dəfə onlara cavab vermək lazımdır ki, ostandara və fərmandara müraciət etsinlər. Eyni zamanda hər dəfə Sovet nümayəndələrinə neçə cavab verməniz teleqrafla mənə bildirməlisiniz. Bu göstərişi yerinə yetirməkdən azca yayınmaq günahkarın məsçuliyyətə alınması ilə nəticələnəcək. Bu əmri yerinə yetirməyən polis rəisləri işdən azad ediləcəklər. Məsələ barədə Sizə tabe olan polis işçilərinə də məlumat verin".[28]

Tehrandan gələn bu sərəncamlarla bağlı yalnız Təbrizdə sovetlərə loyal münasibət bəsləyən ostandar

Dadvər, polis rəisi Ziyai, şəhər idarəsinin rəisi Rəhimi, polis şöbələrindən biri ilə rəisi Dehani və digərləri az sonra vəzifədən götürülmüşdü. Rezayedə iri torpaq mulkiyyətçisi Əliağa Teymuri Xalq Partiyasına daxil olan kəndlilərin torpağını əlindən almışdı. 1945-ci ilin yanvar ayının 1-də isə Rezayedəki Xalq Partiyasının yerli Komitəsinin sədri Azad Vətənə qəsd etmişdilər. Miyanədə jandarm rəisi Tacir Mir Əhməd Qəmərə 50 tufəng, Mirzə Qulu xana 100 qufənk vermişdi ki, öz adamlarını silahlandırıb tudəçilərə qarşı mubarizə aparsınlar. Ərdəbildə mulkədar Nəsrulla xan Yudçu 1945-ci ilin martında Xalq Partiyasının üzvü olan 80-dən arqıq kəndlinin partiya biletini almışdı. Aprel ayında Təbrizdəki Sovet işçilərinin uşaqları, o cümlədən Baş konsul Matveyevin oğlu döyülmüş və kapitan Novikovun yetginlik yaşına çatmamış qızı zorlanmışdı. Xalq Partiyası üzvlərinin döyülməsi və təqib edilməsindən, Sovet işçilərinə qarşı törədilən zorakılıq faktlarından ciddi narahatçılıq keçirən M.C.Bağırov İ.Stalinə vurduğu teleqramda yazırdı: "Mart ayının 30-da iki İranlı ilə birlikdə iki polis işçisi Təbrizdə bizim hərbi hissədə işləyən muhəndis Yakuşenkonu döyüblər. 8 apreldə dəladuzlar qrupu kafe sahibi ilə birlikdə bizim işçilərin uşaqlarına zor tətbiq ediblər. İki oğlanı - onlardan biri Baş konsul Matveyevin oğludur – döyüblər. Onlarla birlikdə olan kapitan Novikovun qızını 7 nəfər zorlamışdır. Bizim numayəndələrimizin hörmətdən salınmasına yönəlmiş belə iyrənc faktlar xarici kəşfiyyatın iştirakı olmadan mürtəce elementlər tərəfindən qörədilə bilməz. Görünür bunu bizim bəzi konsulluq işçilərimiz hələ də anlamır".[29] Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komissarı S.Yemelyanov hələ mart ayının 3-də M.C.Bağırova göndərdiyi arayışda ingilislərin Guney Azərbaycanda fəallaşdıqlarını bildirirdi. İngilislər Təbrizdə təbliğat aparırdılar ki, yaxın zamanlarda Azərbaycan İrandan qopardılacaq və müstəqil respublika qurulacaq. Şəhərdəki İngilis Bankının direktoru

Millerə görə Güney Azərbaycanda çevriliş 1945-ci ilin may ayına qədər baş verməli idi.

Təbrizdəki vəziyyət barədə Miller fevral ayının axırlarında Tehrana məlumat göndərmişdi və xahiş etmişdi ki, Bankın əməliyyatlarının məhdudlaşdırılmasına icazə versinlər. İngilislər varlı adamlar başa salırdılar ki, öz sərvətlərini götürüb Güney Azərbaycandan çıxsınlar. Yalnız fevral ayının 19-da Təbrizdəki İngilis Bankı İranın cənubuvda yerləşən banklara 2 milyon rial pul köçürmüşdü.[30]

1945-ci ilin martında Sovetlər və Xalq Partiyası əleyhinə Təbrizdə baş vermiş hadisələr çoxları üçün gözlənilməz oldu. Mart ayının 21-də Novruz Bayramı günü xırda və orta tacirlər, fabrik sahibləri, bir sıra mülkədarlar və onlara yaxın olan 2 minə qədər adam Təbrizdə mitinq təşkil etdi. Təbriz şəhridarı Möhtaşaminin şəxsində hakimiyyət dairələrinin bu hadisələrin arxasında dayandığı hiss olunurdu. Vəkil Rzazadə, vaxtilə Sovet komendantlığı tərəfindən Təbrizdən sürgün edilib gizli yolla yenidən şəhərə qayıtmış Hüseyn Fişançı, Təbrizdə gizli şəkildə təşkil edilmiş "Həqiqət" cəmiyyətinin üzvləri Məsud və İbrahim Əliyarilər, xırda tacirlərdən Abbas Tabakçı, Əmir Bakkal, Çəfər Qara və digərləri mitinqan təşkilində fəal iştirak etməlidirlər. 21 mart mitinqində belə şüarlar səslənmişdi: "Xalq Partiyası və onu müdafiə edənlər rədd olsunlar", "Şaha və Seyid Ziya Əd-Dinə eşq olsun", "Biriyaya ölüm" və s. İran ordusunun podpolkovniki Kamali mitinqçilər qarşısında Sovetlər əleyhinə çıxış etmişdi.[31]

Mart ayının 22-də mitinq iştirakçılarının bir hissəsi din xadimi Molla Fətəlinin evini mühasirəyə alıb onu öldürməklə hədələyirdilər. Onların məlumatına görə Molla Fətəli tudəçilərin işində iştirak edirdi. Xalqçıların mudaxiləsi ilə din xadimi ölümdən qurtara bildi.

Sovet hərbi rəhbərliyinin tələbi ilə mitinqin təşkilatçıları həbs edildi. Podpolkovnik Kamali

Təbrizdən çıxardıldı. Sovet Baş konsulluğu ostandara məktub göndərdi ki, Şəhridar Möhtaşami Təbrizi tərk etsin. Araşdırmalar nəticəsində aydın oldu ki, Xalq Partiyasına qarşı durmaq uçün Təbrizdə bir neçə gizli təşkilatlar yaradılmışdır. Onlar Tehrandan müvafiq göstərİşlər alırlar. Vəkil Rzazadə bu göstərİşlərə uyğun olaraq hətta Təbrizdə "Xalqı xilas etməyin açarı" adlı qəzet nəşr etmişdi. Sovet komendant lığının səronçamı ilə qəzet bağlanmış, Rzazadə isə həbs edilmişdi. Təbrizdə gizli şəkiddə yaradılmış "həqiqət" təşkilatı əsasən Seyid Ziyanın tərəfdarlarını birləşdirirdi və Xalq partiyasına qarşı təşkil olunmuşdu.[32]

Novruz nümayişi ilə birlikdə həmin vaxt Təbrizdə vəziyyəti gərginləşdirən digər bir hadisə də baş vermişdi. 800 nəfər fəhləsi olan və Qızıl ordu üçün şinel tikən "Toşlinen" adlı böyük aksioner fabriki işi dayandırmaq və fəhlələri çıxarmaq qərarına gəlmişdi. Səbəb isə belə izah edilirdi ki, Sovet ticarət nümayəndəliyi müqavilənin müddəti qurtardığı üçün fabrikin məhsulunu almadığından müəssisə ziyana düşmüşdür. Həmkarlar təşkilatı ilə aiarvşan danışıqlarda martın 20-də razılıq əldə edilmişdi ki, fəhlələrin işlədiyi günlərin pulu verilsin və onlar haqqı ödənilən məzuniyyətə buraxılsınlar. Lakin Təbrizdə miqinq başlayan gün fabrik rəhbərliyi bildirdi ki, İran bankı fabrikə kredit buraxmadığı üçün 20 mart razılaşmasına əməl edilməyəcəkdir. Belə olduqda fəhlələr martın 21-də fabrikin içində bəstə oturdular və haqlarını almayana qədər buradan getməyəcəklərini biddirdilər. Fəhlələrin müraciətivdə deyilirdi: "Xalq öz evində Novruz Bayramını qeyd etdiyi vaxtda, pul olmadığından biz fəhlələr öz ailə və uşaqlarımızla birlikdə bayram keçirmək iqtidarında deyşşk. Fabrikantlar bizim əmək haqqımızı vermirlər. Ona görə biz fabrikə gəldik və haqq-hesab olmayana qədər fabrikin fiti uğuldayacaq. Bu

fit bayram günündə bizim aclıq çəkən arvad uşaqlarımızın göz yaşlarını ifadə edəcəkdir".

21 martda baş vermiş hadisələrlə bağlı S.Yemelyanovun və A.Atakişiyevin göndərdiyi xüsusi məlumatda qeyd edilirdi ki, Xalq Partiyasının Təbriz əyalət komitəsi baş verənlərə cavab vermək iqtidarında deyildir. Mürtəce qüvvələr bu İşlərə böyük vəsait xərclədiyi, adamları satın aldığı şəraitdə Xalq Partiyasının ayrı-ayrı üzvləri gündəlik dolanışıq üçün iş tapmaq məqsədi ilə müxtəlif yerlərə dağılışırlar. Maddi vəsait olmadığından Əyalət Komitəsi vərəqələr, xalqa müraciətlər buraxa bilmirlər, filiallarda işi gücləndirmək üçün öz adamlarını rayonlara ezam edə bilmirlər.[34]

Təbrizdəki mart hadisələri ilə bağlı Sovet təhlükəsizliyi orqanlarının şəhərdə "Çoban" adı altında fəaliyyət göstərən rezidentinə göstəriş verilmişdi: ostandar Dadvərin mövqelərinin zəifləməsinə baxmayaraq Baş Konsulluq vasitəsi ilə ona təsir göstərmək lazımdır ki, şəhərdə bir də belə hadisələr təkrar olunmasın. Ostaiın və şəhərin rəhbərliyini xəbərdar etmək lazımdır ki, onlar baş verən hadisələrə ciddi reaksiya verməsələr, təxribatçıların qabağını almasalar, təxribatlara son qoymasalar Sovet Kərbi Komendantlığı şəhərdə qayda-qanun yaratmaq üçün ölçü götürmək məcburiyyətində qala bilər. Yaranmış gərgin vəziyyətlə bağlı rezidentə tapşırıq verilirdi ki, pozucu qüvvələrin hərəkətlərini nəzarətə götürsün və hər hansı məlumat alınan kimi Təbrizdəki Sovet Komandanlığını və Qəzvində oturan Azərbaycan Dövlət Təhlükəsizliyi Komissarlığının rəhbər işçilərini təcili məlumatlandırsın. Tövsiyə edilirdi ki, bu tapşırıqlar Təbrizdəki Korpus Komandanlığının hərbi Şurasına çatdırılsın. Komandanlıq öz növbəsində şəhərdə patrul-nəzarət İşlərini kücləndirməli idi. Təkrar ola biləcək hər hansı belə hadisələrin qabağı vaxtında alınmalı və pozuculuqla məşğul olanlar cəzalandırılmalı idi.[35]

Martın 21-də Təbrizdəki hadisələrlə bağlı iki gün sonra martın 23-də M.C.Bağırov Stalini məlumatlandırdı. Moskva ÜİK(b)P MK-na göndərdiyi teleqramda M.C.Bağırov yazırdı: "Son zamanlar Güney Azərbaycanda bütün məlumatların təsdş stdiyinə görə ingilislər tərəfindən qızışdırılan mürtəçe ünsürlərin xeyli fəallaşdığı müşahidə edilir. Belə bir şayiə yayılıb ki, Guya Sovetlər tərəfinin təhrikçiliyi ilə Xalq Partiyası tərəfindən çevriliş hazırlanır. Bunun nəticəsində tacirlər, fabrikantlar və torpaq sahibləri öz əmlaklarını satır, avadnlıqlarını ölkədən çıxarırlar. Daha çox imkanlı dairələr öz vəsaitlərini Britaniya banklarına keçirirlər. Etibarlı şəxslərin, mülkədarların və tacirlərin polis və jandarm tərəfindən silahlavdırılmasına aid faktlar vardır. Təbrizdə və Rəştdə İran ordusu qərargahı tərəfindən mülki paltar paylanmış polislər vardır ki, həlledici məqamlarda hakimiyyət orqanlarına köməklik edirlər. İş o yerə çatıb ki, İran ordu hissələrinin müdafiə etdiyi pozucu ünsürlər Təbrizdə təxribatçı nümayiş keçiriblər. Belə açıq çıxışlar heç 1941-1942-ci illərin gərgin günlərində də baş verməmişdi. Yaranmış şəraitlə əlaqədar bizim sonrakı tədbirlərimizlə bağlı Sizin göstərİşlərinizi gözləyirik.[36]

## XI. Avropada müharibənin sonu və Şeyxülislamın xeyir-duası

1945-ci ilin mayında Avropada müharibə qurtardı. Müttəfiqlər qələbə çaldı. Mayın 8-də İngilis, İran, Rus radiolarının məlumatından Almaniyanın danışıqsız təslim olduğu bilindi. Qələbə İranda da böyük sevinclə qarşılandı. Müttəfiq qoşunların ölkəyə daxil olmasının az qalırdı ki, dörd ili tamam olsun. 1907-ci ilin 31 avqust ingilis-rus müqaviləsindən sonra İkinci dəfə idi ki, İran belə ağır vəziyyətlə üzləşirdi. XX əsr ərzində ölkə iki şəhrivər həyacanını yaşamışdı.

Qələbə xəbəri İran siyasi dairələrində xarici qoşuqşarın ölkədən çıxmasına ümidləri artırmışdı. Almaniyanın təslim olması haqda məllumat alınan gün - mayın 8-də saat 17.00-də Tehranda dövlət binalarının üzərində İngilis, Sovet, İran, Amerika, Çin bayraqları qaldırıldı. Şəhər vağzalı qələbə nişanı ilə bəzədildi. Əhali ez evlərinin üzərində İran bayrağını asmağa başladı. Çoxlu adamlar alınan məllumatın doğruluğunu müzakirə etmək üçün şəhər vağzalına və Topxana meydanına toplanırdı. Həmin axşam Tehranın başı üzərindən atəşfəşnlıq, zavod və dəmir yol depolarının fasiləsiz fiti əskik olmadı.

Mayın 9-da qələbə təntənəsi davam etdi. İş yox idi. Şəhər al-əlvan bəzədilmişdi. Demək olar ki, bütün İran qəzetləri təslim aktının mətnini Marşal Stalinin, Baş nazir Çörçilin, prezident Trümenin portretləri arasında dərc etmişdilər. Kündüz saat 3-də Məhəmməd Rza şah "Transİran" dəmir yoluna ölkənin "Birinci dərəcəli Şərəf Ordenini" təqdim etmək üçün vaqzala getmişdi. Axşam saat 7-yə yaxın Topxana meydanına yüz minə qədər adam toplaşmışdı. Atılan fişənklərin səsi şəhəri başına götürmüşdü. Kecə İran radiosu ilə şahın çıxışı verildi. O, deyirdi: ölkənin coğrafi vəziyyəti imkan vermədi ki, İran silahlı qüvvələri bilavasitə ümumi düşmənə qarşı müharibədə iştirak etsin, lakin İran xalqının qələbədə payı ciddidir. Biz cəbhəyə

xidmət uçün dəmir və avtomobil yollarımızı Böyük dövlətlərə verdik. Bu işdə özu çətinlik çəkən İran xalqı bizim müttəfiqlərə ciddi köməklik kösqərdi. Şahənşah çıxışının sonunda qeyd etdi ki, ölkədə müəyyən qruplar vardır ki, öz hərəkətləri ilə İran dövlətini zəiflədir, ölkəni xarabalığa çevirmək istəyirlər.

Mayın 9-da Qələbə bayramı demək olar ki, Güney Azərbaycanın bütün şəhörlərində qeyd edildi. Elə həmin gün Seyid Ziya bildirdi ki, "Qələbə ilə əlaqədar olaraq müttəfiq orduları təcili olaraq İran ərazisini tərk etməli, İranın azadlığı və müstəqilliyi təmin edilməlidir ".[2]

Qələbə bayramını İran hökumət böhranı şəraitində qeyd edirdi. Mürtəza Bayat hökuməti 1945-ci ilin aprelində istefa vermişdi. Uzun müzakirələrdən sonra yeni hökumətin təşkil edilməsi 76 yaşlı İbrahim Həküm-ül Mülkə tapşırıldı. Mayın YZ-də yeni hökumətin tərkibi elan edildi. Vaxtilə Qacarlar sülaləsinin həkimi olmuş İbrahim Bəküm-ül Mülk Baş nazir və daxili İşlər naziri vəzifəsini qutdu. O, Seyid Həsən Tağızadə ilə birlikdə "Tərəqqi" Partiyasının yaradıcılarından biri idi. Hökumət təşkil ediləndə Londondakı İran səfiri S.B.Tağızadə San-Fransisko konfransında İran nümayəndəliyinə rəhbərlik edirdi. Sovet orqanlarının məlumaqına görə İbrahim hakimi İngiltərəyə meylli idi. Mərkəzi Londonda olan "Fraksion" gizli partiyasının üzvü hesab edilirdi. Yeni hökumət kabinetində Nadir Mirzə Arəstə yollar naziri, Ənuşirəvan Sipəhbudi Xarici İşlər naziri, Əbdül Həsən Nəçm-ül Mülk sənaye naziri, Qulam Hüseyn Rəhnüma maarif naziri, Allahyar xan Saleh ədliyyə naziri, İbrahim Zəvd hərbi nazir, İsmayıl Mirzibai səhiyyə naziri, Nəsrulla Ehtüşam-ül Mülk kəid təsərrüfatı naziri, Əbdül Büseyn Bajir maliyyə naziri, Nəsir ül Mülk hidayət və Mustafa Ədl porqfelsiz nazir vəzifələrşş qutdular. Mayın 13-də İbrahim hakimi parlament iclasında yeni hökumətin proqramını elan etdi. Yeddi

bənddən ibarət olan hökumət proqramı əsasən İranla müttəfiqlər arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə, iqtisadi, vergi, büdcə və s. məsələlərə həsr edilmişdi.[3]

Həküm-ül Mülk hökumətinin mövqeyi məclisdə elə də möhkəm deyildi. O, özü İran siyasi dairələrində birmənalı qiymətləndirilmirdi. Hökuməti tənqid edən, İsfahandan deputat seçilmiş Seyid Mehdi Mir Əşrafiyə məclisin iclasında fikrini açıq söyləmək təklif edildikdə o, demişdi: Mən o qədər açıq danışıram ki, hətta ağayi Kəküm-ül Mülk də anlayır.

İbrahim Hakimi hökumətinin ilk xarici siyasət addımı Tehrandakı SSRİ, Böyük Britaniya, ABŞ səfirlərinə müvafiq ölkələrin qoşunlarının İrandan çıxarılması barədə nota təqdim etmək oldu. İranın Xarici İşlər naziri Ənuşirəvan Sipəhbudinin sovet səfiri M.Maksimova verdiyi 19 may 1945-ci il tarixli, 1117 saylı Notada deyilirdi: Müharibənin qurtarması münasibəti ilə ürəkdən sevinirik. Özümüzə borc bilirik ki, İran hökumətinin təbriklərini böyük müttəfiqlərin qəhrəman ordusu ilə birlikdə düşmənin qüvvələrini əzmiş, Alman ordusunu danışıqsız təslim olmağa məcbur etmiş SSRİ-nin qüdrətli ordusuna çatdıraq. İranla SSRİ arasında mehriban münasibətləri təsdiq etməklə İran hökumətinin aşağıdakı fikrini və xahişini zati alinizin nəzərinə yetiririk:

Belə ki, Avropada müharibə rəsmən başa çatmışdır. Müharibənin nəticəsi olaraq İrandakı mövcud vəziyyəti saxlamağa ehtiyac duyulmur. Tezliklə ölkədə normal - dinc vəziyyəti bərqərar etməyin zəruriliyini və İran xalqının iradəsini ifadə edərək bildiririk ki, artıq İran ərazisində Sizin dövlətinizin silahlı quvvələrinin saxlanmasına heç bir ehtiyac yoxdur. Almaniya ilə müharibədə bizim müttəfiqaərin qələbəsinə yardım məqsədilə imzalanmış üç dövlət müqaviləsinin ruhuna uyğun olaraq İran hökuməti xahiş edir ki, Sovet İttifaqı Silahlı Qüvvələri İran ərazisini tərk etsin.[4] Sovet səfirindən xahiş edilirdi ki, yuxarıda deyilənləri

SSRİ hökumətinin nəzərinə yetirsin və İran Xarici İşlər Nazirliyinə bu məsələ ilə bağlı öz hökumətinin razılığını çatdırsın. Britaniya və Birləşmiş Ştatlar səfirliyinə qəqdim edilən notalar da eyni ilə bu məzmunda idi. Lakin İran siyasi dairələri Sovet İttifaqının ölkənin şimalından asanlıqla çıxaçağını fikirləşməkdə yanılırdılar. Almaniya üzərində qələbə SSRİ-nin iştahını xeyli artırmışdı. Şərqə Avropa qələbə eyforiyasından sonrakı Sovet ekspensiyası dövrünə qədəm qoyurdu. "Soyuq müharibə"nin isti nəfəsi Yaxın və Orta Şərqə, xususilə İran və Türkiyəni də isitməkdə idi. Hələ 1945-ci ilin mart ayının 19-da V.Molotov SSRİ ilə Türkiyə arasında 17 dekabr 1925-ci ildə imzalanmış və 7 noyabr 1945-ci ilə qədər müddəti olan dosqluq və təhlükəsizlik haqqında müqaviləyə yenidən baxılaçağını bildirmişdi, O, Türkiyənin Moskvadakı söfiri Səlim Sarperə müraciətində bunu İkinci dünya müharibəsinin yaraqdığı "dərin dəyişikliklərlə" izah edirdi. 7 apreldə Türkiyə hökuməti uzun müddət böyük önəm verdiyi bu müqavilədən Sovetlərin narazılığını öyrənmək məqsədilə Moskvaya sorğu verdi və buna bənzər yeni bir müqavilənin imzalanmasını da mümkün saydı. SSRİ Türkiyənin bu sorğusunu cavablandırmağa elə də tələsmirdi. Lakin 1945-ci ilin aprel-iyun aylarında keçirilən San-Fransisko konfransında baş vermiş bir hadisə bəzi məsələlərə müəyyən aydınlıq gətirdi. Bu Amerika Ermənilərі Milli Şurasının Konfransa qəqdim etdiyi bəyannamə idi. Bəyannamə ilə eyni vaxtda Eçmiədziйdə Milli Kilsə yığınçağı nümayəndələri Stalinə teleqram göndərmişdi ki, erməni məsələsini həll etsin. Hər iki sənəddə söhbət Türkiyənin Şərq vilayətlərinin Ermənistan SSR-ə birləşdirilməsindən və "xaricdəki ermənilərin öz doğma ölkələrinə qayıtmasından" gedirdi. İngilis kilsəsinin başçısı Conson da ermənilərin bu "Ədalətli" tələbini Yerevandakı çıxışında müdafiə etmişdi.[5] Sovet dövlətinin nöqteyi nəzərini ifadə edən SİTA-nın erməni məsələsi ilə bağlı məlumat yayması, "Sovetskaya

Armeniya" qəzetində Türkiyəyə ərazi iddiaları qaldİran Derenik Dəmirçiyanın məqaləsinin nəşr olunması xaricdə yaşayan ermənşşri xeyli fəallaşdırdı. Azərbaycan Dövlət təhlükəsizliyi orqanlarının Təbrizdən verdiyi məlumatda göstərilirdi: "Sovetskaya Armeniya" qəzetinin həmin nömrəsi Təbriz erməniləri arasında əl-əl gəzirdi. Bu məsələyə böyük maraq olduğunu görən yerli "Antifaşist" qəzeti "Sovetskaya Armeniya"dakı məqaləni təkrar naşr etdi. Həmin məqalə ayrıca vərəqə şəklində nəşr olundu və bir neçə saat ərzində yayıldı. Bütün həftə ərzində yerli erməni icmasının əsas müzakirə mövzusu San-Fransisko bəyannaməsidir. Təbriz ermənilərinin fikrincə, onların milli məsələsi yalnız Sovet İttifaqının rəsmi müdaxiləsi ilə həll edilə bilər. Təbrizdəki erməni kilsəsinin başçısı arxiyepiskop Nerses Melik-Tanqiyan deyirdi: Moskvanın hesabına biz sərhədlərimizin genişləndirilməsinin və xaricdən Ermənistana qayıdışın şahidi oluruq İndi artıq bunun vaxtıdır, bir neçə on ildən sonra xarici həyat tərzinə öyrənmiş yeni nəsil yaranar və bu iş mümkünsüz olardı. Stalinə teleqram vurmaq çox ağıllı fikirdir. Bizim üçün nə edəcəksə bu adam edəcək. Təbrizdəki daşnakların lideri Haik Əcəmyanın fikrincə, həm San Fransisko Konfransına təqdim edilmiş bəyannamə, həm Eçmiədzin kilsə yığıncağının Stalinə teleqramı Sovet hökuməti ilə razılaşdırılmışdı. H.Əcəmyan erməni məsələsi ilə bağlı bütün baş verənləri Sovet İttifaqının siyasətinin nəticəsi hesab edirdi.6 İranda Tudə Partiyasının üzvü olan ermənilərdə bu ideyaıı ürəkdən bəyənirdilər. İran Xalq Partiyasının üzvü Haik Ovanesyan daha qabağa gedərək "erməni məsələsini" Bakı neft mədənlərinin təhlükəsizliyi ilə əlaqələndirirdi. O, deyirdi: Bakı neft sənayesinin təhlükəsizliyi tələb edir ki, sərhədlər Leninakandan bir qədər o tərəfə çəkilsin. İndiki anda "erməni məsələsinий" meydana çıxması bu zərurətlə bağlıdır. Sovet hökuməti Bakının təhlükəsizliyi məsələsində həddindən artıq maraqlıdır.[7]

Xalq Partiyasının digər üzvü, keçmiş qnçakist Levon Çuxasızyan göstərirdi ki, San-Fransisko Konfransına təqdim edilən bəyannamə, Eçmiədzin yığıncağının Moskvaya müraciəti Yerevan qəzetlərindəki Deranik Dəmirçiyanın, Medxasyanın məqalələri, İngilis kilsəsi başçısının Ermənistandakı çıxışı bir zənçirin həlqələridir. İndiki zaman Moskva üçün çox əlverişlidir ki, türklərlə bütün həll olunmamış məsələlərini, o cümlədən sərhəd məsələsini həll etsin. Tezliklə biz görəcəyik ki, Türkiyə ilə dostluq haqqında müqaviləni ləğv etmək barədə Molotovun notası elə-belə verilməmişdir. Təbriz ermənilərinin fikrincə, "əgər Moskvanın razılığı olmasaydı Amerika ermənilərinin bəyannaməsi meydana çıxa bilməzdi".[8]

"Erməni məsələsi" ilə bağlı ictimai rəy yetərincə formalaşdıqdan və ermənilərin fəallaşmasına nail olduqdan sonra Ankaranın 7 aprel sorğusuna cavab olaraq Molotov Moskvadakı türk böyük elçisini qəbul etdi. Danışıqlar zamanı Molotov yeni "dostluq" paktının imzalanmasından öncə Sovet-Türk şərq sərhədlərində dəyişikliklər edilməsini, SSRİ-nin təhlükəsizliyi üçün Boğazlarda Sovetlərə üstünlük verilməsini, Montryo sazişinə yenidən baxılmasını açıqladı.[9] Türkiyə hökuməti SSRİ-nin bu təkliflərini rədd etdi.

Almaniya üzərində qələbədən sonra Sovetlərin Güney Azərbaycanda möhkəmlənmək siyasəti strateji baxımdan Türkiyəyə qarşı irəli sürülən tələblərin gerçəkləşdirilməsinə köməklik göstərməli idi.

İrandakı ermənilər əməli cəhətdən də bu İşlərə hazırlaşırdılar. Ölkənin müxtəlif yerlərindən onlar 1945-ci ilin ortalarından etirabən Urmiyəyə köçməyə başlayırdılar. Sovetlərin tələbi ilə Türkiyənin Şərq vilayətləri Ermənistana birləşdirildikdən sonra "Böyük Ermənistanla" sərhəddə birinci addım kimi ermənilər İran daxilində muxtariyyət almağı planlaşdırırdılar. 1945-ci ilin iyulunda məlum oldu ki, "Böyük Ermənistan" və "kiçik muxtariyyət" naminə Təbrizdəki erməni məktəbinin və erməni kilsəsinin zirzəmilərində çoxlu

sayda Tüfəng, top, qranat, partladıcı maddə, patron və s. gizlədilmişdir. Ən maraqlısı o idi ki, bu silah anbarından İran Xalq Partiyasının üzvü olan ermənilərlə, daşnak və qaçaq partiyasının üzvü olan ermənilərin birgə xəbari var idi. İstintaq zamanı Xalq Partiyasınıi rəhbərliyindən olan David Gevorkyan təsdiq etmişdi ki, erməni məktəbinin zirzəmisində daşnaklara məxsus silah olduğundan hələ 1944-cü ildə onun xəbəri var idi. Guya ona görə bu faktı o gizlədib ki, Xalq Partiyasının üzvlərini silahlandırmaq üçün ondan istifadə etsin. Azərbaycan Dövlət Təhlükəsizlik Komissarlığının hazırladıkı arayışda göstərilir ki, silah anbarı daşnakların nəzarətində olmuşdur və hər zaman orada olan silahı onlar digər yerə aparmaq imkanına malik olublar. Sözsüz ki, daşnaklar silahın Xalq Partiyası üzvlərinin əlinə keçməsinə imkan verməzdilər.[10] Müharibə qurtaran kimi Sovet xüsusi orqanları ilə daşnaklar arasında iş birliyi yarandığı üçün Təbrizdəki ermeşi kilsəsinin başçısı Məlik-Tanqiyan SSRİ təhlükəsizlik orqanlarına şəxsən bildirmişdi ki, o, həmişə daşnakları himayə etmişdir, silah və sursatı da kilsənin zirzəmisində o kizlətmişdir. Azərbaycan təhlükəsizlik xidmətinin məlumatına görə yepiskop Nerses Məlik-Tanqiyan hələ 1929-cu ildən ingilis kəşfiyyatı ilə bağlı olmuşdur.[11]

Təbrizdəki erməni kilsəsi və məktəbinin zirzəmisindən silah tapılması əlahinin və xüsusilə mollaların ciddi narazılıkına səbəb oldu. Müzakirələr zamanı qeyd olunurdu ki, bu silah yerli əhaliyə qarşı istifadə olunacaqmış. Bu zəmində şəhərdə ermənilərin döyülməsi halları baş verdi və onların ünvanına hədələyici çıxışlar oldu.

1944-cü ilin martında ÜİK(b)P MK-nın və SSRİ Xalq Komissaları Sovetinin "Günsy Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımı kücləndirmək tədbirləri haqqında" qərarına uyğun olaraq hazırlanmış iş planında qeyd olunurdu ki, əhaliyə təsir vasitəsi kimi dinə və din xadimlərinə xüsusi diqqət yetirilməlidir. Bu plana uyğun

olaraq 1945-ci ilin mayında Zaqafqaziya ruhani idarəsinin rəisi Şeyxülislam Axund Ağa Əlizadənin Güney Azərbaycan şəhərlərinə və Tehrana səfəri təşkil olundu. Səfərin bütün proqramı və onun təşkili SSRİ Dövlət Təhlükəsizliyi Komissarlığı tərəfindən hazırlanmışdı.[12] Səfər barəsində qabaqcadan İranın çox tanınmış din xadimi, İran Məclisinin üzvü Şeyxülislam Məlaeriyə teleqrafla məlumat vermişdi. Onun göstərişinə əsasən hakimiyyət orqanlarına tapşırıq verilmişdi ki, Şeyxülislam Əlizadəni qarşılayıb onu Tehrana qədər müşayiət etsinlər. Bu çox mühüm səfər hesab edilirdi. Hələ səfərə qədər də A.Əlizadə İranda yaxşı tanınırdı. 1944-cu ilin ortalarında onun dünya müsəlmanlarına müraciəti İranda geniş yayılmışdı. Qəzetlər müraciətin mətnini nəşr etmiş, Təbrizin, Tehranın, Məşhədin böyük məscidlərində onu oxumuşdular.[13] Mayın 22-də Şeyxülislam Axund Ağa Əlizadənin başçılığı ilə Axund Əbdül Rəhim Axundzadə, Axund Molla Müzəffər Mirzəcanzadə və onları müşayiət edən Əli Səmədovdan ibarət nümayəndə Heyəti Bakı - Culfa -Təbriz - Zəncan -Qəzvin - Tehran marşrutu ilə xüsusi qatarla yola düşdülər. Mayın 23-də saat 19-da nümayəndə Heyəti Təbrizə gəldi. Siqtətül İslam başda olmaqla Təbrizin bütün din xadimləri, ostandarı əvəz edən Nikuçu, dövlət aparatının yüksək məmurları, tanınmış xanlar, bəylər, tacirlər, ziyalılar, bütün hörmətli adamlar qarşılanma mərasimində iştirak edirdilər. Təbrizdəki SSRİ Baş konsulu Matveyev, konsulluğun kaqibi R.Quliyev də Şeyxulislamı qarşılayanlar arasında idilər. Ostandarı əvəz edən Nikuçu dəmir yol vağzalındakı qısa çıxışında Əlizadənin İrana səfərini yüksək qiymətləndirirdi. Onun gəlişi şərəfinə qurbanlar kəsildi. Səfərdən xəbər tutan Təbriz əhalisi küçələrə tökulmüşdü. Şəhərin baş küçəsində toplaşan əhali bir neçə dəfə Şeyxülislamın maşınını saxlatdırıb onu ürəkdən salamladılar. Sovet Azərbaycanından gedən din xadimləri Təbrizdə "Şeyxi" təriqətinin başçısı

Siqtətül İslamın evində qaldılar. Təbrizdə digər güclü təriqət olan "Mütəşərre"lərin başçısı Hacı Mirzə Xəlil Ağa Müctəhidi bu səbəbdən Şeyxülislamdan incidi. O, bunu Şeyxülislamın onun təriqətinə hörmətsizliyi kimi qəbul edir və onu ziyarət etməyəcəyini bildirirdi. Lakin Sovet orqanlarının gördüyü tədbirlər nəticəsində bu ziddiyyət aradan qaldırıldı və Müctəhidi də Şeyxülislamın görüşünə gəldi. Siqtətül İslamın evində böyük qəbul keçirildi. Təbrizin bütün din xadimləri və hörmətli işçiləri, əsilzadələri təkrarən Əlizadənin görüşünə gəldilər. İraqın şəhərdəki vitse-konsulu Doceyli də Şeyxülislamı ziyarət etmişdi.

Təbriz və Tehran mətbuatı Zaqafqaziya Ali Ruhani İdarəsi başçılarının səfərinə böyük maraq göstərirdi. "İrane ma" qəzeti A.Əlizadəni müsəlman dünyasının tanınmış şəxslərindən hesab edərək İran hökumətinin bu səfərə böyük əhəmiyyət verdiyini yazırdı.[14]

"Eqdam" qəzeti öz səhifələrində Şeyxülislamı İran müsəlmanları adından salamlayır və səfərin Zaqafqaziya müsalmanları arasında islam etiqadının möhkəmlənməsinə kömək edəcəyini bildirirdi. İran paytaxtında fransız dilində çıxan "Jurnal-de-Teqran"ın fikrincə Şeyxülislam Sovetlər Birliyinin ən nüfuzlu şəxslərindən biri hesab edilirdi. Nümayəndə Heyətiňn Qumu və Məşhədi ziyarət edəcəyi qeyd edilirdi. "Vətən yolunda" qəzeti həmin günlərdə A.Əlizadənin böyük portretini və islamın SSRİ-də "çiçəklənməsi" haqqında
geniş yazı verilmişdi. Mayın 26-da Təbrizdə çıxan "Xavəre nou" qəzeti bu səfərə böyük əhəmiyyət verərək yazırdı: İran xalqı ölkəmizə gəlmiş cənab Şeyxülislamı və onu müşayiət edən şəxsləri ürəkdən salamlayır. Ötən çərşənbə günü Şeyxülislamın təşrifindən xəbər tutan əhali saat 6-da dəmiryol vağzalına toplanmışdı. Ostandar və Siqtətül İslam başda olmaqla bütün nüfuzlu şəxslər hörmətli qonağın pişvazına çıxmışdı. Hörmət əlaməti olaraq Şeyxülislam onu qarşılayan əhalinin içərisinə gələrək onları salamladı. Bütün yol boyu on minlərlə şəhər əhli

A.Əlizadəni salamlayırdı. Gülüstan bağının yanında böyük izdiham var idi.[15] Qəzetin elə həmin nömrəsində M.Biriyanın Şeyxülislama həsr etdiyi şeri dərc edilmişdi.

Din xadimləri və ictimaiyyətin xahişi ilə mayın 27-də A.Əlizadə Təbriz məscidində moйzə oxumuşdu. Moйzədən əvvəl Sovetlərə rəğbəti olmayanlar və xüsusilə Seyid Ziyanın adamları deyirdilər ki, Şeyxülislam Stalin tərəfindən təbliğat aparmaq üçün göndərilib və o, rus dilində moйzə edəcəkdir. Əlbəttə, Şeyxülislam türk dilində moйzə etdi və onun çıxışı öz məzmunu və səviyyəsinə görə çoxlarının diqtətini cəlb etdi. Moйzəyə qulaq asanlar deyirdilər: "Çox təəssüf ki, bizdə maarifi, elmi və təhsili belə gözəl vəz edən güclü və hazırlıqlı din xadimləri yoxdur".[16] Şeyxülislamın Təbriz məscidində min nəfərin qarşısında belə güclü çıxışı onun haqqında aparılan əks təbliğatın təsirini xeyli zəifləndirdi. Halbuki onlar belə bir şayiə yayırdılar ki, ümumiyyətlə, Şeyxülislam molla deyil, din xadimi paltarı geyinmiş agentdir. Bununla bağlı Mirzə Xəlil Ağa Müctəhidi bildirmişdi ki, "bütün deyilənlər yalandır. Mən Əlizadəni Nəcəfdən tanıyıram, biz birlikdə oxumuşuq. O, əsl din adamıdır və buna heç bir şübhə ola bilməz".[17]

Mayın 28-də Təbriz ticarət palatasının sədri, Azərbaycanın tanınmış mülkiyyətçilərindən olan Sadiqiani öz evində Şeyxülislamın şərəfinə böyük ziyafət verdi. Təbrizdəki müzakirələrdə 25 illik fasilədən sonra Bakıdan yüksək rütbəli din xadiminin İrana səfəri birmənalı qarşılanmırdı. Vaxtilə, 30-cu illərin ortalarından Sovet Azərbaycanından İrana sürgün edilənlərin çoxu bolşeviklərin dinə qarşı neçə amansız mübarizə apardıqlarını görmüşdülər. Şeyxülislamın görüşünə gələn Yadulla xan Alarlı mülkədarların fikrini ifadə edərək deyirdi: Bolşeviklər yaxın zamanlarda İranda ictimai quruluşu dəyişdirmək istəyirlər. Ona görə din xadimlərini göndəriblər ki, İranın din xadimləri ilə əlaqə

yaratsınlar, bununla əhaliyə güclü təsir göstərib fəhlə firqələri ilə birlikdə bizim hökuməti yıxsınlar, öz qaydalarını bərqərar etsinlər.[18] Diş həkimi Sidbi Şəbüstəri A.Əlizadənin səfərini belə yozurdu: ruslar gördülər ki, onlar digər vasitələrlə İranlıları öz tərəflərinə çəkə bilmədilər. İndi də ruhaniləri işə salıblar.[19]

Sovetlərin bir tərəfdən Xalq Partiyasını müdafiə etməsi, digər tərəfdən din xadimlərini Güney Azərbaycana göndərməsi millətçi qüvvələrin narazılığına, bir çoxlarının isə tərəddüdünə səbəb olmuşdu. Təbrizin maarif idarəsi rəisinin müavini Səfvat deyirdi: Mən SSRİ-nin İranda yeritdiyi siyasəti heç cür başa düşə bilmiröm. Bir tərəfdən biz görürük ki, onlar Xalq Partiyasını müdafiə edir. Bu bizə fikirləşməyə əsas verir ki, Sovet İttifaqı İranda çevriliş hazırlayır. Dikör tərəfdən onlar müsəlman ruhanilərini İrana göndərirlər. Din xadimləri ilə Xalq Partiyasının tədbirləri bir-biri ilə ziddiyyət təşkil edir. İranda demək olar ki, böyük din xadimlərinin hamısı eyni zamanda iri torpaq mülkiyyətçiləridirlər. Bu səbəbdən də onlar Xalq Partiyasına tarşı mübarizə aparırlar. Sovet İttifaqı bu iki qüvvədən birinə söykənməlidir.[20]

Mayın 30-da Təbriz ostandarlığında Şeyxülislamla vida görüşü təşkil edildi və elə həmin gün nümayəndə Heyəti Miyanəyə yola düşdü. Miyanə bəxşirdarı Seyid Şafi Təba-Təbai Xudamuz, şəhərin ruhani başçısı Seyid Mir Mehdi başda olmaqla 10 nəfər din xadimi, 600 nəfərə qədər əhali Şeyxülislamı şəhərin 2 kiləmetrliyində təntənəli şəkildə qarşıladılar. Bir gündən sonra onlar Zəncana yola düşdülər.2 Səfərdən bir gün əvvəl Sovet qarnizonunun rəhbərliyi, şəhridar Rza Fəhimi, prokuror Şoruxi, üç yüzdən artıq kəndin sahibi olan iri mülkədar Sultan Mahmud xan Zülfüqari ilə birlikdə Şeyxülislamın qarşılanmasını müzakirə edərkən Şəhridar gözlənşşədən Sovet hərbi rəhbərliyindən soruşur: "Zəhmət olmasa deyin,

Şeyxülislamın və onu müşayiət edən şəxslərin rütbəsi nədir, mən bilirəm ona necə mədhnamə oxuyum? Kimdir o, polkovnik yoxsa general?[22] Rza Fəhimi bu sözlərin ona baha başa gələcəyini tez də anladı.

Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komissarı S.Yemelyanov SSRİ Təhlükəsizlik Komissarlığına göndərdiyi xüsusi məllumatda yazırdı: "Şeyxülislamın Vağzal vestibülündə görünməsi ilə bir neçə min adam onun qarşısında təzim etdi. Çoxları Şeyxülislamın üstünə atılır, onun əlini, ayağını, ətəyini öpür və sevincdən ağlayırdı. Şəhridar Rza Fəhmin də ağlayanların icərisində idi".[23]

Şəhər vağzalında qarşılanma mərasimindən sonra Şeyxulislam Zəncan əsilzadələrindən Sultan Mahmud xanın ayırdığı maşında Müctəhid Ağa Seyid Əbülfəz Musəvinin evinə getdi. Şəhər küçələri adamla dolu olduğundan Musəvinin evinin ətrafına polislər qoyulmuşdu. Lakin maşın dayanan kimi adamlar onun üstünə atıldı. Bəziləri yerə yıxılıb yalvardı ki, Şeyx Mübarək ayaqlarını onların belinə qoyub yerisin. Müctəhid Musəvi A.Əlizadənin şərəfinə böyük qəbul keçirdi. İyunun 1-də Zəncan məscidində Şeyxülislamın 12 İmam haqqında oxuduğu moйzo böyük diqqətlə dinlənildi, çoxları göz yaşlarını saxlaya bilmədi. Zəncanda Xalq Partiyasının keçmiş rəhbəri, hazırda şəhridarın tərcÜMƏCisi işləyən Əbdül Əlizadə Şeyxülislamın moйzəsinə qulaq asdıqdan sonra deyirdi: "Şeyxülislam məsciddə çıxış edənə qədər biz onun həqiqi din xadimi olduğuna inanmırdıq. İndi çoxları şəxsən özləri gördülər ki, Şeyxülislam əsl böyük müctəhiddir. Əvvəllər buna inanmırdıq ki, Zaqafqaziyada molla var. Əgər var idisə də burada hesab edilirdi ki, onlar allahsız mollalardır. İndi biz bunun əksini gördük.[24]

İyunun 2-də A.Əlizadə və onu müşayiət edənlər Qəzvinə gəldilər. Şəhər vağzalında onları Şəhridar Fəqizadə, şəhər idarəsinin rəisi Qiyas Nizami, təhsil şöbəsinin rəisi Qütve, məhkəmənin sədri və Sovet-İran dostluğu cəmiyyətinin rəhbəri Əcəmi, Maliyyə

İdarəsinin rəisi Azəri, bankın direktoru Sopeyki, altı torpaq mülkiyyətçisi, o cümlədən Raşfənd və Əlamuti, tacirlər qrupu, o cümlədən Əbrişini və Muini, "Novruz" qəzetinin redaktoru Novruzi, 27 nəfər din xadimi -ümumiyyətlə 400 nəfər qarşıladı. Qəzvindəki SSRİ Konsulu Çivilev və Sovet İdarələrinin nümayəndələri də Şeyxülislamın qarşılanmasında iştirak edirdilər. A.Əlizadə Qəzvində iki gün yerli orta məktəbin direktoru, fizika-riyaziyyat professoru Muininin evində qaldı. Şəhərin tanınmış din xadimləri, İmam Cümə, Tudə Partiyasının yerli filialının sədri Rezban, hakimiyyət orqanlarının nümayəndələri, əsilzadələr, fabrikantlar, torpaq sahibləri, ziyalılar və s. onu ziyarət etdilər. İyunun 3-də general-mayor A.Atakişiyev və konsul Çivilevin başçılığı ilə yüksək rütbəli Sovet hərbçilərinin Şeyxülislamın görüşünə gəlməsi onun nüfuzunu daha da artırdı.[25]

İyunun 4-də Bakıdan gələn din xadimləri Tehranda çox yüksək səviyyədə qəbul edildi. İran Məclisinin üzvləri Şeyxülislam Məlaeri, İpəkçian, Sədr Qazi, Firuzabadi, Fərman Fərmanian, Ədl Mehdi və digəri Tehran vağzalında idilər. Şeyx və onunla gələn din xadimləri Şeyxülislam Malaerinin evində qaldılar. Bir neçə gün ərzində minlərlə adam, çoxlu din xadimləri, keçmiş Baş nazirlər Mürtəza Bayat, Əli Soheyli, İbrahim Kakimi, Qəvam əs-Səltənə, yeni hökumət başçısı təyin edilmiş Möhsün Sədr (Sədr-ül-Əşrəf) və bu hökumət kabinələrində işləmiş nazirlər, Məclisin sədri Təba Təbai, Məclisin üzvləri, alimlər, müəllimlər, tudəçilər və digər siyasi təşkilatların nümayəndələri, mətbuat işçiləri Şeyxülislamın görüşünə gəldi.[26]

İyunun 7-də "İrane ma" və digər paytaxt qəzetlərinin müxbirlərinin SSRİ-də dinin vəziyyəti haqqında suallarına Ə.Əlizadənin cavabları dərc olundu.[27] Elə həmin gün Məlaerinin müşayiəti ilə Məhəmməd Rza şah A.Əlizadəni qəbul etdi. Bir saatdan artıq davam edən söhbətdə şah əsasən SSRİ-də islam dininin vəziyyəti,

Qafqazda müsəlmanların sayı və s, məsələlərlə maraqlanırdı.[28] Şeyxulislamın şah tərəfindən qəbul edilməsi İranın din xadimlərində və dindar əhalisində çox xoş təsir buraxdı. Tehran mətbuatı demək olar ki, hər kun bu səfər haqda yazırdı. "Dad" qəzeti hələ 30 il əvvəl Şeyxülislamın Quranı türk dilinə tərcümə etməsini çox yüksək qiymətləndirir, onun bir neçə xarici dil bilməsini, iki oğlunun həkim işləməsini, Şeyxin elmə və maarifə yaxın olmasıim yüksək qiymətləndirirdi.[29] "İrane ma" qəzetinin müxbiri yazırdı: "Şeyxülislamı görən zaman mən hiss etdim ki, o, məhz elə mənim arzu etdiyim adamdır. Onun gözəl, ağ çalmasının altında bütün bəşöriyyətin xeyri üçün fikirləşən dərin ağlı və sağlam zəkası vardı".30 Şeyxülislamın İran din xadimləri ilə görüşündən yazı verən "Müzəffər" qəzetinin fikrincə "özünün yüksək dini vəzifəsindən başqa Əlizadə böyük elm xadimidir. 30 il əvvəl o, Quranı türk dilinə tərcümə etmişdir. Ərəb və fars dillərini qibtə ediləcək qədər əla bilir".[31]

İyunun 8-də A.Əlizadə Şeyxülislam Məlaeri ilə birlikdə Quma səfər etdi. Həzrəti Məsumənin məzarının ziyarətindən sonra o, İslam dininin böyük elm və təhsil mərkəzində işləyən din xadimlərini qəbul etdi. İrana səfərinin məqsədini açıqladı, şərait elmi ilə bağlı bəzi məsələlər ətrafında fikir mübadiləsi etdi. Qumdan qayıdandan sonra Şeyxülislam iyunun 12-də Tehran universitetinin İlahiyyət fakültəsində mühazirə oxudu. Baş nazir Möhsün Sədr, maarif naziri, akademiyanın prezidenti, yüksək rütbəli din xadimləri, professorlar, Sovet səfirliyinin işçiləri və s. Şeyxi dinləyənlər arasında idilər. Elə həmin gün A.Əlizadə məşhur din xadimi Kaçı Ağa Rza Rəfiyi ilə görüşdü. O, Ruhulla Bəyayişş kitabına yazılmış 5 cildlik təfsiri Şeyxə hədiyyə etdi.

İyunun 13-də "Dad" qəzetinin redaktoru Amidi Nuri Bakıdan gələn qonaqların şərəfinə böyük. ziyafət verdi. 5 saatdan artıq davam edən ziyafətdə Şeyxülislam "Dad" qəzetinə müsahibə verdi və dəvətlilər qarşısında geniş

çıxış etdi. Həmin axşam Tehran radiosu ilə Şeyxin çıxışı verildi. O, deyirdi: Sovet İttifaqı xalqları həmişə vicdan azadlığından istifadə ediblər. Sovet Konstitusiyasının 124-cü maddəsində qeyd olunub ki, dini etiqad azaddır. Biz üləmalar dini ayinləri yerinə yetirməkdə həmişə azad olmuşuq. İndi Sovet hökuməti millətindən və dinindən asılı olmayaraq hamını oxudur. Kəndlərdə tək-tük savadsız adamlara rast gəlmək olar. Azərbaycan Respublikasında çoxlu institutlar və texnikumlar fəaliyyət göstərir. Bizdə Mir Qasımov kimi akademiklər, Əfəndiyev, Abdullayev, Qarayev, Məmmədəliyev kimi məşhur professorlar, yüksək ixtisaslı yerli kadrlar vardır. Bütün bu parlaq nailiyyətlərə görə Azərbaycan xalqı bütün bəşəriyyətin səadəti naminə çalışan Marşal Stalinə borcludur. Onun qayğısından bütün dünyanın xalqları, o cümlədən bizim Vətənimizin qədim qonşusu, dost-qardaş İran xalqı da faydalanır.[32]

İyunun 14-də A.Əlizadə Məlaeri ilə birlikdə Məşhədə üçdu. O, aeroportdan birbaşa İmam Rza ziyarətgahına getdi. Ziyarətdon sonra tanınmış Məşhəd ülaması Kafayinin evinə yollandı və iki gün ərzində minlərlə adamla görüşdü. Ostandar və keçmiş Baş nazir Əli Mənsur Şeyxin görüşünə gəldi. İyunun 17-də A.Əlizadə onu müşayiət edən şəxslərlə birlikdə Firdovsinin məzarını ziyarət etdi və Məşhəd Muzeyində oldu. İyunun 18-də o, yenidən Tehrana döndü. Əvvəlki gərgin görüşlər, çoxsaylı müraciət edənlərin qəbulu daha beş gün davam etdi. İyunun 23-də Azərbaycanın din xadimləri Rəştə gəldilər. Rəştdə Hacı Ağa Həsənin evində olduğu bir gün ərzində min nəfərdən çox adam Şeyxülislama baş çəkdi. İyunun 24-də Həzrəti Əlinin mövludu münasibəti ilə A.Əlizadonin Rəştdə oxuduğu moйzəni dörd mindən çox adam dinləyirdi. Bakıya dönərkən nümayəndə Heyəti daha bir gün Pəhləvidə İmam Cümə Pişvazinin evində qaldı. Pəhləvi məscidində üç mindən artıq dindarın qarşısında çıxış etdi. İyunun 26-da bir aydan artıq davam edən səfər başa çatdı.

Şeyxulislam və onu müşayiət edən şəxslər Bakıya döndü. Səfər haqqında SSRİ Xarici İşlər komissarının müavini S.Kavtaradzeyə və M.Bağırova Sovet səfirliyinin müşaviri Əhəd Yaqubovun göndərdiyi hesabatda deyilirdi: öz dərin biliyi ilə Şeyxulislam Əlizadə İran ictimaiyyətində, din xadimlərində və etiqad sahiblərində böyük təəssürat yaratdı. Onun İrana səfəri, Tehranda olması, Qumu və Məşhədi ziyarət etməsi SSRİ-də dinий vəziyyəti haqqında olmayan şeyləri yayan ingilispərəst mürtəce elementlərə və xarici ölkələrin casuslarına ağır zərbədir. Onun səfəri bizim uçun zəruri olan İran din xadimləri ilə əlaqələr qurmaq işində son dərəcə faydalı oldu. Səfərin nəticələri gələcəkdə bizim din xadimlərinə təsirimizi kücləndirmək üçün gərəklidir.[33]

Sovetlər Şeyxülislamın səfərini çox diqtətlə izləyirdi. Onun olduğu yerlərdə bütün Sovet idarələri A.Əlizadənin görüşləri və danışıqları barədə hesabatlar göndərmişdilər. Azərbaycan SSR Təhlükəsizlik Komissarı S.Yemelyanovun xüsusi məlumatı 22 səhifədən, Tehrandakı Sovet səfirliyinin muşaviri Ə.Yaqubovun hesabatı 14 səhifədən, VEO-50 Sovet idarəsinin siyasi şöbəsinin rəisi podpolkovnik Ənnağıyevin M.C.Bağırova məktubu 2 səhifədəi ibarət idi. Ə.Yaqubov təklif edirdi ki, Qafqazdan və xususilə Orta Asiyadan İrana din xadimləri göndərdikdə yerli əhalinin şiə olduğu mütləq nəzərə alınmalıdır. Şeyxülislamın səfərinə cavab olaraq Məlaerini Bakıya dəvət etmək lazımdır. Səfər barəsində Şeyxülislamın Bakı radiosu ilə çıxışı fars və ərəb dillərində verilməlidir. Tehranın, Qumun, Məşhədin., Təbrizin böyük məscidlərində Zaqafqaziya dini idarəsinin nümayəndəliyi açılması məqsədəuyğundur. Şeyxülislamın Bağdada və Qahirəyə də səfəri təşkil edilməlidir. İranın nüfuzlu qəzetləri vasitəsi ilə Şeyxülislamın səfərinin nəticələri ayrıca kitabça formasında fars dilində nəşr edilməlidir.[34] Sonuncu məsələni "Dad" qəzetinin redaktoru Amidi Nuri öz üzərinə götürmüşdü.

Tehrandakı Sovet səfiri M.Maksimov M.C.Bağırovdan xahiş edirdi ki, Nurinin Şeyxülislamın İrana səfəri haqqında hazırladığı kitab üçün Qafqazda islamın vəziyyətinə dair fars dilində material göndərilməsinə köməklik etsin. Məktuba cavab olaraq A.Əlizadənin "Sovet ittifaqında islam dininin vəziyyəti haqqında həqiqətlər" adlı geniş məqaləsi səfir Maksimova göndərildi.[35]

Şeyxülislam A.Əlizadənin və digər din xadimlərinin Güney Azərbaycana, Tehrana və digər yerlərə təşkil olunmuş səfərinin arxasında duran siyasi məqsədlərə əsasən nail olundu. Böyük hadisələr ərəfəsində Güney Azərbaycan türkləri Sovet Azərbaycanında islam dininin və din xadimlərinin olduğuna yəqinlik hasil etdilər. Bu səfərlə Şeyxülislam Sovetlərə qarşı təbliğ edilən "Allahsız cəmiyyət" xoğrunu güneylilərin canından bir qədər çıxara bildi. Bununla da Güney Azərbaycanda yaxın vaxtlarda baş verəcək hadisələrə o, öz xeyir-duasını verdi.

## XII. 1945-ci ilin yayı: Moskvanın qərarları və Güney Azərbaycan

1945-ci ilin iyununda Güney Azərbaycanda İşlər ciddiləşdi. İranda yeni hökumət böhranı dərinləşməyə başladı. Bir tərəfdən İbrahim Hakimi hökuməti istefa vermişdi, digər tərəfdən yeni tə YİN edilmiş Baş kazir, 70 yaşlı Möhsün Sədr (Sədr-ül-Əşrəf) Məclisdən etimad ala bilməmişdi. Məclisin müxalifət azlığı və Xalq Partiyası Baş Nazir vəzifəsinə Möhsün Sədrin namizədliyini müdafiə etmirdilər. Onlar Sadri irticaçı şəxslərdən biri hesab edirdilər. Seyid Ziya tərəfdarlarının və Məclisdə müxalifət çoxluqunun ciddi cəhdlərinə baxmayaraq Məclisdən etimad almaq məsələsi iki aya qədər yubandı. Əşrəf Sədr Rza şah dövründə Ədliyyə naziri işləmişdi. Onun dövründə Mazandaran düzənliyinin Rza şaha verilməsi hüquqi cəhətdən əsaslandırılmışdı. O, Məhəmmədəli şah dövründə Qanuni Əsası və demokratiya uğrunda mübarizə aparıb Rusiyanın köməkliyi ilə həbs edilmiş demokratların istintaq işini aparmışdı. Məhz Sədrin köməkliyi ilə həbs olunanların çoxu Bahi Şahda (Tehrandakı şah bağında) güllələnmişdi.

Şahla görüşdə dokqor Müsəddiq açıq şəkildə bildirmişdi ki, Məclisdə müxalifət çoxluğu qeyri-sağlam İşlərlə məşğul olub tez-tez hökumət kabinetlərini dəyişirlər. Biz əlahəzrətdən xahiş edirik ki, Sədrə öz namizədliyini geri götürmək barədə əmr versin.

İranda hökumət böhranının gərginləşdiyi dövrdə Azərbaycan SSR Xarici İşlər komissarı Musa Əliyevə göstəriş verilmişdi ki, Quzey və Güney Azərbaycan haqqında təcili arayış hazırlasın. SSRİ Xarici İşlər Komissarlığına göndərilən 21 səhifəlik arayışda hər iki Azərbaycan da eyni xalqın yaşadığı, eyni mədəniyyətin və tarixin varisləri olduğu, əxlaq, məişət, mənəviyyat, ədəbiyyat eyniliyi və s. məsələlər əsaslandırılmışdı.

Güney Azərbaycanın qurtuluşu üçün əlverişli şəraitin yetişdiyi vurğulanmışdı.[2]

1945-ci ilin yazında M.C.Bağrovun Moskvaya çoxsaylı müraciətləri öz nəticəsini verdi. İyun ayının 10-da Xalq Komissarları Sovetinin sədri İ.Stalin "İranın Şimalında Sovet sənaye müəssisələri təşkil edilməsi haqda" gizli qərarı imzaladı. Qərarda söhbət Təbrizdə və digər şəhərlərdə Sovet Azərbaycanı sənaye müəssisələrinin filiallarının yaradılmasından gedirdi. Bakı Karamel fabrikinin filialı olaraq Güney Azərbaycanda qənd zavodu, Bakı ayaqqabı fabrikinin filialı kimi Təbrizdə ildə yüz min cüt ayaqqabı istehsal edən ayaqqabı fabriki, Bakı tekstil kombinatının filialı olaraq Təbrizdə toxucu-iplik fabriki, Azərbaycan trikotaj kombinatının filialı olaraq Təbrizdə corab trikotaj fabriki, Şəki ipək kombinatının filialı olaraq Rəştdə ipək fabriki yaradılmalı idi. Bu müəssisələrin tikilməsi, onların mühəndis-texniki işçilərlə, ixtisaslı fəhlə kadrları ilə,istehsalat rəhbərləri ilə təmin edilməsi SSRİ-nin və Azərbaycan SSR-in müvafiq komissarlıqlarına tapşırılmışdı. Qeyd edilən müəssisələr üçün avadanlıq göndərilməsi işi 1 oktyabr 1945-ci ilə qədər başa çatmalı idi. Azərbaycan SSR Torpaq komissarı Cəfərova, Yeyinti Sənayesi komissarı Adamyana tapşırılırdı ki, təcili olaraq qənd zavoduna lazım olan xammal ehtiyatını öyrənmək, şəkər çuğunduru əkin sahələrini müəyyənləşdirmək və genişləndirmək üçün Güney Azərbaycana mütəxəssislər göndərsinlər.

Qərarda Azərbaycan Xalq Komissarları Sovetinin sədri Teymur Quliyevə tapşırılırdı ki, Təbrizdə və digər yerlərdə tikiləcək müəssisələr üçün torpaq sahəsi ayrılması məsələsini həll etmək məqsədilə öz nümayəndələrini İrana ezam etsin. İttifaq Komissarlıqlarından tələb edilirdi ki, 1945-ci ilin avqust ayının 1-dən kec olmayaraq tikiləcək müəssisələrin smetasını tutub Maliyyə komissarlığının təsdiqinə versinlər. Bir ay ərzində qənd zavodunun

istehsal gücü ilə bağlı SSRİ yeyinti sənayesi komissarlığı ez təkliflərini Xalq Komissarları Sovetinə təqdim etməli idi. SSRİ Maliyyə Komissarı Zveryevə tapşırılırdı ki, təsdiq edilmiş smetalar üzrə qərarda nəzərdə tutulan müəssisələri maliyyələşdirsin. Dövlət Plan Komitəsinin sədri Voznesenski isə üçüncü və dördüncü kvartallarda Güney Azərbaycanda tikiləcək obyektlər üçün lazım olan bütün avadanlıq və texnikanı Azərbaycan SSR üçün ayırmalı idi. Sovet Azərbaycanı Daxili İşlər Komissarlığına icazə verilmişdi ki, İşləri sürətləndirmək üçün bu qərarın icrası ilə bağlı İrana ezam olunan şəxslərin yol sənədlərini Dövlət Təhlükəsizliyi Komissarlığı və Azərbaycan partiya təşkilatı ilə razılaşdırıb həll etsin. Ən nəhayət, bu qərarın icrasına rəhbərlik etmək Azərbayçai Xalq Komissarları Sovetinin sədri Teymur Quliyevin üzərinə qoyulmuşdu.[3] SSRİ Xalq Komissarları Sovetinin 10 iyun qərarı Güney Azərbaycanın yaxın gələcəkdə Sovet Azərbaycanına birləşdirilməsindən xəbər verirdi.

Artıq SSRİ Xarici İşlər Komissarlığına və Azərbaycan K(b)P MK-ya tapşırılmışdı ki, Güney Azərbaycan məsələsini həll etmək üçün təkliflər hazırlasınlar. 1945-ci ilin iyun ayının 11-də ÜİK(b)P MK-nın Güney Azərbaycanda və İranın şimalının digər əyalətlərində separatist hərəkatın təşkil edilməsi haqqında qərarının layihəsi baxılmaq üçün V.Molotova, M.C.Bağırova və S.Kavtaradzeyə verilmişdi. İlkin müzakirələrdən sonra qərar layihəsi yaxın vaxtlarda müzakirə edilmək üçün Kreml rəhbərlərinə paylanmışdı. Bununla bərabər Dövlət Müdafiə Komitəsi SSRİ Xarici İşlər Komissarlığına, Sovet Azərbaycanı rəhbərliyinə, Sovet İttifaqı Neft Komissarlığına və Azneftin məsul işçilərinə göstəriş vermişdi ki, İranın Şimalında neftlə bağlı geoloji İşlərin görülməsi üçün təcili olaraq təkliflərini versinlər. Alınan təkliflər əsasında iyun ayının 21-də İ.Stalin "İranın Şimalında neftlə barlı geoloji-kəşfiyyat İşləri haqqında" Dövlət Müdafiə Komitəsinip 9168 saylı

qərarını imzaladı. "Son dərəcə məxfi" qrifi ilə qəbul edilmiş bu sənəddə qərara alınırdı: İranın şimalında neftli sahələrdə geoloji kəşfiyyat İşlərini aparmaq üçün SSRİ Neft Komissarlığı "Azneft" Birliyinin nəzdində hidrogeoloji idarə yaratsın. İranın Şimalında neft geoloji kəşfiyyat İşlərini görmək üçün neft komissarı N.Baybakova və "Azneftin" rəhbəri Süleyman Vəzirova tapşırılsın ki, neft sənayesi işçiləri arasından lazım olan qədər qazma və kəşfiyyat briqadaları təşkil edib Qəzvindəki Sovet ordusu qərargahında yaradılmış hidrogeoloji bölmə adı altında onları müəyyən oluimuş iş yerlərinə göndərsinlər.[5]

Dövlət Müdafiə Komitəsinin qərarına əsasən İrana hidrogeoloji bölmə adı altında göndərilən neftçi briqadaları qazma, geoloji çəkiliş və geofiziki kəşfiyyat İşlərini görməli idilər. Dərin qazma İşlərini aparmaq üçün 10 dəzkah, o cümlədən 3 stasionar dəzkah Şahi, Bəndər-Şah, Miyanəyə, dərin suxurlarda qazma İşlərini aparmaq üçün 4 stasionar dəzkah Şahi, Bolqar-çay, Xoya, 3 hərəkət edən qazma aqreqatı Bəndər-Şah, Babolosər, Pəhləviyə göndərilməli idi. Dərin suxurlarda geoloji çəkilİşləri aparmaq üçün tərkibində 10 dəstə olan böyük bir ekspedisiya Qorqan çölündə, Əşrəf-Şahi-Amolda, Xorrəmabadda, Bolqar-çayda, Çülfa - Zəncanda və Təbriz - Ərdəbildə işləməli idi. Geofiziki kəşfiyyat İşlərini aparmaq üçün tərkibində 3 dəstə olan bir ekspedisiya Türkmənistan sərhədindən tutmuş Azərbaycan sərhədinə qədər Qorqan çölündə, Mazandaran və Rəşt düzənliyində işləməli idi. Nikolay Baybakova və Süleyman Vəzirova qəti olaraq tapşırılırdı ki, 1945-ci ilin sentyabr ayının 1-dən kec olmayaraq texnika və avadanlıq qeyd edilən yerlərə aparılmalı, sentyabr ayında qazma və kəşfiyyat İşləri başlamalı idi.[6]

SSRİ Neft Sənayesi Komissarlığı avqust ayının 1-nə qədər qazma və geoloji kəşfiyyat briqadalarını Qəzvinə ezam etməli, avqust ayı ərzində avadanlıq İrana

göndərilməli idi. Xarici Ticarət Komissarı A.Mikoyana köstəriş verilmişdi İran vasitəsilə SSRİ-yə gələn yüklərdən 150 yük avtomaşınının, 15 traktoru iyun-iyul aylarında hidrogeoloji dəstə üçün ayırsın. Zaqafqaziya cəbhəsinin komandanı Tülenev Güney Azərbaycana ezam edilən neftçiləri Qəzvində və digər yerlərdə xidməti və yaşayış binaları ilə təmin etməli idi. Eyni zamanda İranın şimalında qazma, geoloji kəşfiyyat, kartoqrafiya işçilərinin təhlükəsizliyinin təmin edilməsi məsələsi də general Tülenevə tapşırılırdı. Bütün bu İşləri aparmaq üçün Dövlət Müdafiə Komitəsinin qərarına əsasən SSRİ Maliyyə Komissarlığı 1945-çi ilin üçüncü və dördüncü kvartalı üçün "Azneft" Birliyinin hidrogeoloji İdarəsinə 8 milyon manat, o cümlədən 2 milyon 400 min manatlıq İran rialı ayırmalı idi. Azərbaycan SSRİ Daxili İşlər Komissarlığına icazə verilmişdi ki, neft işi ilə bağlı İrana ezam edilən işçilərin xarici ezamiyyət, yol və sərhəd sənədlərin həll etsin. İ.Stalinin sərəncamı ilə V.Məlik-Paşayev Hidrogeoloji İdarənin rəisi, N.Heydərov Qəzvindəki Sovet ordusu qərargahı nəzdində hidrogeoloji bölmənin rəisi, A.Kornyev isə onun müavini təsdiq edilmişdi. Hidrogeoloji bölmənin fəhlə qüvvəsinin mühəndis-texniki işçilərinin komplektləşdirşşəsi, onun İranın şimalında qazma və geoloji kəşfiyyat İşləriñin aparılması üçün dəzkah və materiallarla təmin edilməsinin büqün məsuliyyəti N.Baybakovun və S.Vəzirovun üzərinə qoyulmuşdu. Dövlət Müdafiə Komitəsinin 21 iyun 1945-çi il tarixli qərarının sonuncu - 11-ci bəndində deyilirdi:"Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırova bir vəzifə olaraq tapşırılsın ki, "Azneft" Birliyinin Hidrogeoloji İdarəsinə hərtərəfli köməklik köstərsin və İranın şimalında neftlə bağlı geoloji kəşfiyyat İşlərinə nəzarəti həyata keçirsin".[7]

Qısa müddətdə Bəndərşaha ümumi çəkisi 1525 ton olan iki Şalanda, qazma dizel qurğuları, nasoslar, meşə materialı və s. göndərildi. Bəndərşah və Şahidə iki

dərin quyu qazmaq üçün avqust ayında rotor qurğularının tikintisi və quraşdırıdması başa çatdırılmışdı. M.C.Bağırov SSRİ Xalq Komissarları Soveti sədrinin müavini Lavrenti Beriyaya vurduğu teleqramda yazırdı: Hidrogeoloji dəstənin geoloqları Miyanəyə gediblər. 18 geoloqdan ibarət olan ekspedisiya Dövlət Müdafiə Komitəsinin qərarında göstərilən sahələrin öyrənilməsinə başlayıblar. 9 mütəxəssisdən ibarət geofiziki ekspedisiya Qorqan çölünü və digər yerləri öyrənmək üçün Xəzərin cənubuna yola düşürlər. Hazırda hidrogeoloji dəstənin tərkibi 300 nəfərə çatmaqdadır.[9]

1945-ci ilin sentyabrında "Azneft"in Hidrogeoloji dəstəsi Gilan, Mazandaran, Qorqanda və Güney Azərbaycanda geoloji kəşfiyyat İşlərini genişləndirmişdi. Sentyabrda Təbriz yaxınlığında dərin kəşfiyyat quyularının qazılmasına başlanmışdı. 1945-ci ilin İkinci yarısında neft axtarışı və Güney Azərbaycanın geofiziki xəritəsini hazırlamaq üçün İrana ezam ediləştərin sayı 476 nəfərə yaxın idi. 1:200000 miqyasında 23400 kv. kilometr ərazinin geoloji çəkilişi aparılmışdı. Bu çəkilİşlər əsasında Güney Azərbaycanın ümumi geoloji xəritəsi hazırlanmışdı.[10]

Aparılan İşlər nəticəsində Qorqan çölündə, Mazandaranda, Rəşt düzənliyində böyük neft və qaz ehtiyatının olduğu təsdit edildi. M.C.Bağırov üçün hazırlanmış arayışda göstərilirdi: "Güney Azərbaycanda neft özünü büruzə vermədi. Lakin geoloji kəşfiyyat İşləri nəticəsində müəyyən olundu ki, Güney Azərbaycanda öyrənilən suxurlar Türkiyənin, İraqın və Cənubi İranın neftli sahələrinin suxurları ilə eynidir. Güney Azərbaycanın ərazisinin ilkin olaraq müxtəlif geoloji tədqiqatlara, hərtərəfli kəşfiyyat İşlərinə çox böyük ehtiyacı vardır.[11]

Neft axtarışı məsələsində sovetləri tələsdirən məsələlərdən biri 1945-ci ilin aprelində ingilislərin Tehranın Şimalında və Şimal-Şərqəndə topo-geoloji axtarış İşlərinə başlanması olmuşdu. Dəmavənd dağından 16 km. şərqdə Lar və Cacarud çayları vadisində

ingilislərin apardıqları topo-geoloji, hidroloji axtarışlar rəsmən Tehranın su ilə təchiz edilməsi ilə əlaqələndirilirdi. Axtarış İşlərini 1944-cü ilin oktyabrında İran hökumətinin dəvət etdiyi "Aleksandr Qibb" ingilis firması aparırdı. İranda olan Britaniya aviasiyasının köməkliyi ilə bir tərəfdən Tehranın şimalının geoloji xəritəsi dəqiqləşdirilir, digər tərəfdən geoloji tədqiqatlar aparmaq üçün dörd ingilis qurquları ilə qazma İşləri aparılırdı. İşə rəhbərlik etmək məşhur ingilis geoloqu, Britaniya Kral Cəmiyyətinin vitse prezidenti, Britaniya geoloji axtarışlar departamentinin keçmiş direktoru Eduard Beyliyə tapşırılmışdı. Sovet kəşfiyyatı belə məlumat verirdi ki, Britaniya ordusu tərəfindən Tehran rayonunun topoqrafik İşlərinin və aerofoto çəkilİşlərin "Aleksandr Qibb" firmasına qətiyyən dəxli yoxdur. Lor və Cacarud vadilərindəki tədqiqat İşlərində İngilis ordusunun və Beyli kimi məşhur geoloqun iştirakı Sovet xüsusi idarələrinin fikrincə, heç də adları çəkilən çayların su ehtiyatının öyrənilməsi ilə bağlı deyildi. Bunu Sovet hərbi kəşfiyyatı ingilislərin Tehrandan şimal-şərqə doğru neftlə zənkin Xəzərin cənub sahillərinə nüfuz etməsinin başlanğıcı kimi qiymətləndirilirdi. [2]

Beləliklə, Dövlət Müdafiə Komitəsinin 21 iyun 1945-ci il tarixli qərarı və bu qərarla bağlı görülən İşlər belə bir fikir söyləməyə əsas verir ki, neft məsələsi Sovet İttifaqının Güney Azərbaycanla və ümumilikdə İranla bağlı siyasətində başlıca amilə çevrilmişdi. Neft uğrunda mübarizə 1945-ci ilin iyulunda Sovetlər Birliyinin Güney Azərbaycanda siyasətini qəti olaraq müəyyənləşdirdi. İyulun ilk günlərində Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov Moskvaya çağırıldı. Ayın 6-da Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu uzun tərəddüdlərdən sonra "Güney Azərbaycanda və İranın Şimalının digər vilayətlərində separatçı hərəkatın təşkili üzrə

tədbirlər haqqında" adlı gizli qərar qəbul etdi. Qərarda İranın tərkibində Azərbaycan əyalətlərinə geniş hütuqlu milli muxtariyyət verilməsi üzrə hazırlıq İşlərinə başlanması məqsədəuyğun sayılırdı. Eyni zamanda Gilan, Mazaidaran, Qorqan və Xorasan vilayətlərində separatçı hərəkatın genişləndirilməsi nəzərdə tutulurdu. Güney Azərbaycanda separatçı hərəkata rəhbərlik etmək məqsədilə "Azərbaycan Demokrat Partiyası" yaradılmalı idi. Bu partiyanın yaradılması İran Xalq Partiyasının Azərbaycan filialının köklü şəkildə dəyişdirilməsi və əhalinin bütün təbəqələrindən separatçı hərəkatın tərəfdarlarının cəlb edilməsi yolu ilə olmalı idi. Siyasi Büronun qərarının 3-cü bəndində eyni ilə belə siyasətin Şimali İranın kürd əhalisi içərisində aparılması və kürd vilayətlərində Milli Muxtariyyət yaradılması uğrunda separatçı hərəkatın təşkili və himayə edilməsi nəzərdə

tutulurdu.13

Azərbaycanda separatçı hərəkata rəhbərlik etmək üçün təcili olaraq Təbrizdə məsul işçilər qrupu yaradılmalı və onlar öz fəaliyyətlərini Təbrizdəki SSRİ Baş Konsullulu ilə əlaqələndirməli idilər. Bu qrupa ümumi rəhbərlik etmək M.C.Bağırova və M.Yaqubova tapşırılırdı.

Siyasi Büronun 6 iyul tarixli qərarının 5-ci bəndində Azərbaycan K(b)P MK-na (Bağırov və İbrahimova) tapşırılırdı ki, 15-ci çağırış İran Məclisinə Güney Azərbaycanda seçkilərin keçirilməsi üzrə hazırlıq İşlərini genişləndirsinlər. Aşağıdakı şüarlar əsasında separatçı hərəkatın tərəfdarlarının deputat seçilməsi təxmin edilməli idi:

a) Dövlət və iri mülkədar torpaqları hesabına kəndlilərə torpaq payı ayrılması və onlara uzunmüddətli uçuz kredit verilməsi;

b) müəssisələrdə işin bərpası və genişləndirilməsi, eyni zamanda yol çəkilişinin genişləndirilməsi, habelə digər ictimai İşlər vasitəsi ilə işsizliyin ləğv edilməsi;

v) şəhərlərin abadlaşdırılması və əhalinin su ilə təmin edilməsi;

q) səhiyyə İşlərinin yaxşılaşdırılması;

d) Dövlət vergilərinin 50 faizdən az olmayan hissəsinin yerli ehtiyaclar üçün istifadə edilməsi;

e) milli azlıqların və tayfaların hüquq bərabərliyi:

Azərbaycan, kürd, erməni və aysor dillərində məktəblər açılması, kitab və qəzet nəşr edilməsi; məhkəmə və yerli müəssisələrin kargüzarlıq İşlərinin ana dilində aparılması; əyalət idarələrinin, o cümlədən polis və jandarmanın yerli milli qüvvələrdən təşkil edilməsi; yerli özünüidarə orqanı kimi əyalət, vilayət və şəhər əncümənlərinin yaradılması;

ə) Sovet-İran münasibətlərinin köklü şəkildə yaxşılaşdırılması.[14]

ÜİK(b)P MK-nın siyasi bürosunun qərarında nəzərdə tutulurdu ki, Güney Azərbaycanda separatçı hərəkatına fəallarının, sovetlərə tərəfdar olan şəxslərin özünümüdafiəsi məqsədilə hərbi dəstələr yaradılsın və onlar xarici markalı silahlarla silahlandırılsın. Qərarın bu bəndinin icrası M.C.Bağırovla birlikdə Bulqaninə tapşırılırdı. Sonrakı beş bənddə söhbət mədəni-kütləvi tədbirlərdən gedirdi. Güney Azərbaycanda mədəni təbliğat işini kücləndirmək üçün Azərbaycan SSR-in İranla Mədəni Əlaqə Cəmiyyətinin yaradılmalı, Təbrizdə "Sovet Azərbaycanının dostları" cəmiyyəti təsis edilməli idi ki, Azərbaycanın büqün vilayətlərində və Gilanda bu cəmiyyətin filialları fəaliyyət göstərməli idi. Azərbaycan K(b)P MK-sına tapşırılırdı ki, İranda yayılmaq üçün Bakıda aylıq illüstrativ jurnal və daha üç yeni qəzetin nəşrini təşkil etsin. Nəşriyyat və Poliqrafiya Birliyinə (Yudinə) göstəriş verilmişdi ki, Güney Azərbaycan demokrat partiyasının mətbəə bazasını yaratmaq üçün Azərbaycan K(b)P MK-nın sərəncamına üç düz səthli çap maşını versin. Qərara görə SSRİ Xarici Ticarət Komissarlığı) (Mikoyan) Bakıda nəşr ediləcək illüstrativ jurnalı və Güney Azərbaycanda 30 min ümumi

tirajla çıxacaq üç yeni qəzeti keyfiyyətli kağızla təmin etməli idi.

Siyasi Büronun qərarında nəzərdə tutulan tədbirləri həyata keçirmək üçün İrana ezam ediləcək və tez-tez gedib gələcək şəxslərə M.C.Bağırovun nəzarəti ilə Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığı icazə verməli idi. Ən nəhayət, son olaraq göstərilirdi ki, Güney Azərbaycanda separatist hərəkatı maliyyələşdirmək və 15-ci çağırış İran məclisinə seçkilərdə uğur qazanmaq üçün Azərbaycan Kommunist (bolşeviklər) partiyası Mərkəzi Komitəsi yanında bir milyon manat (altı milyon səksən altı min dörd yüz iyirmi yeddi rial, otuz beş dinar) həcmində xüsusi fond təsis edilməli idi.[15] Sonuncu məsələ ilə bağlı M.C.Bağırov hələ Moskvada olanda SSRİ Dövlət Baikı Siyasi Büronun qərarında nəzərdə tutulan bir milyon manat pulu bankın Azərbaycan Kontoruna, 24011 nömrəli valyuta hesabına köçürmüşdü. SSRİ Dövlət Bankı Azərbaycan Kontorunun müdiri M.A.Petrov iyulun 17-də M.C.Bağırova yazırdı: Valyuta verilməsi yalnız Sizin yazılı göstərişiniz, yaxud Sizin səlahiyyət verdiyiniz şəxsin sərəncamı ilə mənim tərəfimdən həyata keçiriləcəkdir. Bu hesabda olan valyuta əməliyyatı son dərəcə məxfi qaydada aparılacaqdır.[16]

Siyasi Büronun gizli qərarından üç gün sonra Vladimirovun iyulun 9-da "Pravda" qəzetində "İranda mürtəce ünsürlərin fəaliyyətinin güclənməsi" adlı geniş məqaləsi çıxdı. Məqalə 6 iyul qərarının ruhundan irəli gəlirdi və onun reallaşmasına ideoloji hazırlıq idi.[17] Həmin yazı İranda böyük əks-səda doğurdu, Tehranda çıxan "Nabrad", "Zəfər", "Rəhbər", "Dad", "Fərman", "Ajir" qəzetləri onu fars dilində nəşr etdi. Hökumətə yaxın olan qəzetlər "Pravda"nı İranın daxili İşlərinə qarışmaqda günahlandırır, Xalq Partiyasının yeganə demokratik qüvvə hesab etməsini Vladimirovun səhvi hesab edirdilər. "Xalq iradəsi" partiyasının orqanı olan "Raade Emruz" qəzeti yazırdı: "Sovet hökuməti İranın daxili quruluşundan elə də razı deyil. Əgər İran

qəzetləri SSRİ-nin ictimai quruluşunu tənqid etməyə başlasa, bu Sovet İttifaqının narazılığına səbəb olar. Ona görə də İran xalqı İran hökumətini tənqid edən "Pravda" qəzetindən şikayətlənməkdə haqlıdır. "Pravda" isə Sovet hökumətinin siyasətini və mövqeyini əks etdirir".[18] Bir sıra qəzetlər belə hesab edirdilər ki, Vladimirovun məqaləsi Sovet qoşunlarının İrandan çıxarılması barədə İran hökumətinin notasına Sovet hökumətinin ilk rəsmi cavabıdır. İran hökumətindən narazı və Sovetlərlə yaxşı münasibətdə olan qəzetlər Vladimirovun məqaləsini haqlı sayırdılar. Onların fikrincə, bu məqalə İran hökumətinin SSRİ-yə qeyri-səmimi münasibətinin, Seyid Ziyanın antisovet, təxribatçı bəyanatının nəticəsi idi. Mir Cəfər Pişəvərinin redaktoru olduğu "Ajir" qəzeti bildirirdi: "Sovet dairələri İranda İşlərin vəziyyətindən parazıdır. Onlar indiki İran rəhbərlərinip səmimi, loyal münasibətinə şübhə edir. "Pravda" Baş nazir Sədri İranın məşhur irticaçısı, antisovet İşlərin fəal iştirakçısı adlandırmaqda haqlıdır. Onun Baş nazir təyip edilməsi İranla-SSRİ arasında dostluq münasibətləri ilə ziddiyyət təşkil edir. Sovet dairələri İranın iç İşlərindən narazı qalmaqda tamamilə haqlıdırlar. Soheylinin istefasından sonra İran hökuməti SSRİ ilə qarşılıqlı anlaşmanı möhkəmləndirmək üçün kiçik bir addım belə atmayıb".[19] İranın nüfuzlu qəzetlərindən olan "Keyhan" da, "Ajir"in mövqeyini müdafiə edirdi. "Keyhan" "Pravda"nın belə bir fikrinə haqq qazandırırdı ki, 1943-1944-cü illərdə İran Məclisinə keçrilən seçkiləri demokratik seçki hesab etmək olmaz. Qəzet yazırdı: "Gərək "Pravda" deyərdi ki, satqınlar və oğrular qrupu xalqın bütün haqqını öz əllərinə keçiriblər".[20]

"Pravda"nın məqaləsi İran siyasi dairələriniй ciddi narahatçılığına səbəb oldu. İyun ayından davam edən hökumət böhranına son qoymaq üçün Məclisin təcili iclası çağırıldı. Məclisiй sədri Təba-Təbai deputatlara vəziyyətin ciddiliyini, Sədr-ül-Əşrəf

hökumətinə səs verməyin zəruriliyini izah etdi. Xalq partiyası fraksiyasından başqa bütün fraksiyalar Möhsün Sədr hökumətinə səs verdi. Beləliklə, hökumət parlamentdən etimad aldı.[21] Məhəmməd Rza şah Ağ evdə Baş Nazir Sədr-ül-Əşrəfi və onun nazirlərini qəbul edib İrandakı vəziyyəti müzakirə etdi. Möhsün Sədr hökumətinin ilk addımlarından biri Azərbaycanda hökumət orqanlarını möhkəmləndirmək oldu. Azərbaycana nəzarəti kücləndirmək üçün Sovetlər əleyhinə olan
Möhtəşami Təbrizə şəhridar təyin edildi. Bununla İran hökuməti Azərbaycanda mərkəzi hakimiyyət tərəfdarı olan qüvvələri birləşdirmək, Tehranın əleyhinə olan hərəkatı zəiflətmək istəyirdi.[22] Eyni ilə həmin vaxtda, yəni iyul ayının ortalarında Bakıda Güney Azərbaycan üzrə xüsusi tapşırıqların gerçəkləşdirilməsi barədə tədbirlər planı müzakirə edilirdi. M.C.Bağırov ÜİK(b)P MK-nın katibi Malenkova bir-birin ardınca iki teleqram göndərmişdi. İyulun 14-də göndərilən teleqramda xahiş edilirdi ki, Güney Azərbaycanda İşləri genişləndirmək üçün Tehrandakı Sovet səfirliyinin birinci katibi, Dərbənd şəhər partiya komitəsinin keçmiş katibi Əli Əliyev Təbrizə Baş konsul təyin edilsin. O, yazırdı: Mən Moskvada olanda Xarici İşlər Komissarlığının Kadr İdarəsinin rəisi Mixail Silin işə zəif rəhbərlik etdiyinə, verilən tapşırıqların öhdəsindən gələ bilmədiyinə görə Təbrizdəki baş konsul M.Matveyevin dəyişdirilməsi məsələsini qaldırdı. O, Matveyevi əvəz edəcək bir neçə nəfər namizədin, o cümlədən Tehranda bizim səfirliyimizin birinci katibi Əliyevin adını çəkdi. Sözsüz ki, çox uqurlu namizəddir.[23] Bunun ardınca göndərilən İkinci teleqramda M.C.Bağırov Malenkovdan xahiş edirdi ki, ÜİK(b)P MK-nın Təbliğat və Təşviqat İdarəsinin rəisi Q.F.Alsksandrovu qısa müddətə Bakıya ezam etsin. Güney Azərbaycanla bağlı Siyasi Büronun, Dövlət Müdafiə Komitəsinin və Xalq Komissarları Sovetinin məlum qərarları Sovet Azərbaycanının üzərinə mühüm vəzifələr qoymuşdu. Bütün bu vəzifələri

reallaşdırmaq istiqamətində Azərbaycan partiya təşkilatı tədbirlər planı hazırlamışdı və Q.Aleksandrov da bu planın müzakirəsinə dəvət edilirdi. "Qəti şəkildə məxfi" qrifi ilə hazırlanmış tədbirlər planında Azərbaycan Demokrat Partiyasının yaranması, 15-ci çağrış Məclisə deputat seçkilərinin təmin edilməsi, "Sovet Azərbaycanının dostları" cəmiyyətinin yaradılması, separatçı hərəkatın təşkil edilməsi, Əyalət əncüməninin yaradılması, mətbuat orqanlarının təşkili və s. məsələlər öz əksini tapmışdı. Sənəddə göstərilirdi: "təcili olaraq Pişəvəri və Kambəxşin danışıqlar üçün Bakıya gətirilməsi təşkil edilsin. Danışıqların nəticəsindən asılı olaraq Xalq Partiyasının Azərbaycan əyalət Komitəsinin sədri Padəqanın da Bakıya gətirilməsi nəzərdə tutulsun".[24] Bir ay ərzində Təbrizdə və yerlərdə Azərbaycan Demokrat Partiyasıiin təşkilat Komitəsini yaratmaq üçün müxtəlif demokratik partiyalarda olan nüfuzlu ziyalılar, tacirlər, kiçik və orta mülkədarlar, ruhanilər içərisindən, habelə heç bir partiyada olmayanlardan namizədlər seçilməli idi. Təbrizdə yaradılan təşkilat komitəsi Azərbaycan Demokrat Partiyasının qurulması barədə çağırışı "Xavare Nou", "Ajir", "Cövdət" qəzetlərində və ayrıça vərəqə formasında nəşr etməli idi. Çağırışın meydana çıxmasından sonra yerlərdə təşəbbüs qrupları mətbuatda çıxış edib onu müdafiə etməli, Xalq Partiyasının və digər partiyaların fəal üzvləri hesabına Azərbaycan Demokrat Partiyasının komitələri tosis edilməli idi. Xalq Partiyası təşkilatlarının mexaniki olaraq ADP-nin Komitələrinə çevrilməsi yolverilməz hesab edilirdi. Xalq Partiyasının Təbriz əyalət komitəsinə tövsiyə edilirdi ki, ADP-nin çağırışını müzakirə edib müdafiə etsin və Xalq Partiyası təşkilatlarının buraxılması haqda qərar qəbul etsin. Yalnız bundan sonra köhnə firqəçilər ADP-nin üzvü ola bilərdi.

Təbrizdə ADP-nin təşkilat komitəsi yaradıldıqdan sonra Ərdəbil, Rezaye, Xoy, Miyanə, Zəncan, Marağa,

Mərənd, Mehabad, Maku, Qəzvin, Rəşt, Pəhləvi, Sarı, Şahi, Qorqan və Məşhəddə təcili olaraq onun yerli komitələri təsis edilməli idi. Bu müddətdə ADP-nin proqram və nizamnaməsi hazırlanmalı, təşkilat komitəsi Təbrizdə partiyanın "Azərbaycanın səsi" adlı qəzetini yaratmalı idi.[25]

Güney Azərbaycanda separatçı hərəkatın inkişafı Azərbaycana geniş hüquqlu muxtariyyət verilməsi uğrunda mübarizəyə söykənməli idi. "Sovet Azərbaycanının dostları" Cəmiyyətinin yaradılmasında Azərbaycan SSR-in 25 illik yubileyində Bakıya gəlmiş nümayəndələrdən istifadə etmək nəzərdə tutulurdu.

Güney Azərbaycanda olan Sovet konsul, hərbi komendant və qarnizonların işçiləri də Cəmiyyətin işinə cəlb edilməli idi. Əhalinin geniş təbəqələrini "Sovet Azərbaycanının dostları" cəmiyyətinə yaxınlaşdırmaq üçün mətbuatdan istifadə edilməli və Sovet Azərbaycanında Xalq Təsərrüfatı, mədəniyyət və incəsənət sahəsində əldə edilmiş uğurlar, habelə Güney və Quzey Azərbaycan əhalisinin tarixi eyniliyi barədə yazılar verilməli idi. İyulun sonunda bu istiqamətdə ilk əməli addım atıldı. Azərbaycan K(b)P MK-sı Moskvada qəbul olunmuş 6 iyul qərarına uyğun avqust ayından başlayaraq Güney Azərbaycanda yayılmaq üçün ərəb əlifbası ilə aylıq ədəbi-ictimai illüstrasiyalı "Azərbaycan" jurnalının nəşri barədə qərar qəbul etdi. Rəsul Rza jurnalın məsul redaktoru, Mehdi Hüseyn redaktor müavini. Səməd Vurğun, Mirzə İbrahimov, Əhəd Yaqubov, həsən Həsənov, Rza Quliyev redaksiya şurasının üzvləri təsdiq edildi. 1 yanvar 1946-cı ilə qədər jurnal üçün 276 min manat büdcə ayrıldı. "Azərnəşr"in direktoru A.Sultanova tapşırıldı ki, "Azərbaycan" jurnalının vaxtında və keyfiyyətlə çıxmasını təmin etsin. Jurnal Güney Azərbaycanda "Vətən yolunda" qəzeti redaksiyası vasitəsilə yayılmalı idi.26 Avust ayında "Azərbaycan" jurnalının ilk sayı çapdan çıxdı. Bu nömrədə S.Vurğunun, M.İbrahimovun, Ç.Cabbarlının, Məlikülşüarə Baharın, M.Biriyanın, B.Azəroğlunun,

Əli Fitrətin, Yəhya Şeydanın, Mir Mehdi Çavuşinin, M.Dilbazinin, Mədinə Ələkbərzadənin, Nigar Rəfibəylinin, S.Rüstəmin, Ə.Vahidin, İ.Əfəndiyevin, Rəsul Rzanın, Əvəz Sadığın əsərlərindən nümunələr verilmiş, Heydər Hüseynovun "Azərbaycanda elmi fikrin inkişaf tarixindən" adlı çox maraqlı məqaləsi çap olunmuşdu.[27] 1945-ci ildə "Azərbaycan" jurnalının 5, 1996-cı ildə 12 nömrəsi çapdan çıxmışdı. Birinci nömrə ilə müqayisədə tədricən jurnalın siyasi yönümü
daha da kücləndirilmişdi. 1945-ci ildə çapdan çıxmış 3-cü nömrədə jurnalın məsul redaktoru Rəsul Rza "Milli şüur və Milli iftixar" məqaləsində yazırdı: "İran Azərbaycanında yaşayan Azərbaycan xalqının yetirdiyi alim, yazıçı və inqilabçılar bu xalqın milli şüurunun artmasında, onun azadlıq və istiqlaliyyət yolunda apardığı mübarizədə çox böyük xidmət göstərmişdir".[28] Jurnalın sonrakı saylarında M.S.Ordubadinin, Firudin İbrahiminin, İsmayıl Hüseynovun, M.Abbasinin, C.Xəndanın, H.Naxçıvaninin, N.Cahanşahlının, Q.Məmmədlinin son dərəcə marağını yazıları dərc olunmuşdur. 1945-46-cı illərdə buraxılmış "Azərbaycan" jurnalı Sovet hakimiyyətinin bütün mövcud olduğu dövrdə ən maraqlı və milli mənafe baxımından ən əhəmiyyətli nəşr orqanı idi. Əvvəla, bu jurnalın hər sayında Güney və Quzey Azərbaycanın ictimai-siyasi, mədəni, ədəbi həyatı, tarixi birlikdə əhatə olunurdu. İkincisi, jurnal Güney Azərbaycan üçün buraxıldığından Sovet Azərbaycanında hökm sürən hakim bolşevik ideologiyasının tələblərindən bir qədər yayına bilir, Azərbaycan xalqının köklü mənafeyi, taleyi və tarixi ilə bağlı əsaslı məsələlərə toxuna bilirdi. Bütöv Vətən, eyni xalq, vahid millət məramı demək olar ki, "Azərbaycan"ın hər sayından duyulurdu. Jurnalın müxtəlif saylarında "Sərdari Milli Səttarxan", "Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətai", "İran Azərbaycanının görkəmli demokratı Şeyx Məhəmməd Xiyabani", "Qırx il bundan əvvəl nəşr olunmuş "Azərbaycan" məcmuəsi haqqında", "Şəmsəddin Təbrizi və

onun elmə dair nəzəriyyələri", "Qövsü Təbrizinin nəşr olunmamış şerləri", "Xətib Təbrizi və onun əsərləri", "Urmiyə Came məscidinin Mehrabı haqqında", "Mirzə Məhəmməd Bağır Xalxali", "Hacı Mehdi Şükuhi" kimi çox dəyərli məqalələr dərc olunmuşdu. Təsadüfi deyildir ki, Güneydəki uğursuzluqdan sonra, 1946-cı ilin dekabrında "Azərbaycan" jurnalının nəşri də dayandırıldı.

1945-ci ilin iyul ayında Güney Azərbaycanla bağlı mətbuat işinin texniki cəhətlərini və kağız təchizatını təşkil etmək üçün Səməd Vurğun və Süleyman Rəhimov Moskvaya ezam edildilər. M.C.Bağırov ÜİK(b)P MK-nə, İttifaq Komissarlıqlarına, Rusiya Federasiyası Dövlət Nəşriyyat Birliyinin direktoruna yazdığı məktublarda partiya Mərkəzi Komitəsilin son qərarına uyğun olaraq Güney Azərbaycanda nəşriyyat poliqrafiya bazasını təşkil etmək üçün təcili olaraq 3 düz səthli çap maşını, hər kvartal üçün 29 ton qəzet kağızı, 4,5 ton jurnal kağızı, 1200 vərəq üz qabığı. bədий İşləri görmək üçün 1200 vərəq litoqrafiya kağızı və s. göndərilməini xahiş edirdi.[29] Eczamiyyə müddətində S.Vurğun və S.Rəhimov Güney Azərbaycan üçün nəzərdə tutulmuş nəşriyyat texnikasının, kağızın və digər texniki avadanlığın Bakıya göndərilməsinə nail oldular. MD.Bağırovun Bulqaninə məktubuna cavab olaraq Qızıl Ordunun Baş Siyasi İdarəsi iyul ayında Güney Azərbaycanda istifadə etmək üçün 30 radioqəbuledici, 15 radiodinamit, 100 reproduktor, 500 patifon və s. texniki avadanlıq göndərdi. Eyni zamanda Qızıl Ordu Baş Qərargahı qarşısında məsələ qaldırıldı ki, Güney Azərbaycan üçün öz ştat vahidləri ilə birlikdə hərəkət edən avqo-kino qurğuları da ayrılsın.[30]

İyul ayında daha bir mühüm hadisə baş verdi. Moskvadan qayıtdıqdan sonra MD.Bağırovun tapşırığı üzrə İran Xalq Partiyası MK-nın üzvü, İran Məclisinin deputatı Ə.Kambəxşi, Xalq Partiyasının Təbriz Əyalət Komitəsinin sədri S.Padəqani, yazıçı və publisist H.Ə.Şəbustərini, "Ajir" qəzetinin redaktoru Mir

Cəfər Pişəvərini gizli şəkildə Bakıya gətirdilər. Muzakirələr zamanı qərara alındı ki, yeni yaradılan ADP-yə müvəqqəti olaraq Pişəvəri rəhbərlik etsin. M.C.Bağırov bu görüş barədə Stalinə yazırdı: "Onlarla şəxsi söhbətdən sonra birinci dövr üçün Azərbaycan Demokrat Partiyasına rəhbərlik etmək demokratik dairələrdə böyük nüfuzu və hörməti olan, Tehrandakı "Ajir" qəzetinin redaktoru Mir Cəfər Pişəvəriyə tapşırıldı".[3]

Bakıda aparılan danışıqlar barədə M.C.Bağırov Siyasi Büronun 6 iyul qərarının yerinə yetirilməsinə məslul olan Kreml rəhbərləri V.Molotova, L.Beriyaya və Q.Malenkova da hesabat göndərmişdi. Hesabatda göstərilirdi: Pişəvəri İran Azərbaycanında doğulub. Kommunist Partiyasının keçmiş üzvüdür. Sovet Azərbaycanında uzun müddət məsul partiya - Sovet vəzifələrində çalışıb. 1927-ci ildə Komintern tərəfindən İrana göndərilib. Rza şah hökuməti tərəfindən həbs edilən Pişəvəri 10 il həbsdə yatmış və Sovet qoşunları 1941-ci ildə İrana daxil olduqdan sonra azad edilmişdir. M.C.Bağırov yazırdı: "Onun iki doğma qardaşı Sovet İttifaqında yaşayır. Onlardan biri Qızıl Ordudadır, tibbi xidmət kapitanıdır".[32] Görünür bütün digər keyfiyyətləri ilə bərabər bu fakt da Tehrandan və Təbrizdən çağırılan adamlar içərisindən ADP rəhbərliyinə Pişəvərinin seçilməsində müəyyən rol oynamışdı.

Güney Azərbaycandakı işçilərə xəbər göndərilmişdi ki, Tudə Partiyasının ADP-yə çevrilməsində bir saat da yubanmaq olmaz. Təbrizdə "Çoban" adı altında fəaliyyət göstərən rezidentə vurulan şifrəli teleqramda qeyd edilirdi ki, bizim orduların yerləşdiyi ərazidə, xüsusilə Təbriz ostandarlığı tərəfindən Sovet tədbirlərinə qarşı ehtimal ola biləcək bütün maneələr aradan qapdırılmalıdır. Tövsiyyə edilirdi ki, ilk gündən mütərəqqi ruhaniləri, mülkədarları, tacirləri, ziyalıları öz tərəfinizə çəkin. Teleqramda yazılırdı: "Bütün tədbirlər elan

ediləna qədər Xalq Partiyası Mərkəzi Komitəsi tərəfindən heç bir nümayəndəni yaxın buraxmayın. Tehrandakı bizim təşkilatlar vasitəsi ilə hər şeyi edin ki, bizim tədbirlər elan edildikdən sonra Xalq Partiyası MK-sı Sizin Güney Azərbaycanda və Şimali İranda həyata keçirdiyiniz tədbirləri, o cümlədən Azərbaycan Demokrat Partiyasının yaranmasını tamamilə müdafiə etsinlər".[33]

Rezidentə göstəriş verilirdi ki, teleqramı Ə.Yaqubova, S.Yemelyanova, M.Matveyevə, A.Atakişiyevə və 4-cü ordunun hərbi şurasının üzvü general-mayor Russova məruzə etsin. Eyni zamanda Mirzə Məmmədovu, B.Seyidzadəni, Ə.Bağırzadəni, R.Quliyevi, M.Şərifovu və İranda olan digər Sovet işçilərini məlumatlandırıb həyata keçirilən tədbirlərə cəlb etmək göstərişi də verilmişdi.

Birdən-birə çoxlu göstərİşlərin gəlməsi Güney Azərbaycanda xüsusi tapşırıqla işləyənlər, yüksək rütbəli hərbçilər və Təhlükəsizlik orqanlarının əməkdaşları üçün gözlənilməz olmuşdu. Xüsusilə hərbçilər Avropada müharibə qurtardıqdan sonra SSRİ-yə qaayıdacaqlarını səbirsizliklə gözləyirdilər.

ADP-nin yaranması ilə bağlı məsələlər tudəçilərin güclü müqaviməti ilə qarşılaşmışdı və Xalq Partiyası MK-sı bütün vasitələrlə bu İşləri pozmağa çalışırdılar. Bakı görüşündə razılıq əldə edilmişdi ki, Pişəvəri, Şəbüstəri və Padəqan həyatlarına ola biləcək təhlükə ilə bağlı Təbrizdən kənara çıxmasınlar. Lakin Padəqan Tudənin MK-sı ilə yaranmış ziddiyyətləri tənzimləmək üçün Tehrana getmişdi. Güney Azərbaycanda işin zəif təşkil olunması, Xalq Partiyası ilə bağlı yaranmış münaqişə M.C.Bağırovu hövsələdən çıxarmışdı. S.Yemelyanova, H.Həsənova, M.İbrahimova vurduğu teleqramda o, yazırdı: "Görünür Ə.Yaqubov, Atakişiyev, Russov və Quliyev başa düşmürlər ki, hər saat qiymətlidir və ona görə cəld hərəkət etmək lazımdır Şübhə yoxdur ki, bizim tədbirlərin qatı əleyhdarı Xalq Partiyasının MK-sı

deyilən qurum olacaqdır. Onlar qəsdən hər çür münaqişə, ziddiyyət törədəcəklər ki, adamları bizdən uzaqlaşdırsınlar. Bu barədə yuxarıda adları çəkilən yoldaşlara bildirmək lazımdır və onlardan tələb edilməlidir:

1. Təcili olaraq Padəqan Tehrandan Təbrizə sağ və salamat gətirilməlidir;

2. Bizim tərəfimizdən rəhbərlik üçün nəzərdə tutulmuş şəxslərdən heç birisi kimin tərəfindən çağırılmasından asılı olmayaraq Tehrana getməməlidir (təminat yoxdur ki, onları orada məhv etməyəcəklər);

3. Yeni hərəkatın bütün rəhbər işçiləri mühafizə edilməlidir;

4. Nə qədər mümkündür tez Təbrizdən daıışıqlar üçün Ərdəbilə, Xoya, Maguya, Urmiyəyə, Marağaya, Pəhləviyə, Rəştə, əgər mümkün olsa digər şəhər və rayonlara çoxlu adamlar göndərilməlidir;

5. Partiyanın yenidən qurulması, təşkili və sənədləşdirilməsi sürlətləndirilməlidir;

6. Yeni qəzetlərin yaradılması sürətləndirilməlidir;

7. Siz özünüz, yəni H.Həsənov, M.İbrahimov və S.Yemelyanov sizə tapşırılan tədbirlərin hazırlanmasını sürətləndirməlisiniz".[34]

İyul ayında cərəyan edən hadisələr İrandakı Böyük Britaniya ABŞ diplomatik və hərbi dairələri tərəfindən diqtətlə izlənilirdi. Təbrizdəki İngilis Baş konsulluğu və Amerika konsulluğu öz fəaliyyətlərini xeyli kücləndirmişdilər. Sovetlər tərəfindən hazırlanan tədbirlər nə qədər məxfi aparılsa da ingilislərin gedən proseslərdən məlumatı var idi. Onlar dəfələrlə hakimiyyət dairələri ilə Azərbaycandakı vəziyyəti müzakirə etmişdilər. Britaniya və Amerika siyasi dairələri Güney Azərbaycanda müstəqil dövlətin yaradılmasını və ya onun Sovet Azərbaycanına birləşdirilməsini artıq gözləyirdilər. İyulun 21-də Böyük Britaniya nümayəndələri müttəfiq qoşunlarının İrandan çıxarılması barədə Postdam konfransına

memorandum təqdim etdilər. Memorandumda deyilirdi: Əlahəzrət hökuməti və Sovet hökuməti öz qoşunlarını İranda 29 yanvar 1942-ci il İngilis-Sovet müqaviləsinə əsasən saxlayır. Həmin müqavilənin 5-ci bəndinə kero müttəfiqlər ez qoşunlarını İrandai "Müttəfiq dövlətlərlə Almaniya və onun əlaltıları arasında hərbi əməliyyatlar başa çatdıqdan sonra altı aydan kec olmayaraq" çıxarmalıdırlar. Əlahəzrət hökuməti Sovet hökumətinə təklif edir ki, müttəfiq silahlı qüvvələri proйtet qaydada həmin müddət başa çatmazdan əvvəl İrandan mərhələlərlə çıxa bilərlər.[35] Britaniya hökuməti təklif edirdi ki, ilk mərhələdə qoşunlar İranın paytaxtı Tehrandan çıxarılsın. İngilislərin fikrincə, İkinci mərhələdə onlar Abadanda və cənubun neft rayonlarında, Sovetlər isə İranın Şimal-Şərqivdə, yaxud Şimal-Qərbində ordu saxlaya bilərdilər. Üçüncü mərhələdə hər iki ölkənin qoşunları bütövlükdə İrandan çıxarılmalı idi.

İyulun 23-də Britaniyanın təşəbbüsü ilə İran məsələsi Potsdam konfransının gündəliyinə çıxarıldı. Prezident Trumen ABŞ-ın öz qoşunlarını İrandan çıxarmağa hazır olduğunu bəyan etdi. Stalin isə cavabında bildirdi ki, "hər halda Tehranı azad etmək olar". Britaniya Baş naziri bu məsələ yekunlaşdıraraq təklif etdi ki, "təcili olaraq ordu Tehrandan
çıxarılsın, orduların çıxarılmasının sondakı mərhələləri isə sentyabr ayında Xarici İşlər Nazirləri Şurasında müzakirə edilsin".[36] Potsdam konfransında qəbul edilmiş qərarda deyilirdi: müttəfiqlər razılaşırlar ki, öz silahlı qüvvələrini Tehrandan təcili olaraq çıxaracaqlar. Qoşunların İrandan çıxarılmasının sonrakı mərhələlərinin müzakirəsi Xarici İşlər nazirləri Şurasının 1945-ci ilin sentyabrında Londonda çağırılacaq sessiyasına keçirilsin.[37] Sessiyanın sentyabrın 11-də işə başlayacağı gözlənilirdi və o vaxta qədər Sovetlər Kremldə qəbul edilmiş qərarların Güney Azərbaycanda həyata keçirilməsini sürətləndirməli idi.

M.C.Bağırovun Təbrizdəki rəhbər işçilərə teleqramında "hər saatın qiymətli olmasını" xatırlatması bununla bağlı idi.

## XIII. Demokrat firqəsinin yaranması və muxtariyyət ideyası

Tehrandakı SSRİ səfirliyinin müşaviri Əhəd Yaqubov 1945-ci ilin avqust ayının ilk günlərində Təbrizə gəldi. Əsas məqsəd Güney Azərbaycanda vəziyyətlə yaxından tanış olmaq, Moskvanın qərarlarına və Bakının tapşırıqlarına uyğun olaraq Azərbaycan Demokrat firqəsinin yaradılması ilə bağlı İşləri sürətləndirmək idi. Təbrizdəki Baş konsul M.Matveyev Güneydəki yeni vəziyyətlə ayaqlaşa bilmirdi. Əslində Təbriz konsulluğunun işini Ə.Yaqubov aparırdı. Avqustun 4-də o, üçüncü ostanın torpaq idarəsi rəisinin müavini Bozorqani qəbul etdi. Söhbət zamanı aydın oldu ki, ötən illə müqayisədə Azərbaycanda taxıl məhsulları xeyli az olacaqdır. Çəyirtkə təhlükəsindən taxılı xilas etmək üçün Sovet yardımına böyük ehtiyac olduğu qeyd edildi. Bozorqani bildirdi ki, Azərbaycanda taxılı xilas etmək üçün İran Kənd Təsərrüfatı Nazirliyi və hakimiyyət orqanları heç bir iş görmür. Kömək üçün Tehrana edilmiş müraciətlər hamısı cavabsız qalmışdı. Azərbaycandan seçilmiş deputatlar vəziyyəti yaxşılaşdırmaq üçün mərkəzi hakimiyyət orqanları qarşısında təşəbbüs qaldırmırdılar. Söz-söhbət gəzirdi ki, yeni seçkilərdə indiki deputatlardan Əmir Nüsrət İskəndəri, Fərman Fərmanian, Siqtətül-İslam, Sərtabzadə və Fotuqi, Müçtəhidi və digərləri səs toplaya bilməzlər. Əhali arasında ostandarın əvəzi Nikuçunun, torpaq sahibkarı M.Rəfiyinin, "Azadlıq Cəbhəsi"ndən Şəbustərinin nüfuzunun artdığı hiss edilirdi. 15-ci çağırış İran məclisinə seçkilərdə bu adamların namizədliyinin müdafiə ediləcəyi qabaqcadan öyrənilmişdi. Bozorqani ilə görüş barədə Ə.Yaqubov M.C.Bağırova və SSRİ XXIK-na göndərdiyi məlumatda yazırdı: Bozorqani İran Mərkəzi hakimiyyətinin Azərbaycana həqarətli münasibətindən həyəcanla danışdı. Onun fikrincə, demokratik elementlər birləşməli və bu həqarətli münasibətə son qoyulmalıdır.

İran əhalisinin üçdə birini təşkil edən Azərbaycan xalqının bu gün öz ana dilində məktəbi və mətbuatı yoxdur. Onun şəhərlərinin heç bir ehtiyacı ödənilmir. Ölkəni bu vəziyyətdən qurtarmaq iqtidarında olan adamlar üç yerə bölünür. Bunun birincisi zənkin adamlardır ki, onlar Azərbaycanda demokratik hərəkatın sonrakı dərinləşməsindən ehtiyatlanırlar. Tacirlər, orta torpaq sahibkarları və ziyalıların bir hissəsinin daxil olduğu İkinci qrup adamlar demokratik hərəkatın yüksəlməsindən, Güney Azərbaycanın Sovet Azərbaycanına birləşdirilməsindən çəkinirlər. Xırda tacir və torpaq mülkiyyətçilərinin, ziyalıların bir hissəsindən ibarət üçüncü qrup Azərbaycanı Tehranın asılılığından qurtarmaq barədə dərindən düşünürlər.

Güney Azərbaycanda Demokrat firqəsinin yaradılması istiqamətində aparılan İşlərdən Tehran tudəçiləri xəbər tutmuşdular. Onlar bütün vasitələrlə bu işi pozmağa çalışırdılar. Avqustun ilk günlərində Xalq Partiyası rəhbərlərindən A.Ovanesyan, Əmir Xizi və Hüseyn Nuri (Fələstin mənşəli yəhudi idi - Ç.h.) Təbrizə gəldilər.[2] Baş Konsulla görüşdə Ovanesyan bildirdi ki, Xalq Partiyası Mərkəzi Komitəsinin fikrincə kənd yerlərində mülkədarlara qarşı fəal çıxış etməyin vaxtı artıq çatmışdır. Bir neçə gündən sonra Tehrandan gəlmiş tudəçilər Təbrizdə Xalq Partiyası kənd komitələri nümayəndələrinin müşavirəsini keçirdilər və zəngin təbəqəyə qarşı fəal çıxış etmək barədə göstəriş verdilər. Bir sıra yerli komitələr müşavirədən qayıdan kimi aldıqları tapşırıqları yerinə yetirməyə başlamışdalar. Ərdəbildən alınan teleqramda göstərilirdi ki, Təbriz müşavirəsinin iştirakçıları qayıdan kimi mülkədarları tərksilah etmək üçün ayrı-ayrı qruplar yaratmağa başlayıblar.[3]

Şapurda Xalq Partiyası Komitəsinin sədri Arsen Şaxiyan təsdiq etmişdi ki, A.Ovanesyanın göstərişi ilə onlar fəal hərəkata keçməyə hazırlaşırlar. Bakıda hazırlanan tədbirlər planında, M.C.Bağırovun Güneydəki siyasi işçilərə göndərdiyi məktubda ehtimal edilən

təhlükə baş verdi. Sovetlərin Azərbaycandakı hazırlaq İşlərini pozmağa ilk cəhd tudəçilər tərəfindən oldu. ADP-nin sinfi əlamətə görə deyil, milli əlamətə görə formalaşdırılmasının, tacirlərin, sənayeçilərin və xüsusilə mülkədarların yeni partiyaya cəlb edilməsinin qarşısını almaq üçün tudəçilər tərəfindən bir sıra təxribatlar törədildi. Bunların ən ağırı Liqvan kəndindəki hadisələr idi. Avqust ayının 9-da A.Ovanesyan və Əmir Xizi Xalq Partiyasının üzvləri Riza-Rizai və Mir Əbülfəz Kaşimini yüz nəfərlə birlikdə mitinq keçirmək üçün Liqvan kəndinə göndərdilər. Mülkədar Hacı Ehteşam Liqvani ilə mitinqçilər arasında münaqişə baş verdi. Silahlı toqquşma zamanı Liqvana göndərilənlərdən üç nəfər, Hacı Ehteşam, onun oğlu və xidmətçisi öldürüldü. Onun malikanəsi talan edildi. Hacı Ehteşamın böyük oğlu Sultan Ehtehşam Sovetlərə loyal münasibətdə idi. 14-cü çağırış İran Məclisinə seçkilərdə o, Sovet idarələrinə kömək etmişdi. Neft konsepsiyası məsələsindö S.EHteşam 40 nəfər torpaq sahibini öz ətrafına toplayıb Said Marağayi hökuməti əleyhinə onların imzasını almışdı. Hacı Ehteşamın digər oğlu, İran Məclisinin keçmiş deputatı İsa Liqvani də Sovetlərə yaxın adam idi. Liqvanda ələn üç nəfərin dəfn edilməsi ilə bağlı A.Ovanesyanın göstərişi ilə tudəçilər mitinq keçirməyə cəhd göstərdilər. Avqustun 12-də o qədər də böyük olmayan mitinqdə Hacı Ehteşamın qohumu və Təbriz şəhər prokuroru döyüldü. Xalq Partiyasının təşkil etdiyi bu mitinq həmin anda Sovetlər üçün arzuolunmaz idi. Bu hadisələrlə bağlı Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komissarı S.Yemelyanov tərəfindən hazırlanmış arayışda deyilir: "Tehrandan gəlmiş Xalq Partiyası Mərkəzi Komitəsi üzvlərinin məşhur irticaçı mülkədarları qoyub, Güney Azərbaycanda Sovet İttifaqına loyal münasibətdə olan adamlara qarşı fəal mübarizəyə başlaması son dərəcə şübhəlidir. Liqvan kəndindəki hadisələr varlı dairələrin və yerli ziyalıların, o cümlədən bizə yaxın olan adamların böyük həyacanını

İran əhalisinin üçdə birini təşkil edən Azərbaycan xalqının bu gün öz ana dilində məktəbi və mətbuatı yoxdur. Onun şəhərlərinin heç bir ehtiyacı ödənilmir. Ölkəni bu vəziyyətdən qurtarmaq iqtidarında olan adamlar üç yerə bölünür. Bunun birincisi zəngin adamlardır ki, onlar Azərbaycanda demokratik hərəkatın sonrakı dərinləşməsindən ehtiyatlanırlar. Tacirlər, orta torpaq sahibkarları və ziyalıların bir hissəsinin daxil olduğu İkinci qrup adamlar demokratik hərəkatın yüksəlməsindən, Güney Azərbaycanın Sovet Azərbaycanına birləşdirilməsindən çəkinirlər. Xırda tacir və torpaq mülkiyyətçilərinin, ziyalıların bir hissəsindən ibarət üçüncü qrup Azərbaycanı Tehranın asılılığından qurtarmaq barədə dərindəi düşünürlər.

Güney Azərbaycanda Demokrat firqəsinin yaradılması istiqamətində aparılan İşlərdən Tehran tudəçiləri xəbər tutmuşdular. Onlar bütün vasitələrlə bu işi pozmağa çalışırdılar. Avqustun ilk günlərindo Xalq Partiyası rəhbərlərindən A.Ovanesyan, Əmir Xizi və Hüseyn Nuri (Fələstin mənşəli yəhudi idi - C.H.) Təbrizə gəldilər.[2] Baş Konsulla görüşdə Ovanesyan bildirdi ki, Xalq Partiyası Mərkəzi Komitəsinin fikrincə kənd yerlərində mülkədarlara qarşı fəal çıxış etməyin vaxtı artıt çatmışdır. Bir neçə gündən sonra Tehrandan gəlmiş tudəçilər Təbrizdə Xalq Partiyası kənd komitələri nümayəndələrinin müşavirəsini keçirdilər və zəngin təbəqəyə qarşı fəal çıxış etmək barədə göstəriş verdilər. Bir sıra yerli komitələr müşavirədən qayıdan kimi aldıqları tapşırıqları yerinə yetirməyə başlamışdalar. Ərdəbildən alınan telefamda göstərilirdi ki, Təbriz müşavirəsinin iştirakçıları qayıdan kimi mülkədarları tərksilah etmək üçün ayrı-ayrı qruplar yaratmağa başlayıblar.[3]

Şapurda Xalq Partiyası Komitəsinin sədri Arsen Şaxiyan təsdiq etmişdi ki, A.Ovanesyanın göstərişi ilə onlar fəal hərəkata keçməyə hazırlaşırlar. Bakıda hazırlanan tədbirlər planında, M.C.Bağırovun Güneydəki siyasi işçilərə göndərdiyi məktubda ehtimal edilən

təhlükə baş verdi. Sovetlərin Azərbaycandakı hazırlaq İşlərini pozmağa ilk cəhd tudəçilər tərəfindən oldu. ADP-nin sinfi əlamətə görə deyil, milli əlamətə görə formalaşdırılmasının, tacirlərin, sənayeçilərin və xüsusilə mülkədarların yeni partiyaya cəlb edilməsinin qarşısını almaq üçün tudəçilər tərəfindən bir sıra təxribatlar törədildi. Bunların ən ağırı Liqvan kəndindəki hadisələr idi. Avqust ayının 9-da A.Ovanesyan və Əmir Xizi Xalq Partiyasının üzvləri Riza-Rizai və Mir Əbülfəz Kaşimini yüz nəfərlə birlikdə mitinq keçirmək üçün Liqvan kəndinə göndərdilər. Mülkədar Hacı Ehteşam Liqvani ilə mitinqçilər arasında münaqişə baş verdi. Silahlı toqquşma zamanı Liqvana göndərilənlərdən üç nəfər, Hacı Ehteşam, onun oğlu və xidmətçisi öldürüldü. Onun malikanəsi talan edildi. Hacı Ehteşamın böyük oğlu Sultan Ehtehşam Sovetlərə loyal münasibətdə idi. 14-cü çağırış İran Məclisinə seçkilərdə o, Sovet idarələrinə kömək etmişdi. Neft konsepsiyası məsələsində S.EHteşam 40 nəfər torpaq sahibini öz ətrafına toplayıb Said Marağayi hökuməti əleyhinə onların imzasını almışdı. Hacı Ehteşamın digər oğlu, İran Məclisinin keçmiş deputatı İsa Liqvani də Sovetlərə yaxın adam idi. Liqvanda ələn üç nəfərin dəfn edilməsi ilə bağlı A.Ovanesyanın göstərişi ilə tudəçilər mitinq keçirməyə cəhd göstərdilər. Avqustun 12-də o qədər də böyük olmayan mitinqdə Hacı Ehteşamın qohumu və Təbriz şəhər prokuroru döyüldü. Xalq Partiyasının təşkil etdiyi bu mitinq həmin anda Sovetlər üçün arzuolunmaz idi. Bu hadisələrlə bağlı Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komissarı S.Yemelyanov tərəfindən hazırlanmış arayışda deyilir: "Tehrandan gəlmiş Xalq Partiyası Mərkəzi Komitəsi üzvlərinin məşhur İrticaçı mülkədarları qoyub, Güney Azərbaycanda Sovet İttifaşna loyal münasibətdə olan adamlara qarşı fəal mübarizəyə başlaması son dərəcə şübhəlidir. Liqvan kəndindəki hadisələr varlı dairələrin və yerli ziyalıların, o cümlədən bizə yaxın olan adamların böyük həyacanını

doğurmuşdur".[4] Sovet xüsusi idarələrinin Təbrizdən göndərdikləri məllumatlarda göstərilirdi ki, Liqvan hadisələri əhali içərisində SSRİ-nin nüfuzunu aşağı salmışdır. Məsələn, İran Milli Bankının Təbriz şöbəsinin direktoru Kiyai deyirdi: "Hacı Ehteşam rusların adamı idi. O, neft konsessiyası məsələsində neftin ruslara verilməsini tələb edən teleqrama ilk olaraq imza atmışdı. Bunu ingilislər çox yaxşı bilirdilər. Bu hadisələr baş verən vaxt hamıya aydın oldu ki, rusların dostu yoxdur, onlar üçün heç nəyin fərqi yoxdur. Bu hadisədən sonra tacirlər və mülkədarlar rusları tanıdılar və indi onlarla məsafə saxlayırlar. Mənə belə gəlir ki, bütün bunlar ruslar üçün arzuoluimazdır və yalnız ingilislərin işidir. İngilislərin Tudəçilər içərisində adamları vardır və onların vasitəsi ilə rusların burada İşlərini pozurlar. Əgər əvvəllər rusların İranda 90 faiz tərəfdarları var idisə, indi heç bir faiz də qalmayıb".[5]

Böyük Britaniyada leyboristlərin hakimiyyətə gəlməsi İran Xalq Partiyasında İngiltərəyə münasibətdə müəyyən yumşalma və hətta meyl yaratmışdı. Tudəçilər yeni Baş Nazir Kliment Etliyə göndərdikləri məktubda ümidvar olduqlarını bildirirdilər ki, leyborist hökuməti İranda demokratik xuruculuğa yardım göstərəcəkdir.[6]

Liqvanda baş vermiş hadisələri, Azərbaycandakı vəziyyəti öyrənmək üçün avqust ayının 18-də briqada generalı Cahanbani, diviziya generalı Xosrov Pənah və iki zabitdən ibarət hökumət komissiyası Təbrizə gəldi. Avqustun 20-də hökumət komissiyasının üzvləri SSRİ Baş Konsulluğunda M.Matveyev, Ə.Yaqubov və general-leytenant Qlinski ilə görüşdülər. Danışıqlar zamanı Ə.Yaqubov qeyd etdi ki, Azərbaycanda vəziyyət yaxşı deyildir, yerli hakimiyyət əhalinin ehtiyaclarına və şikayətlərinə diqqət yetirmir. Ostandar və digər rəhbər məmurlar yoxdur. Xalq haqqında heç kim düşünmür. Jandarm və məhkəmə orqanları əhalinin şikayətlərinə etinasız yanaşır, müxtəlif cinayətlərdə əlləri olanlar

cəzalandırılmır. General Qlinski Azərbaycandakı İran diviziyasının komandiri general Dəraxşaninin hadisələrə qeyriloyal münasibətini bildirdi. General Cahanbaninin fikrincə, Azərbaycanda qeyri-sabit vəziyyətdə və müxtəlif şayiələrin yayılmasında maraqlı olan adamlar vardır. Onun gəldiyi gün kimlərsə Təbriz bazarını bağlayıb şəhərdə qeyri-normal vəziyyət yarandığını nümayiş etdirmək istəyirdi. Sonralar aydın oldu ki, bu qəşəbbüslə Tehrandan gələn Tudə rəhbərləri çıxış etmİşlər. General Cahanbani dedi ki, təcili olaraq 3-cü ostana vali təyin edilməli, bir sıra şəxslər Təbrizdən uzaqlaşdırılmalıdır.[7] Avqustun 2-də Ə.Yaqubov yenidən Cahanbani ilə görüşdü. General bildirdi ki, Xalq Partiyası və həmkarlar təşkilatı nümayəndələri onun yanına gəlmiş və Azərbaycanın ehtiyacları barədə təklifləri ona təqdim etmİşlər. O qeyd etdi ki, bu təkliflər doğrudur və çalışacaq ki, Tehran qaldırılan məsələlər barədə tədbir körsün. Cahanbani bildirdi ki, Azərbaycana təyin ediləcək valinin və digər rəhbər məmurların Təbrizdən olmasına üstünlük verir. Lakin o, inanmırdı ki, Tehran buna razı olsun. Ölkədə yaranmış ənənəyə görə Təbriz ostandarı adətən istefaya çıxmış nazirlərin içərisindən təyin edilir, yaxud istefada olan Baş nazir olurdu.[8]

Avqust ayında Tehranda Təbrizə ostandar təyin edilməsi ilə bağlı müzakirələr gedirdi. 1945-ci ilin yazında baş vermiş hadisələrlə bağlı 3-cü ostanın rəhbər işçilərinin böyük hissəsi geriyə çağırılmışdı, yeniləri isə hələ təyin edilməmişdi. Mərkəzi hökumət vali Dadvərin və onun aparatının fəaliyyətindən narazı idi. Ostandar, onun müavini və şəhər idarəsinin rəisi Qulam Rza İlhami Said hökumətinin istefasını və SSRİ-yə neft konsessiyası verilməsini tələb edənlərə qarşı yetərincə mübarizə aparmamışdılar. Daxili İşlər naziri Soruri İlhami ilə söhbətində qeyd etmişdi ki, "siyasətlə məşğul olmaq sizin işiniz deyil, siyasətlə mərkəz məşğul olmalıdır. Siz Dadvərlə birlikdə sadəcə olaraq rusların əlinə keçmisiniz",[9] Hələ 1945-ci ilin

yazında Tehrana çağırılan İlhami Baş nazir M.Bayatla Azərbaycandakı vəziyyət barədə söhbət etmişdi. Həmin söhbətdə Təbrizdəki hökumət nümayəndələrinin işindən ciddi narazılıq olduğu qeyd edilmişdi. Söhbətin stenoqramasında göstərilir: "M.Bayat: Cənab İlhami, deyin görək Təbrizdə vəziyyət necədir, Tudə Partiyasının fəaliyyəti nə dərəcədə effektlidir?

İlhami: Cənab Baş nazir mən Təbrizdə rəsmi adamam və mən fikirləşdim ki, siz məndən şəhərin və əhalinin vəziyyəti barədə soruşacaqsınız.

M.Bayat: Mən eşitdim ki, siz orada üsyan qaldırmaq istəyirsiniz. Siz elə fikirləşirsiniz ki, biz Təbrizdəki vəziyyət barədə heç nə bilmirik?

İlhami: İndi mən təəssüf edirəm ki, bu fikir mənim ağlıma əvvəllər gəlməyib, yoxsa bununla bağlı iə isə etmək olardı (M.Bayat bu ifadədən çox əsəbləşdi və sonra belə bir söz atdı).

M.Bayat: Sizin qızınızın rus məktəbində (Təbrizdəki türk dilində Sovet məktəbi nəzərdə tutulur -C.H.) oxumasını neçə izah edirsiniz?

İlhami: Onunla izah edirəm ki, cənab Baş nazir, Siz Təbrizdəki vəziyyəti bilmirsiniz, xüsusilə maarif və səhiyyədəki vəziyyəti. Heç bir kömək göstərilmir. Mən nə etməliyəm, öz qızımı rus məktəbində oxutmamalıyam, rus xəstəxanasında müalicə etdirməməliyəm.

M.Bayat: Sizə kim icazə verib ki, siyasətlə məşğul olasınız, o cümlədən rusların xeyrinə çıxış edib "Azadlıq Cəbhəsi" və s. yaradasınız?

İlhami: Konstitusiyaya uyğun olaraq hər kəs fikirləşmək haqqına sahibdir, təbliğatla isə mən məşğul olmuram. Belə ki, mən İranlıyam və İran vətənpərvəriyəm. Ruslar isə bizsiz də pis yaşamırlar. O ki qaldı "Azadlıq Cəbhəsi"nə, onu mən yaratdım ki, İranın inkişafı və çiçəklənməsi naminə çalışan sağlam fikirli kənc İranlılar lazım olan istiqamətdə getsinlər. Hakimiyyət Sizin əlinizdədir, Siz məni məcbur edə bilərsiniz ki, hər şeyə cavab verim, lakin bu yaxşı hal deyil, ədalətsizlikdir".[10]

Təbriz şəhər idarəsinin rəisi İlhami Tehranda olanda Daxili İşlər Nazirliyinin siyasi idarəsinin rəisi Gələntəri ona təklif etmişdi ki, ölkənin cənubuna ostandar təyinatı ola bilər, lakin heç bir halda onu Azərbaycana qaytara bilməz. Sovet səfirliyinin müşaviri Ə.Yaqubov İlhamiyə məsləhət körmüşdü ki, heç bir yeni təyinatla razılaşmasın, onun Təbrizə, öz vəzifəsinə qayıtmasına nail olacaqlar. Doğrudan da Möhsün Sədr hökuməti qurulduqdan sonra Daxili İşlər nazirinin müavini Firudini icazə vermişdi ki, İlhami Təbrizdə öz işinə qayıtsın. Eyni zamanda Dadvər də ona məsləhət görmüşdü ki, rəsmən vəzifədən azad edilmədiyi üçün təcili və sakit şəkildə Təbrizə dönsün. Baxmayaraq ki, Azərbaycandakı İran ordusunun komandiri general Dərəxşani Tehrana bir neçə gizli teleqram vurmuşdu ki, ostandar Dadvər və İlhamini Təbrizə göndərməsinlər, sonuiçu avqustun 11-də qayıtdı və şəhor idarəsində işə başladı. Təbrizə qayıtdıqdan sonra İlhami avqustun 16-da general Qlinski ilə görüşdü. Tehrandakı görüşlər və vəziyyət barədə ətraflı məlumat verdi. General Qlinski və İlhami arasında söhbətin məzmunu ilə tanış olduqdan sonra M.C.Bağırov sənədin üzərinə belə bir dərkənar qoymuşdu: "Şəxsən yoldaş Yemelyanova. Ümumiyyətlə aydın deyil, nə üçün general Qlinskiyə lazım olmuşdur ki, konsulluq işçilərinin başı üzərindən özünə aid olmayan İşlərlə məşğul olsun".[11]

M.C.Bağırov hərbçilərin işə açıq müdaxiləsindən ehtiyat edirdi. Hərbi orqanların Güneydəki məsələləri öz nəzarətlərinə götürmək cəhdləri respublika orqanlarının işə rəhbərliyini məhdudlaşdırırdı. Ona görə M.C.Bağırov çalışırdı ki, Təbrizdə başlanan proseslər daha çox onun nəzarətində olan diplomatik və təhlükəsizlik xidmətləri vasitəsi ilə həyata keçirilsin. Avqustun 19-da Təbrizdəki Baş konsul M.Matveyevlə İlhaminin görüşü oldu. Bu zaman şəhərdə şayiələr gəzirdi ki, guya İranın Əfqanıstandakı keçmiş səfiri Fərrox Azərbaycana vali təyin olunub və Daxili İşlər Nazirliyinin məsul işçisi general Seyflə birlikdə

Təbrizə gəlir. Fərrox İran siyasi dairələrində intriqa ustası hesab edilən şəxslərdən idi. Hətta, 1935-ci ildə Əfqanıstanda hakimiyyətdən devrilmiş Enayətolla xan Əfqani İranın Kabuldakı səfiri Fərrox haqqında yazırdı: "Təxribat və şantajlarda çoxillik təcrübəsi olan bu ingilis çasusu mənim taxtdan devrilməyimdə böyük rol oynadı".[12] Sovetlərə düşmən münasibəti bəsləyən Fərroxu Tubrizə göndərmək cəhdi ilə M.Sədr Azərbaycanda hərbi diktatura yaratmaq fikrində idi. Şəhərdə vəziyyəti öyrənmək üçün göndərilən Əhmədi söz-söhbətə görə fərmandar təyin edilməli idi. İlhaminin fikrincə, bütün bunlar nəinki arzuolunmaz, hətta çox təhlükəli addımlar idi. O, təklif edirdi ki, Əhmədinin qayıdıb getməsi üçün müəyyən tədbirlər görülməlidir. Qərara alındı ki, "Xavərs Nou" qəzetində Əhmədinin əleyhinə bir neçə məqalə getsin. Nə qədər ki, o fərmandar təyin olunmamışdı, Fərrox və General Seyfi gələnə qədər onu Təbrizdən çıxarmaq istəyirdilər.

Azərbaycandakı iqtisadi idarənin rəisi Ağavəli də 1945-ci ilin yayında özünü şübhəli aparırdı. Avqust ayında o, mülkədarlardan vergi alaraq taxıl toplamaqdan imtina etmişdi. Bir-iki ay sonra yağışlar başlayanda taxılı kəndlərdən şəhərə daşımaq əslində mümkünsüz olurdu. Valinin müavini Nikicu ondan vergi toplamağı tələb etdikdə Ağavəli bundan imtina etmiş və bu məsələ ilə bağlı yalnız Tehrana cavab verəcəyini bildirmişdi.

İlhami hesab edirdi ki, bu İşlərə yuxarıdan qərar verilmişdir. Ağavəlinin hərəkətlərinə general Dərəxşani də etiraz etmirdi. Bu İşlərin arxasında duran əsas məqsəd Azərbaycanda ərzaq böhranı və aclıq yaratmaq idi. Demokratik Azərbaycan ideyasını siyasi cəhətdən məhv edə bilməyənlər, onu aclığın əli ilə boğmaq istəyirdilər. Köhnə məhsuldan Təbrizdə on min ton buğda qalırdı ki, bu da yalnız payız aylarına çata bilərdi. Ostandarı əvəz edən Nikuçunun taxıl məsələsi ilə bağlı Tehrana vurduğu teleqramların elə bir əhəmiyyəti olmadı. Əhali arasında söz-söhbət gəzirdi ki, Azərbaycanda aclıq yaradılması təkcə M.Sədrin planı

deyil, eyni zamanda ingilislərin tövsiyyəsidir.[13] Ehtimal edilirdi ki, İran rəhbərliyi bütün bu İşlərlə Azərbaycanda qeyri-sabitlik yaradıb Sovetlərin ölkənin daxili İşlərinə müdaxiləsi barədə faktları xarici İşlər nazirlərinin sentyabrda keçirilən London sessiyasına vermək istəyir,

Avqust ayının sonlarında ADP-nin elan olunması ilə bağlı tədbirlər başa çatmışdı. Pişəvəri başda olmaqaa təşkilat Bürosunun hazırladığı müraciətnaməni imzalayacaq adamların siyahısı müəyyənləşdirilmişdi. Müraciətnamə Bakıda bəyənilmiş və son variantı Moskvaya göndərilmişdi. Eyni zamanda İran Xalq Partiyasının son pozuculuq İşləri barədə də Moskvaya məlumatlar verilmişdi. Bu məlumatlarda bildirilirdi ki, tudəçilər Azərbaycanda milli azadlıq mübarizəsinin küclәndirilməsinin əleyhinədirlər. Lakin avqust ayında tudəçilərin silahlı dəstələrinin Təbrizdə bəzi hökumət binalarını tutması barədə yazılanlar o qədər də düzgün deyildir.[14] Tehrandan gəlmiş Tudə rəhbərlərinin silahlı üsyana çağırışı bir sıra kiçik təxribatlardan ibarəq oldu. Bütün bunlar İran mürtəce rejiminə qarşı mübarizə adı altında törədilsə də əslində Azərbaycanda yeni müstəqil firqə quruculuğuna qarşı idi. S.Yemelyanovun hazırladığı "İran Azərbaycanı üzrə tədbirlərin həyata keçirilməsinin gedişi haqqında" geniş məruzədə göstərilirdi: İran Xalq Partiyasının bir sıra üzvləri tamahkar məqsəddərlə öz şəxsi küzəranlarını yaxşılaşdırmağa çalışır, A.Ovanesyan və Əmir Xizi kimi rəhbər işçilər bir sıra təxribatlar və talanlar törədirlər. Əhalinin gözündə Xalq Partiyasının yerli orqanları xeyli nüfuzdan düşmüşdür. Beləliklə, İran Azərbaycanında milli azaddıq hərəkatına rəhbərlik edəcək, bütün demokratik qüvvələri öz ətrafında birləşdirəcək siyasi partiyanın yaranmasına böyük zərurət hiss edilir.[15]

Sentyabr ayının 3-də Güney Azərbaycanın şəhər və böyük yaşayış məntəqələrinin əhalisi səhər yuxudan ayılanda divarlarda türk dilində çap üsulu ilə yazılmış

müraciətnamə yapışdırıldığını gördülər. Bu Azərbaycan Demokrat Firqəsinin əhaliyu müraciəti idi. Müraciətdə ADP-nin yarandığı, onun məqsəd və amalı xalqa bəyal edilirdi.[6]

Güney Azərbaycanın müxtəlif şəhərlərində 80 nəfərə yaxın tacir, mülkədar, siyasi xadim, ziyalı, fəhlə, kəndli, din xadimi və s. imzaladığı müraciət qasa müddətdə Tehranda, Xorasanda, Mazandaranda, Gilanda və digər yerlərdə də geniş yayıldı. Müraciətdə deyilirdi: "Tarixdə azadlığın bayraqdarı kimi tanınan Azərbaycan artıq Tehran mürtəce hökumətinin zülm və fişarı altında tapdalana bilməz, o, azad olmalıdır. Azərbaycan keçmişdə parlaq bir mədəniyyətə malik olduğu halda, indi savadsız qala bilməz. Azərbaycan xalqının öz gözəl ana dili var. Bu dillə məktəblərində oxumalı, idarələrində yazılmalıdır. Azərbaycanın zəngin sərvətləri Azərbaycanın özünün olmalıdır. Azərbayçaida sənaye ocaqları yaradılmalı, Azərbaycan mədəni kənd təsərrüfat ölkəsinə çevrilməlidir. Fəhlə işsiz, kəndli torpaqsız qala bilməz. Azərbaycan hər cəhətdən azad və abad olmalıdır."[17]

Amerika tarixçisi T.Svyatoxovski haqlı olaraq yazır ki, ADP Tudəyə alternativ olaraq yaradılırdı. O, təriqətçiliyi rədd edirdi, ancaq radikal elementlərə söykənən Tudədən fərqli olaraq sinfi əlamətə fikir vermədən bütün azərbaycanlıları öz sıralarına qəbul edirdi.[18] ADP-nin 3 sentyabr müraciətnaməsində bu prinsip özünü aydın göstərirdi. Müraciətnamə çox təsirli hazırlanmışdı. Güney Azərbaycan türklərinin arzu və istəkləri bu sənəddə əks olunmuşdu. Orada deyilirdi: İranın istiqlaliyyətini və ərazi bütövlüyünü saxlamaqla Azərbaycana daxili azadlıq verilməlidir ki, öz müqəddəratını özü təyin etsin.[19]

Sovet dövründə nəşr olunan elmi ədəbiyyatda ADP-nin adı ilə bağlı müxtəlif mülahizələr irəli sürülmüşdü. Bu hadisələrin iştirakçısı olan M.Çeşmazər qeyd edir ki, S.C.Pişəvəri partiyanın adına xüsusi əhəmiyyət verirdi. O, bu əqidədə idi ki, "partiyaya

ad qoyulduqda xüsusi məqsəd nəzərə alınmalıdır".[20] Lakin 6u partiya yaranmamışdan xeyli əvvəl onun adı Moskvada, ÜİK (b)P MK-nın 6 iyul 1945-ci il tarixli qərarında qoyulmuşdu. ADP-nin müraciəti əhali içərisində geniş əks-səda doğurdu. Sovet idarələrinin bu işdə müəyyən rolu olsa da Güney Azərbaycanın demək olar ki, bütün şəhərlərindən və yaşayış məntəqələrindən yeni firqənin müraciətini müdafiə edən teleqramlar gəldi. Azərbaycanda yeni mitinqlər dalğası başlandı. Ərdəbildən verilən məlumatda göstərilirdi: sentyabrın 3-də saat 18-də şəhərdə çoxlu adamın iştirak etdiyi mitinq oldu. Mitinqdə əhalinin bütün təbəqələrinin nümayəndələri iştirak edirdi. Məsələn, tacir və mülkədarlardan Fətəli və Şirəlixan Dərgahilər, Musa Ağa Sadiqi, Mübaşiri qardaşları, Vahabzadə və digərləri mitinqçilər arasında idi. Mitinqi açan Molla Xəlil İmraqi dedi: "Mən Ərbədil əhalisi adından Azərbaycan Demokrat firqəsinin müraciətini alqışlayıram, xalqın adından ona qoşuluram, biz özümüz üçün müstəqillik tələb edirik. Biz ayrı yaşamaq istəyirik və öz evimizin sahibi kimi buna bizim tam haqqımız vardır. Biz öz evimizin sahibi olmaq istəyirik və olaçağıq. Buna bizi yeni ADF çağırır".[21] Mitinqdə partiyanın yaradıcıları olan Pişəvəriyə və Şəbüstəriyə müraciət qəbul edildi. Teleqramla Təbrizə göndərilən müraciətdə deyilirdi: "ADF-nin çağırışı ilə tanış olmaqdan böyük sevinc hissi keçirdik. Orada Azərbaycan xalqının uzun illərdən bəri arzu və istəkləri əks olunub. Biz bütün varlığımızla doğma demokrat firqəmizin yaranması münasibəti ilə xalqımıza göz aydınlığı veririk. Bu partiya müqəddəs bir vəzifəni -azərbaycanlıların milli muxtariyyətinin yaradılmasını öz üzərinə götürmüşdür. Xahiş edirik bizi onun sıralarında hesab edəsiniz".[22] Bu tipli mitinqlər demək olar ki, Azərbaycanın irili-xırdalı bütün şəhərlərində keçirildi. Yeni partiyanın yaranmasını müdafiə edən yüzlərlə teleqram vuruldu. Təbrizə, Marağa, Əhər, Culfa, Mərənd, Ərdəbil, Maku, Səlmas və digər yerlərdən gələn

teleqramlar sentyabr ayı ərzində yeni nəşrə başlayan "Azərbaycan" qəzetində dərc edildi. Bu teleqramların məzmunu əsasən eyni idi. Sovet ideoloji qəlibinin izləri açıq-aydın hiss edilirdi. ADP-nin müraciətnaməsi elan olunanda Yaponiya üzərində qələbədən cəmisi bir gün keçmişdi. İ.Stalinin Postdam konfransındakı açıqlamasına görə Sovet qoşunlarının İrandan çıxmasına 6 ay qalırdı. Bu müddət Güney Azərbaycan üzrə tədbirləri həyata keçirmək üçün kifayət idi. Sentyabrın 5-də "Azərbaycan" qəzetinin ilk sayı çıxdı. Elə ilk sayda M.Ç.Pişəvərinin "Firqəmiz işə başladı", "İki yol ayrıcında. Bizim axır sözümüz", "Ruznaməmizin dili" adlı üç yazısı çıxmışdı. Baş yazıda göstərilirdi: "Biz İranın istiqlalına əlaqəmənd olduğumuz ilə bərabər Azərbaycan xalqının fəhrəngi ixtiyaraqı və öz müqəddəratını öz gücü ilə təmin etməsini arzu edirik. Öz dilimizdə kitabımız, ruznaməmiz və ədəbiyyatımız azad bir surətdə vücuda gəlmək ilə xalqımızın mütərəqti bir xalq olmasına imkan verməlidir... Firqəmiz xalqın iradə və gücünə dayanaraq bu haqqı alacaq, onun vasitəsi ilə xalqın azadlığını və ölkənin tərəqqisini təmin edəcəkdir. Firqəmiz milli bir firqə olduğu üçün sinif və təbəqə nəzərdə tutmayıb, ümüm camaatı öz bayrağı altına çağırır".[23] "Azərbaycan"ın nəşri firqəçilik işinin təşkilinə və milli prosesin dərinləşməsinə böyük təkan verdi. Elə ilk gündən dil uğrunda mübarizə milli mübarizənin mərkəzi məsələsinə çevrildi. Türk dilinin yasaq edilməsi, ana dilində məktəb və mətbuatın olmaması, dövlət idarələrində işlədilməməsi güneylilərin ən ağrılı məsələsi idi ki, ADP ilk müraciətnaməsində bunu qaldırmışdı. "Azərbaycan" qəzeti yazırdı: "Bizim dilimiz düşmənlərin boş iddialarına baxmayaraq çox geniş və qəni bir dildir. Onun kökü xalqımızın qanında və ürəyindədir. Biz onu ana südü ilə əmib vətənimizin ruhnəvaz havası ilə tənəffüs etmişik. Ona tohin edənlər, onu təhmili və

məsnui göstərmək istəyənlər bizim həqiqi düşmənlərimizdir"[24]

Sentyabr ayının 6-da İran Xalq Partiyası Azərbaycan əyalət komitəsinin konfransı oldu. Konfransda Təbrizdən və müxtəlif vilayətlərdən 112 tudəçi iştirak edirdi. Vilayətdən gələn nümayəndələr kənd yerlərində tudəçilərə qarşı mübarizənin güclənməsi haqqında ətraflı məlumat verdilər.

Nümayəndələrin məlumatından sonra Firudin İbrahimi ADP-nin müraciətini oxuyaraq konfransın müzakirəsinə təqdim etdi. Bu məsələ ilə başı müzakirələrdə 31 nəfər çıxış etdi. İştirakçıların çoxu müraciəti müsbət qiymətləndirdi. Lakin əleyhinə gedənlər də oldu. Vaxtilə Sovet ittifaqından İrana sürgün edilmiş Qəhrəmani, özünün avantürist çıxışları ilə tanınan A.Şaxiyan, Tudənin əyalət komitəsinий üzvü, erməni qəzetinin redaktoru David Gevorkyan Xalq Partiyasının ADP-yə birləşdirilməsinin əleyhinə çıxış etdilər. Kibrit fabrikinin fəhləsi Sahmanzadə öz çıxışında qeyd etdi ki, ADP müstəsna olaraq seçkilər üçün yaradılır. Bu Xalq Partiyasına qarşı yeni oyundur. Adamlar görür ki, Xalq Partiyası gündən-günə küclənir və bu səbəbə görə ona qarşı iş aparırlar. Arsen Şahnəzəryan isə qeyd etdi ki, "Biz demokratik partiyanın üzvləri ilə birlikdə iş aparmayacağıq, ona qarşı mübarizə aparaçağıq, kec, yaxud tez biz onları məhv edəcəyik, yaxud onlar bizi məhv edəcəkdir. Buna görə də biz heç bir halda onlarla birgə işləyə bilmərik".[25] Belə çıxışlara qarşı S.Padəqan yeni partiyanın məqsəd və vəzifələrini əsaslandırmaqla cavab verdi. Bəzi çıxışlarda ADP-nin burjua partiyası olacağı bildirilir və Xalq Partiyasının qorunub saxlanmasının zəruriliyi göstərilirdi.[26] Uzun müzakirələrdən sonra konfrans sentyabrın 7-də qərar qəbul etdi. Qərarda deyilirdi: Azərbaycan xalqı mərkəz və məclis qarşısında "Azadlıq cəbhəsi" qəzetini bağlayan mürtəce hökumətə qarşı protest edir; Xalq Partiyasının bütün təşkilatlarına bir vəzifə olaraq tapşırılır ki, yerlərdə konfransın qərarını ətraflı şərh etsinlər;

Azərbaycan Xalq Partiyası, onun vilayət və rayon komitələri bu konfransın qərarına uyğun olaraq özünün bütün təşkilatları ilə birlikdə Azərbaycan Demokrat Partiyasına birləşirlər; Tudənin əyalət komitəsi, onun bütün rayon komitələri və ezəkləri bütövlükdə yeni partiyanın nizamnaməsini və şüarlarını qəbul edirlər, birləşmə proqramını yerinə yetirmək üçün yaxın günlərdən gec olmayaraq, Demokrat Partiyasının rəhbərliyi ilə razılıq əsasında beş nəfərdən ibarət komissiya yaradılsın.[27] Konfransda həmkarlar təşkilatının nümayəndəsi kimi iştirak edən M.Biriya bu qərarı alqışladı. Azərbaycanın şanlı tarixində onun böyük əhəmiyyətindən danışdı və özünün "Mənim arzum Azərbaycan" şerini oxudu. Bu dövrdə Tehran qəzetləri M.Biriyaya qarşı geniş kampaniya aparırdılar. Bu kampaniyanın önündə Seyid Ziyanın himayəsində olan mətbuat orqanları gedirdi. "Vəzifə" qəzetində M.Biriyanın şəkli verilmiş və altında özünü tudəçi adlandİran birinin bu sözləri yazılmışdı: "Mən Tudənin üzvüyəm, lakin tudəçilər bilmirlər ki, mən "Eradeyi Milli"yə işləyirəm. Ona görə onların bütün sirlərini bilirəm. Belə ki, Biriyanın geydiyi kostyumu ona Sovet konsulluğu vermişdir".[28]

Sentyabrın 6-da M.C.Bağırov İ.Stalinə yazırdı: Bu gün Xalq Partiyası Təbriz əyalət komitəsi yerli rəhbərlərlə birlikdə ADP-nin müraciətini müzakirə edib, Xalq Partiyasının Azərbaycan filialının yeni Azərbaycan Demokrat Partiyası ilə birləşməsini həll edəcəkdir.[29]

Konfransda gözlənilməz qərarlar qəbul ediləcəyindən ehtiyat edən Sovet xüsusi idarələri onun gedişini diqtətlə izləyir, müəyyən məqamlarda onu idarə edirdilər. Komissiya üzvlərinin seçilməsində bu meyl özünü göstərirdi. Lakin "etibarlı" nümayəndələrlə kimə səs vermək barədə qabaqcadan söhbət edilmişdi. Nəticədə solçuların müqaviməti qırıldı. Təbrizdən Padəqan və Qiyami, Mərənddən Buraxani, Sərabdan Vaqaf, Üsküdən

Yadulla Kələntəri birləşdirici komissiyaya üzv seçildilər.

Sentyabrın 8-də "Azərbaycan" qəzetinin 2-ci sayında dərc olunmuş "Böyük bəlalardan biri" məqaləsi işin ciddiləşdiyindən xəbər verirdi. Orada deyilirdi: "Firqəmiz ən birinci qədəmdə xətərnak ünsürlər ilə ciddi mübarizə aparmalı, öz üzvlərindən söz deyil, iş tələb etməlidir... Məssuliyyətsiz ağızlara, iş və fəaliyyəti fəqət şirin sözlər və hərarətli danışıqlardan ibarət bilən adamlara əsla ehtiyacımız yoxdur. Onlar madam ki, firqəmizin ziddinə bir söz danışmayıblar, onlar ilə heç işimiz olmayacaq, amma əgər burada-orada oturub əleyhimizə boşboğazlıq və yaraşmayan sözlər danışıb, xalqı mübarizədən saxlamağa çalışmaq istəsələr, biz onları azadlıq cəbhəsinin fərari sərbazı tanıyıb ciddi fitnəkarlıqlarının qabağını almağa iqdam edəcəyik".[30]

Sentyabrın ilk günlərində Demokrat Partiyasının təşkilat bürosu Bakıdan pul yardımı, iki mətbəə üçün avadanlıq, zəruri olan miqdarda mətbəə materialı və kağız almışdı. SSRİ Dövlət Bankının Azərbaycan Kontorunun məlumatında göstərilir ki, Güney Azərbaycanla bağlı yaradılmış xüsusi fonddan avqustun 29-da E.Kərimova, H.Həsənova və M.İbrahimova 400 min rial, sentyabrın 13-də H.Həsənova və M.İbrahimova 210 min rial pul verilmişdi.[31]

Demokrat Partiyasının yaranması haqqında məlumatın açıqlanması İran hakimiyyət dairələrinin və ingilislərin ciddi narahatçılığına səbəb oldu. Təbrizdəki ingilis Baş konsulu Uol ADP ilə bağlı bildirirdi: "Bu partiya daha təhlükəlidir, nəinki sovetpərəst təşkilat olan Xalq Partiyası. Xalq Partiyasında zəngin adamlar yoxdur, o imkanlı təbəqəyə və ziyalılara arxalana bilmirdi. Yeni Demokrat Partiyasının tərkibində çoxlu nüfuzlu adamlar görsənir. Onun proqramı çox ağıllı tərtib olunub, partiyanın tələblərinə qarşı etiraz etmək çətindir. Əgər bu partiya öz ideyalarını həyata keçirsə, onu bütün

Azərbaycan əhalisi müdafiə edəcəkdir. Bu məqsədlərlə o, çox uzağa gedəcəkdir".[32]

M.C.Pişəvəri sentyabrın ilk günlərindən başlayaraq Britaniyanın əleyhinə danışmağa başlamışdı. Onun fikrincə, Tehran irticası və Seyid Ziya İngiltərənin keçmiş və indiki Xarici İşlər naziri Ernest Bevinin və Antonio İdenin sözlərini təkrar edirdilər. O, yazırdı: "Bunlar hamısı bir çeşmədəi su içir. İranda qatı bir irticaçı dövlət yaratmaq, o dövlətin notasını London siyasət-mədarlarının əlinə tapşırmaq niyyətindədirlər".[33] M.C.Bağırov da İ.Stalinə yazdığı 6 sentyabr tarixli məktubda Tehranda irticanın küclənməsini, Sovetlərə yaxın olan qəzetlərin bağlanmasını ingilislərin təzyiqi ilə əlaqələndirirdi. Tehranda və şimal vilayətlərində ciddi hərbi rejim tətbiq edilmişdi. Bütün yığıncaq və mitinqaər qadağan edilmişdi. Bir sıra qəzet redaktorları, həmkarlar təşkilatı üzvləri Xalq Partiyasının rəhbər işçiləri nəinki Sovet tədbirlərini müdafiə etməyə, eyni zamanda şahın və Baş nazirin qəbuluna girməyə başlamışdılar. M.C.Bağırov İ.Stalinə məlumat verirdi ki, ölkədə qarışıqlıq yaratmaqla İran hakimiyyət dairələri yaxın günlərdə Londonda açılacaq Xarici İşlər nazirləri müşavirəsinə Sovetlər əleyhinə faktlar verəcəklər. Bununla onlar SSRİ qoşunlarını İrandan çıxarmağa iail olmaq istəyirlər.[34] Tehran mətbuatının SSRİ qoşunları çıxandan sonra Sovetpərəst əhvali-ruhiyyəli adamlara divan tutulaçağı barədə yazılar verməsi çoxlarını təşvişə salmışdı. Bu İşlərdən qorxuya düşən yüzlərlə ailə Sovet İttifaqı sərhədlərini keçməyə cəhd göstərir, SSRİ səfirliyinə və konsulluqlarına Sovet vətəndaşlığını qəbul etmək barədə ərizələrlə müraciət edirdilər. Sərhədi keçmək istəyən ailələrlə izahat işi aparılmışdı və onlar geri çağırılmışdılar.

Xalq Partiyasının rəhbərliyinin və bir sıra yüksək rütbəli zabitlərin hazırlıq İşləri görmədən və silah

ehtiyatı toplamadan hakimiyyət çevrilişi etmək cəhdləri ölkədə vəziyyəti daha da ağırlaşdırmışdı. Nəticədə 250 nəfərə qədər müxtəlif rütbəli zabitlər həbs edilib İranın cənubuna, ingilis ordusunun nəzarəti altına verilmişdi.

Avqustun axırı, sentyabrın əvvəllərində ölkənin şimal rayonlarında Sovetlər əleyhinə kiçik çıxışlar olmuşdu. Şahidə, Bəndər-Şahda yeni qurulan bir sıra Sovet qazma buruqları dağıdılmışdı. İran hökuməti Şimal vilayətlərinə gizli yolla silah və mülkü geyimli polis işçiləri göndərməyə başlamışdı. Sovet hərbi idarələri İran hökumətinin Şimalda ordunu, polis və jandarmanı əlavə göndərilən qüvvələr hesabına möhkəmləndirmək cəhdlərinə imkan vermədilər.

İranın cənubunda ingilislər öz fəaliyyətlərini genişləndirdilər. Onlar qaşqaylar, bəxtiyarilər və digər tayfaların ittifaqını yaradıb silahlandırmağa çalışırdışar. Bununla ingilislər zəifləmiş Mərkəzi Tehran hökumətinə güclü təzyiq imkanı əldə edirdilər. Bu hərbiləşdirilmiş dəstələrdən gələcəkdə Şimalda istifadə edilməsi də istisna edilmirdi. M.C.Bağırov ingilislərin bu planını pozmaq üçün bir sıra tədbirlər hazırlamışdı. O, sentyabrın 6-da İ.Stalinə yazırdı: "İranın şimal vilayətlərində bizim tədbirlərimizdən ingilislərin və İran hökumətinin dştətini yayındırmaq üçün İngilislər tərəfindən formalaşdırılan cənub tayfaları ittifaqının dağıdılması işinə başlamağa icazə verməyinizi xahiş edirəm. Müxalif əhvali-ruhiyyəli xanlarla gizli əlaqələr qurmağı zəruri hesab edirik. Onlardan cənubda ingilis əlaltılarına qarşı silahlı çıxış üçün və Mərkəzi İran hökumətinə qarşı cənub tayfalarının müstəqalliyi şüarı altında geniş hərəkat yaratmaq məqsədi ilə istifadə etmək olar".[35]

Sentyabrın ortalarında Azərbaycan Demokrat firqəsinin möhkəmləndirilməsi istiqamətində daha bir addım atıldı. Ayın 14-də firqə təsisçilərinin Təbrizdə müşavirəsi keçirildi. Mərkəzi rəhbər orqanlarının möhkəmləndirilməsi, yerli komitələrin

genişləndirilməsi haqqında ətraflı müzakirələr getdi. Müşavirədə gizli səsvermə ilə firqə İşlərinə rəhbərlik etmək üçün Pişəvəri başda olmaqla 9 nəfərdən ibarət Təşkilat Komitəsi yaradıldı. Nizamütdövlə Rəfiй, həsən BİranQ, Katibi, Əli Maşinçi, Qulam hüseyn Fərşçi, Müəzzizadə, Şobüstəri, həsən Zəfiri Təşkilat Komitəsinin üzvləri seçildilər. Elə həmin müşavirədə Xalq Partiyasının artıq buraxılmış Əyalət Komitəsindən Sadıx Padəqan, Zeynalabidin Qiyami, Cəfər Kaviyan, Y.Gələntəri və M.Burhani Təşkilat Komitəsinə əlavə edildilər. Beləliklə, Təşkilat Komitəsi üzvlərinin sayı 14 nəfərə çatdırıldı. Müşavirədə qərar qəbul edildi ki, 20 gün ərzində ADP-nin təsis qurultayı keçirilsin. Bu müddət ərzində Təşkilat Komitəsi partiyanın nizamnaməsini və prsnram layihəsini hazırlamalı idi. ÜİK(b)P MK-nin 6 iyul qərarından sonra ADP-nin proqramının layihosi Təbrizdə hazırlandı, Bakıda, Azərbaycan K(b)P MK-da isə layihəyə əlavələr və düzəlİşlər edildi.[36] Sentyabrın 20-si üçün artıq Demokrat firqəsinə 6767 nəfər yeni üzv daxil olmuşdu. Keçmiş Xalq Partiyası üzvləri bu saya daxil deyildilər. Yeni üzvlərin böyük əksəriyyətini kəndlilər təşkil edirdi. Bununla yanaşı xırda və orta torpaq sahibkarları, tacirlər, xidmətçilər və ziyalılar da tədricən tərəddüdlərə son qoyub Demokrat firqəsinə tərəf gəlirdilər. Sentyabrın 24-nə qədər firqə üzvü olmaq üçün daha 1000 nəfər ərizə vermişdi. Sentyabrın 14-də keçirilən müşavirədən sonra partiyaya axın xeyli güclənmişdi. Hətta sentyabr ayının 6-7-də Xalq Partiyasının əyalət konfransında Demokrat firqəsinin yaranmasının əleyhinə çıxış edən bəzi tudəçilər də yeni partiyaya üzv olmaq üçün ərizə ilə müraciət etmişdilər. Sentyabrın 24-də Təbrizin erməni içması adından 3 nümayəndə təşkilat komitəsinə gələrək icma adından türk dilində tərtib edilmiş təbriki firqə rəhbərliyinə təqdim etdi. Demokrat firqəsinin yaranmasına ciddi müqavimət göstərmiş David Gevorqyan

cəhd göstərdi ki, yeni firqənin rəhbərliyinin etimadını qazansın. Lakin Sovet Azərbaycanının Təbrizdəki xüsusi xidmət üzrə rezidenti onun partiyaya qəbul edilməsinin əleyhinə oldu." Erməni icmasının Təşkilat Komitəsinə təbrikində deyilirdi: "Azərbaycan Demokrat firqəsinin müraciəti ilə ətraflı tanış olduqdan sonra Azərbaycanın erməni əhalisi orada qoyulan tələblərin ədalətli olduğunu, bu tələblərin Azərbaycanda yaşayan digər xalqların da arzu və istəklərinə uyğun olduğunu bildirir. Biz ermənilər bu hadisələrin iştirakçısı olmaya bilmərik. Biz büqün kücümüzlə Demokrat firqəsinin tələblərinin həyata keçirilməsində iştirak edəcəyik.[38]

Ermənilərin nüfuzlu nümayəndələrinin iştirak etdiyi iclasda 3 nəfər seçildi ki, Demokrat firqəsinin təşkilat komitəsilə əlaqə saxlasınlar və erməniləri yeni partiyaya cəlb etsinlər. Hətta Marağada "Qnçak" Partiyası özünün ləğv edildiyini və 100 nəfər üzvü ilə birlikdə Demokrat firqəsinə keçdiyini bildirmişdi. Xalq Partiyasının üzvü Qurgen Zöhrabyan deyirdi: "Xalq Partiyası ilə birləşdikdən sonra hələ məlum deyildir ki, yeni partiyanın İşləri necə gedəcəkdir. Lakin mən ümidvaram ki, bu ümumi hərəkat müvəffəqiyyətlə inkişaf edəcəkdir, çünki indi bütün dünya demokratik dəyərlər üzərinə keçir. Qorxmaq lazım deyil, biz ermənilər də gərək bu partiyaya daxil olaq"[39] Təşkilat Komitəsi və Bakıdan olan nümayəndələr ermənilərin Demokrat firqəsinə daxil olmasına ehtiyatla yanaşırdılar. Onların xarici kəşfiyyata işləmələri barədə çoxlu məlumatın olması ilə yanaşı, Bakı rəhbərliyinə ermənilərin yaxın vaxtlarda Urmiyə ətrafında muxtariyyət tələb edəcəkləri barədə gizli planları da məllum idi. Güney Azərbaycanda yaşayan ermənilərin Demokrat firqəsinə münasibəti birmənalı deyildi. Təbriz erməniləri ilə sıx əlaqədə olan şəhərdəki ingilis bankının işçisi Tovmasyan bildirirdi: Öz qoşunlarını çıxardıqdan sonra ruslar İranda təsirlərinin zəifləyəcəyini bildiklərindən "Tudə"

Partiyasını demokrat partiyası adlandırdılar və oraya bir neçə tacir, mülkədar əlavə etdilər ki, Azərbaycanı öz təsirlərində saxlasınlar. Yenə həmin bankın direktor müavini Ter-Ovanesyan qeyd edirdi ki, ermənilərin yeni demokratik partiyaya cəlb edilməsi səhv işdir. Bu partiyaya Azərbaycanda yaşayan ermənilər adından təbrik məktubu göndərilməsi siyasi baxımdan çox qorxulu addımdır. Ermənilər olaraq milli azlıq kimi bizim vəziyyətimiz elə də möhkəm deyil. Biz gərək bütün bunları dərk edək və özümuzü loyal aparaq. Hətta ola bilər ki, gələcəkdə kənc türklər kimi Demokrat firqəsi özu qorxulu qılınc kimi erməniləri təqib etsin.[40]

Sentyabr ayının 25-də Təbrizdə Demokrat firqəsinə ərizə ilə müraciət edənlərin qapalı yığıncağı keçirildi. Yığınçaqda müraciət edənlərin çoxluğunu nəzərə alaraq Demokrat firqəsinin müvəqqəti Təbriz Komitəsi yaradıldı. Eyni zamanda Müvəqqəti Komitə Xalq Partiyasının aşağı orqanlarının Demokrat firqəsinə keçməsi prosesini sürətləndirməli idi. Müzakirələr zamanı müəyyən edildi gi, qarşıdakı təsis xurultayına hər 60 nəfərdən bir nümayəndə seçilsin. Rayon təşkilatlarına 80 mandat verilməsi və ümumiyyətlə qurultay nümayəndələrinin təxminən 200 nəfər olması müəyyənləşdirildi.

Partiya quruculuğu işi vilayətlərdə də gedirdi. Sentyabrın 23-də Urmiyədən qayıtmış Katibi məlumat verirdi ki, Müraciətin muəyyən bəndlərinə qarpş olan narazılıqlar aradan qaldırıldı və 7 nəfərdən ibarət müvəqqəti partiya komitəsi yaradındı. Xoyda keçirilən iclasda vəkil Yəzdani, xırda mülkiyyətçi Səbbahi, Ataş xan Maku və daha 4 nəfərdən ibarət komitə təsis edildi. İclasdan dərhal sonra Ataş xan Şapura, Yəzdani Makuya göndərildi ki, orada partiya komitəsini təsis etsinlər. Sentyabrın sonuncu ongünlüyündə Mərənddə, Culfada, Aləmdarda, Sərabda, Ərdəbiddə, Mianədə, Marağada, Miandobda, Məlik Kənddə (burada tudəçilər çox güclü idilər) və bir sıra digər yerlərdə yığıncaqlar keçirilib təşkilat komitələri seçilmişdi. Keçirilən

yığıncaqlarda bir qayda olaraq qurultaya nümayəndələr də seçilirdi. Bir sıra yerlərdə tudəçilərin müqaviməti hələ qırılmamışdı. Məsələn, Demokrat firqəsinin Şapurda olan nümayəndəsi Cəfər Kaviyan Təbrizə teleqram vurulmuşdu ki, təcili olaraq Arsen Şaxiyanı Təbrizə çağırsınlar. O, yeni partiya Yuruculuğu İşlərində Kaviyana mane olurdu. Sulduz rayonuvdan gələn məlumatda kösqərilirdi ki, Demokrat firqəsinə yazılailarıın sayı üç minə çatmışdır. Bunun 500 nəfəri mülkədar və varlı kəndlilər, 200 nəfərə qədəri tacir və dükan sahibləri, 15 nəfəri müəllim, 8 nəfəri din xadimi, 100 nəfərə yaxını yuxarı sinif şagirdləri, qalanları isə kəndlilər idi.[41]

ADP getdikcə vəziyyətə nəzarət edən güclü siyasi qüvvəyə çevrilirdi. Sentyabrın 22-də Demokrat firqəsilin tələbi ilə Təbriz şəhər idarəsində keçirilən müşavirədə Şəhridar başda olmaqla demək olar ki, bütün hakimiyyət nümayəndələri iştirak edirdi. Müşavirədə çıxış edən Pişəvəri bildirdi ki, bir sıra cinayətkar ünsürlər kimlərinsə göstərişi ilə şəhərdə ictimai qaydaları pozur, gərginlik yaradırlar. Bu şəxslər çox vaxt özlərini demokratik təşkilatların üzvləri kimi təqdim edirlər. Bizim firqəçilər bu şəxslərdən bir neçəsini tutub yerli hakimiyyət orqanlarına təhvil versələr də naməlum səbəblərdən bu şəxslər yenidən azadlığa buraxıldılar. Pişəvəri hakimiyyət orqanlarını cinayətkar elementlərə qarşı mübarizəyə, şəhərdə qayda-qanun yaratmağa çağırdı. Təbriz ostandarlığını əvəz edən Nikuçu öz çıxışında Pişovərinin qaldırdığı məsələlərin doğru olduğuiu təsdiq etdi.[42]

Seityabrın 23-də Ərdəbildə Demokrat firqəsinin yerli komitəsi yaradıldı. Şəfi Sədr, H.Cövdət, Mir Mövsüm Kaşani, Pir Murtuza, Məhərrəm İnşan, Balaş Azəroğlu, Molla Xəlil İşraqi, həkim Tağızadə və dikorləri təsis qurultayına nümayəndə seçildilər. 23 sentyabrda Sərabda, Astara və Meşkinşəhərdə də seçkilər keçirildi.[43] Demokrat firqəsi ilə bağlı

məsələlər əhali arasında müzakirələrin başlıca mövzusuna çevrilmişdi. Sovet xüsusi idarəsinin agentləri əhali içərisində olan söz-söhbət barədə çoxlu məlumatlar toplamışdılar. Təbrizdə Tacir Hacı Həsən ağa deyirdi: "Demokrat firqəsinin tələbləri haqlıdır. Azərbaycan İranın iqtisadiyyatında birinci yerdə durur. Lakin bizim butun sərvətlərimizi daşıyıb aparırlar, bizim sərvətimiz hesabına İranın digər şəhərlərini qururlar. Bizim şəhər və kəndlərimiz dağılır, uşaqlarımız təhsil almır, oxuyanlar da yad dildə oxuyurlar. Bizim xalqımız özünun nəhəng taxıl anbarında aclıq çəkir. Hacana qədər biz susaçağıq, farsların Azərbaycana təhqaramiz münasibətinə dözəcəyik".[44]

ADP-nin muraciətində ana dilində təhsilin qoyuluşuna öz münasibətini bildirən Təbriz məktəblərindən birinin muəllimi Bağır Nizami bildirirdi: "Təhsilin doğma türk dilində aparılması barədəki şüar son dərəcə ədalətlidir. Şüurlu azərbaycanlılardan kim bu şüarı müdafiə etməz? Onun həyata keçirilməsi uşaqlarımıza ana dilində oxumaq imkanı verəcəkdir. Mənim fikrimcə, bu, bütun Azərbaycan xalqının arzusudur.

Azərbaycanda genişlənən milli hərəkat haqqında müzakirələr onun hüdudlarından kənara çıxmışdı. Qorqanda türkmənlərin axundu toplaşan camaata müraciət edərək demişdi: "Azərbaycanlılar özlərinin milli hüquqları uğrunda mübarizə aparmağa düzgün hərəkət edirlər. Biz də gərək onlardan nümunə götürək".[45] Gilanda da buna bənzər çağırışlar olmuşdu.

Butün bunlarla yanaşı qeyd etmək lazımdır ki, ziyalıların, orta tacirlərin və mülkədarların müəyyən hissəsi milli hərəkata qoşulmağa ehtiyat edirdilər. M.C.Bağırov Stalinə 28 sentyabr tarixli məktubunda bunu belə izah edirdi ki, "onlar bizim axıra qədər bu hərəkatı müdafiə edəcəyimizə inanmırlar".[46] Eyni zamanda bu proseslərin başlanğıcında İran hakimiyyət orqanları özlərini itirmişdilər, nə edəcəklərini bilmirdilər. Lakin az sonra onlar Güney Azərbaycandakı milli

hərəkata qarşı güclü mübarizəyə başladılar. "Azərbaycan" qəzetinin 11-ci sayı "İrtica baş qaldırdı" başlığı altında çıxmışdı. Tehranda çıxan qəzetlərin bir çoxu muxtariyyət tələblərinə, türk dilinin dövlət idarələrində və məktəblərdə işlədilməsinə, əyalət və vilayət əncümənlərinin yaradılmasına qarşı bir növ müharibəyə başlamışdı. Seyidçilərin Tehranda çıxan "Kişvər" qəzeti 12 sentyabr tarixli sayında yazırdı: "Azərbaycan demokratları Azərbaycan ölkəsini azad və müstəqil görməyi arzulayırlar. Bu xainlər başa düşmürlər ki, Azərbaycan İranın ayrılmaz hissəsidir. İran heç kimə icazə verməz ki, Şəmsəddin Təbrizinin yurdunu siyasi intriqalar obyektinə çevirsin". Demokrat firqəsinin müraciətində tədrisin ana dilində keçirilməsi ilə bağlı tələbindən iqtibas gətirərək qəzet bildirirdi: "Ey İran vətənpərvərləri! heç anlayırsınızmı nə dayanır bu sözün arxasında? Siz bilirsinizmi bu tələblə öz vətənləri olmayan xəyanətkar adamlar Azərbaycan oğullarını öz milli fars dilindən ayırmaq istəyirlər".[47] Digər qəzetlərdə də təxminən buna bənzər çağırışlar var idi.

İrticanın kuclənməsi ilə bağlı M.C.Bağırov sentyabrın 17-də SSRİ Xalq Xarici İşlər Komissarı Vışinskiyə yazırdı ki, ayın 14-də axşam popis və jandarm Xalq Partiyasının və həmkarlar təşkilatının qapısını sındırmış, oradakı bütün əşyaparı küçəyə atmışdır. Polis əməkdaşları orada olan firqəçiləri döymüş və 20 nəfəri həbs etmişdir. Bir nəfər ağır yaralanmışdır. Sentyabrın 15-də talanlar davam etmişdir. Tehranda Xalq Partiyasının və həmkarlar ittifaqının bütün binaları polis tərəfindən zəbt edilmişdir. Sentyabrın 16-da polis Xalq Partiyası binası yaxınlığında MK üzvü, İran məclisinin deputatı Keşavərzi bərk döymüşdür. Xalq Partiyası MK-nın həbs olunmamış üzvləri gizli işə keçmİşlər. Sentyabrın 15-də Sovet ticarət nümayəndəliyinin diplomatik nömrəli maşınını polis daşa basmışdır. 16 sentyabrda Tehranda SİTA-nın Moskvaya teleqrafla məlumat göndərən

müxbiri həbs edilmişdir. İran mürtəce hökumətinin belə həyasızlığı bizim işçilərin bu cür hallara vaxtında reaksiya verməməsi ilə izah edilməlidir.[48] Bu hadisə Azərbaycanda da irticanın küclənməsi üçün bir siqnal rodu oynadı.

Seyid Ziya öz tərəfdarlarına göstəriş vermişdi ki, Təbrizdə demokratik hərəkatın fəallarına, liderlərinə qarşı terror aktlarına başlasınlar. Daxili İşlər Nazirliyi ostandarlara və şəhridarlara təlimat göndərmişdi ki, İranın Şimal vilayətlərində separatçı hərəkatın dərinləşməsinin qarşısını bütün vasitələrlə alsınlar. İran ordusunun baş qərargahı hərbi hissələrə gizli əmr göndərmişdi ki, Güney Azərbaycan da qayda-qanunu pozanlara qarşı silah işlətsinlər. Hətta əmrdə göstərilirdi ki, "Əgər ruslar mane olmağa cəhd göstərsələr də" silah tətbiq edilməsindən çəkinilməsin. Azərbaycanda olan İran ordusu komandirlərinin gizli yazışmaları Sovet xüsusi xidmət orqanları tərəfindən ələ keçirilmişdi.

Bu materiallardan aydın olurdu ki, İran hakimiyyət dairələri özlərinə yaxın olan ayrı-ayrı mülkədarları və tayfa başçılarını gizli şəkildə silahlandırır. Ərdəbildəki İran briqadasının komandiri polkovnik Zarivi Tehrandan göstəriş almışdı ki, torpaq sahibkarları kəndliləri öz tərəflərinə çəkmək üçün onlarla münasibətdə həssas olsunlar. Əhaliyə İslam bayrağı altında birləşmək barədə müraciət edilsin. Vətəqqaərvərliyin kücləndirilməsi adı altında əhali arasında şaha və Mövcud quruluşa məhəbbət hissini gücləndirən təbliğat aparılsın.[49] Polkovnik Zarindən bu göstərİşləri alan mülkədarların birinci addımı ixtişaşların küclənməsi qorxusu altında öz əmlaklarını və ailələrini Tehrana göndərmək oldu. Güney Azərbaycandakı polis rəislərindən tələb edilirdi ki, mitinq və nümayİşlərdə çıxış edən siyasi partiya natiqlərinin avtobioqrafiyaları təcili Tehrana göndərilsin. Azərbaycandakı İran diviziyasının komandiri general Dərəxşani Baş qərargahdan aldığı

göstərişə uyğun olaraq bütün hərbi hissələrdə döyüş hazırlığı haqda əmr imzalamışdı. Briqada komandirlərinə şəhərlərin və xüsusilə dövlət idarələrin mühafizəsinin küclәndirilməsi haqda təlimat göndərilmişdi. Polk komandirləri hərbi hissələrdə apardıqları xüsusi söhbətlərdə "son damla qanına qədər vuruşmağın və özünü vətən yolunda fəda etməyin" sirlərini əsgərlərə başa salırdılar. Sentyabrın son günlərdə Təbriz jandarmasına mərkəzdən əmr gəlmişdi ki, təcili olaraq jandarm idarəsində xidmət etmək üçün kənclər içərisindən yeni kontingent toplansın.

Şahi şəhərində və onun ətraf rayonlarında irticaçı dairələr daha qabağa gedərək milli düşmənçiliyi qızışdırmışdılar. Fars əhalisinə azərbaycanlıları məhv etmək üçün mübarizəyə çıxacaqları barədə Qurana əl basdırmışdılar.[50]

İran hökumətinin Azərbaycana qarşı iqtisadi represiyası 1945-ci ilin payızında da davam edirdi. Təbrizi və digər böyük şəhərləri çörəklə təmin etmək üçün hökumət orqanları düşünülmüş formada taxıl tədarükünü həyata keçirmirdilər.

İranın cənubunda hakimiyyət orqanlarına və ingilislərə yaxın olan onlarla din xadimi Şimal ailayətlərinə göndərilmişdi ki, əhali arasında təbliğat aparsınlar. Hətta onlar Demokrat firqəsinə alternativ kimi milli demokratik partiya yaratmağa cəhd göstərirdilər. Ayrı-ayrı vilayətlərdə məhəlli "demokrat firqələri" yaratmaqla əhalinin ADP-dən təcrid edilməsinə ümid bəslənilirdi. Zəncanda iri mülkədar Mahmud xan Zülfüqari Zəncan "demokrat firqəsini" yaratmışdı ki, bu "partiya"da Azərbaycan milli muxtariyyətinin, məktəb və müəssisələridə türk dilinin tətbiq edilməsinin, kəndlilərə torpaq verilməsinin qəti əleyhdarı idi.[51] Buna bənzər hadisələr Rezayədə də olmuşdu.

Stalinə göndərilən məlumatda göstərilirdi ki, Azərbaycanda separatçı hərəkat ingilis və

amerikalılarla yanaşı türkləri də ciddi şəkildə narahat etməyə başlamışdır. Məlumatda deyilirdi: Tehrandakı Türkiyə səfirliyi Təbriz və Rezayedə olan öz konsulluqlarına istiqamət vermişdir ki, İranın Şimalındakı hərəkatın son məqsədi İran Azərbaycanının Sovet İttifaqına birləşdirşşəsidir. Səfirlik öz agentlərindən tələb edir ki, SSRİ-dən olan ağ mühacirlərdən, ilk növbədə müsavatçılardan təbliğat məqsədi ilə istifadə edilsin. Onlar Sovet Azərbaycanının həyatı barədə hər cür böhtanları yayırlar.[52]

Azərbaycanda muxtariyyət uğrunda hərəkatın əməli xarakter almasından sonra da Tehranda Tudənin Mərkəzi Komitəsinin tərəddüdlü münasibəti davam edirdi. Onlar müxtəlif bəhanələrlə demokrat firqəsi, Güney Azərbaycanda milli hərəkat haqqında öz fikirlərini açıq bildirmirdilər.

Azərbaycan Demokrat firqəsinin yaradılması, muxtariyyət uğrunda mübarizənin küclənməsi kürdlərin də ciddi marağına səbəb olmuşdu. Təbrizə vurduqları teleqramda onlar Demokrat firqəsinin yaranmasını alqışlamaqla yanaşı Kürd demokrat firqəsi yaratmaq və Azərbaycanda olduğu kimi muxtariyyət almaq arzusunda olduqlarını bildirdilər. Onlar M.C.Bağırova müraciət etmişdilər ki, kürdlərin nümayəndələrini Bakıda qəbul etsin. Kürd tayfa başçılarının bir hissəsi xahiş edirdilər ki, Bakıdan onlara praktiki kömək üçün bir neçə Sovet işçisi göndərilsin. Təbrizdəki Sovet məktəbi tipində Mehabadda 7 illik məktəb açılsın, kürd uşaqlarından 15-20 nəfər hərbi məktəblərə, 20-25 nəfəri mülki məktəblərə qəbul edilsin. Mehabadda dərman və tibbi personalla təmin edilmiş 25-30 çarpayılıq xəstəxana açılsın. M.C.Bağırov Stalinə məktubunda bu barədə Xarici İşlər Komissarlığına müvafiq tapşırıq verməyi ondan xahiş edirdi. Kürdlər içərisində separatçı meylin yaranması İran hökumətini və ingilisləri bərk narahat etməyə başladı. İran hökuməti bu məsələ ilə bağlı Tehrandakı Sovet

səfirliyinə nota təqdim etmişdi. İngilislər və İran xüsusi xidmət orqanları Sovetlərə meyl edən Kürd tayfa başçılarını fiziki cəhətdən məhv etmək barədə planlar hazırlayırdılar.

ÜİK(b)P MK-nın 6 iyul qərarında Gilan, Mazandaran və Xorasanda da separatçı hərəkatın başlanması kestərilmişdi. M.C.Bağırov sentyabrın 28-də Stalinə yazırdı: "Bütün kücümüz və diqqətimiz İranın şimal vilayətlərində neft mənbələrinin kəşfiyyatına, Güney Azərbaycanda və Kürdüstandakı İşlərə yönəldiyindən Gilan, Mazandaran və Xorasan vilayətlərində biz indiyə qədər separatçı hərəkatla bağlı İşlərə başlaya bilməmişik".[53]

Sentyabr ayının 24-də guya Xalq Partiyasının keçmiş üzvlərindən biri "M.A." imzası ilə "Sədan İran" qəzetində Azərbaycanda çərəyan edən hadisələr barədə məxfi materiallar dərc etdirmişdi. Həmin küp qəzetin birinci səhifəsində böyük şriftlə belə bir başlıq verilmişdi: "Dəhşətli sirrin ifşası. Araratdan Kaflankula və Xoramdara qədər Azərbaycanın ayrılma planı. Təbrizdəki Sovet konsulunun müavinləri Quliyev və Abaşidzenin gizli komitə yaratması. Sovet nümayəndələrinin Xalq Partiyası ilə əlaqələri". Görünür Sovet idarələrinin Demokrat firqəsinin yaranması ilə bağlı tudəçilərlə yaranmış narazılıqdan istifadə edilərək məqalənin sonunda Xalq Partiyasının keçmiş üzvünün anonim imzası qoyulmuşdu. Əslində bu yazıda İran hakimiyyət orqanlarının dəsti-xətti açıq hiss edilirdi. Məqalədə göstərilirdi ki, bu ilin iyununa qədər Xalq Partiyası parlament mübarizəsi yolu ilə qələbə çalacağına ümid bəsləyirdi. Lakin Yaponiya toslim olduqdan və müxalifət məclisdə məğlub olduqdan sonra İrandakı Sovet rəhbərlərinə məsləhət görüldü ki, qəti şəkildə İranda inqilaba hazırlaşsınlar, təklif edildi ki, İşlərə Azərbaycandan başlasınlar. Bu məqsədlə Zeynalabidin Qiyami, Xəlil Maliki, Cövdət Tehrandan Təbrizə göndərildi. Onlar müxtəlif vasitələrlə ziyalıları partiyaya tərəf çəkməli idilər. Eyni zamanda

Artaşev Ovanesyan da Təbrizə gəlib Xalq Partiyası fəallarının təcili müşavirəsini keçirdi və üsyan qaldırmaq, hakimiyyəti tutmaq barədə mərkəzin qərarını onlara bildirdi. Onun təklifi ilə Azərbaycan bu işin təşəbbüsüsü olmalı idi. Qərara alındı ki, üsyanı başlamaq üçün Liqvan kəndi seçilsin.[54]

Sonra müəllif Liqvan hadisələrini təsvir edir və bu hadisələrə Ovanesyanın, Qiyaminin, Biriya və Qulam Yəhyanın başçılıq etdiyini bildirir. O, qeyd edir ki, "mən rabitəçi təyin edilmişdim və mənə tapşırılmışdı ki, Liqvanda baş verən hadisələrin gedişini Sovet hərbi orqanlarına çatdırım". Onun sözlərinə görə Liqvan hadisələrində xalqın Tudədən Narazı qalması, ruslardan şübhələnməsi ilə nəticələndi. Sovet orqanları göstəriş verdi ki, müvəqqəti olaraq hərəkatı dayandırsınlar. Qərara alındı ki, məqsədə nail olmaq üçün daha uyğun yol seçilsin. Onda Xalq Partiyasının inanılmış və fəal üzvlərindən seçib Sovet Konsulluğunda gizli komitə yaratdılar və onlara tapşırdılar ki, Azərbaycanın müstəqalliyi ideyasını yaysınlar. Müəllif iddia edir ki, o, bu komitənin üzvü olmuşdur. Daha sonra o, yazır: Təbrizdəki vitse-konsul Quliyevin təklifi, bu məqsədlə xüsusi olaraq Təbrizə gəlmiş Tehrandakı səfirliyin katibi Abaşidzenin planı üzrə "Azərbaycan Demokrat firqəsi" adlı "döyüşkən" partiya yaradıldı. Pişəvəri İpəkçian tərəfindən gizli şəkildə Təbrizə gətirildi və bundan sonra Demokrat firqəsilin müraciəti yayıldı. Bu ideyanı geniş yaymaq üçün bütün Azərbaycana təbliğatçılar göndərildi. Onlara torpaq və müstəqillik vəd etməklə kəndliləri mülkədarlar üzərinə qaddırmaq tapşırığı verilmişdi. Eyni zamanda Tehrana üç nümayəndə göndərilmişdi ki, qəti olaraq üsyan planını hazırlasınlar. Məqalənin bir yerində göstərilirdi: Zəncan vilayətindən Mahmud xan Zülfüqari Təbrizə gizli məktub göndərmişdi ki, guya Zəncanı da Azərbaycan ərazisinə birləşdirsinlər və bununla da Azərbaycan sərhədlərini Xoramdara çatdırsınlar. Məsələnin belə

qoyuluşu müəllifin İşlərdən elə də dərindən tanış olmadığını təsdiq edir. Ümumilikdə məqalə ADP-nin təşəbbüs qrupu içərisində İran hakimiyyət orqanlarının adamı olduğunu düşünməyə əsas verir. Tehrandakı Sovet səfiri ehtimal edirdi ki, "Sədai İran"dakı məqalə hakimiyyət orqanlarının göstərişi ilə çap olunub. Onun fikrincə, Abaşidzenin familiyası qəsdən çəkilib ki, səfirlik öz izahatında bu "səhvi" düzəltsin və Təbrizə göndərilən işçinin Yaqubov olduğunu bildirsin. Sentyabrın 30-da səfirlik Təbrizdəki konsulluqdan bu məzmunda teleqram almışdı: Quliyevə aid "Sədai İran"da dərc olunan məqalə hər hansı tənqiddən aşağı səviyyədədir və heç bir halda həyata keçirilən tədbirlərin pozulmasına, hər hansı dərəcədə səhvlərə yol verilməsinə dəlalət edə bilməz. Bu təxribat ilə mürtəce ünsürlər bizi və Demokrat partiyasını qaralamağa cəhd göstərir. Məlum olduğu kimi bizim konsulluqda və ümumiyyətlə, Azərbaycanda gizli komitələr yaradılmayıb. O da məlumdur ki, biz üsyana hazırlaşmırıq və bu barədə heç kimə göstəriş verməmişik. Bizimlə bağlı olan şəxslərdən heç kimlə bu barədə müzakirə aparılmayıb. İnqlaba başlamaq üçün hər hansı əlahiddə rayon seçilməyib. Məlumdur ki, Pişəvəri Təbrizə İйəkçian tərəfindən çağırılmayıb və müraciət Tehranda müzakirə edilməyib. Mülkədar Zülfiqari Zəncandan hər hansı gizli məktub göndərməyib, əksinə o, bizim tədbirləri pozmağa çalışır. Köründüyü kimi "M.A." yaxud "Sədai İran" əvvəldən axıra qədər həyasızcasına yalan danışır, heç bir həqiqi fakta malik olmadan həm bizi, həm Demokrat partiyasını qaralamaYqa cəhd göstərir. Biz son dərəcə gizli xarakterli çox İşlər görmüşük, göründüyü kimi "M.A." bunları bilə bilməz. Təşəbbüs qrupu ilə biz bilavasitə əlaqə saxlamırıq, bizi təşəbbüsçülərdən ançaq üç nəfər tanıyır və onlardan da şübhələnmək üçün heç bir əsasımız yoxdur. Biz əmin deyilik ki, təşəbbüs qrupunun içivdə və partiyanın özündə təxribatçılar yoxdur. Lakin hələ ki, təxribatçı bizdən uzaq məsafədədir.[55]

Güney Azərbaycanda xüsusi tapşırıqlar üzrə İşlərə rəhbərlik edən general A.Atakişiyev belə hesab edirdi ki, bir sıra xarici xidmət orqanları düşünülmüş şəkildə Sovet zonasında üsyan qaldırıb bu üsyanı Sovetlərin adına yazmaq istəyir. O, Tehrandakı işçilərə köstəriş vermişdi ki, Sovetlərə düşmən münasibət bəsləyən dairələrin fəaliyyəti haqqında gizli məlumatlar toplayıb ona göndərsinlər. A.Atakişiyev ehtiyat edirdi ki, demokrat firqəsinin fəallarına və Sovetlərə rəğbət bəsləyən şəxslərə qarşı kütləvi repressiyalar başlansın və SSRİ-nin Güney Azərbaycanda planlaşdırdığı tədbirlər pozulsun. Sentyabr ayının axırlarında firqəçilərə və Sovet tərəfdarlarına gizli şəkildə silah paylanması, Güney Azərbaycanda muxtariyyət hərəkatına mane olan şəxsləri və təşkilatları aradan götürmək üçün Azərbaycan SSR XDİK-nın və Dövlət Təhlükəsizliyi Komitəsinin xüsusi təyinat üzrə əməliyyat işçilərinin göndərilməsi təklif edilirdi.

Sentyabr ayının 28-də Güney Azərbaycandakı rezidentdən M.C.Bağırovun adına silah göndərilməsi ilə bağlı tələbnamə daxil olmuşdu. Orada göstərilirdi ki, Demokrat firqəsinin yaranması ilə bağlı İrtica xeyli fəallaşmışdır. Onların əlində İran polisi və jandarm idarələri tərəfindən verilmiş çox sayda silah toplanmışdır. Bunların Güney Azərbaycan şəhərlərində yerləşdirilmiş İran nizami qoşun hissələri ilə birləşməsi istənilən an baş verə bilər və bütün bunlar ağır hadisələrlə nəticələiər. İrticanın fəal hərəkətə geçəcəyi təqdirdə onun qarşısının alınması üçün demokratik təşkilatların üzvlərindən və Sovet İttifaqına tərəfdar olan adamlar içərisindən əhalinin inanılmış hissəsinin silahlandırılması zəruri hesab edilirdi. Azərbaycanın coğrafi, inzibati quruluşu nəzərə alınaraq silahların əhaliyə aşağıdakı qaydada paylanılması təklif edilirdi. Təbriz və ona yaxın olan rayonlara 2000 ədəd, Üskü və ətraf rayonlarına 1000 ədəd, Ərvənək, Sofiyan, Sis, Şəbüstər, Şərəfxan, Xamnə və s. məntəqələrö 1000 ədəd, Mavazanxan və ona yaxın 40 kəndə

500 ədəd, Mehranrud və əqrafına 1000 ədəd, Şahtarud və yaxın kəndlərinə 500 ədəd, Mianə və Kermeruda 1000 udəd, Sərab və ətrafına 1000 ədəd, Ərdəbil, Meşkin, Xalxal, Kermi, Nəmin, Biləsuvar və Astaraya 2000 ədəd, Marağa və ətrafına 1500 ədəd, Məlikkənd və Miandoba 500 ədəd, Mərənd, Culfa, Aləmdara 1000 ədəd, Maku və ətrafına 1000 ədəd, Xoy və Salmasa 1000 ədəd, Rezayə və ətrafına 1000 ədəd, Əhər və Arazbarana 2000 ədəd, müxtəlif yaşayış məntəqələrinə, təşkilatlara, o cümlədən həmkarlar təşkilatlarına 2000 ədəd, ümumilikdə 20.000 ədəd silah paylanması planlaşdırılırdı. İyirmi min Tüfəng üçün iki milyon patron, Demokrat firqəsinin rəhbər Heyəti və ayrı-ayrı fəalları üçün 500 ədəd tapança göndərilməsi tələbnaməyə daxil edilmişdi. Göndərilən silahlar əvvəlcə Sovet qarnizonlarının anbarlarında saxlanılmalı idi. Sənədin axırında rezidentin qeydində göstərilir ki, bu bölgünün hazırlanmasına Pişəvəri və Padəqan cəlb edilmişdi.[56] Güney Azərbaycana göndərilmək üçün hazırlanan silah və hərbi sursat Moskvanın göstərişinə əsasən Sovet istehsalı olmamalı idi. Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsi sentyabrın son günlərində ADP liderləri üçün xarici markalı 29 tapança, 1055 patron göndərmişdi. Bununla yanaşı Moskvaya sifariş edilmişdi ki, Güney Azərbaycan üçün 10.000 ədəd İran istehsalı olan "Berno" Tüfəngi, 1000 ədəd İran istehsalı olan "Berno" əl pulemyotu, 5000 ədəd Almaniya istehsalı olan əl qranatları, 300 ədəd "Mauzer" və "Brauninq" tapançaları, 500 ədəd "Parabellyum" tapançaları, 200 ədəd "Valter" tapançaları və bunlara uyğun sayda patronlar göndərilsin.[57]

Vəziyyətin ciddiliyini nəzərə alaraq 1945-ci ilin oktyabr ayının 8-də ÜİK(b)P MK-sı və SSRİ Xalq Komissarları Soveti Güney Azərbaycanda hərbi cəhətdən möhkəmlənmək barədə qərar qəbul etdi. Bakı hərbi dairəsinin hərbi şurasına və Azərbaycan K(b)P MK-nə tapşırılırdı ki, Güney Azərbaycanda muxtariyyət

hərəkatına qarşı muqavimət göstərənləri aradan götürmək üçun əməliyyat işçiləri ayırsınlar. İqtisadi munasibətlər barədə Moskvada muzakirə keçirildi. Muzakirədə Xarici Ticarət Komissarı A.Mikoyana tapşırılırdı ki, Guney Azərbaycanla idxal-ixrac əməliyyatının artırılmasına xususi diqqət yetirsin. SSRİ Dövlət Plan Komitəsinin sədri Voznesenskiyə göstəriş verilirdi ki, 1945-ci ilin IV kvartalında Güney Azərbaycan üçun 5 ədəd ZİS-5 benzindaşıyan, 5 ədəd benzindolduran, 5 ədəd ZİS-5 yük avtomobili ayırsın. Xarici Ticarət Komissarlığına talşırılırdı ki, Rezaye, Xoy, Maku, Mianə, Mərənddə 1946-cı ilin 1 fevralına qədər qurtarmaq şərtilə kiçik neft anbarları tikintisi uçun 500 min rial pul ayırsın. Azərbaycan Xalq Komissarları Sovetinin sədri T.Quliyevə tapşrılırdı ki, Guney Azərbaycanda ticarət obyektlərinin, xususilə Azərbaycan və fars dillərində ədəbiyyat satışı obyektlərinin sayını artırsın. SSRİ Xalq Komissarları Soveti yanında ümumittifaq radio komitəsinə tapşırılırdı ki, Azərbaycan SSRİ-nin sifarişi ilə Guney Azərbaycana göndərmək üçün 1945-ci ilin IV kvartalından başlayaraq hər kvartalda Azərbaycan mahnılarından ibarət 50 mindən az olmayaraq plastinka buraxsın.[58]

Moskvaya sifariş edilmiş xarici markalı silahların bir hissəsi artıq oktyabrın ortalarında Azərbaycan Xalq Daxili İşlər Komissarlığını 29 nömrəli silah anbarına daxil olmuşdu. Oktyabrın 15-nə olan məlumatda XDİK-nın anbarında 10900 "Berno" tufəngi, 478 Almaniya istehsalı olan avtomat, 820 Almaniya istehsalı olan pulemyot, 351 "Parabellum" tapançası, 16 "Brauninq" tapançası, 592 "Kolt" tapançası, 170 "Berno" İran pulemyotları Guney Azərbaycana göndərilmək üçün hazır idi.[59] Qeyd edilən silah növlərindən bir miqdarı artıq okqyabrın birinci yarısında Güneydəki hərbi qarnizonlara göndərilmişdi. Bunlar yuxarda qeyd edilən saya daxil deyildi. Oktyabrın 21-də Bakı hərbi dairəsinin komandanı, ordu generalı

İ.İ.Maslennikov və M.C.Bağırov SSRİ Xalt Daxili İşlər Komissarı Lavrenti Beriyaya yazırdılar: "İran Azərbaycanı məsələsi ilə bağlı ÜİK(b)P MK-nın 8 oktyabr 1945-ci il tarixli qərarının həyata keçirilməsi ilə bağlı aşağıdakı İşlər görülmüşdür: İran Azərbaycanında muxtariyyət hərəkatının inkişafına mane olan şəxsləri və təşkilatları aradan götürmək işini təşkil edə bilən Azərbaycan SSR XDİK və Dövlət Təhlükəsizliyi Komitəsinin 21 təcrübəli əməliyyat işçisi ayrılmışdır. Bu yoldaşlar yerli əhali içərisindən silahlı partizan dəstələrini təşkil etməlidirlər (həmin şəxslərin siyahısı sənədə əlavə olunub - C.H.)

Əməliyyat işçilərinə kömək məqsədi ilə uzun müddət XDİK-DTK ilə bağlı olan kolxoz fəallarından və kənd işçilərindən konkret döyüş tapşırıqlarının yerinə yetirilməsində sınanılmış 75 nəfər döyüşçü toplanmışdır. Əməliyyat işçiləri və döyüşçülər qruplarla ilk növbədə Təbriz, Ərdəbil, Mianə, Rezayə və Marağaya gedəcək, digər rayonlara isə sonrakı mərhələdə göndəriləcəkdir. Konspirasiya məqsədilə əməliyyat işçiləri təyinat yerlərinə, İran Azərbaycanın şəhərlərinə bizim hərbi komendantların müavinləri, döyüşçülər isə həmin komendantlara sıravilər kimi gedəcəklər. Təyinat yerinə yola düşməzdən əvvəl seçilmiş işçilər Bakı şəhərində siyasi, hərbi və xüsusi hazırlıq keçəçəklər. 96 nəfərdən ibarət əməliyyat işçilərinin və döyüşçülərin İran Azərbaycanında uzun müddət qalacağını nəzərə alaraq onların saxlanması üçün hər ay 100 min rial vəsait ayrılmasına göstəriş vermənizi xahiş edirik.[60]

İranda və Güney Azərbaycanda vəziyyət gərginləşdiyindən tələsik hazırlıq İşlərindən sonra oktyabrın 2-də Demokrat firqəsinin təsis qurultayı işə başladı. Ölkədə böhranın dərinləşməsi Möhsün Sədr (Sədr-ül-Əşrəf) hökumətinin istefası ilə nəticələndi. 1945-ci ilin oktyabrında İbrahim Hakimi (həkimülmülk) özünün İkinci hökumət kabinəsini qurdu.

Üç ay fəaliyyət göstərən bu kabinə Qəvam-əs-Səltənə hökumətinə keçid rolunu oynadı...

Güney Azərbaycanda İşlərin gedişini müzakirə etmək üçün M.C.Bağırov sentyabrın axırlarında Moskvaya dəvət edildi. Təsis qurultayı ərəfəsində Demokrat firqəsinin proqram və nizamnaməsinin son mətninə V.Molotovla, L.Beriya və Q.Malenkovla birlikdə baxıldı. Bir sıra dəyişikliklər edildi. Azərbaycanın muxtariyyəti üçün nümayəndəli özünüidarə orqanının yaradılması ilə bağlı məsələnin proqrama salınması zəruri hesab edildi. Güney Azərbaycanda İşlərin sürətləndirilməsi ilə bağlı M.C.Bağırovun məruzəsi dinlənildi və ona müvafiq göstərİşlər verildi.

MC.Bağırov Moskvadan qayıdan kimi proqramda edilmiş əlavə və dəyişiklər haqqında Təbrizə təcili məlumat göndərdi. İşlərə əməli xarakter verməkdən ötrü oktyabrın 1-də Güney Azərbaycan fondundan H.Həsənov və M.İbrahimova 400 min rial pul verildi. İyirmi gün sonra həmin fonddan Azərbaycan SSR Xalq Dövlət təhlükəsizliyi komissarının müavini, polkovnik E.Kərimova daha 400 min rial pul buraxıldı.[61]

Oktyabrın 2-də Təbrizdə Azərbaycan Demokrat firqəsinin birinci təsis qurultayı işə başladı. Qurultayda Azərbaycanın müxtəlif vilayət, şəhər və mahallarından seçilmiş 237 nümayəndə həlledici səslə, 4 nümayəndə məşvərətçi səslə, həmçinin 17 qonaq,o cümlədən valini əvəz edən Nikuçu, Şəhər idarəsinin rəisi İlhami,polis rəisi Salar, İqtisadi idarənin sədri Ağavəli və digərləri iştirak edirdi. Üç gün ərzində qurultay proqram və Nizamnaməni qəbul etdi, firqənin rəhbər orqanlarını seçdi. ADP-nin Proqram və Nizamnaməsi ilə bağlı müzakirələr iki gün çəkdi, qurultay yekdilliklə bu sənədləri qəbul etdi.[62] "Azərbaycan" qəzeti 48 maddədən ibarət olan Proqramın əsas məsələləri ilə bağlı yazırdı: "Milli muxtariyyət, dil azadlığı və bir də torpaq məsələsi çox hərarətlə müzakirə edildi".[63] Qurultayda bütün vilayət, şəhər və mahallardan gələn nümayəndələrin rəhbərlərinin

çıxışları dinlənildi. Səlmasdan Mükərrəmülgün, Makudan Murid Bayat Makunun, Ərdəbildən Həsən Cövdətin, Sərabdan Kaşiminin, Mianədən Pəmbeyin, Xoydan Nurulla xan Ekaninin və digərlərin çıxışları çox təsirli oldu. H.Cövdət deyirdi: "Azərbaycan xalqının siyasi və iqtisadi hüquqsuzluğuna son qoyan çoxdan gözlənilən gün gəlib çatdı. Biz türk dilinin təbiй hüqularının özünə qaytarılmasını, öz-özümüzü və İşlərimizi müstəqil idarə etməyi çoxdan arzulayırdıq".[64] Türk dili haqqında Tehran mətbuatının böhtanlarına cavab olaraq Mükərrəmülmülk bildirdi: "Mərkəzi hakimiyyət, onun nazirləri ançaq şəxsi mənsəbləri və cibləri barədu düşünərək daima bizi qaranlıqda saxlamax, mədəniyyətin, elmin qapılarını bizim uşaqların üzünə bağlamağa çalışıblar. Bizə deyirlər ki, türk dili bizim doğma dilimiz deyildir, onu monqollar bizə gətirmişdir. Azərbaycanlılara monqolların küc ilə öz dillərini təhmil etdiklərini iddia edənlər çox nadan adamlardır. Lakin mən soruşuram, monqollar yüz ildən artıq Azərbaycanda hökumət edə bilmədikləri halda öz dillərini bizə təhmil etmişsə, əcaba altı yüz ildən ziyadə hökumət edən farslar hər cürə zorakılıq etdikləri halda nə üçün bu dili dəyişdirməyə müvəffəq olmamışlar? Bizim bir dilimiz olub, bir dilimiz var və bir dilimiz olacaq. Bu da əcdadlarımızın bizə qoyub getdiyi türk dilidir".[65]

Çıxış edənlər milli hərəkata, azadlıq və demokratiya ideyasına sədaqətlə xidmət edəcəklərinə and içirdilər, bu yolda can qoymuş azadlıq mücahidlərinin adını tez-tez anırdılar. Sərabdan olan haşimi qurultay iştirakçılarına müraciət edərək dedi: "Azərbaycan xalqının cəsarəti və igidliyi hamıya bəllidir. Bizim oçağımızın odu *dünyanın* işıqlandırıb. Bu gün isə həmin od bizim düşmənlərimizi yandırmaq kücündədir. Azərbaycanlılar öz ataları Səttarxanın və Bağırxanın qəhrəmanlığını təkrar etməyə hazırdırlar".[66]

Nurulla xan Ekaninin təklifi ilə qurultay Azərbaycan işi uğrunda canından keçmiş qəhrəmanların

xatirəsini yad etdi. Qurultay 41 nəfərdən ibarət Mərkəzi Komitə və 12 nəfərdən ibarət Təftiş Komissiyası seçdi. Rəhbər Heyəti 10 nəfəri partiya işçisi, 4 nəfəri fəhlə, 7 nəfəri xidmətçi, 1 nəfəri sənətkar, 11 nəfəri ziyalı, 10 nəfəri torpaq sahibkarı, 4 nəfəri tacir, 2 nəfəri fabrikant idi. MK öz içərisindən Rəyasət Heyətiйn uzvlərini və üzvlüyə namizədlərini seçdi. Mir Cəfər Pişəvəri Rəyasət Heyətiйn sədri, Nizamüddövlə Rəfiй, Sadıx Padəqan, Hacı Mirzə Əli Şəbüstəri muavinləri, Salamulla Cavid, Həsən Zəfiri, Əli Maşinçi, Qulam Hüseyn Fərşçi, Cəfər Ədib üzvləri, Həsən Bİranq, Həsən Cövdət və Zeynalabidin Qiyami Rəyasət Heyətiйn üzvlüyünə namizədlər oldular. ADP MK üzvlərinin və üzvlüyə namizədlərin qısa anket məlumatları belə idi. M.C.Pişəvəri - 1892-ci ildə, Xalxalda kəndli ailəsində doğulub. İran Kompartiyasının rəhbərlərindən olub, 1920-ci ildə Gilan hadisələrində iştirak edib, 10 il həbsdə yatıb, Sovet qoşunları İrana daxil olduqdan sonra 1941 -ci ildə həbsdən azad edilib, Tehranda "Ajir" qəzetini çıxarıb, 1945-ci ilin yayında məlum hadisələrlə bağlı Təbrizə gəlib.

Hacı Mirzə Əli Şəbüstəri - 1898-ci ildə Şəbüstərdə, tacir ailəsində doğulub. Xiyabani hərəkatında iştirak edib. Köhnə demokrat hesab edilirdi. Bir oğlu İran ordusunun kapitanı idi və ölkənin cənubunda xidmət edirdi. Daşınmaz əmlak və bağdan gələn gəliri hesabına yaşayırdı. Təbrizdə "Azadlıq Cəbhəsi"nin sədri idi.

Sadıx Padəqan - 1899-cu ildə Təbrizdə doğulub, 1938-ci ilə qədər İran təbəsi kimi Sovet İttifaqında yaşayıb. İrana dönənə qədər Naxçıvanda kooperasiya sistemində işləyib. Ali İqtisadi təhsili vardı, Moskvada oxumuşdu. Gənc yaşlarında Xiyabani hərəkatına qoşulmuşdu. Xalq Partiyasının Təbriz əyalət təşkilatına başçılıq edib.

Nizamüdövlə Rəfiй - 1886-cı ildə Təbrizdə torpaq sahibkarı ailəsində doğulub. SSRİ-yə loyal münasibət

bəsləyirdi, imkanlı dairələr içərisində böyük nüfuzu vardı. İran Məclisinin keçmiş deputatı olub. Bir neçə çağırış İran Məclisi sədrinin köməkçisi işləyib.

Salamulla Cavid - 1898-ci ildə Xalxalda kəndli ailəsində doğulub. 1929-cu ilə kimi Bakıda yaşayıb. Bir neçə il Tehranda dövlət sığorta idarəsində həkim işləyib. İran kompartiyasının üzvü olub, kommunist fəaliyyətinə görə bir neçə il həbsdə yatıb. Təbrizdəki demokratik hərəkat başlayan zaman Azərbaycana gəlib.

Əli Maşinçi - 1892-ci ildə Təbrizdə doğulub, kiçik toxuculuq fabrikinin sahibi idi. Keçmişdə İran kompartiyası ilə əlaqəsi olmuş, partiyanın gizli təşkilatına maliyyə yardımı göstərmişdi. SSRİ-yə loyal münasibət bəsləyir, "Azadlıq Cəbhəsi"nin üzvüdür.

Qulam Hüseyn Fərşçi - 1892-ci ildə Təbrizdə doğulub. İran ordusunun keçmiş zabiti, tacir idi. İran Məclisinin keçmiş üzvü olub, Şəbüstərinin qaynı idi.

Həsən Zəfiri - 1916-cı ildə Təbrizdə doğulub, kiçik mətbəə sahibi idi. "Azadlıq Cəbhəsi"nin üzvü olub ziyalıların orta təbəqəsi arasında hörməti vardı.

Cəfər Ədib - 1915-ci ildə Təbrizdə doğulub, natamam orta məktəbin direktoru, müəllimlərin həmkarlar təşkilatının sədri, ADP-nin gənclər təşkilatının rəhbəri idi. Müəllimlər və ziyalılar arasında nüfuzu var idi.

Zeynalabidin Qiyami - 1891-ci ildə Qaradağda - torpaq sahibkarı ailəsində doğulub. İran Xarici İşlər Nazirliyinin məsul işçisi olub. 1919-cu ildə Təbrizdə demokratik hərəkatın iştirakçısı idi. Demokratik hərəkatda iştirakına görə Xarici İşlər Nazirliyində tutduğu vəzifədən azad edilmişdi. Seyid Ziyanın qəti əleyhdarı idi. Seyid Ziya onun cismani məhv edilməsi barədə öz adamlarına tapşırıq vermişdi. Əhali arasında böyük hörməti var idi.

Həsən Cövdət - 1900-cu ildə Ərdəbildə tacir ailəsində doğulmuşdu. Qəzet redaktoru idi, torpaq mülkləri var idi. Ərdəbildə keçirilən tədbirlərdə fəal

iştirak edirdi. Ərdəbildə "Azadlıq Cəbhəsi"nə rəhbərlik edirdi.

Həsən BİranqDoğum - 1891-ci ildə Təbrizdə doqulub, torpaq sahibkarı idi. Demokratik hərəkatda fəal iştirak etmişdi.[67]

Təsis qurultayı Xalq Partiyasının əyalət komitəsinin ADP-yə birləşmə prosesini başa çatdırdı. Lakin "xalqçılarla" "demokratlar" arasındakı ziddiyyətləri axıra qədər həll etmədi. Qurultaydan az sonra Marağada, Zəncanda, Rezayədə bu ziddiyyətlər özünü göstərdi.

Təşkilati baxımdan ilk dövrlərdə ADP-nin 8 vilayət və 10 məhəllə komitələri var idi. Vilayət komitələri Ərbədil, Marağa, Rezayə, Xoy, Maku, Qaradağ, Zəncan, Xalxal vilayətlərini əhatə edirdi və 18 məhəllo komitəsindən ibarət idi. Bundan əlavə müstəqil on məhəllə komitəsi fəaliyyət göstərirdi ki, bura Sərab, Mianə, Bostanabad, Üskü, Azərşəhr, Ərvanə, Şəbüstər, Tasuç, Səlmas, Mərənd komitələri daxil idi. Vilayət Komitələrinin plenumlarının 164 nəfər üzvü var idi. Bunların 9 nəfəri fəhlə, 45 nəfəri kəndli, 11 nəfəri kustar, 24 nəfəri ziyalı, 26 nəfəri mülkədar, 28 nəfəri tacir, 21 nəfəri qarışıq zümrədən idi. Təbriz şəhər komitəsinə 21 nəfər seçilmişdi ki, bunun da 10 nəfəri ziyalılar idi. Qurultaydan az sonra Demokrat fərqəsinin üzvlərinin sayı köhnə tudəçilərlə birlikdə təxminən 70 mindən artıq idi.[68]

Təsis qurultayıldan dərhal sonra M.C.Bağırov Təbrizdəki rəhbər işçilərdən qurultayın yekunları barədə məlumat tələb etdi. Partiyanın say və sosial tərkibi, vilayət, əyalət və şəhər komitələri haqqında məlumatlar burada öz əksini tapmalı idi. Tapşırıq verilirdi ki, partiyaiın başlıca vəzifəsi təşkilati cəhətdən möhkəmlənib dövlət orqanına seçkilərin vaxtını müəyyənləşdirmək və ona hazırlaşmaqdır. M.C.Bağırov Tehranda və Təbrizdə çıxan qəzetlərin icmallarının, İran hakimiyyət orqanları rəhbərlərinin Azərbaycaa haqqında rəsmi və qeyri-rəsmi mətbuatda

getmiş fikirlərinin ona göndərilməsini A.Atakişiyevdən tələb edirdi. Təbrizə göndərilən tapşırıqda deyilirdi: dövlət idarələrinə təsir göstərmək məqsədilə döyüş qrupları və dəstəkləri yaratmaqla bağlı sonrakı tədbirlərə başlamaq lazımdır. Həmişə fon yaratmaq lazımdır ki, bax biz bunu və ya onu istəyirik, Mərkəz isə vermir. Ona görə də biz belə addımlar atmağa məcburuq. Mətbuatda bu tələbləri işıqlandırmaq lazımdır. Buna əlavə olaraq bildiririk ki, Azərbaycanın İkinci yarısını təşkil edən 4-cü ostanda İşlərin təşkili qeyri-qənaətbəxşdir. Ərdəbil, Əhər və Zəncan haqqında deyilənlər də qüvvədə qaqşr. İşləri kücləndirmək, kücləndirmək və bir daha kücləndirmək lazımdır. Sizin oturduqunuz bir şəhərə bağlanıb qalmaq olmaz, bütün diqtəti digər rayonlara vermək lazımdır. İndiyə qədər qərarın iki mühüm bəndi yerinə yetirilməyib. Sovet Azərbaycanı ilə Dostluq Cəmiyyətinin yaradılması barədə Şərifova və Bağırzadəyə xəbərdarlıq etmək lazımdır. Əgər onlar yaxın vaxtlarda işi necə lazımdırsa, elə qura bilməsələr biz onlarla haqq-hesab çəkəcəyik. Bir daha xahiş edirəm yerli adamları şqaik salmayın, hər şeyi etmək lazımdır ki, onlar ölkənin sahibi, rəhbəri olduqlarını, bizim yalnız onlara kömək etdiyimizi, bizim orada müvəqqəti olduğumuzu hiss etsinlər. Bütün İşləri o mülahizə ilə qurmaq lazımdır ki, iki, üç aydan, maksimum dörd aydan sonra onlar bizim kömoyimiz olmadan keçinə bilsinlər. Belə ki, yarım ildən sonra bizim bir adamımız da orada qalmasın. Həmin vaxtda onların hər yerdə, hər yanda rəhbər partiya işçisindən tutmuş, dövlət, təsərrüfat, maliyə, hərbi, inzibati, kənd işçisinə qədər öz hazırlıqlı adamları olmalıdır.[69]

M.C.Bağırov bu və digər tapşırıqlarla Mirzə İbrahimovu oktyabrın 20-də Təbrizə göndərdi. Oktyabrın sonuncu ongünlüyündə Azərbaycan SSR-dən gedən xüsusi tapşırıqları işçilərin rəhbəri H.Həsənov, A.Atakişiyev və M.İbrahimov Təbriz üçlüyü ilə (Pişəvəri, Şəbüstəri və Padəqan) dörd müşavirə keçirdilər. Güney

Azərbaycandakı vəziyyət, firqə quruculuğu, milli muxtariyyət və "Ana dilinin tətbiqi" məsələləri ətraflı muzakirə edildi. Vilayət partiya konfranslarının uğurlu keçdiyi, kütlələrin getdikcə demokrat firqəsinə cəlb olunduğundan razılıq bildirildi. Eyni zamanda Tehran murtəce mətbuatının quduz təbliğatının, Azərbaycandakı mürtəce dairələrin fəaliyyətində kücləndiyi qeyd edildi. Onlar öz təbliğatında göstərirdilər ki, başlanmış hərəkat Güney Azərbaycanın Sovet Azərbaycanına birləşdirilməsi üçün müqəddimədir. Bu isə Azərbaycanın özündə belə müəyyən dairələri qorxudurdu. Hətta ADP MK-ya və Rəyasət Heyətiə daxil olan şəxslər bu ideyadan narahatçılıq keçirirdilər. M.İbrahimov 31 oktyabrda M.C.Bağırova yazırdı: Biz çalışdıq ki, onlrı bu şayiələrin azadlıq və demokratiya düşmənləri qərəfindən, öz müstəqilliyi uğrunda mübarizə aparan xalqın bütün quvvələrinin birləşməsindən oddan qorxan kimi qorxanlar tərəfindən yayıldığına inandıraq. Əlbəttə, ADP rəhbər işçiləri və mətbuat orqanlarının bu təxribatçı şayiələri ifşa etməsi və imkanlı siniflərin mütərəqqi hissəsinin Demokrat firqəsinə cəlb olunması üçün çox iş görmələri tələb olunur. Biz öz adamlarımıza və ADP rəhbərlərinə bu məsələlərlə bağlı muvafiq göstərİşlər verdik ki, daha inandırıcı və fəal təbliğat aparıb irticanın planlarını pozsunlar.[70]

Xususi tapşırıqlar üzrə məsələlər müzakirə edildikdə məlum oldu ki, bir sıra yerlərdə ciddi çətinliklər vardır. Qaradağda demokratik hərəkatın çox zəif getdiyi məlum oldu. Mühum məsələləri etibar etmək üçün bu rayondan Pişəvəri heç kəsin namizədliyini verə bilmədi. Vəziyyətin çətinliyi onda idi ki, burada Sovet orqanları da yox dərəcəsində idilər. Vəziyyəti öyrənmək üçün H.Həsənov oktyabrın 28-də Qaradağa və Ərdəbilə yollandı. Son nəticədə təklif edildi ki, Qaradağda işi gücləndirmək üçün Əhərdə Sovet komendantlığı yaradılsın.

Oktyabrın sonunda keçirilən müşavirələrdə general Dərəxşaninin rəhbərlik etdiyi hökumət dairələrinin və irticaçı çinovniklərin represiya tədbirlərinin heç nə ilə məhdudlaşmadığını, demokratik hərəkata qarşı təşkilati və siyasi iş apardığı qeyd edildi. Gündən-günə Azərbaycanda artırılan jandarm özbaşınalığının həddi-hüdudu yox idi. Azərbaycan qəzeti yazırdı: "iyirminci əsrdə xalqın mal, can və namusuna təcavüz etmək olmaz. Dağ basmaq və şallaq altında öldürmək, ağız tikmək, dodaq kəsmək zamanı keçmişdir. Biz açıq deyirik, əgər jandarm rəisləri başladıqları cinayətlərdən əl götürməzsə, firqə kəndlərdə çıxa biləcək toqquşmaya, ixtilala cavabdeh deyildir".[71] ADP-nin və əhalinin güclü müqaviməti nəticəsində Təbrizə vali təyinatı almış İrticaçı kimi tanınan S.Fərrox Azərbaycana gələ bilmədi. Pəhləvilər dövründə Azərbaycana münasibətdə yeridilən həqarətli siyasəti bir sıra Tehran qəzetləri də etiraf edirdilər. Lakin onlar Azərbaycandakı milli azaddıq arzularını hakimiyyətin siyasətindən narazılıq kimi təqdim edirdilər. Bu baxımdan Tehranda çıxan "Mozəffər" qəzetində 29 oktyabrda dərc edilmiş Zeynad Abidin Abidi adlı müəllifin "Azərbaycandakı hadisələr 20 illik siyasətin nəticəsidir" adlı məqaləsi daha səciyyəvidir. Azərbaycan SSR təhlükəsizlik komissarı S.Yemelyanovun apardığı araşdırmalar nəticəsində aydın olmuşdu ki, nə mətbuat, nə də siyasi dairələrə belə bir imza tanış deyildir. Onun fikrincə, məqalə qəzetin milliyyətcə fars olan redaktoru Ərşancanin özü tərəfindən gizli ad altında yazılmışdır. Məqalədə deyilirdi: Azərbaycan məsələsi bu gün hamını məşğul edib. İran vətənpərvərləri türklərin vətənə sevgisi ilə öyünürlər. Azərbaycanlı kimi mən bu adamları alqışlayıram və deyirəm türklər heç vaxt İranı unutmazlar. Onların ürəyi həmişə İrana məhəbbət hissi ilə döyünüb. Bu əsrlərin sınağından çıxıb. Lakin əgər bu gün Azərbaycan narazıdırsa bu bizim türkləri bütün hüquq, və azadaıqdan məhrum edən iyirmi illik siyasətimizin günahıdır. 20 il ərzində Azərbaycan

atılıb, alçaldılıb, təhqir edilib. İş gəlib o yerə çatmışdı ki, vali Mustofi türkləri uzunqulaq adlandırırdı. Keçmişdə Azərbaycan İranın gözü idi, vəliəhdlərin iqamətgahı idi, indi o mustəmləkəyə çevrilib. Bu müddət ərzində fars məmurları Azərbaycanı mənəvi cəhətdən düşgün vəziyyətə salıblar, onun maddi və mədəni sərvətlərini talayıblar. Daha sonra qəzet yazırdı: Nə vaxtsa Azərbaycan şəhərləri çiçəklənirdi. Ötən 20 il müddətində onlar xarabalığa çevriliblər. Azərbaycan xalqanın səfalətini təsvir etmək mümkün deyildir. Bu başdan ayağa faciədir. Zorakılıq və dilənçilik minlərlə turkü məcbur etmişdir ki, bir tikə çörək tapmaq ümidi ilə öz doğma ocaqını tərk edib digər şəhristanlara getsin. Minlərlə evsiz türk Tehran küçələrində kecələyir. Bütün bunlar nəyə görə baş vermişdir? Ona görə ki, 20 illik siyasət Azərbaycana və onun türk əhalisinə inkişaf və xoşbəxqliyi rəva görməmişdir. Türklərin azad fikirliliyi Pəhləviləri dəhşətə salır. Bu məqsədlə onlar Azərbaycanı iki ostana bölüblər, onun belini sındırıblar. 20 il ərzində o, öz ürəyinin qanını içib və susub. O, son dörd ildə demokratik siyasət və islahatlar olaçağına ümid bəsləyərək susub. Hər şeyin öz həddi var. 20 illik siyasət Azərbaycanı məcbur etdi ki, öz hiddətini bildirsin. Doğrudur, bu hiddətdə arzuolunmaz meyllər də var. Ançaq biz Azərbaycanı heç nədə gunahlandıra bilmərik. Azərbaycan heç vaxt öz vətənini satmaz, yadların əlində silaha çevrilməz, lakin onun milli sərvətlərini talan edən oğruların və əclafların zülmü altında qalmaqla da barışa bilməz.[72]

Oktyabrın 30-da axşam M.İbrahimov və digər Sovet məsul işçilərilə söhbətdən Pişəvəri partiyada bir sıra gizli fraksiya mübarizəsinin olduğunu qeyd etdi. Onun fikrincə, firqənin proqram tələbləri sağ dairələrin ürəyindən deyildi. Onlar ADP MK-nın açıq çıxışına tərəddüdlü münasibət bəsləyir, daha "mülayim" və "ehtiyatlı" hərəkət etməyi məsləhət bilirdilər. Pişəvəriyə tövsiyyə edildi ki, MK-nın monolitliyinə,

qüvvələrin birliyinə nail olmaq üçün dəqiq, soyuqqanlı və dözümlü iş aparsın. Əsas proqram məsələlərinə münasibətdə heç bir fikir ayrılığına yol verilməməsi üçün ciddi ölçülər görüləcəyinə vəd verildi.

Oktyabrın 29-da Təbrizdəki Sovet konsulluğunda Sovet Azərbaycanı ilə Dostluq Cəmiyyəti yaradılması məsələsini müzakirə etmək üçün Ümumittifaq Mədəni Əlaqə Cəmiyyəti və Mədəniyyət evi işçiləri ilə birlikdə müşavirə keçirildi. Hərtərəfli araşdırmalardan sonra Şərifov və Bağırzadəyə tapşırıldı ki, on gün ərzində bu məsələni həll etsinlər. Güney üzrə tapşırıqların yerinə yetirilməsi ilə bağlı M.İbrahimov M.C.Bağırova yazırdı: Sizin mətbuat icmalı hazırlamaqla bağlı göstərişinizə uyğun olaraq Rza Quliyev, Cəfər Cəfərov, Hüseyn Şərifov, Əvəz Sadıx, Qulam Məmmədidən ibarət komissiya yaradılmışdır. Yerli jurnalist Abbasi Məmmədli komissiyanın işinə cəlb edilmişdir. Güney Azərbaycan tarixini hazırlamaq və bu işlə bağlı materiallar toplamaq məsələsini Pişəvəri Firudin İbrahimi və Zeynalabidin Qiyamiyə tapşırılmışdır. Bununla bağlı biz 100 il əvvəl fars dilində yazılmış Nadir Mirzənin Təbrizin tarixi və coğrafiyası haqqında məşhur əsərini tərcüməyə vermişik. Təbrizdə 1893, 1914 və 1921-ci illərdə birinci siniflər üçün nəşr olunmuş Azərbaycan dili (kitablar türk dili və Vətən dili adlanır - C.H.) dərsliklərini sizə göndəririk.[73]

Oktyabr ayının son günlərində ADP Təbriz şəhər təşkilatının konfransı keçirildi. Əyalət və vilayət əncümənlərinin təcili qurulması, ondan sonra İran Məclisinə əhalinin sayına uyğun Azərbaycandan vəkilin seçilməsi, Tehran qəzetlərinin baykot edilməsi və s. məsələlər müzakirə edildi. Konfransdakı nitqində M.C.Pişəvəri deyirdi: "İyirmi il güzərnaməsini İstanbulda, yaxud Qafqazda nəzakətlə hifz edib, İran təbəəsi olmağına fəxr edən igid oğullarımız dövlət məmurlarının fişarı nəticəsində hətta Əfqan dövlətinə kimi pənahəndə oldular. Tehran bu vəsilə ilə

yenə də o büsati tazalamaq fikrindədir. Əgər millət bu gün özünə nicat verməyə cəhd etməyə, o mənhus dövrədən bədtəri qarşımızdadır. Buna görə də gərək hamı müttəhidən zülm və əsarət zəncirlərini qırmağa çalışaq, təzədən millətimiz özgələrə pənah aparmasın.[74]

Tehranın iqtisadi blokadasını neytrallaşdırmaq üçün SSRİ Xalq Komissarları Sovetinin sədri V.Molotov noyabr ayının 4-də "İran Azərbaycanı ilə ticarətin genişləndirilməsi haqqında" qərarı imzaladı. Qərara görə 1945-ci ilin IV kvartalında Güney Azərbaycanla SSRİ-nin ticarət dövriyyəsi ixrac əməliyyatı üzrə 127,5 milyon riala, idxal əməliyyatı üzrə 89,5 milyon riala çatmalı idi. Təcili olaraq Təbrizə 1500 min metr pambıq parça, 1500 ton qənd, 4880 ton neft məhsulları, 200 ton pambıq iplik, 200 ton kağız göndərilməsinə başlanılmalı idi. Sovet ticarət təşkilatlarına tapşırılırdı ki, Güney Azərbaycan vilayətlərindən 4500 baş iri buynuzlu, 50000 baş xırda buynuzlu ətlik heyvan, 2500 ton səbzə, 1500 ton ərik qurusu, 500 ton badam, 1000 ton yun alsınlar.[75] ÜİK(b)P MK-nın 8 oktyabrındakı tapşırıqları demək olar ki, bütövlükdə V.Molotovun imzaladığı 2825-813s nömrəli qərara düşmüşdü. Bu qərar Tehranın təzyiqləri qarşısında Demokrat firqəsinin vəziyyətini xeyli yaxşılaşdırdı, onu əməli addımlar atmağa həvəsləndirdi.

Noyabr ayının 8-9-da ADP MK-nın Təbrizdə 2-ci plenumu keçirildi. MK üzvlərindən başqa, vilayət komitələrinin sədrləri də plenumun işində iştirak edirdi. Plenumda M.C.Pişəvəri "İranda siyasi vəziyyət və Demokrat firqəsinin vəzifələri haqda" adlı geniş məruzə ilə çıxış etdi. O qeyd etdi ki, 15-ci Məclisə seçkiləri tə"xirə salmaq barədə İran Məclisiňin qərarı Qanuni Əsasini pozmaq deməkdir. Həm Məclisə seçkilərin vaxtını dəyişmək, Əsas qanunun əyalət və vilayət əncümənləri barədə maddələrinə məhəl qoymamaq İranda demokratiya və azadlığın hər hansı təzahürünə qarşı yönəlmişdir. Demokrat firqəsinin məqsədi onun müraciətində və proqramında aydın əks olunmuşdur.

İndiyə qədər xeyli vaxt keçməsinə baxmayaraq İran hakimiyyəti bizim qanuni tələblərimizə reaksiya vermir. Mərkəzi hakimiyyət Azərbaycana elə məmurlar göndərir ki, onlar burada qanunsuzluq şəraiti yaradır. Xalqın hüquqlarına məhəl qoymurlar. Bizim partiya qısa müddətdə yetərincə böyümüşdür. O, deyirdi: "Quruluş dövrü xitamə tapıb, geniş təbliğat və əməl dövrü başlamışdır. Bu gündən etibarən partiya siyasi qüdrət kəsb etmək yolunda mübarizə edir". O öz proqramını həyata keçirmək qüdrətinə malikdir və İran sərhədləri daxilində Azərbaycan üçün muxtariyyət alınmasına nail olacaqdır",[76] Məruzədə bildirildi ki, Demokrat firqəsi Azərbaycan xalqının iradəsinə və İran Konstitusiyasına uyğun Əyalət və vilayət əncümənlərinə, habelə İran Məclisinə seçkilərlə bağlı iş aparmalıdır. Seçkiləri tezləşdirmək üçün xalqın tərəfindən seçilən nümayəndələrdən Xalq Məclisi çağırmaq lazımdır ki, Əyalət və vilayət öncümənlərinə, İran Məclisinə seçkilər keçirməyə sərəncam versin. Pişəvərinin məruzəsi ətrafında müzakirələrdə M.Burhani, Qulam Yəhya Daneşyan, Pənbeyi, Tağı Borcalı, M.Azadvətən, İ.Axundzadə, Ataş Xan Bayat Meku, doktor Cavid, doktor Əfşar Cahanşahlu, Rəbüdövlə Kəbiri və başqaları çıxış etdi. Natiqlər məruzədə irəli sürülən bir sıra müddəaları, xüsusilə əncümən seçkiləri keçirilməsi ilə bağlı fikirləri müdafiə etdilər. Məruzə üzrə altı bənddən ibarət qətnamə qəbul edildi. Orada qeyd edilirdi: Demokrat firqəsinin birinci qurultayının müraciəti və qərarları İran cəmiyyətində, xüsusilə Azərbaycanda demokratik hərəkatın güclənməsinə təkan vermişdir. Azərbaycan muxtariyyəti ilə bağlı partiya proqramını reallaşdırmaq üçün əyalət və vilayət əncüməninə, İran Məclisinə seçkilər keçirilməlidir; Partiyanvş rəhbər orqanlarına seçkilər başa çatdığından kütlələri öz ətrafında birləşdirmək üçün, əhali arasında geniş təbliğat aparmaq məqsədi ilə firqə mitinq və yığıncaqlar keçirməlidir; Əyalət və vilayət əncümənlərinə seçkilərin bütün xalqın iradəsi ilə keçirilməsini

yenə də o büsati tazalamaq fikrindədir. Əgər millət bu gün özünə nicat verməyə cəhd etməyə, o mənhus dövrədən bədtəri qarşımızdadır. Buna görə də gərək hamı müttəhidən zülm və əsarət zənçirlərini qırmağa çalışaq, təzədən millətimiz özgələrə pənah aparmasın.[74]

Tehranın iqtisadi blokadasını neytrallaşdırmaq üçün SSRİ Xalq Komissarları Sovetinin sədri V.Molotov noyabr ayının 4-də "İran Azərbaycanı ilə ticarəti!Q genişləndirilməsi haqqında" qərarı imzaladı. Qərara görə 1945-ci ilin IV kvartalında Güney Azərbaycanla SSRİ-nin ticarət dövriyyəsi ixrac əmşşyyatı üzrə 127,5 milyon riala, idxal əməliyyatı üzrə 89,5 milyon riala çatmalı idi. Təcşqa olaraq Təbrizə 1500 min metr pambıq parça, 1500 ton qənd, 4880 ton neft məhsulları, 200 ton pambıq iplik, 200 ton kağız göndərilməsinə başlanılmalı idi, Sovet ticarət təşkilatlarına tapşırılırdı ki, Güney Azərbaycan vilayətlərindən 4500 baş iri buynuzlu, 50000 baş xırda buynuzlu ətlik heyvan, 2500 ton səbzə, 1500 ton ərik qurusu, 500 qon badam, 1000 ton yun alsınlar.[75] ÜİK(b)P MK-nın 8 oktyabrındakı tapşırıqları demək olar ki, bütövlükdə V.Molotovun imzaladığı 2825-813s nömrəli qərara düşmüşdü. Bu qərar Tehranın təzyiqləri qarşısında Demokrat firqəsinin vəziyyətini xeyli yaxşılaşdırdı, onu əməli addımlar atmağa həvəsləndirdi.

Noyabr ayının 8-9-da ADP MK-nın Təbrizdə 2-ci plenumu keçirildi. MK üzvlərindən başqa, vilayət komitələrinin sədrləri də plenumun işində iştirak edirdi. Plenumda M.Ç.Pişəvəri "İranda siyasi vəziyyət və Demokrat firqəsinin vəzifələri haqda" adlı geniş məruzə ilə çıxış etdi. O qeyd etdi ki, 15-ci Məclisə seçkiləri təxirə salmaq barədə İran Möclisiйin qərarı Qanuni Əsasini pozmaq deməkdir. Həm Məclisə seçkilərin vaxtını dəyişmək, Əsas qanunun əyalət və vilayət əncümənləri barədə maddələrinə məhəl qoymamaq İranda demokratiya və azadlığın hər hansı təzahürünə qarşı yönəlmişdir. Demokrat firqəsinin məqsədi onun müraciətində və proqramında aydın əks olunmuşdur.

İndiyə qədər xeyli vaxt keçməsinə baxmayaraq İran hakimiyyuti bizim qanuni tələblərimizə reaksiya vermir. Mərkəzi hakimiyyət Azərbaycana elə məmurlar göndərir ki, onlar burada qanunsuzluq şəraiti yaradır. Xalqın hüquqlarına məhəl qoymurlar. Bizim partiya qısa müddətdə yetərincə beyümüşdür. O, deyirdi: "Quruluş dövrü xitamə tapıb, geniş təbliğat və əməl dövrü başlamışdır. Bu gündən etibarən partiya siyasi qüdrət kəsb etmək yoluida mübarizə edir". O öz proqramını həyata keçirmək qüdrətinə malikdir və İran sərhədləri daxilində Azərbaycan üçün muxtariyyət alınmasına nail olacaqdır".[76] Məruzədə bildirildi ki, Demokrat firqəsi Azərbaycan xalqının iradəsinə və İran Konstitusiyasına uyğun Əyalət və vilayət öncümənlərinə, habelə İran Məclisinə seçkilərlə bağlı iş aparmalıdır. Seçkiləri tezləşdirmək üçün xalqın tərəfindən seçilən nümayəndələrdən Xalq Məclisi çağırmaq lazımdır ki, Əyalət və vilayət öncümənlərinə, İran Məclisinə seçkilər keçirməyə sərəncam versin. Pişəvərinin məruzəsi ətrafında müzakirələrdə M.Burhani, Qulam Yəhya Daneşyan, Pənbeyi, Tağı Borçalı, M.Azadvətən, İ.Axundzadə, Ataş Xan Bayat Meku, doktor Cavid, doktor Əfşar Cahanşahlu, Rəbüdövlə Kəbiri və başqaları çıxış etdi. Natiqlər məruzədə irəli sürülən bir sıra müddəaları, xüsusilə əncümən seçkiləri keçirilməsi ilə bağlı fikirləri müdafiə etdilər. Məruzə üzrə altı bənddən ibarət qətnamə qəbul edildi. Orada qeyd edilirdi: Demokrat firqəsinin birinci qurultayının müraciəti və qərarları İran cəmiyyətində, xüsusilə Azərbaycanda demokratik hərəkatın güclənməsinə təkan vermişdir. Azərbaycan muxtariyyəti ilə bağlı partiya proqramını reallaşdırmaq üçün əyalət və vilayət əncüməninə, İran Məclisinə seçkilər keçirilməlidir; Partiyanın rəhbər orqanlarına seçkilər başa çatdığından kütlələri ez ətrafında birləşdirmək üçün, əhali arasında geniş təbliğat aparmaq məqsədi ilə firqə mitinq və yığıncaqlar keçirməlidir; Əyalət və vilayət əncümənlərinə seçkilərin bütün xalqın iradəsi ilə keçirilməsini

təmin etmək məqsədilə Plenum Demokrat firqəsinin yerli təşkilatlarına tapşırır ki, Xalq Konqresinə nümayəndə göndərmək üçün partiya mitinq və yığınçaqlar keçirsin;

Partiyaya üzv yazılanları təşkilat cəhətdən sənədləşdirmək üçün təcili olaraq firqə üzvlərinə partiya biletlərinin verilməsinə başlansın; yerli komitələr vasitəsi ilə üzvlük haqları toplansın;

Kənclər arasında işi genişləndirmək üçün partiya məsul işçilərindən biri onlara təhkim edilsin; Son dövrlərdə jandarmların kəndlərdə zorakılıq və ozbaşınalığının küclənməsini qeyd edərək, Plenum əhalini əlində olan bütün vasitələrlə irticaçıların zorakılığının qarşısını almağa çağırır. [77]

Plenumda müzakirə edilən ikiӥci məsələ əyalət və vilayət əncümənlərinə, İran Məclisinə seçkilərlə bağlı MK-nın təbliğat şöbəsinin müdiri Z.Qiyami və təşkilat şöbəsinin müdiri S.Padəqan çıxış etdilər. Onlar bildirdilər ki, İran konstitusiyasına uyğun olaraq Azərbaycan Məclisə seçki keçirmək haqqında qərar qəbul etmək hüququna malikdir. Eyni zamanda bildirildi ki, indiyə qədər Azərbaycana həmişə ona məxsus olmalı olan deputat yerlərindən az yer verilib. Azərbaycan əhalisi İran əhalisinin üçdə bir hissəsini təşkil edir və buna uyğun olaraq Azərbaycan İran Məclisindəki 162 deputat yerinə 54 nümayəndə köndörmək haqqına malikdir. Plenum qərar qəbul etdi ki, İran Məclisinə Azərbaycandan 54 depuqat seçilsin və əncümən seçkilərinə başlansın.[78]

Plenumdan dərhal sonra noyabr ayının 12-dən başlayaraq mitinq və yığınçaqlar dalğası Azərbaycanı bürüdü. Həyata keçirilən tədbirlərin uğurunu təmin etməkdən ötrü, irticaçı hesab edilən qüvvələrin əl-qolunu bağlamaqdan ötrü Sovetlər bir sıra əməli addımlar atdılar. Demokrat firqəsinin zəif olduğu yerlərdə ona qarşı duran qüvvələri aradan götürmək üçün konspirasiya şərtlərinə əməl etməklə yerli adamlar vasitəsi ilə hərbi əməliyyat qrupları yaradıldı. ÜİK(b)P MK-nın 8 oktyabr 1945-ci il qərarına əsasən əvvəlcədən xüsusi

hazırlıq keçmiş 80 nəfər əməliyyatçı çekist noyabrın birinci yarısında Güney Azərbaycana göndərildi.[79] Dərhal bir sıra terror aktları həyata keçirildi. Mianədə məşhur irticaçı kimi tanınan mülkədar İnqilab Ənsari, Seyid Ziyanın "Xeyriyyə" partiyasının yerli filialının təşkilatçısı, Zəncanda Mahmud xan Zülfüqari ilə sıx əlaqədə olan Rəhnüma, Nəkədüz kəndində mülkədar Əhmədağa Allahyarı ilk əməliyyatlarda aradan götürüldülər.[80] Təcili olaraq yerli əhalidən silahlı hərbi dəstələr yaradılması işinə başlanıldı. Ümumi sayı 3000 nəfərdən ibarət 30 silahlı dəstə təşkil edildi. Demokratik firqə fəallarından ibarət əlavə olaraq daha da bir neçə min nəfər səfərbər edildi ki, istənilən vaxt silahlandırıla bilərdi. Dəstələri silahlandırmaq üçün İran silahları tipində 5000 berno Tüfəngi, 500 tapança, 300 avtomat və pulemyot noyabrın ortalarında gizli şəkildə ot yüklənmiş maşınların içində Güney Azərbaycana gətirildi.[81] Əlavə olaraq səfərbər edilmiş dəstələri silahlandırmaq üçün noyabr ayı ərzində ümumilikdə Güney Azərbaycana İran ordusunun silah növlərindən olan 11.500 Tüfəng, 1000 tapança, 400 avtomat və pulemyot, 2000 əl qranatı, iki milyon yarım patron göndərildi.[82] Noyabr ayının 14-də Demokrat firqəsinin MK-sı İran hakimiyyət orqanlarının Azərbaycanda törətdiyi vəhşiliklər haqqında Təbrizdəki xarici konsulluqlara rəsmi məlumat təqdim etdi. Noyabr ayının 16-da zorakılıq faktlarından və fotoşəkillərindən ibarət "Azərbaycan" qəzetinin xüsusi buraxılışı nəşr edildi. Kəmin buraxılışın 500 nüsxəsi yayılmaq üçün Tehrandakı Sovet səfirliyinə göndərildi.

Noyabrın 16-da Təbriz valisini əvəz edən Həsəi Dövlət Şahi, Azərbaycandakı diviziyanın komandiri general Dərəxşani, jandarm rəisi polkovnik Hümayün teleqramla Azərbaycandakı vəziyyəti Tehrana məruzə etdilər. Elə həmin axşam hökumətin fövqəladə iclası toplandı. Hərbi nazir general Riyazi Azərbaycan əhalisinin silahlandığı və üsyana başladığı haqda.

məlumat verdi. qərar qəbul edildi ki, Şaha məlumat verildikdən sonra Tehrandakı Sovet səfirliyinin nümayəndələri ilə danışıqlara başlansın. Deputatlar tələb edirdilər ki, Azərbaycandakı vəziyyəti müzakirə etmək üçün Məclisin təcili iclası çağırılsın. Keçmiş Baş nazir Mərtəza Bayat Azərbaycana yeni vali təyin edildi. İran ordusunun döyüş hazırlığı elan edildi. Nazirlər Kabinetinin iclasında hərbi nazirə göstəriş verildi ki, bir sıra qarnizonları möhkəmləndirmək üçün iki piyada batalyonu və bir jandarm rotasını Tehrandan Azərbaycana göndərsin. Noyabrın 17-də hərbi nazir Riyazi SSRİ-nin Tehrandakı hərbi ataşesi polkovnik Razinlə görüşdü. General Riyazi söhbət zamanı Azərbaycanda "şübhəli silahlı adamların" törətdiyi hadisələrdən İran hökumətinin ciddi narahatçılıq keçirdiyini bildirdi. İran hərbi naziri Sovet hərbi ataşesindən xahiş edirdi ki, bir rotanıi Rezayədən Xoya göndərilməsinə, üçüncü piyada diviziyası üçün Tehrandan Təbrizə 24 avtomobil təkəri, geyim və təlim məqsədi üçün patron buraxılmasına, yeni təyin edilmiş Təbriz valisi keçmiş baş nazir Mürtəza Bayaqın Sovet təyyarəsində Təbrizə uçmasına icazə verilsin. Eyni zamanda hərbi nazir hakiminin indiki hökumətinin Sovetlərlə dostluq münasibətlərini tənzimləmək üçün hər şeyə hazır olduğunu bildirdi.[83] Noyabrın 17-də axşam Sovet hərbi ataşesi və onun köməkçisi polkovnik İvanov İran Hərbi Nazirliyinə dəvət edildilər. İran ordusunun Baş qərargah rəisinin iştirak etdiyi görüşdə Sovet ordusunun Şimali İranda kücləndirildiyi qeyd edildi. Azərbaycandakı hadisələrlə əlaqədar Təbrizə Tehrandan iki hərbi batalyon və bir jandarm rotası göndərməyin zəruriliyi bir daha bildirildi. Müharibənin qurtarması ilə bağlı Sovet ordusunun İrandan çıxarılması məsələsinə toxunuldu. Xahiş edildi ki, Mürtəza Bayat Sovet təyyarəsində Təbrizə göndərilsin.

Noyabrın 18-də günün birinci yarısı Tehrandakı Sovet səfirini əvəz edən Əhəd Yaqubov Baş nazir hakimi

ilə görüşdü. Hərbi nazirlikdə müzakirə edilən məsələlər Baş nazir tərəfindən də qaldırıldı. Ə.Yaqubov bildirdi: Azərbaycandakı qarışıqlıq bizə məlum deyil, ora əlavə ordu göndərilməsi İrandakı Sovet ordusunun komandanlığı ilə müzakirə edilməlidir. Sovet qoşunlarının Şimali İranda gücləndirilməsi həqiqətə uyğun deyil, hazırda SSRİ Ali Soveti Rəyasət Keyətinin qərarına əsasən ordudan tərxis əməliyyatı başlamışdır. Bayatın Təbrizə göndərilməsi SSRİ Baş konsulu ilə müzakirə edilməlidir. SSRİ qoşunların İrandan çıxarılması məsələsi Sovet hökumətinin işidir [84] İran hökuməti Sovetlərin cavabını gözləməyərək Təbrizə ordu göndərdi və Müdafiə Nazirliyinə tapşırıq verildi ki, Tehrandan yola düşən dəstələr nəyin bahasına olursa-olsun Azərbaycana girməlidir. Lakin Şərəfəbadda İran ordusunun qarşısı alındı. Sovet Ordusu Baş Qərargahının rəisi, ordu generalı Aleksey Antonovun əmrində göstərilirdi: "Əvvəldən bizim zonada olan İran ordusunun hərəkətinə mane olunmasın. İran hakimiyyətinin bizim zonaya yeni ordu göndərmək haqqında hər hansı cəhdiňə icazə verilməsin, hər hansı belə müraciətdə Qızıl Ordu Baş Qərargahının göstərişi gözlənilsin. İran ordusunun bizim zonaya hər hansı irəliləmək cəhdi təcili olaraq Sovet ordusu Baş Qərargahına məlruzə edilsin".[85]

Noyabrın 17-də valiňi əvəz edən Həsən Dövlət Şahi Demokrat firqəsinin rəhbərliyinə müraciət edərək Mərkəzi Komitə ilə görüşmək haqda xahiş etdi. Pişəvəri, Şəbüstəri və Rəfiňnin iştirak etdiyi görüşdə Dövlət Şahi kəndlərdə silahlı dəstələrin meydana çıxmasına ADP MK-nın münasibətini öyrənmək istədi. Ona bildirildi ki, partiya bu dəstələrin yaradıcısı deyildir. Onlar irticanın heç nə ilə məhdudlaşmayan vəhşiliyinə cavab olaraq yaranmışdır. Dövlət Şahiyə bildirdi ki, Demokrat firqəsi dəfələrlə belə vəhşiliklərin yolverilməzliyini bəyan etmişdi. Lakin polis və jandarm rəhbərləri bu bəyanatları nəzərə almadılar.

İngilislər Güney Azərbaycanda baş verən hadisələrə böyük maraq göstərirdilər. Azərbaycana ingilis diplomatlarının və hərbçilərinin səfərləri xeyli artmışdı. Müxtəlif siyasi və hərbi dairələr Təbrizə gələrək Demokrat firqəsinin tədbirlərində iştirak edir, partiya rəhbərləri haqda məlumatlar toplayırdılar. Hələ noyabrın 14-də İran və İraqdakı Briqaniya ordusunun baş komandanı General Seyvan Bağdaddan Qəzvinə gəldi. 4-cü ordunun baş komandanı general Sovetnikov, İrandakı Sovet ordusunun hərbi şurasının üzvü general Russovla aparılan danışıqlarda Britaniya tərəfindən general Seyvan, Britaniya ordusunun kəşfiyyat xidmətinin zabiti Yaqubxan və digərləri iştirak edirdi. Britaniya hərbi missiyasının Qəzvin səfəri bir növ Azərbaycandakı vəziyyəti öyrənmək (daha çox kəşfiyyat) xarakteri daşıyırdı. Azərbaycandakı hadisələr başlayan kimi Tehrandakı Britaniya səfiri Bulard baş nazir hakimi ilə görüşmüş və Azərbaycan əhalisinin muxtariyyət fikrindən daşındırmaq üçün radikal addımlar atmağı ona tövsiyyə etmişdi. Bulard İran hökumətinə məsləhət körmüşdü ki, bir sıra islahatlar keçirməklə vəziyyəti sabitləşdirməyə çalışsınlar. O qeyd edirdi ki, Misirdə olduğu kimi torpaq bölgüsu keçirmək lazımdır və bu məqsədlə Azurbaycanda vəziyyəti öyrənmək üçün ora hökumət komissiyası göndərilməlidir.[86]

Noyabrın 17-də İran Xarici İşlər Nazirliyi Azərbaycandakı hadisələrlə bağlı Tehrandakı Sovet səfirliyinə nota verdi. Notada Sovet nümayəndələrinin yerlərdə İran hakimiyyət orqanlarının işinə müdaxilə etdiyi, bir sıra kürd qayfalarına vo ayrı-ayrı kürd siyasi xadimlərinə himayəçilik göstərdikləri, İran vətəndaşlarının daxili iqtisadi həyatına qarışdıqlarını, İran-sovet sərhədlərində SSRİ-nin bir tərəfli üstünlüyə can atdığı, Sovet orqanlarının İranın məhkəmə İşlərinə müdaxilə etdiyi göstərilirdi. Xarici İşlər Nazirliyinin səfiri əvəz edən Əhəd Yaqubova təqdim etdikləri notada İranın şimalında

müxtəlif siyasi qrupların fəaliyyətindən danışılır, Mianə və Marağadakı hadisələrdə Azərbaycan Demokrat firqəsinin əli olduğu göstərilirdi. İran tərəfi bütün bunların 1942-ci ildə imzalanmış üçtərəfli müqaviləyə zidd olduğunu xatırladırdı. Eyni zamanda notada İranın Şimal vilayətlərinə əlavə ordu göndəriləcəyi bildirilirdi. İran Xarici İşlər Nazirliyinin notasına dərhal Moskvadan cavab gəldi. Sovet səfirliyiniй təqdim edəcəyi notanın mətni V.Molotov tərəfindən bəyənilmişdi. SSRİ Xarici İşlər Komissarlığıın idarə rəisi Mixail Silinin M.C.Bağırova teleqramında deyilirdi: "Sovet səfiri yoldaş Yaqubova ünvanlanmış Nota ilə bağlı İran hökumətinə veriləcək notanı sizə göndərirəm".[87]

Notada deyilirdi: Şimal vilayətlərinə əlavə olaraq İran ordusu göndərməyin həm Sovet tərəfi, həm də İran tərəfi üçün arzuolunmaz nəticələrini nəzərə alaraq Sovet hökuməti bu tədbirin iйdiki anda həyata keçirilməsini məqsədəuyğun hesab etmir. Sovetlərin fikrincə, Şimali İrana Nizami ordu hissəsinin və jandarm dəstələrinin göndərilməsi orada həyəcan və iğtişaşlar yarada bilər, hətta qan tökülməsinə səbəb ola bilər. Belə olduqda Sovet hökuməti orada olan qarnizonlarının təhlükəsizliyini təmin etmək və qayda yaratmaq məqsədilə İrana əlavə ordu yeritmək məcburiyyətində qalacaqdır. Halbuki Sovet hökuməti İrana əlavə olaraq SSRİ qoşunlarının göndərilməsini arzuoluimaz hesab edir və eyni zamanda İranın da şimal vilayətlərinə əlavə ordu göndərilməsini məqsədəuyğun hesab etmir. [88] Sovet səfirliyinin cavab notasında İran Xarici İşlər Nazirliyinin İrandakı Sovet orqanları ilə balı qaldırdığı bütün iddialar təkzib edilirdi. Orada göstərşşrdi: Siyasi partiyaların fəaliyyəti ilə əlaqələndirilən İranın Şimal vilayətlərindəki hadisələr şübhəsiz ki, İranın daxili işidir. Sovet nümayəndələri və Sovet hərbi orqanları Şimal vilayətlərinin daxili siyasi həyatına qarışmayıb və qarışmayacaqdır. Ona görə Sovet Səfirliyi İran

orqanlarının bu hadisələrin məsluliyyətini "Sovet hərbi işçilərinin" üzərinə qoymaq cəhddərini qəti surətdə rədd edir.

Sovetlərin notası İran hökumətini çıxılmaz vəziyyətə saldı. Tehrandakı Xaqani Şirvani küçəsinin adını dəyişməkdən başqa İran hökuməti ayrı bir iş görə bilmədi. Həmin küçəyə ingilis alimi Eduard Braunun adı verildi. M.C.Bağırov M.İbrahimova tapşırmışdı ki, "Xahiş edirəm İran Azərbaycanıada demokratik hərəkatın başlanğıcında İran irticaçılarının Tehranda Xaqani adına küçəni ingilisin adına dəyişmələri ilə bağlı mənə geniş arayış hazırlayın". [90] Tehran və Dehli radiosu bu məlumatı yaydıqdan sonra Təbrizdə çıxan "Azərbaycan" qəzeti "Xaqani Şirvani və Eduard Braun davası" adlı geniş məqalə dərc etmişdi. Qəzet yazırdı: "Xaqani Şirvani və Eduard Braui" sərlövhəli məqalə tehranlı "dostların" Azərbaycan xalqına nə kimi "məhəbbət" bəslədiklərini aydın göstərir. Sərlövhəmiz oxucularımızı çaşdırmamalıdır. Azərbaycan şairi Xaqani Şirvani ilə ingilis alimi Eduard Braun arasında nə bir dava, nə də ixtilaflı məsələ yoxdur. Çunki bu iki alim bir-birilə görüşməmiş və aralarında da bir mubahisə təlid olmamışdır. Bununla belə onların adı ilə bağlı son vaxtlar hay-küy qalxmışdır... Tehranın küçələrindən biri Azərbaycan şairi Xaqani Şirvaninin adını daşıyırdı. Tehran hökumətinin başında dayanan ağalar muşavirə çağırdılar və qərara gəldilər ki, İranın paytaxtında Azərbaycan şairinin adına küçə ola bilməz... Rza xan Urmiyəni Rezayə, Acıçayı - Talxrud, Qızkörpüsün - Poldaxtər etdi. Siz də bizim Xaqanimizi Eduard Braun elədiniz. Biz bunu görürük və anlayırıq.[91]

Tehranın bütun hədələrinə baxmayaraq noyabrın 19-na qədər keçirilən 180-dən artıq mitinq və yığıncaqlarda Azərbaycan Xalq Konqresinə seçkilər başa çatdı. Tehran dərin təlaş içərisində, Təbriz isə Xalq Konqresinin açılışı astanasında idi...

## XIV. Güney Azərbaycan: 21 Azərin astanasında

Noyabr ayından başlayaraq M.C.Bağırov demək olar ki, hər gün Güney Azərbaycandakı vəziyyət barədə Moskvaya - Stalin, Molotov, Beriya və Malenkova məlumat göndərirdi. Bu məlumatların əsasını Təbrizdən və Azərbaycanın digər şəhərlərindən siyasi, diplomatik, hərbi və təhlükəsizlik orqanlarının göndərdiyi hesabatlar təşkil edirdi. Həmin sənədlər adətən Tehrandakı Sovet səfirini əvəz edən Ə.Yaqubov, Azərbaycan Dövlət təhlükəsizliyi komissarı S.Yemelyanov, Sovet Azərbaycanının Təbrizdəki üçlüyü (M.İbrahimov, H.Həsənov, A.Atakişiyev), Təbrizdəki Baş konsul Krasnı, İrandakı Sovet ordusunun komandanı general Qlinski, hərbi şura üzvü general Russov və digərləri tərəfindən hazırlanırdı. Noyabrın 19-da Kreml rəhbərlərinə bildirilirdi ki, ayın 12-dən başlayan və böyük ruh yüksəkliyinə səbəb olan mitinq və nümayİşlər başa çatmışdır. Noyabrın ortalarında Təbrizdə Marağada, Mianədə, Sərabda, Ərdəbildə, Astarada və digər yerlərdə baş vermiş hadisələr sənəddə öz əksiйi tapmışdı. Təbrizdə 20 mindən artıq, Əhərdə 15 minə qədər, Rezayödə 5 min, Xoyda 2 min, Şapurda 3 min, Marakada 2 mindən artıq, Mərənddə 2 mivdən artıq adam mitinqlərdə iştirak etmişdi. 150 mindən artıq adam Azərbaycanın milli özünüidarəsi ilə bağlı seçkili orqanların yaradılmasına razılıq əlaməti olaraq sənədə imza atmışdılar.[1] Noyabrın 18-də Təbrizdə keçirilən ümumşəhər mitinqi daha möhtəşəm olmuşdu. Mitinqdən əvvəl Şəbüsteri və Rafin Ali qapıya getmiş və dövlət orqa!şarını xəbərdar etmişdilər ki, mitinqin təhlükəsizliyini təmin etsinlər. Eyni zamanda bunun orduya da and olduğunu bşidirmişdilər. Təbriz diviziyasının komandiri general Dərəxşani demişdi: "Ordu dövlətin xidmətçisidir. Demokratlar hakimiyyətə gələcəklər, ordu demokratlara xidmət edəcək, hakimiyyətdə digər qruplaşma olacaq, ordu onlara xidmət edəcək. Ordu siyasətdən kənardadır".[1] Elə həmin saat

göstəriş verildi ki, şəhərdə hərbi patrul postları götürülsün və qayda-qanuna nəzarət etmək məqsədilə polis postları gücləndirilsin. Fədai quvvələrinin ilk uğurları öz nəticəsini vermişdi. Əvvəllər Demokrat firqəsinin rəhbərləri ilə salamlaşmaq belə istəməyən Dərəxşani, Vərahram, Hümayun, Dövlət Şahi kimi generallar və məmurlar indi onlara yarınmağa məqam axtarırdılar. Lakin Pişəvəri, Şəbustəri və Padəqana Bakı üçluyü qərəfindən göstəriş verilmişdi ki, İran məmurlarının nəzakətli davranışlarını ciddi qəbul etməsinlər, öz sıralarını daha da möhkəmləndirsinlər, sayıqlıqlarını artırsınlar və "yaddan çıxarmasınlar ki, yalnız güclü xalq hərəkatı arzu olunan nəticələrə gətirib çıxara bilər".[2] Fədailərin çıxışları tacir və mülkədarların bir hissəsini bərk qorxuya salmışdı. Noyabrın 18-dəki mitinqdən əvvəl Təbrizin zəngin adamlarından olan Səduqiana və Musəvi Demokrat firqəsinin MK-na gəlib şəhərdə fədai çıxışlarının başlanmasından, xüsusi mülkiyyətin ləğv ediləcəyindən narahat olduqlarını bildirmişdilər. Lakin onlara cavab verilmişdi ki, partiya qarşısına belə vəzifə qoymamışdır, onlar öz həyatları və mülkiyyətləri üçün qorxmasınlar və sakit şəraitdə yaşayıb işləsinlər. Danışıqlar zamanı Musəvi firqə rəhbərlərinə demişdi: "Siz hamınız yaxşı adamlarsınız. Mənə deyin görüm Siz nə istəyirsiniz? Mən Sizin üçün hər şeyə nail olaçağam. Əncümən istəyirsinizsə, 3-5 gün ərzində mən ona icazə alaram. Nəyə lazımdır bu fədai dəstələri". [3] Ona bildirildi ki, fədai dəstələri ADP-nin göstərişi ilə yaradılmır, murtəcelərin vəhşiliyinə və təxribatlarına qarşı yaranır.

Bərk yağış, külək və soyuq olmasına baxmayaraq noyabrın 18-də Təbrizdə keçirilən mitinqə 20 mindən çox adam gəlmişdi. Mitinq Şəhər İdarəsinin qarşısındakı meydanda təşkil edilmişdi. Onu Pişəvəri açdı, Biriya və İlhami çıxış etdi. Məhəmməd Biriyanın Təbriz diviziyasının əsgərlərinə, jandarm və polis işçilərinə müraciəti alqışlarla qarşılandı. O,

deyirdi: "Əsgərlər, polis və jandarm işçiləri! Siz bizim xalqın okullarısınız, bizim doğma qardaşlarımızsınız. Siz bilirsiniz ki, biz xalqımızın ayrılmaz hüquqları, yaxşı və azad həyatı uğrunda mübarizə aparırıq. Ayrı-ayrı satqınlara qulaq asmayın, öz xalqınıza əl qaldırmayın. Bilirsiniz, əgər siz bunu etsəniz, biz sizdən qorxmuruq və sizi öz qan dənizimizdə boğacağıq"...[4] Noyabrın 17-18-də baş verən hadisələrdən, Təbrizdə taxılın azlığından xırda mülkiyyətçilər və əhalinin müəyyən hissəsi vahiməyə düşmüşdü. Çörəyin batmanı 18 qramdan, 35 qrama qalxmışdı. Biriya həmkarlar təşkilatı vasitəsilə çörək ticarətçiləri ilə danışıb çörəyin qiymətini əvvəlki səviyyəyə sala bilmişdi.

Noyabrın 19-da Keperal Dərəxşaninin imzaladığı müraciət Təbriz evlərinin divarlarına yapışdırılmışdı. Orada deyilirdi: Əlahəzrət Şahənşahın sərəncamı ilə Azərbaycanda qayda-qanun yaratmaq və təhlükəsizliyi təmin etmək mənim üzərimə qoyulmuşdur. Bütün jandarm və polis mənim birbaşa komandanlığıma verilmişdir. Müvafiq sərəncam artıq hərbi idarələrə paylanmışdır. Son zamanlar bir sıra təxribatçı ünsürlərin əməlləri nəticəsindo Mianədə, Sərabda, Əcəbşirdə baş vermiş hadisələrin Təbrizdə ola biləcəyi haqqında şayiələr əhalini narahat etmişdir. Xatırladıram ki, Təbrizdə daxili sakitliyi bərpa etmək üçün ayrı-ayrı qiyamçıların və araqızışdİranların həbs olunub məhkəmə orqanlarına verilməsi üçün bir sıra tədbirlər görülmüş, müvafiq əmr və sərəncamlar verilmiş, xəbərdaredici addımlar atılmışdır. Ona görə biz Təbrizin çox hörmətli əhalisindən artıq dərəcədə xahiş edirik ki, vahiməyə düşməsinlər və sakit şəkildə öz dinc İşləri ilə məşğul olsunlar. Mənim diviziyam qayda-qanunu təmin etmək üçün hər cür ölçü götürəcəkdir.[5] Bu müraciət yayılan gün general-leytenant Qlinski Dərəxşaniyə icazə verdi ki, Mianədə fədai dəstəsini ləğv etmək üçün ora 200 nəfərlik hərbi hissə göndərsin. Eyni zamanda bu hərbi hissəni tərksilah etmək üçün Mianəyə müvafiq sayda Sovet əməliyyatçılarının

nəzarətində olan silahlı dəstə göndərildi. Yaranmış vəziyyətlə əlaqədar Güneydəki Bakı üçlüyü M.C.Bağırova yazırdı: Bizə belə gəlir ki, fədailərin ilk uğurlu çıxışlarından sonra yeni dəstələrin yaradılmasını başlı-başına buraxmaq olmaz. Hər hansı bir yerdə yeni yaranmış fədai dəstələrinin ləğv edilməsi hadisələrin sonrakı gedişinə çox pis təsir göstərə bilər. Bununla yanaşı Güney Azərbaycanın ərazisi partizan mübarizəsi üçün elə də əlverişli deyildir. Bütün bunlar göstərir ki, mübarizənin yubanmasına, qarşı-qarşıya dayanan silahlı güclərin uzun müddət paralel Mövcudluquna yol vermək olmaz. "Ona görə xüsusi qatarla Təbrizə on min tüfəng və digər hərbi sursat göndərilməsi barədə göstəriş verməniz xahiş edirik".[6]

Noyabrın İkinci ongünlüyündə Xalq yığıncaqlarında seçilmiş 687 nümayəndədən çoxu havaların pis keçməsinə, nəqliyyat vasitələrinin olmamasına baxmayaraq Təbrizə vaxtında çata bildi. Noyabrın 20-də səhər saat 10-da "Şir-Xurşid" teatrının binasında Azərbaycan Xalq Konqresi işə başdadı. Onun işində 646 nümayəndə, 37 qonaq və mətbuat işçisi iştirak edirdi, Güney Azərbaycan əhalisinin bütün təbəqələri konqresdə təmsil edilmişdi. Zal Səttarxanın, Bağırxanın, Şeyx Məhəmməd Xiyabaninin, Heydər Əmioğlunun portretləri ilə bəzədilmişdi. İlk olaraq səhnəyə Səttarxanın qardaşı, köhnə demokrat Hacı Əzim xan və Demokrat firqəsinin sədri Mir Cəfər Pişəvəri çıxdılar. Hacı Əzim Xan nümayəndələrin ən yaşlısı kimi əsrin əvvəllərində demokratik hərəkatın iştirakçısı olduğundan Azərbaycan Xalq Konqresinin birinci iclasını açdı. Çavuşinin təklifi ilə 17 nəfərdən ibarət Konqresin Rəyasət Heyəti seçildi. Rəyasət Heyətiə Pişəvəri, Rafiй, Şəbüstəri, Cavid, Biriya, Qiyami, Hacı Əzim Xan, Said Divan, Şeyx Musa Keyvani, Cövdət, Çamal Xan Teymuri, Visuq, Mir Musa Basminçi, Hacı Mustafa Davudi, Dilmaqani, Mükərrəm Turabi, Ziyayi seçildilər. Firudin İbrahimi, Əhmədi, M.Vilai, Ataş Bayat Maku Konqresin katibi oldular. Pişəvərinin

sədrliyi ilə geçən birinci iclasda Azərbaycanın müxtəlif yerlərindən gələn təbriklər oxundu. Bütün çıxışçılar Konqresi Güney Azərbaycanın muxtariyyətinin elan edilməsinə çağırdılar. Zəncandan nümayəndə seçilmiş Visuq dedi: "Bizim İran Konstitusiyası Azərbaycan xalqının qanı bahasına alınmışdır, onun kücü ilə də bərpa olunmalıdır. Mən Zəncan əhalisi adından son damla qanımıza qədər xalq işi uğrunda mübarizə aparacağımızı bildirirəm".[7] Azərbaycan ruhaniləri adından Şeyx Musa, ADP MK sədrinin müavini, torpaq sahibkari Rafiй, həmkarlar təşkilatı adından M.Biriya, Azərbaycan qadınları adından Suğra Qədiri Konqresi Təbrik etdi. Xoy vilayətindən olan Yəzdani Xalq Konqresini salamladıqdan sonra bildirdi ki, bir qoça qarı əzünün toxuduğu bir cüt yun corabı Pişəvəriyə çatdırmağı xahiş edib. O, təvəqqə edib ki, Azərbaycan kəndlərində tezliklə jandarm və polisin zülmünə, soyğunçuluğuna son qoyulsun. Hədiyyəni qəbul edərək Pişəvəri dedi: Öz xilasını övladlarının qəhərmanlığında axtaran əzabkeş və taqətdən salınmış ananın səsinə qulaq asın. Biz bu corabları milli muzeyimizdə saxlayacağıq ki, bizim ananın çağırışına olan sədaqətimizə şəhadətlik etsin.[8] Pişəvərinin bu sözləri zalda sürəkli alqışlarla qarşılandı. Xalq Konqresinin birinci iclası böyük ruh yüksəkliyi ilə keçdi. Üç saatlıq fasilədən sonra Şəbüstərinin sədrliyi ilə İkinci iclas işə başladı. Pişəvəri "Kazırki vəziyyət haqqında" mə"ruzə ilə çıxış etdi. İranda və Azərbaycandakı Mövcud vəziyyət məruzədə dərindən təhlil edildi. Birinci dünya müharibəsindən sonra İran İrticasının fəaliyyətini təhlil edərək o, deyirdi: Tehran mürtəceləri Azərbaycana münasibətdə xüsusi siyasət yeridirdilər. Onlar Azərbaycan ərazilərinin birliyini pozaraq, onu müxtəlif ostanlar arasında bölüşdürdülər. Onlar azərbaycanlıların doğma dilini ləğv etməyə cəhd göstərdilər, onu təlqib edib və məsxərəyə qoydular.[9] Sonra Pişəvəri Azərbaycan xalqının Tehrandan tələbləri üzərində dayanaraq bildirdi: Biz

Azərbaycanda milli hökumət yaradacağıq, biz xalqın normal həyat şəraiti ilə təmin olunmasına nail olacağıq. Ümumxalq müzakirəsi uçün biz öz proqramımızı elan edəcəyik, nə bəyənilsə onu həyata keçirəcəyik, nə qəbul edilməsə onu proqramımızdan çıxaracağıq. Mili muxtariyyətin mahiyyətini Pişəvəri belə açıqlayırdı: Biz Azərbaycan üçün muxtariyyətə nail olaçağıq. Bunu reallaşdırmaq məqsədi ilə biz silah və zorakılığa əl atmayaçağıq. Elə ki, biz Azərbaycan muxtariyyətini qazandıq, onun dağılmış şəhər və kəndlərini bərpa etməyə başlayacağıq, ali təhsil müəssisələri və məktəbləri açaçağıq. Azərbaycan milli hökuməti kəndlilərlə torpaq sahibkarları arasındakı mübahisələri ədalətli şəkildə həll edəcək və bütün İrana nümunə olacaqdır. Biz qan tökülməsinin əleyhinəyik, lakin bizə hücum etsələr mudafiə olunacağıq, necə ki, bu gün Azərbaycan kəndlisi ona qarşı yönəlmiş soyğunçuluğa, qarətçiliyə, zorakılığa qarşı mübarizə aparır.[10] Pişəvərinin məruzəsinin qurtarmasına bir neçə dəqiqə qalmış iclas zalında işığı söndürdülər. Pişəvəri sözünü belə yekunlaşdırdı: "Qoy hamı bilsin, nə qədər bizi qaranlıqda saxlasalar da biz öz yolumuzu tapacağıq, ona görə ki, o yol ürəyimizin odu ilə işıqlanır".

Noyabrın 21-də Rafiйnin sədrlik etdiyi üçüncü iclasda Pişəvərinin məruzəsi ətrafında çıxışlar başlandı. 20 nəfərə qədər nümayəndə çıxış etdi. Məruzədə irəli sürülən ideyalar müdafiə edildi. London radiosunun, xarici mətbuatın Azərbaycandakı hadisələri saxtalaşdırması çıxışçıların hiddətinə səbəb olmuşdu. Sonuncu iclasa sədrlik edən Pişəvəri konqresə məlumat verdi ki, Tehran hökuməti Azərbaycan xalqının səsinə qulaq asmaq əvəzinə, xarici dövlətlərə müraciət etməlidir ki, Azərbaycan məsələsinin həllinə yardım göstərsinlər. O, bəyan etdi: "bizim iclas təsdiq etməlidir ki, Azərbaycan məsələsi burada, Təbrizdə həll edilməlidir. Azərbaycanın taleyi Türkiyədə və yaxud Londonda həll edilə bilməz, bizim taleyimiz yalnız

Azərbaycanın özündə, ümumxalq konqresində həll edilə bilər".[11]

Bir sıra nümayəndələr təklif etdilər ki, Xalq Konqresi özünü Müəssisələr Məclisi exlan etsin. Publisist Xəlil Nasiri öz çıxışında qeyd edirdi ki, bizim konqresimiz təsis qurultayından heç nə ilə fərqlənmir. Biz beş milyonluq Azərbaycan xalqını təmsil edirik. Ona görə biz Xalq Konqresini təsis qurultayı elan edib milli muxtariyyətimizin əsası kimi Milli Məclis seçkisini həll edə bilərik. Bu təklif nümayəndələr tərəfindən bəyənildi. Sonuncu iclasda qətnamələri hazırlamaq üçün Pişəvəri, Şəbüstəri, Qiyami, Padəqan və İbrahimidən ibarət komissiya yaradıldı. Ümumxalq Konqresi Azərbaycan Məclisi Müəssisanının təsis qurultayı haqqında qərar, İran şahına, məclisinə və hökumətinə bəyannamə, Azərbaycan millətinə və ümumİran xalqına müraciət, Azərbaycan Milli Məclisinə seçkilər haqqında əsasnamə qəbul etdi. Milli Məclis seçkiləri qurtarıb Xalq hökuməti yaradılana qədər Konqres nümayəndələrindən 39 nəfərlik Milli herət yaradıldı və qərarların icrası ona tapşırıldı. Milli heyətə ADP MK-nın sədri Pişəvəri, ADP MK sədrinin müavini M.Rafiй, siyasi xadim Z.Qiyami, siyasi xadim, publisist Şəbüstəri, həmkarlar təşkilatının rəhbəri S.Cavid, DP MK sədrinin müavini S.Padəqan, şair M.Biriya, şəhər idarəsinin keçmiş rəisi Q.İlhami, mülkədar, DP Ərdəbil vilayət komitəsinin sədri H.Cövdət, müəllim Ə.Dibaian, Köhnə demokrat N.Ekani, mülkədar S.Dilməqani, tacir Z.Rəhimzadə, fabrikant Ə.Maşinçi, jurnalist X.Nasiri, Maku sərdarının oğlu Murad Əli Xan, Mülkədar Əhməd Saidi, 3-cü ostanın veternariya idarəsinin rəisi C.Mehtaş, xırda mülkədar Pur Rəsul, iri torpaq sahibkarı K.T.Vahabzadə, Kürdüstan nümayəndəsi Hacı Mustafa Davudi, Sərablı mülkədar S.Haşimi, xırda mülkədar Mir Musa, kiçik ticarətçi C.Kaviyan, erməni mədəniyyəq cəmiyyətinin sədri S.Mkrtıçyan, aysorların nümayəndəsi Yusif Babakan, DP

Zəncan vilayət komitəsinin üzvü M.Ziyayi, Xadimi Milli Hacı Əzim xan, Şahsevən tayfa başçıları Şahin Nüsrət bəy və Məhəmməd xan Çəlili, şair Mir Mehdi Cavuşi, müəllimə B.Müvəzzizadə, orta mülkədar Mükərrəm hümayun, DP vilayət Komitə sədri Qulu Xan Borcalı, din xadimi Şeyx Musa, jurnalist Firudin İbrahimi, DP Mərənd vilayət komitəsinin sədri M.Burhani, DP Əhor vilayət Komitəsinin üzvü Müinzadə, DP Miyanə vilayət Komitəsinin üzvü A.Pənbeyi seçildilər.[12] Noyabrın 21-də Milli Heyəti iclasında Şəbüstəri sədr, Rafiй, Biriya, İlhami müavinlər olmaqla Rəyasət Heyəti seçildi. Milli Heyətin iclası Qiyami sədr olmaqla 19 nəfərdən ibarət seçki komissiyasının tərkibini təsdiq etdi və Azərbaycan parlamentinə seçkilərin keçirilməsi haqqında qərar qəbul etdi. İran Məclisinə seçkilərdən fərqli olaraq Azərbaycan Milli Məclisinə seçkilərin dekmokratikliyini təyin etmək üçün seçki dairələriniй və məntəqələrinin sayı artırıldı. Ayrı-ayrı şəhərlərdə müstəqil seçki dairələri yaradıldı. Seçkilərin keçirilmə müddəti 5 günə endirildi. İlk dəfə olaraq İranda Azərbaycan qadınlarına seçki hüququ verildi. Əsasnaməyə görə 20 yaşına çatmış, Azərbaycanda yaşayan bütün vətəndaşlar seçkilərdə iştirak etmək hüququna malik idi. 27 yaşından yuxarı, 80 yaşa qədər türk dilində danışmağı və yazmağı bacaran bütün vətəndaşların seçilmək hüququvar idi.[13]

Azərbaycan Xalq Konqresinin keçirilməsindən sonrakı iki gün ərzində onun qərar və qətnamələri, bəyanat və müraciətləri elan edildi. M.C.Pişəvərinin "Hazırki vəziyyət haqqında" məruzəsi əsasında konqres 14 bənddən ibarəq qətnamə qəbul etmişdi. Orada göstərilirdi: Böyük demokratik dövlətlərin səyi ilə diktatorların yıxıldığı, zorakılığın və rasizmin dağıldığı, bütün xalqların özünüidarə və öz taleyini müstəqil həll etmək haqqı qazandığı bir vaxtda Azərbaycan xalqı vahid millət kimi çıxış edərək öz gücü ilə öz tarixi hüquqlarını əldə etmək istəyir. Onun əsl məqsəddərini düzgün başa düşmək istəməyənlərə

bildirir ki, Azərbaycan xalqı öz taleyinin sahibi olacaqdır, onun İrandan ayrılmaq fikri yoxdur, İranın digər xapşarı ilə qardaşlıq əlaqələrinin saxlanmasını özünün borcu hesab edir. Azərbaycan Xalq Konqresi guya Azərbaycanın İrandan ayrılıb hansısa digər bir dövlətə birləşməsi haqqında yayılan böhtanları qəti şəkildə rödd edir.

İran Konstitusiyasının əsas prinsipinə sədaqətli olmaqla qətnamədə Azərbaycan xalqının daxili İşlərini idarə etmək məqsədi ilə milli muxtariyyət qazanacağı, əyalət əncüməninin hüquqlarını genişləndirib onu Milli Məclisə çevirəcəyi İranın ərazi bütövlüyünü və müstəqilliyini heç bir halda pozmadan öz milli hökumətini yaradacağı bildirilirdi. Şübhəsiz ki, siyasi, iqtisadi., maliyyə və mədəni muxtariyyət olmadan milli muxtariyyət ola bilməz. Ona görə Müəssisələr Məclisi qeyd edilən istiqamətlərdə İşləri görmək üçün təcili olaraq Milli hökumətin yaradılmasını zəruri hesab edirdi. Xalq Konqresi dövlət məmurlarından tələb edirdi ki, onun seçdiyi Milli Heyəti qərar və göstərİşlərinə qulaq assın. O məmurlar ki, Milli Heyəti qərarlarına tabe olmaq istəmirdi, onların dövlət idarələrindən uzaqaaşdırılması məqsədəuyğun hesab edilirdi.

Müəssisələr Məclisi Milli Heyətə tapşırırdı ki, bütün dövlət idarələrində və məktəblərdə türk dilinin işlədilməsin təmin etsin. Bu tədbirlərin həyata keçirilməsinə muqavimət göstərənlər Azərbaycan xalqının düşməni və satqın hesab edilirdi. Müəssisələr Məclisi polisi, jandarm və ordu təşkilatlarını, onların zabit və şəxsi heyətini buraxmaq istəmirdi. Lakin bu orqanlar Azərbaycan muxtariyyətinə qarşı durmaq fikrinə düşsəydi Milli Heyətə səlahiyyət verilirdi ki, onların rəhbərləri haqqında ciddi ölçü götürsün.[14]

Böyük Xalq Konqresinin mühüm sənədlərindən biri noyabr ayının 23-də "Azərbaycan" qəzetində dərc olunan Bəyannamə idi. Bəyannamə Məhəmməd Rza şaha, İran məclisinin sədri Məhəmməd Sadıx Təba-Təbabiyə, Baş

nazir İbrahim Hakimiyə ünvanlanmışdı. Bu sənəd mərkəzi İran hökumətinə Azərbaycan xalqının tələblərini özündə əks etdirmişdi. Bəyannamədə deyilirdi:

1. Azərbaycan xalqı tarixi inkişafa uyğun olaraq özünün milli xüsusiyyətlərinə, dilinə, adət və ənənəsinə malikdir. Bu xüsusiyyətlər ona hüquq verir ki, İranın müstəqilliyşş və ərazi bütövlüyünü iozmadan, Atlantik xartiyasının prinsipləri əsasıvda dünyanın bütün qalan xalqları kimi azad və tam hüquqla öz taleyini müəyyən etsin.

2. Azərbaycan xalqının İranın digər vilayətlərindəki xalqlarla mədəni, iqtisadi və siyasi əlaqələrini, eyni zamanda iйdiki İran dövlətinin yaranmasındakı (məlumdur ki, indiki İran dövləti azərbaycanlılar tərəfindən yaradılıb) xidmətlərini nəzərə alaraq Xalq Konqresi Milli Muxtariyyətə olan qanuni haqqını həyata keçirərkən heç bir halda seperatizm və İranın ərazi bütövlüyünün pozulmasına can atmayacaqdır.

3. Azərbaycan xalqı İran Konstitusiyasında təsbit olunmuş demokratik quruluşun qəti tərəfdarıdır. İranın bütün əyalət və vilayətlərində olduğu kimi Azərbaycan milləti də öz nümayəndələrini İran Məclisinə göndərəcəkdir və ədalətli vergilərin ödənilməsində iştirak edəcəkdir.

4. Azərbaycan xalqı rəsmən elan edir ki, dünyanın digər həyat qabiliyyətli millətləri kimi, o öz milli hökumətini yaradıb İranın bütövlüyünü və müstəqilliyini gözləməklə öz daxili İşlərini milli demokratik hökumətinin vasitəsi ilə idarə etmək haqqına malikdir.

5. Azərbaycan xalqı azadlıq və demokratiya yolunda çox zəhmət çəkdiyi, böyük qurbanlar verdiyindən öz muxtar hökumətini də əsl demokratik əsasda qurmaq arzusundadır.

Ona görə də o Xalq Konqresinin bəyəndiyi əsasnaməyə uyğun öz Milli Məclisini seçmək istəyir ki, Azərbaycan Milli hökumətini həmin Məclisə seçilmiş deputatlardan təşkil etsin və Məclis qarşısında cavabdeh olsun.

6. Azərbaycan xalqı üçün onun doğma milli dilinin xüsusi əhəmiyyəti vardır. Yad dilin zorla qəbul etdirilməsi Azərbaycan xalqının ümumbəşəri inkişafdan, mədəniyyətdən və tərəqqidən geri qalmasının, milli maarifin yolunun bağlanmasının başlıca səbəbidir. Bu tarixi ədalətsizliyi aradan qaldırmaq üçün Xalq Konqresi Milli heyətə tapşırıq vermişdir ki, bütün dövlət idarələrində yaxın vaxtlarda türk dilini tətbiq etsin, bütün təhsil müəssisələrində türk dilində tədrisə başlansın.

7. 700 deputatdan ibarət Xalq Konqresi Azərbaycan xalqının iradəsi və tələbi ilə özünü Müəssisələr Məclisi elan edir və Azərbaycanın daxili İşlərini idarə etmək üçün 39 nəfərdən ibarət Milli Heyət seçib. Bu heyətə hüquq verilmişdir ki, xalqın milli tələblərini həyata keçirmək üçün səlahiyyətli dairələrlə danışıqlar aparsın və eyni zamanda Azərbaycan Milli Məclisinə, habelə Ümumİran Məclisinə seçkiləri keçirsin.[15]

Bütün bunlarla yanaşı Bəyannamədə İran dövlətinin və dünyanın demokratik dövlətlərinin nəzərinə çatdırılırdı ki, yuxarıdakı tələblərin yerinə yetirilməsinin gedişində müstəsna olaraq təbliğat və təşkilati metodlardan istifadə ediləcək, qardaş qanının tökülməsinə, daxili zorakılığa yol verilməyəcəkdir. Əgər Mərgəzi hökumət Azərbaycan xalqının qanuni hüquqlarına qarşı silah tətbiq etməyə cəhd göstərərsə, onda o, bütün vasitələrlə öz haqlarını qorumaq məcburiyyətində qalacaq, öz milli muxtariyyəti uğrunda mübarizəni axırıncı azərbaycadlı sağ qalana qədər davam etdirəcək. Bəyannamədə deyilirdi: Biz bütün dünyanın diqtətinə çatdırırıq: yer kürəsində bir millət mövcuddur ki, o öz hüququnu bütün vasitələrlə qorumağa qəti qərar vermişdir. Asiyanın bir kuşəsində bu millət öz azadlığı naminə demokratiya bayrağını qaldırmışdır.[16]

Bəyannamənin mətni Tehrandakı Sovet səfirliyinə çatdırılsa da SSRİ Xarici İşlər Komissarlığının idarə rəisi Mixail Silin Əhəd Yaqubova göstəriş

vermişdi ki, sənəd hələlik Tehran mətbuatında çap olunmasın. M.C.Bağırov telefonla Stalindən razılıq aldıqdan sonra Ə.Yaubova tapşırıq verdi ki, Bəyannamənin tam mətni Tehran qəzetlərində çap edilsin.[17] Bəyannamə və Xalq Konqresinin digər sənədləri, Azərbaycan Milli Məclisinə seçkilərlə bağlı qəbul olunmuş sənədlər Bakıda tərcümə edilib Kreml dördlüyünə - Stalin, Molotov, Beriya və Malenkova göndərildi.

Güneydəki İşlər ciddi xarakter aldıqdan sonra Pişəvəri üzərində nəzarət Sovet rəhbərliyini xüsusi şəkildə qayğılandırdı. Müəyyən məsələlərə münasibətdə onun öz fikirləri üzərində israr etməsi elə də yaxşı hal hesab edilmirdi. Sovet xüsusi idarələrində məlumat var idi ki, M.C.Pişəvari İran daxilində Azərbaycanın milli muxtariyyət almasını siyasi baxımdan perspektivsiz hesab edir. O, daha çox Sovetlərin himayəsi altında Monqolustan tinində Azərbaycan Xalq Demokratik Respublikası yaradılması, sonrakı mərəhələdə tədricən Azərbaycanın birləşdirilməsi barədə fikirləşirdi. Lakin hələ ki, Pişəvəri bu ideyanı açıqlamamışdı və Güneydəki bütün İşlər də Sovetlərin proqramına uyğun inkişaf edirdi, M.C.Pişəvəri üzərində nəzarəti gücləndirməkdən ötrü Moskvadan razılıq alındı ki, onun oğlu Dariyuş Cavadzadə Bakıya oxumağa gətirilsin. Bu məqsədlə M.C.Bağırov Nazirlər Soveti sədrinin müavini Ə.Əzizbəyova, Daxili İşlər komissarı M.Yaqubova və Dövlət təhlükəsizliyi komissarı S.Yemelyanova tapşırıq vermişdi ki, hazırlıq körsünlər. Dariyuş Cavadzadə azyaşlı olduğu üçün qərara alındı ki, o, Bakıda yaşayan əmisi, tibbi xidmət kapitanı Mir Xəlil Cavadzadənin ailəsində qalsın. Lakin Mir Xəlil özü 4 nəfərlik ailə üzvləri ilə birlikdə (xanımı və üç uşağı) Kaqanoviç küçəsindəki 6 nömrəli binada 32 kv.metrlik bir mənzildə yaşayırdı. Pişəvərinin oğlunu yerlə təmin etmək üçün kapitan Çavadzadəyə Fabrisius küçəsindəki 24 nömrəli binada 63 kv. metrlik üçotaqlı mənzil verildi. Otaqların biri mebel və digər əşyalarla təmin edilib

Pişəvərinin oğlu üçün ayrıldı. Eyni zamanda ona birinci dərəcəli literli kartoçka verildi və 9 nömrəli mağazaya möhkəmləndirildi.[18] Pişəvərinin oğlunun Təbrizdən Bakıya gətirilməsini M.İbrahimov, H.Həsənov, A.Atakişiyev təşkil etdilər.

Noyabr ayının 23-də Milli Heyəti iclasında Azərbaycan Milli Məclisinə seçkilərin noyabrın 27-də başlanması və seçkilərin 5 gün ərzində başa çatdırılması haqda qərar verildi. Azərbaycan Parlamentinin birinci iclasının açılması dekabrın 5-nə, yaxud 6-na, məhərrəmlik təziyəsinin başlanmasından bir-iki gün əvvələ təyin edildi. Seçkilərlə bağlı sənədlər və vilayətlərə təhkim edilmiş adamlar yerlərə göndərilirdi. Hər yerdə dairə seçki komissiyaları yaradıldı, depuqatlığa namizədlərin adları elan edildi. Lakin Moskvadan göstəriş gəldi ki, Azərbaycan Milli Məclisinə seçkilərin keçirilməsini dayandırsınlar. Seçkilərin dayandırılacağının başlanmış hərəkata ağır zərbə vuracağını nəzərə alaraq M.C.Bağırov təcili əlaqəyə girərək Moskvanı bu fikirdən daşındıra bildi. O,Stalinə yazırdı: "Seçkilərin dayandırılmasınına münasib hesab edirəm, mən onlara razılıq vermişəm, xahiş edirəm parlament seçkilərinin başa çatdırılmasına icazə verin. Mən onlara xəbərdarlıq etmişəm ki, Sizin göstərişinizi alınana qədər Parlamentin işə başlanması təxirə salınacaq".[19]

Seçkilərin başlanmasına qədər Sovet idarələrinin yazışmalarında hələ ki, partizanlar adlandırılan fədailər bir sıra mühüm uğurlar qazanmışdılar. Noyabrın 17-də Nəmin, 23-də Zəncan, 26-da Germi, 27-də Astara və Biləsuvar hökumət qoşun, jandarm və polis qüvvələrindən təmizləndi. Təbriz bütövlükdə Demokrat firqəsinin nəzarəti altında idi. Azərbaycanın -şəhər və kəndlərində olan hökumət qüvvələri demək olar ki, müqavimət göstərmirdilər. Bir çoxları silahı ataraq qaçır, digərləri silahı ilə birlikdə təslim olur, müqavimət göstərənlər isə tərksilah edilirdi. M.C.Bağırov Kreml rəhbərlərinə göndərdiyi məlumatda

yazırdı: Havaların soyuması və yağan küclu qar partizanların fəaliyyətinə təsir göstərmişdir. Onların isti paltara və pula ehtiyacı var. Maddi cəhətdən onları hansı formadasa müdafiə etmək lazımdır. Partizanlar jandarm postlarına xəbər göndərirlər ki, silahı yerə qoyub evlərinə dağılsınlar. Bu təcrübə bəxzi yerlərdə uğur qazanır. Onlar Azərbaycandakı İran ordusunun və Tehrandan göndərilən ordunun hərəkət edə biləcəyi yolları bağlayıblar. Bizim sərhədçilərin məlumatına görə partizan dəstələrinin fəaliyyəti ilə bağlı Ərdəbil şəhərinin şəhridarı şəhəri qoyub Tehran istiqamətinə yollanmışdır. Ərdəbil partizanlar tərəfindən muhasirə edilmişdir. Ərdəbil qarnizonunun zabit heyəti içərisində həyəcan başlanmışdır.[20]

Təbrizdəki İngilis konsulu Uoll General Dərəxşaniyə şikayət edirdi ki, o, Azərbaycandakı vəziyyət haqqında Tehrandakı səfirliyə vaxtında məlumat göndərə bilmir. Məhz bunun nəticəsidir ki, London radiosu İran Azərbaycanında baş verən hadisələr haqqında dəqiq olmayan məlumatlar yayır. İngilis konsulu Dərəxşaniyə bildirdi ki, İran hökuməti silahlanmış ohaliyə qarşı real heç nə edə bilmir. O, generala məsləhət gördu ki, kömək üçün Sovet Konsulluğuna müraciət etsin. Bütun bu hadisələr Sovet zonasında baş verdiyindən, onun fikrincə ruslar qayda yaratmağa cavabdehdirlər. Dərəxşani Uolla bildirdi ki, Təbrizin adlı-sanlı adamları kömək uçün. İngilis Konsulluğuna müraciət etmək istəyir. Uoll buna etiraz etmədi, eyni zamanda kömək edə bilməyəcəyini də bildirdi. Təbrizdəki İraq konsulu isə baş vermiş bütün hadisələrə görə Sovet İtqifaqını yamanlayırdı. O, deyirdi: Bütün dunyanı yenidən bədbəxtliyə duçar etmək üçün ruslar yeni müharibə hazırlayırlar. İraq konsulu Çerçili gunahlandırırdı ki, o, almanlara imkan vermədi ki, Rusiyanı darmadağın etsinlər. İndi ingilislər də və digər dövlətlər də gərək rus təcavüzü haqqında fikirləşsinlər.[2]

Təbrizdəki Amerika konsulu Ebelinq General Dərəxşani ilə söhbətdə bildirmişdi ki, Demokrat firqəsinin qaldırdıqa tələblər İran Konstitusiyasında yoxdur. Əgər Azərbaycan Konstitusiya ilə hesablaşmayıb öz milli hüquqlarına nail olmaq istəyirsə, bunu gərək zor yolu ilə deyil, Tehranla danışıqlar yolu ilə əldə etsin. Ebelinq dedi: Azərbaycandakı vəziyyəti ətraflı öyrəndikdən sonra o, öz fikrini Vaşinqtona bildirəcəkdir. Noyabrın 24-də Tehrandakı Amerika səfirliyi İran diviziyasının rasiyası vasitəsi ilə Ebelinqə teleqram göndərilmişdi ki, Azərbaycandakı hadisələr Amerika ictimaiyyətini dərindən maraqlandırır və təcili olaraq Təbrizdəki vəziyyət barədə səfirliyə məllumat göndərilsin.[22]

Azərbaycanda seçkilər başlanan gün Tehrandakı Amerika hərbi ataşesi mayor Qarver "B-25-U" Amerika təyyarəsi ilə Təbrizə, ataşenin müavini kapitan Qaqarin avtomobillə Qəzvinə gəlmişdi. V.Molotovun göstərişi ilə Tehrandakı Sovet konsulu Kaçalov onlara buraxılış vərəqəsi vermişdi. Təbrizdəki ABŞ konsulu və mayor Qarver həmin gün general-leytenant Qlinski ilə görüşüb ümumi məsələləri müzakirə etdilər. Təbrizdə ABŞ hərbi ataşesi eyni zamanda İran dviziyasının komandanı general Dərəxşani, diviziyanın qərargah rəisi Vərəhram və jandarm rəisi hümayünlə görüşdü. Danışıqlar zamanı onu əsasən üç məsələ maraqandırırdı:

1. Partizanlar silahı haradan alırlar və doğrudanmı onları ruslar silahlandırır;

2. Demokrat partiyası Mərkəzi Komitəsinin partizan hərəkatı ilə nə kimi əlaqəsi var;

3. Doğrudanmı Sovet İttifaqından göndərilmiş və paltarını dəyişmiş 10,000 Sovet vətəndaşı partizanlara qoşulmuşdur. Birinci məsələ ilə bağlı ona bildirildi ki, partizanların ruslar tərəfindən silahlandırılması barədə şayiələr vardır, lakin bunu təsdiq edən sübuq hələ ki, yoxdur. İkinci məsələ ilə bağlı "Azərbaycan" qəzetinin partizanlara rəğbəti olduğu qeyd edildi, lakin Demokrat firqəsi MK-sı ilə əlaqəni

təsdiq edən faktın olmadığı bildirildi. Üçüncü məsələ ilə əlaqədar Dərəxşani bildirdi ki, belə bir məllumat onlarda qeydə alınmayıb. Amerika hərbi ataşesi maraqalanırdı ki, nə üçün Azərbaycan demokratları öz tələblərini Tehranla danışıqlar yolu ilə deyil, silahlı qarşıdurma yolu ilə həll etmək istəyir. Təbrizdəki İran rəsmiləri bu suala cavab verə bilmədilər. Stalinə təcili məlumatında M.C.Bağırov amerikalıların bu məsələlərlə maraqlanmasını onların və ingilislərin iştirakı ilə Tehranın Azərbaycanda muxtariyyət hərəkatına və Sovetlərə qarşı hansısa bir böyük təxribat hazırlanması ilə əlaqələndirirdi. Mayor Qarverdən az sonra ABŞ hərbi ataşesinin köməkçisi kapitan Qaqarin də Qəzvindən Təbrizə gəldi. O, Təbrizdəki erməni kilsəsinin başçısı yepiskop Məlik Tanqiyanla görüşdü, demokratik hərəkat başlandıqdan sonra Azərbaycanda yaranmış vəziyyətlə bağlı ondan ətraflı məlumaq aldı. Qaqarin kəndlilərin haradan silah alması, rusların Türkiyəyə hücuma hazırlaşması və bu istiqamətdə hansı İşlərin aparıldığı ilə maraqlanırdı. O, öyrənmək istəyirdi ki, əgər Qars, Ərdahan, Van, Sarıqamış Sovet Ermənistanına birləşdirilərsə ermənilər ora gedəcəklərmi? Sovet hökumətinin xaricdə yaşayan ermənilərin Sovetlərə köçməsinə icazə verən qərarının elan edilməsi Təbrizdə də böyük hay-küyə səbəb olmuşdu. Ermənilər bir sıra mitinq və yığınçaqlar keçirib Sovet hökumətinə və marşal Stalinə öz minnətdarlığını bildirmişdilər. Kapitan Qaqarindən sonra Təbrizdəki ABŞ konsulluğunun katibi M.Aprik də Məlik Tanqiyanla görüşmüşdü. Tehrandakı Amerika səfirliyinin işçilərinin Təbrizə gəlişi ilə bağlı M.Aprik deyirdi: amerikalılar xüsusi olaraq Azərbaycandakı vəziyyəti öyrənmək üçün gəlirlər. Amerika hökuməti Azərbaycandakı hadisələr haqqında dəqiq, doğru və inandırıcı məlumat qələb edir və bu məsələdə İranlılara, Tehranın hər gün yaydığı şayiələrə etibar etmir. Tehranın hər yerində qışqırırlar ki, guya Azərbaycan demokratları bütün tacir və mülkədarları

həbs edirlər. Bu amerikalıların Təbrizə gəlməsinin əsas səbəbi idi. Yerlərdə yoxlamalar zamanı aydın oldu ki, bütün bunlar şayiədir, yalandır. Yaxın vaxtlarda Tehrandakı Amerika səfirinin Təbrizə səfəri gözlənilir.[23] Ola bilsin ki, noyabrın 27-nə təyin edilmiş Milli Məclis seçkilərinin təxirə salınması barədə Moskvanın göstərişi ABŞ və İngiltərənin bu məsələyə ciddi maraq göstərilməsi ilə bağlı idi.

Tehrandakı ingilis hərbi ataşesi Paybus İran ordusunun Baş qərargahında general Ərfə ilə birlikdə Azərbaycana qarşı tədbirlərin hazırlanmasında fəal iştirak edirdi. İran piyada ordusu Azərbaycana buraxılmadığından hərbi hava qüvvələrinin rəisi general Xosrovani hərəkatı yatırmaq üçün Təbrizə 15 hərbi təyyarə ilə qüvvə atılmasını hazırlamışdı. Əgər təyyarələr Təbrizə düşə bilməsəydilər, onlara yüklənmiş 80 dolu və 100 boş bombanı şəhərə töküb Merivanda yerə enməli idilər.[24] Bu plan barədə İran hərbi hava qüvvələrində xidmət edən tudəçilər Sovet xüsusi xidmət orqanlarına məlumat vermişdi. Hərbi əməliyyatda Bəhmən Niya və daha iki nəfər tudəçi təyyarəçilər iştirak eqməli idi. Məlumat var idi ki, hərbi nazir general Riyazi cəza tədbirlərini həyata keçirmək üçün general Əhmədini Təbrizə göndərmək fikrindədir.

Noyabr ayının sonuncu on günlüyünü Tehran böyük həyəcan içərisində yaşayırdı. Azərbaycandakı hadisələr Məclis üzvülərinin çoxunu bərk qorxutmuşdu. Həmin günlər iclas oldu-olmadı deputatlar məclisdə toplanır, növbəti iclası gözləmədən Azərbaycandakı vəziyyəti və hökumətin tədbirlərini müzakirə edirdilər. Bir sıra deputatlar hökumətin ünvanına bəzi tənqidi fikirlər söyləməklə Azərbaycan məsələsini dinc yolla həll etməyi təklif edirdilər. Noyabrın 18-də doktor Şəfəq, 20-də isə Fərman Fərmayan və Seyid Ziya Əd-Din geniş nitq söyləmişdilər. Doktor Şəfəq öz çıxışında bildirdi ki, Azərbaycan Demokrat Firqəsini təşkil edənlərin bir neçəsini o, şəxsən tanıyır va belə hesab edir ki, onlar vətənpərvərdirlər, ölkənin mənafeyinin əleyhinə çıxış

etməzlər. "Lakin digərlərini mən tanımıram, bilmirəm onlar haradan peyda oldular və nə istəyirlər. Onların indi oxuduqları mahnı ölkənin mənafeyinin əleyhinə bəstələnmişdir".[25] Doktor Şəfəq təsdiq etdi ki, bir sıra məsələlərlə bağlı azərbaycanlılar hökumətdən narazıdır, lakin onun fikrincə Azərbaycanda olan çatışmazlıqlar ölkənin hər yerində vardır. Bu çatışmazlıqlar ölkənin mənafeyinə ziyan vurulmasına gətirib çıxarmamalıdır. O qeyd etdi ki, Azərbaycan məsələsi Sovet - İran münasibətləri ilə sıx surətdə bağlıdır. Doktor Şəfəq deyirdi: "Biz Sovet Rusiyası ilə səmimi münasibətlərdə olmalıyıq, bütün ictimai, iqtisadi, mədəni məsələlərdə tam əməkdaşlıq etməliyik. Budur bir neçə aydır ki, İranda Sovet səfiri yoxdur, bir çox məsələlər həll olunmamış qalmışdır. Ola bilsin ki, Sovet Rusiyasına Baş nazir başda olmaqla nümayəndə heyətinin getməsinə ehtiyac var... Nə üçün biz bu məsələyə ayrı məna verməyə cəhd göstəririk. Axı indi Çexoslovakiyadan Beneş, Fransadan de Qoll və digər ölkələrin nümayəndələri öz problemlərini həll etmək üçün Moskvaya gəlirlər.[26] Doktor Şəfəq San-Fransisko konfransında iştirak etmişdi və yeni dünya düzənində SSRİ-nin rolunun nə qədər yüksəldiyini anlayaraq təklif edirdi ki, Məclisin qapalı iclası çağırılmalı və Sovetlərlə münasibətlər ətraflı şəkildə müzakirə edilməlidir. Onun çıxışının mətni Tehran qəzetlərinin çoxunda dərc edildi.

Noyabrın 20-də Seyid Ziya və Siqtətül İslam Azərbaycandan qovulmuş din xadimi Vaizi başda olmaqla Tehranda olan bir qrup azərbaycanlını təhrik etdilər ki, parlamentin iclası açılanda onun qarşısında toplansınlar. Vaizi və daha bir nəfər gənc azərbaycanlı deputatların qarşısında çıxış edib xarici fitnəkarlara və qiyamçılara qarşı bütün İran xalqının kücünü birləşdirməyə çağırdılar. Çıxışlar o qədər təsirli idi ki, parlament deputatları və ora dəvət olunan jurnalistlər özlərini saxlaya bilməyib ağladılar. Bu səhnəni "Keyhan" qəzeti "Parlamentin davranışına

görə bütün Azərbaycan xalqı göz yaşı tökür" adlı baş məqaləsində təsvir etmişdi.[27]

Noyabrın 20-də Azərbaycandan olan deputat, iri torpaq sahibkarı Fərma Fərmayan Məclisin iclasında Sədr hökumətinin siyasətini və Seyid Ziyanın antidemokratik fəaliyyətini kəskin tənqid edən, habelə Azərbaycanın haqlı tələblərinin bir hissəsini müdafiə edən nitq söylədi. O, qeyd etdi ki, 1941-ci ilin şəhrivərindən başlayaraq bizim hökumətlərin heç biri Azərbaycana yetərincə diqtət və qayğı göstərməyiblər. Sədr hökuməti dövründə mən bir neçə dəfə bu məsələni qaldırdım. Lakin mənim sözümə əhəmiyyət vermədilər. İndiyə qədər də bu siyasət davam etdirilir. Dünəndən Tehranla Təbriz arasında simsiz rabitə qoyulub. Təəssüf ki, indiyə qədər bu yox idi. Seyid Ziya yerdən söz atdı ki, Sovet nümayəndələri icazə vermirdi. F.Förmayan ona qarşı dönərək - "Sizin Sovet nümayəndələrində nə işiniz var? Niyə siz bu işə müdaxilə edirsiniz? Nə üçün böhtan atırsınız? Nə üçün belə şeylər danışırsınız? Siz bütün ölkəni məhv edirsiniz. - Sizin üçün sərfəli deyildir - deyə Seyid Ziyanın yeni replikası Fərmanyanı hövsələdən çıxardı və o, dedi: - Bilmirəm ya mənim üçün sərfəli deyil, ya o adam üçün ki, bir çamadanı var və onunla ora-bura səyahət edib gəzib dolaşır".[28] Sonra o, sözünə davam edərək bildirdi ki, hökumətin aydın və uzaqgörən siyasəti olmalıdır. Ordu ilə xalqı qorxutmaq olmaz, ordunun öz vəzifəsi var. Bütün dünyada ordunun funksiyası polis və jandarmın funksiyasından fərqlənir. Bu əsgərlər bizim övladlarımızdır. Onlara tapşırmaq olmaz ki, xalqı narahat edən məsələləri həll etsin. Söhbət bizim evimizdən gedirsə, biz hamımız birləşməliyik, öz aramızda parçalanmaya yol verməməliyik. F.Fərmayan bununla Tehran qəzetlərinin Azərbaycandan olan deputatlara qarşı başladığı kampaniyanı nəzərdə tuturdu. "Baxtər" qəzeti belə bir məlumat yaymışdı ki, guya Təbrizdən Tehrana gələn bir nəfər həbs edilmişdir və onun cibindən Demokrat firqəsinin İpəkçiana və Fərmanyana məktubu

tapılmışdır. F.Fərmanyanın çıxışlarından sonra özünü təhqir edilmiş hesab edən Seyid Ziya qısa bəyanat verdi. Sonra isə deputatların tələbi ilə baş nazir hakimi çıxış etdi. O, bildirdi: Son günlər bir sıra qrupların ağılsızlığı nəticəsində 3-cü və 4-cü ostanın bəzi məntəqələrində təəssüf doğuran xoşagəlməz hadisələr baş vermişdir. Doğrudan da bu hadisələr bizim əziz vətəndaşlarımızın, xüsusilə azərbaycanlı qardaşlarımızın vətənsevərlik hissləri ilə bir araya sığmır. Hökumət heç kimə icazə verməz ki, ölkənin hər hansı yerində kimsə öz tələbələrini hökumətə və məclisə ultimativ qaydada göndərsin. Bir sıra avantürist şəxslər şər İşlər görməklə ölkənin şərəf və ləyaqətini alçaldırlar. Bütün bu adamlar məsuliyyətə cəlb ediləcək. Hökumət məclisə arxalanaraq ölkədə təhlükəsizliyin bərpası və qayda-qanun yaratmaq üçün zəruri addımları atacaqdır. Azərbaycanlı qardaşlar ölkənin qüdrətini və ləyaqətini uca tutmağı həmişə şərəf biliblər, bunun üçün mallarını və canlarını əsirgəməyiblər. Əlbəttə, ümidvaram ki, indiki vaxtda da onlar öz dost və qardaş əllərini hökumət başçısı kimi mənə - öz dostlarına və qardaşlarına uzadacaqlar.[29]

Hakami hökuməti Azərbaycandakı hadisələri həll etmək üçün daha çox polis, jandarm və ordu qüvvələrinə, bəzi hallarda diplomatik addımlara üstünlük verirdi. Noyabrın 17-dən 23-nə qədər Daxili İşlər Nazirinin müavini Fereyduni, Baş qərargahın rəisi Ərfə və baş polis idarəsinin rəisi Zərrani hər gün birbaşa xətlə Təbrizdəki hökumət nümayəndələrindən tələb edirdilər ki, "qiyamçılar" barədə ciddi ölçü götürülsün, son imkana qədər müqavimət göstərilsin. Təbrizə əli çatmayan hökumət Tehranda Demokrat firqəsinə rəğbət bəsləyən bir neçə nəfəri həbs etdi. Şərəfəbadda (Qəzvin yaxınlığında) qarşısı alınan ordunu Təbrizə buraxmaq üçün İran Xarici İşlər nazirinin müavini Homayun noyabrın 20-də Tehrandakı Sovet nümayəndələri ilə danışıqlar apardı.[30] Moskva, London və Vaşinqtondakı İran səfirlərinə müvafiq təlimatlar göndərildi.

London radiosuna istinadən "Ettelaat" qəzeti noyabrın 20-də İranın Vaşinqtondakı səfiri Hüseyn Əlanın ABŞ-ın Dövlət katibi Ceyms Birnslə görüşdüyünü bildirirdi. Görüş zamanı səfir Azərbaycandakı hadisələri İranda xarici qoşunların Mövcudluğu, Qafqazla sərhədlərin açıq olması və bu sərhədlərə nəzarətini mümkün olmaması ilə izah etmişdi. O, bildirmişdi: biz bu məsələdə müttəfiqlərin ciddi ölçü götürəcəyinə böyük ümid bəsləyirik. Biz ümidvarıq ki, Moskva dairələri bu hadisələrin qurtarması arzusunda olacaq. Biz həmçinin ümid edirik ki, ABŞ Moskvaya öz təsirini göstərəcəkdir. Beynəlxalq öhdəliklərin yerinə yetirilməsi baxımından İran məsələsi məhək daşına çevrilmişdir. Lakin danışıqlar zamanı C.Biris qeyd etmişdi ki, "nə qədər ki, İrandakı hadisələr barədə Tehrandakı Amerika səfirliyindən müvafiq məlumat alınmayıb, o, heç bir qərar qəbul edə bilməz".[31] Azərbaycandakı hadisələr başlandıqdan sonra Moskvadakı İran səfiri Ahi onun xahişi ilə V.Molotov tərəfindən qəbul edilmişdi. Danışıqlar zamanı Molotov Ahini əmin etmişdi ki, Sovet İttifaqı İranın suveren hüquqlarına və müstəqalliyinə hörmətlə yanaşacaqdır.

Noyabr ayının 20-də Londondakı İran səfiri Seyid Həsən Tağızadə Azərbaycandakı hadisələrlə bağlı Britaniya Xarici İşlər naziri Ernest Bevin tərəfindən qəbul edilmişdi. Görüşlə bağlı keçirdiyi mətbuat konfransında Tağızadə dedi: "Biz öz ölkəmizdə öz ordumuzun azad hərəkət etmək imkanına malik deyilik".[32] Noyabrın 21-də Reyter agentliyi məlumat yaydı ki, E.Bevin İngiltərə parlamentinin icma palatasında çıxış edib və Britaniyanın öz qoşunlarını tədricən İrandan çıxaracağını bildirib, Eyni zamanda Bevin Azərbaycandakı hadisələrlə bağlı deputatların suallarına cavab olaraq qeyd etdi ki, muxtariyyət almağa can atan bir siyasi qrup İranın Şimalında fəaliyyətə başlamışdır. Bu qrup İran hökumətinə qarşı silahlı çıxışa əl atmışdır. Lakin bu rayonda Sovet ordusu

olduğundan İran hökuməti bu işi yatırmaqda çətinliklərlə qarşılaşmışdır.[33] Noyabrın 24-də Xarici İşlər nazirinin müavini Homayun, noyabrın 25-də daxili İşlər naziri Fəhimi məclisdə Azərbaycandakı hadisələrlə bağlı çıxış etdi.

Hökumət dairələrində keçmiş baş nazir Mürtəza Bayatın (Səham əs-Səltənə) Azərbaycana vali təxyin olunmasına böyük əhəmiyyət verilirdi. Hətta Sovet idarələrinin etiraz etməməsinə baxmayaraq o, hələ Azərbaycana getməyə tələsmir, hadisələrin durulmasını, hökumətin siyasətinin dəqiqləşməsini, Azərbaycanda "üfüqün aydınlaşmasını" gözləyirdi.[34]

Tehranda Azərbaycan əleyhinə çıxışlar gün-gündən genişlənirdi. Noyabrın 21-də Seyidçilər ruhaniləri toplamışdılar ki, "Azərbaycanda üsyançıların azğınlığı" əleyhinə lənətlər oxusunlar. Lakin baş nazirin işə qarışması ilə bu tədbir keçirilmədi. Yenə həmin gün Seyid Ziya tərəfdarları ticarət palatasındakı mitinqdə iştirak etmək üçün Tehran tacirlərinə dəvətnamə paylamışdılar. Mitinq baş tutdu, fəqət tacirlər seyidçilərə Azərbaycan əleyhinə çıxış etməyə imkan vermədilər. Böyük ticarət şirkətlərindən birinin sahibi Bozork Niya bildirdi ki, tacirlərin siyasi İşlərə qatmaq lazım deyil. Noyabrın 22-də Tehran universitetinin hüquq fakültəsində də buna bənzər mitinq keçirilmişdi. Mitinqdə iştirak edən tələbələr hökumətdən tələb edirdilər ki, qiyamçılara qarşı ciddi ölçülər götürsün. Eyni zamanda onlar qayamçılarla "mübarizədə" könüllü olaraq iştirak etmək barədə öz xidmətlərini təklif edirdilər. Belə çağırışlar demək olar ki, "Ettelaat" və digər rəsmi qəzetlərdə hər gün dərc olunurdu. "İrane Ma" qəzeti hüquq fakültəsindəki mitinqi bir nazir oğlunun tələbələrdə azərbaycanlılara qarşı nifrəti kücləndirmək üçün keçirdiyini qeyd edirdi. Hərbi nazir Riyazi və baş qərargahın rəisi Ərfə Baş nazir Hakimini Tehranda xalqçılara və demokratlara qarşı represiya keçirməyə məcbur edirdilər. Hakimülmülk

tədricən bununla razılaşırdı. Tehranın küçələrində türk dilində danışan şəxslərin sənədlərinin yoxlanılması və saxlanılmasına aid faktlar qeydə alınmışdı. Qəzetlər vasitəsi ilə xaricilərə rəsmən xəbərdarlıq edilmişdi ki, şəxsiyyətlərini təsdiq edən sənədləri özləri ilə gəzdirsinlər.[35]

İranın rəsmi dövlət qəzetlərinin və Seyidçi mətbuatın səhifələrində Azərbaycanla hədələyiçi dildə danışılırdı. "Ettelaat" yazırdı ki, onlar (Demokrat firqəsinin üzvlər - C.H.) demokratik maska altında gizlənirlər, lakin "İranlılar və bütün dünya onların satqın niyyətləri haqqında hələ onda bilirdilər ki, o zaman onlar ayrı ad daşıyırdılar". Sonra qəzet yazırdı: "Əgər Azərbaycan xalqına kömək etmək məqsədilə hökumət lazım bilsə ki, könüllülər toplasın, bütün vətənpərvərlər, bütün cavan adamlar, qadınlar və kişilər əlinə silah alıb azərbaycanlı qardaşlarımıza kömək etmək üçün Azərbaycana gedəcəkdir".[36]

Seyid Ziyanın nəzarəti altında olan "Sədae İran", "Baxtər", "İrane Nou", "Keşvər", "Sərqəzəşt", "Arzu", "Nəsime Sabah", habelə ona yaxın olan "Nedae Ədalət", "Kuşeş", "Setare", "Kəsra", "Mixan" və digər qəzetlər Demokrat firqəsini Azərbaycanı İrandan ayırmaqda ittiham edir, Azərbaycanda başlanmış hərəkatı xalq tərəfindən müdafiə olunmayan bir qrup "xəyanətkarın" hərəkatı adlandırırdılar. Onlar həmçinin Sovet idarələrini İranın daxili İşlərinə müdaxilədə, günahlandırırdılar. Lakin bu qəzetlərin məlumatlarının çoxu şayiələrə əsaslanırdı. Məsələn, "Sərqüzəşt" qəzeti 22 noyabr sayında yazırdı ki, Mianə şəhəri Demokrat firqəsinin "quldurları" tərəfindən ələ keçirildikdən sonra guya noyabrın 19-da şəhər meydanında İranın 14 görkəmli xadimini güllələyiblər.[37]

"Baxtər" qəzeti hökuməti Azərbaycandan alınan məlumatları gizlətməkdə, SSRİ-yə loyal münasibət bəsləməkdə günahlandırırdı. 21 noyabr sayında qəzet briqada generalı Dərəxşaninin Təbrizdən vurduğu

teleqramı dərc etmişdi. O, yazırdı: əgər bu gün axşam əlavə kömək gəlməsə Azərbaycanda qayda yaratmaqla bağlı mən bütün öhdəlikləri öz üzərimdən götürəcəyəm.[38] "İrane nou" qəzeti öz səhifələrində SSRİ-ni çar rusiyası və faşist Almaniyası ilə müqayisə edirdi. Azərbaycandakı hadisələr başlandıqdan sonra qəzetin birinci səhifəsi qara çərçivədə çıxırdı. Bununla başı "İrane Nou" bildirmişdi: "nə qədər ki, Azərbaycanda bizim bacı və qardaşlarımızın qanı axır "İrane Nou" matəm içində çıxacaqdır".[39] Hələ bu hadisələr başlanmamışdan qabaq "Nəsime Sabah" qəzeti belə bir məlumat yaymışdı ki, Pişəvəri gizli şəkildə Bakıya getmişdir və 15 nəfər öz əleyhdarını güllələmək barədə oradan direktiv almışdır. Eyni zamanda "Nəsime Sabah" Azərbaycandakı hadisələrlə bağlı İranın Moskvadakı səfiri Ahini ittiham edirdi. Qəzet yazırdı: „ son aylar Ahi öz bacarıqsızlığını tamamilə təsdiq etdi. Ona görə o, təcili dəyişdirilməlidir. Eyni zamanda qəzet Moskvaya İran nümayəndə heylətinin göndərilməsini, aydın olmayan məsələlərin tezliklə həll edilməsini tələb edirdi. Noyabrın 23-də "Sitare" və digər qəzetlər birinci səhifəsində Tehran konfransının İran haqqında Bəyannaməsini dərc etdilər. Bu Tehrandakı Sovet nümayəndələrinə bəzi məsələləri xatırlatmaq məqsədi ilə edilmişdi. Qəzetlər İrandakı Sovet nümayəndələrini Stalinin və Molotovun sözlərinə hörmətlə yanaşmamaqda, Birləşmiş Millətləriй nizamnaməsinə məhəl qoymamaqda günahlandırırdılar. Onların fikrincə səfir Smirnovun dövründə Sovet əsgər və zabitləri özlərini müqayisəyə gəlməz dərəcədə yaxşı aparırdılar, iəinki indi. Tehran qəzetləri London radiosunun belə bir məlumatını geniş yayırdılar ki, "rus yük maşınları" Azərbaycanda əhaliyə Tüfəng və pulyemotlar paylayırlar.[41] London radiosunda və İran mətbuatında SSRİ-nin ünvanına deyilən fikirləri təkzib etməkdən ötrü "İzvestiya" qəzeti 20 noyabr 1945-ci il tarixli sayında yazı vermişdi. Orada deyilirdi: Məlum olduğu kimi Şimali İranın əhalisinin

əksəriyyətini təşkil edən azərbaycanlılar son zamanlara kimi doğma dildə məktəbdən, kitab çapından və mətbuatdan məhrum idilər. Bu tələblərlə çıxış edən Demokrat partiyası böyük uğurlar qazanır. Əhalinin bütün təbəqələri bu işdə ADP-ni müdafiə edir. London radiosu Azərbaycanda "separatçı üsyan" və "rus yük maşınlarının" Tüfəng və pulemyot paylaması haqqında böhtanlar yaymaqla diqtəti ingilislərin Fələstin, Misir və İndoneziyadakı İşlərindən yayındırır. Qəzet yazırdı ki, London radiosu Azərbaycanda başlanmış hərəkatın hüquqi, demokratik xarakterini təhrif edir. "İzvestiya" və "Pravda" noyabrın sonuncu on günlüyündəki hər sayında Şimali İranda azərbaycanlılara qarşı represiyalar haqda məlumatlar dərc edirdilər.

Tehranda çıxan "Necate İran", "Azadeqan", "Dad", "İrane Ma", "Keyhan", "Dariya", "Eqdam" və digərləri Azərbaycanda baş verən hadisələrə görə İran hökumətini və dövlətini günahlandırırdı. "Necate İran" yazırdı: "Bir çoxları Azərbaycan Demokrat firqəsinin üzvlərini "quldur" adlandırmaq və söymək üçün əlverişli məqam tapmışdır. Portfelsiz nazir hedayət məclisdə bildirmişdir ki, bütün bu hadisələr ağılsızlıqdan irəli gəlmişdir. Lakin dəqiqləşdirməmişdir ki, Sədrin və onun tərəfdarlarının, yoxsa indiki nazirlərin ağılsızlığından irəli gəlmişdir. Biz belə fikirləşirik ki, xalqı top və Tüfəngin köməyi ilə idarə etmək olar".[42] Qəzet Baş nazir hakimini mühakimə edirdi ki, o, Sovet - İran münasibətlərinin yaxşılaşdırılması istiqamətində bir addım da atmır. "Necate İran" həkimülmülkə müraciət edərək yazırdı: "Sizə məlumdur hələ Sədr dövründə Moskvadakı İran səfiri İran hökumətinə xəbər verirdi ki, əgər hökumət əvvəlki siyasətini davam etdirərsə, onun bundan sonra Moskvada qalması artıqdır".[43] Noyabr ayının 20-də Tehran Universitetinin professoru Məlikmüşüəra Bahar "İrane Ma" qəzetində geniş məqalə ilə çıxış etdi. O, Həkimilmülkə məsləhət görürdü ki, ölkəni demokratikləşdirmək üçün bir sıra təxirəsalınmaz

tədbirlər görsün, o cümlədən hərbi vəziyyəti ləğv etsin, qəzetlər üzərindən qadağanı götürsün, siyasi partiyalar üçün klublar açsın, Moskvaya diplomatik missiya göndərsin, dövlət aparatında bir sıra islahatlar keçirsin. Azərbaycan məsələsi ilə bağlı Bahar xalqın zor gücünə yatırılmasını arzuolunmaz iş hesab edir, məsələnin dinc yolla həll edilməsini məsləhət bilirdi.[44] "Keyhan" qəzeti həkimülmülkə xəbərdarlıq edirdi ki, Xiyabani hərəkatı dövründə irticaçılar necə xalq arasında nüfuzlu olan Mostofi-ol-Məmalekdən və Müşiri Dövlədən istifadə etdilər, indi də ondan istifadə etmək istəyirdilər. Qəzet yazırdı: "Azərbaycanda Xiyabani, Gilanda Kiçik xan hərəkatını bu hörmətli adamların əli ilə yatırtdılar. Elə ki, hərəkat yatırıldı, onlar dəyişdirirdilər. İrticaçılar indi həkimülkülklə də belə hərəkət etmək istəyirdilər.[45]

Məclisdə və mətbuatda həkimülmülk hökumətindən narazılıq küclənmişdi, Siyasi dairələr yeni Baş nazir axtarışında idilər. Tez-tez Əhməd Qəvamın, Əli Mansurun, general Əmir Əhmədinin adları çəkşqardi. M.Müsəddiq Məclisdə elan etmişdi ki, Hakimi və onun hökuməti, ümumlikdə hakim dairələr ölkəniй daxili çətinliklərini həll etmək iqtidarında deyillər. Onlar yalnız ona ümid bəsləyirlər ki, Bevin və Birnsin Sovetlərə təzyiqi ilə İranda demokratik hərəkatı boğa biləcəklər. Müsəddiq təklif edirdi ki, seçkilərin vaxtının uzadılması haqqında qanun parlament tərəfindən ləğv edilməli və güclü tərkibdə hökumət kabinəsi yaradılmalıdır. Bir qrup deputat isə neft konsessiyasının verilməsini qadağan edən qanunun ləğv edilməsini təklif edirdi. Noyabr ayının 27-də parlamentin iclası olmadı. Hökumət deputatlara yeni bir şey deyə bilməyəcəyini bildirib bir sıra tədbirləri həyata keçirmək üçün yenidən vaxt istəmişdi. İclas olmadıkından deputat Farhudi parlamentin Rəyasət Heyəti vasitəsilə hökumətə sorğu vermişdi ki, nəyə əsasən Sovet Komandanlığı İran qoşunlarını şimala buraxmır. Eyni zamanda sorğuda xatırladılırdı ki, Sovet

Komandanlığının maneçilikləri üçtərəfli müqavilənin dördünçü bəndi ilə ziddiyyət təşkil edir.

Noyabrın 27-də Baş nazir Həkimülmülk Tehrandakı Sovet səfirini əvəz edən Əhəd Yaqubovu görüşə dəvət etdi. Sovet səlahiyyətli nümayəndəsilə danışıqlarda o, təkid etdi ki, İran qoşunları şimala buraxılsın, əvəzində vəd verdi ki, özünün siyasətini bütövlükdə Sovet İttifaqanın mənafeyinə tabe edəcəkdir.[46] Lakin rədd cavabı aldığından Həkimülmülk bildirdi ki, o, yaxın günlərdə istefaya getmək məcburiyyətindədir.

Azərbaycanda Milli Məclisə keçirilən seçkilərin İkinci günü yeni vali Mürtəza Bayat noyabrın 28-də beş nəfər məmurun müşayiəti ilə "Duqlas" təyyarəsində Təbrizə gəldi. Azərbaycan SSR Dövlət təhlükəsizliyi komissarı S.Yemelyanov M.C.Bağırova yazırdı: "Bu bsş nəfər içərisində bizim bir nəfər inanılmış adamımız vardır. Noyabrın 29-da görüş keçirilməsi razılaşdırılıb".[47]

A.Atakişiyev Təbrizdən məlumat verirdi ki, noyabrın 30-da M.Bayat bizim inanılmış etibarlı adamımızla təkbətək görüşdü. O, Demokrat Partiyasının rəhbərləri ilə danışıqlara girmək, onların son məqsədlərini öyrənmək və onlarla mümkün kompromisslər axtarmaq fikrində olduğunu açıqladı. Danışıqların nəticəsini Bayat şəxsən şaha və hökumətə məruzə edəcəyini bildirdi. O, SSRİ ilə münasibətlərin pozulmasının günahkarı olan Said və Sədr hökumətlərinin fəaliyyətlərini lənətlədi, Baş nazir həkimülmülkü SSRİ-nin əleyhdarları olan Hajir və Fəhimini hökumətə daxil etdiyinə görə günahlandırdı. Bayat şahın, nüfuzlu dairələrin və özünün İranda yaranmış gərgin vəziyyətindən çıxış yolunu SSRİ ilə münasibətlərin köklü şəkildə dəyişdirilməsində gördüklərini bildirdi.[48]

Dekabrın 1-də M.Bayat Təbrizdəki SSRİ konsulluğuna gəldi və Baş konsul Krasnı ilə görüşdü. O, bildirdi ki, Demokrat firqəsinin rəhbərləri ilə birbaşa danışıqlara girmək istəyir və firqənin qaldırdığı

məsələləri müstəqil, yaxud İran hökuməti ilə şəxsi danışıqlara girmək yolu ilə həll etmək fikrindədir. Bayat qeyd etdi ki, hökumət demokratlara böyük küzəştlərə getməyə hazırdır. Baş konsulun yanına gəlməzdən əvvəl M.Bayat Pişəvəri ilə görüşmok istəmişdi. Yeni Təbriz şəhridarı təyin sdilən vo Bayatla birlikdə Azərbaycana gələn Rövşəiй Pişəvəriyə zənk edib Səham-əs-Səltənənin onunla görüşmək arzusunu çatdırmış və Ali qapıya dəvət etmişdi. Lakin Pişəvəri partiya liderinin valinin çağırışına getməsini etik baxımdan düzgün hesab etməmiş, görüşün də əleyhinə olmamışdı. İndi M.Bayat SSRİ Baş konsulluğundan xahiş edirdi ki, bu görüşün baş tutmasına öz köməkliyini göstərsin. Krasnı diplomatik qaydada bu xahişi rədd etdi. Söhbətin sonunda Səham-əs-Səltənə bildirdi ki, Azərbaycanda qayda yaratmaq və İran-Sovet münasibətlərini yaxşılaşdırmaq üçün hökumət ona geniş səlahiyyətlər vermişdir.[49]

Dekabrın 2-də Təbrizdəki Maliyyə İdarəsinin rəisi, uzun müddət valini əvəz etmiş Dövlət Şahi Demokrat firqəsinin MK-na gəldi və M.Bayatın adından soruşdu ki, Pişəvəri harada görüşmək istəyir və valinin qarşısında hansı məsələləri qaldırmaq fikrindədir. Pişəvəri təklif etdi ki, heç bir partiyaya daxil olmayan, əhali arasında böyük nüfuzu olan Təbriz əsilzadəsi Sirac Əmir Zəkaudövlənin evində görüşsünlər. Dövlət Şahi getdikdən az sonra M.Bayat Rafiй vasitəsi ilə çatdırdı ki, qeyd edilən yerdə Pişəvəri ilə görüşə razıdır.

Dekabrın 3-də bir tərəfdən Pişəvəri və Rafiй, digər tərəfdən M.Bayat və Dövlət Şahi olmaqla Sirac Əmir Zəkaüdövlənin evində danışıqlar başlandı. M.C.Bağırov Stalin, Molotov, Beriya və Malenkova yazırdı: Bir sıra maraqlı məqamlarını nəzərə alaraq Bayatın Pişəvəri ilə danışıqları barədə Təbrizdən alınmış teleqraf arayışı xüsusi dəyişiklik etmədən sizə göndərirəm: Danışıqlar 2 saata yaxın davam etdi. Qarşılıqlı salamlaşma və ümumi mövzuda söhbətdən sonra Bayat Pişəvəriyə xahişlə müraciət etdi ki, Azərbaycan demokratlarının İran hökumətinə qələbləri haqqında

danışsın. Pişəvəri Azərbaycan xalqının təsis qurultayının qərarlarında və Bəyannamədə əks olunmuş, mətbuatda dərc olunmuş başlıca tələblərini Bayata geniş izah etdi. Bayat məlumat verdi ki, o, bütün məsələləri həll etməyə səlahiyyətlidir, əgər hər hansı çətinliklər meydana çıxsa onların qəti həllinin müzakirəsini Tehrana keçirmək olar. Pişəvəri Azərbaycanın muxtariyyəti ilə bağlı xalqın siyasi, mədəni və ittisadi tələblərini irəli sürdükdən sonra Bayat qeyd etdi ki, o, Demokrat firqəsinin və xalqın tələbləri ilə prinsip etibarilə razıdır, lakin istəyir ki, demokratlar bu məsələlərin həlli üçün daha dinc yol tutsunlar və ziddiyyəti dərinləşdirməsinlər. Sonra Bayat bildirdi ki, əncümənlərin yaradılması və türk dili məsələlərinin həll edilməsi ilə bağlı heç bir çətinlik yoxdur. Bu məsələləri o, özü asanlıqla həll edə bilər. Lakin muxtariyyət məsələsi ona axıra qədər aydın deyil və Konstitusiyaya da uyğun gəlmir. Pişəvəri bildirdi ki, Azərbaycan xalqı muxtariyyət haqqında tələblər üzərində möhkəm dayanacaqdır və heç bir güzəştə getməyəcəkdir. Əgər hökumət indiki kimi cəhd göstərsə ki, küc tətbiq etsin, xalq son nəfəsinə qədər öz haqqını müdafiə edəcəkdir. Pişəvəri sözbəsöz bəyan etdi: "Biz istəyirik ki, muxtariyyət məsələsi dinc yolla həll edilsin, əgər siz bunun əksini düşünürsüzsə, sizin yalnız bir yolunuz qalır ki, bütün Azərbaycan xalqını qırasınız, mən sizin ayrı çıxış yolunuzu görmürəm". Bununla bağlı Pişəvəri Təbrizdə dekabrın 2-dən 3-nə geçən geçə yenicə baş vermiş hadisəni Bayata çatdırdı, belə ki, İran diviziyasının əsgərləri Məhərrəmlik təziyəsi ilə əlaqədar məscidə tərəf gedən dinc vətəndaşların dini yürüşünə pulemyotdan atəş açıblar.

Bayat Pişəvərini inandırmağa çalışdı ki, belə əmrlər mərkəzdən gəlmir və büqün vasitələrlə söhbətə dostluq xarakteri verməyə çalışdı. Danışıq prosesində Bayat və Dövlət Şahı muxtariyyət hərəkatının mümkün nəticələri, yəni Azərbaycanın SSRİ-yə birləşdirilməsi

ilə bağlı zarafat formasında söz atdılar. Pişəvəri muvafiq formada bu atmacanı təkzib etdi".[50]

Təbrizdəki Sovet nümayəndələri belə hesab edirdilər ki, Bayat "dinc" və "dostluq" nəvazişi ilə demokratik hərəkatın liderlərini aldatmaq və hərəkatı düşgünləşdirmək, heç olmasa azərbaycanlıların qaldırdıqları məsələlərin həllini yubatmaqla vaxt udmaq istəyirdi. O, Pişəvəri ilə vidalaşanda İkinci dəfə görüşmək, rəsmi danışıqlar aparmaq arzusunda olduğunu bildirmişdi. Sovet nümayəndələri Pişəvəriyə məsləhət gördülər ki, İkinci dəfə də görüşsün, lakin Demokrat firqəsinin və Xalq Konqresinin sənədlərində qaldırılan tələblər üzərində möhkəm dayansın.

Təbrizdə seçkilər dekabrın 3-də, digər yerlərdə isə bir qədər gec qurtardı. M.C.Pişəvəri 23500, M.Biriya 23333 səs alaraq Qiyami, Padəqan, doktor Cavid, Rafiй, Şəbüstəri, İlhami, Nikuçu, İpəkçian, Maşinçi, Əzimi böyük səs çoxluğu ilə Təbrizdən Azərbaycan Milli Məclisinə seçildilər. Azərbaycan Milli Məclisinə keçirilən seçkilər üçün ayrılan vaxt 1943-cü ildə sonuncu İran Məclisinə keçrilən seçkilər üçün ayrıpan vaxtdan dörd dəfə az olsa da, səsvermədə iştirak edənlərin sayı İran Məclisi ilə müqayisədə 2,5 dəfə artıq idi. İlk dəfə olaraq Güney Azərbaycanda qadınlar seçki məntəqələrinə gəlmişdilər. Yalnız Təbriz şəhərində 3172 qadın səsvermədə iştirak etmişdi.[51] Vilayətlərdə də seçkilər əhalinin fəallığı ilə müşayiət edilirdi. Ərdəbildə Həsən Cövdət 15.825, foxri namizəd Pişəvəri 14496, Məmməd Cəlili 13375, hacı Tağı Vahabzadə 12660, Məcidxan Xosrovi 12597 səs almışdı. Astaradan Demokrat firqəsinin sədri Zamani, Nəmindən müəllim Qüdsi, Biləsuvardan torpaq sahibkarı Nüsrət bəy Şahin, Msşkivdən doktor Rəfizadə, Kermidən Nünəgərani Azərbaycan Milli Məclisinə vəkil seçilmişdilər.[52] Azərbaycanın bütün şəhər və kəndləri Milli Məclisə öz nümayəndəsini göndərmişdi, ümumilikdə nəzərdə tutulan 100 nəfərdən 95 nəfər millət vəkili intixab edilmişdi. İran Məclisinə

seçkilərlə müqayisədə səsvermə xeyli demokratik olmuşdu. Demokrat firqəsinin sədri M.C.Pişəvəri seçkilərlə bağlı firqəçilərə müraciət edərək demişdi: "Milli parlament bizim vicdanımızdır, biz imkan verməzik ki, onu ləkələsinlər. Qoy Demokrat firqəsinin üzvü olmayan seçilsin, bunun əhəmiyyəti yoxdur, təki o, doğru yolla, demokratik əsaslarla seçilsin. Gec bir halda xalqın əlini bağlamaq olmaz. Əmin olun ki, sizin yolunuz doğru, məqsədiniz müqəddəsdir. Qoy xalq inansın ki, Siz vicdanla ona qulluq edirsiniz, Siz onun əsl xidmətçisisiniz".[53]

Azərbaycan Milli Məclisinin ilk sessiyasının açılmasına Moskvadan razılıq almaq lazım idi. Bu məqsədlə M.C.Bağırov dekabr ayının 2-də sessiyanın Təbrizdən təklif edilmiş kundəliyini Kreml dördlüyünə (Stalin, Molotov, Beriya, Malenkov) göndərdi. Bakı üçlüyü ilə Demokrat firqəsinin MK-sı vo Milli Key"ət Azərbaycan Milli Məclisinin birinci sessiyasının açılmasını dekabr ayının 10-na müəyyən etmişdi. Sessiyada aşağıdakı məsələlər müzakirə edilməli idi.

1. Sədrin və sədr müavinlərinin seçilməsi;
2. Hökumətin tərkibinin təsdiq edilməsi;
3. Məclisin yanında daimi komissiyaların təşkili;
4. Hökumətin proqramınıi müzakirəsi və təsdiqi.

Milli Heyət və ADP MK hökumətin təşkilini Demokrat firqəsi MK-nın sədri Mir Cəfər Pişəvəriyə tapşırmaq fikrində idi. Azərbaycan Milli hökumətinin on nazirdən ibarət olması nəzərdə tutulurdu. Hökumət təşkil və təsdiq edildikdən sonra ostandarlıq sistemi müvafit nazirliklərlə əvəz edilməli idi. Demokrat firqəsi MK-sı və Milli Heyət bu fikirdəidi ki, əgər Azərbaycana yeni İran ordusu göndərilməzsə, hazırda orada olan ordu, polis və jandarm qüvvələri ilə onlar özləri bacara bilərdilər. Nəhayət, Moskvadan cavab gəldi. Orada göstərilirdi: "Bakıya, Bağırov yoldaşa...

Sizin 2 dekabr, 339 saylı telefonoqramınıza cavab olaraq bildirirəm, Milli Heyətin və Demokrat Partiyası Mərkəzi Komitəsinin təklifləri ilə razılaşmaq olar. Molotov, 5.XII.45. saat 02.55".[54]

Lakin Azərbaycan Milli Məclisinin ilk sessiyasını dekabr ayının 10-da, yəni Azərin 19-da açmaq mümkün olmadı. Böyük tarixi hadisəyə, 21 Azərə hələ iki gün qalırdı...

## The Southern Azerbaijan: between Tehran - Baku - Moscow (1939-1945). Summary

The Soviet Union is no longer on the political stage. Its negative role in the fortunes of nations will be a theme for the research for a long time. As the USSR was the secluded society, now many obscure aspects of its policy are under elucidation. From this point of view the addressed theme is characteristic. What happened in Southern Azerbaijan in 1940-1946? Why did the north of Iran turn into a arena of the Soviet - American -English intergovernmental contradictions? What was the development trajectory of events? On which level is the study of the problem? These and other questions have already waited for their answers for a long time.

During the Soviet period the events were presented in very simple and easy way. In order to secure the USSR and "support" the inhabitants Of Southern Azerbaijan the Soviet troops marched into Southern Azerbaijan in 1941 and went out in 1946. And that was all. This problem, isolated from the world history was taken under the controll of the Soviet ideological monopoly. The solution of the Western Ukraine and Western Byelorussia problems by force strengthened the Soviet expansion tendencies in early period of World War II and it started showing an interest towards Southern Azerbaijan. As long as the late thirties, the situation in Iran and Southern Azerbaijan was attentively studied by the Soviet special service agencies. Soviet Azerbaijan, which was a part of USSR, showed great interest to this question. In 1941, two weeks after the Soviet troops had marched into Iran, about a thousand political officials of Soviet Azerbaijan party, economy, state security and interior affairs agencies, which were mobilized long ago, were sent to Southern Azerbaijan with special instructions. What have the political officials, sent from the Azerbaijan been doing in the North of

Iran? What have they done for the course of the sovetization of the area? That problem has not been explored enough, yet.

The Soviet Union was using Azerbaijan and Kurd problems for the expansionist intentions in the North of Iran. Sometimes these two problems were put against each other and used as the means of influence over Iran. Research of these sides of the problem can expose the real roots of the contradictions between the Great Powers over Iran.

Two months after the victory over the Fascist Germany, the Central Committee of the Communist Party of the Soviet Union passed a secret decree on "supporting the separatism in Southern Azerbaijan". This document and the ways of its implementation remains as a mystery for the world even today.

Azerbaijan Democratic Party, which had a pro-communist orientation was established for the realization of the expansionist intentions of the USSR. The new outlook to the events makes it necessary to investigate some moments of the covert and overt activities of this party.

By the end of the World War II the Soviet Union monopolized the ideals of freedom and national processes and that factor formulated the negative attitude of the Western governments towards the Azerbaijan problem. Events in Southern Azerbaijan were perceived by Great Britain and the USA more as a matter of territorial and ideological expansion of the Soviet Union than national liberation movement. Studying the national movement of Southern Azerbaijan in the Soviet Union casted a shadow of communism on it.

It is a fact that the annual activity of Azerbaijan National Government was programmed in Moscow. This problem was under the direct supervision of Stalin. Azerbaijan problem was the central question of Soviet-Iran relations.

A power struggle over Azerbaijan was part of the global fight for fuel and energy sources. The West, having yielded in Eastern Europe, ousted the Soviet Union from the Middle East. Southern Azerbaijan National Government was toppled.

The subject of "The Southern Azerbaijan: Between Tehran-Baku-Moscow (1939-1945)" has not been an object of a research up to the present time. But this problem was covered in some works in Azerbaijan, the former Soviet Union, Iran and the Western countries. First studies in this direction were written in the middle of the forties and the fifties.

In 1948 M.Ibrahimov's book "About democratic movement in Southern Azerbaijan in 1945-1946" and in 1959 H.Hasanov's "Movement of Iranian Azerbaijan workers for liberty and independence of country" were published. M.Ibrahimov and H.Hasanov were the leaders of political officials, sent to Iran in 1944 with special instructions. First scientific attitude to the problem was shown in A.Guliyev's article "From the history of national liberation and democratic movement in Southern Azerbaijan (1941-1946). In the sixties and seventies some thesises were defended in Baku and Moscow. For example in 1950 such researches as K.Mammadov's thesis "Establishment of democratic government in Southern Azerbaijan (1945-1946)", in 1964 F.Dastgushada's "Economic arrangements of the national government in Southern Azerbaijan (1945-1946), in 1967 A.Davalli-Mammad's "Organization and activities of the national government in Southern Azerbaijan (1945-1946)", in 1971 S.Mirzazade's "National Council of Iranian Azerbaijan and it's legislative enactment (1945-1946)", in 1975 M.Abdullayev's "The role of the democratic press in the national liberation movement of Iranian Azerbaijan (1941-1946) were conducted.

The characterising feature of all these works conceal the expansionist policy of the Soviet Union in Southern Azerbaijan. In 1986 monographia of M.M.Cheshmazer, who was the participant of those events, called "Establishments and activities of Azerbaijan Democratic Party (Southern Azerbaijan, 1945-1946)",and in 1991 his article "The role of C.J.Pishavary in the establishment of Azerbaijan National Government and Azerbaijan Democratic Party" in the scientific almanac

"Problems of Southern Azerbaijan history" were published. Mistakes, make in previous works, also appear to M.M.Cheshmazers works. Authors, who investigated this problem either in Moscow or in Baku were not acquainted with secret archive documents about the USSR's policy in Southern Azerbaijan. On the other hand they had studied the theme in the limits of 1945-1946. However, from the beginning of World War II, Southern Azerbaijan had been included in the expansionist plans of the Soviet Union. Russian historians M.Ivanov, A.Bashkirov, E.Orlov, M.Popov, L.Rozdeyeva and Iranian historians A.Dehgan, M.Mujtahidi, S.Javidi had studied this problem according to the policy of their states from position of the Soviet hegemony and Paniranizm.

This problem was also studied by western researchers. The works, published in the West may be divided into two groups:

1. Researchs of western scientific centers
2. Studies, published by emigrants from Iran and other countries

The publication of the book of David Nissman "The Soviet Union and Iranian Azerbaijan: The usage of Nationalism for political penetration" in 1987 in the USA was an important event. For the first time in this work, some questions of the Soviet policy in Southern Azerbaijan were clarified. However, D.Nissman could not give all political and economical purposes of the Soviet Union in Southern Azerbaijan as he had not been acquainted with the USSR's archives documents about this problem. In 1995 his article "Two Azerbaijans: the common past and the common future" was published in Washington in the magazine "Caspian Crossroads". Sixth chapter of the famous American scientist T.Swietochowski's book, called "Russia and Azerbaijan. A Borderland in transition" which was published in 1995 in New York, was named "Soviet Occupation and the Autonomy of Iranian Azerbaijan". In this chapter the author studed some moments of the policy of the Soviet Union in southern Azerbaijan. There were also published Luise Estrange-Faweet's book "Iran and cold war : The Azerbaijan crisis of

1946" in 1992 in Cambridge and Turaj Atabakis book "Azerbaijan: Ethciety and Autonomy in twentieth century Iran" in 1993 in London.

Y.Bamberg;s work "The history of the British petroleum Company. The Anglo-Iranian years, 1928-1954", published in 1996 in Cambridge, touched on the Anglo-Russian cooperation and contradictions in 1939-1946 in Iran. Western authors prefer to study the events happened in Southern Azerbaijan only in 1945-1946. However, the expansion policy of the USSR in Southern Azerbaijan after incursion of Soviet troops into Iran, hadn't been investigated in succession. And this is the main purpose of our research.

## Qaynaqlar

### I. Giriş

1. Mir Cəfər Pişəvəri. Seçilmiş əsərləri, Bakı, 1984, s.251

2. Pişəvəri S.C..Şəhrivərin on ikisi. 1324-1325. Təbriz, 1325; Yenə onun. Seçilmiş əsərləri (yersiz). 1965; Yenə onun. Seçilmiş əsərləri. Bakı, 1984

3. Azərbaycan Demokrat firqəsilin müraciətnaməsi. Təbriz, 1324; Azərbaycan Məclisi Müəssisanının qərarları: "Azərbaycan", 1945, 26 noyabr; Qızıl səhifələr. Təbriz, 1325; Azərbaycan Demokrat firqəsinin şanlı ildönümü:"Azərbaycan", 1946, № 9; və s.

4. К.Гурвич. К Событиям в Иране: Социалистическая законность, 1941, № 3-4; И.Шемякин. Крушение фашистских планов в Иране. Пропогандист Красной Армии, 1941, № 9; Г.Петров. Идеологическая обработка населения и солдат Ирана. Тбилиси, 1941; В.Масленников. Иран после заключения союзного договора с СССР и Великобританией: Мировое хозяйство и мировая политика, 1942, № 7. Военно-географическое описание Иранского Азербайджана. М; 1940; Южный (Иранский) Азербайджан. Краткий историко-этнографический и экономический очерк. Тбилиси, 1942; Офицерский корпус и генералитет Иранской армии. Тбилиси, 1944; В.Минаев. О подрывной работе немецко-фашистских мерзавцев. Баку, 1942; Иранский Меджлис 14-го созыва. Тбилиси, 1945; М.Султанов. Политические партии и группировки в северном Иране. Б; 1943

5. М.Ибрагимов. О демократическом движении в Южном Азербайджане в 1945-1946 гг. Баку, 1948; Правда об Иранском Азербайджане. Баку, 1949; М.Поляновский. Иранский Азербайджан:

"Красноормеец" 1946, № 13" М.Сергеев. Борьба демократии против реакции в Иране: "Большевик", 1946, № 11-12; Ə.Quliyev. Cənubi Azərbaycanda milli azadlıq və demokratik hərəkat tarixindən (1941-1946-cı illər). Tarix və fəlsəfə institutunun əsərləri. İ buraxılış, Bakı, 1951; K.Mamedov. Создание южно-азербайджанского народно-демократического государства (1945-1946 гг.) Автореф, Канд. дис. М; 1950; М.Алескеров. Англо-американское вмешательство в дела Ирана - грубое нарушение международного права. Автореф. Канд. юрид. наук. М; 1953; Г.Кендди-Херисчи. Развитие южно-азербайджанской литературы в 1941-1946 гг. Баку, 1956; А.Шамиде. Рабочее и профсоюзное движение в Иране под руководством Народной партии Ирана (1941-1946). Автореф. Канд. ист. наук. Баку, 1958. А.Лаврентиев. Кризис колониальной политики английского империализма в Иране (941-1952). Автореф. Канд. ист. наук. М; 1954; З.Абдуллаев. Крах планов гитлеровской Германии превращения территории Ирана в плацдарм борьбы против Советского Союза. Резюме. ИАН Аз.ССР, 1955, № 5; А.Аминзаде. Борьба народной партии Ирана и Азербайджанской Демократической партии За национальную независимость на современном этапе. Автореф. канд. ист. наук. Баку, 957; Ш.Мусави. Тактика народной партии Ирана в демократическом антиимпериалистическом движении трудящихся Ирана в 1941-1949 гг. Автореф. Канд. ист. наук. Баку, 1960; M.Çeşmazər. Azərbaycan Demokrat firqəsi azərbaycan xalqının silahlı mübarizəsinin təşkilatçısı olmuşdur: “Azərbaycan”, 1955, 7 dekabr; Ə.İ.Şəmidə. İranda fəhlə və həmkarlar hərəkatı. 1941-1946. Bakı, 1961.

6. F.Dəstküşadə. İran Azərbaycanında Milli hökumətin iqtisadi tədbirləri (1945-1946-cı illər). Namizədlik diss. avtoref. Bakı, 1964; İ.Tariqpeyma. Doktor Tağı Eraninin ictimai-siyasi və dövlət-huquqi görüşləri. Avtoreferat Bakı, 1963; İ.İbrahimi. İran Azərbaycanı xalqının milli azadlıq hərəkatında qadınların iştirakı. Avtoreferat, Bakı, 1965; Ə.Dəvəlli - Məmməd. Cənubi Azərbaycanda Milli hökumətin təşkili və fəaliyyəti. (1945-1946). Avtoreferat, Bakı, 1967; S.Mirzəzadə. İran Azərbaycanının Milli Məclisi və onun qanunvericilik fəaliyyəti (1945-1946). Avtoreferat, Bakı, 1971; M.Abdullayev (Vilayi). İran Azərbaycanında Milli azadlıq hərəkatında demokratik mətbuatın rolu. Avtoreferat, Bakı, 1975.

7. M.M.Çeşmazər. Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti (Cənubi Azərbaycan, 1945-1946-cı illər). Bakı, 1986; Yene onun S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan Milli hökumətinin yaranması uğrunda mübarizədə rolu haqqında - Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1991.

8. M.Иванов. Новейшая история Ирана. М; 1952; Л.Позднеева. Англо-американская отношения в годы второй мировой войны. 1941-1945 гг. М; м.Попов. Американский империализм в Иране в годы второй мировой войны. М; 1956; В.бережков. страницы дипломатической истории. М; 1987; və d.

9. Bax: Ş.Ə.Tağıyeva. 1920-ci il Təbriz üsyanı. Bakı, 1990; yenə onun. 1978-1979-cu illər İran inqilabından sonra Cənubi Azərbaycanda milli hütuqlar uğrunda mübarizə. - Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1991; S.Onullahi. Azərbaycan: neft girdabında yaşanan həyat. «Zaman» qəzeti, 1996, N6, 8, 10-14; N.Nəsibzadə. Bütöv Azərbaycan. Bakı, 1997; yenə onun. İranda Azərbaycan məsələsi. Bakı, 1997; Q.İlkin. Təbriz

xatirələri. «Azərbaycan» jurnalı, Bakı, 1996, N7-9, 10-12, 1997, N1-2; C.M.Vəkilov. Azərbaycan Respublikası və İran (mədəni əlaqələr). Bakı, 1991; yenə onun 1920-1940-ci illərdə Azərbaycan SSR-in Sovet-İran mədəni əlaqələrində iştirakı. - Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1991; V.K.Mustafayev. Cənubi azərbaycanlıların milli şüuru haqqında bəzi qeydlər. - Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1991; S.Z.Bayramzadə. İran hakim dairələrinin Cənubi Azərbaycan maarifi və mədəniyyəti sahəsindəki siyasəti. - Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1991; Q.Zahidov. Azərbaycanın əbədi səadəti onun bütövlüyündədir. «Azadlıq» qəzeti, 1995, 25 aprel; Ə.Lahrudi. Biz mübarizəni davam etdirəcəyik. «Ayna-Zerkalo» qəzeti, 1995, 2 dekabr; Ə.Nəmini. Muhacirətdə. Bakı, 1992; Azərbaycan – İran münasibətləri. Ümummilli qəzetlərin monitorinqi. Bakı, 1996; və s.

10. M.Qasımov. Beynəlxalq münasibətlərdə Azərbaycan məsələsi. Bakı, 1993.

11. R.Rossow. The Battle of Azerbaijan, 1946. – The "Middle East", Journal, Wash. 1956, N 1; Ghobad Irani, R.American Diplomacy: An Option Analysis of the Azerbaijan Crisis, 1945-1946. International Studies, 1978; W.Louis. The British Empire in the Middle Eost 1945-1951. Oxford, 1984; D.Nisman. The Soviet Union and Iranian Azerbaijan: The uses of Nationalism for political penetvation& Boulder: Westview, 1987; J.Bamberg. The History of the British petroleumCompany. The Anglo-Iranian years, 1928-1954. Cambridge, 1996; T.Swietochowski. Russia and Azerbaijan. A.Borderland in Transition. New York, 1995; F.Azimi. The crisis of Democvacy. London, 1989; Luice Estrange - Faweett. Iran and the Cold War: The Azerbaijan Crisis of 1946. Cambridge. 1992.

12. David Nissman. The Two Azerbaijans: A&Common past a Common Future. - Caspian Crossvoads, 1995, N 2. p. 20-24.
13. T.Swietochowski. Rassia and Azerbaijan, p. 148.
14. Touraj Atabaki. Azerbaijan: Ethnicity and Autonomy in Twentieth - Centure Iran. London, 1993, p.63-178.
15. J.Bamberg. The History of the British Petroleum Company. The Anglo-Iranian years, 1928-1954, p.

## II. Güney Azərbaycan azadlıq hərəkatı: Səttarxandan-Xiyabaniyə doğru

1. M.Ə.Rəsulzadə. Əsərləri, 1-ci çild, B.992, s.303-304.
2. Bax: Azərbaycan Respublikası MDYTA f.13, s.71, i.212, v.32.
3. Bax: "İran" qəzeti, 1996, 22 fevral.
4. Yenə orada, 23 fevral.
5. Azərbaycan Respublikası, MDYTA, f.894, s.10, i.141, v.4.
6. M.C.Pişəvəri. Seçilmiş əsərləri, B.1984, s.261.
7. "İran" qəzeti, 1996, 24 fevral.
8. Bax: Yenə orada.
9. "Tərəqqi" qəzeti, 1909, 28 may.
10. "Tərəqqi" qəzeti, 1909, 29may.
11. Yenə orada.
12. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.9, v.63.
13. Ali Azeri. Azadıstan devleti ve Şeyh Mühammed hiyabani. Ankara, s.8.
14. Yenə orada, s.18.
15. Azərbaycan Respublikası, SPİHMDA f. 1, s.89, i.67, v.59.
16. M.C.Pişəvəri. Seçilmiş əsərləri, B.1984, s.415.
17. Azərbaycan Respublikası, MFYTA, f.28, s.1, i.178, v.125.

18. Azərbaycan Respublikası, MDYTA, f.28, s.12, i.89, v.56-52.

19. Ş.M.Xiyabani. Azərbaycan və Azərbaycan demokratiyası, B.1961, s.9-10.
20. S.Ə.Kəsrəvi. Azərbaycanın on səkkiz illik tarixi. Tehran, s.873.
21. Azərbaycan Respublikası, MDYTA, f.28, s.1, i.172, v.140.
22. Yenə orada, v.160.
23. Ali Azeri. Göstərilən əsəri, s.266.

## III. Güney Azərbaycan Sovetlərin hərbi-strateji planlarında

1. Bax: Sovetsko-İranskie otnoşenin v doqovorax, konvenцiях i soqlaşeniях.M; 1946, s.75-77.
2. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.108, v.61.
3. Yenə orada.
4. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.108, v.27.
5. Yenə orada, i.108, v.62.
6. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.18, v.32.
7. Azərbaycan Respublikası, SPİBMDA, f.1, s.89, i.67, v.23.
8. Yenə orada, i.108, v.22.
9. Bax: Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.2, v. 124-135.
10. Azərbaycan Respublikası, SPİKMDA, f.1, s.89, i.18, v.10.
11. Yenə orada, i.73, v.ZZ.
12. Voenno-qeoqrafiçeskoe opisanie İranskoqo Azerbaйdjana, M.1940, s.6.
13. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.9, v.36.
14. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.18, v.11.
15. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.18, v.11.

16. Yenə orada, i.9, v.17.
17. Yenə orada, i.18, v. 12.
18. Yenə orada, i. 18, v. 12.
19. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s. 162, i.28, v.7.
20. Yenə orada, i.18, v. 17.
21. Юjnıi (İranskiй) Azerbaйdjan. Tbilisi, 1942, s.76.
22. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.2, v.38.
23. Yenə orada, v.39.
24. Yenə orada, v. 135.
25. Yenə orada.
26. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.ba, v. 1-206.
27. Azərbaycan Respublikası, MDYTA, f.13, s.71, i.212, v.5.
28. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.23, v.1-216.
29. Azərbaycan Resnublikası, SPİHMDA, f.1, s.89, i.18, v.ZZ.
30. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.89, v. 1-236.
31. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.33, v. 1-269.
32. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.67, v.75.

### IV. Sovetlərin İrana müdaxiləsi və Güney Azərbaycanda möhkəmlənməsi (avqust-dekabr 1941)

1. Y.N.BAMBERG. The history of the British petroleum Company. CAMBRİD UNIVERSİTY PRESS. 1994, r.236.
2. Переписка председателя Совета Министров СССР с президентом США и премьер министром

Великобритании во время Великой Отечественной войны, II том, М. 1976, с.18.
3. Azərbaycan Respublikası SPİHMDA, f. 1, s. 89, i. 3, v. 31.
4. Azərbaycan Respublikası SPİHMDA, f. 1, s. 89, i. 3, v. 36.
5. Yenə orada, v.39.
6. Azərbaycan Respublikası SPİHMDA, f. 1, s. 89, i. 2, v. 19.
7. Yenə orada, i. 2., v. 14.
8. Azərbaycan Respublikası SPİHMDA, f. 1, s. 89, i. 1, v. 1.
9. Yenə orada, v. 2
10. Azərbaycan Respublikası SPİHMDA, f. 1, s. 162, i. 30, v. 6.
11. Azərbaycan Respublikası SPİHMDA, f. 1, s. 89, i. 1, v. 3.
12. Yenəorada, v. 13-16.
13. Yeiə orada, i.10, v.26.
14. Yenə orada, i.5, v.42.
15. Yenə orada, v.75.
16. Azərbaycan Respublikası SPİHMDA, f. 1, s. 89, i. 10, v. 32.
17. Azərbaycan Respublikası SPİHMDA, f. 1, s. 89, s.162, i.28,v.1.
18. Yenə orada, v. 14-18.
19. Yenə orada, v.19.
20. Yenə orada, i.30, v.14.
21. Azərbaycan Respublikası SPİHMDA, f.28, s.4, i. 2, v. 55.
22. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i. 35, v. 9.
23. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i. 17, v. 1.
24. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i. 4, v. 1.
25. Azərbaycan Resplikası, SPİHMDA, f.1, s.89, i.1, v. 17.

26. Yenə orada, i.1, v.32-34.
27. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.179, i.7, v.33-87.
28. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.4, v.1.
29. Yenə orada, v.3.
30. Yenə orada, i.1, v. 18.
31. Yenə orada, i.6, v.23.
32. Yenə orada, i.126, v. 16.
33. Yenə orada, i.2, v.79-81.
34. Yenə orada, i.10, v.8.
35. Bax: Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.4, v.33-45,
36. Yenə orada, v.39.
37. Yenə orada, v.40.
38. Yenə orada, v.41.
39. Yenə orada, v.44.
40. Yenə orada, v.ZZ.
41. Azərbaycan Respublikası, SPİHMDA, f.y, s.89, i.39, v.42.
42. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.1,v.21.
43. Yenə orada, i.4, v. 148.
44. Yenə orada, i.14, v.34.
45. Yenə orada, i.14, v.88-90.
46. Yenə orada.
47. Yenə orada, i.4, v. 100.
48. Yenə orada, v. 148.
49. Yenö orada, i.10, 9-11.
50. Bax: Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.4, v.89-95.
51. Yenə orada, v.91-92.
52. Yenə orada, i.85, v.4.
53. Yenə orada, i.4, v.93.
54. Yenə orada, i.10, v. 130.
55. Yenə orada, v. 137-138.
56. Bax: Azərbaycan Respublikası, SPIIU1DA, f. 1,

s.89,i.1, v.18-31.

57. Yenə orada, v.31.
59. Bax: Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.40, v.28, 34.

## V. 42-ci ilin tərəddüdləri

1. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.35, v.2.
2. Yenə orada.
3. Yenə orada, v.5.
4. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.2, v.52.
5. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.56, v.2-3.
6. Yenə orada, i.1, v.36-37.
7. Yenə orada, v.37.
8. Yenə orada, i.43, v.15.
9. Yenə orada, v.14.
10. Yenə orada, i.35, v.1.
11. Yenə orada, v.6-7.
12. Yenə orada, i.38, v.27.
13. Yenə orada.
14. Yenə orada, v.28.
15. Yenə orada.
16. Yenə orada, v.Z.
17. Yenə orada.
18. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.40, v.28.
19. Yenə orada, v.35.
20. Yenə orada, v.34.
21. Yenə orada, v.36-37.
22. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.2, v.36.
23. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.40, v.37.
24. Yenə orada, v.38.

25. Yenə orada, v.40.
26. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i. 69, v. 1-2.
27. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.14, v.22-30.
28. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i. 45, v.15.
29. Yenə orada, i.14, v.30.
30. Yenə orada, v. 15.
31. Azərbaycan Respublikası, MDYTA, f. 28, s.4, i.2., v.47.
32. Yenə orada, v.48.
33. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.35, v.14.
34. Yenə orada, v. 15.
35. Azərbaycan Respublikası, SPİHMDA, f. 1, s.89, i. 39., v.26.
36. Azərbaycan Respublikası, MDYTA, f. 28, s.4, i.2., v.48-49.
37. Yenə orada, v.50.
38. Yenə orada, v.38.
39. Yenə orada, v.50.
40. Yenə orada, v.51-52.
41. Azərbaycan Respublikası, SPİHMDA, f. 1, s.89, i.38, v.53.
42. Yenə orada, v.53-54.
43. Yenə orada, v.54.
44. Azərbaycan Respublikası, SPİHMDA f. 1, s.89, i. 38, v.36.
45. Yenə orada, v.55.
46. Yenə orada, v.55.

**VI. Təbrizdə diplomatik missiyalar**

1. Azərbaycan Respublikası, SPİHMDA, f. 1, s. 89, i. 39, v.46.
2. Yenə orada, v. 61.
3. Yenə orada.

4. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.19, v.67-68.
5. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.73, v.54.
6. Yenə orada, i.70, v.2.
7. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.19, v.68.
8. Yenə orada.
9. Yenə orada.
10. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.73, v.53.
11. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.2, v.49.
12. Yenə orada, v.47.
13. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.19, v.81.
14. Yenə orada, v.48.
15. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.19, v.72-73.
16. Yenə orada, v.74.
17. Yenə orada, v.70.
18. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.2, v.50.
19. Yenə orada, v.51.
20. Yenə orada, i.19, v.74.
21. Yenə orada, v.77.
22. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.73, v.54.
23. Yenə orada, i.70, v.Z.
24. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.19, v.83.
25. Azərbaycan Resiublikası, SPİHMDA, f.1, s.89, i.82,v.5.
26. Yenə orada.
27. Yenə orada, i.73, v.55.
28. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.19, v.70.
29. Yenə orada, v.95.

30. Yenə orada, v.89.
31. Yenə orada, v.90.
32. Yenə orada, i.2, v.55.
33. Teqeran-Yalta-Postdam. Sb.dok. M, 1971, s.99-100.

## VII. Təbrizdə İşlərin yenidən başlanması

1. Bax: Y.N.BAMBERG. The history of the British Petroleum Cambridge 1994, r.242-243.
2. Azərbaycan Respublikası SPİHMDA, f.1, s.89 i.77, v. 1.
3. Yenə orada, v. 16.
4. Yenə orada, v.28-29.
5. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i.19 v.65-66.
6. Azərbaycan Respublikası, SPİHMDA f. 1. s. 89, i.74, v.73-75.
7. Azərbaycan Respublikası, MDYTA, f.28, s.4, i. 19, v.67.
8. Yenə orada, i.2, v. 149-150.
9. Yenə orada, i.19, v. 43.
10. Yenə orada, v.45.
11.Yenə orada, v.156.
12. Azərbaycan Respublikası, SPİHMDA f.1, s. 89, i.85, v.1-7.
13. Yenə orada, v.9-13.
14. Yenə orada, v.22.
15. Yenə orada, i.73, v.22.
16. Güney Azərbaycandakı partiya və cəmiyyətlər haqqında geniş məlumat üçün. Bax:M.M.Çeşmazər. Azərbaycan Demokrat Partiyasının yaranması və fəaliyyəti. Bakı, 1986, s.16-25.
17. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i. 73, v. 73.
18. Yenə orada, v.72.
19. Yenə orada, v.73.

20. Yenə orada, v.74.
21. Yenə orada, v.76-77.
22. Qızıl səhifələr. Təbriz, 1946, s. 31.
23. Azərbaycan Respublikası, SPİHMDA, f. 1, s. 89, i. 84, v. 1-5.
24. Yenə orada.
25.Yenə orada, v.11.
26. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.129, i.80, v.2-3.
27. Azərbaycan Respublikası, SPİHMDA, f.89, s.220, i.49, v.4.5.
28. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i.84, v.54.
29. Azərbaycan Resnublikası, SPİHMDA, f.1, s.129, i.80, v.4-5.
30. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.129, i. 80, Prot. №356, v.1-4.
31. Yenə orada, Prot. № 352, v.2.
32. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s. 129, i. 62, v. 330.
33. Azərbaycan Respublikası, SPİHMDA, f.1, s.89, i. 81, v. 131.
34. Azərbaycan Respublikası SPİHMDF, f.1, s. 89, i. 81, v. 131.
35. Yenə orada.
36. Yenə orada, v. 132.
37. Yenə orada, v. 133.
38. Yenə orada, v. 134-136.
39. Azərbaycan . Respublikası MDYTA F. 411, s. 25, i. 407, v. 58.
40. Yenə orada, v. 65, 90 - 92, 107, 110.
41. Azərbaycan Respublikası SPİBMDA f. 1, s. 169, i. 129, v. 4.
42. Azərbaycan  Respublikası MDYTA F. 411, s. 25, i. 407, v .65.
43. Azərbaycan Respublikası SPİHMDA f. 1, s. 129, i. 80, Prot. № 363, v. 8.

44. Azərbaycan Respublikası. SPİHMDA f. 1, s. 189, i. 101, v. 58.
45. Azərbaycan Respublikası. SPİHMDA f. 1. s. 89, i. 71,v.7.
46. Azərbaycan Respublika, SPİHMDA f. 1, s. 89, n.79, v. 7
47. Yenə orada, v. 30.
48. Azərbaycan Rsspublikası. SPİHMDA f. 1, s. 89, i. 71, v. 2.
49. Azərbaycan Respublikası, SPİHMDA f. 1, s. 89, i. 74, v. 19-20.
50. Yenə orada, v. 16.
51. Azərbaycan Respublikası, SPİHMDA f.1, s. 89, i.81, v. 137-140.
52. Yenə orada, i. 80, v. 31-32.
53. Yenə orada, v. 33.
54. Azərbaycan Respublikası SPİHMDA f. 1, s. 89, i. 71, v. 20.
55. Azərbaycan Respublikası MULQA f. 28, s. 4, i. 20, v. 144.
56. Bax: Azərbaycan Respublikası SPİHMDA f. 1, s. 89, i. 80, v. 53-62.
57. Azərbaycan Respublikası MUYTA f. 411, s. 25, i. 407, v.7
58. Azərbaycan Respublikası MUYTA f. 411, s. 25, i. 407, v. 11-12.
59. Azərbaycan respublikası SPİHMDA f. 1, s. 89, i. 80, v. 14.
60. Azərbaycan respublikası SPİHMDA f. 1, s. 89, i. 72, v. 46-48, 55-56.
61. Yenə orada, i. 74, v. 34.
62. Azərbaycan respublikası SPİHMDA f.1, s.89, i. 72, v.72.
63. Yenə orada, v. 94.
64. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.72, v.201
65. Yenə orada, v.205.

66. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.72, v.94.
67. Yenə orada, v.94-95
68. Yenə orada, v.95
69. Yenə orada, v.96
70. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.74, v.49-53
71. Azərbaycan Respublikası SPİHMDA f. 1, s.89, i. 72, v. 139-146
72. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.72, v.49.
73. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.71, v.3.
74. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.63, v.36-38.
75. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.71,v.5.
76. Yenə orada, v.8.
77. Yenə orada, v.9.
78. Yenə orada, v.14.
79. Yenə orada, v. 16.
80. Yenə orada, v.20.
81. Yenə orada, v.21-22.

82. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.74, v.57-58.
83. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.89, v.2.
84. Yenə orada, v.25.
85. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.74, v.58.
86. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.101, v. 1-219.
87. Yenə orada, v. 106-115.
88. Yenə orada, i.78, v.7
89. Yenə orada, v.37
90. Bax: Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.78, v.29-34.
91. Yenə orada, v.18

92. Azərbaycan Resnublikası SPİHMDA f.1, s 89 i.71, v.23-27.
93. Azərbaycan Respublikası SPİHMDA f.1, s. 129 i.80, prot.№ 395, prot № 404.

## VIII. Neft uğrunda mübarizə və S.Kavtaradzenin Tehran səfəri

1. Azərbaycan Respublikası SPİH.MDA f. 1, s.89, i.77, v.180
2. "Deyli Nyus", 1944, 27 iyul
3. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.73, v. 169-170
4. Azərbaycan Respublikası SPİHMDA f. 1, s.89, i.77, v. 153-162
5. Bax: "Toufik", 1944, 19 iyul
6. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.73, v.158-161.
7. Yenə orada, v. 161
8. Yenə orada, v. 166
9. Yenə orada, v. 166
10. Yenə orada, v. 174
11. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.77, v.50
12. Britaniya kompaniyasının İrandakı fəaliyyəti haqda: Bax: R.Y.Ferer. Britiş Petrelium Kompanisinin tarixi. Kembric, 1982; C.X.Bamberq. Britiş Petrelium Kompanisinin tarixi.
Cild 2. İngiltərə - İran Konsesiyası illəri. Kembric, 1996; Berri Ritçi. Neft sənayesi dünyasının portreti. Bi-Pinin illüstrativ tarixi. Ceyms-Ceyms, 1995; və s.
13. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.77, v.60-61
14. "Dəmavəvd", 1944, 23 iyul
15. "Fərda", 1944, 25 iyul
16. "İran ma", 1944, 17 iyul

17. “Darya”, 1944, 17 iyul
18. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.77, v.44. "Ettelavt", 1944, 20 sentyabr
19. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, Azərbaycan Respublikası SPİHMDA f.1, s.89,
20. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.77, v.66
21. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.77, v.62
22. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.77, v.62
23. "Rəstaxiz", 1944, 26 sentyabr
24. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.77, v.30-43
25. Yenə orada, v.44-45
26 Yenə orada, v.46.
27 "Eqqelaat", 1944, 4 oktyabr
28 "Vəzife", 1944, 3 oktyabr
29 "Əxtər", 1944, 6 oktyabr
30 "Rəstaxiz" 1944, 27 sentyabr
31. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.77, v. 68
32. Yenə orada
33. Yenə orada, v.69
34 "Setare", 1944, 22 oktyabr
35. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.77, v.70

## IX. Güney Azərbaycanda etiraz dalğası və Tehranda hökumət böhranı

1. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89,
2. Azərbaycan Respublikası SPİKMDA f.1, s.89,
3. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.108, v.69.

4. Yenə orada, v.73
5. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.92,
v.2-121.
6. Yenə orada, v. 14
7. Yenə orada, v. 108.
8. Yenə orada, v.65-66
9. Bax: H.Həsənov İran Azərbaycanı fəhlələrilin öz azadlığı və ölkənin istiqlaliyyəti uğrunda mübarizəsi. Bakı, 1959, s.30-43; M.M.Çeşməzər. Azərbaycan Demokratik Partiyasının yaranması və fəaliyyəti. s.38-41.
10. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.108, v.81
11. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.92, v. 14-15.
12. Azərbaycan Respublikası SPİHMDA f.1, s. 89, i.108, v.81
13. Yenə orada, v.62
14. Yenə orada, v.67-68
15. Yenə orada, v.70
16. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89,
i.74, v.71-72
17. Azərbaycai Respublikası SPİHMDA f.1, s.89, i.74,
v.79-80
18. Azərbaycan Respublikası MDYTA f.28, s.4, i.17, v.9
19. Yenə orada, v.20
20. Azərbaycan Respublikası MDYTA f.28, s.4, i.2, v.134
21. Azərbaycan Respublikası MDYTA f. 28, s.4, i.17, v.25
22. Azərbaycan Respublikası SPİHMDA f. 1, s.89, i.74, v.80
23. Azərbaycan Respublikası MDYTA f.1, s.4, i.17, v.16-17
24. "Dusteİran", 1944, Pdekabr
25. "Pravda", 1946, 11 iyul.
26. "Raad", 1944, 20dekabr

27. Azərbaycan Respublikası MDYTA f.28, s.4, i.20, v.155.
28. "Raad" 1944, 20 dekabr.
29. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.73, v.7
30. Azərbaycan Respublikası MDYTA f.28, s.4, i.20, v.160-161
31. "Raad", 1944, 20dekabr
32. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.73, v.13
33. "Pravda", 1945, 26 yanvar.
34. Azərbaycan Respublikası MDYTA f.28, s.4, i.20, v.179
35. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.108, v.82
36. Yenə orada, v.83
37. Yenə orada
38. Yenə orada, v-84
39.Yenə orada, v.85
40. Yenə orada, v.86
41. Yenə orada, v.84

## X. Təbriz: Yanvar - Mart 1945-ci il

1. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.82, v.21.
2. Doktor T.Ərani haqqında ətraflı məlumat üçün bax: N.Cahanşahlı. "Böyük alim və demokrat" - "Azərbaycan" jurnalı 1946, № 10.
3. "Azad", 1944, 23 may.
4. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.69-70.
5. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.94, v.1-61.
6. Yenə orada, v. 1-2.
7. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.108, v.39.

8. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.94, v.13.
9. Yenə orada, v. 57.
10. Azərbaycan Əyalət Komitəsinin rəhbərliyinə seçilən şəxslər haqqında geniş məlumat üçün bax: Azərbaycan Respublikası SPİHMDA f,1, s.89, i.85, v.1-61.
11. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.91, v.193-194.
12. Azərbaycan Respublikası SPİHMDA f.1, s.220, i.48, v.161.
13. Yenə orada v.6-7; Güney Azərbaycandan gələn tələbələrin siyahısı üçün bax: Azərbaycan Respublikası SPİHMDA f.1, s.220, i.48, v. 11-12.
14. Azərbaycan Rssiublikası SPİHMDA f.1, s.89, i.91, v.1.
15. Yenə orada, v.5.
16. Azərbaycan Respublikası SPİBMDA f.1, s.206, i.2, v.27-28, 200.
17. Bax: Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.59.
18. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.92, v.229.
19. Bax: "Azərbaycan", 1945, № 1, s.46-47.
20. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.107, v.97.
21. Azərbaycan Respublikası SPİHMDA f. 1, s.230, i. 4, Prot. №20, v.146.
22. Azərbaycan Respublikası SPİHMDA f.1, s.220, i.48, v.125.
23. Yenə orada, v. 127.
24. Yenə orada, v. 119.
25. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.106, v.1.
26. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i. 107, v. 102.
27. Yenə orada, v. 98.

28. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.5.
29. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.3.
30. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.7.
31. Yenə orada, v.89.
32. Yenə orada, v. 17.
33. Yenə orada, v. 11.
34. Yenə orada, v. 10.
35.Yenə orada, v. 11-12.
36. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.1-2

## XI. Avropada müharibənin sonu və Şeyxülislamın xeyir-duası

1. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.105, v.46
2. Yenə orada, v.32.
3. Yenə orada, v.33-34.
4. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.101, v.72-73.
5. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.176.
6. Yenə orada, v. 178.
7. Yenə orada
8. Yenə orada, v. 179-180.
9. Oral Sander. Siyasi Tarih. 1918-1994. Ankara, 1994, s. 215-216.
10. Azərbaycan Respublikası SPİHMDA f. 1, s. 89, i.95, v.183
11. Yenə orada, v.184.
12. Bax: Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.22-43.
13. Azərbaycan Respublikası SPİHMDA f. 1, s. 89, i. 91, v.83.
14. "İrane ma", 1945, 25 may.

15. "Xavəre Nou", 1945, 26 may.
16. Azərbaycan Respublikası SPİHMDA f. 1, s. 89, i.91, v. 85.
17. Azərbaycan Respublikası SPİHMDA f. 1, s. 89, i.95, v. 28.
18. Yenə orada, v.30.
19. Yenə orada
20. Yenə orada, v.32.
21. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.105, v.29.
22. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.35.
23. Yenə orada, v.36.
24. Yenə orada, v.38.
25. Yenə orada, v.39-40.
26. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.91, v.88.
27. "İrane ma", 1945, 7 iyun.
28. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.91, v.88.
29. "Dad", 1945, 5 iyun.
30. İrane ma", 1945, 7 iyun.
31. "Mozəffər", 1945, 9 iyun.
32. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.105, v.29-30.
33. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.91, v.94.
34. Yenə orada, v.95-96.
35. Yenə orada, v. 113-115.

### XII. 1945-ci ilin yayı: Moskvanın qərarları və Güney Azərbaycan

1. Azərbaycan Respublikası SPİHMDA f. 1, s.89, i.105, v.18.
2. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.108, v.1-21.

3. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.106,
v.8-10.
4. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.6-8.
5. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.104, v.1.
6. Yenə orada, v.2.
7. Yenə orada. v.3.
8. Yenə orada, v.5.
9. Yenə orada, v.35.
10. Yenə orada, v. 97-98.
11. Yenə orada, v. 103-104.
12. Azərbaycan Respublikası SPİHMDA f. 1, s. 89, i.101, v.96-98.
13.Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.4.
14. Yenə orada, v.4-5.
15. Yenə orada, v.5.
16. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.107, v.59.
17. "Pravda", 1945, 6 iyul.
18. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.105, v.12-13.
19. Yenə orada, v. 14.
20. Yenə orada, v. 15.
21. "Ettelaat", 1945, 19 iyul.
22. "Pravda", 1945, 19 avqust.
23. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.16.
24. Yenə orada, v.9.
25. Yenə orada, v.9-10.
26. Azərbaycan Respublikası SPİHMDA fL, s.220, i.48, prot. № 437, v.73-74.
27. "Azərbaycan", 1945, Avqust, № 01, s.2-57.
28. "Azərbaycan", 1945, oktyabr, № 3, s.11.
29. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.106,
v.3-5.
30. Yenə orada, v.6.

31. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.19.
32. Yenə orada, v.67.
33. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.59.
34. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.107, v.121.
35. Berlinskaя (Potsdamskaя) konferenciя rukovoditeleй trex soюznıx derjav – SSSR, SŞA i Velikobritanii
(17 iюlя - 2 avqusta 1945 q.). Sbornik dokumentov. Moskva, 1984, s.323-324.
36. Yenə orada, s. 155-156.
37. Yenə orada, s.443.

**XIII. Demokrat Firqəsinin yaranması və muxtariyyət ideyası**

1. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.91,
v. 171-172
2. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.32
3.Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.70
4. Yenə orada, v.71.
5. Yenə orada, v.165
6. Touraj Atabaki. Azerbaijan. Ethnicity and Autonomy in Twentieth-Century İran. London, 1993, p. 84.
7. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.91, v.168
8. Yenə orada, v. 169.
9. Azərbaycan Respublikası SPIIMDA f.1, s.89, i.95, v.104.
10. Yenə orada, v. 104-105
11. Yenə orada, v. 104.
12. Yenə orada, v. 109.
13. Yenə orada, v. 109-110.

14. T.Swietochowski. Rassia and Azerbaijan. A Borderland in Transition and New York. 1995, p.14.
15. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.97, v.149
16. "Azərbaycan", 1946, sentyabr, N 9, s.23.
17. Yenə orada, s.23.
18. T.Swietochowski. Rassia and Azerbaijan r.142.
19. Azərbaycan Demokrat firqəsinin müraciətnaməsi. Təbriz, 1945.
20. M.M.Çeşmazər. S.C.Pişəvərinin Azərbaycan Demokrat Partiyasının və Azərbaycan Milli hökumətinin yaranması uğrunda mubarizədə rolu haqqında - Cənubi Azərbaycan tarixi məsələləri. Bakı, 1991, s.30.
21. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.91,v.137.
22. Yenə orada, v. 138
23. "Azərbaycan", 1945, 5 sentyabr.
24. Yenə orada.
25. Azərbaycan Respublikası SPİHMDA f. 1, s.89, i.95, v.66
26. Yenə orada, v.67.
27. Yenə orada, v.67-68
28. Yenə orada, v. 107
29. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.20-21
30. "Azərbaycan", 1945, 8 sentyabr.
31. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.120, v.64.
32. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.67.
33. "Azərbaycan", 1945, 5 sentyabr.
34. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.22.
35. Yenə orada, v.24.
36. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.34

37. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.156
38. Yenə orada, v. 199.
39. Yenə orada, v.200.
40. Yenə orada, v.202.
41. Yenə orada, v. 159
42. Yenə orada, v.159
43. Azərbaycan Respublikası SPİKMDA f.1, s.89, i.91,v.39
44. Azərbaycan Respublikası SPİKMDA f.1, s.89,
i.90, v.35.
45. Yenə orada, v. 35
46. Yenə orada, v.36.
47. "Kişvər" qəzeti 1945, 12 sentyabr
48. Azərbaycan Respublikası SPİHMDA f. 1, s.89, i.95, v.169.
49. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.169
50. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.37
51. "Azərbaycan" qəzeti, 1945, 28 sentyabr
52. Azərbayçan respublikası SPİHMDA f.1, s.89, i.90, v.38
53. Yenə orada, v.40.
54. "Sədai İran" qəzeti, 1945. 24 sentyabr
55. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v. 189-190.
56. Yenə orada, v. 174-175
57. Yenə orada, v. 181.
58. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89,
i. 121,v.7-9
59. Azərbaycan Respublikası SPİHMDA f. 1, s.89,
i.95, v.198
60. 25. Yenə orada, v 208-209.
61. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89,
i.120, v.64.
62. ADP-nin profam və Nizamnaməsi ilə bağlı daha ətraflı bax: M.M.Çeşmazər. Azərbaycan Demokrat

Partiyasının yaranması və fəaliyyəti, s.60-70; Touraj Atabaki. Azerbaijan. Ethnicity and Autonomy in Twentieth - sentury İran. r. 108-110; Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.109, v.3-13.
63. "Azərbaycan" qəzeti, 1945, 5 oktyabr
64. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.97, v.153.
65. "Azərbaycan " qəzeti, 1945, 4 oktyabr.
66. Yenə orada
67. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.203-205; Bax:
68. Touraj Atabaki. Azerbaijan. r. 117-124.
69. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.97, v. 158-160.
70. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.98, v. 94-95.
71. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.236.
72. "Azərbaycan" qəzeti, 1945, 26 oktyabr.
73. "Mozaffər" qəzeti, 1945, 29 oktyabr
74.Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.95, v.238-239.
75. M.C.Pişəvəri. Seçilmiş əsərləri. Bakı, 1984, s.331-332.
76. Azərbaycan Resnublikası SPİHMDA f.1, s.89, i.121, v.4.
77. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.96, v.140
78. Yenə orada, v. 141-142.
79. Yenə orada v. 142-143.
80. Azərbaycan Resiublikası SPİHMDA f.1, s.89, i.107, v.55
81. Azərbaycan Respublikası SPİHMDA f. İ, s.89, i. 97, v. 165-166.
82. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.107, v.55.
83. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.97, v.165.

84. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.101, v.133.
85. Yenə orada, v 141.
86. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.107, v.54.
87. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, v.216.
88. Yenə orada, v.220-221.
89. Yenə orada, v 219.
90. Azərbaycan Resnublikası SPİHMDA f.1, s.89, i.120, v.212.
91. "Azərbaycan" qəzeti, 1945, 10 dekabr.

## XIV. Güney Azərbaycan: 21 Azərin astanasında

1. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.96, v.30
2. Yenə orada, v.31.
3. Yenə orada
4. Yenə orada, v.32.
5. Yenə orada, v.40.
6. Yenə orada, v.34.
7. Azərbaycan Resiublikası f.1, s.89, i.97, v. 169.
8. Yenə orada, v. 171,
9. Yenə orada
10. Yenə orada, v. 172
11. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.96, v.159.
12. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.101, v.148.
13. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.97, v.233.
14. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v. 111-113.
15. "Azərbaycan" qəzeti, 1945, 23 noyabr.

16. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90,
v. 101-102.
17. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.79.
18. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.96, v.9.
19. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v.78.
20. Yenə orada, v.60-62.
21. Yenə orada, v.65.
22. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.96, v.121.
23. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i. 101.
v. 160; i.90, v. 144-145, 189-190
24. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.96, v.88.
25. Azərbaycan Respublikası SPİKMDA f.1, s.89, i.93, v.6.
26. Yenə orada, v.7.
27. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.96, v.89.
28. Azərbaycan Respublikası SPİKMDA f.1, s.89, i.93, v.8.
29. Yenə orada, v. 11.
30. "Mehre İran" qəzeti, 1945, 21 noyabr
31. "Ettelaat" qəzeti, 1945, 21 noyabr.
32. "Baxtər" qəzeti, 1945, 21 noyabr.
33. "İran" qəzeti, 1945, 22 noyabr.
34. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.93, v.15.
35. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.96,
v.89-90.
36. "Etteaat" qəzeti, 1945, 20 noyabr.
37. "Sərqozəşt" qəzeti, 1945, 22 noyabr
38. "Baxtər" qəzeti, 1945, 21 noyabr.
39. "İrane Nou" qəzeti, 1945, 22 noyabr
40. "Nəsime sabah" qəzeti, 1945, 18 noyabr.

41. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.93, v.20.
42. "Neçate İran" qəzeti, 1945, 20 noyabr
43. "Neçate İran" qəzeti, 1945, 21 noyabr.
44. "İrane Ma" qəzeti, 1945, 20 noyabr
45. "Keyhan" qəzeti, 1945, 22 noyabr
46. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.96, v.120.
47. Yenə orada, v. 122.
48. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.97, v.1, i.101,v.8.
52. Azərbaycan Respublikası SPİKMDA f.1, s.89, i.98, v.42
53. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.97, v.233-234.
54. Azərbaycan Respublikası SPİBMDA f.1, s.89, i.90, v.137
49. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i.90, v. 145-146.
50. Yenə orada, v. 149-151.
51. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i. 101, v. 181.
52. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i. 98, v. 42.
53. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i. 101, v. 233-234.
54. Azərbaycan Respublikası SPİHMDA f.1, s.89, i. 90, v. 137.

**Mündəricat**


I. Giriş…………………………………………...……......... 10

II. Güney Azərbaycan azadlıq hərəkatı: Səttərxandan-Xiyabaniyə oğru........................................... 23

III. Güney Azərbaycan Sovetlərin hərbi-strateji planlarında………………………….............. 37

IV. Sovetlərin İrana müdaxiləsi və Güney Azərbaycanda möhkəmlənməsi (avqust-dekabr1941)…..... 47

V. 42-ci ilin tərəddüdləri……………………………........... 67

VI. Təbrizdə diplomatik missiyalar…………………….......… 84

VII. Təbrizdə İşlərin yenidən başlanması……………….......... 94

VIII. Neft uğrunda mübarizə və S.Kavtaradzenin Tehran səfəri………………….........…. 126

IX. Güney Azərbaycanda etiraz dalğası və Tehranda hökumət böhranı………………...……….... 139

X. Təbriz: Yanvar-mart 1945-ci il……………………......…. 157

XI. Avropada müharibənin sonu və Şeyxülislamın xeyir-duası………………......…………...172

XII. 1945-ci ilin yayı: Moskvanın qərarları və Güney Azərbaycan……………………….....…189

XIII. Demokrat Firqəsinin yaranması
və Muxtariyyət ideyası…………...……………..……..... 210
XIV. Güney Azərbaycan:
21 Azərin astanasında………………...………………… 266
Xülasə (ingilis dilində)……………........…………………... 298
Qaynaqlar…………………………………………………… 303

.

Həsənli Cəmil Poladxan oğlu

GÜNEY AZƏRBAYCAN:
TEHRAN-BAKİ-MOSKVA ARASİNDA
(1939-1945)

"Diplomat" nəşriyyatı

Bakı - 1998

| | |
|---|---|
| Nəşriyyatın direktoru | K.Alıyev |
| Buraxılışa məsul | A.Arabaçı |
| Kompüterdə yığınlar: | S.Bahadurova<br>D.Əlimədətova<br>K.Rəsulova |
| Səhifələyənlər | İ.Rəhimova |
| Texniki redaktor | T.Ağayev |
| Korrektor | S.Səmədova |

Yığılmağa verilmişdir 15.11.97. Çapa imzalanmışdır 04.02.98.
Nəşrin formatı 60x84 1/16. Ofset çapı. Kağız N1
Uçot-nəşr vərəqi
20,4. Sifariş 19. Tirajı 1000. Müqavilə qiyməti ilə.

Ali Diplomatiya Kollecinin "Diplomat " nəşriyyatı.

Bakı 370110.
İnqilab, 135